ANAR

MÜBARİZƏ BU GÜN DƏ VAR

“Elm və təhsil”
Bakı – 2015

Anar. Mübarizə bu gün də var.
Bakı, "Elm və təhsil", 2015, 592 səh.

ISBN 978-9952-8142-6-2

© «Elm və təhsil», 2015

Mübarizə bu gün də var, yarın da,
Mən də onun ən ön sıralarında.

RƏSUL RZA

1935-ildə Rəsul Rza «Çinar» şeirini yazmışdır:

Gecə keçmiş, ulduzlar ağ, göy qara...
Söykənmişəm qocaman bir çinara.
Bir yanımda ömür kimi axır su,
Qaçmış bu gün təbiətin yuxusu.
Hündür çinar budaq atmış, qol atmış,
Öz ömründə çox əsrlər qocaltmış,
Görkəmində qarlı dağlar vüqarı,
Başı bütün ağaclardan yuxarı.
Karvan çəkər göydə qara buludlar,
Çovğun gələr, şaxta kəsər, buz donar.
Xan çinarım əyməz məğrur başını,
Kimsə bilməz Xan çinarın yaşını.
Gecə qara...durdum düşündüm bir az,
Dedim nədən ulu çinar yıxılmaz?
Birdən çinar dilə gəldi, dedi:bax!
Bu torpaqda dərindən kök salaraq,
Hər tərəfə uzatmışam qolumu,
Övladlarım bürüyüb sağ-solumu.
Belə məğrur dayanmağa haqlıyam,
Mən kökümlə bu torpağa bağlıyam.

Bu şeir ədəbiyyatımızda Çinarı vətənin, xalqın, torpağın timsalı kimi mənalandıran ilk şeirdir. Eyni zamanda Rəsul Rzanın iyirmi beş yaşında yazdığı bu şeirdə rəmzi şəkildə sanki onun bütün gələcək ömür yolunun dəqiq və canlı mənzərəsi çəkilmişdir.

Qırx iki il sonra - 1977-ci ildə altmış yeddi yaşındaykən Göyçayda «Çinar ömrü» şeirini yazır:

Nə payızdı,
nə qışdı...
Bir çinar qurumuşdu...
Nə suyunu kəsdilər onun,
nə üstünə kölgə düşdü
Ağac ayaq üstə qurumuşdu.
Çinarın ölüm günü
ilk pöhrəsindən,
ilk yarpağından başlamışdı..
Amma yaşadı ha...
Fırtınada, qasırğada əyilmədi.
Acizlik, qorxu nədir –
Bilmədi.
Yaşadı çinar kimi;
Budaqları çətir-çətir,
Kölgəsi meydan-meydan.
Az da, çox da yaşasaydı
Belə yaşayacaqdı.
Kökü torpağa bağlı
Vüqarlı çinar kimi;
Müdrik babalar kimi.
Getdi səssiz, haraysız.
Təəssüfü, yanğısı gəzdi
Dodaq-dodaq,
Ağız-ağız...
Bir belə çinar ömrü
Olsun, deyirəm ömrüm...
Bir ömür ki, kimsəyə
Əziyyəti dəyməmiş olsun.
Bir ömür ki,
heç kəsə baş əyməmiş olsun.
Bir ömür ki,

həm yoxuşu şərəfli,
həm dözümlü enişi
Bir insan ömrü -
Kişi ömrü, kişi!

Rəsul Rza ömrü yalnız şərəfli, dözümlü, heç kəsə baş əyməmiş kişi ömrü olduğuna görə deyil, həm də dəyişən dövranların, zamanların ərzində öz varlığını, «mən»ini, təməl dəyərlərini qoruyub saxladığı üçün Çinar ömrüdür. İyirmi beş yaşın «Çinar»ından qoca yaşların «Çinar ömrü»nə qədər uzanan, dönmədən, azmadan, sapmadan qət edilmiş bir həyat yoludur. Bu insan və sənətkar ömrünün ilk çılğın gənclik çağıyla müdrik ahıllıq dövrü arasındakı fərq - Çinarın pöhrəsiylə, fidanıyla Ulu Çinar arasındakı fərq kimidir. Çinar pöhrəsi böyüyür, qol-budaq atır, kölgəsi genişlənib meydan olur, amma o dönüb vələsə, palıda, qarağaca çevrilə bilməz. Çinar olub, çinar kimi qalıb qocalır. Lakin pöhrə çinar da, Xan çinar da yarpaqlarından tanınır - yarpaqlarının biçimi eynidir, dəyişmir, körpəliyində də, cavanlığında da, qocalıq çağında da... Bir gün çinar ömrü sona yetir...

Nazim Hikmətin məşhur şeirinə işarə edərək Rəsul Rza yazırdı:

Axtardım ceviz ağacını
Gülhanə parkında.
Quruyub dedilər.
Quruyub o gündən ki,
Nazimi
yer üstündən
yer altına köçürdülər.

Gün gəldi, Rəsul Rzanın da çinarı qurudu.

Amma böyük bir həqiqət də var: Türk şeirində Nazim Hikmətin Ceviz ağacı da, Rəsul Rzanın Çinarı da yaşayır və yaşayacaq.

***

Rəsul Rza Azərbaycan ədəbiyyatına danılmaz yeniliklər gətirmiş, çağdaş şeirimizdə tamamilə yeni bir yol açmış və bu yolla ömrünün sonuna qədər ardıcıl addımlamış şairdir. Təbii ki, bu yolu bəyənmək də olar, bəyənməmək də. Bu zövq məsələsidir. Bu yolu qəbul etmək də olar, etməmək də. Bu da meyl, səviyyə, marağın yönüylə bağlıdır. Bu yolla getmək də olar, getməmək də. Bu da istək və şübhəsiz, bacarıq məsələsidir. Çünki tək istək azdır, bu yolla getməyi bacarmaq da lazımdır.

Hətta bu yolla gedib bu yolla getdiyini inkar etmək də mümkündür. Bu da insaf məsələsidir. Amma istər məzmun zənginliyi, mövzuların üfüq genişliyi, istər forma, vəzn, ritm, intonasiya, obrazlar sistemi, deyim tərzi, söz təzəliyi, ifadə orijinallığı, qafiyələrin, təşbehlərin bənzərsizliyi baxımından Rəsul Rza yaradıcılığının unikallığını ədəbi vicdanı olan heç kəs inkar edə bilməz.

Bu yolda qarşısına çox çətinliklər çıxdı, çox maneələri dəf etməli oldu. Amma vaxt, zaman özü hər şeyi tənzim etdi, tənzim edir və tənzim edəcəkdir.

Yenilik - yenilməzdir. Yalnız üslubda, bədii ifadə vasitələrində deyil, ümumən, ictimai və milli şüurda yenilik. Fikir, düşüncə yeniliyi. Yaşamaq yeniliyi...

Və yenilik yenilməz olduğuna görə onun uğrunda mübarizə də yorulmazlıq, usanmazlıq və dözüm istəyir. Rəsul Rza poeziyasının təməl sözlərindən biri «DÖZÜM» sözüdür. Bu sözü tapıb, «səbr», «təhəmmül» kəlmələrinin yerinə işlədərək kitablarının birinə ad qoyub.Və bu söz ən çox Rəsul Rzaya yaraşır, çünki ömrü boyu zamanın rüzgarına qarşı gedib - «ÜZÜ KÜLƏYƏ» (bu da şeirinin və kitabının adıdır). «Mən torpağam» şeirində yazdığı: «Mən bulağam, tapşırıqla axmıram» - devizinə həmişə sadiq qalıb.

***

Rəsul Rzanın «Çapey» adlı ilk kitabı 1932-ci ildə latın əlifbasıyla nəşr olunmuşdur. (Çapey Çinin Şanxay şəhərində rayonlardan birinin adıdır. 30-cu illərdə yapon işğalçılarının burada törətdikləri vəhşiliklər mətbuatda geniş yer tuturdu. Rəsul Rzanm eyni adlı şeiri də bu hadisələrə həsr olunub, bəzi müasir oxucuların zənn edə biləcəkləri kimi Çapayevə heç bir dəxli yoxdur).

Bundan sonra daha iki kitabı - Qanadlar» (1935) və «Çinar» (1939) adlı şeir topluları da latın əlifbasıyla çap edilmişdir.Və budur, az qala yetmiş ildən sonra şairin «Seçilmiş əsərləri» yenə də latın əlifbasıyla nəşr olunur.

2000-ci il aprelin 29-da - keçən əsrin son ilində - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənabları Rəsul Rzanın 90 illik yubileyinin keçirilməsi və Yubiley Komissiyası yaradılması barəsində sərəncam imzaladı. Komissiyanın qərarıyla nəşr olunan beşcildlik Rəsul Rzanın həm şeir və dramaturji yaradıcılığını, həm də ədəbi-tənqidi məqalələrini, publisist yazılarını, çıxışlarını və xatirələrini əhatə edir. Əlbəttə, Rəsul Rzanın yaradıcılıq irsi qat-qat daha genişdir, amma şairin «Seçilmiş əsərləri»ni toplayarkən onu bir sənətkar kimi ən əhəmiyyətli və ən səciyyəvi örnəklərlə təqdim etməyə çalışdım.

Ömrüm boyu yaddaşımda yaşayan, tez-tez xatırladığım və bir qismini əzbər bildiyim şeirləri, ayrı-ayrı misraları yenidən gözdən keçirib seçərkən çeşidli təəssüratlar alır, müxtəlif düşüncələrə dalırdım.

Bir çox hallarda müşahidə və mülahizələrimi qeyd edirdim. Bu həm yaşı altmış dördü haqlamış bir adamın həyat və sənət təcrübəsiylə müəyyənləşən görüş bucağı idi, həm də yeni əsrin, yeni minilliyin başlanğıcında Vaxtın özünün baxışı idi.

Beləliklə, əvvəl-əvvəl «Seçilmiş əsərlərə» yığcam bir Ön söz kimi düşündüyüm mətn daha əhatəli və geniş alındı. İndiki halında bu mətn tək bir Ön söz olmadı, kitaba çevrildi. Doğ-

rusu atam haqqında daha böyük bir yazı yazmağıma məni bu beşcildliyin redaktoru Arif Əmrahoğlu təhrik etdi və buna görə də ona minnətdaram. Zənn edirəm ki, Rəsul Rza dünyasını tanımaq və dərk etmək üçün onun əsərlərini latın əlifbasıyla mütaliə edəcək yeni əsrin, yeni dövrün oxucusu yazımdan az-çox faydalanacaqdır.

***

Rəsul Rza haqqında yazmaq mənim üçün həm asandır, həm çətin. Rəsul Rza mənim atamdır, doğma, yaxın adam barəsində söylədiyin hər fikir, hər mülahizə, yaradıcılığına verdiyin hər hansı qiymət kiməsə subyektiv, təəssübkeş görünə bilər. İşin bir çətinliyi bundadır.

Məhz bunu nəzərə alaraq, mən yazımda Rəsul Rzanın bu və ya digər əsərinə, həyatının bu və ya başqa məqamına öz tərəfimdən mümkün qədər az qiymət verməyə çalışıram. Ara-sıra bu sayaq yazılara rast gəlirik: kimsə dədəsi-babası haqqında yazdığı xatirələridə o qədər ifrata varır, olanı-olmayanı o qədər şişirdir, xüsusi hünər olmayan işləri elə igidlik örnəyi kimi qələmə verməyə çalışır ki, belə yazıların gerçəkliyinə etibar itir. Bu yolla getməyin naqisliyini və saxtakarlığını bildiyim üçün yalnız olanlara, faktlara, sənədlərə, mətnlərə əsaslanmağa çalışdım. O ki, qaldı Rəsul Rzanın yaradıcılığına və şəxsiyyətinə verilən qiymət, bunu da mən əsasən öz sözlərimlə yox, müasirlərinin, onu bir insan kimi yaxından tanıyan yaxud yaradıcılığını dərindən bilən, duyan adamların fikirləri vasitəsiylə edirəm. Yazımda başqalarından gətirdiyim sitatların bolluğu bununla bağlıdır. Əlbəttə mən bu fikirləri paylaşmasaydım, onları yazımda gətirməzdim. Təbii ki, qətiyyən paylaşmadığım, razı olmadığım fıkirləri - Rəsul Rzanın əsərlərinə qarşı haqsız tənqidləri də sitat gətirirəm. Yazılana pozu yoxdur.

Oxucu ona da diqqət yetirəcəkdir ki, yazımda Rəsul Rzanın şeirlərindən, məqalələrindən gen-bol parçalar verirəm. Bu

da hər hansı bir fikri, mülahizəni onun yaradıcılığının konkret örnəkləriylə təsdiqləmək istəyiylə bağlıdır.

Rəsul Rza haqqında məhz mənim yazmağımın başqa bir çətinliyi ondan ibarətdir ki, şairin həm ömür yolunun çeşidli ayrıntılarına, həm onun yaradıcılığına, həm də bir çox şeirlərin hansı olaylardan, hadisələrdən, düşüncələrdən, ictimai problemlərdən qaynaqlandığını, hansı sətiraltı mənalar daşıdığını bu gün həyatda olan insanlar arasında mənim qədər yaxından bilən yoxdur. Bu da məsələni asanlaşdırdığı qədər qəlizləşdirir.

Son dərəcə dolğun, zəngin, gərgin həyat yaşamış və böyük ədəbi irs qoyub getmiş sənətkarın geniş, əlvan dünyasından hansı məqamları, hansı nöqtələri, hansı mətləbləri seçib üstündə durasan?

Təbii ki, bir yazıda Rəsul Rzanın həyatını, yaradıcılığını bütövlükdə deyil, heç qismən də əhatə etmək olmaz. Odur ki, mən şair və şəxsiyyət kimi XX əsr Azərbaycan tarixində, ədəbiyyatında, mənəviyyatında təkrarsız Rəsul Rza fenomeninin yalnız bir neçə, zənnimcə ən önəmli tərəfləri üzərində dayanacam.

Üzərində duracağım mətləbləri, məqamları müəyyən məntiqi ya xronoloji ardıcıllıqla, Rəsul Rza ömrünün və yaradıcılığının dövrləri, mövzuları əsasında düzərək sistemləşdirməyə çalışsam da, yazım müəyyən qədər pərakəndəlik, dağınıqlıq, mozaika təsiri bağışlaya bilər. Amma yazının müəyyən sərt qəliblərə tabe olmaması həm də onun janrıyla - düşüncə - esse janrıyla bağlıdır: bu ədəbi tür çox vaxt yalnız anımların-assosiasiyaların ardıcıllığına əsaslanaraq sərbəst şəkildə mətləbdən mətləbə, mövzudan mövzuya, dövrdən-dövrə keçməyə imkan yaradır.

Ümidliyəm ki, bu yazıyla sonacan səbrlə tanış olan oxucunun küll halında Rəsul Rzanın şair və insan obrazı haqqında, ailəsi, həyat yoldaşı şairə Nigar Rəfibəylinin taleyi haqqında, atamın yaşadığı mühit, şərait, cəmiyyət haqqında, rastlaşdığı çətinliklər, qarşısına çıxan anlaşılmazlıqlar və onları necə dəf etməsi barədə, ömrü boyu daşıdığı «anlamaq dərdi» barədə bitkin təsəvvürü olacaq...

Bu yazını yazmağım bir də atamın iki tövsiyyəsi, iki istəyi ilə bağlıdır. Biri bilavasitə mənə şamil edilməyib, tamamilə başqa münasibətlə şeirlərinin birində söylədiyi fikirdir:

«Danış, bir oğul yaxşı ad qoymuş atasından, bir övlad mehriban anasından danışan kimi»;

İkincisi - bir dəfə şəxsən mənə dediyi sözlərdir. Yadımda deyil, hansısa məqaləm xoşuna gəlmişdi və mənə: - istəyirəm ki, mənim haqqımda sən bir yazı yazasan - demişdi.

Özümü heç cür bağışlamıram ki, atamın bu istəyini sağlığında yerinə yetirə bilmədim. İndi, çox gec də olsa bu yazımla borcumu ödəməyə çalışıram.

***

Rəsul Rza 1910-cu il may ayının 19-da kiçik əyalət şəhəri Göyçayda Mirzə İbrahim Məmmədxanlı və Məryəm xanımın ailəsində dünyaya gəlmişdir. Dörd bacının (ondan böyük Kubra, Sara və ondan kiçik Surə, Turə) yeganə qardaşı olmuşdur. Əsilləri Çiyni kəndindən olan Məmmədxanlılar nəsli Bayat qəbiləsinin Şahsevənlər tayfasındandır. Rəsul Rzanın ulu babası Məmməd xan XIX yüzildə, Rusiya Azərbaycanı istila edən zaman çar əsgərlərinə qarşı çıxmış, hökumət tərəfindən həbs olunmuş və məhbəsdə zəhərlədilərək qətl edilmişdir.

Uşaqlıqdan çətin həyat sınaqlarına məruz qalmış, öz əlinin zəhmətiylə dolanmış, böyümüş Mirzə İbrahim beşillik təhsil aldıqdan sonra Göyçayda qəza naçalnikinin dəftərxanasında tərcüməçi sifəti ilə işləmiş, mütaliəsi nəticəsində Göyçayın açıq fikirli ziyalılarından biri olmuşdur. Mirzə İbrahim böyük qızlarını dünyəvi məktəbə veribmiş (doğma dillərindən başqa rusca da təhsil alıblar), evlərinə bir çox Azərbaycan və rus jurnallarını, o sıradan «Molla Nəsrəddin» jurnalını abunə yazdırıbmış. Məryəm xanımın da poetik təbi varmış, əri ona ərəb əlifbasıyla oxumağı öyrədibmiş (yazmağı bilmirmiş), şifahi söylədiyi şeirlərini Mirzə İbrahim kağıza köçürərmiş... Bu şeirlərindən bir neçəsi hifz olunub. Beləliklə, Rəsul və bacıları uşaq yaşla-

rından jurnallar və kitablar mütaliə edilən bir mühitdə, Məryəm xanımın dilindən eşitdikləri Füzuli, Natəvan, Sabir, Tofıq Fikrət misralarının ahəngiylə böyüyüblər. Beş yaşındaykən atasını itirmiş Rəsul dayısı Məhəmmədhüseyn Rzayevin himayəsində böyümüş və sonralar onun soyadını qəbul etmişdir. M.Rzayevin M.Ə.Sabir ruhunda dövrün mühüm ictimai-siyasi məsələlərindən bəhs edən satirik şeirləri var. Rəsul Rzanın ilk şeiri - 1929-cu ildə, Tiflisdə «Dan ulduzu» jurnalında dərc olunmuşdur. Əlli illik yaradıcılıq fəaliyyəti müddətində Azərbaycanda, Moskvada, Türkiyədə, bir sıra başqa ölkələrdə 50-dən artıq kitabı nəşr olunmuşdur. Son şeirini ölümündən bir gün qabaqmartın 31-də xəstəxanada yazmışdır:

Ömrün qəmli günlərindəyəm
xəstəliyin ucundan
qocalığın üzündən.
Həkim deyir:yorulub ürək
Deyirəm: yorulmusan ürəyim.
Keçən günlər gözümdə
bir xəyal dünyasıdır
göynədir göyüm-göyüm
O günlər doğmam idi,
Bu günlərim ögeyim.
Günlər var çeşid-çeşid:
İnciklisi bu yanda,
Fərəhlisi o yanda.
Belə olurmuş demək,
Ömrün-günün sonunda...

Rəsul Rza 1981-ci il aprelin 1-də vəfat etmişdir.

***

Rəsul Rzanın həyatını və yaradıcılığını, duyğularını və düşüncələrini, şəxsiyyətini və taleyini şairə yoldaşı Nigar Rəfibəylisiz təsəvvür etmək qeyri-mümkündür. l931-ci ildə tanış olmuş, bir müddət kinostudiyada, eyni şöbədə işləmiş, 34-cü il-

də nişanlanmış, sonra Moskvaya oxumağa getmişlər. 1937-ci il fevralın 11-də toyları olub.

Ömürlərinin müxtəlif dövrləri, hadisələri, sınaqları, sevinc və itkiləri haqqında Rəsul Rza «Səndən sənə» adlı şeirlər silsiləsi yazmışdır, amma bunu yalnız bir müəllifin əsəri saymaq olmaz. Çünki mövzusu hər ikisinin birgə həyatından, məzmunu isə yalnız Rəsulun Nigara deyil, həm də Nigarın Rəsula yazdığı məktublardan alınıb.

Onların bir-birinə bənzəməyən təbiətləri, çox fərqli xasiyyətləri sanki bir-birini qəribə vəhdətdə tamamlayırdı.

İstedadlı yazıçımız Afaq Məsud 2000-ci il mayın 19-da - Rəsul Rzanın 90-ıncı doğum günündə «525-ci qəzet»də dərc etdirdiyi «QƏDİM MUSİQİ ƏFSANƏSİ» adlı kövrək yazısında bunu xüsusi vurğulayır:

«Rəsul Rza və Nigar Rəfibəyli də Azərbaycanın bir əfsanəsidir... Bu əfsanə həm də elə bil çox qədimdi... O qədər qədimdi ki, onun yaranma tarixini, bu günümüzə uzaq-yaxınlığını müəyyənləşdirmək olmur. Bu qədimlik qəribədi ki, nədənsə musiqi qədimliyini xatırladır. Bəzən hardansa unudulmuş, doğma, ağrılı bir keçmiş kimi özü-özünə qulağına axır, oradan qəlbinə süzülüb yaddaşını oyadır... Rəsul Rzanın heç nə ilə hesablaşmayan, heç bir məqamda büdrəməyən, dəfolunmaz cod kişi nəfəsini Nigar xanımın incəliyi, məlahəti, xanımlığı ilə uzlaşdığı, bağlandığı, tamamlandığı nə isə əsaslı məqamlar vardı elə bil. Bu bağlılıq, bütövlük hər iki şairin poeziyasında da hiss olunur. Rəsul Rzanın sərt fikirlərini Nigar xanımın ilıq, gövrək sətirləri isladır daim. Rəsul Rzanın kəsgin məntiqini, barışmaz, mübariz şair ədalarını hifz edən də Nigar xanım idi».

Erkən itirdiyimiz unudulmaz şair İsa İsmayılzadə də Nigar Rəfibəylinin Rəsul Rza həyatında yerini zərif bir təşbehlə vermişdir:

«Nigar xanım sərt, ötkəm, qəzəbi sözündən iti bir insanın taleyinə tül pərdə arxasından süzülüb gələn işıq kimi, günəş kimi düşmüşdü» («Azərbaycan» jurnalı №7, 1981).

Afaqın yazısında belə bir fikir də var:

«Məncə, Rəsul Rza bütün şeirlərini Nigar xanıma yazıb. İctimai-siyasi şeirlərini də, təbiətlə, ovqatla, musiqiylə, rənglərlə bağlı şeirlərini də... Ayrı kimə yaza bilərdi ki? Nigar xanımdan mənalı və dəyərli, maraqlı və əbədi nə vardı ki, bu dünyada?"

Bu sətirlər ilk baxışda mübaliğəli görünsə də, mahiyyəti etibarilə doğrudur. Həm də iş tək onda deyil ki, müxtəlif şeirlərini yazarkən Rəsul Rza məhz Nigar xanımın bu yazılara necə qiymət verəcəyini düşünüb, məsələ həm də ondadır ki, ilk gəncliyindən ömrünün sonuna qədər bütün onilliklərdə ən incə misralarını həyat yoldaşına həsr edib:

Sevdim səni,
eşqinin atəşli isitmələrilə
gözlərini yandıran,
aylı gecələrdə səni
yuxudan oyandıran,
dilinə şirin gələn,
gölgəsində ruhun dincələn
əziz bir ad kimi.
Sevdim səni həyat kimi.
Sevdim səni:
bəşər oğlunun
xülyalarında yaşayan,
əsrlər boyu insan beynini qaşıyan
uçmaq xülyası - qanad kimi.
Sevdim səni həyat kimi.
Sən də şirin oldun mənə,
ömrümdən şirin.
Ruhumda fanar yandırdı
qumral gözlərin.
Canlandın ömrümün nəğməsində
nəqarat kimi.
Sevdim, sevirəm, sevəcəyəm səni həyat kimi!

("İLQAR" şeirindən. 1939)

Otuzuncu illərin "QÜRUR NƏĞMƏSİ", "SƏNƏ", "SORĞU", "BİR AXŞAM", YAXANDA BİR BƏNÖVŞƏ", "QARA GÖZLÜM" şeirləri də Nigar xanıma həsr olunub.

Müharibə illərində, cəbhədə yazdığı şeirlərin bir çoxu məhəbbət lirikası nümunələridir:

Xatırında varmı, tez-tez küsüşüb,
Deyirdin: -Danışma, dindirmə məni.
Indi ədaların yadına düşüb,
yandırırmı səni, yaxırmı səni?

Hər zaman saçını darayan zaman,
Həsrət gözlərinə baxıb aynada,
bil ki, səni sevən, sənə inanan
könül ilqarını pozmaz dünyada.

Bəlkə bir gün səndən üzüldü əlim,
«Xoş keçdi az sürən bu ömrümüz» de.
Ayrılıq dəmində, aman, gözəlim,
Qoy yadımda qalsın, bir yaxşı söz de.

(«HİCRAN» şeirindən, 1942)

1946-cı ildə Təbrizdə yazdığı «Ayrılmayaq» şeirindən sətirlər:

Xəyalın yanımda, sən uzaqdasan,
Hicranın yolları ömür qədərdir.
Bu yalqız axşamda yuvama baxsan:
Mənəm, xəyalındır, bir də kədərdir,

Gəl, ört pəncərəni, qalaq üz-üzə,
bir sən ol, bir də mən, bir də gözlərin,
Vüsal qərq olurkən hicran dənizə
ağ bir yelkən olsun o son sözlərin.

Bir sən ol, bir də mən, bir də dərdimiz,
Ağlayaq doyunca, gülək doyunca.
Baş-başa qaldıqca bu möhnətlə biz
döysün qapıları külək doyunca...

Əllinci illərin məhəbbət lirikasından:

Məndən xəbər aldılar:
Nə rəng gözlər yaxşıdır?
Mən dedim:
Nə bilim.
Indi gəlsin hamıya isbat edim,
ən yaxşı göz
qonur gözdür, sevgilim.
Gözlərinə baxanda,
saçlarının xurmayı dalğaları
kürəyindən axanda,
Çağıranda adımı,
oxşayanda gözləri gözün kimi
xurmasaç övladımı,
məndən sorsalar əgər
demərəm ki, nə bilim.
Deyərəm ki, eşitsin, bilsin hamı:
Sən hamıdan gözəlsən, sevgilim.

(«İNDİ» şeirindən, 1954)

Altmışıncı illər... Yaş ötdükcə nıəhəbbət şeirlərinin ovqatı dəyişir, indi onlarda nigaranlıq sezilir, hər sətirdə təlaş duyulur. Indi xəstə ürək yalnız Nigarın ürəyi deyil, hər ikisininkidir - «ÜRƏYİMİZ»dir.

Telefonla bu səhər
Dedin: yaman istidir Bakı.

Alovlanıb yanır şəhər...
Şəhər yanır - deyirsən.
Şəhərə nə var.
Yay keçər, payız gələr,
Havalar sərinlənər...
Ürəyin necədir, əzizim?
Ürəyin! Onu incitmə!
Nə anam var, nə atam,
yazığın gəlsin mən yetimə.
Ürəyimizi qoru.
Ağrı görünməsin gözlərində
Günəşdə çox dayanma, əzizim,
xətərlidir onun mehribanlığı.
Ancaq,
şəklimizin qabağında yubanma, əzizim
Daha yaman olur, xatirələrin yanığı.

70-ci illərin «bəxtiyarlığı» - səslərdən, rənglərdən, bütün istəklərdən uzaq, dünyadan uzaq, birgə qalmaqmış...

Iki əl örtdü gözlərimi,
Söndü işığı dünyanın,
bu üfüqsüz,
bu sahilsiz,
bu dibsiz qaranlıqda
səni gördüm.
Əllərin dedi mənə,
gözlərinin gülüşünü.
Bir ömür qalsaydım belə
əllərinin bu nurlu qaranlığında,
ülfətinin sərxoş qurbanlığında.
Səslərdən uzaq,
Rənglərdən uzaq,
Əllərinin nəvazişindən başqa
hər cürə istəklərdən uzaq.

Mümkünlərdən, gərəklərdən uzaq,
Dünyadan uzaq.

(«BƏXTİYARLIQ» şeirindən, may 1976)

1981-ci ildə, ömrünün son günlərində yazdığı «Krım xatirələri» şeirində yenidən müharibə illərini yada salır, cəbhədəki qanlı səhnələrin təsviriylə bərabər xəyalı ordan - uzaq Kerçdən və uzaq illərdən Bakıya dönür:

Xəyal uçur uçduqca
incikli xatirələr yoluyla.
Xəyalımda
gözü yaşlı,
sinəsi ahlı,
dili gileyli anamı görürəm –
Analar anası!
Bir də hər dərdimə,
qayğıma şərik,
sadiq ömür sınağımı,
həyanımı,
Nigarımı.

Rəsul - Nigar münasibətlərinin poeziyada əks olunmuş mənzərəsini tamamlamaq üçün anamın iki şeirindən də parçalar verirəm:

Yerdən gurultuyla qopub qalxan
Təyyarələrin dalınca
Baxa-baxa qaldım.
Uzaq dənizlərdə
Böyük gəmilərlə səni yola saldım,
Stansiyalardan ayrılıb gedən
Qatarların arxasınca kövrəlib ağladım.
Həmişə sabaha, vüsala

Ümid bağladım.
Havalar geniş,
Dəryalar dərin,
Nələr görür sənin işıqlı gözlərin...
Yaxşı yol sənə,
Uğurlar olsun,
Hara gedirsən, get,
Mənim dərya səbrimi qurtarma,
Hara gedirsən get,
Mənim vətənə bağlı ürəyimi
Getdiyin uzaq yollara
Aparma, əzizim, aparma...

(«YAXŞI YOL» şeirindən)

Bir son bahar da düşdü
Ömrümün təqvimindən
Nə sənə məhəbbətim,
nə həsrətim azaldı.
Özüm də heç bilmirəm,
niyə bir ömür boyu
Gözüm uzaq yollarda –
sənin yolunda qaldı?
Bir qocaman dağ olsan
Səni vurub yıxardım.
Ürəyimdən ən incə
teli necə qopardım,
Bir sən oldun könlümün
yaxın dostu, həmdəmi.
Sən olmasan tutmazdı
bəlkə əlim qələmi.
Sən olmasan baharın,
yazın ətri olmazdı.
Sən olmasan bir dünya
sevinc belə çox azdı.

Baharın çiçəkləri
Açıb solmasın sənsiz.
Ömrüm sənsiz olmasın,
Şeirim olmasın sənsiz.

1957-ci ildə toylarından 20 il keçən gün Rəsul Rza Moskvadan həyat yoldaşına teleqram göndərir:

*«**Nigar, əzizim!***

Iyirmi il əvvəl, boranlı bir fevral günü biz sənlə əl-ələ verib həyatın mürəkkəb, çətin yollarına çıxdıq. Bu iyirmi il boyunca bütün sınaqlardan keçib mətanəti sarsılmayan ruhun, şəfqəti azalmayan qəlbin, hərarəti soyumayan mərd əllərin üçün sağ ol! Əgər günlər geriyə varaqlansa, gəncliyim qayıtsa idi, inan ki, mən ömrümü yenə sənlə bağlayar, həyatın daha çətin yollarında, tərəddütsüz sənlə əl-ələ verib gedərdim. Qoy üç sevimli balamızın sevinc və səadəti gələcək günlərimizi bəzəsin. Qoy məhəbbətimizin hərarəti onları hər cür fırtınalardan qorusun. Vəfa və sədaqətin qarşısında baş əyirəm.

Rəsul»

Rəsul Rza yaradıcılığının araşdırıcısı Imamverdi Əbilov Nigar Rəfibəyliyə müraciət edərək atam haqqında bir neçə söz deməsini xahiş etmişdi. Bu xahişə əməl edərək anamın ona yazdığı məktubu İmamverdi müəllim xatirələrində gətirir:

Hörmətli Imamverdi müəllim!

Ailəmizin səmimi dostu, Rəsul yaradıcılığının diqqətli və həssas tədqiqatçısı kimi sizin nəzərinizə bir şeyi də çatdırmaq istərdim. Nədənsə bunu sizə yazmağa daxili ehtiyac hiss edirəm. Rəsulun şeir yaradıcılığına siz məndən də yaxşı bələdsiniz. Ancaq onun bir insan, bir həyat yoldaşı kimi mənə göstərdiyi qayğı və hörmət heç bir ölçüyə gəlməyəcək dərəcədə böyükdür. İki ay Moskvada qaldım, 35 gün xəstəxanada yatdım. Qışın lap sərt vaxtı idi. 25-27 dərəcə şaxta olurdu.Mən yatan xəstəxana - Onkoloji İnstitut mərkəzdən 15 kilometr uzaqda idi. Rəsul bütün bu soyuqlarda hər gün mənim yanıma gəlir,

həkimlərlə görüşür, aparılan müalicələrlə yaxından tanış olurdu. Nə lazımsa əsirgəmirdi. Onun keçirdiyi həyəcan və iztirabı təsəvvür etmək mümkün deyil. Kiçik qızım Təranə də dərslərini, yoldaşlarını, nişanlısını qoyub iki ay atası ilə bərabər Moskvada olurdu. Mənə elə gəlir ki, bir dərya göz yaşı töksəm də Rəsulun gözündə parlayan yaşları əvəz edə bilməz. Bəlkə xəstəlik məni belə həddən artıq hissə qapılmaq vəziyyətinə salıb. Bu söhbətlə sizə başağrısı verdimsə bağışlayın məni.»

Hörmətlə,
Nigar Rəfibəyli
6 sentyabr 1972, Buzovna.

Rəsul Rzayla Nigar Rəfibəylinin üç övladı var. Mən ilk övladlarıyam. Məndən kiçik iki bacım Fidan Bakı Dövlət Universitetinin ərəb dili müəlliməsi, Təranə - Pedaqoji İnstitutun ingilis dili müəlliməsidir.

***

Rəsul Rza yalnız doğuluş və ölüm tarixinə, yaradıcılıq illərinə görə deyil, sənətçi varlığının bütün mahiyyəti etibarilə XX əsr şairidir, yəni əsrin bütün təzadlarını, yüksəlişini, ümidlərini, eyni zamanda ümidlərin tarmar olmasını, dövrün dərdlərini, faciələrini, xəyal qırıqlığını yaşamış və əsərlərində gah birbaşa, açıq, gah da içində ömür sürdüyü şəraitin yasaqlarına görə, örtülü şəkildə, dolayısıyla, «Ezop diliylə» əks etdirmişdir.

Çağdaş şeirimizin üç görkəmli nümayəndəsinin Rəsul Rzayla bağlı yazdıqlarını burada xatırlamaq yerinə düşər. Xalq şairi Fikrət Qoca Rəsul Rzaya həsr olunmuş şeirlərindən birində deyir:

Nə yazsa düzdü.
Öz inamına görə
tənqidlərə, tərifləyə
Rəsul Rza dözdü.

Ən çox özünə
bir də şeirinə
ərk eləyən Rəsul Rza.
Hamıdan çox döyülən,
hamıdan çox bərkiyən
Rəsul Rza.
Dedilər: vəzni pozdu,
O, bir şeir də yazdı.
Dedilər: şeirinin bəzəyi azdı.
O, bir şeir də yazdı.
Dedilər: dayazdı,
O, bir şeir də yazdı.
Dedilər: biz anlayırıq,
amma xalq üçün anlaşılmazdı,
O, bir şeir də yazdı.
Yazdı, yazdı, yazdı...
Amma
öz aramızdı,
O vaxt sözümüzə baxsaydı,
İndi Rəsul Rzamız olmazdı.

Rəsul Rza haqqında esselər və şeir yazmış Vaqif Səmədoğlu müsahibələrində deyir: «Rəsul Rza Azərbaycan ədəbiyyatı tarixində anlaşılmaz şairdir. Rəsul Rzanı sevənlər də, sevməyənlər də, əksərən ona çox səthi platformadan yanaşırlar» («Xəzər» dərgisi, №2, 1997)

«Rəsul Rzanın müasirliyi bizim bugünkü çağdaşlığımızdan çox-çox irəli gedən müasirlikdir. Onun poeziyası XXI əsrin yox, XXİİ əsrin astanasında duran bir poeziyadır. Elə bəlkə o səbəbdən Rəsul Rza öz çağdaşları arasında layiq olduğu populyarlığı qazanmayıb» («Azərbaycan müəllimi» qəzeti, 6-12 yanvar, 2000)

Ramiz Rövşənin dedikləri də hardasa Vaqif Səmədoğlunun fikirləriylə həmahəngdir: «Rəsul Rza 50-ci, xüsusən 60-cı illər Azərbaycan poeziyasının keyfiyyətcə dəyişməsində

müstəsna xidməti olmuş şairdir. O, təkcə ənənəvi şeir təsəvvürünü deyil, həm də ümumiyyətlə şair haqqında təsəvvürü dəyişib... Mənə elə gəlir ki, Rəsul Rzanın bir şair kimi, xüsusən də son vaxtlar diqqətdən kənar qalmağının, təbii olaraq, cəmiyyətdə gedən proseslərlə bağlılığı var. Amma məncə, Rəsul Rzaya xüsusi diqqət yenə olacaq. Söhbət oxucu diqqətindən gedir... Mən buna inanıram. Rəsul Rzanın oxucuları bu gün də var, sabah daha çox olacaq. Mən əminəm ki, Rəsul Rza heç vaxt oxucusuz qalmayacaq» («Bizim əsr» qəzeti, 18 may, 2000).

***

XX yüzili «inqilablar əsri» adlandıranlar yanılmırlar. Bu inqilabların bir-birindən çox fərqlənməsi, Tarixə müsbət ya mənfi işarələrlə düşməsi - başqa məsələ, ayrı bir mövzudur. Əsrimizin siyasi inqilablarını öncələyən özgə bir inqilab da var - bu da sənətdə, ədəbiyyatda, elmdə baş verən inqilab, inqilabi sıçrayışdır. İctimai, siyasi sarsıntılardan daha artıq bu estetik sıçrayış, zövqlərin, düşüncələrin, sənət anlayışlarının görünməmiş bir sürətlə başqalaşması - ayrı-ayrı fərdlərin də, cəmiyyətlərin, millətlərin də şüurunda çox dərin iz buraxdı, elliklə hamının və ayrılıqda hər bir insanın dünyagörüşünə, dünyaduyumuna güclü təsir göstərdi. Sanki ən ilkəl çağlarından imələyə-imələyə gələn, sonra «dar-dar» edib kiçik addımlar atan, sonra get-gedə daha yeyin-yeyin yeriyən Tarix XX yüz ildə yüyürə-yüyürə, qaça-qaça irəliləməyə bäşladı. Əsrin ikinci yarısında isə bu qaçış, bu iti qaçmaq hətta sıçrayışa çevrildi, qabağa atılmaq, çox uzağa tullanmaq kimi göründü.

Dünya sənətinə baxsaq siyasi inqilablardan çox əvvəl və hətta əsrimizdə belə inqilabların baş vermədiyi (məsələn, Fransa kimi) məmləkətlərdə sənət sahəsində yenilikçi, eksperimentçi, novator cərəyanların, məktəblərin, axınların ön sıralara çıxdığını görərik. Fransada rəssamlıqda postimpressionistlərdən sonra gələn fovistlər, kubistlər, şeirdə dadaistlər, İtaliyada futuristlər, Almaniyada ekspressionistlər, Rusiyada konstruk-

tivistlər, imajinistlər, eləcə də Mayakovski və onun ardıcıllarının forma axtarışları, Amerika və Avropa ölkələrində verlibr-sərbəst şeirin ortaya çıxması, sinema (kino) kimi yeni sənət növünün yaranması və qısa müddətdə dünyanı fəth etməsi - XX əsrin ilk onilliklərinə möhürünü basmış olaylardır. Təbii, bu sənət axtarışları Doğu millətlərinin və ilk öncə Yaxın və Orta Şərqin ən qabaqcıl xalqı olan Türklərin - Anadolu və Azəri türklərinin - ədəbiyyatında da görünməliydi və görünməkdəydi. Çox əhatəli mövzunu bir qədər daraldacaq olursaq şeirimizdə bu yenilik əyləmlərinin ən parlaq örnəyi - Türk sərbəst şeirinin yaranması, inkişafı, bu yolda qarşılaşdığı çətinliklər, müqavimət və əngəllər, bu yolun yolçularının öz sənət anlayışları, estetik idealları uğrunda cəsur, yorulmaz və sonucda zəfər çalan mübarizələridir.

Ümumtürk şeirinin araşdırıcısı Tərlan Quliyevin bu məsələylə bağlı gəldiyi nəticə çox dəqiqdir:

«XX əsrin 20-30-cu illərində şeirimiz öz inkişafının tamamilə yeni bir mərhələsinə qədəm qoyur. Hətta Hüseyn Cavid kimi klassik normalara tam sadiq qalan bir şair də yaradıcılığında əruz vəzni ilə bərabər heca vəzninə də müraciət edir, və elə bu andaca Səməd Yurğun öz böyük istedadı ilə meydana çıxır və poeziyada təşəbbüsü öz əlinə alır. İki min ildən artıq tarixi olan heca vəzni Səməd Vurğunun yaradıcılığında demək olar ki, zirvəyə qalxmışdır. S.Vurğunla bərabər XX əsr şeirimizin poetik simasmı müəyyənləşdirən, XX əsr şeirimizdə ayrıca bir poetik mərhələ olan ikinci şair Rəsul Rzadır. R.Rza poeziyamız tarixində sərbəst şeirin ilk böyük yaradıcısıdır.

Sərbəst şeir, sərbəst vəzn isə istər bizim ədəbiyyatda, istərsə də dünya ədəbiyyatında hələ öz simasını tapmayan, təşəkkül dövrünü keçirən ən cavan ədəbi formadır. Hələ sərhədləri, normaları müəyyən olmayan bir ədəbi formada isə yazıb-yaratmaq olduqca çətindir. Rəsul Rza istedadının nəticəsidir ki, bir şair kimi həm özünü, həm də sərbəst şeiri poeziyamızda təsdiq etmişdir» (Tərlan Quliyev. Anadilli şeirimizin inkişaf yolu. «Azərbaycan müəllimi» qəzeti, 31 yanvar 1992).

Tərlan Quliyev şeirimizin inkişaf yolları haqqında mülahizələrini belə yekunlaşdırır:

«Anadilli şeirimizin keçdiyi tarixi inkişaf yolunu poetik mərhələlər nöqteyi-nəzərindən aşağıdakı şəkildə ümumiləşdirmək olar: Azərbaycandilli şeirin ümumtürk mərhələsi: a/ Dədə Qorqud şeirləri. b/«Divani-lüğət it-türk» əsərində olan mənzum parçalar.

Anadilli şeirimizin Orta əsrlər mərhələsi: a/klassik üslubda yaranan poeziya, b/folklor-aşıq üslubunda yaranan poeziya.

Azərbaycandilli şeirin müasir mərhələsi: a/Səməd Yurğun şeiri b/ Rəsul Rza şeiri.»

Çağdaş poeziyamızın istedadlı nümayəndələrindən Çingiz Əlioğlu şeirimizin inkişaf yolları haqqında düşünərkən belə qənaətə gəlir:

«Mən hərdən Azərbaycan şeirinin XX əsr sovet dövrünün iki nəhəng şairi - Səməd Vurğunla Rəsul Rzanı xəyalən müqayisə edir və düşünürəm:görəsən onları bir-birindən fərqləndirən, ayıran ən əsas cəhət hansı idi. Gəldiyim qənaət belədir: əgər böyük Səməd Vurğun özündən qabaqkı bütün maraqlı başlanğıcların yekunlaşdırıcısı, nöqtə qoyanı idisə, ustad Rəsul Rza Azərbaycan şeirində bütün özündən sonrakı başlanğıcların başlayıcısı, əzəli, ibtidası idi. Məhz bu səbəbdən müasir şeirimizin bütün çağdaş avanqard, modernist və postmodernist axtarışlarının başlanğıc mənbəyini də Rəsul Rzanın metafizik poeziya irsində soraqlamaq lazımdır» («Poeziyamızın Rəsul Rza məsuliyyəti. «Ədəbıyyat qəzeti», 25 may 2001).

***

Ümumtürk şeirinin, ən azı Oğuz qrupunun (Anadolu, Azəri türkləri, türkmənlər) inkişaf yollarına ümumi bir baxış atılarsa - bu ədəbiyyatların nə qədər yaxın və ortaq qanunauyğunluqlarla irəlilədikləri göz qabağındadır. «Kitabi Dədə Qorqud»dan, «Koroğlu»dan, Yunis İmrədən, Füzulidən, Nədimdən, Qaracaoğlandan tutmuş uzun əsrlər boyu bir axarda gəlişmiş, eyni ənənələrə sahib çıxan, eyni mənəvi və estetik dəyər-

ləri paylaşan, eyni şeir biçimlərini, eyni vəzn bəhrləri və bölgülərini, eyni qafiyə, rədif, təşbeh, obraz sistemini işlədən Azəri və Anadolu şeiri Orta çağda çiyin-çiyinə inkişaf etdiyi kimi, XIX və XX əsrlərdə də müxtəlif dövlətlər, çeşidli siyasi sistemlər və rejimlər içində belə sənət baxımından yan-yanaşı, qoşa addımlayırdılar. Mirzə Fətəli Axundzadə və Namiq Kamal, Tofiq Fikrət və Məhəmməd Hadi, Sabir və Əşrəf, Əbdülhak Hamid və Hüseyn Cavid, Mirzə Cəlil Məmmədquluzadə və Ömər Seyfəddin müxtəlif çoğrafı məkanlarda, müxtəlif siyasi quruluşlarda yaşayıb yaratsalar da fikirlərində, sənətlərində, üslublarında bir-birinə ekiz qardaşlar qədər yaxın idilər. Daha doğrusu elə doğma qardaş idilər - dövlət sərhədləri ilə birbirindən ayrılmış, uzaq düşmüş qardaşlar...

Yeni həyat, yeni quruluş, insanların, millətlərin bərabərlik, qardaşlıq dünyası haqqında ilkin sosialist şüarlarının gerçəkliyinə və səmimiyyətinə uzun zaman inananlar, aldananlar, haçansa - birisi tez, birisi gec - bu amansız aldanışı dərk edib xəyal qırıqlığının acısını, sonrakı peşmançılığın faciəsini yaşayanlar da bu ziddiyyətli yolu paralel keçirdilər. Sovet quruluşuna, kommunizm ideallarına inamın da, bu ideallara, bu quruluşa inamın xəyal qırıqlığını da həm Nazim Hikmət yaşadı, həm Səməd Vurğun, həm Rəsul Rza..

1956-cı ildə Sovet İttifaqı Kommunist Partiyasının XX Qurultayında Xruşşov Stalin rejiminin dəhşətli cinayətlərini ala-yarımçıq şəkildə olsa da ifşa edərkən 50 yaşlı Səməd Vurğun ölüm yatağında can verirdi (1956-cı ilin mayında rəhmətə getdi). Ömrünün bu son həddində səmimi qəlbdən inandığı və çoşğun ilhamla tərənnüm etdiyi bütlərin yıxıldığını, dağıldığını görsə də bu iniksarı-xəyalı yaradıcılığında əks etdirməyə əcəl böyük şairə macal vermədi. Əlbəttə, Səməd Vurğunun «Vaqif», «Fərhad və Şirin» pyesləri, «Azərbaycan», «Yadıma düşdü», «Körpünün həsrəti», «Dağlar», «Ceyran» və neçə-neçə başqa şeiri, «Dünya» şeirinin də daxil olduğu «Komsomol poeması» Azərbaycan ədəbiyyatının qızıl fonduna məxsusdur və dilimizin əbədi yaşayacaq sərvətidir. Ancaq həyatının son

illərində yazdığı «Şair nə tez qocaldın sən», «Mən tələsmirəm», Aşıq Şəmşirlə şeirləşməsi və başqa əsərləri ömür möhlət versəydi Səməd Vurğunun tamamilə yeni ruhlu və yeni səpkili əsərlər yarada biləcəyinə şübhə yeri qoymur.

Nazim Hikmət 1963-cü ilin iyun ayında 61 yaşında vəfat etdi. Haçansa ilk gənclik çağında heyran olduğu, yenidən qovuşacağının həsrətiylə uzun illər Türkiyə məhbəslərində yatdığı bir məmləkətin sovetlər «cənnətinin» nə kimi eybəcər şəklə düşdüyünü gördü, bir ömür boyu sürən aldanışın peşmançılığını, gerçək və yeganə vətəni Türkiyənin həsrətini son şeirlərində, səhnə əsərlərində ifadə edə bildi.

Nazimin bu peşmançılığından, vətən həsrətindən Rəsul Rza «Rənglər» silsiləsinin «Saman sarısı» şeirində belə bəhs edir:

Anadan olduğun evin
çılpaq divarlarına həsrət
Peşmançılıq qoxuyan həqiqət.
Qürubun şəfəqlərində
yaralı qəlbinə meydan oxuyan
Nazim Hikmət.

Sovetlər Birliyində Nazimin ən yaxın dostlarından, ürəyi qızdığı adamlardan biri Rəsul Rza idi və atamla məhrəm söhbətlərində acı bir etiraf edibmiş: «Kardeşim, buranın (yəni SSRİ-nin) hürriyətindənsə Türkiyənin məhbəslərində yenə on beş il yatmağa hazıram».

Bütlər yıxılandan, ideallara inam qırılandan, uzaq gəncliklərində tapındıqları bir çox həqiqətlər bərbad olandan sonra bu aldanışlarının acısını yazmaq üçün tale Rəsul Rzaya daha artıq möhlət verdi - 71 illik ömrünün son gününəcən qələmi əlindən qoymadı, həm özünün, həm çağdaşlarının, nəsildaşlarının, həm də cəmiyyətin, quruluşun ziddiyyətli, müsibətli, əzab və iztirab dolu yolundan, ayrı-ayrı insanların faciələrindən, nakam bəxtindən neçə-neçə əsər yazdı(«Qızıl gül olmayaydı», «Ömür keçdi, gün keçdi», «Rekviyem», «İnsan»,

«Ömürdən səhifələr», «İnsan şəkli», «Səhifələrin yaddaşından», «Yazıq sənə, Rəsul Rza» və b.)

Bu inkisari -xəyal - xəyal qırıqlığı, həyatdan küskünlük, bezginlik ovqatı Rəsul Rzanın bir çox şeirlərində, - ictimai mənası birbaşa ifadə olunmayan, amma bədbinlik motivləri canına, qanına hopmuş şeirlərində də ifadə edilmişdir. Doğrudan da ömrünün müəyyən illərindən, itgilərindən, mənəvi sarsıntılarından sonra günün hər bir çağı - axşamı da, səhəri də, gündüzü də şair üçün mənasızlaşır, yalnız ümidsiz, üzücü bir gözləməyə, intizara çevrilir:

Deyirlər,
axşamlar kədər gətirir.
Deyirlər,
can sıxır qaranlıq gecə.
Deyirlər... deyirlər...
Gündüzlər necə?
Gündüzlər
səbirsiz gözləyirik ki,
bir axşam olsun,
bir gəlsin gecə.

(1959)

Bu bəlkə də Rəsul Rzanın ən bədbin, ən ümidsiz şeiridir. Ancaq belə hüznlü sonluğu olan mənəvi təkamülün, ümidsiz intizarla nəticələnən yaradıcılıq yolunun işıq, bahar, gənclik, umid və mübarizə eşqiylə dopdolu başlanğıcı da, həyat şövqüylə çağlayan ibtidası da olub axı... Əsrin ikinci yarısında qaranlıq gecənin, kədərli axşamın üzücü gözləmələriylə yaşanılan ömrün 20-ci illərin sonu - 30-cu illərin əvvəllərində bol günəşli səhəri də olub...

***

1930-cu ildə Rəsul Rza Bakıya gəlir. Özünün dediyi kimi əynində parusun şalvar, qısaqol köynək, ayağında rezin çəkmə

və cibində üçcə manat pulundan başqa heç nəyi yoxmuş. Amma qəlbi arzularla, ürəyi sözlə, könlü yaşayıb yaratmaq eşqiylə dopdoluymuş. Bakıda uşaqlıq və gənclik dostu, uzaq qohumu göyçayli şair Abdulla Faruqun vasitəsilə «Gənc işçi» qəzetində işə düzəlir, o dövrün cavan yazıçıları - nəsildaşları Mikayıl Müşfiq, Sabit Rəhman, Mehdi Hüseyn, Süleyman Rüstəm, Mikayıl Rəfili, Əli Nazimlə, bir qədər sonra Səməd Vurğunla, Mirzə İbrahimovla tanış olur. Xalq şairi Süleyman Rüstəm Rəsul Rzaya həsr etdiyi «Mənə - onun köhnə dostuna inanın...» adlı yazısında qeyd edir:

«Rəsul dərhal nəzərə çarpdı. Azərbaycan poeziyasına 30-cu illərin əvvəllərində gəlib artıq bir-iki ildən sonra xalqın ən məşhur və sevimli şairlərindən oldu» («İki ömrün işığı» kitabı).

Rəsul Rzanın etibarlı dostlarından biri, görkəmli ədəbiyyatşünas alim Abbas Zamanov xatırlayır:

«Rəsul Rza 30-cu illər Bakısında gedən ədəbi prosesin, qızğın mübahisələrin mərkəzində olan şəxsiyyətlərdən biri idi. Heç bir müzakirə, heç bir disput onsuz keçmirdi. Yazılarında və çıxışlarında güclü məntiq vardı» (Abbas Zamanov. «Kişi şair», «İki ömrün işığı» kitabı).

Rəsul Rza «AZAP»ın (Azərbaycan Proletar Yazıçılar Cəmiyyətinin) rəhbərlərindən biri seçilir, bu təşkilatın isə o vaxt çox böyük nüfuzu varmış. Şair özü bu barədə Cəfər Cabbarlıyla görüşlərini xatırlayarkən yazır:

«İli yaxşı yadımda deyil, «Dönüş» pyesinin ikinci ya üçüncü tamaşası idi. Biz Cəfərlə lojada oturub tamaşaya baxırdıq. Bu bizim birinci ya ikinci görüşümüz deyildi. Onunla dəfələrlə görüşmüş, mübahisə etmişdik. Oxucu soruşa bilər ki, o zaman Cəfər Cabbarlı tanınmış bir dramaturq, on-on beş illik ədəbi təcrübəyə malik bir yazıçı idi, Rəsul Rza isə yenicə ədəbi mühitə ayaq basmış, cəmi-cümxuru 5-10 şeirin, üç-dörd hekayənin və bir neçə məqalənin müəllifi idi. Necə olurdu ki, Cəfər onunla ədəbi mübahisələrə girir və öz əsəri haqqında ondan rəy eşitmək istəyirdi. Əvvəla, ona görə ki, C.Cabbarlı son dərəcədə təvazökar bir adam idi. O, əsərləri haqqında ən adi adamların

rəyini dinləməyə hazır idi. İkincisi, o zaman AZAP-ın böyük nüfuzu vardı. Dəfələrlə tamaşaların ictimai baxışı zamanı AZAP nümayəndəsini gözləyər, pərdəni açmırdılar. Bəli, belə vaxtlar da vardı» (Rəsul Rza. Avtobioqrafiya).

«Avtobioqrafiya»sında o vaxtkı gənc yazıçıların, o cümlədən özünün Cəfər Cabbarlını nadan hücumlardan qorumaları və böyük dramaturqun bundan necə riqqətlənməsi haqqında da yazır.

Cəfər Cabbarlının «Almas» pyesini dəyərli bir əsər kimi qiymətləndirən («irəliyə doğru atılmış bir addım», «mövzu cəhətdən müəyyən bir dönüş», «bədii cəhətdən şablondan uzaq», «ayrı-ayrı obrazların sənətkarlıq baxımından dolğun və canlı işlənməsi»), fəqət müəyyən cəhətlərini tənqid edən bir məqalənin altında Ə.Nazim, H.Mehdi, S.Rüstəmlə birlikdə Rəsul Rzanın da imzası var. Məqalə müəlliflərinin fikrincə «Almas» pyesində «mənfi tiplər qüvvətli, canlı, parlaq, kolxoz tərəfdarları isə sönük, sxematik, bacarıqsız və zavallıdır», («Kommunist» qəzeti, 22 aprel, 1931). Xüsusilə əsərin baş qəhrəmanı Almasın sxematik obraz olduğu vurğulanır.

Bununla belə, Rəsul Rza Cəfər Cabbarlıya həsr olunmuş xatirələrində yazır:

«Bir dəfə Cəfərin «1905-ci ildə» pyesinin, yanılmıramsa elə birıncı tamaşalarından sonra qəzetlərin birində kəskin bir resenziya çıxmışdı. Bu məqaləciyin müəllifi Cəfəri dünyanın bütün mövcud olan və olmayan günahlarında təqsirləndirirdi... Üç-dörd yoldaşla Kommunist küçəsiylə üzüyuxarı gedirdik. Cəfərə rast gəldik. Dayandıq. Salamlaşdıq. Cəfər çox hərarətlə danışmağa başladı. «Mən nə yazsam, tənqidi əvvəldən hazırdır deyirdi. Siz də susub durursunuz. Cəfəri tənqid eləyəndə maşallah təbiniz rəvan olur. Ancaq...». Görünür, o danışmağa çətinlik çəkirdi. Mən məqalədən çox narazı olduğumu ona dedim. Elə bil Cəfərin gözlərində bir maraq oyandı. Diqqətlə üzümə baxdı. Elə bil məni birinci dəfə görürdü. Bəlkə də, bu sözü gözləmirdi. Çünki o zamanlar bizdən də tez-tez Cəfərin əsərləri haqqında haqlı-haqsız mülahizələr yürüdənlər var idi. Bir neçə gün sonra Azərbaycan Dram Teatrında çağırdığımız

disputda məqalə müəllifini suya salıb çıxartdıq. Onda sağ-salamat yer qoymadıq. Cəfər son dərəcə riqqətlənmişdi. O, gənclərin bu müdafiəsindən çox məmnun qalmışdı. Sonra bir söhbət zamanı dedi ki: «Düzü, mən elə bilirdim elə siz də məqaləçinin fikrini müdafiə edəcəksiniz». O, «məqaləçi» sözünü acı bir təbəssümlə dedi».

Bu əhvalatı mən atamın öz dilindən də eşitmişdim. Ancaq yazısında yumşaltdığı bir ifadəni: «məqalə müəllifini suya salıb çıxartdıq» ifadəsini söhbətdə daha kobud şəkildə deyirdi: «Məqalə müəllifini itin bir yerinə salıb çıxartdıq» Rəsul Rzanın Cəfər Cabbarlı sənətinə münasibəti o dövrün mətbuatında da əks olunub.

«Yaşar» əsərindən danışmaq, bugünki Şura türk dramaturgiyasının əhəmiyyətli bir müvəffəqiyyətindən danışmaq deməkdir. Əsərin tamaşaya qoyulması sağlam və müvəffəqiyyətli bir işdir» (Rəsul Rza. «Gənc işçi»qəzeti, 22 oktyabr, 1931).

«Ümumiyətlə, «Sevil» pyesinin qoyuluşu Türk İşçi Teatrının bir müvəffəqiyyəti və irəliyə doğru addımı hesab edilməlidir» (Rəsul Rza, «Gənc işçi» qəzeti, 24 noyabr, 1931).

Onu da qeyd edim ki, «Almas» haqqında tənqidi məqaləyə qol çəkən başqa müəlliflər də Cəfər Cabbarlının boyük istedadını dərk edir və lazımınca qiymətləndirirdilər.

Əlbəttə, Rəsul Rzanın gənc yaşlarından qazandığı nüfuz yalnız AZAP-la, çıxışları və məqalələriylə bağlı deyildi, ilk növbədə onun şeir yaradıcılığına əsaslanırdı. Bunu o dövrün tənqidindən izləmək olar.

«Şura proletar ədəbiyyatının rekonstruksiya dövründə əldə etdiyi yeni, sağlam şair qüvvələrindən ən irəli gedənləri və özlərinin bədii simalarını göstərmiş olanları Səməd Vurğun və Rəsul Rzadır» - 1934-cü ildə Əli Nazim və Hənəfi Zeynallı belə yazırdılar.

Aşağıda gətirilən sözlər isə Mehdi Hüseynin 1932-ci ildə yazdığı məqaləsindəndir:

«Bugünkü şeirimizin ən görkəmli nümayəndələrindən olan Səməd Vurğunun, Süleyman Rüstəmin və Rəsul Rzanın

şeir yaradıcılığında daha sağlam bir məfkurəvi təmayüllə qarşılaşırıq... Rzanı yuxarıda bəhs etdiyimiz şairlərdən fərqləndirən bir cəhət var: Gənc şair fikrindəki kəskinliyi bədii dəyəri qüvvətləndirmək yolu ilə artırır. Bunu «Bolşevik yazı» əsərində aydın görmək olar.

***

1931-ci ildə «İnqilab və mədəniyyət jurnalında (№3-4) çıxmış «Bolşevik yazı» tək Rəsul Rzanın deyil, ümumiyyətlə Azərbaycan poeziyasının o illərdə ən məşhur şeirlərindən biridir.

Tənqidçi Yaşar Qarayev və Şamil Salmanov bu şeiri Rəsul Rzanın poetik manifesti hesab etməkdə haqlıdırlar. Bu şeir ruhu etibarilə 30-cu illər Azərbaycan şeirinin səciyyəvi örnəyi olmaqla bərabər, eyni zamanda Rəsul Rzanın heç kəsə bənzəməyən dəsti-xəttinin ilk parlaq nümunəsidir. Şair özü bu dövrü belə xarakterizə edir:

«Bu dövr - tribun poeziya, zərif salon və saraylardan şəhər meydançalarına addımlayan sənət dövrü idi. Bu dövrün poeziyasında da dərinlikdən çox aktuallıq, fəlsəfi düşüncədən çox vəcd vardı. Sənət özü inqilaba bənzəyirdi, qurucudan çox «dağıdıcı» idi». («Молодеж Азербайджана», 26 aprel, 1969).

Bu gün - sovet dövrünün bütün təzahürlərinə - ağına, bozuna baxmadan inkarçı, hər şeyi danarcasına mənfi münasibət bəslənir. (Qəribə, amma həm də təbiidir ki, bu sayaq davranış eynən «dağıdıcı» inqilabi xətt-hərəkətin yeni dövrdə əks işarəylə təkrarıdır. Yəni o vaxt «ağa» - «qara» deyilirdisə, indi də həmin cür «qaraya» «ağ» deyilir). Təbii ki, indi «Bolşevik yazı» şeirinə ağız büzmək olar, onun elə sərlövhəsini lağa qoymaq olar. Doğrudan da yaz - yazdır, fəsillərin nə bolşeviki, nə menşeviki?

Amma şeiri diqqətlə və bu günün qərəzli, konyüktür nəzəriyyə ilə deyil, obyektiv gözlə oxuduqda əsas mətləbin heç də yalnız 30-cu illərin şüarçılığından ibarət olmadığını görürsən. Əksinə, düz yetmiş il bundan qabaq yaranmış bu şeir

Rəsul Rzanı ömrü boyu düşündürən, bir çox əsərlərində öz əksini tapmış ağrılı problemlərlə bağlıdır və müəyyən dərəcədə bu gün belə öz aktuallığını itiməyib. Şeirin əsas mətləbi nədən ibarətdir?

Şair göyləri gəzir
dərdlərin sorağında.
Dərdlər uzaqda deyil,
onlar göz qabağında.
Kənd susuzdur,
kəndə su!
Axmasın qoy gendə su!
Bağrı yarğanlı
geniş çöllər Araz,
Boz muğanlarla
yanıq millər Araz
Sənə həsrətdi bu gün
Mehriban bir anasan,
onları çək,
bağrına bas!
Çağır gəlsin
yarışa Kür,
həlkə ilanlar mələyən
boz çöllərlə
barışa Kür,
sanşa Kür,
qarışa Kür.
Doğru
duydum, saya gəlməz
sonsuz gözəlliklərini.
Fəqət duymaq -sevmək deyildir,
Nəyə lazım gözəlliyin
su çəkənlər ac qalarsa?
Sən axarkən qürurunla
göy tarlalar saralarsa?

Məhz elə bu ictimai mövqedən çıxış edərək Rəsul Rza həmin şeirində şair dostları Əhməd Cavadın və Mikayıl Rəfilinin misralarına etiraz edir. Ömrü boyu yaxın dostu olmuş M.Rəfilinin «Kəndin dərdi» şeirinə qarşı «Bolşevik yazı»nda «Kəndin dərdi» kəndin dərdi deyildir» misraları vardır.

Dərin hörmət bəslədiyi, ailəlikcə yaxın olduğu Əhməd Cavadla polemika isə onun «Əyil Kürüm, əyil keç, dövran sənin deyil, keç» misralarıyla bağlıdır. Bu həmin illərin ictimai və estetik anlayışlarıyla (yaxud aldanışlarıyla) üzvi surətdə əlaqədardır. Ömrü cəmisi iki il çəkmiş ilk müstəqil Cümhuriyyətimizin tərənnümçüsü olan romantik şair Əhməd Cavad üçün Kür bir rəmz idi, bu rəmz yeni dövranla uyuşmurdu və buna görə də o, Kürü əyilib keçməyə çağırırdı. Cümhuriyyət qurulanda səkkiz yaşında, devriləndə on yaşında olan Rəsul Rza isə görüb dərk edə bilmədiyi bir quruluşa deyil, ilk dövrlərində özünü yeni dünyanın - azadlıq və bərabərlik dünyasmın, sosial ədalətin və millətlər qardaşlığının qurucusu kimi qələmə vermiş cəmiyyətin dəyərlərinə inanmışdı və bu mənada Kür onunçün də rəmz idi. Əməkçi insanların həyat ehtiyacını ödəməli olan təbii qüdrətin rəmzi idi. Bu məğrur rəmzi - Kürü Rəsul Rza əyilmiş görmək istəmirdi:

Əyilib keçmə Kürüm,
Meydan sənin, söz sənin!- deyirdi.

Təbiətin, təbiət hadisələrinin insanlara xidmət etmələri, ya onlara qənim kəsilməsi haqqında nigaran düşüncələr «Bolşevik yazı»ndan başlayaraq Rəsul Rzanın bir çox əsərlərində ifadə olunmuşdur. «Bir gün də insan ömrüdür» poeması, «Nigaranlıq», «Yağış», «Ulduz yolu və dolu», «Olum ya ölüm» və başqa şeirləri, bir sıra oçerk və məqalələri buna misaldır. Leysanı çox sevən Rəsul Rzanın bir çox şeirlərində gur yağışın vahiməsi ifadə olunub. Gur yağışı heyranlıqla təsvir edir, amma dərhal qəlbinə narahatlıq dolur:

Kim bilir, yağış yağırmı
Şumu kəltən-kəltən,

yolları tozlu,
əkinləri qızdırmalı dodaqlar kimi
cadar-cadar kəndimizə
Düşünürəm:
bu ildəmi
traktorların sükanına,
alaqların tikanına,
kətmənlərin sapına
hədər yerə töküləcək
neçə insan alnından axan tər?

Bu misralar 1962-ci ildə yazılmış «Nigaranlıq" şeirindəndir. Yaxud 1961-ci ildə yazdığı kiçik «Yağış» şeirini alaq:

Neçə gündür yağış yağır.
Necə yağır, necə yağır,
Səhər yağır, axşam yağır,
Gündüz yağır, gecə yağır.
O yanda səhralar yanır,
burda yağış heçə yağır.

60-cı illərdə - «Bolşevik yazı»ndan otuz il sonra yazdığı şeirlərdə də təbiət gözəlliyinin vurğunu olan Rəsul Rza, eyni zamanda təbiətin hər fəsadının, hər şıltaqlığının insanlara nə verə biləcəyi barədə düşünür-xeyir-bərəkətmi, bəla fəlakətmi?

Sevirdim
Dəli-dolu gur yağışları,
tarixi dünya qədər qədim
insansız partlayışları,
Sevirdim...
Yenə şaqqıldayır göylər,
Şimşəklərr ətrafa işıq tökür.
Ancaq.,,
Nigaranlıqda susub sevincim.
Mənə elə gəlir ki,

Hər yerə tökülür bu yağış,
fələstinli qaçqınların,
güllələrdən dəlik-deşik
çadırlı düşərgələrinə...

(1974)

Bu şeirin yazılış tarixindən on səkkız il sonra gur yağışlar yağanda artıq tək fələstinlilərin deyil, ilk öncə öz xalqımızın - qismətləri çadırlarda yaşamaq olmuş qaçqınlarımızın nigaran-çılığını çəkirik.

Uzun zaman susuzluqdan cadar-cadar olmuş torpağın yağış həsrəti də, qəflətən yağıb əkini məhv edən dolunun məşum gücü də şairi ağrıdır, hətta ən uzaq mətləbləri qələmə alanda belə bu qəfil ağrı qəlbini rahat buraxmır.

«Olum, ya ölüm» adlı məşhur Hamlet monoloqunun misrasıyla başlayan şeir gözlənilməz dönüşlə bitir:

Gözlərimi açdım.
Pəncərədə yandırdım günəşi...
İstədim çağıram Hamleti də,
Layerti də
Deyəm: balalarım!
Atın ədavəti, kini!
Xəbəriniz varmı,
dünən dolu vurub
dağ ətəklərində əkini.

(may, 1966)

Bu misallar da, bu yazıda sonralar gətirəcəyim və əlbəttə, hamısını gətirə bilməyəcəyim örnəklər də aydın şəkildə bir həqiqəti göstərir: Rəsul Rza yaradıcılığında 50-ci illərin ikinci yarısı, 60-cı illərdə kardinal bir dönüş olduğunu, tamamilə yeni bir səhifə açıldığını israr edənlər yalnız qismən haqlıdırlar. Həqiqətən də Nazim Hikmətin dediyi kimi, əsrin ikinci yarı-sında Rəsul Rzanın sanki yeni nəfəsi açılmışdır. Nazimin

R.Rzaya həsr olunmuş məqalələrindən biri məhz elə «İkinci nəfəs» adlanır. Ancaq onu da unutmaq olmaz ki, bu yeni dövr yaradıcılığının bir çox mövzuları, məzmunları, ovqatları otuzuncu illərdən gəlir. Yeni forma axtarışları, sərbəst vəznin müxtəlif intonasiyalarını, bölgü və qafiyə prinsiplərini yeni-yeni imkanlarla zənginləşdirmək işinə də Rəsul Rza poeziyada ilk addımlarından başlamış, ömrü boyu bu işi davam etdirmiş və son dövr yaradıcılığında zirvələrə ucaltmışdır. Əsrin ikinci yarısında 50, 60, 70 yaşlı şairin yorulmaz gənclik ehtirası, cavanlıq həvəsi və şövqüylə apardığı axtarışları, eksperimentçiliyi qibtə ediləcək təəccüb doğurur, amma axı bu forma, səs düzümü, alliterasiya təcrübələrinə də Rəsul Rza otuz, qırx, əlli il qabaq başlamışdı. 1933-cü ildə yazılmış «İlk səfər» şeiri sözlərin vasitəsilə qatarın, paravozun hərəkət səslərini verməyin orijinal eksperimentidir:

Yenə qar, yenə qar!..
Uzanır yollar...
Qatarım fikrimi anlamış kimidir;
relsləri, tıq-tırıq səsləyir...
Alınız!
Redaktor, redaktor, redaktor!..
Qatarım dillənir:
Neçə-neçə
şamlı yollar keçə-keçə
gəlmişəm.
Aç keçim! Aç keçim!
Yolumdan qaç, keçim!
Neçə çamlı yollar aşdım,
Çamlı yolda yuxu qaçdı.
Qaça-qaça qatarım tövşüyür
və deyir:
Mos...sss...kva....
Odur, odur qarşımda
paravoz buxarı qıvrılır

Moss...sss....kva...
Elə bil bağırır:
Qaravuuuul!
Qatarım deyəsən yorulub,
Əfsussss....

Eyni eksperimentçilik həvəsi Rəsul Rzanın otuzuncu illərdə yazdığı başqa şeirlərində də aydın sezilir. Qəribə bir ithafı - RƏSUL RZAYA ithafı olan «Adsız şeir»də oynaq və şux gənclik şıltaqlığı duyulur:

Günəş intihar etməz,
Eh, ona nə var ki!..
Ay onun işığıyla parlayır, hər kəs bilir.
Lakin aylı gecələr
daha xoş görünürsə,
bunun suçu kimdədir?
Suyu doğramaq olmaz.
Eh, ona nə var ki!
Ən iti bir xəncəri
O, bağrında saxlayar.
Lakin könül bir sözdən
dərin yara alırsa,
əcəb, kimdir günahkar?..
Bir gün dedim ki, xəyal...
Eh, ona nə var ki!..
Onunçün nə bir hüdud,
nə zaman, nə məkan var.

1935-ci ildə yazılmış «Aldanış» şeiri təşbehlərin, ifadələrin orijinallığı ilə diqqəti çəkir:

Bir ömürlük hicran var günəşlə aramızda
O məni görür, mən onu.
Nə yazıq ki, dəyişmir yolunu

dərd anlamazlar kimi
Aramızda hicran var bir ömürlük.
Bənövşə göylərdə buludlar bölük-bölük,
Kölgələr uzanır ayaqlarıma,
Gölgələr mehriban köpək,
Dırmanırlar qucağıma titrəyərək.
Günəş uzaşır,
Kölgələr boy atır,
Göydə son aydınlıq sönür.
Gölgələr qucaqlaşır,
dərin bir axşam olur,
Hər tərəfdən bürüyür məni axşam,
Hər yer qara.
Qara bir toz səpilmiş boşluqlara.
Axşamla üz-üzə dururam,
Gözlərinə baxaraq ondan soruram:
Axşam, neçin gecikdin, neçin?
Aradığın uzaqdı - qanlı qanad göyərçin
Axşam, yazıq axşam, yazıq axşaml.
Məndən də təkmisən ki,
bir kölgən belə yoxdur...
O dinməyir, o susur.
Axşam susur ay doğana kimi,
Ay sulardan boylanır
qırıq qanad sona kimi.
Ay çıxarır kölgələri
qaranlığın bağrından.
Baxıram sarı yarpağa,
Axşam qaçmış irağa.
Düşünürəm uzun-uzun,
Demək, aya umudu varmış bu qara yolsuzun.
Əllərim boşluğa uzanır,
Bağrım od tutub yanır,
Bağırıram səsim gəldikcə
Axşam!Axşam!Axşam!

Mən də bu yalnızlığı
boğmaq eşqilə sərxoşam.
Ağlayır axşam mənə,
Ay mənə gülür,
Ayılıram...
pəncərəmə lalə günəş tökülür.

«Çinar» kitabında(1939) dərc olunmuş bu şeir otuzuncu illərin nikbin, həyatsevər ruhunun deyil, ən son misra istisna olunarsa, küskünlük, bədbinlik, tənhalıq ruhunun ifadəsidir. «Sosialist realizmi» metoduyla yazması tələb olunan sovet şairinin şeirindən daha çox sovet tənqidinin damğaladığı «dekadent ədəbiyyatı»nın nümunəsini xatırladır. Otuzuncu illərin lirik «Lövhə», «Yadıma düşdü», mələklərin ruhundan bəhs edən «Qanadlar» şeirləri də əsla o dövrün ictimai-siyasi və estetik meyarlarıyla uyuşmur. Aydındır ki, lap elə otuzuncu illərdə, gənclik çağında da şairin qəmli ovqatı, tənhalıq dəqiqələri az olmayıb, amma o illər qəmindən yazanda belə «qüvvət qəmidir, könlümdəki qəm» deməyə məcbur olurdu» («Buludlar»).

***

1918-ci ildə Azərbaycanda ilk müstəqil Cümhuriyyət qurulanda Rəsulun, deyildiyi kimi 8, bu hökumət deviriləndə 10 yaşı vardı. Təbii ki, əyalət şəhərində yaşayan 8-10 yaşlı uşaq bu dövlətin mahiyyəti haqqında çox az məlumata malikdi. Doğrudur, çox sonralar: «O yazıqlar az müddətdə çox iş gördülər, - deməyi də yadımdadır,- daha artıq iş görməyə tarix imkan vermədi».

Yeniyetməlik çağından isə Sovet dövründə təlim-tərbiyə almışdı və yeni xoşbəxt, azad həyat quruculuğu şüarları ilə meydana çıxan quruluşu səmimi qəlbdən qəbul etmişdi. Otuzuncu illərin ortalarına qədər bu quruluşun ədaləti və həqiqəti haqqında demək olar ki, heç bir şəkk-şübhəsi yox imiş. Bu danılmaz bir gerçəklikdir. O da həqiqətdir ki, yara-

dıcılığında həmişə səmimi olan Rəsul Rzanın bu illərdə yazdığı əsərlərdə yuxarıda gətirdiyim ayrı-ayrı istisnalarla, bu inqilabi ruh, komsomol-kommunist ruhu tamamilə təbiidir. Bunu danmaq olmaz və danmaq lazım da deyil. Amma məhz elə həqiqət naminə onu da inkar etmək olmaz ki, ədəbiyyata gəldiyi ilk günlərdən Rəsul Rza yalnız təqdirlə deyil, bir çox ictimai və ədəbi maneələrlə qarşılaşmışdır.

1934-cü ildə Azərbaycan Sovet Yazıçılarının ilk qurultayında şeirimiz haqqında rus dilində məruzə edən Azərbaycan K(b)P MK katibi, milliyyətcə erməni olan Çubar sətri tərcümələr əsasında(və heç şübhəsiz, «özümüzünkülərin» şeytançılığı ilə) Rəsul Rzanın yaradıcılığını kəskin tənqid etmişdir.

Rəsul Rza Sabit Rəhmanın xatirəsinə həsr etdiyi poemasında yazırdı:

Az olmayıb bu ülfəti
bizə çox görənlər.
Mənə general baba yamadılar,
sənə ad qoydular: «daşa girənlər».
Birinci qurultayımıza
sən nümayəndə getdin,
mən qonaq.
Şeirdən məruzə etdi,
bir yumruyanaq.
Nə şeirin dadını bilirdi,
nə duzunu.
Dili tutmurdu
Şeir, sənət sözünü.
Oxuduğu
beş-on sətri tərcümə idi.
İnanmaz, desən, hər kimə indi.

O günlərdə «Ədəbiyyat qəzeti»ndə çıxan bir məlumatda Yazıçılar İttifaqına ərizə verib qəbul olunmayanlar sırasında Rəsul Rzanın da adı var. İttifaqa qəbul edilməmiş, iyirmi

adamdan yalnız sonralar folklorçu alim kimi fəaliyyət göstərən Hümmət Əlizadənin, dilçi Əzəl Dəmirçizadənin, Osman Sarıvəllinin və Qurban Musayevin adları tanışdır. Qalanlar ədəbiyyatda ya elmdə hcç bir iz qoymamış adamlardır. Və Rəsul Rzanı da onların arasına salıblar...

Rəsul Rzaya qarşı belə münasibətin səbəbi nə idi? Müəyyən dərəcədə öz təbiətinin xüsusiyyətləri - məğrurluğu, ötkəmliyi, dikbaşlığı. Yaxın dostu Sabit Rəhman «Hər şeyin təzəsi, dostun köhnəsi» adlı yazısında ilk gənclik tanışlıqlarını xatırlayaraq qeyd edir ki, «Rəsul ciddi, xəyalpərvər, eyni zamanda sərt, söz götürməyən bir oğlan idi». Amma Sabit Rəhman Rəsul Rza haqqında bu təsəvvürün yalnız ilk təəssürat olduğunu da vurğulayır: «Mən ona ilk dəfə «Gənc işçi» redaksiyasında rast gəldim. Pərişan saçlı, göygöz, göyçək bir oğlan idi. Uzaqdan forslu görünürdü, ancaq yaxından tanış olub gördüm, yox, sadədir, səmimidir, əsl xalq oğludur, fıkri, məqsədi aydın, ürəyi şairanə hisslərlə doludur. Bir anda dostlaşdıq. İndi budur, o günlərdən otuz il keçib, bu dostluğa bir dəfə də olsun ləkə düşməyib».

Rəsul Rzanı yaxından tanıyan başqa bir dostu, bəstəkar Tofiq Quliyev şair haqqında xatirələrində yazır:

«Mən tanıdığım insanların bir qismi Rəsulu kobud sayırdılar, bir hissəsi çox mülayim, bir hissəsi sərt, bəziləri gözəl, bəziləri çirkin hesab edirdilər. Mənim üçün Rəsul həmişə bir gözəl kişi idi, həmişə sifətində, dodaqlarında təbəssüm. Mən həmişə təəccüblənirdim, axı niyə belədir, niyə Rəsul haqqında rəylər bir-birindən belə kəskin fərqlənir. Çox sonralar anladım ki, Rəsul öz daxili hisslərini gizlətməyən bir adamdır. Yaxşılarla yaxşı, mülayimlərlə mülayim, kobudlarla kobud, bədxahlarla, dönüklərlə sərt idi» («Rəsul Rzanı düşünərkən», «İki ömrün işığı» kitabından).

Tənqidçi Qulu Xəlilovun 60-cı ildə yazdığı və yalnız 2002-ci ildə jurnalist Mirəvəz Rəhimovun arxivdən tapıb «525-ci qəzet»də ilk dəfə çap etdirdiyi (13 aprel 2002) «Xalq şairi» adlı məqaləsində deyilir:

«Rəsul Rza çox az əsərlərində, bəlkə də heç birində deməyib ki, «vətən sən mənim canımsan, gözümsən». Lakin onun bütün yaradıcılığı xalqa, vətənə xidmətin ən ləyaqətli nümunəsidir...

Rəsul Rzanın şeirimizə gətirdiyi forma poeziyamızda, çox az, bəsit şəkildə işlənib. Rəsul Rza bu formanı gətirməklə şeirimizin ifadə tərzini çox-çox zənginləşdirib. Lakin bununla bərabər, o, öz şeirlərinin kütləviləşməsinə, hamı tərəfindən eyni dərəcədə mənimsənilməsinə mane olub. Bu cəhət Rəsul Rzanın özünə çox ziyan verib. Qoşmaçılar, qəzəlxançılar, köhnə qafiyə dəllalları «yuxarı» başa keçib...

Məsələni çətinləşdirən digər cəhət Rəsul Rzanın şəxsi təbiətidir. Onun təbiəti polad kimi saf, möhkəmdir. Sabit Rəhman demişkən o, kənardan bir qədər «forslu» görünür. Bu cəhət də onu tanımayanlara yaxşı təsir bağışlamır. Əslində isə, Rəsul Rza son dərəcə sadə, səmimi, həssas və qayğıkeş adamdır. Hər parıltını qızıl saymaq, hər hay-küyə əl vurmaq, hər eşitdiyinə inanmaq, axşam dediyindən səhər üz döndərmək, sağ üzünə vuranda solu çevirmək kimi sifətlər onun ağıllı başına, təmiz qəlbinə yaddır. Öz karyerasını qorumaq və irəli getmək üçün məsləkindən, əqidəsindən əl çəkib, əli döşündə qul kimi dayanıb, nahaq yerə «tövbə-tövbə» demək də onun təbiətinə ziddir...

Rəsul Rza həqiqətən məslək, əqidə adamıdır. Rəsul Rzanın şəxsiyyətini yaxşı tanımayanlar da onun əsərlərini tam dolğunluğu ilə başa düşə bilməz. Rəsul Rza şəxsiyyəti əsərlərindən də dərindir, məzmunludur, hərtərəflidir. Onun təbiəti sakit və mülayimdir. Sərbəst şeirin forması onu sürətlə oxuyub keçməyə imkan vermədiyi kimi, Rəsul Rzanın da xarakteri ona tələsik qiymət verməyə imkan vermir. O, prinsipial və dönməzdir. Bütün bunlar onun əsərinin qiymətləndirilməsinə bəzən nahaq yerə mane olub.

...Rəsul Rza istedadlı şairdir. O, heç kimə bənzəmir, heç kimi təqlid etmir. Rəsul Rza mədəni şairdir. Rəsul Rza savadlı şairdir. Rəsul Rza mütəfəkkir, əqilli şairdir. Rəsul Rza orijinal

novator şairidir. Ən başlıcası və əsası isə Rəsul Rza vətəndaş şairdir... Belə istedad həm onun sahibi, həm də xalq üçün xoşbəxtlikdir. Rəsul Rza məhz belə xoşbəxtlərdəndir».

Fikrət Qocanın «Rəsulsuz ilk dəqiqələr» poemasında da atamın təbiətinə aid dürüst müşahidələr var:

Ömrü boyu öz xasiyyətini
danırdı Rəsul,
Özünün kövrəkliyindən
utanırdı Rəsul.
Elə bilirdi yüz ağac boyundan görünür
kövrək olduğu.
Sinəsində körpə ürəyi kimi
bir ürək olduğu.
Sərtliyi üzünə, sözünə yaxırdı,
Bəzən sərtliyindən
Öz nəfəsi də darıxırdı,
Göz yaşları içinə axırdı.

Dilə tuturdu özünü,
«Zorla dost tutma,
dostun var, dostluq elə.
Yoxdur, tək gəz,
Kişi kömək eləyər,
Kişi kömək istəməz.»

Bu cəhətdən Rəsul Rzanın özünün də yazdığı «Təklif» şeiri onun xasiyyətinin və təbiətinin həqiqi mahiyyətini dərk etmək üçün açardır.

İnsanlar,
Ey insanlar!
Məni hərdən incidib,
könlümü sındıranlar!
Axtarın bu qəlbimi,

Bir caninin dolaşıq
cinayət yollarını
Gəzib axtaran kimi.
Orda sizlərə qarşı
nə bir parça ədavət,
nə də kin görərsiz.
Bəlkə tənə daşından,
büllur kimi qırılmış
ürəyimin
qızıl qan verdiyin görərsiz.
Elə günlərim oldu
əl uzatdım dostlara
Əlim havada qaldı.
Bildim yaman gündəyəm.
Bitməz bu giley-güzar,
Bir an ara vermədən,
oturub yüz gün deyəm.
Oddan, atəşdən belə,
şikayət eləməzdim,
söz yarası olmasın!
Çirkin qəlbdə bəslənib,
Acı dildən süzülən
iftiranın, qeybətin
tünd qarası olmasın!
Yoldaş, qardaş, vətəndaş,
Düşmə sözün toruna!
Düşmə həsəddən doğan,
qara məqsəddən doğan
yalan sözün toruna!
Mən də adi insanam.
Nə başdan-başa tərif
nə də cılxa nöqsanam!..

(1954)

Rəsul Rzanın insanlarla adi təmasında da, bəzi şeirlərində də sərt davranışını, dediyi ya yazdığı kəskin sözləri, «acıdilliyini» onun təbiəti və xasiyyətiylə deyil, bioqrafiyasının faktlarıyla, ömür yolunun çətinlikləriylə, yaradıcılığına və şəxsiyyətinə çox vaxt anlaşılmazlıq və düşmənçilik göstərən mühitlə bağlamaq lazımdır. Bunu həm nəsildaşları arasında atamı yaxşı tanıyan insanlar, həm də sonrakı cavan nəsillərin ən həssas nümayəndələri doğru-düzgün dərk ediıdilər.

Abbas Zamanov yazır:

1940-cı ildə, Rəsul Yazıçılar İttifaqının sədri olanda mən «Ədəbiyyat qəzeti»nin məsul katibi idim. Rəsul qəzetin işi ilə yaxından maraqlanardı. Biz demək olar ki, hər gün görüşərdik. Rəsul qrafomonları sevməzdi, onlarla açıq-açığına mübarizə edər, işdəki nöqsanlarla barışmazdı. Yersiz dedi-qodulardan, böhtanlardan nə qorxardı, nə də çəkinərdi. Buna görə istəməyənələri çox idi. Onların sayı getdikcə artırdı. Bir dəfə Cəfər Cəfərov (Cəfər onda Yazıçılar İttifaqının katibi idi) ona dedi: Ay Rəsul, hər gün düşmən qazanırsan, dilinin altına bir qırıq qənd qoysana!

Cəfərə cavab olaraq Rəsul Rza Sabirin aşağıdakı misralarını xatırladı:

Yaşadıqca çoxaldı düşmənimiz
Nə edək, doğru söylədi dilimiz.»

(A.Zamanov. «Kişi şair»)

Rəsul Rza Sabirin bu sözlərini Abbas Zamanovun xatırladığı gündən otuz, qırx il sonra da təkrar edə bilərdi və bu sözlər söylənən zaman (1940, cı ildə) dünyaya gəlmiş İsa İsmayılzadənin qırx il sonra qələmə aldığı fikirləri də bunu təsdiq edir:

«Sərt, sözün yaxşı mənasında amansız, boynu büküklüyə, yaltaqlığa, simasızlığa, boğazdan yuxarı deyilmiş şirin-şəkər sözlərə qarşı barışmaz, mehribançılığını, qayğıkeşliyini çox vaxt içində gizlədən, açıq-aşkar dosta dost, düşmənə düşmən olan bu şairlə, neçə dəfə üz-üzə söhbət eləmiş olsan da,

arxayın-arxayın danışmaq o qədər də asan deyildi. Artıq bir söz işlətsən yerində sərt üz göstərəcəkdin: Mətləbə gəlib çıxmaqdan ötrü çox uzaqlardan başlasan sözün ağzında yarımçıq qalacaqdı, fikrini açıq deməyə çətinlik çəksən yenə eləcə: «Qurtar, «mıs-mıs» deyincə, Mustafa de!» deyəcəkdi. İndi görürəm ki, yalançı üzgörənlikdən, günlərlə, aylarla cavan yazanları get-gələ salıb şirin-şirin vədlərlə ovundurmaqdan, aldatmaqdansa, hamının yanında «yaxşı kişi» olmaqdansa, elə Rəsul Rza kimi sərt, «ətacı» olmaq min pay yaxşı imiş. Onun ən yaxın dostlarından biri, oturub-duranda zarafatından qalmayan Sabit Rəhman Rəsul müəllimin şəkər xəstəliyinə tutulduğunu eşidəndə yenə də məzələnib demişdi: «Hə, Rəsulun bütün şəkəri dilindədir».Yox, bu «şəkər» Rəsul Rzanın dilində yox, qəddar zamanın, amansız mühitin ruhunda, havasında, zəhərində idi. Mühitin zəhəri ilə nəfəs ala-ala 30-cu illərdə, 50-ci illərin ikinci yarısında, 60-cı illərin əvvəllərində qərəzli tənqidin kəsafət qoxulu havasını uda-uda necə gülərüz, şirindil ola - bilərdi? Bəlkə, «ədəbi mığmığalar» onu belə sərt, amansız eləmişdi? ...1973-cü ildə Rəsul Rza Moskvada ölümlə əlbəyaxa olanda Yazıçılar İttifaqında keçirilən müşavirədə şeirləri kəskin tənqid atəşinə tutulurdu. Tənqidə dözməyə nə var ki... O zaman rəhbər partiya işçiləri də, adlı-sanlı şairlər, ədəbiyyatşünaslar da müəllifi, indi adamın dilinə gətirmək istəmədiyi sözlərlə təhqir edirdilər...Bütün bu tikanlı sözləri içindən keçirə-keçirə yaşayan şairin halını təsəvvür edirəm; beləcə atmacalı, kinayəli iradlar get-gedə sərtlik, dözüm qalxanına dönürdü, onda barışmadığı hər şeyə qarşı nifrət, qəzəb doğururdu» (İsa İsmayılzadə. «Neçə dostu sağ görmədim», «Xatirələr işığında» kitabında).

Amma bütün bu düz müşahidələrlə bərabər onu da deyə bilərəm ki, tənə daşlarından çilik-çilik olmuş qəlbi sərtləşməmişdi, kövrək, özgə dərdinə həssas bir ürəyi vardı. Qələm yoldaşlarının, hətta ona yaxın olmayanların belə ağır günlərində onlara necə acıdığının şahidiyəm. Cəbhə dostu Əli Vəliyevin oğlu, çox yapışıqlı bir insan olan Məsudun intiharı da, Qasım

Qasımzadənin oğlu Fəxrəddinin, Hüseyn Arifin oğlu Arifin faciəvi ölümləri də atamı ürəkdən sarsıtmışdı. Xalq yazıçısı Elçin televiziyayla çıxışında xatırlayırdı ki, Əliağa Kürçaylının və qızı Ülkərin müsibətini Yazıçılar İttifaqında eşidən Rəsul Rza necə ağır dəqiqələr keçiribmiş. Bir müddət sonra bu faciəyə şeir də həsr etdi:

Gözlərin yumuludu,
Rəngin solğun ay işığı.
Soyuq üzündə qaşlarının yaraşığı.
Çağırsam, dinməyəcəksən, bilirəm,
ən mehriban, ən yanıqlı sözlərdən
İsinməyəcəksən, bilirəm.
Hansı varaqdadır son sətrin, bilmirəm.
Son şeirinin kəlmələri
Pərişandır, ya çin-çin, bilmirəm.
Deyilməmiş, yazılmamış
nələrin vardı kim bilir.
Dərdini, qara iplik kimi
bədəninə yol açan amansızlığı
həkim bilir.
Sən ki, kişi oğlu kişiydin.
Qardaş, bu nə taledi, bu nə işdi?.
Günlər keçəcək.
Şeirlərin gəzəcək dodaq-dodaq, sənsiz.
Məhəbbətin gəzəcək
ürək-ürək, sənsiz.
Kim bilir, bəlkə payına düşən
Həyat günlərinin bir bölümünü
xoşbəxt oldun.
Görmədin,
Əziz balanın faciəli ölümünü.

(1980)

Əfsus ki, «Ürəyi pambıq, dili bıçaq» (Vaqif Səmədoğlu) Rəsul Rzanın ilk baxışdan sərt, hətta kobud, təkəbbürlü, forslu olması haqqında təəssürat çoxlarında elə indiyədək qalmaqdadır. Ola bilsin ki, ona qarşı ilk gənclik çağlarından bir para adamların mənfi münasibəti məhz bununla bağlıdır. Ancaq bu cəhət yalnız şəxsi münasibətlər müstəvisinə şamil edilə bilər. İctimai həyatda Rəsul Rzaya bütün dövrlərdə arasıra meydana çıxan yad, soyuq münasibət ya açıqca kəskin hücumlar başqa səbəblərlə əlaqədar idi: onun poeziyasının bənzərsizliyi və bu bənzərsizliyiylə çox adamı qıcıqlandırması, bu bir. Müstəqil, dəyişməyən, haqq bildiyi məsələdə güzəştsiz, barışmaz mövqeyi, bu iki. Polemik xarakterli kəskin ifşaedici, satirik şeirləri (çoxları onun damğaladığı personajlarda özlərini tanıyırdılar), qarşısında kim olur-olsun ağına-bozuna baxmadan sözü o adamın üzünə şax deməsi, bu üç... O dövrün yüksək rütbəli məmurlarından biri hansı məclisdəsə atama söz atmışdı. Söhbət heyvandarlıqdan düşəndə atam eşitsin deyə bərkdən: «Deyirlər, Göyçayda heyvan yaman çoxdur»-demişdi. Rəsul Rza dərhal cavabını vermişdi: «Bilmirəm çoxdur ya azdır, demişdi, amma sən ora getsən, bir baş artar».

Necə deyərlər: «Demə, eşitmə».

Rəsul Rzaya bu sayaq münasibətin başqa səbəblərini də göstərmək olar. Amma rəsmi ögey münasibətin bir əsas səbəbi də vardı: Rəsul Rzanın sosial mənşəyi...

«Ömürdən səhifələr» adlı şeirində yazırdı:

Babamın adı sanı
bir anket dolusu.
Çoxu yox,
Azı hə.
İnqilabi fəaliyyət yox.
Fəhləlik yox.
Xaricdə qohumum həm hə, həm yox,
Qırx il görmədik, yazışmadıq,
Hardan qohum olduq.
Oktyabrda iştirak etməyib,

Nikolaya soldat getməyib.
Diqqətlə yoxlayan olsaydı
Bu «hə»ləri, «yox»ları
Xan Məmməddən
Cülfa Rzaya qədər
acları, toxları
yəqin dərkənar qoyardılar anketimə:
Qoy oxusun, işləsin,
Mane olmayın yetimə!
Ancaq işləmək üçün
Həmkarlar üzvü olmaq gərəkdi.
Üzv olmaq üçün işləmək,
İndi qoçaqsan, gəl,
əsrin bu düyününü aç görək.

Rəsul Rza ömrü boyu bu kimi müxtəlif düyünləri açmaq məcburiyyətində qalıb. Nəsillərində varlıların, sovet ideolojicinin diliylə desək, «sinfi istismarçıların» olmamasına, Türkiyədəki qohumu Nigar Rəfibəylinin böyük qardaşı Kamillə qırx il heç bir əlaqə saxlamadıqlarına baxmayaraq, Rəsul Rzanın anketi yenə də «təmiz» sayılmırdı.

Xan nəvəsi ola-ola,
ərizə verəsən komsomola?

Bu misralar 60-cı illərdə yazılıb, yəni o vaxtlarda ki, artıq belə mövzulara az-çox toxunmaq olurdu. Amma önəmlisi odur ki, bu ağrılı mövzuya Rəsul Rza hələ otuzuncu illərdə, yəni Sovet cəmiyyətinin ədaləti haqqında ilk şübhə toxumları qəlbinə yeni-yeni səpildiyi vaxt müraciət edib. Bu illərdə «Torpaq olmuş sümüklər» adlı bir şeir yazıb (Daha doğrusu, o vaxt şeirin adı «Torpaq olmuş kəmiklər» olub. O vaxt bizdə də işlənən «kəmik» kəlməsi Türkiyə türkcəsində sümükdür, sümük isə bu dildə yaxşı söz deyil). «Kəmik» özünü və kəlmələrin o

vaxtkı yazılışını saxlamaqla həmin şeirdən bir neçə sətir misal gətirirəm:

Hey...
Nələr çəkmədi Rzanın başı!
Atdığım hər addımda
Kəmiklər çıxdı qarşıma.
Kəmiklər bəndləndi,
Kəmiklər kəməndləndi,
Kəmiklər buraxmadı iləri.
Mən gördüyümdən
yeddi qat artıq
iş görərdim,
qəlbimdə gəzdirdiyimdən
yeddi qat az olardı
qayğım, möhnətim, dərdim,
neçə yolun başında,
neçə günün, neçə ayın,
neçə ilin savaşında
kəmiklər bəndlənməsəydi,
kəmiklər kəməndlənməsəydi,
kəmiklər çıxmasaydı qarşıma
amansız bir qərar kimi.
Kəmiklər bağlamasaydı yollarımı
kərpicdən ağır
çuğun divar kimi!
Dönə-dönə varaqladılar
yaşımdan yaşlı
günlərimin, illərimin
sarı yarpaq kitabını.
Bəsdir, yetər!...
Neçin, neçin verməliyəm
topraq olmuş kəmiklərin
hesabını?..

Məsələ yalnız XIX əsrdə yaşamış, sümükləri çoxdan çürümüş ulu babası Məmməd xanda deyildi. Məsələ bir də on-

daydı ki, Rəsulun əmisi Qafar Məmmədxanlı Müsavat Partiyasının Göyçayda təmsilçisi imiş. Qafar əmi Mirzə İbrahimin ölümündən sonra qardaşı ailəsinə bir müddət himayədarhq edib, sovet rejiminin ilk günlərindən isə həbsə alınıb. 20-ci illərdə bir ara azadlığa buraxılmış, sonra yenidən həbs olunmuş və sürgünə göndərilmişdi. Otuzuncu illərdə növbəti dəfə azadlığa çıxdıqda 36-37-ci il repressiyaları başlanması ərəfəsindən ta 42-ci ilə, ömrünün sonuna qədər hökumətdən qaçıb Gürcüstanda gizlənmiş, bütün axtarışlara baxmayaraq özünü ələ verməmişdi. Onun ağır qisməti, atamın həm əmisi, həm xalası oğlu, yazıçı Ənvər Məmmədxanlının da taleyinə ömrü boyu kölgə salıb. Ə.Məmmədxanlının hətta inqilabi mövzuda yazdığı «Şərqin səhəri» pyesi Stalin mükafatına layiq görülərkən tamaşanın rejissoruna, rəssamına, aktyorlara, bir sözlə, hamıya mükafat verildi, tək bir əsərin müəllifindən başqa.

***

Rəsul Rzanın həyatından danışarkən doğma qardaşı olmayan atamın doğma qardaşdan da yaxın əmisi və xalası oğlu Ənvər Məmmədxanlı haqqında bir neçə kəlmə deməmək mümkün deyil. Ənvərin çətin taleyi və məğrur, əyilməz şəxsiyyəti haqqında mən onun ölümündən sonra yazdığım «Həyatım ağrıyır» adlı essemdə ətraflı bəhs etmişəm. Burada isə onun atamla münasibətləri barədə danışmaq istəyirəm. Ənvər Məmmədxanlı Rəsul Rza və Nigar Rəfibəyli haqqında «İki ömrün işığı» adlı məqalələr, xatirələr, şeirlər kitabına Ön söz yazmışdı. Nə atam, nə Ənvər heç vaxt bir-birinə olan böyük sevgilərini üzdə bıruzə vermirdilər. Ancaq atamın vəfatından sonra, dediyim kimi, yazdığı Ön sözdə Ənvər belə bir etiraf edir:

«Rəsul Rza bir ömür boyu mənim üçün nəinki bir dost, bir yoldaş və böyük qardaş idi, o eyni zamanda ta uşaqlıq illərindən mənə müəllimlik eləmişdi və həmişə mənim üçün örnək olmuşdu... Rəsul Rza həyatında çox ağır sınaqlara məruz qalmışdı, çünki, hər bir böyük istedad hər cürə bəlanı özünə

doğru çəkən bir maqnit kimidir, amma Rəsul ömrü boyu çox sevinclər də duymuşdu, ailəsilə həmişə xoşbəxt olmuşdu, evi qonaqlı və bayramlı idi, təklikdən qaçınırdı, ünsiyyəti və yumoru sevirdi, fədakarlıq nümunəsi bir şairə həm həyat, həm qələm yoldaşı idi ki, bu misilsiz fədakarlıq haqqında Anar çox dəqiq demişdir: «Atamın yazdığı hər bir şeir, mənim yazdığım hər bir hekayə anamın yazmadığı bir şeir və hekayədir».

44-cü ildə Təbrizdə olarkən Bakıdan aldığım məktubların birində Rəsul yazmışdı ki, «... özün bilirsən ki, bir şair üçün ən çətin şey şeir yazmaqdır». Bu həqiqətən də belədir, çünki şair olmayanlar üçün də ən asan şey şeir yazmaqdır» («İki ömrün işığı» kitabında).

Həmin ön sözdə Ənvər özündən üç yaş böyük Rəsulun balaca vaxtı ona say öyrətməsindən, «yedi» yox, «yeddi» de» tövsiyyəsindən müharibə dövrünün epizodlarınacan, Göyçayda keçən uşaqlıq illərindən Rəsul Rza ömrünün son günlərinə qədər çiyin-çiyinə, ürək-ürəyə yaşanmış bir həyatın müxtəlif anlarıın xatırlayır:

«Rəsul Rza o uşaqlıq illərində mənim üçün heç də səbirli, hövsələli bir müəllim deyildi və «müəllim» özü «şagirdindən» daha çox nadinc olduğu halda, tez-tez mənə acıqlanırdı. Sonralar da bəzən mübahisələrimiz olurdu, yaxud mənim bu və ya digər bir hərəkətimdən narazı qalırdı. Uşaqlıq illərimizin ən böyük arzusunu yada salmaq istəyəndə hafızəmdə iz salan budur ki, bizim ən böyük arzumuz səyahət idi. Və bir dəfə, yazda Göyçayın üstündəki Boz dağa yemlik, turşəng, qüşəppəyi yığmağa gedəndə, hansı bir təpə başındasa uzaqlara baxarkən, Rəsul mənə demişdi ki, heç kəsə demə, bu yaxınlarda evdən qaçarıq, baş alıb gedərik, bütün dünyanı gəzərik... O vaxt uşaqlıq illərində evdən qaçmaq məsələsi baş tutmamışdı, amma sonralar Rəsul Rzaya az qala dünyanın yarısını gəzmək nəsib olmuşdu»

Bu yaxınlarda Rəsul Rzanın arxivindən Ənvər Məmmədxanlının ona Təbrizdən və cəbhədən yazdığı məktublarını və atamın cavablarını tapdıq. Ənvər Təbrizdən yazırdı:

«Burdan əliboş qayıtmaq istəmirəm. Günlər yaman gedir, ömür atı elə bil ki, cilovunu qırıb dördnala çapır. Saxla görüm, necə saxlayacaqsan? Bilmirəm bizim nəslimizdə Oblomov kim olubdur ki, məşum kölgəsi bizi dabanbadaban izləyir. Yox, bu da düz deyil. Biz sadəcə əməklə sərxoş ola bilmirik. Tolstoyun təqribən belə bir fikri vardır ki, «В жизни пьянство необходимо, если не пьянство наслаждения, то пьянство труда»... Hələ bu bir ayda məqalələrdən başqa heç bir şey yazmamışam. Gecələr sənət ilahəsi istehza ilə qulaqlarıma pıçıldayır, ömür yarı, saray hanı?

Ənvər
03.05.1944»

«Qardaşım Ənvər! Məktubunu aldım. Bizi soruşsan, hələlik sağ və salamatıq. Bizim evdəki camaat səndən nigarandır. Sən iş arasında olsa da, məktub yaz, xalan təşviş və nigarançılığa düşməsin. Cəbhə böyükdür, hər şey ola bilər. Bizim Kamal sağalan kimi cəbhəyə gedib. Məlum deyil hardadır. Niyazidən xəbər yoxdur. (Kamal əmilərinin nəvəsi, Niyazi - Ənvərin kiçik qardaşıdır. Hər ikisi cəbhədəydilər A.) Gərək indiyə qədər kağızı gələydi. Bir xəbər olsa sənə yazaram. Çarə nədir, gözləməliyik. Kamalın, Niyazinin yerini bilsən, bizə yaz. Əvvəlcə bizə məlum olsa sənə yazaram. Buralardan heç nigaran olma. Mən tez-tez sizə gedirəm. Sən məktublarında çox hissə qapılma və darıxma. Bakı gördüyün kimidir. Bu saat gecədir, saat 2-dir. Hamı yatmışdır. İnsanlar yatarkən nə qədər məsum olurlar.

Rəsul
11.05.44»

Atası Qafar əmi illər boyu hökumətdən qaçıb gizləndiyi üçün Ənvər Məmmədxanlı da Stalin dövründə təhlükəsizlik orqanları tərəfindən daima izlənmişdi, hətta bir müddət İçərişəhərdəki mənzilinin qarşısında güdükçü də var-gəl edirmiş. Güman ki, tapıb tuta bilmədikləri atasıyla əlaqəsi

olub-olmadığını öyrənmək üçün. Ənvər danışırdı ki, lap təngə gəlmişdim, bir gün gecə evə qayıdanda özümü sərxoşluğa qoyub qaranlıqda bu güdükçünün ayağını elə basdaladım ki, qışqırığı ərşə qalxdı. Bunu da Ənvər danışırdı ki, o vaxt NKVD işçilərindən biri deyirmiş: «Rəsulla Ənvər çox dikbaşdılar. Eyib etməz, bizim padvallara salınanda onları çox tez yumşaldarıq.

Vaxt oldu ki,
araya girdi qorqoduqlar,
Sənəti yumruqla,
ilhamı zirzəmiylə qorxutdular.
Bir də gördün əldə möhürlü mandat,
Gəldi ədəbiyyat darğaları
Bağırdılar: hey farağat!
Kim sıraya düzülmədi,
kim yarınmağın
kirli dilini bilmədi,
min bir bəla çəkdi başı.

Bu sətirlər Rəsul Rzanın «Qızılgül olmayaydı» poemasmdandır, amma çox uzaq bir dövrə, İmadəddin Nəsimiyə həsr etdiyi «Son gecə» poemasındakı misralar da sanki onun özünün, Ənvər Məmmədxanlının və bütün o vaxt yaşayan insanların ovqatından və mühitindən xəbər verir.

Nə axtaran var doğrunu, günahı,
subutlu suçu.
Hər yanda ixtiyarlıların
xəbərçiləri.
Hər yerdə muzdlu çuğulçu.
Hər evin divarı
baş qazinin, valinin, zahidin
casus qulağı.
Könüllərə kölgə salır

fitvanın qara bayrağı.
Oğul atadan,
ata oğuldan deyici.
İxtiyarlılar
hər gün xəbər tutur;
kim nə yeyir,
kim nə içir,
kim nə deyir.
Azad düşüncə,
azad kəlam yasaqdır.
Düşünmək yasaq,
Demək yasaq,
Görmək yasaqdır.

Stalinin ölümündən sonra müxtəlif ölkələrlə gediş-gəliş nisbətən sərbəstləşəndə belə, Ə.Məmmədxanlının cürbəcür bəhanələrlə axır illərə qədər xaricə getməyə qoymurdular. İlk dəfə bu yasaq gərək ki, 60-cı illərdə Cəfər Cəfərov MK katibi olanda və şübhəsiz, onun yardımıyla götürüldü; Ənvər Məmmədxanlı Azərbaycan nümayəndə heyətinin tərkibində Kubaya getdi...

Ənvərin kiçik qardaşı Niyazi Məmmədxanlı müharibənin ilk günündən cəbhəyə getmiş, yaralanmış, əsir düşmüş, davadan qayıtdıqdan sonra atalarının məşum marşurutuyla Sibirə göndərilmişdi.

Yox, sovet ideoloji qəliblərinə heç cür uyğun gəlmirdi Rəsul Rzanın və nəslinin, ailəsinin anketi. Bu azmış kimi Rəsul Rza üstəlik Nigar Rəfibəyli ilə ailə qurmuşdu.

***

Nigar Rəfibəylinin el ağsaqqalı kimi tanınan babası Ələkbər bəy Rəfibəyli Azərbaycanda ilk siyasi partiya olan «Difai» partiyasının qurucularından və Gəncədə rəhbərlərindən biri olub.

«Difai» partiyası və Ələkbər bəy Rəfibəyli haqqında arxivdən tapılmış rus dilində iki sənədin tərcüməsini verirəm:

CƏNAB YELİZAVETPOL QUBERNATORUNA
R A P O R T

30 may tarixli sirkulyarınıza cavab olaraq zatialinizə məlumat verirəm ki, müəyyənləşdirdiyim kimi, «Difai» və «Müdafiə» adlı müsəlman partiyaları müsəlman əhalisindən qeyri-leqal şəkildə toplanan ianələrin hesabına mövcuddurlar. Birinci partiyanın rəhbərləri yelizavetpollu Ələkbər bəy Rəfibəyov və Axund Molla Məmməd Pişnamazzadədir... «Difai» partiyasının məqsədi ümumiyyətlə öz xalqının maraqlarını, əsas etibarilə də, maarifini müdafiə etməkdir... Hər iki partiya eyni məqsədi güdür.

Polismeyster (imza)

CƏNAB YELİZAVETPOL QUBERNATORUNA

16 Yanvar 1909 Tamamilə məxfi.

Bu il yanvarın 4-də Ələkbər bəy Rəfibəyovun evində axtarış aparılarkən rus dilində çap olunmuş nizamnamənin bir neçə nüsxəsi əldə edilib. Nizamnaməni (raporta) əlavə edirəm. Müsəlmanların İran inqilabçılarına kömək etmələri barədə aşağıdakı məlumatlar var: Silah gizli yolla Rusiyadan alınır və İrana, Səttərxanın dəstələrinə göndərilir.

Rotmistr Astroyants

Bu sənədlərlə tanış olanda düşündüm ki: XX əsrdə ailəmizin dörd nəsli - ulu babam Ələkbər bəy, babam Xudadat bəy, sonralar atamla anam, daha sonralar mənim barəmdə erməni danoslarının bu bəlkə də ilk örnəyidir.

***

Ələkbər bəyin yeganə oğlu Xudadat bəy Rəfibəyli Xarkovda ali təhsil almış ilk Azərbaycan cərrahlarındandı. 1918-ci ildə Gəncədə Fətəli xan Xoyskinin rəhbərliyi ilə müstəqil Azərbaycan hökuməti qurularkən bu hökumətin ilk Səhiyyə naziri, sonralar isə Gəncənin general-qubernatoru vəzifələrini tutub. 20-ci ildə bolşeviklər Azərbaycanda hakimiyyətə gələndən sonra Xudadat bəy Gəncə üsyanının təşkilatçılarından biri kimi ittiham olunaraq həbs edilmiş, erməni şahidlərin şəhadəti, erməni müstəntiqin apardığı iş və erməni hakimin kəsdiyi qərarla Xəzər adalarının birində güllələnmişdir. Bu xəbəri eşidən Nəriman Nərimanov çox heyfsilənib, «Firudin bəy Köçərli və Xudadat bəy kimi ziyalılarımızı qoruyub saxlamahydıq, bu işdə Həmid Sultanovun bağışlanmaz günahı var» deyibmiş. Məmməd Əmin Rəsulzadə də böyük təəssüf hissi ilə Xudadat bəy Rəfibəylinin adını sovet rejiminin qurbanları sırasında çəkir.

Əvvəlki dövrlərdə babamgilin xidmətçisi, sovet hakimiyyəti zamanı isə məsul vəzifə daşıyan Cəbrayıl adlı bir bolşevikə Xudadat bəyin həyat yoldaşı Cəvahir xanım deyibmiş: «Özümün də, üç balamın da qanını sənə halal edirəm, görsən ki, ermənilərin əlinə keçirik, dördümüzü də sən öldür». O vaxtkı bolşevik rəhbərlərindən biri bəyan edibmiş ki, Gəncədə bəy nəslindən bir nəfər də başı papaqlı qoymayacayıq, hamısını qıracayıq. Nigar xanımın böyük qardaşları Kamil və Rəşid canlarını qurtarmaq məqsədiylə və analarının təkidiylə biri Türkiyəyə qaçmış, o birisi Rusiyanın ucqar bölgələrindən birinə sığınmışdır. Sonrakı illərdə ara bir az səngiyəndən sonra Rəşid Rəfibəyli Moskvada ali təhsil ala bilib. Kamil Rəfibəyli

(Arran) da Türkiyədə oxuyub həkim olub. Rəfibəylilər nəslinin bəzi başqa nümayəndələri də Türkiyəyə qaça bilmiş, burada Qazi Mustafa Kamal paşanın qurtuluş savaşına qatılmışlar. Səməd bəy Rəfibəyli (Sayqın) Türk ordusunda paşa (general) rütbəsi almış ilk Azərbaycanlıdır.

Azərbaycandakı qohumlarını daha artıq təhlükələrə məruz qoymamaq üçün Türkiyədəki Rəfibəylilər üç müxtəlif soyadı qəbul ediblər: Arran, Sayqın və Əsgəran. Buna baxmayaraq sovet cəza orqanları Rəfibəylilər nəslinin nümayəndələrini ayrı-ayrı illərdə doqquz dəfə sürgün etmiş, bəzilərini güllələmişdir. İstedadlı gənc alim və yazıçı Rafael Hüseynov «Rəfibəylilər» kitabında bu barədə ətraflı və təsirli məlumatlar verir. Möcüzəvi şəkildə aqibəti faciəylə nəticələnməmiş Nigar Rəfibəyli də ömrü boyu açıq, ya gizli təzyiqlər, daimi güdülmək şəraitində yaşayıb-yaratmışdır. 1930-cu il oktyabrın 24-də qəbul olunmuş qərar haqqında bir sənəd:

«Müsavat vaxtında böyük nüfuza malik olan güllələnmiş əksinqilabçı Rəfibəyovun arvadı, ailəsiylə birlikdə Gəncədə yaşayan Cəvahir xanım Rəfibəyova antisovet elementlər arasında böyük etibara sahib olduğuna və onlarla əlaqədə olduğuna görə onun ailosiylə birlikdə antisovet element kimi Gəncədən sürgün edilməsi lıızım bilinsin. Eyni zamanda, evlərindəki ona və ailəsinə məxsus şeylər müsadirə edilsin» (Əsli rusca olan sənədin tərcüməsi).

Bu müsadirə zamanı evlərində aparılan axtarışlar nəticəsində bir şeir də tapılıb:

Hələ Şərqin «hakim hakim!» fəryadı,
hələ sənsiz səsi var!
Bunu dinləyən anlar.
Anlar ki,
Şimaldan gün doğmamış.
Şimaldan gün doğamaz!

İndi əlimizdə yalnız həmin şeirin tənqidinə həsr olunmuş yazılarda bir neçə sətri qalmış mətnin «Günəş Şərqdən doğub, Şərqdən doğacaq» misralarına görə 17 yaşlı Nigarı nələrdə suçlamayıblar? Müsavatçılıqda, ingilislərə himayədarlıqda (?!-A.), sovet hökumətinin qatı düşməni olmasında, daha nələr, nələrdə... Mərkəzi Komitənin katibi Əliheydər Qarayev rus və Azərbaycan dilində bir neçə Bakı qəzetində, eləcə də Tiflisdə çıxan «Zarya Vostoka»da bu barədə bir padval məqalə çap etdirib. 1930-cu ilin sentyabrında çap olunmuş bu məqalədə Nigar Rəfibəyliyə qarşı on ağır ittihamlar irəli sürülür:

«Madmazel Nigar xanım günəşin Şərqdən doğmasını, ağ atlı ıngilis müdaxiləçilərini gözləyənlərdən biridir. Mülkədar və kapitalist dövlətinin bərpasını gözləyənlərdən biridir. O, Şərqi ingilis kapitalı əsarətindən xilas edəcək Şimalın sayrışa-sayrışa xalqlara yol göstərən nicat ulduzunu da duya bilməyəcəkdir. Təsadüfi deyil ki, Nigar xanım tez-tez özü ruhlu şairlərlə məktublaşır və bu «şairlər» onu Azərbaycanın qəhrəmanı sayırlar. Onu və ona bənzər çoxlarını hələ də nə üçünsə üzə çıxarmamışıq, sifətlərinə geydikləri yalançı maskaları qoparıb qatı mülkədar sifətlərini ifşa eləməmişik». Xüsusi qəzəbə səbəb olmuş «Günəş Şərqdən doğacaq» misraları olan imzasız şeirə gəlincə bu şeirin müəllifi heç də Nigar Rəfibəyli deyilmiş. Şeiri o zaman Moskvada təhsil alan Mikayıl Rzaquluzadə yazıbmış.

Mikayıl Rzaquluzadə anamın qardaşlarıyla, dayısı Fərrux bəylə dostluq edər, Gəncədə evlərinə gəlib-gedər, məktublaşarmış. O cümlədən, şeirə yeni-yeni həvəslənən anama da məktublar yazırmış və həmin şeiri də, bu məktublardan birinin içindən tapıblar. Güman ki, məqalədə yer alan «Nigar xanımın özü ruhlu şairlərlə məktublaşması, onların şairəni Azərbaycanın qəhrəmanı hesab etməsi» haqqında sözlər də elə bu yazışmalarla tanışlıqdan doğub.

Mikayıl Rzaquluzadənin təhsilini pozmamaq, həyatını qırmamaq, gələcəyinin üstünə kölgə salmamaq üçün Nigar

Rəfibəyli həqiqəti açmayıb, beləliklə də, 17 yaşlı qızcığazı hər yerdən çıxarıb, bir parça çörəyə möhtac qoyublar.

Rafael Hüseynov anamın arxivindən son dərəcə vacib bir sənəd tapıb. 1930-cu il dekabrın 22-də anamın rus dilində yazdığı və Fəhlə Kəndli müfəttişliyi Xalq Komissarlığına, surətini İncəsənət İşçiləri İttifaqına ünvanladığı kağızda yüksək rütbəli partiya məmuru Ə.Qarayevin ittihamları təkzib edilir:

«Вышка» qəzetinin 18 dekabr, 1930-cu il tarixli nömrəsində dərc edilmiş «Cənab Rəfibəyovlar» məqaləsinin müəyyən hissələri «Günəşi Şərqdən gözləyən» və «Nigar xanımın arzuları» yarımbaşlıqları mənə həsr edilmişdir. Bu məqalə bir tərəfli tərtib edilmiş, orada faktlar təhrif edilmişdir və həqiqətə uyğun deyildir. Eyni zamanda, bu məqalə mənim taleyimdə məşum rol oynamış, işdən çıxarılmağıma əsas vermişdir. Hazırda mənim 17 yaşım var. Sovet hakimiyyəti gələndə 6 yaşım vardı. Atam həkim idi və hələ Gəncə üsyanı başlanmamışdan həbs edilib Bakıya aparılmışdı. Mən atasız və demək olar ki, yaşamağa heç bir imkanı olmayan vəziyyətdə qaldım. Məqalədə atamın mülkədar olaraq göstərilməsi də doğru deyil. Belə ki, bizim heç bir malikanəmiz olmayıb. Doğrudur, atamın və anamın üç evi vardı. Lakin onlardan ikisi sovetləşmənin əvvəllərində milliləşdirildi. Sonuncu üç totaqlı evi isə indi əlimizdən alıblar. Birinci iki evin olmasını mən yalnız indi Qarayevin məqaləsindən bildim. «Вышка» qəzetində verilən məlum şeiri mən 14 yaşım olanda köçürmüşəm. İndi müəllifini də, məzmununu da xatırlamıram. Bir şeyi təsdiq edə bilərəm ki, o mənim qələmimdən çıxmayıb, mən qətiyyən o şeirin müəllifi deyiləm. 30-cu ilin sentyabrında Azərkinoya işə girdim. Bu məqalə dərc edilənədək tərcüməçi və Azərkinonun Bədii Bürosunun katibi vəzifələrini tuturdum. İndi həmin məqaləyə görə işdən çıxarılmışam və himayəmdə olan anamla birgə acından ölməyə məhkum kəsilmişəm. Mənim bütün həyatım və işim Sovet hakimiyyətinin və mədəniyyətinin təsiri altında cərəyan edir. Fəaliyyətimin nəticələri Sizin gözünüz qarşısın-

dadır. Doğrudanmı, «Вышка»nın bu məqaləsinin mənim bütün enerjimi və gənc həyatımı məhv etməsinə yol vermək olar?

Sizdən xahiş edirəm ki, məni İttifaqa və vəzifəmə bərpa edəsiniz, gələcəkdə Sovetlərə Sosializmin qələbəsi uğrunda mübarizələrində fayda verə bilməyim üçün imkan yaradasınız.

Nigar Rəfibəyli».

Bir müddət sonra məsələdən xəbər tutan M.Rzaquluzadə Bakıya məktub yazıb şeirin ona məxsus olduğunu bildirmişdir. Əlbəttə, bu mərdanə hərəkətdir, amma o vaxta qədər anama hücumlar kompaniyası, onu işsiz qoymaq tədbirləri ən yüksək pilləyə ucalmışdı. Ə.Qarayevin məqaləsiylə başlanan bu kompaniya bir çox şairlərimizə də ilham vermişdi. Onların adları və yazdıqları «şeirlər» Rafael Hüseynovun kitabında da, mənim «Sizsiz»adlı yazımda da var.

«Tüpürünüz eybi yox, əşarıma, nəslimə» kimi səciyyəvi misra- etirafı olan bir «şeirdən» bəzi parçalar:

Sağ ol, yoldaş Qarayev, bolşeviksən, bolşevik!
Sizin kimi hər işdə olmaq istərik çevik.
Oxuduq məqaləni «Kommunist» qəzetində.
Səsimizi eşitdik sənin dəmir səsində.
O söz bizim sözümüz, o səs bizim səsimiz
Biz sevirik qaydanı, var ona həvəsimiz.
Düşmənsə etimaddan edərək istifadə
Əvət bəzən cəbhədə qoyur bizi piyadə.
Buna sübut «cavidlər», buna sübut «cavadlar»,
Buna sübut «nigarlar» və bir çox boylə adlar.
Müəllimin yumruğu kulakların başında,
Müəllimlər də gedir bizimlə bir maşında.
Nigar da o hörmətli adı daşımaqdaydı,
O da tələbələrlə dərsdə bir otaqdaydı.
Ey skamyalardakı balaca qardaşlarım,
Verə bilməz tərbiyə sizə Nigar xanımlar.
Mən siz olsam, susmaram,
bən üsyana başlaram Haykıraram:

sinifdə düşmən var ha, düşmən var!
Vətəndaş gözəl qız! Sarışın, gözəl Nigar,
Tələbəsən, «dadına yetişsin pərvərdigar».
Hanı sənə Gəncədə dərs verən «böyük üstad»
Sən ondansan, o səndən, etmə hesab onu yad!
Sən atanın yolunu izləyirsən, deyilmi?
Sən müsavat dövrünü gözləyirsən, deyilmi?
O dövrü biz öldürdük, gömdük atanla yerə!
Bax bu yeni həyata, bax bu gülən diyara.
Rəfibəyovlar, sonra boylə «ov»lar bu yerdə
Onlar oyunlarını çoxdan qurtardı, pərdə.
«Günəş şimaldan doğmaz» dediniz, bu yalandır.
Sən gəl bu qanmazları bu günəşə inandır.
Bizə, öyrətməyiniz, yetər təbiət elmi,
Lenin şimaldan doğdu. Lenin günəş deyilmi?
Bir şair yazır ki, biz dənizlərdə çaykayız.
Onu bilməyir ki, biz maşınlarda qaykayız,
Durduqca ölkəmizdə Rəfibəyov və of, of,
Lazım deyil kəsilsin hər şair bir filosof.

Bu səpkili və bu səviyyəli başqa bir «şeirdən» fraqmentlər:

Madmazel Nigar!
Sözlərim sənə bil olsa zəhrimar
Deyəcəyəm.
Bizi yaşadan günəşin
Şimaldan doğduğunu isbat edəcəyəm.
Yadındamı, madmazel Nigarlara
Qara hərf, qara günlər yox idi.
Üst qatarda xumarlanan
Bəy nəsliniz tox idi.
Fəqət Nigar,
Şimaldan gələn ruzigar
Sildi siyah örtüləri, sildi siyah pərdəni
Şimaldan doğdu bu günəş,

Zənginlərin gözlərini qamaşdırdı bu günəş
Unutma ki, sən
Aclığından torpaq yeyən milyonları
əzən, kəsən
Xudu bəyin qızı Rəfibəyov Nigarsan
Bağlamışsan ümidini şərqdən doğan günəşə,
Fəqət sənin duymadığın bir günəş var,
Ey Nigar!
Bizim doğan günəşimizdir Leninizm.

Günəşin məhz Şimaldan doğduğunu isbat edən bu poetik incilərə nəsrlə yazılmış mətnlər qoşulurdu. «Tabutdan səslər» adlı məqalədə deyilirdi:

«Şərq əski fransız şairlərinin təsvir etdiyi qəlibdən çıxaraq mülkədarlıq, burjuaziya və əcnəbi imperializm pəncəsindən qurtulmaq yolunda mübarizə edən bir yeni şərq olmağa başlayır. Lakin Nigar xanımın şərqi bambaşqadır. O, üsyan edən şərqlini deyil, milyonların hüququnu tapdalayan, şərqdə canlanmaqda olan kommunist hərəkatını boğaraq, qərb imperializminin hakimiyyətinə yardını edən şərqi və şərqliləri tərənnüm edir. Nigarın şərqi də özü kimi «Hakim!» deyə hayqıran bir kütlənin iniltilərindən həzz alan, onun acılarını qəhqəhəylə qarşılayan quduz feodalların şərqidir.

Şərq günəşi nədir və onun sinfi siması nədən ibarətdir? 18-ci ildə Şərqdən «doğan» Nigar xanım günəşinin buraxdığı qanlı izlər, hələ Azərbaycan işçi və əməkçi kəndlilərinin xatirindən çıxmamışdır. Nigar xanını və onun məsləkdaşları bilməlidirlər ki, bu günəşin tarix qarşısında üzü ləkəli olan nurları artıq sönməyən bir günəşin nurları qarşısında hücuma məruz qaldı. Zəfər günləri yaxınlaşdıqca Nigar xanımın səadət xülyalarına dair oxuduğu nəğmələr, doğrudan da tabutdan gələn səslərdən başqa bir şey olmayacaqdır».

«Günəşin sinfi simasını» müəyyənləşdirən bu məqaləylə bir neçə başqa yazıçı da həmrəy olduqlarını bildiriblər. Anam: «Amma Cəfər Cabbarlıyla Səməd qol çəkməmişdilər» deyərdi.

Bəzi parçalarını gətirdiyim məqalənin sonunda verilən əlavə belədir: «Biz, aşağıda imza atan Azərbaycan Proletar Yazıçıları Cəmiyyətinin üzvləri H.Mehdi yoldaşın yuxarıdakı məqaləsinə tamamilə şərik olduğumuzu bildiririk R.Rza, S.Rəhman, C.Xəndan, Y.Şirvan, İ.Hafiz, Əyyub Şəkili, B.İsmayıl, S.Hüseyn, Ə.Sadiq».

Atam özü bu barədə belə yazır: «Bu tənqidi məqalələrin birisinin altında başqa müəlliflərlə bərabər mənim də imzam var idi. Ona görə bu barədə yazmağı lazım bilirəm. Qəribə görünsə də bu hadisə bizi yaxınlaşdırdı. Məlum oldu ki, Nigarla mənim ədəbiyyata və həyata olan münasibətlərimizdə ümumi nöqtələr çoxdur. Bilmirəm, mən ona necə təsir bağışladım, ancaq o mənim çox xoşuma gəldi. Görünür, onun da mənə münasibəti pis deyilmiş, çünki sonralar bizim yollarımız ayrılmadı... Ağıllı, qayğıkeş, mərd bir qadın olan şairə ilə evləndiyim üçün xoşbəxtəm».

Rəsul Rza haqqında kitab yazmış ədəbiyyatşünas-alim Gülrux Əlibəyovanın bir müşahidəsi çox dəqiqdir: «Həmin bu hadisəni Rəsul təəssüf hissiylə, Nigar isə həmişə yumorla nəql edirdilər».

Mən həmişə ona təəccüb edirəm ki, Müşfiqin faciəvi taleyinə həsr etdiyi «Qızıl gül olmayaydı» poemasında:

Ona namərd şilləsi kimi vurulan
imzalar içində
mənim imzam olmadı

misralarını yazmağa mənəvi və faktik haqqı olan Rəsul Rza, hər zaman öz imzasının təmizliyini qoruya bildiyi halda, nə cür olub 30-cu illərdə bu sayaq kompaniya məqaləsinə qol çəkib. Əlbəttə, 30-cu il hələ 37-ci il deyil və ən kəsgin tənqidlərdən sonra belə hələ heç bir yazıçını tutmur, sürgün etmir, güllələmirdilər. Sadəcə AZAPçıların bir çoxu kimi atam da, heç şübhəsiz ideya əyintisi saydıqları hər şeyə qarşı qəzəblərində,

hiddətlərində səmimi idilər... Və məqalənin guya ki, «nəzəri» mətni də hər halda o «şeirlər» qədər biabırçı deyil.

Bir də o var ki, sonrakı illərin sınaqlarında atamın məhəbbəti, sədaqəti, vəfası və şübhəsiz, bütün əngəllərə baxmayaraq o vaxt artıq müəyyən dərəcədə təsdiq olunmuş ictimai mövqeyi anamı bir çox bəlalardan xilas etdi, qorudu...

Bütün bunlar belədir, amma hər halda mən də bu acı faktın üstündən sükutla keçmək istəmirəm. Necə ki, atam özü də keçmirdi.

Bir gün hədəf oldun
Qaradan qara böhtana
Bu ədalətsiz ittihamda
Mənim də yaralı payım vardı.
Zaman keçdi, illər yudu ləkəni
Bilən bilir, aylarca, illərcə
sən çəkəni, mən çəkəni.

Nigar Rəfibəylinin gənclik rəfiqəsi Nəzakət Ağazadənin ölümünə yazdığı şeirindəki sətirlər Rəsul Rzanın o köhnə «xətasına» bir növ bəraət kimi səslənir:

Ömrün çətin yollarında
bizə yar oldu Əli, Rəsul.
Onlar açıq ürəkli
qaynar məhəbbətli gənclər idi.
O zamanlar bizimlə ünsiyyət bağlamaq
Sadə sevgi deyildi,
böyük hünər idi.

Alman dili mütəxəssisi Nəzakət Ağazadə Cümhuriyyət hökumətinin rəhbər xadimlərindən biri, xaincəsinə qətlə yetirilmiş Həsən bəy Ağayevin qızı, dilçi alim, izahlı lüğətimizin Baş redaktoru Əliheydər (Əli) Orucovun həyat yoldaşı idi.

Bu mövzuyla əlaqədar olaraq Abbas Zamanovun xatirələrindən bir parçanı da gətirmək yerinə düşər. Abbas müəllim

yazır ki, bir dəfə Nigar xanımdan: Necə oldu ki, siz evləndiniz deyə soruşub - Axı sizin əleyhinizə yazılan kəsgin bir məqalənin altında başqaları ilə yanaşı Rəsulun da imzası var idi...

Abbas müəllimin dediyinə görə anam belə cavab verib:

«O təhər oldu ki, biz bir-birimizi sevdik... O illərdə bəyxan qızlarına evlənmək böyük risk idi. Çünki keçmiş bəylərin, xanların qızlarına evlənənlərin üzlərinə qapılar bağlı olardı. O zaman mən Rəsula demişdim: Mənimlə evlənməklə sən həyatda çox şey itirə bilərsən. Bəlkə fikrindən daşınasan? O, əsəbiləşdi:

Mənə əxlaq dərsi demə. Nəyi itirsəm də səni qazanaram. Bu mənim üçün ən böyük qazanc olacaq. Elə bir qazanc ki, həyatda ən böyük nemətdir».

Rəsul Rza və Nigar Rəfibəyli haqqında bəzi xatirələri oxuyanda yazılanlara heç cür inanmağım gəlmir. Bu cür xatirə yazanların xoş niyyətlə olsa da gətirdiyi sözlərin, ifadələrin doğrudan da atama, anama məxsus olduğuna şübhə edirəm. Amma bax Abbas müəllimin anamın dilindən gətirdiyi bu dialoqu, xüsusilə atamın «Mənə əxlaq dərsi demə» sözlərini sanki öz qulağımla eşitmişəm təkin həqiqi sayıram. Atam məhz elə bu sayaq, bu sözlərlə fikrini ifadə edə bilərdi.

1934-cü ildə nişanlarından sonra anam Moskvaya gedib, Bubnov adına Pedaqoji İnstituta daxil olub, atam da sona çatmamış növbəti ali təhlisllərindən birini almaq üçün onun ardınca Moskvaya yollanıb. Toyları yalnız anam Moskvada təhsilini bitirib, atam isə yarımçıq qoyub Bakıya dönəndən sonra 1937-ci il fevralın 11-də olub.

Toyun tamadası Kazım Ələkbərli imiş, qonaqların arasında Hüseyn Cavid, Əhməd Cavad, Seyid Hüseyn, Mikayıl Müşfiq varmış. Anam deyərdi: «Tez-tez düşünürəm ki, bu onların hamsının ömründə son xoş hadisə olub, ömürlərinin axırına qədər yəqin ki, bu məclisi həsrətlə xatırlayırmışlar, yazıqlar».

***

Keçmiş Sovet İttifaqının bütün xalqlarının həyatında otuzuncu il repressiyaları ən dəhşətli faciədir, amma Azərbaycan xalqının 37-ci ildə aldığı sağalmaz yaralar heç nəylə müqayisə oluna bilməz. Millətin ən dəyərli insanları, necə deyərlər qaymağı məhv edildi, zindanlara atıldı, zindan zirzəmilərində ən qəddar işgəncələrə məruz qaldıqdan sonra güllələndi. Nisbətən «bəxti gətirənlər» isə Sibirin «buzlu cəhənnəmində» tələf oldu.

«Rus ruleti» deyilən köhnə bir oyun-əyləncə var, Çar Rusiyasının harınlaşmış zabitlərinin özlərinə «məşğuliyyət» tapmaq həvəsindən yaranmış bir oyundur. Tapançalarının xəznəsinə beş güllə əvəzinə, tutalım, iki, daha risqliləri üç, hətta dörd güllə qoyub barabanın bir gözünü boş saxlayaraq fırladırmışlar. Sonra da tapancanın lüləsini gicgahlarına dirəyib tətiyi çəkirmişlər: Ya bəxt.

Bir an içində həlak olmaq da mümkün imiş, sağ qalmaq da... 37-ci il hadisələri haqqında düşünəndə bu ilin getməqalma «lotoreyasını» məhz bu rus ruletiylə müqayisə etmək olar, kimin getməsi, repressiyalar qurbanı olması, kimin salamat qalması ancaq və ancaq təsadüfdən asılıymış. Burada nəinki siyasi, heç adi məntiq də tapmaq mümkün deyil. Siyasi məntiqə gəldikdə, yaxşı tutaq ki, sovet quruluşuna qarşı haçansa düşmən mövqedə dayanan musavatçılardan (daha doğrusu, 20-ci illərin repressiyalarından sonra nə şəkildə isə ilişib qalanlardan) intiqam alırdılar, bəs onda həmin bu sovet hakimiyyətini qurmaq üçün dəridən-qabıqdan çıxan, bu rejimə canla-başla xidmət göstərən kommunistlər Əliheydər Qarayevlər, Həmid Sultanovlar, Çingiz İldırımlar niyə cəzalandırılırdılar? Bunu da belə izah etmək olar ki, bunlar və yüzlərlə başqa partiya məsulları M.C.Bağırovun şəxsi düşmənləri idi, nə səbəbdənsə onların hamısından yanıqlı idi və indi əlinə girəvə. düşəndə qisasını alırdı. Belə olan surətdə yazıçılardan, aktyorlardan, alimlərdən kimin qisasını alırdı? Keçmiş müsa-

vatçı Əhməd Cavadla, Cümhuriyyət Hökumətinin Türkiyədəki səfiri Yusif Vəzirlə, M.Ə.Rəsulzadənin qohumu Seyid Hüseynlə bərabər kommunist yazıçılar da məhv edilirdi. Min şükür ki, tale(ya Stalin, Bağırov) Üzeyir Hacıbəyovu hifz etdi. Üzeyir bəy isə nəinki musavatçı idi, o həm də Cümhuriyyət himninin müəllifi idi, o vaxt nəşr olunan «Azərbaycan» qəzetinin redaktoru idi və bu qəzetdə bolşeviklərə, Sovet Rusiyasına, Leninə qarşı bir-birindən kəsgin məqalələr yazırdı. Kiçik qardaşı Ceyhun bəy Parisdə mühacir idi və fəal antisovet mövqedə dayanırdı. Yenə, yenə min şükür ki, Üzeyir bəyə dəymədilər, o, dövlətin ən yüksək mükafatlarını aldı, akademik, deputat oldu və müstəsna hal kimi namizədlik müddəti keçmədən bir başa Kommunist partiyasına üzv qəbul edildi. Amma nəinki Cümhuriyyət dövründə heç bir partiyaya mənsub olmayan, heç bir siyasi fəaliyyətlə məşğul olmayan sənətkarlar Hüseyn Cavid, Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb, hətta kommunist yazıçılar Tağı Şahbazi (Simurq), Böyükağa Talıblı, Hacıbaba Nəzərli, ÇK əməkdaşı şair Sanılı gedər gəlməz yolun yolçuları oldular. Böyük Cavid də repressiya qurbanı oldu, ona göz verib işıq verməyən Əhməd Triniç də... Əhməd Cavad da, ona qan udduran kommunist tənqidçilər də, «Oxu tar, oxu tar, səni kim unudar» yazan Müşfiq də, tarı qadağan edən Mustafa Quliyev də...

Çox zaman Mustafa Quliyevi tara münasibətinə görə yalnız mənfi cəhətdən səciyyələndirirlər. Amma bu məsələyə də tarixi obyektivlik nəzəriylə baxmaq lazımdır. Rəsul Rza Mustafa Quliyevə həsr etdiyi yazısında bunu xüsusi vurğulayır:

«Mustafa proqressiv fikirli, geniş bilikli, prinsipial adam idi. Onun ədəbiyyata və sənətə baxışında qiymətli, diqqətə dəyər, xeyirli cəhətlər çox idi. Vaxt olurdu ki, o, doğru fikrini elə sərt şəkildə ifadə edirdi ki, ilk dinləyişdə, xüsusilə onun xarakterinə bələd olmayan adama, bu fikirlər mübahisəli, bəlkə də qəribə görünürdü. Mustafa Quliyevin tənqidi fikirlərində, onun işində, tədbirlərində də bəzən ifrat olurdu. Amma elə hallar da olurdu ki, onun ifrat kimi görünən fikri, sözü əslində

geriliyə, avamlığa, nadanlığa qarşı bir qəzəbli protest, bir könül hayqırığı kimi adi norma və vərdişlərin çərçivəsini aşmış olurdu. İndi də, əsrimizin bu gərgin, tələbli, çağırıcı, itigedişli vaxtında, ata-babalarımızın hörmətli adı, əziz xatirəsi ilə ehtikarlıq edərək, bizi geri çağıranlar var. M. Quliyevin yazılarında və işində ən qiymətli cəhətlərdən biri də belə meyllərə qarşı amansızlıq idi. Nazim Hikmətin «bütləri yıkalım» şüarı, Mayakovskinin «klassikləri müasirlik gəmisindən kənara ataq!» çağırışı kimi, Mustafa Quliyevin də papaq, tar və sair haqqındakı bəzi fikirləri inkar pafosundan doğan bir ifrat idi... Mustafa Quliyev sağ olsaydı, inanıram ki, o, istər musiqi mədəniyyətimiz, istərsə teatr sənətimiz, ədəbiyyatımız, maarifimiz haqqında bəzi fikirlərini dəqiqləşdirər, təshih edər, bəzi ifratlarından özü geri durardı».

37-ci ildə ən müxtəlif, yuxarıda göstərdiyim kimi çox vaxt bir-birinə tamamilə zidd təmayyüllü adamların, bir-birinə düşmən siyasi əqidə daşıyıcılarının (kommunistlər, müsavatçılar), siyasətdən uzaq sənətçilərin, alimlərin eyni aqibətə duçar olmasında siyasi, ya hətta şəxsi məntiq aramaq hədər işdir. Daha doğrusu, böyük, qlobal bir məntiq var: bütün xalqı, bütün cəmiyyəti sındırmaq, hamını gözü qıpıq etmək, gedənləri fiziki cəhətdən məhv etmək, qalanları mənəvi cəhətdən şikəst etmək...

Ağır illər gəldi, dağdan ağır,
sürgündən, dustaqdan ağır.
Kiminin evinə gətirdilər
yağı, əti, çörəyi.
Kiminin bir loxma
qara çörək üçün qabarladı əlləri,
əyildi kürəyi.
Töküldü ömrün yollarına
gülüş qırıqları, göz yaşları.
Güllə ayırdı bir-birindən
neçə cəbhədaşları.
Yollar uzandı,

hər qarışı bir il boyu.
Xatirələr soyutdu tez-tez
neçə bayramı, toyu.
Ancaq əlimiz soyumadı işdən,
yaratmaqdan, qurmaqdan.
Nə çıxardı
gedərgəlməzlərə yas tutub, durmaqdan
Nəsil-əsil çoxumuz,
bəli, əsil çoxumuz,
İnsandıq,
insan qaldıq.
Demirəm, hamı!
Neyləyirsən, gər ağacım!
Ağacların arasında nər ağacım.
Neyləyirsən,
qurdalama, gəl, yaramı!..

(«Gər ağacı» şeirindən. 1961)

***

ÇK QPU-NKVD-KQB arxivlərinin yəqin ki, mində biri hələ açılmamışsa belə çuğulçuların, «deyicilərin» çoxunun adları hələ də məlum deyilsə də, xalqımızın qəhrəman oğlu akademik Ziya Bünyadov yazdığı «Qırmızı terror» adlı kitabla tanış olduqda bir çox məsələlər aydınlaşır. Müəllifin əldə edə bildiyi konkret sənədlər, məhkumların acı taleyi, adı bədnam müstəntiq-cəlladların əməlləri o dövrün dəhşətli mənzərəsini canlandırır. Aydın dərk edirik ki, ağlasığmaz işgəncələrə məruz qalan məhbuslar özlərinə də, tanıyıb tanımadıqları həmpeşələrinə də nəyə görə və necə şər atmağa məcbur qalıblar. Bundan ötrü kimisə qınamaq olmaz. İnsan iradəsinin, insanın fiziki ağrılara tab gətirməsinin də bir həddi-hüdudu var. Bu hüdud keçiləndən sonra işgəncələrə dözə bilməyənlər istənilən şeyi deyir, istənilən sənədə qol çəkirdilər. «Qırmızı terror» kitabın-

da gətirilən küllü miqdarda faciələrdən birini burda xatırlatmaq istəyirəm. Yazıçı Böyükağa Talıblı müstəntiqin: «Yazıçılar İttifaqının ayrı-ayrı üzvlərinin əksinqilabçı fəaliyyəti haqqında sizə nə məlumdur?» sualına (şübhəsiz ki, olmazın işgəncələr görəndən sonra) belə cavab verir:

«Mənə Azərbaycan Yazıçılar İttifaqının əks-inqilabi əhval-ruhiyyədə olan üzvlərinin apardıqları işlər məlum idi» deyir və 12 maddədə «əks-inqilabçı» yazıçıların adlarını çəkir: Abdulla Şaiq, Kazım Ələkbərli, H.Cavid, Ə.Cavad, M.Müşfiq, Tağı Şahbazi, Əli Nazim, Yusif Vəzir, Süleyman Rüstəm.

Həmin siyahının 4-cü bəndi belədir:

«Hacı Nəzərli Yazıçılar İttifaqının daxilində Səməd Vurğundan, Mehdi Hüseyndən, Rəsul Rzadan və İsmayıl Hafizdən (sonralar tarixçi kimi fəaliyyət göstərən akademik İsmayıl Hüseynov o vaxtlar şair kimi tanınırdı A.) ibarət möhkəm əksinqilabçı millətçi qrup yaratmışdı».

Elə həmin il güllələnmiş Böyükağa Talıblıdan bu sözləri nəyin bahasına, necə əzab-əziyyətlərdən sonra alındığını təsəvvür edərək onu zərrə qədər günahlandırmağa mənəvi haqqımız yoxdur. Amma hər halda fakt faktlığında qalır.

Hamını repressiyaların həm kəmiyyəti (minlər, milyonlarla məhkum olunmuşlar), həm keyfiyyəti (ən məsul vəzifəli şəxslər, ən məşhur sənətçilər belə ağır cəzalardan sığortalanmayıb) qorxutmaq istəyirdilər. Niyyət bu idi. Birini Sibirə sürgünə göndərmək, başqasını azadlıqda saxlayıb öz içinə sürgün etmək. Hamını bir-birindən şübhələndirmək, ən yaxın, ən məhrəm adamlardan belə çəkinmək, xısın-xısın danışıqların, pıçıltıyla qulağa deyilən sözlərin belə «lazımı yerlərə», «ixtiyarlılara» çatdırılacağının vahiməsi. Buna görə də gedənlərin dalınca daş ya çirkab atmaq istəməyənlərin yeganə abırlı xilas yolu susmaq, sükutu seçmək, danışmazlığa üstünlük vermək, daxilinə çəkilib dərdini, ağrım heç kəsə büruzə vermədən öz içindəcə çəkmək idi.

Vaxt olub ki,
Bütün günü ac, susuz,
gecə sübhə kimi yuxusuz,
nigaran qəlbimlə
başbaşa qalıb,
səsimi içimə salıb,
xısın-xısın ağlamışam.
Görənə «naxoşam,
zökəm olmuşam»
deyib,
gizlətmişəm dərdimi.
O zaman,
gedənlərin arxasınca sızlayan
öz sirrini büruzə verərdimi?

(«Qızılgül olmayaydı»)

***

Ağlım bu məsələlər barədə bir şey kəsəndən yəni yeddi-səkkiz yaşlarımdan evimizdə 37-ci il faciəsi haqqında qısılmış səslərlə edilən söhbətləri dinləmişdim və heç vaxt eşitməmiş-dim ki, gedənlər doğrudan da düşmən olublar. Əksinə, Cavidin, Cavadın, Seyid Hüseynin, Yusif Vəzir Çəmənzəminlinin, Qa-fur əfəndi Qantəmirin, Salman Mümtazın, Bəkir Çobanza-dənin, məsul işçilərdən S.M.Əfəndiyevin, Ruhulla Axundovun, Həbib Cəbiyevin, Mustafa Quliyevin, Hüseyn Rəhmanovun adları həmişə hörmətlə və talelərinə təəssüf hissiylə çəkilərdi. Hələ Mikayıl Müşfiqi demirəm, onun haqqında evimizin ən yaxın adamı, ailəmizin üzvü kimi danışılardı. Müşfiqin adı çəkiləndə kiçik bibilərimin gözləri yaşardığı də yadımdadır.

Rəsul Rza gənclik dostu Müşfiqə həsr etdiyi «Qızılgül olmayaydı» poemasında yazırdı:

Ömrün çətin yollarında
tərəddütsüz bölüşdük,
sevinci, ehtiyacı.

Anama ana dedi,
bacılarıma bacı.

Müşfiqin həyat yoldaşı Dilbər xanım Axundzadə «Müşfiqli günlərim» kitabında yazır:

«Müşfiq Rəsulun xətrini çox istəyirdi. Onu doğma qardaşı Mirzədən seçmirdi. Doğrudan da Müşfiqlə Rəsul Rzanın dostluğu heç vaxt təravətini itirmədi... Rəsul Rza çox sonralar Müşfiqin əziz xatirəsinə həsr etdiyi «Qızılgül olmayaydı» poemasında bu dostluğun sönməz hərarətini, sevincini təsvir etdi. Vəfanın unudulmaz abidəsini yaratdı».

Bir vaxt kiminsə buraxdığı şayiə - Müşfiqin guya ki, sağ olması, kiminsə onu Rusiya dəmir yol stansiyalarımn birində, üzünü saqqal basmış halda görməsi barədə söhbətlər yayılanda nənəmin dua etməsi də yadımda qalıb. Dua edirdi ki, bu sözlər düz çıxsın, Müşfiq qayıdıb gəlsin.

Yazıçılara, şairlərə, sənətkarlara, ümumən günahsız insanlara qarşı olan bu cinayətləri heç cür bağışlamaq olmaz, amma hətta qəddar Stalin sisteminin eybəcər məntiqinə görə məsələn Mikayıl Müşfiq nəyə görə məhv edilməliydi? Sadə bir ailədən idi, yetimliklə böyümüşdü, Cümhuriyyət vaxtı on-on iki yaşındaydı, Sovet quruluşunu sevinclə qarşılamış, yeni həyatı ilhamla, fərəhlə tərənnüm etmiş, hətta Stalinə poema da həsr etmişdi.

M.C.Bağırov haçansa: «Müşfiqi gərək saxlayaydım, Müşfiqi nahaq verdim» deyibmiş. Amma olan artiq olmuşdu. Dilbər xanım yazır ki, Rəsulgil Moskvaya oxumağa gedəndə Müşfiqi də təhsil almaq üçün ora aparmaq istəyirmişlər, özünün də könlü varmış. Nə səbəbdənsə gedə bilməyib.

Kaş gedəydi. Bəlkə atamla anamın da, Səməd Vurğunun, Mehdi Hüseynin, Sabit Rəhmanın, Ənvər Məmmədxanlının da o vaxt Moskvada oxumaları, Yazıçılar İttifaqının qanlı ifşa iclaslarından uzaq olmaları onları xilas edən səbəblərdəndir.

***

Bu mövzuyla əlaqədar bir ciddi və ağrılı məsələyə də toxunmaq istəyirəm. İndi yaşadığımız «icazəli cəsarət» dövründə bəzi xəbis niyyətli adamlar, onların arasında nə yazıq ki, əhli qələmlər də var, iddia edirlər ki, 37-dən salamat çıxanlar, «qalanlar» guya ki, o il «gedənlərin» yerini tutublar. Onların sözündən, bəlkə də şüuraltı istəklərindən və gizli qəlb arzularından belə çıxır ki, o məşum ildə Azərbaycan ziyalılarının, yazıçılarının böyük bir qismi yox, hamısı məhv edilməliydi. Başa düşürəm: bu sözləri deyən və nədənsə məni özünə rəqib sayan birinin qənaətincə, 37-ci ildə Rəsul Rza və Nigar Rəfibəyli də məhv edilsəydi 38-ci ildə Anar da dünyaya gəlməzdi və onda bu adam tam xoşbəxt olardı. Bu sayaq iddialara ən tutarlı cavabı Prezident Heydər Əliyev verdi:

«Biz Hüseyn Cavidin, Mikayıl Müşfiqin və bizim başqa görkəmli şəxslərin repressiya quıbanları olması haqqında on illərdir ki, böyük ürək ağrısı ilə danışırıq. Onlar əlimizdən getdi. Əgər hamısı getsəydi, onda bizim bu ədəbiyyatımızı, elmimizi, mədəniyyətimizi kim yaradacaqdı? İndi kimsə hesab edir ki, o vaxtlar gərək Səməd Vurğunu da həbs edib öldürəydilər, Rəsul Rzanı, Süleyman Rüstəmi də öldürəydilər, onda deyərdilər ki, bunlar qəhrəman idi və biz oturub onlara da on illərlə ağlayacaqdıq. Yenə də deyirəm, biz Allaha şükür etməliyik ki, belə insanlar o ağır dövrdə o xatalardan qurtara bildilər. Əgər 30-cu illərdə o itkilərimizlə yanaşı, Səməd Vurğun, Rəsul Rza, Süleyman Rüstəm və bizim o nəsldən olan görkəmli başqa şairlərimiz olmasaydı, onlar yazıb-yaratmasaydılar, o əsərlər olmasaydı, indi bizim o dövr tariximizin ədəbiyyatı, mənəviyyatı, mədəniyyəti nədən ibarət olardı? Mən bizim ədəbiyyatımızı Səməd Vurğunsuz da, Rəsul Rzasız da, Süleyman Rüstəmsiz də təsəvvür edə bilmərəm» (S.Rüstəmin 90 illiyinə həsr olunmuş təntənəli gecədə çıxışından. 26 mart 1998).

***

Bütün bu ağrılı problemlər, faciəvi hadisələr Rəsul Rzanın həyatında və yaradıcılığında dərin izlər buraxıb, amma mən bu mövzuda əsərləri haqqında bir qədər sonra danışacam, çünki xronoloji ardıcıllığa mümkün qədər riayət etmək istəyirəm. Düzdür, yuxarıda zikr olunan hadisələr otuzuncu illərin ikinci yarısma aiddir, amma onlar haqqında az-çox həqiqəti yazmaq imkanına Rəsul Rza yalmz iyirmi il sonra nail oldu. Məsələn, şairin müharibə dövrü yaradıcılığından xronoloji ardıcıllıqla söz açmaq olar, həmin mövzuda əsərləri əsasən elə o dövrdə də yaranıb. Odur ki, müharibə illərindən danışanda Rəsul Rzanın həyatında baş verən hadisələri və yaradıcılığını vəhdət halında qavramaq mümkündür. 37-ci il faciəsini isə Rəsul Rza bütün ağrısı, acısıyla yaşamış, ancaq bu ağrı-acını neçə illər sonra, Stalin gorbagor olandan sonra, bu mövzularda yazmağa(və əsas da çap olunmağa) az-çox imkan yaranandan sonra bütün dəhşətiylə dərk və ifadə edə bildi.

***

Rəsul Rzanın yaradıcılığından danışarkən, əlbəttə, ilk növbədə onun əsərlərinin mövzusuna, ifadə etdiyi ideyalara, fıkirlərə, problemlərə müraciət olunmalıdır. Amma poeziyasının sırf bədii xüsusiyyətləri, daimi forma axtarışları, tapdığı ritm və intonasiya özəllikləri, kəşf etdiyi obrazların, ifadə tərzinin yeniliyi, təşbehlərin və qafiyələrin gözlənilməzliyi kölgədə qalarsa şairin sənəti haqda təsəvvür yarımçıq və çox səthi olar. Rəsul Rza yaradıcılığını təhlil etmək həm də Azərbaycan sərbəst şeirinin tarixini araşdırmaq deməkdir.

Əvvəllərdə də deyildiyi kimi, Azərbaycan sərbəstinin, təzə obrazlar sisteminin, təzə ahəngin, təzə poetik düşüncə tərzinin bizim günlərdə artıq çox vədə ənənəvi biçim almış və qulaqlara alışdırılmış yeniliklərin təməli 30-cu illərdə qoyulurdu.

«Günəşi içənlərin türküsü» adlı ilk şeir kitabı (Süleyman Rüstəmin redaktorluğu ilə) 1929-cu ildə Bakıda nəşr olunmuş

Nazim Hikməti Azərbaycan tənqidi türk şairi kimi təqdim edərkən bu həm də Azəri şairi demək idi. O illərdə Nazim Hikmətin də, onun daha gənc azərbaycanlı çağdaşları, sonralar geniş şöhrət qazanmış Süleyman Rüstəmin, Səməd Vurğunun, Mikayıl Müşfiqin, Mikayıl Rəfilinin də bir sıra şeirləri sərbəst vəzndə yazılmışdır. Hətta əsasən ənənəvi şeir formalarında yazan Osman Sarıvəlli də 50-ci illərdə sərbəst şeirə uydu və Rəsul Rzaya bağışladığı bir kitabının üstündəki avtoqraf çox ilgincdir: «Sərbəst şeir azarını canımıza salan Rəsul Rzaya».

20-30-cu illərdə Mikayıl Rəfili həm sərbəst şeirin ardıcıl yaradıcılarından biri, həm də bu şeirin nəzəriyyəçisi idi. Sonralar necə deyərlər, «şeirin daşını atdı», elm sahəsinə keçdi, ciddi alim-araşdırıcı kimi tanındı. Nazim Hikmətin Rəfilinin vəfatına həsr olunmuş «Ağı»sında deyildiyi kimi, «şair ola bilərdi, professor oldu». Sonrakı illərdə S.Vurğun, M.Müşfiq, S.Rüstəm şah əsərlərini əsasən heca, bəzən əruz vəznində yaratdılar.

Rəsul Rzanın heca vəznində yazılmış bir çox şeirləri varsa da ömrü boyu o, ilk gənclik çağından seçdiyi və sevdiyi vəznə sadiq qaldı, Azərbaycanda bu vəznin ən mükəmməl örnəklərini yaratdı, Azəri türk sərbəstinin ən böyük nümayəndəsi oldu və bununla sərbəst şeirə ədəbiyyatımızın əruzdan və hecadan sonra üçüncü milli vəzni mövqeyini qazandıra bildi.

Türkiyədə həm məzmunu, mövzuları, həm də forması, vəzni etibarilə yeni şeirin təməlini Nazim Hikmət qoydu, onun ardınca bu yolla, əlbəttə, öz mövzuları, öz üslubları, öz dünyaduyumları, öz ifadə vasitələriylə «qəribçilər» (Orxan Vəli, Məlik Cevdət Anday, Oqtay Rifət), habelə Fazil Hüsnü Dağlarca və bu gün Tüıkiyənin demək olar ki, əksər şairləri getdilər. Azərbaycanda isə sərbəst şeiri uzun illər Rəsul Rza tək başına davam etdirdi və yalnız 50-ci illərin ortalarında, əsasən, yeni nəslin nümayəndələri bu yola qədəm qoydular.

Türkiyə şairlərinin və Rəsul Rzanın şeirlərini eston dilinə bir başa orijinaldan çevirən eston şairəsi və türkoloqu Liy Seppel yazır:

«Türk xalqlarının poeziyasında sərbəst şeir - Nazim Hikmət, Fazil Hüsnü Dağlarca, Rəsul Rza - hələlik yalnız sərbəst şeirin gözəl nümunələrini yaratmış bu üç adı çəkəcəm. Nəyə görə hələ də sübut etməyə çalışırlar ki, bu şeir sistemi türk dilləri üçün münasib deyil? Əlbəttə, başqalarına baxanda, Azərbaycanda belə deyənlər azdır. Lakin, məsələn, Türkmənistanda, Qazaxstanda və digər yerlərdə hələ də belə söhbətlər davam etməkdədir» («Литературная газета», 25 iyul, 1979).

Rəsul Rzanın şeirlərinin tərcüməsinə görə Estoniyanm ən yüksək Dövlət mükafatını alnuş Liy Seppelin fikrini düzgün sayaraq onu əlavə edə bilərəm ki, türk şeirinin əruzdan və hecadan öncəki örnəkləri Orxon kitabələri və Dədə Qorqud soylamaları məhz sərbəst şeirin ən qədim nümunələridir.

Bu məsələyə də tam dəqiqlik gətirmək gərəkdir. Əlbəttə, 20-30 cu illərdə sərbəst şeir yolunu seçərkən nəinki Rəsul Rzanın, heç yəqin ki, Nazim Hikmətin də «Kitabi Dədə Qorqud» şeir mətnləri haqqında bilgiləri yoxdu. Atam bu möhtəşəm abidəylə «Kitabi Dədə Qorqud» otuzuncu illərin axırlarında Həmid Araslı tərəfindən Bakıda nəşr olunduqdan sonra tanış olub. Beləliklə, söhbət "Dədə Qorqud şeirlərinin sərbəstlə yazan çağdaş şairlərə bir başa təsirindən getmir. Söhbət ondan gedir ki, Dədə Qorqud şeirlərinin sərbəstliyi bu səpkili vəznin türk dilinə yabançı olmadığını, onun bütün özəlliklərivlə üzvü və təbii surətdə bağlılığını sübuta yetirir.

Rəsul Rza etiraf edirdi ki, şeirlərindən bəzilərini bilərəkdən Dədə Qorqud soylamaları üslubunda yazıb:

Dərələrin başından,
qayaların qaşından,
çağlayıb axan sular!
Daşdan daşa tökülüb,
hey qıvrılıb, bükülüb,
qıjıldayan xan sular,
Gah göz-göz bulaq olub,
Gah çoşqun irmaq olub,

Gah dalğası dağ olub
qabarıb qalxan sular,
Gah sakit, gah gur axıb,
Gah quzu, gah kür axıb
dəhnəsində darıxıb,
Sahilə çıxan sular.
Sızqovlar, süzüntülər
Bir-birinə qatıla-qatıla
dərələrin çalovundan keçib,
qızmar günəşin alovundan içib
yığılır, birikir, nəhr olursunuz.

Göründüyü kimi, gətirdiyim parçanın əvvəli («Sızqovlar, süzüntülər» sözlərinə qədər) ənənəvi yeddilik heca vəznindədir, sonra Dədə Qorqud soylamalarında olduğu kimi şeirin ölçüsü, ritmi dəyişir. Bu həm də «dərələrin başından, qayaların qaşından çağlayıb axan suların dəhnəsində darıxıb sahilə çıxması» və bu genişlıyə çıxmanın, sərbəstliyin, asudəliyin ahəngini vəznin dəyişməsi ilə ifadə etmək cəhdidir.

Sərbəst şeir məsələsinə Rəsul Rzanın şeirlərini macar dilinə çevirən Juja Rab da maraqlı və gözlənilməz mövqedən yanaşır. Macar şairəsi Rəsul Rzaya həsr olunmuş «Sınanmış sadəlik» adlı məqaləsində yazır:

«Rəsul Rza şeirləri qədim ənənələrin və müasir səslənmə üsullarını ustalıqla yaradılmış vəhdətidir. Rəsul Rza öz sərbəst şeirlərində çox qədim bir ənənəni davam etdirmişdir. Avazla oxunan şeirləri, Azərbaycan muğamlarını və qədim böyük dastanları da məhz sərbəst şeir adlandırmaq olar» («İki ömrün işığı» kitabında).

İlk öncə milli mənbələrdən qaynaqlanmış Rəsul Rza ömrünün son gününədək bu yolla - öz yoluyla getmişdir. Xalqımızın sevimli şairi, yaradıcılıq fərdiyyəti Rəsul Rza üslubundan çox fərqlənən Bəxtiyar Vahabzadə deyir:

«Özünü xalqının zərrəsi sayan, həyatını xalq işinə həsr edən, xalqın kədəri ilə kədərlənib, sevinci ilə sevinən adamlar

öz həyatını deyil, xalqın həyatını yaşayır. Belə adamlar fərdilikdən çıxıb şəxsiyyət səviyyəsinə yüksəlir. Rəsul Rza xalqımızın yetişdirdiyi belə böyük şəxsiyyətlərdən biri idi. O, həm sənətdə, həm də həyatda həmişə öz yolunu getdi, həmişə öz qəlbinin sözünü dedi. Biz onda heç bir yarımçıqlıq görmədik. O, sözündə də bütöv idi, əməlində də, nifrətində də bütöv idi, sevgisində də» («İki ömrün işığı» kitabında).

Xalq şairi Nəbi Xəzri yazır:

«Öz hiss və həyəcanlarını, fikir və düşüncəsini milyonlarla insanın hiss və düşüncəsinə çevirə bilən şair bəxtiyardır. Dövrümüzün nəbzini tutub Vətənin zəfər və zəhmətini tərənnüm edən sənətkar xoşbəxtdir. Hələ 30-cu illərin astanasına qədəm qoyarkən «Rza, durma, Rza yaz» deyən şair özünün yaradıcılıq manifestini elan etmişdi. Hələ ilk yaradıcılıq illərində novator poeziyanın bayrağını yüksəklərə qaldıran Rəsul Rza həmin bayrağı bu günə qədər şərəflə gətirmişdir» («İki ömrün işığı» kitabında).

***

Daimi yenilik həvəsi Rəsul Rzanın yalnız yaradıcılığında deyil, ümumən, ictimai fəaliyyətinin bütün sahələrində bariz şəkildə meydana çıxır. O, həmişə, hər işdə yeni üfüqlərə can atırdı, çalışdığı hər sahədə nə isə təzə bir yol, çığır açmağa, nə isə yeni və önəmli bir şey yaratmağa səy göstərirdi.

1938-ci ilin yanvar ayında Rəsul Rza ilk dəfə nisbətən böyük, məsul vəzifəyə - Dövlət Filarmoniyasının müdiri vəzifəsinə təyin edildi.

Bu vəzifənin məsuliyyəti əvvəla onda idi ki, o dövrdə Filarmoniya Bakının əsas sənət və musiqi ocaqlarından biri idi. İkincisi, məhz bu vaxt Moskvada Azərbaycan İncəsənəti Dekadasına hazırlıq gedirdi və bu iş əsas etibarilə Filarmoniyada aparılırdı. Dekadaya hazırlıq işlərinin bədii rəhbəri böyük Üzeyir Hacıbəyov idi. Dekada ərəfəsində, dekada vaxtı və dekadadan sonra beş ay müddətində Rəsul Rzanın Filarmoniyanın müdiri kimi gördüyü işlər haqqında şairin ölümündən

sonra onun haqqında son dərəcə səmimi xatirələr yazmış görkəmli sənətkarımız Niyazi ətraflı bəhs edir (O vaxt gənc Niyazi Filarmoniyanın bədii rəhbəri vəzifəsində çalışırdı). Niyazi yazır:

«Rəsulla işləmək xoş idi, asan idi. Çünki başa düşən adam idi. Aydın adam idi. Bir dəfə ona daimi simfonik orkestr yaratmağın zəruriliyini dedim. Rəsul bu işdə məni axıradək müdafiə etdi və orkestrin yaradılması üçün əlindən gələn bütün imkanları əsirgəmədi. Bugünki simfonik orkestrimizin təməli məhz o vaxt, Rəsul Rzanın Filarmoniyanın direktoru olduğu vaxt qoyuldu. Ümumiyyətlə, Rəsulun o illərdə musiqimizin inkişafına çox faydalı təsirləri, köməyi olub».

Rəsul Rzanın bəstəkarlarımız, ifaçılarımızla əsasən Filarmoniya dövründən başlanan dostluğu və əməkdaşlığı ömrü boyu davam etdi. 1939-cu ildə nəşr edilmiş «Çinar» kitabında rejissor Səməd Mərdanovun çəkdiyi «Kəndlilər» filmindən üç nəğmənin mətni dərc olunub və qeyd edilib ki, bu mətnlərə Üzeyir Hacıbəyov musiqi bəstələmişdir. Rəsul Rza xatırlayırdı:

«Üzeyir Hacıbəyov mənim «Kəndlilər» filmi üçün yazdığım üç nəğməni bəstələmişdir. Biz onunla birlikdə nəğmələr üstündə bir neçə gün işlədik. Üzeyir bəy haqlı olaraq deyirdi ki, nəğmənin kamil yaranması üçün bəstəkar heç olmasa nəğmənin cilalandırılması işində şairlə bir yerdə çalışmalıdır. Onunla işlədiyim zaman mən bu fikrin mühüm bir həqiqət olduğuna inandım, çünki yalnız ayrı-ayrı sözlər deyil, musiqinin də bəzi xallarını iş zamanı dəyişməli olurduq. Nəticədə nəğmə sözlə musiqinin qırılmaz vəhdətindən yaranmış yeni bədii əsər olurdu. Təəssüflə demək lazımdır ki, belə vəhdət bizim bir sıra nəğmələrimizdə yoxdur. Bəzən mətn ilə musiqi arasında elə bir dissonans yaranır ki, nəğmə bədii zövq vermək əvəzinə adamı əsəbiləşdirir. Mən Qara Qarayev, Niyazi, Fikrət Əmirov, Seyid Rüstəmov, Cahangir Cahangirov, Tofiq Quliyev, Süleyman Ələsgərovla birlikdə yaratdığım bir sıra nəğmələri belə müştərək zəhmətin səmərəli nəticəsi hesab edirəm» (Haşiyədə qeyd edim ki, 1939-cu ildə Rəsul Rza

Azərbaycan Yazıçılar İttifaqının sədri olanda Üzeyir Hacıbəyov bu İttifaqa da üzv qəbul edilib).

Rəsul Rzanın sözlərinə ilk mahnını «Sərhəd bəkçisi» mahnısını Asəf Zeynallı yazıb.

1938-ci il Dekadasının əlamətdar hadisələrindən biri də gələcəyin böyük bəstəkarı Qara Qarayevin Moskvada ilk iri əsərinin «Ürək mahnısı» kantatasının səslənməsi idi. Rəsul Rza haqqında «Polifonik poeziya» adlı məqaləsində Qara Qarayev yazır:

«Moskvada Azərbaycan ədəbiyyatı və incəsənəti on-günlüyünün yekun konserti. Konsertin sonunda «Ürək mahnısı» kantatası ifa edildi. Bu, gərək ki, mənim Moskvada ifa olunan əsərlərimin ilki idi. Bu ilk sevincdən Rəsul Rzaya da «pay» düşürdü. Kantatanın sözlərini o yazmışdı... O, məndən səkkiz yaş böyükdür. Cavan vaxtlarımızda bu fərq açıq-aşkar hiss olunurdu. Münasibətlərdə, söhbətlərdə, bir sözlə, hər şeydə. İndi, yaşımız sürətlə artdığı bir zamanda, «səkkizillik fərq» azalıb, biz daha da yaxınlaşıb dost, sirdaş, məsləkdaş olmuşuq... Amma qəribə də olsa, elə anlar var ki, mən birdən-birə aramızdakı yaş fərqini hiss edirəm. Bu, Rəsul Rzaya bir dost, bir şair kimi hörmətdən, rəğbətdən irəli gəlir. Rəsul Rza poeziyası sözün əsl mənasında yeni, çoxçalarlı, musiqi dili ilə desək, polifonik poeziyadır. Bu poeziya bütün elementləri, bütün nüansları ilə mənə yaxın və doğmadır. Mən Rəsulun şeirlərini dönə-dönə oxuyuram və hər dəfə onlar mənə yeni görünür. Mənim təsəvvürümdə Rəsul Rza Azərbaycan poeziyasının, Azərbaycan mədəniyyətinin fəxridir».

Gülrux Əlibəyova Rəsul Rza haqqında yazdığı «Axtarışlar, kəşflər» kitabında Qara Qarayevin bu sözlərini də gətirir:

«1946-cı ildə Moskvada təhsilimi bitirəndən sonra ailəmlə Bakıya qayıtdım. İşim yaxşı deyildi, maddi korluq çəkirdim. Rəsul Rza respublikada mənə kömək eləyən ilk adam oldu. O, mənə iş verməkdən ötrü kinoteatrda «orkestr rəhbəri «vəzifəsini açdı (O vaxt atam Kinematoqrafiya naziri idi A.).

Beləliklə də, həyatımı uzun müddət kinematoqrafiya ilə bağladı».

Azərbaycan musiqisinin digər görkəmli xadimi Tofiq Quliyev qeyd edir ki, Rəsul Rza yeni həyat, yeni insan, yeni sənət uğrunda mübarizəmizdə çox zaman bizə bir nümunə, bir arxa, bir kömək olmuşdur. «İşlərim axsayan vaxt məhz Rəsul Rza cəsarət eləyib respublikada çəkilən ilk rəngli filmə musiqi yazmağı mənə tapşırdı. Gənclərə vaxtında kömək etmək bacarığı bu gün də Rəsul Rza fəaliyyətinin başlıca cəhətlərindəndir».

Rəsul Rzanın Üzeyir Hacıbəyov, Bülbül, Qara Qarayev, Fikrət Əmirov haqqında məqalələri, xatirələri, Qara Qarayevin, Niyazinin, Tofiq Quliyevin isə şair haqqında məqalə və xatirələri çap olunmuşdur. Şairin sözlərinə Niyazinin, Tofiq Quliyevin, Səid Rüstəmovun, Cahangir Cahangirovun, Süleyman Ələsgərovun, Adilə Hüseynzadənin, Ramiz Mustafayevin, Xəyyam Mirzəzadənin, Vasif Adıgözəlovun, Emin Sabitoğlunun, Polad Bülbüloğlunun, Cavanşir Quliyevin, Ələkbər Tağıyevin bəstələdiyi mahnıları Bülbül, Rəşid Behbudov, Şövkət Ələkbərova, Müslüm Maqomayev, Zeynəb Xanlarova, Lütfiyar İmanov, Fidan və Xuraman Qasımovalar, Mirzə Babayev, Gülağa Məmmədov, Nərminə Məmmədova, Elmira Rəhimova, Hüseynağa Hadıyev, Nəzakət Məmmədova, Rauf Adıgözəlov, yeni nəsl müğənnilərindən Azər Zeynalov, Brilyant Dadaşova, Faiq Ağayev və başqaları, habelə bir sıra məşhur Türkiyə və İran şərqiçiləri ifa edib. Şairin sözlərinə Lenin mükafatı laureatı, eston bəstəkarı E.Kapp, Ukrayna bəstəkarı İqor Şamo, Türkiyə bəstəçisi Təhsin İncirçi də əsərlər bəstələmişlər. Otuzuncu illərdə Niyazinin Rəsul Rzanın sözlərinə yazdığı «Yaşa, yaşa, can Stalin» mahnısının da üstündən keçmək istəmirəm. Bülbülün ifasında bu mahnı çox populyar olmuşdu, Bakıda və Moskvada dəfələrlə təntənəli yığıncaqlarda səslənmişdi. Məsələ, əlbəttə, bunda deyil, məsələ ondadır ki, Stalinin ölümündən sonra ifası qadağan olmuş bu mahnının, məhz mahnının, Stalinin deyil, xiffətinə Rəsul Rza

«Ölən nəğməm» adlı bir şeir də həsr edib və bu da onun şair bioqrafiyasının bir xalıdır.

Bir nəğməm vardı, dillər əzbəri,
İnsan olsaydı, yəqin
həsəd aparardı ona el nəğmələri.
Hər guşəsi yerində,
hər bəstəsi duzlu, xoş.
Indi neçə müddətdir oxunmayır,
Bir də oxunmayacaq.
Nəğmə ölü deyilmi,
gəzməsə dodaq-dodaq...

Bir neçə il bundan qabaq atamın vəfatından sonra görkəmli bəstəkarlarımızdan biri mənə müraciət etdi: Niyaziylə Rəsulun o mahnısı çox gözəl əsərdir, – dedi, - gəl mətndə bircə sözü dəyişək, «Stalin» əvəzinə «Azərbaycan» yazaq və mahnı yenidən dirilsin, səsləndirsin.

Razı olmadım, çünki dəqiq bilirəm, atam da belə saxtakarlığa yol verməzdi. Türkiyədə şairlərimizdən biri, şübhəsiz, xoş niyyətlə, «Mən hansı bir insana bənzədim ki, Lenini» misralarını «Mən hansı bir insana bənzədim Atatürkü» şəklində oxuduğunu eşitdikdə çox narazı qaldım. Belə riyakarlıq nəyə gərəkdir? Yazılana pozu yoxdur və Rəsul Rza da bu cür zamana uyğunlaşdırılaraq «müasirləşməyə» möhtac deyil.

Odur ki, mən «Yaşa, yaşa, can Stalin» mahnısının mətnini də «Ölən nəğməm» şeirini də Rəsul Rzanın yeni çoxcildliyinə salmağı lazım bilirəm.

Amma onu da deyim ki, Rəsul Rzanm müxtəlif şeirlərindən parçalar seçib onları bir kompozisiya şəklinə salarkən bu mətnlərin heyrətamiz dərəcədə bu günümüzlə səsləşdiyini gördüm. Ayrı münasibətlə, əslində isə eyni duyğuların təzahürü olaraq yazılmış mətnlərin 1990-cı ilin Qara Yanvar şəhidlərinə aid edilməsi Rəsul Rzanın ruhuna uyğundur. Sanki o da

ölümündən doqquz il sonra bu ümumxalq matəminə qoşulur, hamımızla birlikdə şəhidlərimizin yasını tutur.

Yaralılar ufuldamadı,
can verənlər inildəmədi,
susuzlar, yandım, demədi.
Öldülər ayaqlarının altında
Vətən torpağı
Başlarının üstündə Vətən ulduzları.
Könüldən könülə uçdu
ümidləri, arzuları.
Gecə ağır-ağır keçdi
cənazələrin üstündən.
Keçdi, getdi yolu səhərə.
Günəş şəfəqdən örtük çəkdi
torpağı qoruyub, torpaqda dincələn
cənazələrə...

(Bu mətn «Ərk qalası» şeirindən alınıb)

QARANLIQDAN SƏS:

Gözümüzün kökü sarı,
Illər keçir qəm qatarı!
Kim qırar bu intizarı!
Nə vaxt, nə vaxt yıxılacaq
Gecələrin dərd hasarı?
ƏKS-SƏDA:
Keçməlisən bu qəm dolu
ağır yolu, çətin yolu.
Vuruşlarda qazanacaq
azadlığı insan oğlu.

(«Afrika nəğmələrindən»)

Baxıram qəbristana,
ağlayan adam görmürəm,
bircə torpağı təzə,
üstünə səpilmiş çiçəklər
indi-indi soluxan,
hələ başdaşı qoyulmamış
qəbrin yanında diz çöküb,
üzünü torpağa qoyub,
həzin-həzin ağlayan qadından başqa.
Yəqin anadır,
Göz yaşları ürəyimi qanadır.
Başımı qaldırıb birdən
Hər qəbrin üstündə
bir dəstə çiçək görürəm,
Deyirəm. Salam!
Yurdumun qəhrəman oğulları,
Əzizlərim.!
Yəqin siz cavandınız,
Yəqin boybuxunlu,
bığ yeri təzəcə tərləmiş
oğlanlardınız!
Bəlkə tikə-parçanızı
tapıb yığan olmadı.
Ancaq bir zaman
qara, ya ağ bənizli,
sinəsində ürək çırpınan,
Canlı insan olan,
Sizin,
bir-iki parçanızı
basdırıblar bu torpağa...

(«Qəmli görüş» şeirindən)

Azadlıq nə xurmadır,
gözləyəsən, yetişsin, yığasan,

Nə alçaq təpədir,
həvəslənib yüyürəsən, çıxasan.
Zəncirləri qırmaq azdır,
zəncirlərin dünyasını gərək qırasan!
Başını dik saxla qardaş,
bayrağını, silahını möhkəm tut,
Dünya sənə baxır,
Tarix sənə baxır.
Hələ çox bağlı qollar zəncirlərini
həlqə-həlqə qoparasıdır,
Hələ bu harasıdır,
Hələ bu harasıdır!

(«Hələ bu harasıdır» şeirindən)

İstedadlı bəstəkarımız Vasif Adıgözəlov bu mətnlərə «QƏM KARVANI» adlı təsirli bir oratoriya yazdı və Qara Yanvarın onuncu ildönümündə Opera Teatrında matəm yığıncağında bu əsər məşhur müğənnilərimiz Alim Qasımovun, Azər Zeynalovun, Rəsul Rza şeirlərinin mahir ifaçısı Əminə Yusif qızının, orkestrin, xorun təfsirində səsləndi.

***

Bəstəkarlarla, ifaçılarla bərabər Rəsul Rza rəssamlarla da dostluq və əməkdaşlıq edirdi. Şairin 1939-cu ildə çıxmış «Çinar» kitabının üz qabığındakı şəkli gözəl rəssamımız Rüstəm Mustafayev çəkib. Elə həmin illərdə şairin yağlı boyayla ilk portretini Həsən Haqverdiyev yaradıb. Sonrakı illərdə Rəsul Rzanın yağlı boya, quaş və qrafik üsulla portretlərini Tağı Tağıyev, Hüseyn Əliyev, Əbdülxalıq, Adil Rüstəmov, Rəsul Rzayla Nigar xanımın qoşa portret-plakatını Elmira Şahtaxtinskaya, birgə şəkillərini gənc rəssam Vəfa Allahyarova çəkmiş, sinə heykəllərini (büstlərini) Mirəli Mirqasımov, Elmira Hüseynova, moskvalı heykəltəraş Boris Düjev düzəltmişlər.

Mikayıl Abdullayev yağlı boyayla şairin iki portretini, Toğrul Nərimanbəyov üç şəklini çəkmişdir. Rəsul Rzanın «Весно во мне» («Qəlbimdə bahar») və «Vaxt var ikən» kitablarının illüstrasiyaları da Toğrulundur. Rəsul Rzanın yağlı boyayla ən məşhur portretini Tahir Salahov yaratmışdır. Tahir habelə qrafik üsulla şairin ona qədər şəklini çəkmişdir.

Rəsul Rzanın yaxın dostları Səttar Bəhlulzadə, Tahir Salahov, Mikayıl Abdullayev haqqında məqalə, xatirə və şeirləri, Səttar Bəhlulzadənin, Mikayıl Abdullayevin, Toğrul Nərimanbəyovun onun haqqında məqalə və xatirələri çap olunub.

Mənzilində zəngin rəsm əsərləri kolleksiyası olan Rəsul Rzanın rəssamlarla dostluğu onların işlərinə, sərgilərinə daimi maraq göstərməsi, lazımı məqamlarda onları haqsız tənqidlərdən qorumaq şəklində də meydana çıxırdı. Gənclik illərində bu sayaq tənqidlərə, təzyiqlərə məruz qalan Tahir Salahovu, Toğrul Nərimanbəyovu, uğursuz qəza nəticəsində həlak olmuş istedadlı rəssam Tofiq Cavadovu Rəsul Rza Moskva mətbuatında («Правда», «Известия» qəzetlərində, «Творчество», «Дружба народов» jurnallarında) dərc etdirdiyi yazılarında fəal şəkildə təbliğ və müdafiə edirdi.

«Правда», qəzetində (28 aprel, 1972) dərc olunmuş yazısında Qobustanda daş karxanasının on minillik tarixi olan Qaya rəsmləri üçün böyük təhlükə törətməsini həyəcanla bildirirdi. Daş karxanasının işini dayandırmağa və beləliklə Keçmişin bu nadir abidəsini xilas etməyə nail oldu. Naxçıvanda, Şəkidə misilsiz memarlıq abidələrimizin o vaxtki acınacaqlı vəziyyəti haqqında da dəfələrlə məsələ qaldırmış, yazmışdı.

Rəsul Rzanın həyatımızın və mədəniyyətimizin bir sıra vacib məsələləri haqqında təklifləri də olub. Belə təkliflərdən biri Bakıda ikinci dram teatrının açılması haqqında idi. Başqa, daha mühüm təklifi Kirovabad şəhərinə qədim Gəncə adının qaytarılması barəsindədir. 1968-ci ildə MK katibi Cəfər Cəfərova göndərdiyi məktubda yazırdı:

«Gəncə Azərbaycanın qədim paytaxtı, onun böyük iqtisadi və mədəni mərkəzi, min ildən artıq tarixi olan bir şəhərdir. Ölkəmizin dövlət orqanları və qanunvericilik idarələri dəfələrlə qərar çıxarıblar ki, yaşayış məntəqələrinə ad verərkən coğrafı, tarixi, milli, yerli və s. şərtlər nəzərə alınsın. Ad verərkən və ad dəyişərkən artıq təsdiq olunmuş adların təkrar olunmasına yol verilməməlidir. Bu aydın və sadə prinsipin nəzərə alınmaması eyni tipli şəhər, vilayət adlarının meydana çıxmasına səbəb oldu: məsələn, iki Kirov, Kirovaqrad, üç Kirovsk, Kirovakan, iki Kirovskoe, iki Kirovabad - biri Azərbaycanda, biri Tacikistanda. Tək elə bir Azərbaycanda Kirovun şərəfinə onlarla çoğrafi və inzibati ərazi obyektlərinin adları dəyişdirilib. Belə yeknəsəklik dünyanın heç bir ölkəsində yoxdur. Əvvəllər nə Azərbaycanda, nə də Rusiyanın özündə belə şey yox idi. Bu xalqın tarixinə etinasızlıqdan başqa çox böyük praktik çətinliklərə də səbəb olur. Belə düşünürəm ki, Azərbaycan xalqının iftixarı, qəhrəman keçmişimizin canlı tarixi qədim Gəncəyə də onun həqiqi adı qaytarılmalıdır».

Məktubuna Rəsul Rza bu sözləri də əlavə edir:

«Toponimik özbaşınalığa son qoyulmayıb. Hələ inqilabdan əvvəl 1983-cü ilin rus mənbələrində Dağlıq Qarabağda Tair, Mirikənd, Yenikənd, Mehdikənd, Seyidbəyli, Ağkənd və onlarla başqa kənd adları göstərilirdi. Xalqımızın keçmişini öyrənmək üçün çox qiyməti olan bu adlar indi sıradan çıxarılmışdır. Bir-birinin ardınca bu kəndlər Mirişen, Norşen, Mextişen, Seidşen, Siptakişen və s. adlandırılmışdır. Heç nəyə əsaslanmayan və heç bir lüzumu olmayan bu şəhər, kənd və başqa inzibati ərazi vahidlərinin ad dəyişdirilməsi bizdə indiyə qədər davam edir. Azərbaycan SSR-nin bütün bu və başqa yaşayış məntəqələrinə onların əsl adlarının qaytarılması və gələcəkdə bu sayaq subyektiv ad dəyişmələrinin qarşısının alınması düzgün olardı».

Rəsul Rza
«Azərbaycan Sovet Enkislopediyası»nın
Baş redaktoru, 2 aprel 1968

***

Gəncə adının rəsmi şəkildə qaytarılmasını gözləmədən Rəsul Rza elə həmin il bu qədim şəhərə həsr olunmuş mahnı yazır:

Bağlarında salxım-salxım təbrizi.
Buz kimidir Dördyolunun kəhrizi.
Göygölünün havasını udanlar
Ömrü boyu yaxın qoymaz pəhrizi.
Tarixdə var adın, Gəncəm, a Gəncəm!
İldən-ilə sən boy atdın, a Gəncəm!
Qarşısında əyməmisən başını,
ömrün boyu heç bir yadın, a Gəncəm!

Nədənsə, o vaxt atam elə bilirdi onun təklifi tezliklə həyata keçəcək, Gəncənin adı qaytarılacaq və odur ki, mahnıda bu gözlənilən xoş hadisəyə aid sözlər də var:

Gecə-gündüz cänlı qəlbin döyünür,
Ellər bu gün zəfərinlə öyünür.
Neçə qurban bahasına qazandın,
Şöhrətindən xəbər verən bu günü.

Əfsus ki, o vaxt «Gəncənin şöhrətindən xəbər verən o xoş gün» baş tutmadı, sonrakı illərdə də bu yolda çox təşəbbüslər edildi, qurbanlar getməsə də başı bəlalar çəkənlər oldu və Rəsul Rza da çox sevdiyi bu qədim şəhərin əsl adının qaytarıldığı günü, nə yazıq ki, görə bilmədi.

Ancaq o vaxt mərhum bəstəkarımız Telman Hacıyev bu mətnə gözəl bir mahnı bəstələmişdi və Elmira xanım Rəhimova onu məlahətlə ifa etmişdi. Radioda bir iki dəfə səslənəndən sonra «Gəncə» mahnısı yasaq edildi və yalnız o vaxt Mərkəzi Komitədə məsul vəzifədə çalışan, Gəncənin və bütün Azərbaycanın vətənpərvər övladlarından olan Tofiq Bağırovun təkidiylə ara-sıra efirdə səsləndi.

***

1938-ci ilin mayında Rəsul Rza Azərbaycan Yazıçılar İttifaqının rəhbəri, o vaxtkı adla Məsul katibi, vəzifəsinə seçilir və 1939-cu ilin dekabrına qədər bu işdə çalışır. Bir qədər sonra bəhs edəcəyim hadisələr nəticəsində Yazıçılar İttifaqının rəhbərliyindən uzaqlaşdırılanadək il yarım müddətində Rəsul Rza bu vəzifədə də mühüm işlər görmüşdür. Bu işlərdən ən mühümü Azərbaycan diliylə bağlı qayğılar və tədbirlərdir.

Doğma dilimizə münasibət Rəsul Rzanı poeziyasında və ictimai fəaliyyətində daima düşündürən və narahat edən bir məsələ idi.

Bu mövzuya müxtəlif illərdə yazdığı şeirlərdə toxunmuşdur. Mirzə Cəlil Məmmədquluzadənin məşhur əsərinin adıyla adlanan və bu əsərin ruhuyla aşılanmış şeirdə - «Anamın kitabı»nda anasının vəsiyyətini xatırlayır. Doğma dilimizin rəmzi olan Kitabı oğluna yadigar qoyan anasının diliylə deyir:

Bir gün, əbədi ayrılanda biz,
ağlama!
Mənə yas saxlama!
Ancaq bir zaman
bu kitabı gözdən salsan
O gündərı yaz mənim
Olüm günümü.
O gün mənə yas tut!
Və unut.
Yaşa, dilində, qulaqlarında
sükut.

(1967)

Çox vaxt Rəsul Rzanın şeirlərində üstüörtülü şəkildə ifadə olunmuş fıkirlərin, eyhamların sətiraltı mənaları onun çıxışlarıyla, publisist yazılarıyla tutuşdurulanda açılır. 1958-ci

ildə Yazıçılar İttifaqının atamın təşəbbüsüylə Naxçıvanda keçirilən Plenumunda etdiyi məruzədə Rəsul Rza deyirdi:

«Vaxtilə Cəlil Məmmədquluzadə «Anamın kitabı» əsərində ana dili məsələsindən özünəməxsus bir müdriklik və kəskinliklə yazmışdı. Bəzi adamlar bu əsərdə millətçilik ruhu arasalar da, yox olan bir şeyi tapmaq mümkün olmadığı üçün əliboş qaldılar».

(O illərdə Mirzə Cəlilə bu ittihamı «Anamın kitabı», «Kamança» və «Usta Zeynal» əsərlərinə görə bəzi erməni yazıçıları verirdi. 90-cı illərdə isə Suren Ayvazyan adlı birisi hətta onu həyasızcasına «faşist» adlandırmışdı və bizim tərəfimizdən layiqli cavabını almışdı. Yəqin Suren Ayvazyan yatsa yuxusunda da görməzdi ki, Azərbaycanın müstəqillik dövründə elə öz əhli qələmlərimiz Mirzə Cəlili - kolobrasionist yəni, vətən xaini, satqın adlandıracaq və indi də «özümüzünkülərin» ağzından vurmalı olacayıq. Həmin Suren Ayvazyan Bakı kinostudiyasında «Qaçaq Nəbi» filmi çəkiləndə də Sov. İKP MK-ya etiraz məktubu yollamış, Qaçaq Nəbini quldur və başkəsən adlandırmışdı. Bundan xəbər tutanda mən də Qaçaq Nəbinin bizim milli qəhrəmanımız olması, onun haqqında xalqın dastan qoşması barədə həmin instansiyaya məktub göndərdim. O vaxt bizim Mərkəzi Komitədə məsul vəzifədə çalışan rəhmətlik Qəşəm Aslanov bir gün məni çağırdı: «Moskvada məktubunu alıblar - dedi - sənin arqumetlərin yaxşı qarşılanıb və film ekranlara buraxılacaq». Bu sözlərdən sonra Qəşəm belə bir əlavə də etdi: «Amma unutma ki, Moskvada Mərkəzi Komitənin həmin o, sən məktub göndərdiyin şöbəsində 16 nəfər erməni işləyir. Haçansa sənə bunu xatırladacaqlar». Rəhmətliyin sözləri çox illər sonra doğruldu - A.).

Rəsul Rza Naxçıvanda Plenumda məruzəsinə davam edərək deyirdi:

«Əsl həqiqətdə isə Cəlil Məmmədquluzadənin «Anamın kitabı» əsərində heç bir xalqın dilinə etinasızlıq yoxdur. Orada yalnız böyük bir həqiqət vardır ki, öz anasının dilini bəyənməyən, başqa xalqların dilini yalan-yanlış öyrənib və bu

dillərdə sadə, mehriban anasına müraciət edərək, onun başa düşmədiyi sözlərlə əlləməlik eləmək bir nacinslik, bir nankorluqdan başqa bir şey deyildir... Hər kim doğma ana dilini unutmaq, ona xor baxmaq hesabına başqa xalqların dilini «öyrənmək» istəyirsə, o, xalqın nifrətindən başqa bir şey qazana bilməyəcəkdir»

(Rəsul Rza. «Yeni yaradıcılıq qələbələrinə doğru!» «Duyğuların izi ilə» kitabında)

Yenə də «Anamın kitabı» müəllifinə ithaf etdiyi «Anamın laylası» şeirində körpəyə layla çalan yad qadını təsvir edir və bu yad qadının yad dildə dediyi layladan vahimələnir.

Bu necə layladır?
Bu nədir?
Qulaqlarımı didir,
qəlbimi göynədir.
Nə bəstəsi doğmadır mənə,
nə tanışdır sözləri.
Anam dinmədi
Baxdım, sakit göz yaşları
Süzülürdü yanaqlarından,
Elə bil soruşurdu:
Oğul!
Hanı mənim laylam, hanı?
Səsim gəldikcə qışqırdım:
Yox, yox!
Unutmamışam laylanı.
Hələ də çırpınır qəlbim,
Neçə vaxtdır yuxudan ayılanı.
Düşünürəm:
bu nə həyəcan, bu nə qorxudur?
Bu ki yuxudur.
Öz-özümə deyirəm:

Anamın laylası olmasa,
Təəssüf etməzdim yatıb,
Bir də yuxudan ayılası olmasam!

(1959)

Doğma dilin itirilməsi, unudulması üçün nigarançılıq Rəsul Rzanın müxtəlif şeirlərindən, məqalə və çıxışlarından ana xətt kimi keçir.

Görəsən, kim yandıracaq,
yeni çıraqları Xəzər sahilində?
Görəsən, kim deyəcək
yeni nəğməni,
Nə dilində?

(«Xülyalar yolunda» şeirindən,
Yanvar, 1962)

Bu qorxu, bu nigaranlıq əsassız deyildi. O vaxtlar bütün toplantılarda, geniş yığıncaqlarda çıxışlar yalnız rus dilində edilirdi, yaxın gələcəkdə «Kommunizm cənnətində» bütün sovet xalqlarının eyni bir dildə (təbii ki, rus dilində) danışıb yazacaqları haqqında sərsəm fıkirlər şüurlara yeridilirdi. Bir qayda olaraq bütün iclaslarda formal şəkildə Azərbaycan dilində bir stenoqrafistka (R.Rzanın ifadəsiylə «iti yazan qız») və iki rusca yazan stenoqrafistka olardı.

«İti yazan qızlar» şeirinin hədəfı də budur.
Saatlar keçdi yeyin-yeyin,
Saatlar keçdi ağır-ağır
Qızlardan ikisi
yazdı, yazdı, yazdı.
Biri gözü natiqlərdə
əsnədi, əsnədi, əsnədi.
Bu rüsvayçılıq deyil, bəs nədi?

(22 yanvar, 1967)

Bu şeir «Ezop dilində» yazılmışdısa da ayıq-sayıq «ədəbiyyat darğaları» dərhal məsələni duymuş və lazımi yerlərə çuğullamışdılar. Atam danışırdı ki, həmin şeir çıxandan iki-üç gün sonra hansısa bir iclasda, rəyasət heyətində o vaxt Azərbaycan MK-nın Birinci katibi vəzifəsində işiəyən Vəli Axundovun arxasında oturmuşdum. Başqa iclaslar kimi bu iclasda da bütün çıxışlar rus dilində idi. Növbəti natiq yenə də rusca danışmağa başlayanda Axundov birdən mənə tərəf çevrilərək yavaşcadan: «Rəsul müəllim, sizin iti yazan qızlar məsələsidir ha... » - dedi.

Mat qaldım, belə qısa bir zamanda həmin şeirin mətləbini ona nə tez çatdıra bilmişdilər...

«Rənglər» silsiləsinin «Qaranın dərd çaları» şeirində də «Dili ali məclislərdən qovulan, qolları buxovlu olan qəbilələrin, xalqların» taleyinə acıyırdı. Yaxud, başqa bir şeir:

Dil var insan ömrünü gödəldir qeybətiylə.
Dil var yatmış vicdanı oyadır.
Dil demişdir «azadlıq» sözünü,
«Evrika « sözünü,
«Oyan, oyan, Afrika!» sözünü.
Dil işıqlı günlərə çağırıb insanları.
Dil vəsf edib səhəri,
Dil var ki, hər kəlməsi alov, köz!
Dil var ki, insanları
mübarizə yolundan soyudur:
Dinmə'.Döz!
Dil var ki,
yuvasından çıxardar ilanları.
Dil var min bir bəzəklə
bəzəyir yalanları.

(«Dillər» şeirindəıı, 1963)

Rəsul Rza Azərbaycan dilinin tək vətənimizdə deyil, beynəlxalq aləmdə də gur səslənəcəyi günü həsrətlə gözləyir və bu xoş günə qabaqcadan sevinirdi:

Söz ver mənə yoldaş sədr,
Bu nədir?
Dörd milyon saymısan məni!
Axı mənim çoxum o taydadır.
Nə dili dilimdən ayrıdır,
nə nəğmələrinin bəstəsi.
Nə qızlarının şəvə gözü,
nə layla, nə şikəstəsi.
Sədr yoldaş!
Salma məni siyahinin axırlarına
And olsun qəlbimin həsrət ağrılarına,
Bu gün olmasa da, sabah
qırılacaq zəncirlər!
Könüllər açılacaq,
Onda özün deyəcəksən,
Gəl, söz sənindir!
O gün gələcək,
Sən o günə görə

mənə birincilər sırasında
söz ver indi.

(1964)

Dil Rəsul Rza üçün xalqın, millətin varlığını təsdiq etmək və hər cür təzyiqlər qarşısında qoruyub saxlamaq üçün ən kəsərli silahdır. «Ötən günlər» adlı publisist yazısında bu fikri belə ifadə etmişdir:

«Dil millətin varlığı, onun həyat səhifəsində imzasıdır. Bir millətin yerini əlindən almaq olar, onun var-dövlətini talan etmək olar, o yenə də milli varlığını itirmir, millət olaraq qalır. Bir millətin dilini əlindən alarsan, o millət öz milli simasını iti-

rər. Ana dili millətin mənəvi varlığı, canı, qanı, adı-sanıdır. Odur ki, milli dil uğrunda mübarizə millətin mənliyi uğrunda mübarizə deməkdir.

Bütün gəskinliyi ilə deyilmiş bu fikirlər «Babək» şeirində daha da sərt şəkildə ifadə edilmişdir. Təcavüzkar gəlmələr:

Xalqın yaralı dilinə
mütilik məlhəmi qoyanlar,
Körpələrimizin beşiyi başında,
ağa dildə
şükran nəğməsi oxuyanlar –
sözləriylə damğalanmışdır.

Rəsul Rza dilimizin qorunması, saflığı və zənginləşməsi uğrunda ardıcıl mübarizəyə, deyildiyi kimi hələ otuzuncu illərdə başlamışdı. Yazıçılar İttifaqına rəhbərlik etdiyi müddətdə bu məsələyə xüsusi diqqət və qayğı göstərmişdir. Yazıçılar İttifaqının rəhbəri kimi ilk tədbirlərindən biri Dil haqqında müşavirə keçirmək və bu müşavirədə ətraflı məruzə etmək olub.

1939-cu ildə edilmiş və yalnız bu yaxınlarda mətni «Ədəbiyyat qəzeti»ndə (18 avqust 2000) dərc olunmuş «Azərbaycan dilinin bugünkü vəziyyəti və gələcək vəzifələri haqqında» məruzəsi dilimizin problemləri və perspektivləri haqqında proqram sənəddir, həm də bu sənədin məhz o dövrdə meydana çıxması ən azı vətəndaşlıq hünəridir. Məruzədə o illərin ideoloji ştampları və terminləri müəyyən qədər yer alsa da, əsas qayəsi dilimizi yad təsirlərdən qorumaq, onun özəlliyini və gözəlliyini saxlamaq amalıdır. «Kommunist» qəzeti kimi Partiya orqanını kəskin tənqid etməkdən belə çəkinməyən Rəsul Rza məruzəsində deyirdi:

«Kommunist» qəzetinin bəzi əməkdaşları da dilə lüzumsuz yeni sözlər gətirməkdə həqiqətən birinci yer tuta bilər. Natura, uçastok, mexanizator, mobilizasiya, sort, pozisiya, transport, spekulyasiya, ekipaj, reys, produksiya, korpus, uçot, xormeyster, avariya, prosent, pröstoy, komissariat, masştab,

realizə etmək, maşinist, laryok, struktura, instruksiya, populyarlaşdırmaq, buksir və bundan başqa yüzlərlə belə sözləri yazan qəzet işçiləri bir balaca özlərinə zəhmət versələr, bu sözlərin əvəzini Azərbaycan dilində tapa bilərlər. «Kommunist» qəzetinin əməkdaşlarının dalınca «Gənc işçi» gedir, «Ədəbiyyat qəzeti» gedir. «Gənc işçi» tez finans sözünü alaraq işlədir, hələ çox yeni söz də əlavə edir. Məsələn, «flan yoldaşın rezümesi», «onun arqumenti yoxdur», «O predmetin detalı», «O pozisiyasını analiz edir» və s. «Gənc işçi»nin dilidir».

Böyük bir məruzədən bu səpkili misalları, onların Azərbaycan dilindəki qarşılıqlarını göstərən parçaları, ümumən dilimizin gələcəyi haqqında nəzəri mülahizələrin hamısını burda gətirmək mümkün deyil. Maraqlananlar məruzənin Rəsul Rzanın yeni çoxcildliyinə daxil olan mətniylə tam şəkildə tanış ola bilərlər. Bircə onu qeyd etmək istərdim ki, bugünkü azadlıq və müstəqillik dövründə dilimizin başına açılan oyunlar, küllü miqdarda əcnəbi sözlərin nəinki dilimizə pərçim olunması, hətta qəzet və jurnal adlarının, TV kanallarının da yabançı dildə səslənməsi Rəsul Rzanın daha artıq nigarançılığına və təlaşına səbəb olardı.

O, məruzə, çıxış, məqalə və müsahibələrindən başqa satirik şeirlərində də dilimizə yöndəmsiz yamaq kimi vurulan özgə kəlmələrinə qarşı qəzəbini və istehzasını gizlətmirdi:

Bir natiqə rast gəldim, nə «net» bilirdi, nə «yest»,
Rus sözləri qatırdı məruzəsinə tez-tez.
«Əgər seryoznı baxsaq, deyirdi, məsələyə,
zaputat eləyirlər bizi yaman kələyə,
Mən iskrom adamam, hamı bilir, çesniyəm,
Heç abijat olmaram, yaşasam da tesni mən.
Butdum dobrum, sizin də bir sovestiniz olsun,
Bizim obşestvada layiq mestiniz olsun».
Məruzə qurtaranda yanaşdım natiqə mən.
Dedim: Üzr istəyirəm, inciməyin sözümdən.

Nə üçün iki xalqın dilini, yoldaş belə,
Rüsvay eyləyirsiniz pəltək məruzənizlə
Məgər yaxşı dil bilmək sizinçün vacib deyil?
Natiq baxdı üzümə, dedi: Vot kak, acıdil!

(«Doğrunun acısı» şeirindən)

Rəsul Rza təbii ki, rus dilinin əleyhinə deyildi, əksinə, bu dili yaxşı bilməyi, bu dilin vasitəsiylə zəngin dünya mədəniyyətini mənimsəməyi tövsiyyə edirdi. Etirazı Azərbaycan dilinin sıxışdırılmasma, yaxud iki dili birbirinə qatan «pəltək məruzələrə» qarşı idi. Bir də qəti əqidəsi belə idi ki, Azərbaycan ədəbiyyatı, Azərbaycan mədəniyyəti yalnız doğma dilin zəminində yarana bilər. Öz təbirincə «haça dilli» mədəniyyəti heç cür qəbul edə bilmirdi.

***

Yazıçılar İttifaqı Plenumunda məruzəsindən bir qədər əvvəl Ali Sovetin sessiyasında da dil məsələsinə toxunmuş və daha kəskin sözlər demişdi.

«Öz ana dilini yaxşı bilməyən insan başqa dilləri də lazımi dərəcədə mənimsəyə bilməz. Mən bilmirəm hansı əsasla və nə haqla «Kommunist» qəzeti özbaşınalıqla dilimizə finans, promısel, sopka, produkt, stimul, çaşka və bu kimi sözləri gətirir, halbuki bizim dilimizdə bunların öz adları var: maliyyə, vətəkə, təpə, məhsul, həvəs, fıncan və s. İş o yerə çatır ki, bizim qəzet işçiləri dilimizə bütöv ifadələri olduğu kimi daxil edirlər, məsələn, «kapitalist okrujeniyası» yaxud Evropa, İndiya (Avropa, Hindistan əvəzinə-A.) və s. Bir neçə adam dilin taleyini həll edə bilməz... Dilin ən böyük qoruyucusu xalqdır, xalqın danışğı, xalqın tarixidir. *Qoy bizim nəşriyyat və mətbuat işçiləri gələcəyin böyük və vahid kommunizm dilini yaratmağa tələsməsinlər* (kursiv mənimdir-A.) Necə deyərlər, çay keçmədən çırmanmasınlar, yay gəlmədən qızmasınlar. Cahillik

nəticəsində dilimizi zibilləməsinlər. Beləliəri haqqında xalqımızın söylədiyi bir ifadəni xatırlatmaq istəyirəm: «Ağır otur, batman gəl».

Xatırladıram ki, bu çıxış 1939-cu il iyulun 11-də edilib, yəni gələcəyin vahid kommunizm dili (oxu «rus dili»-A.) haqqında söhbətlərin şıdırğı vaxtı. 37-ci ildə millətçilik ittihamı ilə gedər-gəlməzə göndərilənlərin faciələrindən iki il sonra...

On yeddi il sonra, 1956-cı il avqustun 20-də Rəsul Rza Ali Sovetin sessiyasında yenə də dil məsələsini qaldırır:

«Elə adamlar var ki, respublikamızda əsas dil olan Azərbaycan dilinin böyük rolunu dərk etmirlər. Bu gün Azərbaycan dilini öyrənmək, bu dildə iş aparmaq, bu dildə təhsil almaq sahəsində bir sıra ciddi nöqsanlar vardır. Respublikanın maarif naziri Məmmədov yoldaş burada oturmuşdur. Şübhəsiz, o bilir ki, ildən-ilə məktəblərdə Azərbaycan dilində təhsil alan uşaqların sayı azalır. Bu ilk nəzərdə bir cümlədir. Lakin bu cümlənin dalında elm, ədəbiyyat və sənətimizin taleyi, xalqın taleyi durur. Bu bizi ciddi surətdə düşündürməyə bilməz. Dilimizi hər cür təcavüzdən qorumaq lazımdır».

O da maraqlıdır ki, 1939-cu ildə yəni Rəsul Rzanın Yazıçılar İttifaqına rəhbərlik etdiyi vaxt İttifaqın orqanı «Ədəbiyyat qəzeti»ndə müəlliflərin imzaları «oğlu» şəklində verilib: Səməd Vurğun Yusif oğlu, Süleyman Rüstəm Əliabbas oğlu, Mircəlal Əli oğlu, Zeynal Xəlil Rza oğlu, M.Arif Məhərrəm oğlu, A.Faruk Musa oğlu, Rəsul Rza İbrahim oğlu və s. O vaxt «Ədəbiyyat qəzeti»nin baş redaktoru qocaman yazıçımız Məmməd Səid Ordubadi idi.

Bu yaxınlarda tədqiqatçı və şairə Sona Xəyalın Rəsul Rza haqqında qiymətli monoqrafiyasıyla tanış oldum. Sona Xəyalın maraqlı tapıntılarından biri də Rəsul Rzanın İttifaqa rəhbərlik etdiyi illərdə Məmməd Səid Ordubadiyə yazdığı məktubdur. Məktubda deyilir:

«Əzizim Səid!

Məktubunu bu saat aldım. Məzmununa bələd oldum. Çox gözəldir. Mənə elə gəlir ki, Kislovdskinin havası sanasan ki,

qışdır. (Məktub yay aylarında yazılıb - A.). Mən sənə qarşı hər zaman hörmət bəsləmişəm və yenə də bu acı məktubuna baxmayaraq hörmət bəsləyirəm. Əlimdən gələn yardımı da sənə təmənnasız edəcəyəm. Boynuma qoyub getdiyin qəzetin çəkçeviri sözlərimi ehtiva edə bilər. Sən özün də bilirsən ki, mənim boynumda azı bir səkkiz komissiya üzvlüyü, o boyda Nizami komitəsi, Yazıçılar İttifaqı var. Bundan başqa, mən də az-maz yazıçılığa meyl göstərən bir gəncəm. Hərdən-birdən olsa da, yazmağa ehtiyacım doğur. Bundan başqa, Nizaminin 14 min misralıq tərcüməsi dağ kibi gözümün qabağında durur. Mən bütün bunlara baxmayaraq bu yayın istisində heç bir yerə getmədim və əlavə olaraq qəzetin də («Ədəbiyyat qəzeti»nin - A.) nəşrini boynuma götürdüm. Zənn edirəm bütün bunlar mənim kömək eləmək arzumu göstərməyə kifayətdir. Bunları etməkdə mənim şəxsi nə mənfəətim vardır? Bütün bunları edəndə, öz yaradıcılığımı, taleyimi ümumi işə qurban verəndə, mən kimdən əvəz istəmişəm? Nə isə, məktubun məni son dərəcədə həyəcanlandırdığından bəlkə bir qədər yersiz şeylər yazıram. Səid, təəssüf edirəm ki, sən Kabakovların yazdığına inanaraq nəticə çıxarırsan (Kabakov o vaxt Ədəbiyyat fondunun məsul işçisi idi -A.).

İbrahimlini Litfonda gətirmək heç bir zaman fikrim olmamışdır. Bunları sənə başqa rəngdə yetirən bişərəf adamlar da yəqin bilər ki... (oxunulmur A.) Sən burada olsaydın çox yaxşı anlaşardıq və təzədən görərdin ki, belə lazımdır. Yeri gəlmişkən, deyim ki, burada olan Prezidium üzvləri sənin rişxənd elədiyin kimi, mən və Cəfər degil (O vaxt Yazıçılar İttifaqında Rəsul Rzanın müavini işləyən Cəfər Cəfərov nəzərdə tutulur A.), Qraf İvanov (Azərbaycan Yazıçılar İttifaqının üzvü rus yazıçısı A.), Mirzə (Mirzə İbrahimov A.) də, məlum olduğu üzrə, Prezidium üzvləridir. Sənin məktubuna cavab məsələsinə gəlincə, deyim ki, mən bir həftə burada yoxdum və sənin birinci məktubunu çox gec almışam. Əgər doğrudan da sənin yazdığın, daha doğrusu, sənə məlumat verdikləri

kibidirsə, mən umu-küsüsüz bu işdə təqsiri olan adama töhmət edəcəm.

Belə-belə xırda işlərin əsasında mənə Litfondu da idarə etməyi təklif edirsən (Ordubadi həm də o vaxt Ədəbiyyat fondunun sədri imiş - A.). Bu iltifat üçün təşəkkürdən başqa sözüm yoxdur.

Kabakovdan heç bir şeydən xəbəri olmayan adam kibi yazırsan. Bir halda ki, onun işdən götürülməsi məsələsini biz sənin lə ətraflı damşıb razılaşmışdıq. Əgər Litfondun bu vəqtə qədər işlədiyi kibi işləməsi və orada Kabakovun tərəfindən yaradılmış qayda-qanunların toxunulmaz qalması məsləhətdirsə, heç bir sözüm yoxdur. Yenə, yeri gəlmişkən deyim ki, Rabinoviç məsələsində bizi yüngülsaqqal eləmisən, Səid. Sənin düz təklifinə əsasən, biz, Prezidiumda Rabinoviçin məsələsini qoyduq. Prezidiumda ancaq mən və Cəfər deyildik. Əgər xatırlarsansa, Səməd Vurğun, qraf İvanov, Mirzə də vardı. Qərar çıxartdıq ki, onu filan-filan səbəbə görə işdən götürək. Bundan sonra sən verdigin əmrlə o iki yerdə işləyə bilmədiyi üçün işdən çıxarıldı. Bu da düz, yerində. Yadındadırmı, sən şəxsən bana müraciət elədin ki, Rabinoviçi Litfonddan çıxarmışıq. Onu idarədən də çıxarmaq lazımdır. Mən də sənin sözünün əsasında Cəfərə tapşırdım. Cəfər də onda qəbz yazıb Rabinoviçin işdə ciddi nöqsan buraxdığı üçün oradan çıxarılmasını tələb etdi. Bütün bunlardan sonra sən Rabinoviçi (onun dediyinə görə) arxayın etmisən ki, daha sənə dəyməyəcəyik. İndi yazıq Cəfəri gündə üç dəfə prokurorluğa çağırırlar. Əgər sənin yanaşdığın kimi yanaşsaq, onda gərək deyək ki, sən bizə etinasızlıq edirsən, bizə inanmırsan! Qalır ki, mən bu barədə heç sənə bir söz də deməmişəm. Deməzdim. İndi məcbur oluram.

Möhtərəm Səid! Mən elədiyim işləri ümumi işin xatirinə eləyirəm. Burada mənim səhvim ola bilər. Bunu məndən yaşlı və təcrübəli olan sənin kibi yoldaşlar göstərsələr bu mənfəətdən başqa bir şey verməz. Lakin Kabakovların etirazı ilə yox. İbrahimlinin yaramadığı üçün İttifaqdan çıxarmaqla bən

Kabakovuıı təkidiylə nə bilim filan-bəhmənlərin Litfonda soxulub, yenə də Kabakovla əlbir olub oranı istədikləri kibi dağıtmamaları üçün kənardan Kabakovun doğrudan da sevmədiyi və qorxduğu bir adamı oraya qoymaq istəmişəm və zənn edirəm ki, bu məsələdə mənim tutduğum xətt-hərəkət doğru, sizinki yanlışdır. Sən təcrübəli bir yoldaş kibi maraqlanmalı idin ki, nə üçün Kabakov bu qədər canfəşanlıqla özünü şəhid eləyərək ora başqa adamın gəlməsinə etiraz edir? Burda nə sirr vardır? Mənə elə gəlir ki, bu məsələni araşdırmaq daha mənfəətli nəticə verərdi. Bəlkə sənin üçün Kabakov daha etibarlıdır. Buna bir şey deyə bilmərəm. Mən qəlbən sənin nəsihətinə (oxunmadı A.). Lakin Kislovodskun havası sana yaxşı təsir etmədiyinə də inanıram. Sən orada əsəblərini düzəltmək əvəzinə görünür daha da xarab eləmisən. Budur özün məktubda mənə «yersiz olarmı»...(oxunmadı A.) Çünki mən əmr verməyə öyrənməmişəm. Özü də sənə. Mən səni atam yerində dutmuşam və duturam. İndi isə doğru hesab etdigim bir xətti-hərəkəti müdafiə etməkdə haqlıyam. Nə isə...

Bəs nə üçün Məhsəti xanımın tərcümələrini verib getmədin? Həm də oradan göndərmədin? Nə vaxt gələcəksən? «Ədəbiyyat qəzeti»ni alırsanmı? Əgər almırsan, yaz, səndən sonrakı nömrələri göndərim. Gələn nömrədə fikrimiz var Bəhruz haqqında bütün bir səhifə verək. Sən bu işə necə baxırsan, bu nömrədə məşhur Naxçıvan rəssamı Bəhruz bəg Gəngərlinin haqqında bir səhifə verilsin?

Məktubu bitirərək əllərini sıxıram. Yadına salıram ki, mən İttifaqa gələndə və bu məsələ azı altı-səkkiz ay uzananda sən: «gəl, yardım eləyərik, işləyərsən» dedin. Mən bu yardımı görmək istəyirəm.

Dünən Prezidium iclasında(iclasda mən və Cəfərdən başqa Qraf İvanov, Rəfili və başqa yoldaşlar da vardı) yoldaş Stalinin 60 illigini qarşılamaq üçün tədbirlər qeyd edirdik. Bu qədər.

Hörmətlə, həm də Arifə və başqa yoldaşlara səlam,

Rəsul

11.VIII.40

Bu məktuba görə Rəsul Rzayla qocaman yazıçımız M.S.Ordubadinin münasibətləri haqqında yanlış fikir oyanmasını istəməzdim. Heç bir prinsipial məsələdə heç kəsə güzəştə getməyən Rəsul Rza müəyyən cari işlər haqqında Ordubadiyla mübahisə etsə də, elə bu məktubdan da göründüyü kimi ona hörmət bəsləyirdi. Böyük ədibin 75 illiyində də onun haqqında məruzə etmişdi. Məruzəsində deyirdi:

«Uzun və məzmunlu bir ömür sürüb, həyatın böyük məşəqqəli və iztirablarını, sevinc və fərəhlərini görmüş, bir vətəndaş, bir sənətkar, bir insan kimi öz xalqının dərin hörmətini qazanmış Məmməd Səid Ordubadinin anadan olduğu gündən yetmiş beş il keçir. Biz bu qiymətli insanın çəkdiyi əməklər üçün, mədəniyyətimizin, sənətimizin tərəqqisi yolunda sərf etdiyi qeyrətlər üçün ona öz minnətdarlığımızı bildirməli, qəlbimizi dolduran qürur hissi ilə onu alqışlamalıyıq.

***

Rəsul Rza dilimizin yalnız saflığının və yad təsirlərdən qorunmasının qeydinə qalmırdı, o həm də dilimizin inkişafının yeni kəlmələrlə, dövrün tələb etdiyi istilahlarla, təzə ifadələrlə, öz təbiriylə desək, «deyim»lərlə zənginləşməsinin tərəfdarı idi və zənginləşdirənlərdən biri idi.

Vaxtilə Həsən bəy Zərdabi yazırdı:

«Dil bir şeydir ki, öz halında saxlamaq mümkün deyil. Elə ki, artıq şeylər ələ gəldi və alətlər dəyişdi, təzə sözlərin qədəri gündən-günə artacaqdır. Belə sözlərin artmağının dilə zərəri yoxdur, xeyri var».

Dil məsələlərinə həsr olunmuş «Mülahizələr» adlı məqaləsində bu sözləri gətirərək, onlarla tam razı olduğunu bildirən Rəsul Rza fikrini belə izah edir:

«Dilin ifadə bacarığının yeni çalarlarla yetkinləşməsi, lüğət sayının yeni və yeniləşmiş sözlərlə zənginləşməsi, bir sözlə, dilin harmonik, intensiv inkişafı üçün onun gərəkliliyi mühüm şərtdir. Metal alət işlədilməsə, paslanar. Dil işlədilməsə

get-gedə kəsərini, məna dəqiqliyini, ifadə, incəlik və gözəlliyini itirər, inkişafdan qalar».

Həmin məqalədə Rəsul Rza dilimizin onun zənniycə hansı şəkildə yeni söz və ifadələrlə zənginləşməsinin prinsiplərini də nəzərə çatdırır. Rəsul Rzanın fıkrincə, dilə yabançı olan yalnız yad kəlmələr deyil, həm də yad düşüncə və ifadə tərzidir. Məsələn, məntiqi və semantik gərək olmadan «Özü, özünün, özünə» və bu kimi sözlərin yersiz işlədilməsinə etiraz edir. Niyə görə, tutalım, «müşavirə işini qurtardı», «Əhməd oğluna nəsihət elədi» yerinə, «müşavirə öz işini qurtardı», yaxud «Əhməd öz oğluna nəsihət elədi» yazırıq. Məsələn, «Əhməd uşaqların mübahisəsinə qulaq asdı, öz oğlunu danladı» kimi cümlədə öz sözü lazımdır, amma daha əvvəl gətirilən misallarda o, tamamilə artıqdır».

Rəsul Rza «artığı», yerinə «artıqlamasıyla» işlədilməsini, «gül topası», «pambıq topası» yerinə «gül kolu», «pambıq kolu» yazılmasını kobud səhv sayır. Dilimizdən qəliz ərəb-fars izafətlərinin çıxarılmasını arzulayır:

«Elə sözlər, tərkiblər də var ki, onlar dildə çox geniş işləndiyinə baxmayaraq gətirildikləri dilin dadına-duzuna uymamış, dil üçün özümləşməmişdir. Əhvali-ruhiyyə, rifahi-hal, sərf-nəzər, nöqteyi-nəzər, tərcümeyi-hal və bu kimi sözlərin bəzisini anlaşımlı Azərbaycan sözləri ilə əvəz etmək olar və lazımdır. Məsələn, rifahi-hal yerinə «dolanacaq» demək yaxşı deyilmi? «Güzəran» sözü də daha aydın və dilə yatımlıdır. Azərbaycanca «qırım» ifadəsi var. Doğrudur, əhvali-ruhiyyəni bu söz hələlik tam əvəz etmir. Vərdiş gücü buna yol vermir. «Qırım» sözünün «təhər-tövr» məna çaları da var. Lakin işlənsə, dilin axarına girsə, qulağımıza yatıb adiləşər» («Mülahizələr»).

Bir dəfə atamdan soruşdum: «çalar» sözünü sənmi gətirmisən dilimizə? Yox, dedi, bayatılarımızda bu söz var: «Alçalar, ay alçalar! Yaşıl çalar, al çalar, Ağlama, dəli könlüm, Düşmən görər, əl çalar». Amma biz unutmuşduq, işlətmirdik.

«Çalar» sözü Rəsul Rzanın «Rənglər»indən sonra çağdaş dilimizdə gen-bol işlənməyə başladı.

«Mülahizələr» məqaləsindən daha bir sitat:

«Hansı məntiqlə «səciyyə daşıyır» demək olar, «vurğun kəsildim» demək olmaz? Nə üçün «anmaq» demək olar, «anımlı» demək olmaz? «Duymaq»dan «duyum» sözü yaratmaq niyə qəbahət olsun? «Olmaq» sözü var, «ölmək» sözü var, hansı məntiqlə «olum» sözünü rədd edib, «ölüm» sözünü işlətməliyik. Azərbaycan dilində görüm, baxım, içim, gəlim, verim, atım (bir atımlıq barıtı var), yeyim, geyim və bu kimi sözlər var. Bu vaxta qədər böyük bir nazirliyin adı «Yeyinti sənayesi» şəklində işlənir. Məlumdur ki, yeyinti mənfi mənada sözdür (filan yerdə bu qədər yeyinti olmuşdur). Bu nazirliyi «Yeyim nazirliyi» adlandırmaq təklifi nədənsə etiraz doğurur. Azərbaycan dilində ötəri, keçəri, köçəri, gedəri, səfəri və bu kimi sözlər var. Bu əsasda «öləri» sözünü işlədəndə etiraz səsi eşidirik. Niyə? Deyirlər: çünki belə demirlər. Nə olsun, demirlər, deyərlər».

Rəsul Rzanın qoyduğu suallara Vaxt özü cavab verdi. Yuxarıda gətirilən sözlər və bu kimi bir çox kəlmələr dilimizə girdi, geniş işlənməyə başlandı.

«Demirdilər, dedilər».

Rəsul Rzanın dilimizə külli miqdarda təzə söz, ifadə, yeni, gözlənilməz qafiyələr gətirdiyi bəllidir. Şübhəsiz, bu sözlər içində uğurlusu da var, uğursuzu da. Hətta uğurluların özlərinin də bəziləri dilə möhkəm daxil olduğu, adiləşdiyi halda, bəziləri «tutmadı», elə yalnız Rəsul Rzanın leksikonunda qaldı. Məsələn, Rəsul Rza hələ otuzuncu illərdə dilimizə daxil etdiyi «GÖYDƏLƏN» (çox uca bina, neboskreb, bu sözü «GÖYƏZƏN» şəkilində də işlədib), sonralar işlətdiyi «ƏYLƏC» (Tormoz), «DUYUM», «SADALAQ» (siyahı), «İŞIQFOR» və bu kimi sözlər indi tam vətəndaşlıq hüququ qazanmışlar.

Vətəndaş demişkən, yaradıcılığının ilk dövründən ta sonunadək Rəsul Rza «daş»la bitən xeyli yeni söz işlədib:

«CƏBHƏDAŞ», «VAXTDAŞ», «SƏNGƏRDAŞ», «ƏSR-DAŞ»... Özü də deyərdi: niyə «vətəndaş», «qardaş» demək olar, «ÖLKƏDAŞ», «ELDAŞ» demək olmaz. Doğrudan da, çoxdan istifadə etdiyimiz «SİRDAŞ», «MƏSLƏKDAŞ» sözlərinin birinci yarısı bizim deyilsə də, atamın işlətdiyi «GÜNDAŞ», «İLDAŞ» (hər ikisi «müasir» mənasında) sözləri bütünlüklə türkcədir. Eləcə də «İŞDAŞ» (həmkar, kolleqa mənasında), «DÖYÜŞDAŞ».

Türkiyə türklərinin yaratdıqları ÇAĞDAŞ sözünü atam bəyənir və işlədirdi. Bir dəfə hələ otuzuncu illərdə yaratdığı «KÖNÜLDAŞ» sözünə Mahmud Qaşqarlının məşhur lüğətində rast gəldiyimi deyəndə çox sevindi. «Görürsən, - dedi,- deməli, bu tipli sözlər həm dilimizin məntiqinə uyğundur, həm də dili sinonimlər baxımından zənginləşdirir».

Bir şeirində işlətdiyi «LALƏRƏNG» sözünü sonralar Füzulidə görəndə də məmnun qalmışdı. Ümumiyyətlə, söz və ifadə yaradarkən klassiklərimizdən və daha çox folklorumuzdan bəhrələnirdi. Yaratdığı yeni kəlmələrin əksəriyyəti Azərbaycan dilinin ruhuna, qayda-qanunlarına və məntiqinə uyğundur. Məsələn, «ARZU» sözüylə yanaşı, «UMĞU» (ummaq felindən), «MÜASİRLƏŞMƏK» sözüylə yanaşı, «BUGÜNLƏŞMƏK», «ZƏFƏR», «QƏLƏBƏ» sözləriylə yanaşı, «QAZANIŞ» sözünü də işlədirdi. ÜFÜQ yerinə çox vaxt «GÖYƏYRİSİ», «QÜTB» yerinə «YERBAŞI», «İSTİRAHƏT, KURORT» - «DİNCƏRLİK», «SÜKUT»-»SUSUM», «SALNAMƏ» - «İLLƏRLİK», «LÜSTR» «PARILDAQLAR», «YERALTILAR» («ZİRZƏMİLƏR»), «DONUŞLUQ» («ŞAXTA»), «HƏRLƏNİŞ», «TEZÇATAR» (TƏCİLİ), «QUYUQAZAR» («MƏRDİMAZAR»), «DEYİCİ» - «QEYBƏTCİL», «XƏBƏRGƏZ- DİRƏN», «TƏKÖZÜMLÜK» (XUDPƏSƏNDLİK, EQOİZM)...

Bəzən, «HİLAL» yerinə «PARABÖYÜR» işlədirdi. Bu da artıq dilimizə daxil olmuş ərəb-fars sözləriylə bərabər azəri türkcəsində onlara eyni anlamlı sinonimlər yaratmaq istəyindən doğurdu. Zamanın, texnikanın gətirdiyi sözləri özümüz-

ünküləşdirməyə çalışırdı. «SVETOFOR-İŞIQFOR», «TELE-VİZİYA - «TELE GÖRÜM». (rus dilində də beynəlxalq TELE hissəsindən sonra rusca «VİDENİE» gəlir: «TELEVİDENİE. TELEGÖRÜM TELEGÜZGÜdən uğurludur, çünki güzgüdə özümüzü görürük, televiziya ekranında isə başqalarını).

DUŞA SU SÜZGƏCİ deyirdi (Mənə məktublarının birində isə duşu ÇİLƏK (çiləmək, su çiləmək felindən) adlandırıb. Məhsul yığılanda «YIĞIM» sözünü işlədiriksə, Rəsul Rza «DƏRMƏK» felindən «DƏRİM» sözünü də gərəkli sayırdı, çünki məsələn, üzümü, ya almanı yığmazlar, dərərlər. «DUYU-MÖNÜ» (PREDÇUVSTVİE), «YOLBƏYİ» (QATAR BRİQADİRİ), «ÖTÜRÜCÜ» (PROVODNİK), «ÇILDIR» (ÇILDIRLAMAQ felindən), «ÖYRƏK» (ÖYRƏNİLMİŞ, VƏRDİŞLİ), «SIYRIM» («SIYRILMAQ» felindən), «GÜL-DÜRÜŞ» («GÜLDÜRMƏK» felindən) kimi sözlər də onun lüğətindəndir.

Dilimizdə «ADAMCIL» (Yəni adamyeyən, adam ətinə susamış) sözü var. Bunu əsas götürərək xüsusi olaraq gəmiləri vurmaq, məhv etmək, zədələmək üçün qurulmuş toplara «GƏMİCİL loplar» deyirdi.

Müharibə dövrünün istilahlarını gətirirdi dilimizə «ÇƏKİLİM» (OTSTUPLENİE), «BƏRKİM» (UKREPLENİE, BUNKER), «ƏYNƏM» (Mərminin uçuş əynəmi).

«ÇİÇƏKLİK», «GÜLLÜK» deyilirsə, nədən «ULDUZLUQ» deyilməsin? «NAMƏRD», «NAMƏHRƏM» varsa, «NADOST» demək olmazmı? «YERLƏ YEKSAN» deyirlər, o, «GÖYLƏ YEKSAN» da deyirdi. «UPUZUN» işlənirsə niyə də «QIPQISA» işlənməsin? Bir dəfə işlətdiyi UMUMUDLU sözünü zarafata salaraq xəbər aldıq: UM nə deməkdir? Cavabında: bəs «QIP», «AP», «YIR», «YAM», «TÖR», «BÜS» nə deməkdir? - deyə soruşdu. İlk anda olmasa da xatırladıq ki, «QIPQIRMIZI», «APAÇIQ», «YIR-YIĞIŞ», «YA-MYAŞIL», «TÖRTÖKÜNTÜ», «BÜSBÜTÜN» sözləri var.

Sözün, ifadənin təsirini gücləndirmək üçün kəlmələrə bu cür əlavələri mümkün hesab edirdi. Atamın rəyincə məsələn,

şüşə «PAR-PAR PARILDAYIRSA», təkər haqqında da «HƏR-HƏR HƏRLƏNİR» demək olar, yaxud nəfəsi daralan insana TÖR-TÖYŞÜYÜR demək mümkündür. «GUR-GUR GURULDAYIR» deyilir, «UĞUM-UĞUM UĞULDUYUR» da demək olar...

«XOŞ GƏLDİN», «XOŞ GETDİN» deyiriksə, «XOŞ QAYITDIN» ifadəsini də məqbul sayırdı. Həm də bu ifadəni dünyada ilk kosmonavtın, Yuri Qaqarinin uçuşu münasibətilə yazdığı şeirdə işlətmişdi. Tarixdə görünməmiş bir hadisə baş vermişdisə, bunu hələ deyilməmiş bir sözlə ifadə etmək lazımdı.

Kiçik haşiyə çıxaraq demək istəyirəm ki, gəncliyindən astronomiyaya maraq göstərən Rəsul Rzanı kosmosun açılmamış sirrləri daima düşündürürdü. Həm də yalnız fiziki mənada yox, həm də metafizik, fəlsəfi anlamda. (Ali təhsil diplomu olmasa da, Rəsul Rza bir müddət AZİİ-də fəlsəfədən dərs demişdi).

Ən uzaq ulduzlardan o yana,
nə var, kim var, görəsən?
Harda yaşayır Ölüm?

«Xoş qayıtdın» şeirindən başqa, Kosmik uçuşlara «Yer oğlu» adlı poema həsr edib. Layka adlı itin təcrübə üçün kosmosa göndərilməsini isə zarafata salıb:

İt balası it olasan,
Bu mərtəbə ucalasan?

Amerikanların ilk dəfə Aya uçuşuna Buzovna bağında televiziyayla bir yerdə baxırdıq. Bütün dünya televiziya kanallarının nümayiş etdirdiyi bu görünməmiş hadisəni Moskva televiziyası qısaca göstərib kəsdi. Atam bundan bərk əsəbiləşmişdi və «Tənhalığın sonu» adlı kiçik poemasında «Hayıf, hayıf ki, bu mənzərəyə yaxşı baxmağa qoymadı mığmığalar» sözləri həmin məsələyə aiddir.

Amerikanın hər uğuruna, özəlliklə, kosmik sahədə nailiyyətlərinə, ən çox da aya getmələrinə qısqanclıqla yanaşan Sovet siyasətinə və Sovet təbliğatına məhəl qoymadan Rəsul Rza bu müvəffəqiyyəti bütün dünyanın, bütün insanlığın zəfəri kimi qiymətləndirirdi. Vaxtilə Qaqarinin ilk kosmik uçuşundan bir insan kimi qürur duyduğu tək, amerikanların aya çıxmasına da yer üzünün vətəndaşı kimi fərəhlənirdi, bu tarixi olayı bəşəriyyətin, kosmik Tənhalığın sonu sayırdı və uçuşun nigarançılığım çəkirdi. Axı həm Sovet, həm Amerika tərəfin kosmik proqramlarında acı uğursuzluqlar da olmuşdu və Rəsul Rza bunları tək bu ölkələrin fəlakəti kimi deyil, «dünya faciəsi» kimi qavrayırdı.

Mavi ekran,
Ətrafında ürəyi səksəkəli
neçə insan.
Qəlbim çırpınır,
Baxıram, unudub özümü, sözümü,
Bir dünya faciəsi baş verməsin - deyə.
Tənhalığın bu son anlarında,
Aman!
Bir yanlış olmasın,
Aman!
İnsanlığın böyük ümidi solmasın!
Lakin bilirəm,
nə olur olsun,
Bu gün sonsuz Tənhalığın
Sonudur gerçək!
Kölgəsiz bir aləmə
insan kölgəsi düşəcək...
Süd aydınlıq bir ay üzü.
Ekranda bir ay düzü.
Bir polad quş endi, endi
Açıldı bağlı qapı,
Bir insan göründü.

İnsan duruxdu bir az,
Sanki gözünə inanmadı.
Bəlkə bu gün bir qat daha
şərəfli oldu insan adı.
İnsan gah basdı ayağını
ay üzünə,
gah qaldırdı.
Nəsil-nəsil baxdığımız ayda
İnsan ləpirini, izini gördük.
Böyük tənhalığın son dəqiqəsini gördük...
Tarix nə zaman görüb
Ay üstündə insan gəzə,
tamaşasına bir dünya insan yığıla.
Hayıf, hayıf ki,
bu mənzərəyə yaxşı baxmağa
qoymadı mığmığalar.

Elə bu şeirin özündə də işlədilən «ayağını basdı» «AY ÜZÜNƏ» ifadəsi təzədir. «YER ÜZÜN»Ə deyiblər. Bəli, o vaxta qədər ki, insan ayağını yer üzünə basıb. İndi ilk dəfə aya enəndə ayağını «YER ÜZÜNƏ» yox, «AY ÜZÜNƏ» basır. (Yeri gəlmişkən, əvvəlki nəşrlərdə bu ifadə «AY DÜZÜNƏ» şəklində gedib, bu səhvdir, «AY ÜZÜNƏ» olmalıdır. Yadımdadır, şeiri bizə oxuyanda məhz bu ifadə də diqqətimizi çəkmişdi).

Təzə sözlər məsələsinə qayıdaraq təkrar edirəm ki, gətirdiyi hər yeni sözü, ifadəni ya məntiqlə izah edir, ya da klassiklərə isnad edirdi. GÖRƏSİM sözü qulağa qəribə gələndə Qaracaoğlanın «Üstünə yıxdıb ÖLƏSİM gəlir» misrasını yadımıza salırdı. İşlətdiyi «GEDƏSİLƏR» sözünü də bu kökə bağlamaq olar.

«AXIN-AXIN», «DƏSTƏ-DƏSTƏ» deyir və eşidirik, məhz bu prinsiplə Rəsul Rza «sümbüllər ZƏMİ-ZƏMİ», «zəmilər ƏKİN-ƏKİN», uşaqlar «MƏKTƏB-MƏKTƏB», insanlar «ŞƏHƏR-ŞƏHƏR», «küçələr NƏĞMƏ-NƏĞMƏ»

deyirdi. Bəzən əyani surətdə aydın görünsün deyə, bu vərdişli qoşa sözlərlə yeni icad olunmuşları eyni şeirdə, eyni bənddə gətirir:

Küçələrin ŞÜLƏK-ŞÜLƏK,
Gecələrin ÇİÇƏK-ÇİÇƏK,
Adı göyçək, özü göyçək!
Qışda qoynun KÜLƏK-KÜLƏK.

(Bakı nəğmələri)

Bütün bunlar söz oyunu deyildi, ifadələrlə əylənmək cəhdi deyildi. İfadənin yeniliyiylə obrazın emosional gücünü artırmaq üçün edilirdi:

İstibdadın mənhus əli
Hər tərəfdə iz buraxır
ÖLÜM-ÖLÜM,
MƏZAR-MƏZAR...

Yaxud, «İNQİLABBAZ vəzirlər» sözgəlişi deyilməmişdi, geniş bir anlayışı ehtiva edirdi. «Baz» şəkilçisi, əsasən, mənfi səciyyə daşıyır (qumarbaz, yerlibaz, quşbaz) və bu söz inqilabın belə vəzirlərçün yalnız bir həvəs, bir əyləncə, bir məşğuliyyət olduğunu ifadə edir. Bununla əlaqədar bir söhbətimizi də xatırlayıram. Şeirlərindən birində işlətdiyi «QOŞMABAZLAR» ifadəsini qoşmaya qarşı çıxmaq kimi başa düşəcəklər deyəndə, məgər «arvadbaz» demək, arvadlara qarşı çıxmaqdır? cavabını verdi.

«Köhnə sözə qələm çəkib
Mən yazıram təzəsini, dedikdə, Rəsul Rza «təzə sözü» yalnız kəlmə anlamında nəzərdə tutmurdu. Yeni kəlmələrlə bərabər o, dilə yeni ifadələr, yeni deyim şəkilləri və təbii ki, yeni obrazlar, təşbehlər gətirirdi.

Bəzən bu müəyyən bir anlayışı daha dəqiq, daha yığcam ifadə etmək üçün lazım olurdu. «Sizə gəlirəm» ifadəsinin yerinə «sən»lə, danışdığı adama şeirində «gəlirəm səngilə»

sözüylə müraciət edir. «ALA-BULA», «ALA-BƏZƏK» sözləriylə yanaşı, «ALA-PƏLƏNGİ» də işlədirdi.

Rəsul Rzaya qədər işlənməmiş və məhz onun dilimizə gətirdiyi ifadələrin bəzilərini misal çəkmək istəyirəm. Mətləbi uzatmamaq üçün bu ifadələrin hansı analoji deyimlərdən, hansı məntiqə görə yaradılmasmı mötərizə içində verirəm: «Barmaqların dil açır»(piano çalan uşaq haqqında deyilmiş bu ifadənin kökü körpənin dil açmasıdır), «qanadı yanmışlar» (Həbəşistana bomba yağdıran İtalyan təyyarələri haqda deyilib, «dili yanmış» ifadəsiylə analojisi var), «qəzəbinə qadam» (Çex mütəfəkkiri Yan Qusu edam edənlərə qarşı deyilib, «ağzına qadam» ifadəsiylə analoji). Teleskop işlədikcə göy (Çağdaş cihazın «göz işlədikcə» ifadəsinə uyğunlaşdırılması), yanyaxıl maşınlar (Xarici ölkələrdə gördüyü parıltılı, şık maşınları bu ifadəylə təsvir edərkən də dilimizdə olan «Hacı, mənə bax», «Küçə mənə dar gəlir» kimi parça adlarına müvafiq ifadə tapır), «ulduzlar göz qırpır» («sayrışır» əvəzinə), «qırpımlı işıqforlar» (işıqforların yanıb sönməsini göz qırpmağa bənzədir), «Bir öldürüm zəhər» («Bir içim su» ilə analoji), «Bir yönə yol» (Birtərəfli hərəkət) və s.

«Dünyamızdan QAYITMAZ apardığı ixtiralar, kəşflər», «qulaqlarımda səslərinin yoxluğu», «İstək dustağı, imkan dustağı», «Qəlbimizin Cənubu», «Təbrizim mənsizim» kimi ifadələri izah etməyə zənnimcə lüzum yoxdur. Bu ifadə-obrazlar da Rəsul Rzanın ixtirasıdır: «SÖZ QURAQLIĞI», «PAYIZA BÜKÜLÜYƏM», «İÇİMDƏKİ QIRX GÜNLÜK QÜRBƏT», «GÜNDÜZLƏ GECƏNİ AYIRAN DODAQLAR», «AXŞAMLANA-AXŞAMLANA», «GÜNDÜZLƏNƏ-GÜNDÜZLƏNƏ», «OD MƏRMİLƏR GƏMİRƏNDƏ GƏMİR-GƏMİR», «YEMYOXUNDAN, SU-YOXUNDAN» «GÖZ YADDAŞI», «QULAQ YADDAŞI» «BİR ƏL UZADIMINDA», «TƏYYARƏ ÜÇ TOXUNUMDA QONDU BETON MEYDANÇAYA», «YAŞAYIB QISIM-QISIM, DİKSİNƏ-DİKSİNƏ», «SADƏ PİYAN, BOYAT PİYAN», «LÜL QAN».

Müdirini görəndə onu yaltaq təbəssümlə qarşılayan adam haqqında «ÇİRMƏYİR DODAĞINI» və s. və b. k. onlarca, yüzlərcə örnək gətirmək olar.

İlk olaraq Rəsul Rzanın işlətdiyi bəzi ifadələr isə elə bil lap bu günümüz üçün deyilib: «İCAZƏLİ CƏSARƏT», «QƏLİBLƏNMİŞ SƏADƏT», «TƏNTƏNƏLİ CƏHALƏT», «TƏŞKİL OLUNMUŞ SEVİNC», «TAPŞIRIQLI MƏRDİ-MAZAR», «MANDATLA QƏLBƏ GİRƏNLƏR», «YIĞMA-BİLİK ALİM», «BALIQ SÖZLƏR», «ADAMVARİLƏR»...

Bəzən elə gəlir ki, Rəsul Rza dilimizin qrammatik qaydalarına riayət etmir, tutalım, bu şeirdə olduğu kimi:

Ancaq nə mən səni eşidirəm,
nə sən məni.
Xəbər tutmaram heç
Aləmə desən məni.

Necə yəni, «desən məni?». Ancaq bu da bayatılardan gəlir:

Gözlərin yedi məni,
Qurd oldu, yedi məni,
Bir namərdə sirr, verdim,
Aləmə dedi məni!

«Aləmə desən məni» və «Aləmə dedi məni» ifadələrinin eyniliyi göz önündədir. Onu da deyim ki, ümumiyyətlə, bayatılarımızın vurğunu olan Rəsul Rza yuxarıda gətirdiyim bayatının biiinci iki sətrindəki obrazı xüsusi heyranlıqla misal çəkərdi.

Yaxud, başqa bir şeirində «açıl qozalar, açıl» deyir, halbuki, qrammatik qanunlara uyğun olaraq «açılın qozalar», deməliydi. İzahını «Mülahizələrim» adlı məqaləsində tapmaq olar:

«Sabir «Gəl, gəl, a yaz günləri», deyir. «Gəlin» demir. Bu, qrammatik baxımdan «səhv», əslində isə düzdür, Demək,

dilin müəyyən qaydalarını gözləmək şərtdir, lakin dili məhdud qaydalar çərçivəsində saxlamaq lazım və mümkün deyil». Sinonimlərin, bir mənanı ifadə edən müxtəlif sözlərin çoxluğundan faydalanan şair omonimlərdən, yəni, müxtəlif mənaları ifadə edən eyni sözdən də məharətlə istifadə edirdi. «AÇILMADI» rədifli şeir bunun örnəyidir:

«AÇILMADI» sözünü «ÜRƏYİM AÇILMADI», «GÖYÜN QAŞQABAĞI AÇILMADI», «BƏNÖVŞƏLƏR AÇILMADI», «QARA RƏNGİ AÇILMADI», «damar-damar qapılara açar saldı neçə insan, biri belə AÇILMADI»,» SİRRLƏR AÇILMADI», «BİR GÜLLƏ DƏ AÇILMADI», «BİRCƏ YOXSUL SÜFRƏSİ DƏ AÇILMADI», «DOST MƏCLİSİ AÇILMADI», «BİR QIZ BƏXTİ AÇILMADI» şəklində işlədərək ən müxtəlif mənalarıyla bağlı şeir bəndləri yazan müəllif şeirini:

İki sətir yazmaq üçün
Bir an başım AÇILMADI

sözləriylə bitirir.

Eyni bədii üsula Rəsul Rza daha qüvvətli və təsirli şəkildə başqa bir şeirində müraciət etmişdir:

Mən istəyirəm:
buludlar ağlasın,
uşaqlar ağlamasın,
analı, ya anasız.
Mən istəyirəm:
güllər açılsın,
güllələr açılmasın:
amanlı ya amansız.
Meyvələr dəysin öz vaxtında
Ürəklərə söz dəyməsin.
Bəhərdən budaqlar əyilsin:
İnsan başını əyməsin:
xəcalətdən, ya gücsüzlükdən.
Hər şey insana baxsın,

İnsan ələ baxmasın.
Axsın bulaqlar göz yaşı kimi
torpağın üzərində
Göz yaşı bulaq kimi axmasın
dünyanın heç bir yerində.

(«Məndə ixtiyar olsa», 1964)

Təsadüfi deyil ki, çağdaş Türkiyənin məşhur şairi Ataol Bəhrəmoğlunun Türkiyə türkcəsinə uyğunlaşdırdığı bu şeir qardaş ölkədə çox populyar olmuş, bu sözlərə Təhsin İncirçinin bəstələdiyı mahnı isə həm Türkiyədə, həm də Almaniyada yaşayan türklər arasında geniş yayılmışdır.

***

Rəsul Rzanın əsərlərində müəyyən miqdarda Türkiyə türkcəsindən alınma sözlər də var. Şairin otuzuncu illərdə latın qrafikasıyla nəşr olunmuş kitablarında nəinki o dövrün orfoqrafiyasına uyğun olaraq kəlmələr «kibi», «yıldızlar», «yıldırım» şəklində verilib, xeyli söz də var ki, bu gün onlara yadırğamışıq: YARIN, KƏMİK, SICAQ, BƏKÇİ, TUZAQ, MAYIS, SANDAL (Kürsü), MƏNDİL, SAYRULU, ORMAN, ANAXTAR, ƏL İRMƏZ və s.

Maraqlıdır ki, Rəsul Rza sonralar da Azərbaycan türkcəsiylə Türkiyə türkcəsi arasında uçurum yaradılması cəhdlərindən çox- çox sonralar da 50-ci illərdən başlayaraq elə sözlər işlədir ki, onlar bizdə yalnız Türkiyə türkcəsinə aid edilir. Halbuki atamın dediyinə görə bunların bir qismi əvvəllər bizdə də işlədilərmiş: «SƏNƏLƏR» (illər), «MASAL» (nağıl), «QOLAY» (asan), «KÖYLÜ» (kəndli), «ÇARŞI» (bazar), «MARTI» (qağayı), «TUHAF» (qəribə), «NƏDƏN» (səbəb), «SÜMÜRGƏNLİK» (müstəmləkəçilik), «İSGƏLƏ» (gəmi dayanacağı), «YAPUR» (gəmi), «TREN» (qatar), «SALATALIQ»

(xiyar), «MUZ» (banan) Rəsul Rzanın şeirlərində yer alan sözlərdir.

Stalin dövründə Azərbaycan xalqının və dilinin adı kimi «türk» sözü yasaq olandan bəri, üstündən 18-20 il keçəndən sonra bu sözü dilimizin adı kimi mətbuatda ilk dəfə Rəsul Rza çəkdi. «Qızılgül olmayaydı» poemasında, Müşfiqlə bərabər Lermontovun «Demon»unu tərcümə etmələrini və rus dilini yaxşı bilmədikləri üçün tez-tez Ruhulla Axundovun lüğətinə müraciətlərini xatırlayan Rəsul Rza yazır:

Gözlərimiz zilli varaqlara.
Miz üstündə
Lermontov,
DemonTamara,
Birdə «Ruhulla».
Qrex-günah,
qreşnı-günahkar.
Sonm-güruh,
Dux-ruh.
Dil açıb türkcə danışdıqca İblis
uşaq kimi əl çalır,
atılıb-düşürdük biz...

***

Rəsul Rzanın bu dil yenilikləri zaman-zaman tənqidlərlə qarşılanırdı. Dilimizə yeni sözlərin gətirilməsinə etiraz edən dilçilərimizdən biri yazırdı:

«Bununla belə, R.Rzanın vaxtilə işlətdiyi «eldaş», «umğu», «günyarısı», «ölkədaş», «işdaş» qəbilindən olan sözlər düzəltmək məsələsinə yenidən qayıtması onu göstərir ki, bəzi şairlərimizdə hələ də «yeni sözlər yaratmaq»meyli vardır.» («Ədəbiyyat və İncəsənət» qəzeti, 5 iyul, 1958)

Elə bu cümlənin quruluşu da maraqhdır. Konkret olaraq Rəsul Rzanın adı çəkilir və işlətdiyi sözlər göstərilir, lakin sonra nədənsə «bəzi şairlərimiz» deyilir.

Rəsul Rza dilimizə başqa yazıçı həmkarlarının (işdaşlarının!) gətirdiyi uğurlu sözləri də məmnuniyyətlə qəbul edirdi. Məsələn, Xəlil Rzanın tapdığı «çimərlik» sözünü çox bəyənirdi. İlk dəfə «Qobustan» toplusunda işlətdiyimiz «DANILMAZ» (İNKAR EDİLMƏZ yerinə), «YOZUM» (TƏFSİR yerinə) və bir sıra başqa yenilikləri təqdir edirdi. Rus sözü «VERTOLYOT» əvəzinə «PƏRVANƏBEL» deyirdi, amma mən «DİKUÇAR» təklif edəndə bu sözün daha uğurlu olduğuyla razılaşdı.

O vaxtlar tək bir «Qobustan» toplusunda bütün təzyiqlərə rəğmən inadkarlıqla işlədilən sözlər - «TOPLU» (Məcmuə), ÖN SÖZ (müqəddimə), «UĞUR» (müvəffəqiyyət), «ANLAM» (MƏNA), «ÖZƏLLİKLƏ» (xüsusilə), «ÖRNƏK» (nümunə), «ÖNƏMLİ» (əhəmiyyətli), «BAXIM» (NÖQTEYİ-NƏZƏR), «ÇAĞDAŞ» (müasir) bu günki dilimizə elə möhkəm daxil olub ki, haçansa onların çoxunun kəskin etirazlarla qarşılanması yaddaşlardan silinib. Atam bu sözlərin indi gen-bol işlənməsinə, əlbəttə, sevinərdi. «MESAJ», «İMİC, «MENTALİTET», «SPEYS», «LİDER», «İMPULS», «ALTERNATİV» kimi kəlmələrin dilimizə pərçim edilərək KİV-imizdə taxt başına çıxarıldıqlarından isə rəncidə olardı. Türkiyə türkcəsinə sırınmış «BOL ŞANSLAR», «MERSİ», «PARDON», «RANDEVU», «AVANTAJ» və bu qəbirdən neçə-neçə sözlərdən narazı qaldığı kimi...

***

Yeni sözlər, ifadələr Rəsul Rzaya Yeni şeiri qurmaq üçün dil materialı, «divar daşı» idilər. O bu nıaterialdan, bu daşlardan istifadə edərək təzə obrazlar, təşbehlər, işlənməmiş qafiyələr yaradırdı. Rəsul Rzanın qafiyə sistemi, qafiyə prinsipləri, qafiyə icadları özəl və geniş mövzudur, amma şairin poetikasını dərk etmək üçün çox mühüm olduğuna görə bunun üstündə bir qədər müfəssəl dayanacam. Rəsul Rzanın qafiyə anlayışına və meyllərinə bələd olmaq üçün həm onun bu

barədə nəzəri məqalələrində irəl sürdüyü fikirlərlə, həm poeziyasında bəzən ifrata vararaq yazdığı polemik sətirləri ilə, ən ümdəsi isə bu qafiyə prinsiplərinin onun öz yaradıcılığında, poetik təcrübəsində nə şəkildə meydana çıxmasıyla tanışlıq gərəkdir.

«Qafiyə» adlı şeirində belə misralar var:

Alan və salan,
Dan və aman,
Yorulmadınmı?
Cüt olur qulaqları insanın.
Nə olsun?
Elə buna görə gərək
bütün sətirləri
divara xalça mıxlayan kimi
qafiyələyək?
Həm də yanyana,
Cüt-cüt.
Şairə yazığın gəlmirsə,
oxucuya yazığın gəlsin,
Qoy qulaqları bir az...
Gözləyirsən, deyim:
Dincəlsin!
Yox, «sakit olsun»,
Belə!
Qafiyəsiz.
Bu sözlərim
elə bilmə
hər cür qafiyəyə dairdir.
Yox. Qafiyəyə nə gəlib
Axtaran olsun gərək
Qafiyəyə nə olub
çeynəyib kövşəməsək.

Göründüyü kimi, bu şeirin özü də qafiyədən xali deyil. Həm də şair bir fənd işlədir. «Gözləyirsən, deyim dincəlsin»

deyə bu sözü qafiyə gətirir, eyni zamanda «yox, sakit olsun. Qafiyəsiz» deyir.

Beləliklə, Rəsul Rza ilk növbədə şablon, trafaret, çeynənmiş qafiyələrə etiraz edirdi, ikincisi də, şeirdə fikrin, hissin qafiyəyə tabe olmasının, daha doğrusu qafiyəyə qurban verilməsinin əleyhinəydi, fikir sərbəstliyinin, duyğu asudəliyinin əlqolunu bağlayan qafiyə əsarətinin əleyhinə idi. Cəlaləddin Ruminin qafiyə əsarətinə qarşı yazdığı sözlər ürəyincə idi. «Kanonları pozaraq» adlı məqaləsində Mevlananın sözlərini xatırlayır:

«Hələ orta əsrlərin böyük şairi Mövlana Cəlaləddin XIV əsrdə poeziyada fikri buxovlayan vəzn və qafiyə istibdadından şikayətlənmişdir. O, qafiyəni yanıltmaca bənzədiyi üçün lənətləyirdi. Şair qafiyəni «allahın ona göndərdiyi bəla» adlandırırdı. Rübailərinin birində şair «allahın nəhayət onu bu bəladan xilas etməsinə» sevinirdi.

Qafiyə var, vəzn var.
Aparın, sizin olsun
umu-küsü, ahü-zar!
Aparın, sizin olsun!
Bəs mənə?
Mənə də hərdən, hərdən,
qoşmabazlar əlindən,
təqlidçilər selindən
qafliyəsiz, vəznsiz
yazmağa izin olsun.

Maraqlıdır ki, Rəsul Rza poeziyasının bu xüsusiyyətlərini ona şeir və məqalə həsr edən şairlər də dəqiq duymuş və ifadə etmişlər. Nazim Hikmət yazır:

«Rəsul Rza şeirin texnikasına bir doqmatik kimi baxmır. O, qafiyəni, ölçünü rədd etmir, ancaq nəzm aləmindəki qayda-qanunları da qəbul etmir. Şeiri ölçülü də yazmaq olar, ölçüsüz də, qafiyəli də, qafiyəsiz də. Bilə-bilə qəsdən qafiyəsiz yazmaq

və qafiyə işlətmək xatirinə qafiyə ilə şeir yazmaq ən böyük formalizmdir» («DOSTUM RƏSUL RZA» məqaləsindən)

Xalq şairi Bəxtiyar Vahabzadənin Rəsul Rzaya həsr etdiyi şerindən misralar:

«Sən ey mahcamal,
Səndədir kamal
Ey gözəl nigar,
Mən diyar-diyar
Gəzərəm səni.
Bir çiçək kimi
Üzərəm səni»
Qafiyələr gözəldir,
Ancaq fikir qafiyəni yox,
Qafiyələr fikirləri düzəldir.
Bu sözlərin nə canı,
nə isti nəfəsi var.
Ancaq bir parıltısı,
bir də küylü səsi var.
Vəzni sözlə doldurub,
Qafiyəylə oynamaq
Daz başa nahaq yerə
Daraq çəkməkdir ancaq...
Minillik şeirimizə
təzə çığırlar açan
Mənim məslək yoldaşım,
açdığı təzə yolda,
hələlik tək yoldaşım.
Deyirlər: Vəznin sənin tez-tez dəyişkən olur,
Deyirsən: Bu vəzndə fikrin yolu gen olur.
Deyirlər: Qafiyən də yan-yana, qoşa gəlmir,
Heç zaman xoşa gəlmir,
Deyirlər ki: Bu ağdır,
Sənin qafiyələrin bir-birindən uzaqdır.
Deyirsən. Bilirəm mən,

Mənim qafiyələrim gen düşür bir-birindən,
Əli əlimdən çıxan cənublu qardaşım tək,
Öz torpağım, daşım tək.
Ey Rəsul, sən haqlısan,
Çünki sən öz əsrinə
Daha artıq bağlısan,
Sənət gülüstanına qədəm basandan bəri,
O köhnə ölçüləri
Cəsarətlə sən atdın,
«Məna, məna» demədin,
Sən mənalar yaratdın!

(Aprel, 1960)

Başqa bir istedadlı şairimiz Əli Kərim də Rəsul Rzanın poetik prinsiplərindən söz açır:

Şair var ki,ümidi
Qafiyəyə, vəznədir,
Şair var ki, özünü
Başqasına bənzədir.
Amma şair də var ki,
Zamanın doğma oğlu,
Idrakın zirvəsindən
Hissin yanğınlarından
Keçir şeirinin yolu...
Əsrin ahəngi, vəzni...
Müqəyyəd qafiyəsi
Gah sevişən cüt ürək...
Gah da ki, orkestrin
Toqquşub şaqqıldayan
Qoşa zərb aləti tək...
Misraları gah ayın
Dənizə salladığı
Nur zolağı tək oynaq,
Gah da ağır qatarlı

Qoşa rels kimi
Dümdüz,
Qüdrətli, güclü, parlaq.
Gah qısa yol...
Məqsədə tez yetirən
Kəsə yol...
Gah da ki, bu dünyanın
Sinəsinə dolanan
Ekvatorla Meridian.
Belə şair də vardır,
Onun ömrünün yolu
Bir əbədi yazadır.
O, sözlər sərkərdəsi,
Şair Rəsul Rzadır.

1960

Rəsul Rzanın qafiyə barəsində yazdıqlarından heç də belə bir nəticə çıxarmaq olmaz ki, o, ümumiyyətlə, qafiyə əleyhinə idi. Nəzəri mülahizələrində heç bir vaxt qafıyəyə qarşı olmadığı kimi, şeirlərində də qafiyədən, həm də əksərən yeni, işlənməmiş qafiyələrdən bol-bol istifadə edirdi. O, yalnız yersiz qafıyədən, min dəfə işlənmiş, çeynənmiş qafiyələrdən, qafıyə xatirinə qafiyədən, daha doğrusu, «şeiri» şeirə oxşatmaq üçün düzülən qafıyələrdən bezar idi. Nazim Hikmət də Rəsul Rza poetikasından danışarkən məhz elə bunu vurğulayırdı. Nə yazıq ki, müasirlərinin bir parası Nazim Hikmətin, Bəxtiyar Vahabzadənin, Əli Kərimin və neçə-neçə başqa müqtədir şairin, yazıçının, alimin Rəsul Rza poeziyasını fəhmlə duymaq bacarığından məhrum idilər və indinin özündə də məhrumdurlar. Bunun obyektiv ya subyektiv səbəblərdən qaynaqlanması barədə burada söz açmaq istəmirəm. Ancaq son illərdə belə Rəsul Rza irsinə qarşı nadan və cahil hücumlar arasında ən gülünc iddialardan biri onun guya ki, qafiyə yarada bilməməsidir. Türk dünyası şeirində ən zəngin qafiyə sərvəti yaratmış şairlərdən biri haqqında belə sözü deyənlər vicdan əzabı çəkmirmi? Həm

də bunu Rəsul Rza şeirinə meyxana terminləriylə yanaşaraq deyirlər: Rəsul Rza «qafiyə tuta bilmirmiş»... Əvvəla, «meyxana aşiqlərinin» könlü xoş olsun deyə, bildirim ki, bəyənmədikləri Rəsul Rza şeirində vərdişli, adi, işlənmiş, qulaqlar alışmış, necə deyərlər, həmin zatlara münasib «çevir tatı, vur tatı» tipli qafiyələr də az deyil. Bəzən belə «izafi qafiyə bolluğunu» parodiya vasitəsi kimi istifadə edir.

«Məna bülbüllərinə» ithaf olunmuş «DƏRDİN GÜCÜ, YAXUD BİR NÖV ŞEİR»dən bəzi misralar:

İnsan ayaqsız olmaz, quşlar qanadsız olmaz,
Toyuq buynuzsuz olar, ağ şanı dadsız olmaz.
Həyat mənasız olmaz, məna həyatsız olmaz.
Eşqi bir xəzan kimi sönüb solan, gəlmədi,
Məhəbbətdən saçını bir-bir yolan, gəlmədi.
Dedi: elə bir təhər özün dolan, gəlmədi.
Dedim: həftələr aylar, illər qoy sənin olsun,
Yeni şirin nəğməli dillər qoy sənin olsun.
Pianomdakı bəmlər, zillər qoy sənin olsun.
Korlar, karlar, topallar, şillər qoy sənin olsun.
Hindistanda nə ki var, fillər qoy sənin olsun,

Çaylardakı çınqıllar, gillər qoy sənin olsun.
Darçın, mixək, sarıkök, hillər qoy sənin olsun.
Əlvan naxış corablar, millər qoy sənin olsun,
Turaclar, qırqovullar, çillər qoy sənin olsun.
Əzizim, ömrün boyu sillər qoy sənin olsun.
Necə? Sillər? Nə dedin? Qoçaq, sillər hansıdır?
Günahımdan keç, afət! Qafiyə xətasıdır.

Burda son damlayacan mürəkkəbim qurtardı.
Doğrusu, bu mətləbsiz söz mətləbim qurtardı,
Əgər soruşan olsa: söylə, bu nə deməkdir?
Heç özüm də bilmirəm, görünür bir hənəkdir.
Həm də bir nümunədir, anlasın oxuyanlar.
Məna hanı?Çox da ki, qafiyə var, vəzn var.

Bu sayaq «qafiyə tutaraq» Rəsul Rza bəzi başqa şairlər kimi kilometrlərlə şeir yaza bilərdi. Amma bu onun yolu deyildi.

Rəsul Rzanın işlətdiyi qafiyələr oxucunu bənzərsizliyi və gözlənilməzliyi ilə heyrətləndirir. Yüzlərlə belə qafiyədən bir neçəsini misal gətirirəm: buruqlar - bu ruhlar, azadam-az adam, Savalan - sağ olan, laylası olmasa-ayılası olmasa, göynədən olur - ögey nədən olur, kələ-kötürdü-boynuna götürdü, ehtiyacına-cuna-cuna, həvəsimə - nəvəsi mən, elçi kimi-heç kimi, birinci yer-inciyər, gecəmi sən-necəsən, aynasıdır oyanasıdır, əsnəyə-əsnəyə-bəs niyə? Başqadır-daş qalır, qane deyiləm aza mən-yasəmən, səhəri, kəsəri-şah əsəri, nənəsidir-dirənəsidir, dostuma-post uma, südünə qəsəm-yerə sərməsəm, hər yada-dəryada, yarasalar-yara salar, bu duzda-onsuz da, pusquda-susqu da, qorqoduqlar-qorxutdular, boyu var soyudar, görə şən-goreşən, məktub-kimi tutub, damla mən-ilhamla mən, qan sızır-qansızı, pilləsi-gilləsən, yasaq ola - qaysaq ola, o susdu-onsuzdu, öynə-göynə, şeirini şeir onu, səngilə-rəng ilə, mübarizəli-öz əli, vəzndir-əvəz indi, gəmisinə-gərib sinə, burasındadır-yasin dadır, unuda bilmirəm onu da bilmirəm, dəstəyi-bəs deyilmi? Yadıma düşdü-üşümüşdü, qəsd elədi-xəstələndi, qışıdır-qıcıdır...

Yanılmıramsa, bu qafiyələri Rəsul Rzaya qədər heç kəs işlətməyib. Qafiyələrinin başqa bir qisminin ondan əvvəl heç kəsin işlətmədiyini qəti deyə bilərəm, çünki bu qafiyələr xarici adam, yer adları, əcnəbi sözlərlə, istilahlarla bağlıdır. ABŞ dövlət katibləri «Açeson»u və «Dalles»i belə qafıyələndirir: Açesonlar-qaçsa onlar, Dallesin - bal yesin. Başqa adlar: İliçi-içi, Lenini-Berlini, Lenin-ənin, Stalin-usta əlin, İtalyanın faşist diktatoru Duçeni cəm halında alaraq belə qafiyləndirir: duçelər-küçələr, duçelər-çərçilər.

Başqa əcnəbi sözlər və qafiyələri: yankilər-bankirlər, rantyesən-niyə sən, əsərləriylə-eser əliylə, Dumada-qum ada, blitskrik-bilirik, geyşə-neyşə, rupidir-itir, okean-o ki, yan, qaya kimi - Biskaya kimi, Bursa da-vursa da, gedənlərin-İmadəddin.

Konqolulara həsr olunmuş şeirində bu xalqın adıyla bağlı çeşidli qafiyələr var: konqolu-donqarı, sol qolunu - Konqolunu, konqolunun-tonqalının. Başqa bir şeirdə «ledi» sözünə bir neçə qafiyə verir: ledilər-geydilər, ledilər- dedilər, ledilər - güleydilər.

Ən çox qulaq qafiyələrini xoşlayardı və şeirlərində belə qafiyələrin bir xeyli örnəyi var: süd içib - nəcib, naxışı - axışır, kəsib indi- nəsib idi, yazıq-yazıb, Xəzərin - gözəli, yaxşı - göz yaşı, bildir hilmir, Gülsüm - gülsün, alışdı - işıqdan, qızım - qızın, qırqışa - yığışıb, düzsən - qüssə, eşikdən - eşidən, paxıl - paxır, paxıllar - baxıllar, ad günü - adi günü, yaman gündəyəm oturub yüz gün deyəm, dəstəyi - bəs deyil, eşitmədin səni səsim üşütmədi, bəzəyir - bənzəyir, qırışın - yığışıb, izim qalıb onlarmı qalib olacaq, bizmi qalib? Dincəlir - gəncəli, baxdıqca - gül açа, başqadır - daş qalır.

Bəziləri Dədə Qorqud qafiyələrini yada salır, Dədə Qorqudda: yok olubdur-koyulubdur (müasir imlayla yox olubdur-qoyulubdur), Rəsul Rzada: örpək-körpə.

Qulaq qafiyələrinə aludəçiliyi xalq şeirinə sevgisindən və bələdliyindən gəlirdi. Həmişə bu sayaq qafiyədən söz düşəndə bayatılarda, xalq mahnılarında işlənmiş qulaq qafiyələrini xatırlayırdı:

Şeşgilan BİZİM olaydı,
Bürcləri QIZIL olaydı.
Girəydim yar qoynuna,
Gecələr UZUN olaydı.

Göründüyü kimi, bu sözlərin heç biri müqəyyəd qafiyə deyil, hətta qulaq qafiyələri kimi səslənmələri bir-birinə uyğun deyil, amma atam bu qafiyələri çox bəyənirdi.

Yarın bağında üzüm ƏSGƏRİ

Bağın dalından həzin SƏS GƏLİR qafiyəsini xoşladığı kimi.

Atamın vəfatından sonra Tofiq Quliyev Rəsul Rzanın yeni yazdığı mahnı mətnlərini mənə göstərdi. Bu mətnlərdən xəbərim yoxdu, o şeirləri oxumamışdım, amma yüz şairin şeiri içindən «Qız qalası qulaq asır», «həzin olur bəsin olur» qafiyələrinin atama məxsus olduğunu tanıyardım.

***

«Ədəbiyyat qəzeti»nin 1939-cu il 12 oktyabr sayında Məmməd Arif Rəsul Rzanın belə bir təklifinə tərəfdar çıxır: «Azərbaycan ədəbiyyatı tarixinin yaradılması məsələsinin tam vaxtı çatmış bir iş hesab ctmək lazımdır. Rəsul Rza yoldaş tərəfindən vaxtında qaldırılmış bu təşəbbüsü alqışlamaq lazımdır».

Qəzetin həmin nömrəsində M.Rəfili yazırdı: «Rəsul Rzanın qaldırdığı məsələ bizim əsas kadrlarımızı ciddiyyətlə maraqlandırır. Azərbaycan ədəbiyyatı tarixini elmi surətdə öyrənmək və yazmaq məsələsi məni son üç il ərzində düşündürən əsas bir məsələ olmuşdur».

Cəfər Cəfərov «Şərəfli iş» adlı yazısında qeyd edir: «Rəsul Rza yoldaşın çıxışını müdafiə edərək mən yazıçı və ədəbiyyatçı yoldaşlardan bir briqada təşkil edilməsini və yaxın zamanlarda işə başlamasını təklif edirəm».

Amma nə yazıq ki, Rəsul Rzanın və onu dəstəkləyənlərin bu arzuları o illərdə həyata keçə bilmədi. Elə həmin il dekabrın 21-də «Ədəbiyyat qəzeti»ndə belə bir məlumat çıxdı:

«Bu günlərdə Azərbaycan Sovet Yazıçılar İttifaqının geniş plenum iclası olmüşdur. İclasda AzK(b)P Mərkəzi Komitəsinin katibləri Teymur Yaqubov və Gözəlov yoldaşlar iştirak etmişdir. Azərbaycan Sovet Yazıçılar İttifaqının işi ciddi surətdə tənqid edilmişdir. Plenum iclası Azərbaycan Sovet Yazıçılar İttifaqında işin öhdəsindən gələ bilmədiklərinə görə və sovet yazıçılarının etimadını doğrultmadıqlarına görə İttifaqın məsul katibi Rəsul Rzayevi və onun müavini Cəfər Cəfərovu vəzifədən götürmüş və Prezidium heyətindən çıxarmışdır».

Nə oldu, nə baş verdi? Qəzetin sonrakı nömrələrində Rəsul Rzanın ya ümumiyyətlə, heç bir yerdə, heç bir siyahidə adı çəkilmir ya da ona çox gülünc ittihamlar verilir. Məsələn, 1940-cı il fevralın 11-də «Ədəbiyyat qəzeti»ndə dərc edilmiş bu ittihamlardan biri belədir:

«Hələ bu günə qədər Mayakovskinin ən qüvvətli əsərləri Azərbaycan dilində yoxdur. Mayakovskiyə qarşı bu səhlənkar münasibət nədən irəli gəlir? Azərbaycan Sovet Yazıçıları İttifaqının bu yaxınlarda işdən götürülən «rəhbərləri» bu sahədə heç bir təşəbbüs göstərməmişlər, Mayakovşki haqqında bir tutarlı məqalə belə yazdırmamışlar. Azərnəşrin işçiləri də bu «rəhbərlərin» yolu ilə gedib köhnəlmiş mənzumələri yenidən çap etməyə bol kağız tapdıqları halda Mayakovskinin əsərlərini çap etməyi lazım bilməmişlər» («Poeziyamızı daha da yüksəklərə» adlı məqalədən). Əlbəttə, hələ 1936-cı ildə böyük şairə proqram şeir həsr etmiş, həmişə onun yaradıcılığından rəğbətlə danışmış, o vaxtacan artıq şairin «26-lar», «Sovet pasportu», «Nette yoldaşa» şeirlərini, «Vladimir İliç Lenin» poemasından parçaları dilimizə çevirmiş və çap ctdirmiş Rəsul Rzanı Mayakovskiyə səhlənkar münasibətdə günahlandırmaq gülüncdür. Onu guya ki, köhnəlmiş mənzumələrin nəşr edilməsində suçlamaq ondan da gülüncdür. Amma məsələ, əlbəttə, bunda deyildi. Rəsul Rzanı Yazıçılar İttifaqının rəhbərliyindən buna görə uzaqlaşdırmamışdılar. Bəs nəyə görə?

Sovet sistemi cəza tədbirlərini heç bir vaxt öz adıyla və səbəbiylə elan etmirdi, ayrı bəhanələr gətirilirdi. Buna uyğun olaraq, Rəsul Rza da guya ki, tamam başqa məsələ üstündə işdən götürülmüşdü. Bu səbəblərin o vaxtkı mətbuat səhifələrində heç bir iz buraxmadığını nəzərə alaraq həmin məsələ üzərində bir qədər ətraflı dayanmaq məcburiyyətindəyəm.

***

Rəsul Rzanın Yazıçılar İttifaqının rəhbərliyindən uzaqlaşdırılmasının əsas, daha doğrusu yeganə həqiqi səbəbi latın əlifbasından rus əlifbasına keçidlə bağlı idi.

Otuzuncu illərin sonunda Stalin azərbaycanlıların Türkiyə türklərindən qəti şəkildə ayrılması üçün bir çox tədbirlərə əl atdı, tariximizin saxtalaşdırılmasına rəvac verdi, o vaxtacan türk adlanan millətimizin və dilimizin adını dəyişdirdi. Azərbaycanı Türkiyədən və türklükdən uzaqlaşdırmaq üçün bir addım da atılmalıydı və Stalin o addımı da atdı-əlifbamızı dəyişdirdi. Türkiyənin və Azərbaycanın eyni latın əlifbasında yazıb oxunmasını heç cür qəbul etmək olmazdı, axı bir birimizi oxuyub daha yaxın ola bilərdik, o vaxt artıq keçilməzləşmiş sərhədlərdən kitab, mətbuat sızmasa da bir gün hər şey dəyişə bilərdi, bu iki qardaş xalq yenidən bir-birinə mədəniyyət, ədəbiyyat, dil baxımından yaxınlaşa bilərdi.

Bunun qabağını öncədən almaq gərəkdi. Nə deyirsiz deyin, Stalin hər halda uzaqgörən siyasətçi imiş.

1940-cı ildə Azərbaycanın latın əlifbasından rus əlifbasına keçməsi sadəcə hurufatın dəyişməsi deyildi. Bu xalqın milli şüuruna vurulan güclü zərbə, mənəviyyatı zədələyən bir həmlə idi və bu zərbənin, bu təkanın təsiri ayrı-ayrı şəxslərin taleyində də hiss olundu. O cümlədən, şair Abdulla Faruqun taleyində, Rəsul Rza ömrünün müəyyən müddətində. Uşaqlığımda evimizdə bu əlifba dəyişməsinə aid böyüklərin məhrəm söhbətlərini eşitmişdim və onlar bu məsələni 37-ci il faciəsindən sonra Azərbaycanın taleyinə vurulan ikinci ağır yara kimi qavrayırdılar. Doğrudur, atam da, anam da, o nəsildən bütün başqa yazıçılarımız da ömürlərinin sonuna qədər əlyazmalarını ərəb əlifbasıyla yazdılar, amma ürəklərində latm əlifbasının da nostaljisi yaşayırdı. Kirilə heç cür alışa bilmirdilər. Rəsul Rza «Çibinlər» şeirində milçəklərin kağızlara ləkə salaraq «nöqtə, vergül düzməyinə» işarə edərək «Gündə bir dəyişən orfoqrafiyanı yaxşı bilirsiniz, yəqin ki, məndən» deyirdi.

1963-cü ildə yazdığı «VAY O GÜNDƏN» adlı başqa bir şeirində isə belə misralar var:

Köhnə bir dərs kitabı tapdım
köhnə qovluqdan
Əlifbası köhnə,
cildi köhnə,
səhifələri sapsarı,
Elə bil əbədi ayrıldığım bir dostun
məktublarını oxuyurdum.
Fokusu düzəlməmiş kinokadrlar kimi
gözlərimdən keçdi
gənclik günləri.
Keçdi kadraşırı, nizamsız,
Bir səhifədə ilişdi diqqətim
bir neçə sətrə,
Başlığında «fəlakət» sözü.

Mən bilmirəm atamın tapdığı köhnə dərslik hansı əlifbaylaymış - ərəblə, ya latınla (hər halda kirillə deyilmiş). Əgər latınla imişsə onda «əbədi ayrıldığı dost» haqqında sözləri düz çıxmadı. Azərbaycanda latın əlifbasından imtina ediləndən altmış il sonra, atamın bu şeirindən 38 il sonra və Rəsul Rzanın vəfatından iyirmi il sonra Prezidentimizin fərmanıyla 2001-ci il avqustun birindən Azərbaycan yazısı bütünlüklə latın qrafikasına keçdi. Rəsul Rza buna da çox sevinərdi.

***

Altmış il bundan qabağın hadisələrini isə xalq şairi Mirvarid Dilbazi «Kiril əlifbasını necə qəbul etdik» adlı yazısında («Ədəbiyyat qazeti», dekabr, 1990) belə xatırlayır:

Əlifba haqqında ilk söhbətin mən ilk şahidiyəm. 1939-cu ilin fevral ayında Səməd Vurğunu, Məmməd Arifi, məni ordenlərlə təltif etdilər. Ordenləri Kalinin verirdi. Stalin də o təltif məclisində idi. O günün sabahı bizi Universitetin filologiya fakültəsinə çağırdılar. Rektor bizi ehtiramla qarşıladı, xeyli

söhbətdən sonra dedi: Məsləhət belədir ki, siz gərək kiril əlifbasına keçəsiniz.

Səməd Vurğunla Məmməd Arif əvvəlcə ölü rəngi aldılar, sonra üzlərinə boğuq bir qızartı çökdü. İlk sözə Səməd Vurğun başlayıb dedi: Bu mümkün deyil. Kiril əlifbasındakı bir çox səslər dilimizə uygun deyil, biz gərək onların əvəzinə başqa dillərdən sözlər götürək. Həm kiril əlifbasına yamaq vuraq, həm də əlifbamızı yükləyək.

Məmməd Arif də xeyli tutarlı danışdı, ciddi səbəblər göstərib bu dəyişikliyin xalqımıza, mədəniyyətimizə böyük zərbə olacağını sübuta yetirdi. Deyilənlərin qarşısında söz tapmayan rus alimi dedi: Mən sizi başa düşürəm, ancaq nə etmək olar, artıq qərar veririlib. Bu Stalinin göstərişidir» («Ədəbiyat qəzeti», 7 dekabr, 1990).

Mirvarid xanımın bu qiymətli şəhadətinə anamdan eşitdiklərimi əlavə etmək istəyirəm. Anam danışırdı ki, bir gün Rəsul evə Səmədlə gəldi. Üzlərinə baxanda ürəyim düşdü, ikisi də bir haldaydı ki, çirtma vursan sifətlərindən qan damardı. Bağırovun yanından gəlirmişlər. Bağırov bunları əlifba məsələsi üçün çağırıbmış. Qabaqlarına yemək qoydum, içki istədilər, içdilər və dərdləşləşməyə başladılar. Bağırov deyib ki, rus əlifbasına keçirik, özü də burada daha heç o yan-bu yan ola bilməz, bu şəxsən Stalin yoldaşın göstərişidir.

Bu qorxunc sözlərə baxmayaraq etiraz etməyə çalışıblar: axı ermənilər, gürcülər öz əlifbalarından əl çəkmirlər» - Bağırov: Yaxın zamanlarda onlar da rus əlifbasına keçəcəklər, deyib, Stalin yoldaşın fikri budur ki, bütün sovet xalqları eyni əlifbadan istifadə etməlidirlər.

Söhbətin dalını Ənvər Məmmədxanlının dilindən eşitmişəm: «Faruq mənə dedi ki, mən bu əlifbanın dəyişdirilməsini səhv hərəkət hesab edirəm, bu Bağırovun işidir, ona məktub yazacam. Dedim yazma, bu, Bağırovluq iş deyil, Stalindən gələn məsələdir. Faruq qulaq asmadı, yazdı. Məktubu Bağırova çatan kimi tufan qopdu. Bağırovun bir xasiyyəti vardı, bir kəs bir iş tutan kimi o saat deyirdi ki, bu tək sənin işin deyil, sənin

dalında hansısa bir qrup, bir təşkilat dayanıb və bu hazırlanmış təxribatdır. Bəli, o saat zirək xəbərçilər Bağırova çatdırdılar ki, bəs Faruq Rəsul Rzanın qohumudur və Rəsul da Yazıçılar İttifaqının sədri olduğu üçün bu məsələni o təşkil edib... Bağırov bütün Yazıçılar İttifaqını darmadağın etdi...»

Yenə də Mirvarid xanımın xatirəsinə müraciət edirəm: «Stalinin adını eşidib qorxuya düşənlər bu əlifbanı (təbii ki, kiril əlifbasını A.) tərifləməyə söz tapdılar, əlehyinə olanlar isə öz cəzalarına çatdılar. Bu etirazın ilk qurbanı çox istedadlı şair Abdulla Faruq oldu. Onu Yazıçılar İttifaqından xaric etdilər, heç yerdə iş vermədilər, müharibə başlananda, ön sıraya, döyüşə göndərdilər, orada məhv oldu. Abdulla Faruq Rəsul Rzanın qohumu olduğu üçün dərhal Rəsul Rzanı da Yazıçılar İttifaqının sədrliyindən çıxardılar. Abdulla Faruqun bu faciəsi çoxlarına görk oldu». Yadımdadır, atam da danışırdı ki, bir gün Bağırov məni çağırdı, gözündən, ağzından od tökülürdü, mən də hələ başa düşmürdüm ki, niyə qəzəbə keçmişəm, çünki Faruqun məktubundan doğrudan da xəbərim yoxdu, məsələ açılanda, deyəndə ki, Faruqu sən öyrətmisən, sənin qohumundur, cavab verdim ki, bəyəm siz öz qohumlarınızın hər bir hərəkəti üçün cavabdehsiniz? Daha da özündən çıxdı: Mən bax bu əlimlə öz qohumlarımı güllələmişəm, dedi.

Xalq yazıçısı Mirzə İbrahimov «7 gün» qəzetinin müxbiriylə müsahibəsində xatırlayır:

«Rəsul Rza Mir Cəfər Bağırovun kəskin iradlarına qarşı çıxırdı, sualına iti cavablar verirdi. Bir dəfə yığıncaqların birində Bağırovun Məmmədxanlılar nəslinə qarşı işlətdiyi ifadəyə görə Rəsul: «Sən get, öz bacının (Qubada yaşayan bacısı həmişə ona qarşı çıxırdı, o isə bundan qorxardı) cilovunu yığ», dedi. Ancaq əksər şair və yazıçılar tənqid olunanda sakit dururdular». («7 gün»,18 iyul, 1992).

Mirzə müəllimin yaddaşına inansam və hörmət etsəm də, atamı yalnız və yalnız xoş niyyətlə xatırlamasını başa düşsəm də, məncə bu xatirələrdə mübaliğə var. Əvvəla, Azərbaycanda gərək ki, Ordubadidən və Mirqasımovdan başqa heç kəs

Bağırova «sən» demirdi. Hətta Üzeyir bəy də ona «siz» deyirmiş. Yaşca çox cavan olan atam da təbii ki, ona «sən» deməzdi və belə kobud şəkildə («Get, öz bacının cilovunu yığ») cavab qaytarmazdı. Ola bilməyən şeylə indi qürurlanmağın nə mənası var? Amma bununla bərabər ədalət naminə onu da deməliyəm ki, o dövrün müxtəlif adamlarının şəhadətinə görə Bağırovla ən sərt, ən cəsarətli danışan tək-tük adamlardan biri Rəsul Rzaymış və Bağırovun qohumları haqqında qaytardığı cavab da gerçəkdir, intəhası belə kobud şəkildə deyilməyib bu sözlər. Hər halda, belə bir ötkəm cavab bəs idi ki, atamın, necə deyərlər uzun müddətə «kitabı bağlansın». Bəli, Rəsul Rzanı məhz bu hadisələrə görə və guya ki, səhv etdiyini boynuna almayıb, əksinə özünə haqq qazandırdığına görə Yazıçılar İttifaqının sədrliyindən çıxartdılar, hər yerdə qaralamağa başladılar. Özü də tək onu yox, anamı da qara siyahılara saldılar. 1940-cı ildə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı dekadasına gedənlərin siyahısından nəinki atamı pozmuşdular, kitablarını çıxarmışdılar, hətta adını belə hər yerdən silirdilər. Özü də bunu qəsdən elə şadistcəsinə edirdilər ki, adam yalnız «yuxarılardakıların» insafsızlığına deyil, onların «aşağıdakı» buyruq qullarının qəddarlığına da mat qalır. O vaxt «Azərnəşr» də işləyən bibim Surə Məmmədxanlıya, məhz ona tapşırıblar ki, dekada nıünasibətilə Moskvaya göndərilən bütün kitablardan Rəsul Rzanın adını pozsun. Göz yaşları içində bu işdən imtina edən bibinıin vəziyyətini təsəvvür eləmək olar.

O vaxtın şərtlərinə görə hələ yaxşı qurtarmışdılar. Bağırov Rəsul Rzanı olmasa da, ən azı Faruqu tutdura bilərdi. Bunu etməməsinin səbəbi məncə rəhmdilliyində deyil, 37-ci il qırğınından sonra tutulma, sürgün və qətl planlarının artıqlıqla doldurulmasında və 39-cu ildə Yejovun süqutundan sonra bütün ölkədə repressiya kampaniyasının bir qədər səngiməsində idi.

Abdulla Faruqu tamamilə başqa bəhanəylə Yazıçılar İttifaqı üzvlüyündən çıxardılar, müharibənin ilk günündən cəbhəyə yollandı və oradan qayıtmadı.

Nə son dəqiqələrindən xəbərim var,
nə harda basdırıldığını bilirəm.
Bəlkə, qara quzğunlar
caynaqlayıb yedi qara gözlərini,
Bəlkə də, yanaqlarmda
gilə-gilə buz oldu,
hələ ağrılı nəfəsin kəsilməmiş,
üzünə düşən qar naxışları.
Bəlkə,
üstünə sərildiyin torpaqda,
bir parça, bir boy o torpaqda,
cəsədin qaldı neçə gün.
Və düşmən ayağı dəymədi
torpağın o parçasına.
Bu da sənin vətənə son borcun oldu.
Bəlkə də, o torpaq,
o torpaq ki, sinəsinə aldı səni,
dönə-dönə sənin qorucun oldu.
Lakin,
nə sən qoruya bildin onu sona qədər, nə o səni.
Əbədi o torpaqda qaldı yurdumun neçə-neçə
Əlisi, Əhmədi, Həsəni... və sən...
Dünyaları versələr istəməzdim,
Bir gün təbəssümünlə
qapımdan girsən...

(Faruqun xatirəsinə həsr olunmuş
«Səhifələrin yaddaşında» şeirindən. Mart, 1964)

***

Sona Xəyal monoqrafiyasında Rəsul Rzanın Abdulla Faruqa yazdığı bir neçə məktubu da ilk dəfə üzə çıxarıb. Bu məktubları arxivdən tapıb. Atamın bərbad xəttinə görə çox yeri oxunula bilməmiş məktublardan bəzi fraqmentlər gətirirəm. Elə bu parçalar da hər iki şairin həm son dərəcədə səmimi dost, məhrəm, həm də bir-birinin yaradıcılığına tələbkar münasibətlərini aydın göstərir.

«Qardaşım Faruq! Məktubunu aldım, son şeirim haqqında yazdqlarını oxudum. Sən özün yaradıcılıq etibarilə aramızda olan ayrılığı yaxşı göstərirsən. Sənin dediklərinin bəziləri ilə mən də şərikəm. Əlbəttə, öylə şeir yazmaq lazımdır ki, o yalnız öz təzəliyi, orijinallığı, dərinligi deyil, öz ahəngi etibarilə də əsgi şeirdən qat-qat yuxarı dursun. Bu baxış nüqtəsindən, bənim şeirlərim hələ bən istədigim kamilliyə yetə bilməmişdir.

Bunlardan sonra sənin içində bulunduğun ağır vəziyyət bəni ciddi rahatsız edir. Burada çıxış yolu yalnız ruhdan düşməmək və daha artıq qüvvətlə qarşıda olan çətinligi rədd etməkdir. Atanı təmiz yaxşı oluncaya qədər qoy xəstəxanada qalsın. Özün xəstəlikdən istifadə edərək, ordudan azad oluna bilsən xəstəligin orduda qalmana mane olsa, tez öz dokumentlərini göndər, burada sənin üçün yer düzəldim. Sənə bu günlərdə yenə «Литературная газета»dan alub pul göndərəcəgəm. Sənin orada 40, ya 45 manatın vardır. Əvvəl yazmamışlardı. Bən gedib dava-dalaş elədim, yazdırdım. Ən yaxın günlərdə alub göndərəcəgəm. Bəndən Arifə, Ağaya, Hidayətə səlam söylə. Bənə tez məktub yaz. Bu günlərdə imtəhanlarımız başlayır, ona görə sənə bir az gec-gec məktub yazsam, incimə. Hələlik bu qədər. Görürsən, maşınkada yazmağı da öyrənmişəm. Əllərini sıxıram sənin.

Rəsul Rza
21.VII.1935-ci il. Moskva

Qardaşım Abdulla, salam! Üçüncü məktubunu aldım. Mən sənə təxminən 89 gün əvvəl bir məktub göndərmişdim. «Qızıl əsgər idarərəsi» adına. Üçüncü məktubunda qızıl əsgər cəmiyyətindən yazmısan. İmdi o məktub nə oldu? Sən onu idarədən soruş. Sənin şeirin həqqində hələlik (yəni bir dəfə oxumuşam, həm də fikrim bir qədər dağınıqdır) bir qədər deyim. Əvvəla, bu göndərdigin parça bir poema hissəsi olsa gərəkdir. İkinci, burada da bəzi şeirlərində özünü göstərən və bənim sana dəfələrlə dedigim trafaretdən qurtarmamısan. Daha aydın deyim. Sənin «Snayper», «Partizanlar» və bir sıra başqa qüvvətli, ruhlu, atəşli şeirlərinə kölgə salan sadalamalar, eyni ahəngdə gələn tarixi, coğrafi adlardır. Əslində istər tarixi, istərsə də coğrafı adlar, sözlər işlədilə bilər və bunlar «mepy» olduğu zaman şeiri daha da qüvvətləndirər. Misal üçün, müharibə mövzunda sənin qədər qüvvətdə yazan olmamışdır. Ancaq sənin bu gözəl yazının qüvvətini padşahlar, sultanlar, baronlar, xanlar, panlar və bu kibi sadalamalar azaldır. Cavab parçasında bundan başqa bir nöqsan da vardır. Bu nöqsan əsgərə məktub yazan kəndli qızın (mən inanıram ki, sən bunu boylə vermək istəmisən, yəni, kəndli qızın dilindən) Litvinov qədər xarici siyasət məsələsi haqqında məlumatı olduğu, Polşa, alman, ingilis ordularının silahlarını bildiyidir.

Başda əsgərin son məktubu çox uzundur. Sevgilim deyə başladığın yer çox səmimidir. Sonra isə sənin əsgərin çox hapgop edir. Axırıncı səhifələrdə ayrı-ayrı təşbehlər və qüvvətli misralar vardır. Bitgin bir obraz yoxdur. Sözlərdir. Bu sözləri insan göz qarşısında canlandırmaq istədikdə səhnə çox tez keçir. İnsana bütün təsir verməyir. Bəlkə də qırıq-qırıq təsirlər buraxır. Bu kiçik parçada «hərb» sözü on bir dəfə, «Qanıma» sözü 45 dəfə, «bomba, top, təyyarə, sərhəd» sözü hərəsi 45 dəfə, «ordu» sözü 67 dəfə, «düşmən» sözü 45 dəfə təkrar olunur. Bunlar nədir? Həm də sənin kibi o tövr dəsxoş (oformivşis) yazıçı üçün əfv edilməz nöqsandır. Bir də bən səni bir şeydən saqındırım. Bu hərb məfhumlarını həmişə bir cəhətdən götürməyin. Müharibə olsa, biz hazırıq və bu yalnız bir həqiqətdir.

«Bu cəhət təkrarlanarsa, yaxşı olmaz. Sən əsgərlik həyatından gözəl şeir yaza bilərsən. Şeir haqqında bu qədər. Zira, deyirəm, bənim yazdıqlarımı layiqincə qiymətləndirərsən. Bunları yazmaq bənim dostluq, qardaşlıq borcumdur. Bəlkə, bən fikirlərimdə yanılıram. Yaz. Mübahisə edər, bir-birimizi qane salarıq. Bənim haqqımda o Rəhimlidir nədir, onun yazdığı isə bəni zərrə qədər də rahatsız etməyir. Yer yiyəsiz olanda donuz təpəyə çıxar-deyərlər. Bu günkü Azərbaycan ədəbiyyatı cəbhəsində böylə-böylə şeylərin meydana çıxması həm də təəccüblü bir şey deyildir. Rahim isə Cəfər Xəndanla bərabər bənim şeirimi anlaya bilməyirsə, bu çox gözəl, bəni son dərəcədə şad edən bir faktdır. Bu böylə də olmalıdır. Bir «Tellərin səsi» adlı kiçik şeir yazmaq istəyirəm. Bəlkə bu günlərdə yazdım. Sana göndərərəm. Sən bənə tez-tez məktub yaz. Sən mənim Həmkarlar İttifaqı kitabçamı möhürlə, göndər. Nə qədər pul lazımdırsa Ənvərdən al. Mən ona deyərəm. Bənim adımdan versin 30-40. Axır ki, kitabçamı yaxın günlərdə bana göndər. Nigarın sana çoxlu xeyir-duası var. Hələlik bu qədər. Hafiz bu saat gündüz normasını yatır. Əlini sıxıram. Sənin

Rəsul Rza
12.VI.-35

***

İttifaqın rəhbərliyindən uzaqlaşdırıldıqdan bir neçə ay sonra Rəsul Rza başını götürüb Moskva yaxınlığındakı yaradıcılıq evinə gedir və orada Nizaminin «Xosrov və Şirin» poemasını tərcümə etməyə başlayır. Atamın təbiətində bir cəhət vardı . Yüksək vəzifələrdən könüllü, ya məcburi şəkildə çıxandan sonra sınmırdı, əyilmirdi, bədbinliyə qapılmırdı, könül rahatlığım gərgin yaradıcılıq işində tapırdı.

Bunun konkret örnəklərindən irəlidə də bəhs edəcəm. Burada isə onu qeyd etmək istəyirəm ki, Nizaminin həcmcə ən böyük əsərinin tərcüməsi gərgin iş tələb edirdi, amma bu dövrə aid bir məktubundan göründüyü kimi, çiynini bu ağır yükün altına verən Rəsul Rza zarafatından da qalmır, ruh yüksəkliyini

itirmirdi. Staraya Ruzadan dostu Heydər Hüseynova göndərdiyi məktubda yazırdı:

Heydər salam! Mən Moskvanın yaxınlığındakı Staro Ruza yazıçılar evində işləməyə gəlmişəm. Özümlə Nizaminin arxayın vaxtlarda, telefon, iclas olmayan bir zamanda yazdığı «Xosrov və Şirin»ini gətirmişəm ki, yavaş-yavaş tərcümə edim, getsin. Mayakovskini də tərcümə edirəm. Sənin lüğətini gətirmişəm. Baxdım, sən yadıma düşdün, oturub bu kağızı yazdım. Bu tərcümələr, Heydər, məni lap təngə gətirib. Özümün beş-altı tərcüməm (şeirim olmalıdır -A.) var, yazmaq üçün ölürəm, ancaq bu zalım oğlu Nizamidə insaf yoxdur ki, yazıb, yaza bildikcə. Ə kişi, 14 min misra da poema olar? Cəfər Xəndan Cəfər Xəndanlığı ilə bu uzunda yazmır... Nə isə, şərəfli işdir. Ancaq təəssüf ki, gec başlamışıq. Belə bir poemanı bir ilə, on aya yox, beş ilə səliqə ilə, təmkinlə tərcümə etmək lazımdır. Lüğətin mənə çox kömək edir, çox sağ ol! Ancaq bəzi sözləri tapmayanda cinlənirəm. Hələlik bu qədər. Sağ ol!

R.Rza
20 fevral 40

Məktubun ruhu göstərir ki, taleyin sınağı Rəsul Rzanın əlini işdən soyutmayıb.

Qarşıdan isə daha ağır sınaqlar, daha müsibətli illər gəlirdi.

Min dörd yüz on səkkiz gün davam edən müharibə illəri...

***

Sərhəd...
Üfüqə hələ yayılmadan
qanlı səhər
Tikanlı məftilləri
qırdı, tək buynuzlu,
dəmir gövdəli kərgədənlər.
Qarışdı bir-birinə,

Səpələndi yollara
yurdunu, yuvasını
bir anda tərk edənlər.
Gəldi yağılar,
tank kölgəsinə sinə-sinə.
Bir od giləsi,
bir düşmən gülləsi
Sancıldı döyüşçünün sinəsinə.
Alışdı ilk tank
Üzü Şərqə.
Düşdü torpağa ilk şəhid
Üzü Qərbə.
Başladı
İlk ölüm,
İlk dözüm,
İlk zərbə.
Başladı müharibə
amansız həqiqət.

1941-ci ildə Rəsul Rza bir neçə başqa yazıçı, jurnalist, mətbəə işçisiylə bərabər cəbhədə Azərbaycan dilində qəzet çıxarmaq üçün Krıma göndərilir. Rəsul Rzanın cəbhə dostu, görkəmli ədəbiyyatşünas-alim Abbas Zamanov xatırlayır:

«Krıma gedənlər respublika hərbi komissarlığı tərəfindən deyil, bilavasitə Mərkəzi Komitə tərəfindən səfərbərliyə alınmışdılar. Heç kəs hərbi-tibb komissiyasında müayinə keçməmişdi.

Buna görə qəbul zamanı hamıdan xəstəliyi olub-olmamasını soruşurdular. Yaxtilə Rəsul mənə demişdi ki, 1919-cu ildə ağacdan yıxılıb, ayağına ilan sümüyü batıbmış, türkəçara müalicə nəticə verməidiyi üçün anası onu Bakıya gətirmiş, doktor Mirəsədulla Mirqasımov ayağında cərrahiyyə əməliyyatı aparmışdır. Rəsulun sol ayağının pəncəsi kəsik-kəsik idi. O, nə qaça bilir, nə də sürətlə yeriyə bilirdi. Hətta azca axsayırdı da. Buna görə Rəsul cəbhəlik deyildi. Qəbulda mən

Rəsul ilə yanaşı oturmuşdum. Adamlardan səhhətinin vəziyyəti soruşulduqda mən yavaşcadan Rəsula dedim ki, ayağının şikəst olduğunu de, yoxsa cəbhədə sənin üçün çətin olacaqdır. Ola bilər ki, oradan geri də qaytarsınlar. O, başı ilə «yox» işarəsi verdi. Mən dedim ki, onda mən deyəcəyəm.

Rəsul mənə tərəf əyilərək özünəməxsus təkəbbürlə yavaşcadan dedi:

Yalanını çıxardar və ölüncə səni danışdırmaram. Mən susdum. Növbə Rəsula çatanda o, belə cavab verdi:

-Mən tamamilə sağlamam, səhhətimdən şikayətim yoxdur» («A.Zamanov. «Kişi şair». «İki ömrün işığı» kitabında).

Beləliklə, Krım cəbhəsində, Kerçdə Rəsul Rza dörd dildə - rus, Azərbaycan, gürcü və erməni dillərində çıxan ordu qəzetinin əməkdaşı kimi çalışır. Rəsul Rzayla eyni ordu qəzetində işləyən yazıçı-jurnalistlər Əli Vəliyev, Abbas Zamanov, İbrahim Novruzov, eləcə də qəzetin rus redaksiyasında çalışan məşhur rus şairi İlya Selvinski, jurnalist N.Atarov o acı müharibə günləri haqqında maraqlı xatirələr yazmışlar və bu xatirələrdə Rəsul Rzanın qəzetdə, azərbaycanlı döyüşçülər arasında səmərəli fəaliyyətindən, şəxsi qoçaqlığından ətraflı bəhs olunur. Rəsul Rzayla Krım cəbhəsində görüşləri haqqında yazıçı Süleyman Vəliyevin də maraqlı xatirələri var. Əli Vəliyev cəbhəyə gedərkən Qara dənizdə gəmilərin bombardman edilməsindən, möcüzəylə sahilə yan ala bilmələrindən, Abbas Zamanov Rəsulun bir vida məktubu yazıb, şüşənin içinə qoyaraq dənizə atmasından, Süleyman Vəliyev hərbi səriştəsi olmayan neçə-neçə azərbaycanlı əsgərin qırğından qurtarılmasında Rəsul Rzanın fədakarlığından yazırlar. İbrahim Novruzov ağır müharibə şəraitində Rəsul Rzanın xeyirxahlığını xatırlayır:

«Qarnizon yeməkxanasının qarşısında Rəsul ilə üz-üzə gəldik. O bizi görməyinə, Bakıya istiqamət götürməyimizə çox sevindi. Üst-başımızın toz-torpaqlı olmasından, sifətimizin uzanmasından, üzümüzü tük basmasından, gözlərimizin çuxura düşməsindən, tez-tez udqunmağımızdan halımızı başa düş-

müşdü. Bir neçə gün idi ki, heç nə yeməmişdik. Rəsul bizə gözləməyi tapşırıb özü yeməkxanaya girdi, azca sonra qayıdıb qəzetə bükülmüş iki kömbə çörəyi mənə uzatdı: «A1, – dedi, - Allah bilir Bakıya nə vaxt çatacaqsınız. Mən burda bir təhər dolanaram.

O, beş günlük çörək normasını qabaqcadan alıb bizə vermişdi. Sonra mənə kiçik bir məktub uzadaraq: Bunu da Nigara verərsən, - dedi və əlavə etdi: Ancaq burada gördüyün dəhşətləri şairəyə açmazsan, xiffət edər.

Biz Krasnodardan Bakıya dörd günə gəldik. Mən Rəsulun sağ-salamat, bizi yoluzaq etmək üçün şəhər vağzalına gəldiyini, özünün bir həftəlik çörək normasını alıb bizə verdiyini söylədim. Nigar xanımın üzünə təbəssüm çökdü: O elədir, son tikəsini yoldaşına verəndir, - dedi».

(İbrahim Novruzov. «Rəsul Rzanı xatırlarkən». «Xatirələr işığında» kitabından).

Görkəmli rus şairi İlya Selvinski Rəsul Rzayla bağlı cəbhə xatirələrində yazır:

«Mən Rəsulu çox sevirəm. Biz onunla müharibədə, Şimali Qafqaz və Krım cəbhələrində çiyin-çiyinə yaşayarkən dostlaşmışıq. Mən «İrəli, qələbəyə doğru» qəzetinin ədəbiyyat şöbəsinin rəisi, mayor Rəsul Rza isə ədəbi hissənin Azərbaycan bölməsinin müdiri idi. Cəbhədə işlər o qədər də yaxşı getmirdi. Tayquç kəndində daxmalardan birində Rəsulla birlikdə qalırdıq, faşistlər redaksiyamızı gündə bir neçə dəfə bombalayırdılar».

Burada İlya Selvinskinin sözlərinə ara verib Rəsul Rzanın o günlər haqqında xatirələrindən bir parça gətirirəm:

«Bir dəfə, 1942-ci il mayın 5-də, mən sübh tezdən partlayış gurultusuna oyandım. İstədim çarpayıdan sıçrayam. İlyanın narahat səsini eşitdim: Uzan, tərpənmə, ikincisi partlayacaq.

Mən də hərəkətsiz uzandım. Bir-iki saniyə keçməmiş yeni partlayış binanı titrətdi. Bir qədər ləngiyib ayağa durdum. Həyətə düşən bombanın partlayış dalğası binanın qapı və pəncərələrini sorub qoparmışdı. Sonralar öyrəndik ki, erməni

redaksiyasının əməkdaşlarından biri bombadan həlak olmuşdur. Həyətdə qoyun və qaz bədənlərinin parçaları səpələnmişdi. Əgər mən o dəm yerimdən sıçrasaydım, yəqin ki, birtəhər olacaqdım».

Atam danışırdı ki, yaşca böyük olan İ.Selvinski vətəndaş müharibəsində də iştirak edib, hərbi təcrübəsi vardı və odur ki, bilirmiş: təyyarə birinci bombanı atandan sonra müvazinətini itirməmək üçün o biri qanadındakı ikinci bombanı da mütləq atmalıdır.

Yenə İ.Selvinskinin xatirələrinə qayıdıram: «Bir dəfə Rəsul ön xəttə gedirdi, tam döyüş formasında məndən icazə istəməyə gəlmişdi. Bu zaman mən tasda başımı yuyurdum, əlimi dəsmalla qurulayıb ona əl verdim. Rəsul çox tutqun idi. O, mənə dərin bir hissiyyatla baxaraq eşiyə çıxdı və qaranlıqda gözdən itdi. Bir dəqiqə sonra sabunlu suyu tullamaq üçün mən də çıxdım. Və bu zaman Rəsulun mahnı oxuduğunu eşitdim. Dinlədim. Bu bir çox Şərq nəğmələri kimi kədər melodiyası üstə köklənmiş Azəıbaycan mahnısı idi, lakin Rəsul onu şən oxuyurdu. Qəribədir... Bu gümrahlıq Rəsulun bayaqki tutqunluğu ilə qətiyyən uyuşmurdu. Həm də bu şənlik sünilikdən uzaq idi. Şair qayıdanda hər şey aydın oldu. Sən demə, Azərbaycanda belə bir adət var: insan uzaq yola gedəndə arxasınca su atarlar. Bu, uğur və xoşbəxtlik üçündür. Bu epizod dostumu yaxşı səciyyələndirir. O, öz xalqının adət-ənənələrini çox sevir, onlarda həqiqi poeziya görür».

(İ.Selvinski. «Rəsul Rzanın lirikası», «İki ömrün işığı» kitabında) İlya Selvinski başqa bir yazısında belə bir epizodu da xatırlayır:

«Bir dəfə Rəsul rus dilinə tərcümə edilmiş bir şeir gətirdi. Altında «Nigar» imzası olan bu şeir mənim xoşuma gəldi. Rəsul dedi: - Bunu Bakıdan göndərmişlər, sən bu şair Nigarı tanıyırsan? - Tanıyıram. O, şair deyil, şairədir. Nigar qadın adıdır. - Azərbaycanda onu necə qiymətləndirirlər? - Deyirlər ki, qabiliyyətlidir.

Biz şeiri dərc etdik. Xeyli keçdikdən sonra mən öyrəndim ki, Nigar Rəsulun həyat yoldaşıdır. Arvadının imzasını özünün mübariz qəzetində görmək onun üçün nə qədər fərəhli idi! Rəsula elə gəlirdi ki, Nigar da onunla birlikdə vuruşur. Onu özü ilə çiyin-çiyinə duran hiss edirdi. Cəbhədə hər kəsə belə xoşbəxtlik nəsib olmur».

***

Nigar Rəfibəyli yalnız şeirləriylə Rəsulun yanında olmaq istəmirdi. O, özü də cəbhəyə getməyə can atırdı. Bu barədə belə yazır:

1942-ci ilin mart ayı idi. Alman faşistləri Krımda hücuma keçmişdilər. Sovet qoşunları geri çəkilirdi. Sovet məlumat bürosunun xəbərlərini ürək döyüntüsü ilə dinləyirdik. Həmin günlərdə mən başıalovlu evdən çıxıb birbaşa Yazıçılar İttifaqına gəldim. İttifaqın birinci katibi Səməd Vurğunun yanına qalxdım. Səməd iş otağında tək idi. - Səməd, mən cəbhəyə getmək istəyirəm, – dedim, - Mərkəzi Komitədə danış, məni hərbi müxbir kimi göndərsinlər. Burada qala bilmirəm.

Səməd Vurğun həssas adam idi. Əhvalımı görüb başa düşdü, vəziyyətdən zarafatla çıxmaq istədi. Üzünü mənə tutub tamamilə ciddi ahənglə dedi: Mən iki batalyonu hardan alım səni cəbhəyə yola salsın? Bilirsən, indi Krımda kurort-murort yoxdur, get şeirini yaz, uşağını saxla.

Mənim etirazlarım kömək eləmədi. Mən narazı halda çıxıb gedəndə o, hərbi adam kimi dilləndi: - Axşam Pedaqoji İnstitutda şeir gecəmiz olacaq, ora gələrsən. Saat 7-də. Yadından çıxmasın».

Çox illər sonra Nigar Rəfibəyli Rəsul Rzanın ona Krımdan, cəbhədən yazdığı kağızları «Rəsulun məktubları» adlı xatirələrində çap etdirdi. Üç məktubdan bəzi fraqmentləri verirəm:

«Nigara! Yenə də ulduzlara baxdım, səni andım, sən ulduzlu gecələri çox sevirdin. Buranın mavi, dərin səmaları,

aylı gecələri var. Gözlərimi yumub dənizin əsrarlı söhbətini dinləyirəm. O, nələr danışır. Bu qəzəbli qocanın kədərli əfsanələrini eşitdikcə onun əbədiyyətlə bağlı ömrünə həsəd aparıram. O, nələr görmüş, nələrin şahidi olmuş... Qulağına gələn pıçıltılar qırılmış arzulardan, insanların kinindən, fəryadsız, həzin təəssüfündən ağır hekayətlər anladır. Gözlərimi açıram, ulduzlar axır, boşluqlara doğru axıb gedir.

Dünyanın əzabından qurtarmaq, yarasından qan axan ana torpaqların yarasını bağlamaq lazımdır. İnsanların əlindən alınmış yaşamaq, düşünmək, sevmək, gülmək haqqını qaytarmaq lazımdır. İnsanlar ağız dolusu gülə bilmək üçün göz yaşı və fəryad içindən keçməlidirlər. Qan bulaqlarını qurutmaq üçün tökülən qanlar əbəs deyil! Bu, həyatın sərt və acı həqiqətidir. Beş gün əvvəl cəbhədə idim. Bir gün gələr çəhrayi süfrənin başında oturub bu günlərin müdhiş həqiqətindən danışarıq, balaca oğlumuz, mənim Anar balam dizlərimə dırmaşar, mən ona gördüyüm həqiqətlərdən bir parça söylərəm. Mən ona bir dərədə güllələnmiş yeddi min adamın qayalarda səslənən iniltisindən bir parça, ancaq kiçik bir parça danışaram.

Şiddətli dolu vurmuş taxıl görmüsənmi? Orda-burda baş qaldıran sünbüllər, tarlanın xarabazarlığında nə qədər qəribə və həzin görünür. Çay suları illər boyu daş qayanın altını oyur və bir gün şiddətli bir yağmurdan sonra gələn güclü sel son zərbəni vurur, qaya uçur, parça-parça daşlar dərəni doldurur. Bəlkə uşaqlığında Gəncədə görmüş olasan, bir səhər ayılanda baxçanın çiçəklərini torpağa batmış, güllərin, ağacların budağı sınmış, ləkləri pozulmuş, xırda kərpic qırığı tökülmüş yolları çala-çuxur görürsən. Gecə baxçaya soxulmuş bir sürü mal onu elə bir günə salır. Bura canavar sürüsünə rast gəlmiş və möcüzə nəticəsində qurtarıb sağ qalmış adama oxşayır. Bu adamı təsəvvür et. Onun qolu, qılçası gəmirilmiş, üzü iti caynaqlarla cırıq-cırıq edilmiş, başının tükləri qana bulaşmış... Birinci baxışda bunun insanmı, cansız bir cisimmi olduğunu müəyyən etmək çox çətindir. Qalan binalardan sağ şüşəlisi yoxdur. Torpaq və daş yığınlarının altından çarpayının bir tərəfi

görünür, yanmış evin qapısında palçığa batmış uşaq oyuncağı, dəmir pilləkənin yanında dəlik-deşik olmuş papaq görmək olar. Gecələr küçəyə çıxanda adama elə gəlir ki, bütün dünyanın ən qaranlıq yeri buradır. Zülmət o qədər kəsifdir ki, ixtiyarsız ağaca, daşa deyil, bu zülmətin özünə dəyib əzilməkdən, yaralanmaqdan qorxursan.

Ümumiyyətlə, müharibə fəlakətdir. Böyük, sonsuz, dəhşətli, bütün xəyal və təsəvvürlərdən daha qorxunc bir fəlakətdir. Bütün bunlara baxmayaraq gəldiyimə peşiman deyiləm. Doğrusunu istəsən, bu səfər olmasaydı, bəlkə də mən dolğun və gərgin bir həyat təcrübəsindən məhrum olardım. Qəribə deyilmi, burada insan həyatı daha inadla sevməyə başlayır, bütün əziyyətlər, bütün əzablar həyatın munis çöhrəsini örtə bilmir, onu insanların gözündən salmır».

***

Krım cəbhəsində «Ordu» qəzetinin baş redaktoru D.Berezin, Azərbaycan variantı üzrə onun müavini Cəfər Cəfərov idi. Bu yaxınlarda atamın arxivindən tapdığımız sənədlər içində Berezinin Rəsul Rzaya verdiyi xasiyyətnamə də var.

«Rəsul Rza Krım cəbhəsinin «Döyüşən Krım» qəzetinin redaksiyasında yazıçı kimi işlədiyi müddətdə istedadlı bolşevik jurnalist kimi şeirləri, oçerkləri, hekayə və məqalələriylə əsgərlərin siyasi və hərbi təlim-tərbiyəsinə kömək etmişdir. Rəsul Rzanın əsərləri Qızıl Ordu döyüşçüləri, xüsusən də sıx bağlı olduğu azərbaycanlı döyüşçülər arasında böyük şöhrət qazanmışdır. Yoldaş Rəsul Rza dəfələrlə ön cəbhədə olmuş, burada döyüşçülərin həyatına yaxından bələd olmuş və sistematik olaraq Azərbaycan diviziyasıyla əlaqə saxlamışdır, əsərlərində həqiqi və poetik cəhətdən parlaq şəkildə qəhrəmanların alman faşist işğalçılarıyla döyüşlərdə hünərlərini təsvir etmişdir. Müharibə şəraitində yoldaş Rəsul Rza var qüvvəsini fədakarlıqla və cəsarətlə Vətənin müdafiəsinə həsr etmişdir. Ən çətin vəziyyətlərdə Rəsul Rza özünü mərd və möhkəm iradəli şəxs kimi apararaq nizam-intizama və

mütəşəkkilliyə maksimum riayət etmişdir. İşindəki əla göstəriş-lərə görə Krım cəbhəsi Siyasi idarəsinin əmriylə Rəsul Rzaya təşəkkür elan edilmişdir.

D.Berezin»

Rəsul Rzanın poeziyasında Krımda dinclik və əmina-manlıq illərində, yaradıcılıq evində istirahət edərkən yazdığı şeirlər xüsusi yer tutur. O, qardaş Krım-tatar xalqının doğma yurdu olan bu torpağı sevirdi və müharibə illərində burada gördüyü dəhşətli səhnələr onu sarsıtmışdı. Bu şeirlərdən birinin «Krım» şeirinin altında iki tarix qoyulmuşdur: 1942-1961.

Qəribədir, o qədər də uzun olmayan bu şeir on altı il ərzindəmi yazılmışdır? İzahi çox sadədir. Şeirin 42-ci ildə yazılmış variantı

«Gözəl Krım, dost Krım, əziz, mehriban Krım!

Düşmənin pəncəsində məğlub olmayan Krım!» - misralarıyla bitir. 1961-ci ildə isə bu şeirin sonluğuna yalnız iki misra əlavə edilib:

«Neçə-neçə övladın həsrətinə yanırsan,

Daş olsaydın ərirdin, torpaqsan, dayanırsan».

Şeir bütünlüklə alman faşistlərinin Krım torpağına gətirdikləri müsibətdən danışırsa, son iki misra artıq Stalin-Beriya rejiminin doğma, dost Krım-tatar xalqının başına açdığı faciəyə işarədir, yurd-yuvasından sürgün edilmiş, didərgin salınmış balalarının həsrətiylə yanan Krımın dərdidir şairi ağrı-dan. 1981-ci ildə, ömrünün son aylarında da cəbhə günlərini anaraq «Krım xatirələri» adlı silsilə şeirlər yazır və bu şeirlərin birində Krım-tatar xalqının müsibətindən deyir:

«Dodaqları gövrək gileyli
bir qız,
Adı Məryəm idi.
Şəvə saçı yeddi hörük,
qara gözləri dopdolu qəm idi.
Sanki hələ o zaman

Krımın buludsuz
mavi göyləri altında
Anlaşılmaz bir duyğu ilə duymuşdu

Krımın fəlakətini.
Düşünürəm: hanı Məryəm?
Hanı, o kədər baxışlı qız?
İndi Krım yetim qalıb onsuz... »

Rəsul Rzanın müharibə sarsıntıları, qəzəbi intiqam hissinə çevrilərək onun bir çox şeirlərinin məzmununu təşkil edir. Bu illərdə çıxan şeir və nəsr kitablarının adları səciyyəvidir: «İntiqam, intiqam», «Vətən», «Qəzəb və məhəbbət».

Azərbaycanlı döyüşçülərin, əsgərlərin və zabitlərin igidliklərinə həsr olunmuş oçerklərdən, məqalələrdən və «Leytenant Bayramın gündəliyi»ndən ibarət olan «Qəzəb və məhəbbət» kitabının adı Rəsul Rzanın o günlərdə keçirdiyi hiss-həyəcanları dəqiq əks etdirir. İnsanlara bu qədər fəlakət və dərd gətirən müharibəyə qarşı qəzəb duyğularıyla bərabər Rəsul Rzanın bu dövrdəki şeir yaradıcılığında lirika da xüsusi yer tutur. Müharibə, bütün hisslərin tarım çəkilməsi, ayrılıq, vətəndə qoyub gəldiyin, sevdiyin insanların həsrəti, bəlkə də bir daha onlarla görüşə bilməyəcəyinin nigarançılığı, vəfa, etibar kimi anlayışların bu məqamda aydın üzə çıxması, sınaqlardan keçməsi şairin qəlbində kövrək duyğular oyadır və duyduqlarını «Hicran», «Sevgilim», «Vəfa» kimi incə ruhlu şeirlərdə ifadə edirdi:

«Mənsiz bu dünyanın olsan qonağı,
Nə olar, sevgilim, sağ ol təki sən.
Kim görsə boyasız, solğun dodağı,
Onsuz da biləcək, sən mənimkisən.

(«Hicran» şeirindən, Krım, 1942)

Durnanın qatarı gör nə qəşəngdir!
Səhər buludları nə lalərəngdir!
Mehriban gözlərin yol çəkir yenə,
Bir səs pıçıldayır: «gəlməyəcəkdir»

Oxşa körpəmizi, dik tut başını!
Çatılmış görməsin düşmən qaşını.
Namərdlər içindən sorağı gəlməz
Könül həmdəminin, can sirdaşının.

Bəlkə bir gün məndən gətirdi soraq
Qan ləkəsi düşmüş bir sarı yarpaq.
Bil ki, son şeirimin ilk sözü sənsən,
Bir də can verdiyim bu ana torpaq.

(«Sevgilim» şeirindən, Krım, 1942)

Bu dövr şeirlərinin lirik qəhrəmanı yalnız cəbhədə düşmənlə vuruşan döyüşçü deyil, həm də onu arxada gözləyən sədaqətli, vəfalı yarıdır. «Vəfa» şeiri məhz bu etibarlı sevgilinin dilindən yazılmışdır:

«Sən məndən uzaqdasan...qəlbimdə əhdimiz var:
Dünyada hansı qüvvət səni məndən ayırar!
Gözləyirəm səni mən, gözləyirəm hər anda,
Axşamın kölgəsində, üfüqlər qızaranda,
Sarı yarpaq düşəndə, isti külək əsəndə,
Gözləyirəm səni mən, gəlsən də, gəlməsən də...

(«Vəfa» şeirindən, Krım, 1942)

Bu şeirin ovqatı, ruhu, əsas qayəsi Rəsul Rzanın elə o illərdə yazdığı «Vəfa» pyesinin də əsas məzmunudur. Görünür belə bir pyes yazmaq niyyətində olduğunu Cəfər Cəfərova

danışıbmış, çünki məktublarından birində Cəfərov bu məsələyə toxunur:

«Rəsul, salam. Məktublarının ikisini də aldım. Deyəsən, sancmasan, dinc ola bilmirsən. Senzurada nə işin var. İtin yadına daş salırsan.

«Vəfa»nın taleyi məni yaman maraqlandırır. Adı çox gözəldir. Hərgah qızdırsa, çevir, oğlan elə, qız olacaqsa, qoy, ikinci dərəcəli bir obraz olsun. Yoxsa, hissiyat aləminə uyub müharibəni yaddan çıxararsan. Sərt və qəzəbli bir əsər yazmaq lazımdır. Lətif duyğuları, şirin sözləri, nazik qəlbləri ümumi bir sərtlik, kobudluq əvəz etməlidir. Əsər şəklə düşəndə bir məğzini yazarsan. Ədil (Adil İsgəndərov - A.) yaxşı eləyir ki, tələsdirir. Sən onu bil ki, əsər meydana çıxandan sonra heç kəs sənə güzəştə getməyəcək. Hamı sənə qarşı tələbkar və zalım olacaq. Odur ki, ehtiyac üzündən yazdığını bəhanə gətirmə. Biz həmişə bir əsər yazanda nöqsanlarımıza bəraət qazandıracaq səbəblər tapırıq. Bəzən bu səbəblər qabiliyyət və istedadımızın da üstünü örtməyə yarayır. Heç özünü o yan bu yana dartma, düşmüsən kələyə, gərək altından çıxasan. Həm məzmun, həm də stil etibari ilə yaxşı əsər yazmalısan. Yaza bilərsən, buna qəti inan, ancaq lovğalanma və əməl elə. Hələlik bu qədər. Şeirin doğrudan da pis deyil. Ruhi və insanidir. Nigar bacıma salam de, Anarı əvəzimdən öp. Evdəkilərin hamısma və tanışlara salam.

Sənin Cəfərin
06.08.42»

Görünür ki, «Vəfa» pyesi tamamlanıb səhnəyə qoyulandan sonra Cəfər Cəfərovun xoşuna gəlibmiş, çünki teatrımızın tarixinə aid yazdığı monumetal kitabına «Vəfa»nı müharibə haqqında ən yaxşı əsərlərdən biri adlandırır. Ancaq o da bəlli olur ki, məktubunda ifadə etdiyi nigarançılığı, pyesdə lətif duyğuların, nazik hisslərin üstünlük tuta biləcəyi haqqında təlaşı da tam şəkildə aradan qalxmayıb. Çünki elə həmin

kitabında «Vəfa»nı yüksək qiymətləndirdikdən sonra «ancaq bu əsər də sentimentallıq motivlərindən xali deyil», yazır.

***

Təbii ki, Rəsul Rzanın bu illərdə yazdığı şeir və oçerklərinin əksəriyyəti vətənpərvərlik, vətəni qorumaq, igidlik və fədakarlıq, düşmənə amansız nifrət üzərində köklənmişdi. Bu şeirlərdən ən çox populyar olanı döyüşdə misilsiz igidlik göstərmiş və qəhrəmanlıqla həlak olmuş Bəxtiyar Kərimova həsr edilib.

«Bəxtiyar» şeiri heca vəzninin poeziyamızda az işlənən onluq bölgüsündə yazılmışdır.

«Şeirin təqtisi 4+3+3 formasındadır ki, belə təqtiyə ilk dəfə R.Rza müraciət edirdi. (Yaşar Qarayev, Şamil Salmanov, «Poeziyada yaşanan həyat» Rəsul Rzanın beşcildliyinə Ön söz.1980).

Nigar Rəfibəyli xatırlayır:

«Kerçdən gələn məktubların birində Rəsul «Bəxtiyar» şeirini göndərmişdi. Mən bu şeiri Səməd Vurğuna oxudum. Səməd: - Nigar, mən bu şeirin vəznini tuta bilmədim, o nə vəzndə yazılıb? - dedi.

Şeir on hecalı idi. Çox işlənən on bir hecalı şeirə alışmış qulağımız üçün on hecalı şeir qəribə gəlirdi» (N.Rəfibəyli. «Şanlı nəsillərin yadigarıyam» kitabında).

O da maraqlıdır ki, Rəsul Rzanın müharibə illərində yazdığı şeirlərin hamısı heca vəznindədir. Özü bunu həmin şeirlərin oxuculara tez çatması niyyətiylə izah edirdi. Bu illərdə yazdığı şeirləıdən biri hətta nadir hallarda işlətdiyi əruz vəznindədir. Onu da qeyd edim ki, bu şeirlərdə bəzən çox arxaik, Rəsul Rzanın özünün lağa qoyduğu əsgi şeir təşbehləri üzə çıxır. Məsələn: «Dünyanın pərişan bağında canan, Mən nəğməli bülbül, Sən bir baharsan», yaxud «A ceyransayaq!» xitabı. Əlbəttə, bunları da dövrün tələbləriylə, ya da oxucuya tez, asan çatmaq niyyətiylə izah etmək olmaz.

Rəsul Rza haqqında «Od nə çəkdi» adlı kitab yazmış şair və alim Arif Abdullazadə qeyd edir ki, «Bəxtiyar» şeiri Böyük Vətən müharibəsi dövrü Azərbaycan poeziyasının ən sevimli, ən kütləvi əsərlərindən idi. Uşaqdan böyüyəcən hamı onu əzbər bilirdi. Kütləvilik baxımından onu ancaq K.Simonovun həmin illərdə qələmə alınan «ЖДИ МЕНЯ» şeiri ilə müqayisə etmək olar» («Od nə çəkdi» kitabında).

Həmin günlərdə elə Krımdaca bu şeir İ.Selvinskinin tərcüməsində rus dilində, habelə gürcü və erməni dillərinə çevrilərək cəbhə qəzetlərində dərc edildi.

«Külək qarı səpələr, Bəxtiyar!
Ağ geyinib təpələr, Bəxtiyar!
Gecə qara, yol uzaq, qardaşım,
Göylər bulud, çöl, düz ağ, qardaşım.
Kaman çalan kimdir o, Bəxtiyar?
Küləkdi, ya simdir o, Bəxtiyar?
Hənirtini duydumu kəhərin.
Tüfənginə yapışdı əllərin,
Düşmən on bir, təkcə sən, nə zərər?
Tənlik işarəsidir güllələr!
Qurtararsa əsgərin gülləsi,
Silahıdır qəlbinin kin səsi.

Məhv etdin on yağını qəhrəman,
Qan sızırdı sənin də yarandan.
Boğazını zabitin, gəmirdin,
İradə qüvvətinlə dəmirdin!
Adın bu nəğmələrdə nəqarat!
Dostlar gedir cəbhəyə, rahat yat!

Sən qorudun vətəni, Bəxtiyar!
Vətən unutmaz səni, Bəxtiyar!
Bundan sonra fəxr ilə analar
Körpəsinə ad qoyar Bəxtiyar.»

Krım, 1942

Bakıda «Bəxtiyar» papirosları buraxıldı, papiros qutusunun üstündə bu şeirdən misralar vardı. Başqa hədiyyələrlə birlikdə cəbhəyə göndərilən bu papiroslar əl-əl gəzirmiş. Cəbhədə olduğu kimi, arxada da geniş yayılan «Bəxtiyar»ın o vaxtkı təsir gücü haqqında unudulmaz Xalq şairimiz Xəlil Rza Ulutürk «Hava kimi, su kimi» adlı gözəl bir şeir yazmışdır.

«Mən bu şeiri ilk dəfə oxumuşam gör harda:
Qar sovrulan yollarda...
Yerdən götürdüm onu,
Güncündə tütün qalmış əl boydaca qutunu.
Yüyürüb evə gəldim qaça-qaça, sevincək.
Ən istəkli adamdan muştuluq gətirən tək
Ana!Ana!deyə mən hay-haray salan zaman,
Anam elə bildi ki, kağız gəlib atamdan.
Sovuşdu aylar, günlər
Ancaq yenə hər dəfə
Anam əl atıb rəfə,
Elə bil ki, o şeiri
od içindən çıxardar,
-Oxu, bir də, deyərdi.
Bir azca səngiyərdi bəlkə şeir ilə dərdi.
Oxudardı, atamın kəsiləndə kağızı,
Bayatılar odunda yananda dili, ağzı.
Əziz şair! Sənindi, can yanğısı bu mahnı,
Mahnılarda yaşatdın,
Oğulların əzmini, anaların ahını.
Şeirin ön cəbhələrdə gurladı tüfəng kimi,
Arxada kara gəldi

Talonla aldığımız
müqəddəs çörək kimi...
Sızqovları, selləri,
çayları birləşdirib
gur ümmana döndərən,
qüvvət, qüdrət gərəkdir.
Uğur olsun ustada,
Rəsul da çox, Rza da,
Rəsul Rzasa, təkdir.»

Rəsul Rzanın müharibə illəri poeziyasını, çox şərti şəkildə olsa da iki əsas qismə bölmək olar: Bu gün də yaşayan şeirlər və o illərdə yazılıb, elə o illərdə də qalan şeirlər. Məsələn, bu sonunculara «Döyüşçünün andı», «Azərbaycan döyüşçülərinə», «Dörd yüz on altı», «Bakı danışır», «Vətən», «Yurdumun qəhrəmanı», «İntiqam», «And», «Sovet tankı», «Üç oğul», «Əsgər anasının sözləri», «Əsirin dedikləri», «Tüfəngini qoru», «Metal qırıntılarını toplayın» şeirlərini aid etmək olar.

Yeri gəlmişkən, adını son çəkdiyim şeirlə bağlı bəzi mülahizələr söyləmək istərdim. Rəsul Rzanın yaşadığı bütün dövrlərin fövqündə duran fəlsəfi və məhəbbət lirikasına bələd olanlar yəqin ki, onun konüktür mövzulara aludə olduğunu deməyə cəsarət etməzlər. Amma Rəsul Rzanın poeziyada prinsiplərindən biri də (bu prinsipin nə dərəcədə düzgün olub-olmaması başqa məsələdir) müəyyən şeirlərin müəyyən praktiki xarakter daşıması, konkret bir işdə gərəkli olması, çağırıcı şüar mahiyyətində olması prinsipi idi. «Metal qırıntılarını toplayın» şeiri məhz bu tipli şeirlərin bariz örnəyidir. Burada söhbət yazının şeiriyyətindən, bədii dəyərindən getmir, ola bilsin ki, bu dəyər çox da yüksək deyil. Söhbət, şeir diliylə ifadə olunmuş konkret və gərəkli çağırışdan gedir.

«Axtarın günc-bucağı
Axtarın hər padvalı!

Toplayın, təhvil verin
parça-parça metalı!
Kimi görsən başa sal:
Ölkəni qorumaqçün
Gərəklidir hər metal!
Bu gün təhvil verirsən
parça-parça metalı,
Sabah təyyarə olur
O, gülləli, bombalı.
Düşmən acdır deyirlər,
onu gərək doyduraq
Qarnına qurşun töküb
ağzına da mis vuraq.
Deyək - faşist quduzu,
istəyirsən, buyur, al!
Bizim Azərbaycanda
toplanmışdır bu metal».

Bəlkə də, bu sayaq şeirlər yazmasında plakatlarçün şeir yazmagı özünə man bilməyən Mayakovski təcrübəsinin təsiri də var. Hər halda, 1941-ci ilin iyulunda yazılmış bu şeir üçün xəcalət çəkiləsi deyil. Amma bu mövzuya toxunmaq yadıma başqa bir epizodu da saldı. Abbas Zamanovun xatirələrində yer almış yarıməzəli bir epizodu. Abbas müəllim xatırlayır: «İstiqraz cəbhəyə də gəlib çıxmışdı, yazılış kompaniyası başlanmışdı. Rəsul redaktorun tapşırığına əsasən bu münasibətlə yazdığı şeiri Cəfərə və mənə oxudu. Biz dillənmədik. Rəsul «niyə susursunuz?» dedikdə, mən cavab veıdim:

-İstiqraza oxşayır.

Rəsul tutulan kimi oldu:

-Boşboş danışma!

Mən cavab verdim: - Ay Rəsul, əgər istiqraz pisdirsə, sən niyə ona şeir yazırsan?

Fitrətən hazırcavab olan Rəsul bu suala birdən-birə cavab verməkdə çətinlik çəkdi. Heç nə demədi. Cəfər sözə qarışdı:

-Rəsul, Abbas səni bağladı.

Gülüşdük. Rəsul üzünü mənə tutub dedi: - Yaxşı, mən sənə borclu. Sonra əvəzini alarsan (A.Zamanov. «Kişi şair»).

***

Bu yazını vaxt fasilələriylə, aylarla yazıram, əvvəlki parçanı yazdıqdan bir neçə ay sonra müharibə dövrü şeirlərinə bir də qayıdarkən gördüm ki, yuxarıda adları çəkilən şeirlərin hamısını yalnız o illərə aid saymaq, hamısına «yalnız o illərdə qalıblar» deməkdə bir az insafsızlıq etmişəm. Ona görə ki, zaman və tale özü gətirib bizi artıq öz doğma dədə-baba torpağımızda gedən müharibəylə üz-üzə qoydu və o köhnə davanın bəzi yaralarının hələ də köhnəlmədiyi kimi, Rəsul Rzanın bu şeirlərində ifadə olunmuş döyüş ruhu, qəzəb duyğusu, intiqam əzmi də, qələbəyə inam hissi də kəsərini itirməyib, bu gün də söz silahı kimi istifadə oluna bilər. Məsələn, bax, «Azərbaycan döyüşçülərinə» (məhz AZƏRBAYCAN döyüşçülərinə! -A.) adlı şeirdən misralar:

«İndi bir taun kimi ölümdən yol salaraq,
Düşmən qarşıda durmuş əlində qanlı yaraq,
Məzarlığa döndərib elini, oylağını,
Viran qoymaq istəyir məhsullu torpağını.
Qurudub bulaqları qan axıtmaq istəyir,
Şəhər küçələrində meyitdən dağ istəyir,
Bəşərin tarixindən silib sənin adını
Rüsvay etmək istəyir qızını, arvadını...
İstəyir unudasan Vaqifin nəğməsini,
Bulaq kimi çağlayan doğma dilin səsini,
O, sənin torpağında istəyir olsun ağa,
Çökdürüb dizi üstə səni quru torpağa
Torpaq ki, hər qarışı sulanmışdır tərinlə,
Hər otu, hər ağacı bəslənmiş əllərinlə...»

Bu şeir doxsanıncı illərdə Bakıda yox, 1942-ci ildə Krımda, Tayquçda yazılıb. Amma nə fərqi var, faşist elə faşistdir - alman faşisti də, erməni faşisti də... Təfavüt bir odur ki, alman faşistinin yəqin ki, Molla Pənah Vaqifin nəğməsindən heç xəbəri yoxmuş, bir vaxt muğamlarımızdan, nəğmələrimizdən gözləri yaşaran ermənilər isə Vaqifin məzarını tapdayır.

Rəsul Rzanın müharibə şeirlərinin çoxunda «Vətən» məfhumu məhz Azərbaycan kimi qavranılır, Azərbaycan anlamını daşıyır. «Pilot qardaş» şeirində Vətənin «bir tərəfi buzlu dəniz, bir tərəfi Savalandır» deyilir. Savalan, məlumdur ki, SSRİ ərazisində deyil, Cənubi Azərbaycanda, İranın tərkibindədir və İran İkinci dünya müharibəsində iştirak etmirdi. Bu şeirdə isə Vətənin sərhədləri müəyyən dərəcədə tarixi Azərbaycanın sərhədləridir.

«Vətən» şeirində bu gün daha təəccüblü görünən misralar var.

«Ana Vətən, indi, bu gün çatdmışdır qaşın sənin,
Yanır böyük bir qəzəblə torpaqların, daşın sənin.
Sən tarixdə çox çıxmısan boylə ağır imtahandan,
Sonda zəfər bayrağını tapşırmışdır sənə zaman.
Torpaqlara sala bilməz düşmən məğrur cəlalını,
Örtə bilməz qara bulud günəşini, ***hilalını.***
Al günəşdən, göv dağlardan. dənizlərdən rəng alaraq.
Sənin azad gövlərində öz bayrağın ucalacaq!»

Altını cızdığım sözlərə diqqət edin. Əlbəttə, Rəsul Rza 1942-ci ildə yazdığı şeirdə «Cümhuriyyət dövrünün və bu günkü müstəqil Azərbaycanın üç rəngli, hilallı bayrağına işarə etmişdir», - demək, saxtakarlıq olardı. Amma şeirin mətni göz önündədir.

Rəsul Rzanın dənizi məhz yaşıl görməsini,

«Dəniz nə rəngdədir?
Mavi, eləmi?
Ancaq mən dənizi yaşıl görmüşəm»

-misralarını da yada salsaq, 1942-ci ilin şeirində milli bayrağımızın hər üç rəngini-alı, göyü və yaşılı görərik. Üstəlik, «hilalın» da bura düşməsini və nəhayət, «Sənin AZAD göylərində ÖZ bayrağın» ifadəsini necə izah edəsən? Bilmirəm. Ancaq Azərbaycan temasının müharibə dövrü əsərlərində ardıcıl və israrlı təkrarının izahı var.

Əvvəlcə bir neçə örnək: Oçerklərindən birinin qəhrəmanı Komissar Novruz Aslanov ölümün qarşısına:

«Azərbaycan balası düşmən qabağından geri çəkilməz! Vur, gözünə dönüm, vur, yaşasın Bakı!» sözləriylə gedir və həlak olur.

1943-cü ildə yazılmış və səhnəyə qoyulmuş «Vəfa» pyesində almanların: «Azərbaycanlılar, təslim olun» - bağırtılarına cavab olaraq Xasay: - Axmaq uşağı, başınıza at təpib, nədir? - deyir, - azərbaycanlılar təslim olarmı? Ala! Yaşasın Azərbaycan!

Pyesin baş qəhrəmanı Bahadır yaralı halda əmr verir:

Leytenant, generala xəbər ver ki, azərbaycanlılar Uç təpəni tutdular, generala xəbər ver ki, azərbaycanlılar Vətən yolunda, Azərbaycan yolunda canlarını əsirgəmirlər.

Pyesin 1943-cü ildə ilk tamaşası yadımdadır. Bu səhnədə Bahadır «Vətən yolunda» yox, «Stalin yolunda» deyirdi, amma «Azərbaycan yolunda» sözləri o vaxt da vardı və bu söz səhnədən səslənərkən salonda gurultulu alqışlar qopurdu.

O da maraqlıdır ki, müharibə haqqında və müharibə dövründə yazılmış «Vəfa» pyesinin personajları arasında, o cümlədən cəbhə səhnələrində də, azərbaycanlılardan başqa heç bir qeyri millətin (təbii ki, düşmən almanlar istisna olmaqla) nümayəndəsi yoxdur nə rus, nə erməni, nə gürcü... Pyesdən belə təsəvvür yaranır ki, Almaniyayla müharibəni tək azərbaycanlılar aparıb.

Müharibədə əsas yükün, ağırlığın rus xalqının üzərinə düşdüyü, ən çox qurbanı da rus xalqının verdiyi danılmaz gerçəklikdir və Rəsul Rza da, əlbəttə, bu həqiqəti yaxşı bilirdi. Heç olmasa cəbhə səhnələrinə (normativ sovet dramaturgiya-

sının bir sıra əsərlərində olduğu kimi) epizodik bir rus obrazı sala bilərdi. Bunu etməyib və bunun da səbəblərinin izahı eynidir: «Vəfa» pyesində də, cəbhədən yazdığı şeirlərdə, oçerklərdə də məhz azərbaycanlı əsgərlərin, zabitlərin, komandirlərin, pilotların, sanitarların, şəfqət bacılarının hünərindən ağız dolusu danışarkən, ardıcıl surətdə yazarkən Rəsul Rza yalançı bir mifi - guya azərbaycanlıların vuruşmaq istəmədikləri, döyüşə bilmədikləri, rəşadətsizliyi, hətta fərariliyi, xəyanətkarlığı haqqında bəzi sovet dairələrinin qəsdən, bilərəkdən yaratdığı və yaydığı mifi darmadağın etmək istəyirdi.

«Vəfa» pyesində qoca müəllim Muğan Vətənin dar günündə saxta bronlarla davaya getməkdən canını qurtaran, ərləri cəbhədə olan arvadları tovlamağa, ələ keçirməyə can atan şərəfsizlərdən biri - Minnətovdan soruşur: - Bəs dediyin böhtanlar? Bəs sən demirdinmi: «azərbaycanlılar vuruşmaq istəmirlər, qorxaqdırlar?»

Bahadır da qoca müəlliminin sözlərinə qüvvət verir:

Böhtan belə adamların silahıdır, müəllim! Buzlu dənizdən tutmuş Qara dəniz sahillərinə qədər bütün cəbhələrdə bizim ellərin doğma balaları vətən torpağını qoruyanda, minnətovlar xalqımızın adına böhtan yaymaqla öz namussuzluqlarının üstünü örtməyə çalışırdılar. Cəbhələrdə bombaların gurultuları içində: «Vur, qardaş, vur! Yaşasın Azərbaycan!» deyə irəli atılan el oğullarının səsini onların kar qulaqları eşidə bilməzdi. Azərbaycan balalarının qəhrəmanlığını onların kor gözləri görə bilməzdi!»

Azərbaycanlıların cəbhələrdə göstərdiyi şücaəti mətbuat, radio, ədəbiyyat, teatr, kino vasitəsilə geniş təbliğ edilməsinin böyük siyasi və tarixi əhəmiyyəti vardı, o illərdə xalqımızın taleyinin həll olunmasında mühüm rol oynayırdı, Rəsul Rza, əlbəttə, bunu yaxşı dərk edirdi, amma bunula belə bu igidlikləri özü gözüylə görüb bunların şahidi olmasaydı boğazdan yuxarı dediyi söz də süni təsir bağışlardı. Cəbhədə rastlaşdığı yüzlərlə, minlərlə həmvətənlərinin həqiqi fədakarlığını, cəsurluğunu, hünərini özü görmüş, gördükcə fərəhlənmiş və bu barədə ən

müxtəlif janrlarda yazılar yazmışdır: pyes, şeir, novella, oçerk və məqalələrdən tutmuş hər gün ya günaşırı Azərbaycan Teleqraf agentliyinə göndərdiyi məlumatlara, evə, həyat yoldaşına yolladığı məktublaracan.

***

N.S.Xruşşov məşhur «Xatirələr»ində müharibə illərində Krımda yüksək rütbəli siyasi rəhbər olmuş Mexlisdən də danışır, onun qafqazlılara nifrət etdiyindən, Qafqaz xalqlarının əlindən zəncir çeynədiyindən söz açır. Bu barədə eşitdiklərimə, o cümlədən, atamdan eşitdiklərimə əsaslanaraq onu əlavə edə bilərəm ki, Mexlisin, xüsusilə azərbaycanlıları görməyə gözü yoxmuş. Azərbaycanlıların guya ki, cürətsizliyi haqqında şayiələri də Mexlisin fıtvasıyla onun ətrafındakılar yayırmış. Krım cəbhəsindən Bakıya dönən kimi Rəsul Rza Mir Cəfər Bağırova məktubla müraciət edir. Məktubun əvvəlində xalqların sarsılmaz Stalin dostluğu haqqında ənənəvi bir cümlə varsa da, yazının bütün mətni bunun tam tərsini əks etdirir. Rəsul Rza yazırdı:

«1942-ci il yanvarın sonunda Azərbaycan K(b) MK-nın göndərişiylə siyasi işçilər və redaksiya işçiləri Kerçə, Krım cəbhəsinin Siyasi İdarəsinin sərəncamına gəldilər... Limanın sərxoş komendantı əlində tapanca azərbaycanlı leytenantı komendaturaya salıb ən pis küçə söyüşləri ilə söyürdü. Söyüşlərin arasında «yeldaşı-paraziti» sözləri eşidilirdi. Həmin bu sözləri komendant Kerçdə öz rəhbərləriylə danışanda da təkrar edirdi: «Yenə bu parazitlər-yeldaşlar gəlib». Sonralar məlum oldu ki, komendantın söydüyü leytenantın heç bir təqsiri yoxmuş. Sərxoş komendant isə silahla hədələyərək leytenantı ardınca apardı. Biz bunu öz gözlərimizlə gördük və bu barədə akt tərtib etdik. Sonralar aydın oldu ki, Qamışburun limanının komendantının hərəkətləri təsadüf deyilmiş. Ordu qərargahında bəzi rəhbər yoldaşların himayədarlığı ilə müxtəlif yerlərdə bu cür işlər olur. Ayrı-ayrı yerlərdə, vaqonlarda,

küçələrdə, ictimai yerlərdə belə söhbətlər eşitmək olar ki, guya Feodosiyanı azərbaycanlılar təslim ediblər, azərbaycanlılar vuruşmaq istəmir. Çox vaxt belə söhbətlərdə «azərbaycanlılar» əvəzinə «yeldaşı» sözünü işlədirlər ki, bu da rus dilində xüsusilə nalayıq və təhqiramiz səslənir.

Ordunun siyasi idarəsində ayrı-ayrı döyüşçülərin və komandirlərin bu qeyri-sağlam münasibətlərini bilə-bilə belə faktların aradan qalxması üçün heç bir şey etmirlər. Cəbhəyə yollanmaqdan əvvəl milli respublikalardan gəlmiş siyasi işçilərin ümumi iclası oldu və bu iclasda yoldaş Mexlis çıxış etdi. O dedi ki, azərbaycanlılar hamıdan pis döyüşür. Heç bir real əsası olmayan belə bəyanatlar Qamışburun komendantının özbaşınalığı kimi qeyri-sağlam hərəkətlərə qida verir. Sonrakı hadisələr göstərdi ki, yoldaş Mexlisin sözləri tamamilə yersiz imiş, faktlara deyil, ayrı-ayrı şəxslərin yanlış və qərəzli məlumatlarına əsaslanırmış, o şəxslərin ki, hərbi uğursuzluqlarını və döyüş əməliyyatlarına rəhbərlik etməkdə bacarıqsızlığını döyüşçülərin və ilk növbədə azərbaycanlı, gürcü və erməni döyüşçülərinin boynuna qoymaq istəyir. Fərarilik, düşmən tərəfinə keçmək, əzalarını zədələmək kimi biabırçı faktları bu və ya digər xalqın xüsusiyyətləri ilə bağlamaq kökündən yanlışdır. «Yeldaşı» və «Tiflis duxanşikləri» kimi ifadələrin müəllifləri məhz belə etmək istəyirlər. 396-cı diviziya azərbaycanlılardan təşkil olunmuşdur. Bu diviziya yaranana qədər döyüşçülərimiz Krım cəbhəsinin başqa hissələrində idilər. Onların 90 faizi rus dilini bilmir, bu hissələrin komandirləri və siyasi işçiləri isə Azərbaycan dilini bilmir. Bunun nəticəsində acınacaqlı hadisələr baş verir. Rus dilini bilməyən döyüşçü komandirin əmrini başa düşmür və yerinə yetirmir. Belə hallarda komandir işin mahiyyətinə varmadan, əmrə itaət etməyən döyüşçünü yerindəcə güllələyirdi. Ana söyüşünün (materşina) geniş yayılması da böyük bəladır. Məlumdur ki, bu azərbaycanlılar üçün ölümdən betərdir. Milli diviziyaların döyüşçülərinə qarşı ayrı-ayrı pis münasibət faktları, onların «yeldaşı» və «Tiflis duxanşikləri» kimi sözlərlə təhqir olunması düşmən işidir və bütün bunlar heç vəchlə küll

halında namuslu, etibarlı döyüşçülərə, on çətin anlarda azərbaycanlılara, gürcülərə, ermənilərə və Vətənin başqa müdafiəçilərinə yardım göstərən rus, ukraynalı qardaşlarımıza aid edilə bilməz.

Rəsul Rza»

Bu məktubu göndərməkdən başqa, bilmirəm daha məktubu göndərməzdən əvvəl, ya sonra, Rəsul Rzanı M.C.Bağırov qəbul etmiş və təklikdə ətraflı söhbət etmişdilər. Atam danışırdı ki, mən yanına gələndə Mərkəzi Komitənin katiblərindən biri də ordaydı. Bağırov ona: Sən çıx get - dedi və sonra mənə müraciətlə, - nə varsa, nə görmüsənsə hamısını olduğu kimi danış, - dedi. Mən də bütün gördüklərimi artırmadan, əksiltmədən danışdım. Bağırov bir an fikrə getdi. - Başa düşmürəm, - dedi, - 1919-cu ildə Həştərxanda biz axır tikəmizi də bir-birimizlə bölüşürdük və heç kəs düşünmürdü ki, bu rusdur, bu türkdür, bu erməni. İndi nə olub adamlara?

Atam, əlbəttə, bu ritorik suala cavab verməyib, amma deyib ki, azərbaycanlılara bu münasibət Mexlisin təhrikiylə olur.

Bağırov Mexlisi ana söyüşüylə söyüb, sonra telefonu götürüb kiməsə Moskvaya zəng edib. «Yəqin ki, Stalin ola bilməzdi, çünki çox ötkəm danışırdı, amma mənim dediklərimi daha da kəskinləşdirərək, birinin üstünə beşini qoyaraq bu məsələni kiməsə, güman ki, məsul bir şəxsə çatdırırdı».

Bağırovun bu məsələyə bu qədər həssas və ciddi yanaşmasının şübhəsiz, öz səbəbləri vardı. Müharibə illərində Azərbaycanın başı üstündə qılınc kimi asılmış təhlükə yalnız alman faşizminin kabusu deyildi, eyni zamanda Stalinin başqa müsəlman Qafqaz xalqlarının və Krım tatarlarınm başına gətirdiyi faciənin, öz yerindən-yurdundan kütləvi sürgün olunmağın vahiməsi idi. Doğrudur, azərbaycanlılar sayca daha böyük xalq idi, amma nıilyonlarla insanı güllələyən, Sibir şaxtalarında məhv edən Stalin sistemiyçün sayın nə əhəmiyyəti vardı? Azərbaycanlıların guya döyüşə bilməməsi və daha pis, fərariliyi, xəyanətkar mövqeyi haqqında şayiələr belə bir

təhlükənin real olduğuna dəlalət edir. Ola bilsin ki, bu işdə Azərbaycan torpaqlarına çoxdan tamah salmış və bu gün də iştahları dişlərinin altında qalmış bədnam qonşularımızın da barmağı varmış. Mir Cəfər Bağırov bu təhlükəni hamıdan artıq duyur və əlbəttə, yalnız xalqını deyil, öz başını da qoruyub saxlamağa çalışırdı. Azərbaycanlıların sürgün olunması haqqında qərar qəbul olunsaydı, təbii ki, Bağırov birinci güllələnəcəkdi (Bunu on il sonra icra etdilər).

Əlbəttə, bu günün gözüylə baxanda bu təhlükə qeyri-real da görünə bilər, ona görə ki, çox şükür, həyata keçmədi, amma o günlər bunun ciddiliyini nəzərdən qaçırmaq olmazdı.

Bu günün gözüylə müharibə illərinə baxanda iki məqam diqqəti çəkir. Azərbaycanlıların cəsarətsizliyi, rəşadətsizliyi haqqında o vaxtkı şayiələr nə qədər böhtan və yalan idisə, onların döyüşdə səriştəsizliyi, hərbi təlimdə naşılığı haqqında deyilənlərdə müəyyən həqiqət vardı. Bunu atam da danışırdı. O vaxt, müharibə illərində bunu yalnız ailə söhbətlərində deyirdi, çünki o vaxt bunu açıb-ağartmaq olmazdı. Müharibədən iyirmi beş-otuz il sonra isə bu fikri bəzi şeirlərində də ifadə etdi. 1967-ci ildə «Babamın səhvi» şeirində yazırdı:

Babam, saqqalı ağ,
qaşları qalın, enli alın
bir kişiydi.
Namaz qılıb gündə beş rükət
deyərdi - Nağalayın atasına rəhməl!
Bizdən saldat aparmadı,
Govur olsa da,
behiştlik çəkilsin adı...
Ağır oturdu bizə bu «mərhəmət»
Böyük Vətən davasında,
daha yaxşı anladıq bunu,
Nikolayın bizə olan «qayğısını».
Çıxdıq amansız düşmənə qarşı
əlimiz müasir silaha öyrənməmiş,

şüurumuz böyük davada naşı.
Yadıma düşür,
dərdli Krım.
Yadıma düşür,
yelmiş tikəsini bir qutuya yığdığımız
qarayağız əsgərin
anasına yazdığı yarımçıq məktubu,
onun ucu belə sınmamış
təzə karandaşı.
Yadıma düşür,
sərxoş bir kapralın
könlümə vurduğu şillə - «yeldaşı!»
Bəli, çox yaralandıq, öldük.
Gün oldu tut kimi tökküldük.
Demirəm hamıdan artıq verdik qurbanı
Ancaq
dənəylə sanamazlar insanı.
Xatırladım babamı,
çünki yaxşı öyrənsəydi,
müasir silaha əlimiz
daha az qurban verərdik,
daha artıq düşmən anası ağladardıq.
Axı çox yerdə,
silahla yarılacaq cəbhəni sinəmizlə yardıq.
Döyüşə bələd düşmən,
bir yaylımda sərdi yerə,
bölüyümüzün neçə səfini.
Qanımızla yumalı olduq,
yazıq sadəlövh babamın
tarixi səhvini.

Müharibəylə bağlı başqa bir məsələ də hərdən-birdən gündəmə gəlir. Azərbaycanlılar Rusiyayla Almaniyanın apardığı bu müharibədə nə qazandılar? Qəribədir ki, indi qaldırılan bu məsələyə hələ o dövrdə, «Vəfa» pyesində də toxunulur.

Əsərin baş qəhrəmanı kapitan Bahadırdır. Əvvəla, alman əsirliyində olmuş bir zabitin baş müsbət qəhrəman kimi seçilməsi maraqlıdır (Bu gün biz sual verə bilərik: - müharibə qurtaran kimi Bahadır da, neçə-neçə başqaları kimi, lap elə Rəsul Rzanın əmisi oğlu, Ənvər Məmmədxanlının kiçik qardaşı Niyazi kimi Sibirə göndərilməyəcəkdimi?).

«Vəfa» pyesində alman dilini bilən Bahadır faşist zindanında alman zabitiylə tarixi-fəlsəfi mübahisəyə girişir. Bu fikirlər, əqidələr toqquşmasında dərin məqamlar da var, sadəlövh mülahizələr də. Amma alman zabitinin diliylə söylənmiş bir fikir bayaq toxunduğum mətləb sarıdan çox əlamətdardır. Alman mayoru Bahadıra müraciətlə deyir:

-Siz ağıllı adamsınız, kapitan. Mənim sizə heyfim gəlir. Bu dava böyük millətlər arasında gedən amansız mübarizədir. Siz azərbaycanlılar kimi kiçik bir millət bu davada nə qazana bilər? *Siz qolunu daha bərk bağlamaq üçün zəncir hazırlayan bir qula bənzəyirsiniz* (kursiv mənimdir - A.).

Bu sözlər düşmən ağzıyla deyilsə də, 43-cü ildə Bakıda Azərbaycan səhnəsindən səslənirdi. Bu sözlərə Bahadır belə cavab veir:

Millətin böyüklüyü sayında deyil, cənab mayor. Ali irq dediyiniz siz almanların babaları vəhşi dəstələrlə basqın edib Roma mədəniyyətini dağıdanda kiçik millət dediyiniz azərbaycanlılar sənət sarayları yaradırdılar.

Təbii ki, 43-cü ildə gestapo zindanında sovet zabiti bu patriotik sözləri çətin deyəydi. Amma məsələ bunda deyil. Məni maraqlandıran başqa cəhətdir. Rəsul Rza doğrudan da bu mükaliməylə elə bir mətləbə toxunur ki, onun əks-sədası bizim günlərə qədər beyinləri qurcalayır, bəzən əks-səda o vaxtkı sədanın özündən də gur səslənir. Hələ də bəsit düşüncəli adamlar tərəfindən belə fikirlər ortaya atılır ki, azərbaycanlıların bu müharibədə iştirakı ancaq məcburi və lazımsız bir iş idi. Onlar əsarətində olduqları bir imperiyanı canları, qanları bahasına müdafiə etməyə zorlanmışdılar və bu müharibədə hərbi şücaət heç bir azərbaycanlıya şan-şöhrət gətirmir. Bu cür

fikirlər nəinki böyük vətən müharibəsində həlak olanların ruhunu və ümumiyyətlə, bütün iştirakçılarını amansızcasına təhqir cdir, mahiyyəti etibarilə də, tamamilə yanlışdır.

43-cü ildə «Vəfa» pyesində alman zabitinin, bizim günlərdə isə bəzi Azərbaycan siyasətçilərinin qoyduğu bu sualın: - Azərbaycan bu müharibədə nə qazana bilərdi? Sualının bircə cavabı var: «Bir şey qazana bilməsə də, çox şey itirə bilərdi». Yəni böyük millətlər arasında gedən bu müharibədə almanlar zəfər çalsaydı Azərbaycan xalqının faşist rejimində aqibəti sovet rejimindəki vəziyyətindən min pay dəhşətli olardı. Kommunist ideolojisi saysız təhriflər nəticəsində karikatur şəkil alsa da, onun mayasında bir beynəlmiləlçilik düşüncəsi vardı. Başqa respublikalar kimi Azərbaycan xalqının da sırf dekorativ şəkildə olsa belə öz dövlət strukturları və atributları, ən önəmlisi isə öz mədəniyyətini yaşatmaq, ana dilini qoruyub saxlamaq imkanı vardı. Almanları ali irq sayan faşist ideolojisi isə bütün başqa millətləri yalnız işçi qüvvəsi hesab edirdi. Buna əmin olmaq üçün Hitlerin «Mayn kamf» («Mənim mübarizəm») kitabını oxumaq yetər. Almanlar SSRİ-ni yensəydilər, Azərbaycanda hər hansı dövlətçiliyin, milli mədəniyyətin rüşeymlərindən belə əsər-əlamət qalmayacaqdı. Ümumiyyətlə, bir xalq kimi öz torpaqlarımızda qalıb yaşaya bilməyəcəkdik. Belə cənnət guşəsini «ali irq» başqasına qıyardımı? Qaçıb canını qurtaranlar Türkiyəyə, İrana gedəcəkdi (Əgər almanlar gec-tez bu ölkələri də fəth etməsəydi). Amma bütün xalq qaçıb gedə bilməz axı... Deməli, ya öz torpaqlarımızda qul olacaqdıq, ya da o vaxt faşistlərin əlinə keçmiş Sibirə bu dəfə artıq alman vaqonlarında və SS güdücülərinin nəzarəti altında sürgün ediləcəkdik. Müharibədə alman faşizmi qələbə çalsaydı xalqımızın perspektivi bu idi. Guya ki, almanların vasitəsiylə Azərbaycanın müstəqillik qazanacağı haqqında xülyalar ancaq boş xülyadan qeyri bir şey deyildi. Bunu böyük siyasi xadimimiz Məmməd Əmin Rəsulzadəyə Hitlerin məmurları açıq-aydın demişdilər. Bəlkə də, bu müharibədə qazancımız yoxdu, amma itkimiz çox böyük ola bilərdi. Odur ki, ədalət naminə

bilməliyik ki, bu müharibədə Azərbaycan döyüşçüləri öz milli dövlətləri uğrunda olmasa da, öz xalqlarınm milli varlığı, bir millət kimi qalması yolunda vuruşur və həlak olurdular.

Tarixi perspektivdə onlar da millət şəhidləridir və Cənab Allah bu şəhidlərimizə də rəhnıət etsin!

Əsas mətləbdən bir az aralı düşdüm, amma zənnimcə bu haşiyə Rəsul Rzanın və başqa şairlərimizin, yazıçılarımızın müharibə dövrü yaradıcılığına düzgün, obyektiv qiymət vermək baxımından əhəmiyyətlidir.

***

«Qobustan» toplusunda işləyərkən atamdan xahiş elədim ki, kino sahəsində çalışdığı illər haqqında xatirələrini yazsın. «O gün-bu gün» adlı kiçik bir yazı yazdı. Yazıda o dövrü yada salırdı:

«Krım cəbhəsindən yenicə qayıtmışdım. Məni Mərkəzi Komitəyə çağırdılar. Bakı kinostudiyasına direktorluq vəzifəsinə məsləhət gördülər. Studiya çox ağır halda idi. Milli kadrlar az idi, texniki və başqa avadanlıq çox az və köhnə idi. Təklifi qəbul etməkdə tərəddüd göstərirdim. Lakin bir qədər götür-qoydan sonra razılaşdım. Ölkənin ağır müharibə günlərində işdən boyun qaçırmaq olmazdı. Studiyanın işləri ilə ilk tanışlıq açıq-aydın göstərdi ki, vəziyyət mən bildiyim və eşitdiyimdən daha ağırdır... Təkcə bir film çəkiliş pavilyonu, əllə işləyən, həftədə beş gün təmirə dayanan aşkarlama laboratoriyası, bir yük maşını, iki-üç film çəkmə aparatı, «Nuhdan qalma» dörd-beş projektor var idi. Kino kadrlarından neçəsi, rejissor, operator, səs operatoru, texniki işçilər Vətən müharibəsi cəbhələrində, sovet döyüşçüləri sırasında idi. Milli ssenarist kadrları az, təcrübəsiz gənc idilər. Çəkilməsi planlaşdırılmış filmlərin ssenarisini respublikadan kənara sifariş verməli olurduq».

Rəsul Rzanın kinostudiyada ilk işi milli kadrlaıı cəbhədən geri qaytarmaq və ixtisasları üzrə öz sahələrində çahşdırmaq oldu. Qısa müddətdə cəbhə və arxa həyatına aid sənədli

lentlər yaradırdı, müharibədən sonrakı ilk illərdə isə Azərbaycan kino işçiləri alman faşistlərinin işğal etdikləri ərazilərdə törətdikləri cinayətləri əks etdirən kadrlar çəkdilər. Bu kadrlar Nürnberq məhkəməsində də nümayiş etdirilib və alman-faşist cinayətlərini tədqiq edən komissiyanın sədri, məşhur yazıçı Aleksey Tolstoy bu işə görə Azərbaycan kinematoqrafçılarına təşəkkür məktubu göndərib.

1942-ci ildən 44-cü ilə qədər kinostudiyanın müdiri vəzifəsində çalışan Rəsul Rza 1944-cü ildə Kinematoqrafiya üzrə Komitə təşkil etdiklikdə onun sodri, 1946-ci ildə həmin Komitə Nazirlik statusu alanda Azərbaycanın ilk kino naziri oldu və 1949-cu ilə qədər kinomuza rəhbərlik etdi. Bu dövrdə SSRİ-də çox az miqdarda film çokilməsinə rəğmən Bakı kinostudiyasında «Sualtı qayıq T9», «Bir ailə», «Bakının işıqları», «Fətəli xan», «Arşın mal alan» filmləri çəkildi.

Texniki bazanın zəifliyi və kadr qıtlığından başqa Rəsul Rzanın bu illər rastlaşdığı bir çətinlik də Moskvadakı Mərkəzi nazirlikdəki məmurlarla və ilk növbədə SSRİ Kinematoqrafiya naziri Bolşakovla gərgin münasibətlərin yaranması idi. Moskvada keçirilən müşavirələrin birində hətta Bakı kinostudiyasını bağlamaq və onun işini Tbilisi kinostudiyasının bazasında aparmaq təklif olunmuşdu. Təbii ki, Rəsul Rza buna qəti şəkildə etiraz etmiş və studiyamızı qoruyub saxlaya bilmişdi. Həmin müşavirədəki çıxışında deyirdi:

«Bir dəqiqəlik təsəvvür edək ki, yoldaş Levinsonun layihəsi həyata keçib. Onda belə bir mənzərənin şahidi olardıq. Deyək ki, «Fətəli xan» filminin çəkilişi üçün Tbilisiyə respublikanın azı 20 ən yaxşı aktyoru, 10-15 nəfərlik rejissor, operator, assistent heyəti gətizdirilir. Deməli, Bakı teatrları 3 aylığa bağlanır, respublikada teatr həyatı dayanır. Görünür, yoldaş Levinson və onunla həmrəy olub bu tribunadan çıxış edənlər başa düşmürlər, yaxud, başa düşmək istəmirlər ki, milli respublikalarda kinostudiyaların olması təsərrüfat faktı olmaqdan daha artıq siyasi faktdır. Uzun və ehtiraslı danışan rejissor Savçenko bugunkü iclasda ən mühüm problemlərdən

biri kimi yalnız bir ifadəni nəzərə çarpdırdı. Bu ifadənin də mənası ən azı Azərbaycan kinematoqrafiyasını açıq-aşkar ləğv etmək çağırışından ibarətdir. Həmin bu Savçenko yoldaş çıxışının sonunda belə bir ifadə işlətdi ki, guya «kinoaparatın milli mənsubiyyəti yoxdur. Əgər azərbaycanlı yoldaşlar filmlərini Tbilisidə çəksələr, bu, çox yaxşıdır».

Azərbaycanda, yaxud hər hansı bir müttəfiq respublikada incəsənətin bu növünü ləğv etmək məsələsini qoymaq olarmı? Əlbəttə, yox. Yoldaş Savçenkonun «kinoaparatın milli mənsubiyyəti yoxdur» fikrinə gəlincə, ona xatırlatmalıyam ki, kinoaparatla kinoaparat yox, sırf milli formaya və sosialist məzmuna malik film çəkirlər. Elə bir film ki, milli təravətin bütün gözəlliklərini əks etdirir, iştirakçılarının müəyyən milli mənsubiyyəti, özünəməxsus milli xüsusiyyətləri, öz milli koloriti olur.»

Kinoşünas Aydın Kazımov «Rəsul Rza və Azərbaycan kinosu» adlı məqaləsində («Qobustan» toplusu, 2000) gətirdiyi akt da maraqlıdır:

«Sənədli kino rejissoru S.Bədəlov danışırdı ki, Rəsul Rza naşir olduğu illərdə bir gün növbəti kollegiya iclası təzəcə başlamışdı ki, Moskvadan gəlmiş nazirliyin rəhbər işçilərindən biri icazəsiz-filansız keçib zalda oturdu. Bunu görən Rəsul Rza iclası saxlayıb qonağa müraciətlə dedi: «Mən sizi iclasa dəvət eləməmişəm. Xahiş edirəm gedin, iclasdan sonra görüşərik». Qonaq nazirin sözlərinə əhəmiyyət verməyərək: «Narahat olmayın, siz iclasınızı davam etdirin,» - deyə cavab verdi. Nazir dediklərini bir də təkrar etdi. Qonaq da dediyindən dönmədi. Bunu görən Rəsul Rza kollegiya iclasını bağlı elan etdi. Və üzünü qonağa tutub ciddi şəkildə: - «Gedin, mən sizi qəbul saatlarımda gözləyəcəyəm» - dedi.

Nazirimizin özündənrazı qonağa bu cür dərs verməyi hamımızı heyrətləndirdi və razı saldı. Fikirləşdik ki, yalnız Rəsul Rza kimi qətiyyətli adamlar belə hərəkət edə bilərlər. Sonra eşitdik ki, Rəsul müəllim özü M.C.Bağırova zəng vurub

əhvalatı olduğu kimi ona danışıb. Respublikanın rəhbəri isə ona «yaxşı eləmisən» deyibmiş».

Moskvadakı müşavirələrin birində məsul partiya işçisi Ponomarenko (sonralar o Sov.İKP MK katibi və gərək ki, SSRİ Mədəniyyət naziri də oldu) «Fətəli xan» filmi haqqında riş-xəndlə danışanda, «görün iş nə yerə çatıb ki, Bakı studiyasında da «Azərbaycan torpaqlarını birləşdirən» feodal haqqında film çəkilir»,- deyəndə Rəsul Rza ona kəskin etirazını bildirib.

Amma Moskvayla ən böyük mübahisə «Arşın mal alan» filmi üstündə olub. Filmin müzakirəsində SSRİ kinematoq-rafiya naziri, onun müavinləri, bədii şura üzvləri, məşhur rus rejissorları iştirak edirmiş. İştirakçıların çoxu, o cümlədən təəssüf ki, Mixail Romm, Nikolay Oxlopokov kimi görkəmli sənətkarlar filmə qarşı kəsgin çıxışlar ediblər. «Bu filmi çəkməkdə nə məqsəd güdmüsünüz?», «Yəni demək istəyirsiniz ki, inqilabdan əvvəlki həyat ekrandakı kimi gözəl olub?», «Aktyorların başına brialin çəkib par-par panldatmaqla alverçi-ləri sovet adamlarına qarşı qoymaq istəyirsiniz?» kimi fikirlər səslənib, hətta hədə qorxu da gəliblər. Bədii şuranın üzvü olan bir general: «Bu filmdən Sibir iyi gəlir», - deyib.

Rəsul Rza üzünü həmin generala tutaraq: Bilmirəm sizə necə müraciət edim, - deyib, - vətəndaş deyim, cənab deyim, ya nə, bunu bilmirəm. Amma bir şeyi çox dəqiq bilirəm: yaxşı ki, siz kinematoqrafiyaya rəhbərlik eləmirsiniz.

Rəsul Rza da, filmin rejissoru Rza Təhmasib də bütün iradlara tutarlı cavablar verərək filmi müdafiə edə biliblər. Həmin müşavirədə böyük sənətkar Sergey Eyzenşteynlə tanış olublar.

Rəsul Rza xatırlayır:

«Bu dünya şöhrəti qazanmış rejissor-alim fasilə zamanı özü bizə yanaşdı, sadəcə əl uzatdı: «Azərbaycan nümayəndələri ilə tanış olaq», - dedi «Mən Eyzenşteynəm». Biz gülüşdük. «Tanıyırıq» dedik. Böyük sənətkar ayrı-ayrı xoşa gəlməyən çıxışların bizə təsir etdiyini, kefimizin pozulduğunu hiss etmişdi. «Narahat olmayın dedi, film yaxşı filmdir. Xalq onu

bəyənəcək, sevəcəkdir». Mənimlə xüdahafizləşəndə: «Mən sizi tanıyırdım, -dedi, - «şeirlərinizdən bəzilərini oxumuşam. Bu gün cavablarınız xoşuma gəldi. - Sakit, ironik». Bir qədər sükutdan sonra əlavə etdi: «Nigaran olmayın, film yaxşıdır. Sadəlik onun nöqsanı yox, dəyərli cəhətidir», - və təkrar etdi, - «xalq bu filmi bəyənəcək, sevəcəkdir».

S.Eyzenşteynin sözləri çin çıxdı. «Arşın mal alan» nə ondan əvvəl, nə ondan sonra heç bir Azərbaycan filminin qazanmadığı dərəcədə dünya şöhrəti qazandı, Üzeyir musiqisini də, istedadlı ifaçı Rəşid Behbudovu da müxtəlif ölkələrdə tanıtdırdı. Bu film Stalin mükafatına layiq görülmüş ilk və yeganə Azərbaycan filmidir və bunun əsas səbəbi «Arşın mal alan»ın Stalin tərəfindən bəyənilməsidir. Aydın Kazımov məqaləsində belə bir faktı da gətirir: Moskva kinematoqraf-çılarından biri sənətimizin veteranı Məmməd Əliliyə danışıb-mış ki, o vaxtki MK ideoloji katibi, sənətin qəddar cəlladı Jdanov da bu filmin tənqidçiləriylə həmrəy imiş. Lakin Stalin «Arşın mal alan»a baxarkən gülməkdən özünü saxlaya bilmirmiş və bunu görən Jdanov dərhal fikrini 180 dərəcə doyişir: «Mən yoldaşlara deyirdim ki, bu çox gözəl filmdir, əla kinokomediyadır».

Rəsul Rzanın fəaliyyətinin başqa sahələrində olduğu kimi kino işində də prinsipiallığı ona dərin hörmət qazandırmışdı. O vaxtlar operator, sonralar rejissor kimi çalışan Muxtar Dadaşov xatırlayır ki, çox illər sonra, 1967-də Moskvada Azərbaycan mədəniyyət günləri keçirilərkən Mosfilm studiyasında görüş zamanı «Şən uşaqlar», «Sirk», «VolqaVolqa» kimi məşhur kinokomediyaların müəllifi Qriqori Aleksandrov səhnəyə qalxdı, Azərbaycan nümayəndə heyətini ürəkdən təbrik etdi və çıxışının xeyli hissəsini Rəsul Rzaya həsr etdi. O, belə dedi: «Mən yaşıma və təcrübəmə görə çox rəhbərlər görmüşəm, çoxlarının rəhbərliyi altında işləmişəm, amma kino sahəsində bacarıqlı, mükəmməl yaradıcı rəhbər kimi məhz Rəsul Rzanı tanıyıram. Çox xoşbəxtəm ki, 1943-cü ildə Rəsul Rzanın rəhbərliyi altında Bakı kinostudiyasında işləmişəm və o günləri

həyatımın ən xoşbət günləri sayıram. Mən bu gün Rəsul Rzanın qarşısında baş əyir və ona öz minnətdarlığımı bildirirəm» (Muxtar Dadaşov. «Rəsul Rza və kinomuz», «İki ömrün işığı» kitabında).

Rəsul Rzanın kino sahəsində fəaliyyəti haqqında Muxtar Dadaşovdan başqa Tofiq Quliyevin, Məmməd Əlilinin xatirələrində də maraqlı faktlar çoxdur. M.Əlili şairin xeyirxahlığından, ən çətin dəqiqələrində ona yardım əlini uzatmasından danışır.

«... özünün mənə o qədər yaxşılığı dəymişdi ki, ömrümün axırınacan onların əvəzini çıxmaq mümkün deyil. Elə indi yaşadığım evi də mənə vaxtilə Rəsul düzəldib. Rəsul mənə həyatımın ən çətin, ən ümidsiz günlərində arxa olub, kömək olub. O vaxt Rəsul ensiklopediyada işləyirdi. Kinostudiyada bir nəfər məni salmışdı gözümçıxdıya. Məqsədi məni işdən çıxartmaq idi. Axırı mənə həm çətin, həm də maaşı çox kiçik olan bir iş verdi ki, özüm baş götürüb qaçım. Dörd nəfər ailə, şəhər yeri. Bir gün evdən çıxanda Kövkəb yoldaşım dedi ki, çörək al gətir. Evdə satılmalı nə vardısa satmışdıq. Cibimdə qara qəpiyim də yox idi. Daha cana doymuşdum, intihar eləmək istəyirdim. Qanıqara gedirdim, kitab pasajının yanında Rəsulla rastlaşdıq. Çox həssas adam idi Rəsul. Ürəyimi gözümdən oxudu. Çox təkid elədi, bütün əhvalatı açıb danışdım ona.

İki aydır bizdə makinaçı yeri boşdur, - dedi, - elə iki ay qabaqdan Kövkəb xanımın əmrini verərəm. Gəlsin bu gün iki aylıq maaşını alsın. Sonra da hər ay məvacibini alar. Sənin çün də bir şey fikirləşərik.

Çox sonralar bildim ki, iki aylıq maaş adı ilə verilən pulu Rəsul cibindən qoyubmuş».

Əlili atamla bağlı başqa bir epizodu da xatırlayır:

«Bir dəfə Rəsul hansı işlə əlaqədarsa məni evlərinə çağırmışdı. Özü xəstə idi, uzanmışdı. Elə oturub söhbət eləyirdik, telefon zəng çaldı. Vahid idi. Dedi ki, təzə kitabımı gətirmək istəyirəm, elə burada, aşağıda, kitab passajının

yanındayam. Rəsul dedi: «Əlili, keç kabinetə, orada siyirtmədə pul var, 500 manat götür, qoyarsan Vahidin cibinə. Özünə də de ki, cibindədir».

Vahid gedəndən sonra Rəsul soruşdu ki, pulu qoydunmu? Dedim: «Bəli, 300 manat qoydum cibinə». Dedi: «Axı sənə dedim ki, 500 manat ver. Lətifəsi səndən uzaq olsun, deyir: «ağanın malı gedər, nökərin canı çıxar». Məni əlavə xərcə saldın. Gərək indi əlavə 500 manat da verəm».

Rəsul, belə Rəsuldu». (Məmməd Əlili. «Mən Rəsula ömrüm boyu borcluyam». «İki Ömrün işığı» kitabında).

Mən isə M.Əlilinin xatirələrinə bunu əlavə etmək istəyirəm ki, ömrünün sonuna kimi bu dəyərli kino veteranı hər il atamın doğum və ölüm günündə onun məzarı başına gələr və ruhuna Yasin oxuyardı.

***

49-cu ildə Nazirlikdən gedəndən sonra da Rəsul Rza bir sıra kino işçiləriylə dostluq əlaqələrini davam etdirirdi. Kino sahəsində xətrini çox istədiyi insanlardan biri Lətif Səfərov idi.

Lətifin intiharı atamı sarsıtmışdı və bu faciəvi ölümə «Rekviyem» adlı şeir həsr etmişdi.

Lətif yetimliklə böyümüşdü. Müharibə illərində Moskvada kino institutunda oxuyanda da ehtiyac içində yaşayırdı. Vərəm xəstəliyi vardı. Soyuq Moskva qışında vağzala, atamı Bakıya ötürməyə gəlibmiş. Əyni yuxa, əsim-əsim əsirmiş. Rəsul Rza öz yun gürkünü çıxarıb Lətifə verib. Yadımdadır, Lətif həmişə atama «Rəsul Rza» yox, «Rəsul Ruzu» deyərdi.

Lətif intihar edəndə atam Bakıda yoxdu. Son görüşləri haqqında «Rekviyem»də sadə və səmimi sətirlər var:

«Bir gün,
adi günlərdən biri,
Söhbətimiz çatanda sona,
Sən evə yollandın,
Mən Hindistana».

Lətif intiharı da mərd kişi kimi, cəngavər kimi etmişdi. Evə gələn son qonaqların yanında həyat yoldaşı, məşhur müğənnimiz Şövkət Ələkbərovayla xüsusi diqqət və mehribanlıqla davranırmış ki, sonralar kimsə ailə narazılığı sarıdan heç bir şübhəyə düşməsin:

«Getdin,
Nə kimsəni incidib,
nə kimsədən inciyib.
Şikayətini eşidən olmadı,
dostlardan, tanışlardan,
nə böyüyü, nə kiçiyi...»

Lətif Səfərov vida məktubunda da ölümündə heç kəsi günahlandırmamağı xahiş edibmiş.

Amma günahkar tapıldı. Lətif Səfərov özü. Sovet cəmiyyətinin eybəcər əxlaqına görə öz canına qəsd eləyən insan Quruluş qarşısında günahkar sayılırdı. Necə ola bilər ki, belə gözəl həyatdan imtina edir, bu nəyə etirazdır Partiyaya, sovet hökumətinə, kommunist ideolojisinə? Və Sovet dövləti belə «günahkarları» ölümündən sonra da cəzalandırmağı bacırırdı. Nə onların xidmətlərinə yaraşan vida yazısı, nə fəxri xiyabanda yer - bütün bunlar intihar edənlərçün yasaqdı.

«Nə adın düşdü
qara çərçivəyə qəzetlərdə,
nə elan,
nə nekroloq.
Ağız büzənlər də oldu,
qaş çatanlar da, çiyin çəkənlər də.
«Nahaq « deyənlər də,
«Çox nahaq, çox!»
Soruşan gərək,
nə haqla

soxulursunuz araya,
bu «nahaqnahaqla?»
Məgər qəlbinin
dərdqrammasını oxumuşdunuz?
Kim ölçmüşdü fikirlərinin
ağırlığını.
Nə gərəkdir indi əllamələk,
qəhmərlik, məzəmmət.
nə gərəkdir doğruya bənzəyən
yalanlar.
Nə haqla gedənləri
Darayır qalanlar?

«Rekviyenı»də Lətifin bir şəxsiyyət və sənətkar kimi «yerində qalan boşluqdan» doğan dərin bir nisgil var:

«Yoxluğunla bitmədi sənət,
bitməyəcək.
Yaradacaqlar,
bəlkə, səndən yaxşı,
bəlkə, pis.
Lakin sən yarada biləcəyin
yaranmayacaq sənsiz».

***

Rəsul Rzanın Azərbaycan kinosuna rəhbərlik etdiyi illərdə gördüyü mühüm işlərdən biri də kinotetrların adlarının dəyişdirilməsi oldu. Məhz onun təşəbbüsü və təklifiylə «Художественный» kino-teatrı «Nizami», «Вакkомуна»-«Bakı», «Заря Востока» «Azərbaycan», «Пролетари»-«Vətən», «Спартак»-»Araz», «Темп»- «Bahar» adlandırıldı.

Bir neçə kino termini də təklif etmişdi və özü işlədirdi: «kadraşırı», «aşkarlama» (proyavka), «örtüm» (naplıv), «calama» (montaj).

***

Rəsul Rza yarımçıq, bitirilməmiş olsa da, Moskvada kino təhsili almışdı. Gəncliyində kinostudiyada ssenari şöbəsinin müdiri işləmişdi, sonralar isə, deyildiyi kimi, yeddi il kino sahəsinə rəhbərlik etmişdi. Amma onun «Qız qalası» poeması əsasında Vaqif Behbudovun 70-ci illərdə çəkdiyi cizgi filmi nəzərə ahnmasa, ekranda heç bir izi qalmayıb.

Buna baxmayaraq, kino sahəsində işi poeziyasına müəyyən təsir göstərib. «İkinci nəfəs» adlı məqaləsində Nazim Hikmət yazır: «Mənə elə gəlir ki, Rəsulun bir neçə il Azərbaycan kinematoqrafiya naziri işləməsi də onun yaradıcılıq uğurlarına müsbət təsir göstərmişdir. Kino incəsənətin ən gənc, həyatla canlı təmasda olmaqla həmişə təzələnən növüdür və onunla təmasda olmaq, məncə, şair Rəsul Rzanın novatorluğuna zəmin yaratdı» («İki ömrün işığı» kitabı).

Həqiqətən də, Rəsul Rzanın poeziyasındakı konkretlik, əyanilik, detalların, ayrıntıların görümlü təsviri, bəlkə, də kinonun təsirindən gəlir. Şeirlərinə bu baxımdan yanaşdıqda kinoyla başqa bənzərliklər də sezilir. Məsələn, bəzi şeirlərində müəyyən məkanların təsviri sanki kinokameranın çox uca bir nöqtədən, az qala kosmosdan çəkdiyi mənzərəni andırır:

«Qanadlarını gərib,
dalğalı Xəzərə qonmaq istəyən
Nəhəng bir quş kimi görünür Azərbaycan.
Bir şahindir,
Dimdiyi göy sularda,
Qanadları göylərdə...»

Azərbaycan nə siyasi-inzibati, nə də fiziki xəritələrində belə görünmür, amma ölkəmizin Kosmosdan çəkilmiş şəkli də var və bu şəkildə Azərbaycanın konturları eynilə Rəsul Rzanın şeirində olduğu kimi nəhəng bir quşu andırır, dimdiyi - Abşeron yarımadası göy sularda.

Belə bir kosmik kino-baxış Türkiyənin Asiya sahilində, Avropayla qabaq-qənşər Qanlıca adlı yeri təsvir edən şeirində də var:

Qanlıca bir dağ ətəyindədir,
Sakit okeandan bəri uzanan
Asiyanın qurtaran yerində.
Elə bil ki, qocaman bir qitə
uzadıb boynunu,
su içir Bosfordan.

Kinoçəkiliş texnikasında transfakasiya deyilən bir üsul var: aparat hər hansı məkanın ümumi mənzərəsini çox uzaq bir nöqtədən götürür, sonra onu getdikcə yaxınlaşdırır, ta ən iri planacan. «Bolqarıstan! Bolqarıstan!» şeirinin başlanğıcı sanki məhz bu üsulla yazılmış «çəkilmişdir»:

«Qara dəniz qapqaradır,
adının oyatdığı təsəvvürdən qara.
Qəzəbini boğmuş adam kimi qara.
Dalğalar söykənib buludlara.
...O tayda sən və siz,
arada acıqlı Qara dəniz.
...Sonra sahillərin dolaşıq yaraşığı,
dumanlı dağlar,
Kürün gümüş kəməri...
Sonra Mirzə Fətəlinin, Cəlilin Tiflisi
küçələrində Mingəçevir işığı.
Sonra Rustavi!
Yanıb-yanıb poladlaşan
Daşkəsən filizi.
Evlərdə Qaradağlı yaşıl alov,
Sonra dağlar arasında
nəhəng bir çalov.
Sol yanda

Bozdağın sinəsində durulmuş
Kürün ləngəri,
Sağ yanda
Koroğlu qalası,
dəlilər səngəri.
Sonra sağı Gəncəbasar, Qarabağ,
solu Ərəş, Şirvan,
Qafqazın qoynunda Azərbaycan.
Sonra mavi Xəzər,
Doğma qumlu sahillər,
Gəncliyimin şəhəri.
Bu şəhərdə bir ev.
Ömrümüzün çoxunu qoynunda
keçirdiyimiz
insan yuvası,
Pəncərələri bağlı.
Sənsiz,
Mənsiz,
Balalarımsız.
Sonra Abşeronu cənubdan şimala bölən
bir yol.
Sahilə yaxın meynəlik.
Və... gözlərin...»

Bu parçanın məzmununa - Gürcüstan şəhərlərini təmin edən Azərbaycan enerjisi, işığı, fılizi, qazı məsələsinə toxunmadan onun formasına diqqəti çəkmək istəyirəm. Çox uzaq, kosmik nöqtədən alınmış bir mənzərə. Qara Dənizlə Xəzər arasındaki ərazi qoynunda Azərbaycan olan Qafqaz...Sanki kinokamera transfakasiya çəkiliş üsuluyla bizi bu əraziyə yaxınlaşdırır, yaxınlaşdırır, Bakıda bir evi, onun qapalı pəncərəsini görürük. Sonra yaxınlaşdıra-yaxınlaşdıra kamera Abşeron yoluyla meynəliklərə tərəf hərəkət edir və sevimli insanın gözlərini iri planda göstərir.

Bəzi başqa şeirlərində kinoya xas olan paralel montajdan istifadə edir. Əgər «Uzaqlarda, yaxınlarda» şeirində paralel montajla iki məkan Bakı və Hindistan mənzərələri göstərilirsə, «Hələ bu harasıdır» şeirində yalnız iki müxtəlif məkan deyil, həm də iki müxtəlif zaman paralel montaj edilir. Müstəmləkə Afrika ölkəsi şairin yaddaşında öz uşaqlıq illərini, öz ölkəsinin də müstəmləkə olduğu illəri canlandırır və kadraşırı biz gah müasir Afrikanı, gah əsrin əvvəlindəki Azərbaycanı, Göyçayı görürük.

«Ömürdən səhifələr»də montajın daha mürəkkəb formasından, assosiativ montaj üsulundan istifadə olunmuşdur. Assosiatsiyalar, anımlar zənciri şairin xəyalında ömrünün müxtəlif dövrləri, məqamlarıyla bağlı fikirləri, xatirələri oyadır. Parisdə, Per-Laşez qəbiristanlığında Azərbaycanın neçə-neçə bölgəsini və xüsusi amansızlıqla Naxçıvanı qana bələyən qəddar quldur Andronikin at belində məzarüstü heykəlini görəndə xəyalında Vətəninin müsibətli günləri canlanır.

«...Per-Laşez!
Kommunarlar divarı,
Hörmətlə açıram başımı,
Salamlayıram 26-ların
neçə böyük qardaşını.
Bəs o kimdir at üstündə,
özündən razı?
Kimə oxşayır, allah, kimə?
Elə bil ki, qaba əl toxunur
incə simə.
Gözlərimdə canlanır Naxçıvanın Arazı,
Söndürülmüş ocaqlar,
Əbədi susdurulmuş uşaqlar,
Qanlı üzlər keçir gözlərimdən
min-min, azı.
Bağırmaq istəyirəm,

hardan gəldi bura
bu dələduz!
Daşa dönmüş daş ürəkli quduz!»

60-cı illərin əvvəllərində yazılmış bu şeirdə ifadə olunmuş mətləbi o vaxt Azərbaycanda neçə adamın anlayıb anlamadığını deyə bilmərəm, amma şeir çap olunan kimi Ermənistanda onun ünvanını dəqiq dərk etmişdilər və Moskvaya Rəsul Rzanı millətçilikdə ittiham edən neçə-neçə donos göndərilmişdi.

***

Rəsul Rzanın Kinematoqrafiya naziri olduğu illərdə gördüyü mühüm işlərdən biri də Cənubi Azərbaycanın milli azadlıq hərəkatını əks etdirən sənədli «Arazın o tayında» filminin çəkilişi idi. Azərbaycan kino işçiləri İsmayıl Əfəndiyev, Muxtar Dadaşov və başqaları tərəfindən lentə alınmış sənədli kadrları sonra Bakıya dəvət olunmuş məşhur kinorejissor Esfir Şub montaj etmişdi. Rəsul Rza xatırlayır:

«Arazın o tayında» filmi ağır müharibə illərinin real aynası, cənubda yaşayan Azərbaycan xalqının iztirab, dözüm, ümid və sevincinin inandırıcı epizodlarla əks edən bir sənəd oldu. Yadımdadır, filmin ictimai baxışlarından birində yazıçı Aleksandr Fadeyev də işlirak edirdi. Kino nazirliyinin kiçik baxış salonundakı ekranda kadrlar bir-birini əvəz edirdi. Ekran işıqlandı, tamaşaya gəlmiş adamlar ağır-ağır yerlərindən qalxdılar, Aleksandr Fadeyev hərəkətsiz oturmuşdu. O, ağlayırdı, səssiz, sakit ağlayırdı. Yanaqlarından süzülən göz yaşlarını silmək, heç kəsdən gizlətmək istəmirdi. Esfir Şub ona yanaşdı. «Əzizim Saşa» sözlərini bitirə bilmədi, qəhərdən boğulurdu».

Bu filmin təsiri ilə Rəsul Rza özü də bir şeir yazıb. Son vaxtlar tapılmış və əvvəllər çap olunmamış bu şeir belədir.

«Qardaşlar»

(«Arazın o tayında» filminə baxarkən)

Mən səni hər görəndə könlüm pərişan olur,
Sevincimin sarayı elə bil viran olur...
Gəl, qəm yemə, qardaşım, xəzan keçər, yaz gələr,
Azadlığın yolunda min bir imtahan olur.

Sən qürbətdə deyilsən, bu azad el sənindir,
Bu baxçalar, bu bağlar öz doğma vətənindir.
Könlünə qəm çökəndə, səni həsrət üzəndə
Azad sazın telində «Qaragilə»ni dindir.
Yara vurub sinənə bilirəm, köhnə düşmən.
Gəzir zindan elini cəllad əlləri al qan.
Gecələr səhər olar, qışın baharı vardır.
Bir gün gələr yağıdan intiqamın alarsan.

Sorarsan cavabını axan məsum yaşların
O kədərli gözlərin, o çatılmış qaşların.
«İntiqam, qisas» deyə qoşularlar səsinə
İndi qolları bağlı, qəlbi kin qardaşların.

Üfüqlərdə yüksələr Səttarxanın bayrağı,
Azad bir cənnət olar babamızın torpağı.
Sənin iradəndədir, sənin əllərindədir,
Vələninin xoş günü, azadlığın sorağı.

(1947)

Bu filmin Cənubi Azərbaycan üçün, onun ziyalıları üçün nə dərəcədə böyük əhəmiyyətə malik olması barədə Xalq şairi Balaş Azəroğlu belə deyir:

«1946-cı ilin baharı idi. Təbrizə bahar gəlmişdi, əsl bahar, təbiətin baharı, cəmiyyətin baharı... Təbrizdə həyatın belə qaynar vaxtında Azərbaycanın kino naziri, şair Rəsul Rza

Təbrizə gəldi. Hörmətli naziri Milli hökumətin vəzirləri, mədəniyyət və ədəbiyyat xadimləri, Azərbaycanın Mədəni Əlaqə Cəmiyyətinin üzvləri qarşıladılar. Sabahısı gün onunla görüş Gülüstan bağının mədəniyyət salonunda oldu. Görüşü Azərbaycanın Mədəni Əlaqə Cəmiyyətinin sədri, qocaman şair Səffət açdı, belə dedi: Hörmətli qonağımız Azərbaycanın həm şimalında, həm cənubunda tanınan və sevilən bir şairdir. Sonra söz Rəsul Rzaya verildi. O, Azərbaycanın fəxri Təbriz şəhərini görmək arzusundan və bu gəlişindən necə məmnun olduğunu söyləyib axırda dedi: - Təbriz bizim üçün adi şəhər deyil, sözün əsl mənasında paytaxtdır. Mənim buraya gəlişimdə məqsəd tarixdə ad qoymuş bu şəhərin və cənublu qardaşlarımızın bugünkü həyatından sənədli film çəkməkdir. İstəyimiz budur ki, qoy gələcək nəsillərə atalarının, babalarının qəhrəmanlıq dolu həyatından bir yadigar qalsın. İnsanların bir zaman unuda biləcəklərini qoy olduğu kimi kino lentində saxlayaq. Sabah nəslimiz bizi unutqanlıq üstündə qınamasın.

Sonra məclis iştirakçılarının xahişi ilə şair iki şeir oxudu. Təbrizlilərin qulağı sərbəst şeirə alışmamışdı, «şeir» deyəndə hamı vəznli, qafiyəli əruzla yazılmış şeiri başa düşürdü. Hətta ilk vaxtlar Təbriz şairləri heca vəznində yazılmış şeiri də bəyənmirdilər. Mən Rəsul Rzanın şeirini dinləyərkən qəribə hisslər keçirirdim. Sonralar, yəni Bakıda sərbəst şeirlər yazmağa başlayanda hiss edirdim ki, onun bünövrə daşı mənim yaradıcılığımda iki böyük şairin təsiri ilə qoyulmuşdur» (B.Azəroğlu sərbəstlə yazan iki şair dedikdə Rəsul Rzadan başqa fars şairi Nima Yuşini də nəzərdə tutur -A.).

B.Azəroğlu sözünə davam edərək yazır:

«Rəsul Rza Təbrizə bu gəlişi ilə Cənubi Azərbaycanın tarixinə həmişə yaşayacaq «Arazın o tayında» kimi sənədli və tarixi bir əsər yadigar verdi. İndi, adam həmin kino lentinə tamaşa edəndə, gördüyü hadisələr insanda iftixar hissi oyadır, hiss edirəm ki, insan azad olanda nə qədər qüdrətli və cəsarətli olur. İndi təbrizlilər o günləri xatırlayanda tufanlı günlərdən qoruyub saxladıqları «Arazın o tayında» filminə baxır və

deyirlər: «Nə yaxşı ki, bu film yadigar qaldı... Allah sənə rəhmət eləsin, böyük şair Rəsul Rza»(«Ədəbiyyat qəzeti», 4 avqust 2000).

***

«Kürün suyu bulanıq süd kimi,
Arazın suyu qırmızı-sarı,
Axıb-axıb
burada qovuşur,
doğma, qədim torpağın
ayrı düşmüş balaları,
Əvvəlcə elə bil
uzun illər həsrətlisi kimi
bir-birinə baxırlar,
Bir yatağa girsələr də,
ayrı-ayrı axırlar.
Sonra həsrətli qollar
bir-birinə dolaşır
Qardaşlar qucaqlaşır.
İndi kim ayıra bilər onları!
İki güc birləşib qüdrət olub,
axın olub.
Uzaqlıq yaxın olub».

1961-ci ildə qələmə aldığı bu şeirin yazılma tarixçəsi yaxşı yadımdadır. Sabirabad rayonunda Kürlə Arazın qovuşduğu yeri görməyi çox arzulayırdım. Atamdan xahiş etdim ki, ora gedək, axı onun da indiyəcən bu yerə yolu düşməmişdi. Axşam tərəfi çayqovuşana gəldik və şeirdə təsvir olunduğu kimi iki çayın bir-birinə qovuşduqlarından sonra da bir müddət ayrı-ayrı rənglərdə axdığını, sanki bir məcrada iki ayrı çayın olduğunu təəccüblə seyr edirdik. Bu mənzərə atama xüsusi təsir etmişdi, yəqin ki, bunu bir rəmz kimi görürdü, az sonra yazdığı «Kür-Araz» şeirində də məhz bu «iki həsrətlinin» bir-

birinə qovuşması, «həsrətli qolların» bir-birinə dolaşması və Kürlə Arazın (hansı anlamdasa Şimalla Cənubun) birləşib qüdrət olması rəmz kimi mənalandırılır. Yadımdadır, atam o gün orada bir foto da çəkdi və iki çayın qovuşma yerini əks etdirən bu şəkil onun foto-albomunda verilib.

«Qəlbimizin cənubu» dediyi, «Təbrizim-mənsizim» deyə həsrətini çəkdiyi Güney Azərbaycan dərdi uzun ilər Rəsul Rzanın poeziyasının ən yanıqlı, ən ağrı-acılı mövzularından olub. Naxçıvanda Yazıçılar İttifaqının Plenumunda etdiyi məruzəsində Cənubla Şimalın vəhdətini əzəmətli bir təşbehlə ifadə edir:

«Bu sahilləri bir-birindən ayıran Araz ancaq torpağın üstündə bir sərhəd zolağı yaratmış, bir ayrılıq, həsrət xətti çəkmişdir. Çağlayıb gedən bu suların altında isə heç bir zaman ayrılmayan vahid bir torpaq, bir kök vardır. Tarixin ədalətsiz hökmü ilə bir-birindən ayrı salınmış qardaşların alın təri ilə becərilən, onlar üçün ana kimi əziz olan, onlara bərəkət və nemət verən bu torpağın dərin qatları heç bir zaman bir-birindən ayrılmamışdır».

40-cı illərin birinci yarısında Qüzey Azərbaycan ədəbiyyatında Cənub mövzusunda yazılmış ilk əsərlərdən olan «Hilal» poemasından, Ərk qalasının şəhid olmuş müdafiəçilərinə həsr etdiyi şeirdən ömrünün ən son illərində yaratdığı «Yaralı Kərkükün bugünlü xoyrat və maniləri»nə qədər bir sıra əsərində Rəsul Rza Arazın o tayındakı vətənimiz haqqında gah qürur və inamla, gah kədər və ümidsizliklə söz açır.

Təbrizin yolları oyum-oyumdur,
Yanıq dağdan qalxan duman olaydım.
Dərdli könüllərdə ümid olmasam,
Heç olmasa zəif güman olaydım.

(1959)

İraqa səfər etdikdən, orada dili-dilimizdən, şeiri şeirimizdən olan xalqın həyatıyla tanış olduqdan sonra Cənubi Azərbaycan nisgilinə özlərini «türkman» adlandıran İraq türklərinin

qayğıları da əlavə olunmuşdu. Hər iki tərəfdən türk qanı tökülən mənasız İran-İraq müharibəsi Rəsul Rzanı dərindən həyəcanlandırır və ağrıdırdı. İraq türklərinin xoyrat adlandırdıqları, birinci misrası kəsik olan şeir forması bizim bayatılarla ekizdir və Rəsul Rza İraq səfərindən sonra oranın zəngin folkloru haqqında «Uzaq ellərin yaxın töhfələri» adlı məqalə yazmışdı. İran-İraq müharibəsi başlayanda xoyrat biçimindən istifadə edərək həm Təbrizin, həm də Ərbilin, Kərkükün, Mosulun faciəsindən söz açır:

«Dənizə,
dolu düşdü dənizə,
Naməd əlin qurusun
necə qıydın Təbrizə.
Ərbilə,
yanğın düşdü Ərbilə,
Höcəti kəsmək olmaz,
Dava-dalaş, hərb ilə.

Ay buluddan göründü,
yenə gizlənər indi,
Göydən bir dəmir düşdü,
Bütün Kərkük diksindi.

Yandı Dədə Gurgur, Mosul,
Oda girdi bütün sağ-sol.
Qurban getdi neçə oğul,
Ağlama, gözəl ağlama».

Bu şeirlər 1980-ci ildə yazılıb, ancaq İran-İraq müharibəsinin əndişələrindən çox əvvəllərdən başlayaraq, qırx ilə qədər bir müddətdə Rəsul Rza Təbrizdən əbədi ayrılığının xiffətini çəkib və müxtəlif yazılarında bu duyğularını ifadə edib. Cənubi Azərbaycanın 45-ci ilin 21 Azər fərəhi də, 46-cı ilin yenə də 21 Azər faciəsi də Şimali Azərbaycan ziyalılarının gözləri

qarşısında baş verən hadisələr idi. Sovet rəhbərliyinin çox illər sonra Əfqanıstan avantürasında işlətdiyi siyasi oyun 40-cı illərdə Cənubi Azərbaycanın başına açılmışdı. Böyük bir milləti yalançı vədlərlə inandırıb, həlledici məqamda arxasından çəkilmiş, onu azadlıq umsuğu etmişdilər. Mirzə İbrahimov danışırdı ki, gecə vaxtı qəflətən M.C.Bağırov onu yanına çağırıb. S.C.Pişəvəri və Azərbaycanın bir neçə rəhbbər işçisi də oradaymış. Bağırov: - Yoldaş Stalin telefon etmişdi, - deyib, məndən xəbər aldı: Sən sülh tərəfdarısan, ya müharibə? - Əlbəttə sülh, - dedim, Eləysə İrandan sovet qoşunlarını çıxarmaq lazımdır, - dedi.

Vəssəlam. Məsələ həll olunmuşdu. Stalin İranın o vaxtkı hökumət başçısı Qəvaməssəltənənin yalançı vədlərinə inanmış və Güney Azəıbaycanı bada vermişdi. Yadımdadır, atam: -Stalini Çerçil aldada bilmədi, Qavam aldatdı, - deyərdi.

Amma kim bilir, bəlkə, Stalin elə bu məsələdə aldanmaq istədiyi üçün aldanmışdı. Hər nə olur olsun, Sovet qoşunları İrandan çıxarıldı və bu aldanış, inkisari xəyal, xəyal qırıqlığı ovqatı Cənubun ictimai və milli şüurundan bu günə qədər silinib getməyib.

Rəsul Rzanın 1946-cı ildə Təbrizlə, Cənubla ayrılığa həsr etdiyi «Gözəl dost» adlı yazısı kədərli və həzin ağı kimi, mənsur şeir kimi səslənir:

«Biz səndən ayrılanda Yanıq dağın üstündə ildırımlar çaxırdı. Badam ağacları ağ paltarlarını yaşıl atlaz ilə əvəz etməmişdi. Gözəl dost, mən səni Təbrizin baharına tapşırdım. Mən səni dəstə-dəstə keçən fədailərin nəğməsini dinləyən gördüm. Sən dalğın idin. Bəlkə də bu, ayrılıq axşamının qəribliyindən doğan bir hiss idi. Gözəl dost! Biz bütün günü sənlə bərabər gəzdik. Təbrizin başı üzərində tarixin qaravulu kimi duran qalaya baxdıq. Sən gözlərini gözümə dikərək, nədənsə bir az ciddi, bir az şux əda ilə: «Siz ağlayana oxşamırsınız, siz daim gülürsünüz», dedin və gözlərinin yaşını sildin. Gözəl dost, mənim qəhqəhələrim arxasında gizlənən göz yaşlarımı görmədinmi. Mən ancaq səndən deyil, küçələrində

səhər nəğmələri səslənən yaşı qoca, qəlbi cavan Təbrizdən deyil, munis xatirələrimin yuvasından ayrıldım. Yadındadırmı, gözlərimə baxaraq, məndən soruşdun: Bir də görüşəcəyikmi? Mən cavab verdim: Gör Təbrizin nə gözəl baharı var. Qaranquşlar da yuvasına dönmüşlər. Gözəl dost, biz yenə görüşəcəyik. Aylar, illər, bizim mətanətimiz qabağında qocalsın. Eşqimizin qüdrəti tarixlərə misal olsun.

Mən səndən gülə-gülə ayrıldım. Mən bu ayrılığın əbədiyyətinə inansaydım, səndən ayrılmazdım».

Nə yazıq ki, bu yanıqlı sözlər elə söz olaraq qaldı, Rəsul Rza bir daha nə rəmzi Gözəl dostunu, nə də Güney Azərbaycanı görə bildi. Bundan sonra Təbrizi yalnız yuxularında gördü:

«Son zamanlar
səni tez-tez yuxuda görürəm, Təbrizim!
Yuxuma qəmli gəlirsən,
Hər gecə.
Suyun, çörəyin varmı?
Nəğmən necə?
Yenə «Qaragilə»dir,
yoxsa daha qəmlidir?
Göy məscid necədir?
Ərk qalası necə?
Hardan düşdü yadıma
anamın göynəkli bayatısı:
-Mən bütöv bir yuvaydım,
yel vurdu paralandım,
Mən səndən ayrılmazdım,
Zülümnən aralandım...»

Bu şeirdən təsirlənən Güney Azərbaycanın şairə qızı Mədinə Gülgün Rəsul Rzaya təsirli misralar həsr etmişdi:

«Söylədin yuxuma gəlir ara-bir,
Sənin Təbrizinlə Təbrizim mənim.

Dərdini ahəstə danışır, deyir
Sənsizim, sənsizim, sənsizim mənim.

Gəldi xatirimə «Didərginlər»in
Həsrətim də dərin, yaram da dərin.
Oxşadı könlümü o həzin şeirin,
Bildim sənsən doğmam, əzizim mənim.

Yandıqca olmusan elin ozanı,
Kədərin, sevincin ulduzlar sanı.
Unudan deyildir Rəsul Rzanı
Gözəlim, göyçəyim, gül üzüm mənim,
Təbrimzim, Təbrizim, Təbrizim mənim».

***

Çox-çox illər sonra Güney Azərbaycanı gəzmək, Təbrizi görmək mənə nəsib oldu. Tez-tez atamın nigaran sualları yadıma düşürdü: Göy Məscid necədir, Ərk qalası necə? Və əfsus ki, bu suallara nikbin cavablar verə bilmirdim. Müdafiəçilərinin qəhrəmanlığı Rəsul Rzanın «Ərk qalası» şeirində vəsf olunmuş Təbrizin məşhur memarlıq və tarix abidəsi, mən gördüyüm vaxt sökülməmişdisə də, dörd tərəfdən eybəcər dükanlar, ambarlar, qarajlarla əhatə olunmuşdu. Elə bil Ərk qalasını ən bayağı şəkildə əsir almışdılar.

Təbrizdə bir poetik məclisdə Rəsul Rzanın Balaş Azəroğluya həsr etdiyi «Təbrizim mənim» şeirini oxudum:

«Laylası məhzun,
Nəğməsi məhzun,
Həsrəti ömründən uzun,
Karvandan üzülmüş ağ dəvəsi,
Gözlərində böyük ümidin uzaq töhfəsi.
Arzularında qançır, qamçı,
Kədəri axın-axın,
sevinci damcı-damcı.

Bəzən günləri qanlı yuxu kimi,
Bəzən həsrətli yuxuları gerçək olmuş.
Neçə dəfə sevincək olmuş.
Balaları sərgərdan,
Gəlinləri nigaran.
Qurtuluş yolları:
Məhbəs, dar ağacı, gülləbaran.
Qardaşına həsrət, bacısına həsrət,
bayatıları qədim məhəbbət.
Qəlbi gümanlı,
Taleyi böhranlı.
Özü bababir, nənəbir doğma qardaşım,
Pasportda o yanlı.
Arzulayanda əlim çatmayan,
Ağrısı, göynəyi qəlbimdə
geca-gündüz yatmayan,
Dağları dağlarıma bənzər,
bağları bağlarıma.
Ana sözü kimi
əziz olan adı dodaqlarıma.
Köhnəm, təzəm, uzağım, yaxınım.
Ən gözəl şeirim,
yanıqlı mahnım,
Mənsizim!
Təbrizim!»

(1964)

Mən bu şeiri oxuyanda elə kürsüdəykən salondan bir kağız göndərdilər. Yerli xeyirxahlarımdan idi. «Mütləq deyin ki, bu şeir şah vaxtı yazılıb» sözləri vardı kağızda.

Şah vaxtı deyirsiz, şah vaxtı olsun. Guya ki, indi bir şey dəyişib...

***

Rəsul Rzanın cənub mövzularında yazdığı əsərlərindən və «Arazın o tayında» filmindən başqa Güney Azərbaycan qarşısında üçüncü xidməti «Azərbaycan» jurnalının Baş redaktoru kimi fəaliyyətindən ibarətdir. İndiki ədəbi «Azərbaycan» dərgisiylə yalnız adı eyni olan bu jurnal 1945-46-cı illərdə ərəb əlifbasıyla nəşr edilirdi. İllüstrasiyalı, aylıq ədəbi ictimai jurnaldı.

İkinci dünya hərbini qələbəylə bitirən Sovet İttifaqının İrana, özəlliklə Cənubi Azərbaycana aid müəyyən niyyətləri və planları vardı. 44-45-ci illərdə bu planların həyata keçirilə biləcəyinə əsaslı surətdə ümid edilirdi və 1945-ci il iyulun 6-da Siyasi Büronun qərarıyla bu sahədə görüləsi işlər müəyyənləşdirilmişdi. Həmin işlərin icrası isə bilavasitə Azərbaycanın rəhbər partiya orqanlarına, konkret olaraq M.C.Bağırova və Təbrizdə fəaliyyət göstərən Üçlüyün sədri M.İbrahimova tapşırılmışdı. Qərardakı bəndlərin bir neçəsi mədəniyyət məsələlərinə aiddi. Qərara əsasən, Səməd Vurğunun sədrliyi ilə Azərbaycan-İran Mədəni əlaqələr cəmiyyəti yarandı, ərəb əlifbasıyla «Огонеок» tipli illüstrasiyalı, aylıq «Azərbaycan» jurnalı buraxmaq və onu İranda yaymaq, ərəb əlifbasıyla daha üç yeni qəzet nəşr etmək nəzərdə tutuldu. Jurnal ən yüksək poliqrafik səviyyədə çıxmalıydı. Siyasi büronun qərarına görə SSRİ Xarici Ticarət naziri Anastas Mikoyan bu jurnalı və Cənubi Azərbaycanda 30 min tirajla çıxacaq üç yeni qəzeti keyfiyyətli kağızla təmin eləməliydi. Təsəvvür edirəm ki, Azərbaycan xalqına «xüsusi məhəbbəti» olan Mikoyan «ləbbeyk» deyib bu göstərişi yerinə yetirərkən ürəyindən necə qara qanlar axırmış.

Jurnalın Baş redaktoru vəzifəsinə, deyildiyi kimi, Rəsul Rza, onun müavini vəzifəsinə Mehdi Hüseyn təsdiq edildi. 1945-ci ilin avqustundan başlayaraq 1946-cı ilin mənhus dekabr ayına qədər «Azərbaycan» jurnalının 17 sayı nəşr olunub (beşi 45-ci ildə, on ikisi 46-da). Atamın arxivində bu on

yeddi nömrənin cildlənmiş nüsxələri durur. Bu, bəlkə də həmin jurnalın hifz olunmuş yeganə tam komplektidir.

Sovet dövründə ilk dəfə idi ki, Bakıda bu tipli, illüstrasiyalı, üz və arxa qapağı, içindəki şəkilləri rəngli bir jurnal çıxırdı. Jurnalın əhəmiyyəti əlbəttə, bu rəngli şəkillərin və içində çoxlu ağ-qara illüstrasiyaların olmasında deyildi. Əsas o idi ki, aylıq ədəbi-ictimai jurnal Azərbaycanın o taylı, bu taylı keçmişini və bu gününü, ortaq ədəbiyyat, elm, sənət sərvətini, azadlıq uğrunda mübarizə yollarını vəhdətdə işıqlandırırdı.

Bizim günlərdə bəzi partiyalar, onların təbliğatçıları öz siyasi maraqlarından çıxış edərək və liderlərinin nüfuzunu qaldırmaq məqsədiylə belə bir fikir irəli sürürlər ki, guya vahid, bütöv Azərbaycan ideyası son illərdə, kimlər tərəfindənsə ortaya atılıb. Unudurlar, yaxud qəsdən unutdurmaq istəyirlər ki, bu ideya hələ XX əsrin əvvəllərində Sabirin, Mirzə Cəlil Məmmədquluzadənin, Əlibəy Hüseynzadənin, Əhməd bəy Ağayevin, Nəriman Nərimanovun, Məmməd Əmin Rəsulzadənin, başqalarının bədii və publisist əsərlərində bu ya digər şəkildə öz əksini tapıb. İkinci dəfə isə Cənubi və Şimali Azərbaycanın birliyi məsələsi 40-cı illərdən başlayaraq şairlərimizin, yazıçılarımızın, alimlərimizin şeirlərində, poemalarında, hekayə və romanlarında, pyeslərində və elmi məqalələrində aparıcı mövzuya çevrilib. «Azərbaycan» jurnalı da ilk növbədə məhz bu ideyanı rəhbər tuturdu. Təbii ki, jurnal geniş anlamda o vaxtkı sovet siyasətinin və ideolojisinin ifadəçisi idi. Amma məsələ olıdadır ki, bəlkə də yeganə istisna təşkil edən həmin dövrdə sovet siyasəti Azərbaycan xalqının milli maraqlarına son dərəcədə uyğun idi. O dövrün tarixi konüktüru parçalanmış Azərbaycanın siyasi cəhətdən olmasa da (buna da ümid vardı) mənəvi, mədəni baxımdan birləşməsinə, sıx ünsiyyətinə, birgə ədəbi, elmi, ictimai fəaliyyətinə imkan yaratmışdı. «Azərbaycan» jurnalında bu imkandan gen-bol istifadə olunurdu. Əfsus ki, bu dövr çox qısa sürdü.

45-46-cı illərdə jurnalın səhifələrində Babək və Koroğlu haqqında, Azərbaycanın böyük dövlət xadimləri Cavanşir,

Şirvanşah İbrahim, Şah İsmayıl Xətai, Fətəli xan, Cənubi Azərbaycanın azadlıq mücahidləri Səttarxan, Bağırxan, Şeyx Məhəmməd Xiyabani, Heydər Əmioğlu, Tağı Ərani haqqında, Seyid Cəfər Pişəvəri və onun hökumətinin üzvləri, Cənubi Azərbaycanın ilk prokuroru, sonralar edamını qəhrəmanlıqla qarşılamış əfsanəvi Firudin İbrahimi haqqında ətraflı yazılar verilirdi. Şimali və Cənubi Azərbaycan alimlərinin - ədəbiyyatşünasların, tarixçilərin, filosofların, sənətşünasların ədəbiyyatımızın klassikləri Xətib Təbrizi, Xaqani, Məhsəti, Nizami, Nəsimi, Fizuli, Əmani, Qövsi Təbrizi, Saib Təbrizi, Sarı Aşıq, M.Ş.Vazeh, A.Bakıxanov, M.F.Axundov, X.B.Natəvan, Heyran xanım, Şükuhi, Nəbati, S.Ə.Şirvani, Rüşdiyyə, Xalxali, M.C.Məmmədquluzadə, Sabir, Möcüz, Talıbov, Hammal, M.S.Ordubadi, A.Şaiq, S.S.Axundov, C.Cabbarlı və başqaları haqqında məqalələri, çağdaş şair və yazıçılarımızın şeirləri, hekayələri jurnalda əsas yer tuturdu. İndi bu adlar hamıya məlumdur, ancaq o dövrdə Həmid Araslı, Qulam Məmmədli, Cəfər Xəndan, Əvəz Sadıx kimi araşdırıcı və jurnalistlərin səyiylə bu klassiklərin bəziləri oxuculara ilk dəfə tanıdılırdı.

Musiqi və rəssamlıq da unudulmurdu. Memar Əbubəkr Əcəmi, bəstəkarlardan Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Asəf Zeynallı, rəssamlardan Əzim Əzimzadə, Bəhruz Gəngərli, Rüstəm Mustafayev, Cənubi Azərbaycan sənətçiləri miniatürçü Mir Müsəvvir, ata oğul tişə ustaları Həcərbaşılar barədə materiallar jurnalı daha da rəngarəng edirdi.

Bakıda Şirvanşahlar sarayının, Qız Qalasının, Təbrizdə Göy məscidin, Ərk qalasının, Şəkidə Xan sarayının, Ərdəbildə Şeyx Səfi məqbərəsinin, Naxçıvanda Möminə Xatun türbəsinin yan-yanaşı verilən şəkilləri, onlar haqqında yazılar memarlıq ənənələrimizin, esletik anlayışlarımızın ortaq, vahid olduğunu nümayiş etdirirdi və bu Azərbaycan mədəniyyətinin əsrlər boyu vəhdət halında inkişaf etməsini əyani şəkildə sübuta yetirirdi.

Jurnalda Bakının, başqa şəhər və kəndbrimizin mədəni və iqtisadi həyatı haqqında məlumatlar dərc edilir, cənublu oxucular Şimali Azərbaycanın həyatıyla yaxından tanış olmaq imkanı qazanırdı. Sovet Azərbaycanının hər sahədə uğurlarından danışarkən jurnal İranda Kommunist təbliğatına xidmət etmirdimi? Şübhəsiz edirdi. Amma bununla bərabər jurnal milli mədəniyyətimizin, anadilli ədəbiyyatımızın nailiyyətlərindən söz açarkən daha yüksək bir amal güdürdü, Güneydə milli şüurun və milli iftixar hissinin oyanmasına çalışırdı. Rəsul Rzanın «Azərbaycan» jurnalının 1945-ci il oktyabr sayında dərc olunmuş «Milli şüur və milli iftixar» məqaləsi məhz bu məsələyə həsr olunmuşdu. Məqalədə deyilirdi:

«İnsan uşaqlıq, gənclik və kamillik dövrü keçirdiyi kimi millətlər də həmin dərəcədə bu yolu keçir. Milli şüur bir xalqın öz istedad və bacarığını dərk etmək, millətin ümumi mənafeyi və ziyanını görmək, ümummillətin rifah və səadəti üçün çalışmaq yolunda hər cür fədakarlığın zəruri olduğunu dərk etmək deməkdir... Milli şüuru oyanmamış və ya hələ də lazımınca oyanmamış millətlər daima başqalarının ağalığına və zülmünə məruz qalır. Yalnız kənardan deyil, öz daxilində dəxi mürtəce qüvvələrin nüfuz və təsirinə boyun əyməli olur. Şübhəsizdir ki, milli intibah, milli şüurun oyanması bir günün, bir ilin işi olmayıb əsrlərin kəskin və amansız fırtınaları içərisində doğur. Bir millətin içərisindən çıxan ayrı-ayrı proqressiv nümayəndələr, alim və yazıçılar hələ o xalqın bir küll olaraq intibah yoluna düşdüyünü isbat etmir. Azadlıq dərk edilmiş zərurətdirsə, bu azadlığı duymaq, onun zəruri olduğunu hiss etmək üçün xalqın bütün nemətlərini yaradan geniş kütlələrin milli şüurunun artması, xalqın özünəməxsus ənənə, sənət və məişət gözəlliklərinin həqiqətən sevilib inkişaf etməsi şərtdir... İran Azərbaycanında yaşayan Azərbaycan xalqının yetirdiyi alim, yazıçı və inqilabçılar bu xalqın milli şüurunun artmasında, onun azadlıq və istiqlaliyyət yolunda apardığı mübarizdə çox böyük xidmət göstərmişlər... Bu xalqın azadlıq yolundakı mübarizəsində öz canını qurban vermiş yüzlər və

minlərlə həqiqi vətənpərvər və millətpərvər mücahidlər vardır ki, onların hər damla qanı milli şüur inkişafının yolunda tökülüb, bu yolu təmizləməyə xidmət etmişdir. Odur ki, Azərbaycan xalqı yaratdığı bu tarixi simaların həyatı, işi və əsərləri ilə fəxr edir. Milli iftixar hissi, milli şüurun doğrudan doğruya bir nəticəsidir. Milli şüuru oyanmamış, öz yaradıcılıq qüdrətinə iman bağlamamış bir xalqda milli iftixar hissi dəxi çox zəif və məzmunsuz olur. Biz azərbaycanlı olduğumuzla fəxr edirik. Bu iftixar hissini bizdə doğuran səbəb Azərbaycan xalqının «seçilmiş xalq» olduğuna, «başqalarından yaxşı» olduğuna görə deyil, bəlkə də «övraqi-həyatda» bizim də millətin imzası şərəfli yer tutduğu üçündür. Sovet Azərbaycanında inqilabdan sonra açılmış yüzlərlə ali və orta məktəblər, neçə-neçə tədqiqat müəssisələri, muzeylər, kitabxana, teatr və sinemalar, təzə tikilmiş zavodlar, maşınlaşdırılmış kənd təsürrüfatı xalqın milli şüurunun artmasına, onun ən nəcib duyğularının təzahürünə böyük imkanlar yaratdı. Biz azərbaycanlı olduğumuz üçün fəxr edirik, çünki Azərbaycan xalqı dünyanm ən hürriyyətsevən, ən ünsiyyətli, ən qəhrəman və alicənab xalqlarındandır. Bizim qəlbimizi dolduran iftixar hissi Azərbaycan xalqının böyük yaradıcı qüdrətinə əsaslanır, onun azadlıq üçün hər şeyi fəda etməyə hazır olan iradə və mətanətinə əsaslanır.»

«Azərbaycan» jurnalının ilk nömrəsində Leninin, Stalinin, M.C.Bağırovun, general Həzi Aslanovun rəngli şəkillərinin verilməsi təəccüb doğurmur, bu gün təəccüb doğuran odur ki, elə ilk saydaca qapaqda ideoloji plakat, yaxud əmək qəhrəmanlarının fotoları deyil, tacir Əsgər-Rəşid Behbudovun, Gülçöhrə-Leyla Cavanşirovanın (Bədirbəylinin) şəkilləri verilib («Arşın mal alan» filmindən kadr). Jurnalda ara-sıra rəsmi sovet materiallarının dərc edilməsi təbiidir, təəccübə səbəb olan odur ki, heç bir nömrədə, məsələn Bakı Kommunası, 26-lar, yaxud Şaumyan, Orconikidze kimi o vaxt geniş təbliğ olunan kommunistlər haqqında, adları Azərbaycanın şəhərlərinə, kəndlərinə, küçələrinə, kolxoz, sovxoz və

müəssisələrinə səpələnmiş «beynəlmiləlçi-inqilabçılar» haqqında yazılar yoxdur. Təəccüblü odur ki, ikinci nömrədən başlayaraq hər sayın son səhifəsində «Molla Nəsrəddin» jurnalından kəskin siyasi karikaturlar təkrar nəşr olunur. Müstəmləkə xalqlarina, Hindistana, İrana, Azərbaycana qarşı yönəlmiş rus və ingilis siyasətini ifşa edən bu karikaturlar 45-46-cı illərdə də qırx il öncəki kimi kəsərli idi. Biçarə millətin boğazına yabançı dili soxmaq istəyənləri təsvir edən məşhur karikaturun hədəfı fars şovinistlərinə olduğu qədər, sovetlərin ruslaşdırma siyasətinə də aid edilə bilər.

Jurnalın daha bir vacib funksiyası oxucularını dünya ədəbiyyatının, incəsənətinin zənginlikləri ilə tanış etmək idi. Müxtəlif saylarda Firdovsi, Şekspir, Sədi, Nəvai, Bayron, Hüqo, Heyne, Lermontov, Nekrasov, Mopassan, Rabindrant Taqor, Maksim Qorki, Vladimir Mayakovski, fars şairi Məlik üş şüara Bahar, kürd şairi Həjar haqqında yazılar yaxud onların əsərləiindən nümunələr verilirdi. Musiqi və rəssamlıq sənətinin korifeyləri Musorqski, Repin, Surikov haqqında sənətşünaslıq məqalələri dərc edilirdi.

Bu iki prinsipi, Qüzey və Güney Azərbaycan ədəbiyyatına, sənətinə ayrılmaz vəhdət kimi baxmaq prinsipini və oxucuları dünyanın mədəni sərvətləriylə tanış etmək prinsipini çox-çox illər sonra «Qobustan» toplusunda tətbiq etməyə çalışdıq. Bu bəlkə də mənim uşaqlıq xatirələrimlə bağlıydı. Uşaq yaşlarında «Azərbaycan» jurnalının hər nömrəsini vərəqləyər, şəkillərinə baxardım, sonralar ərəb əlifbasını öyrənəndən sonra ayrı-ayrı yazıları oxumağa başladım. Bir də ki, jurnalın demək olar ki, hər sayı gözlərim qarşısında hazırlanırdı. Redaksiyanın əməkdaşları evimizə gəlir, atamla nömrələrin məzmunu və forması barədə müzakirələr aparırdılar.

İndi, bizim günlərdə, hərdən-birdən, ara-sıra «Qobustan» toplusunun milli şüurumuzun oyanması yolunda xidmətlərindən söz açırlar. Amma bu işi çox illər qabaq aparmış «Azərbaycan» jurnalının fəaliyyəti haqqında tək-tük mütəxəssislərdən savayı demək olar ki, heç kəsin xəbəri yoxdur.

«Azərbaycan» jurnalı haqqında burada belə ətraflı yazmağımın bir səbəbi də elə budur. Bu baxımdan mən, Cənubi Azərbaycan olaylannın obyektiv araşdırıcısı, bu sahədə qiymətli tədqiqatlar müəllifi tarixçi Cəmil Həsənlinin sözlərini məmnunluq hissiylə gətirirəm:

«1945-46-cı illərdə buraxılmış «Azərbaycan» jurnalı Sovet hakimiyyətinin bütün mövcud olduğu dövrlərdə ən maraqlı və milli mənafe baxımından ən əhəmiyyətli nəşr orqanı idi. Əvvəla, bu jurnalın hər sayında Güney və Quzey Azərbaycanın ictimai-siyasi, mədəni, ədəbi həyatı, tarixi birlikdə əhatə olunurdu. İkincisi, jurnal Güney Azərbaycan üçün buraxıldığından Sovet Azərbaycanında hökm sürən hakim bolşevik ideologiyasının tələblərindən bir qədər yayına bilir, Azərbaycan xalqının köklü mənafeyi, taleyi və tarixi ilə bağlı əsaslı məsələlərə toxuna bilirdi.

Bütöv Vətən, eyni xalq, vahid millət məramı demək olar ki, «Azərbaycan»ın hər sayında duyulurdu».

Cəmil müəllimin müşahidəsi tamamilə doğrudur, «Azərbaycan» jurnalı Rəsul Rza üçün də, redaksiya əməkdaşları və müəllifləri üçün də uzun illərin sovet ideoloji məngənəsindən sonra az- çox rahat nəfəs almaq, istədiyin temalarda yazmaq imkanı verirdi, amma bundan başqa bir cəhəti də vurğulamaq istərdim: jurnal ərəb əlifbasıyla nəşr olunurdu; Rəsul Rzanın və nəsildaşlarının ilk təhsillərini aldıqları, vərdiş etdikləri, alışdıqları bir əlifbada və neçə dəfə dəyişən qrafikamızdan sonra yenidən gəncliklərinin yazılarına qayıtmaq onların sanki bu nisgilini də ovudurdu. (Haşiyə olaraq qeyd edim ki, atam da, anam da, o nəslin başqa Azərbaycan yazıçıları da ömürlərinin axırılarına qədər ərəb əlifbasından istifadə etdilər, əlyazmalarının doxsan faizi bu əlifbayladır).

***

«Azərbaycan» jurnalının kədərli aqibətini yaxşı xatırlayıram. Rəsul Rzanın başladığı bir sıra başqa işlər kimi bu sonluq da çox acıdır.

1945-ci ilin 21 dekabrı «21 Azər» Cənubi Azərbaycanın istiqlal bayramıdır. Hikkəli Tehran hökuməti bir il sonra məhz bu gün 1946-cı il dekabrın 21-də Azərbaycan xalqının azadlıq arzularını tar-mar etdi. Odur ki, «21 Azər» xalqımızm həm milli bayramı, həm də milli matəm günüdür. «Təbriz baharının» soyuq dekabr süqutundan sonra təbii ki, «Azərbaycan» jurnalı da bağlandı. Jurnalın son dekabr sayının artıq məşum hadisələr baş verəndən sonra çıxan siqnal nömrəsini - nubarını atam evə gətirmişdi. Sonsuz qüssəylə jurnalı vərəqləyə-vərəqləyə dediyi sözlər indiki kimi qulaqlarımda səslənir:

Heyf. Bu ən yaxşı nömrəmizdir. Şam sönəndə şölə verər.

İndi jurnalın müxtəlif nömrələrini gözdən keçirərkən deyə bilmərəm ki, bu son say o birilərdən yaxşıdır. Amma Rəsul Rzanın o vaxtkı sözlərini və o vaxtkı hisslərini də yaxşı başa düşürəm.

***

Rəsul Rza «Azərbaycan» jurnalını saxlamaq üçün təşəbbüs etdi, M.C.Bağırova məktub yazdı. Bu məktubun tam mətni «Yurd» nəşriyyatının Rəsul Rzaya həsr olunmuş xüsusi buraxılışında dərc edilib. Məktubun əvvəlində jurnalın qısa tarixçəsindən, görülən işlərdən, redaksiya ətrafında yaxşı müəllif kollektivinin toplanmasından söz açan Rəsul Rza təklif irəli sürür: Məlum olduğu kimi Azərbaycanda belə profilli jurnal yoxdur, halbuki buna böyük ehtiyac hiss olunur. Redaksiya heyəti belə hesab edir ki, jurnalı bu həcmdə və bu formada saxlamaq, onu yeni Azərbaycan əlifbasıyla nəşr edərək respublikamızda yaymaq məqsədəuyğun olardı.

Redaktor Rəsul Rza.

Nə yazıq ki, Rəsul Rzanın bu formalı, bu profilli jurnal haqqında arzusu Azərbaycanda qırx-qırx beş ildən sonra həyata keçdi, indi neçə-neçə rəngli, illüstrasiyalı jurnallarımız nəşr olunur.

O vaxt isə atamın məktubu cavabsız qaldı. Çünki Rəsul Rza növbəti dəfə Mir Cəfər Bağırovun qəzəbinə keçmişdi.

***

Mir Cəfər Bağırov ziyalıları, xüsusilə də o vaxtkı sovet cəmiyyətində aparıcı mövqelərə malik olan yazıçıları sevmirdi. Bunu onun şəxsi keyfiyyətləri ilə - qəddarlığı, zalımlığı, rəhimsizliyi və əzazilliyi, totalitar rejimdə özündən savayı hər kəsin nüfuzuna, şöhrətinə qısqanclığıyla da izah etmək olar, amma bu subyektiv səbəblərdən başqa obyektiv səbəb də vardı. Bu səbəb - SSRİ-dəki bütün böyük və kiçik rəhbərlərin Stalin davranış modelini təqlid etmələri idi. Yazıçılara münasibətində Bağırov üçün örnək mürşidi Stalinin xətt-hərəkəti idi. Stalin də yazıçıları sevmirdi, lakin onlarsız keçinməyin də mümkünsüzlüyünü dərk edirdi. Moskvada bir müddət Yazıçılar İttifaqına rəhbərlik etməyə göndərdiyi sırf partiya funksioneri Polikarpovun yazıçılardan narazılığına cavab olaraq dediyi məşhur sözlər: «Onlarla işləməli olacaqsınız, mənim sizin üçün ayrı yazıçılarım yoxdur» - cümləsi çox səciyyəvidir. Bağırov da 37-ci il qırğınından sonra salamat qalmış yazıçılarla işləməli olacağını yaxşı başa düşürdü. Müşfiq istisna olunmaqla 37-ci il qurbanlarının əksəriyyəti Sovet quruluşundan əvvəl yetişmiş, tanınmış, şöhrətlənmiş, bir sözlə, «köhnə dünyanın» sənətkarları idi.

Ehtimal ki, M.C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Səməd Mənsur, hətta Cəfər Cabbarlı «vaxtında» ölməsəydilər onları da Hüseyn Cavidin, Seyid Hüseynin, Yusif Vəzirin, Əhməd Cavadın aqibəti gözləyərdi. Yaradıcılığa sovet dövründə başlamış şair və yazıçıların da bir müddət sonra, daha gənc nəsillər yetişib cəmiyyətdə nüfuz və şöhrət qazanandan sonra eyni aqibəti olacaqdı.

Atam xatırlayırdı ki, Bağırov onları dönə-dönə hədələyərmiş: Sizə bir divan tutacam ki, otuz yeddinci il yalan olacaq.

Bu divanın tutulmasının qarşısını 53-cü ildə Stalinin ölümü və bundan dərhal sonra Bağırovun işdən uzaqlaşdırılması, siyasi ab-havanın müəyyən dərəcədə dəyişməsi oldu.

1933-cü ildən 53-cü ilə qədər iyirmi il ərzində Azərbaycanı idarə edən Bağırovun son dərəcədə ziddiyyətli şəxsiyyətinə, gördüyü işlərə (onların sırasında bağışlanmaz cinayətləri ilə yanaşı müəyyən faydalı işləri də olub) qiymət vermək ayrıca və bütün gizli sənədlər açılmayınca hələ vaxtı gəlməmiş bir yazının mövzusudur. Burada isə mən yalnız bir məsələnin üstündə durmaq istərdim. Dediyim kimi, Bağırov yazıçıları, ümumən ziyalıları xoşlamırdı, amma eyni zamanda onlara möhtac idi. 39-40-cı illərdə Moskvada milli mədəniyyətin uğurlarını nümayiş etdirən təntənəli dekadaları istedadlı şairlərsiz, bəstəkarlarsız, rəssamlarsız və ifaçılarsız keçirmək olmazdı. Müharibə illərində yazıçı qələmi əvəzsiz bir silah idi. Və nəhayət, İranda sovet siyasi niyyətlərini həyata keçirmək üçün ilk növbədə yaradıcı ziyalıların potensialından istifadə etmək labüddü. Odur ki, hakimiyyətinin müxtəlif dövrlərində Bağırov yazıçıları, özəlliklə də ictimai həyatda fəal olan yazıçıları, o cümlədən, Səməd Vurğunu, Mirzə İbrahimovu, Süleyman Rəhimovu «qaldırdığı», orden və mükafatlarla təltif etdiyi, yüksək vəzifələrə irəli çəkdiyi məqamlar da vardı, onları gözdən salıb, kəskin tənqid edib, hətta NKVD orqanlarına izlətdirdiyi vaxtlar da(bütün bu dediklərim, şübhəsiz, Rəsul Rzaya da aiddir).

Yazımın əvvəllərində dediyim kimi, 40-cı ildə əlifba məsələsindən sonra Bağırov Rəsul Rzanın adını qara siyahılara salmışdı. Müharibə illərində atamın Krım cəbhəsindən göndərdiyi yazıları təqdir etmiş, bir toplantıda onları dəyərincə qiymətləndirmişdi. Elə həmin vaxtlar Rəsul Rzanı kino sahəsində yüksək vəzifələrə irəli çəkməsi Cənubi Azərbaycanla bağlı ona məsul işlər tapşırması da bu müsbət münasibətin əlamətləri idi. Müharibə bitəndən sonra və Cənubi Azərbaycan siyasi süquta uğrayandan sonra isə Rəsul Rzaya münasibəti yenə kəskin şəkildə dəyişmişdi. Səbəbini bilmirəm. Sədd heyif ki, vaxtilə atamdan, anamdan da soruşub öyrənməmişdim.

Güman edirəm ki, bu təbəddülat atamın yaradıcılığı ilə bağlı deyil, çünki 40-cı illərin ikinci yarısında kino bütün

vaxtını aldığı üçün elə bir yaradıcılıq aktivliyi də olmayıb. Yəqin ki, narazılığa Rəsul Rzanın kino naziri kimi işiylə əlaqədar imiş, halbuki elə o illərdə ən azı «Arşın mal alan» «Fətəli xan», «Arazın o tayında» kimi sənət tariximizə daxil olan filmlər çəkilmişdi.

Bildiklərin yalnız evimizdə anamın, bibilərimin bu barədə etdikləri söhbətlərə əsaslanır. Atam özü, hər halda mənim yanımda, belə söhbətləri etməzdi. Bu söhbətlərdən bilirdim ki, atam ciddi töhmət alıb və Bağırov bir iclasda ona sanki yanıq verərək: «Bax bütün nazirləri deputat verdik, amma səni vermirik», - demişdi (Azərbaycan Ali Sovetinin ilk çağırışından deputat olan Rəsul Rza bir də 70-ci illərdə bu sovet imtiyazından məhrum edilmişdi) Qəribəsi o idi ki, atamın dəfələrlə ərizə verməsinə baxmayaraq onu nazir vəzifəsindən də götürmürdü, nazirliyin işini yoxlamaq üçün komissiya komissiya dalınca göndərirdi.

Və yalnız 49-cu ildə həkimlərin israrlı təkidindən sonra, nəhayət Rəsul Rza kinomatoqrafiya naziri vəzifəsindən azad edildi.

Bu illərdə, Bakıda Nizami yubileyi keçirilərkən (bu tədbirlərdə şairlərə, o cümlədən Rəsul Rzaya ehtiyac duyulurdu) atamın Bağırovla bir toqquşması olmuşdu(bunu çox illər sonra həm atamın, həm də dirijor Niyazinin, Məmməd Rahimin, Ənvər Məmmədxanlının söhbətlərindən ətraflı bilirəm. Hamısı (anamdan başqa) o toqquşmanın şahidi olublar.

Nizami yubileyi zamanı ayrı-ayrı yazıçıların evlərində gələn qonaqların şərəfinə məclislər düzəlirmiş. Belə məclislərin birinə Mikayıl Rəfiligilə qəflətən, gözlənilmədən M.C.Bağırov da gəlib çıxır. Demə, gürcü şairi Georgi Leonidze ilə haradasa içirmişlər, sonra Leonidze deyəndə ki, mən Rəfiligilə dəvət olunmuşam Bağırov da yəqin bir az dəm olduğu üçün «mən də səninlə gedirəm», - deyib.

Bu məclisdən bir gün əvvəl təntənəli yubiley gecəsində başqa şairlərlə bir sırada Rəsul Rza da şeir oxuyub. «Çinar» şeirini və demə, məhz bu şeiri oxuması Bağırovun xoşuna gəl-

məyib. Rəfiligildə məclisdə rus şairlərindən biri Rəsul Rzanın sağlığına badə qaldıranda Bağırov: «Mən onun sağlığına içmirəm», - deyib, - «o, millətçidir».

Rəsul Rza söz götürən adam deyildi və dərhal: «Bunu nə əsasla deyirsiz?», - deyə soruşub. Bağırov «Çinar» şeirinin millətçilik ruhunda yazıldığını söyləyib. Atam: «Xeyir, - deyib, - mən bu şeiri Stalin yoldaşın Anteyin torpaqdan güc alması haqqında dediyi sözlərindən sonra yazmışam. (Burada bir haşiyə çıxım ki, atam bilərəkdən, qəsdən, ya da səhvən Stalinə isnad edib, çünki «Çinar» şeiri Stalinin o sözləri dediyindən xeyli qabaq yazılıb). Nə isə Bağırov bir az yumşalaraq: «Yaxşı, onda qədəhin yarısını sənin sağlığına içərəm» - deyib.

Rəsul Rza: «Mən yarımçıq adam deyiləm ki, yarısını içəsiniz, içirsiniz hamısını için, ya da heç içməyin», - deyib.

Hər tərəfdən atama göz-qaş eləyirmişlər ki, bu mübahisəni kəssin, ətəyindən çəkirmişlər, amma dialoq bununla da bitməyib. Leonidze, Luqovskoy, Selvinski Rəsul Rzanın şərəfinə əlavə tərifli sözlər söyləyəndə Bağırov: «Demə səni tanıyırmışlar», - deyə yenə atmaca atıb.

Buna qədər söhbət rus dilində gedirmiş, amma bu atmacaya atam Azərbaycan dilində cavab verib: «Bəli, tanıyırlar, - deyib, amma siz başımızı aşağı edirsiniz».

Mən bu söhbəti olduğu kimi gətirərkən, heç də onu demək istəmirəm ki, Rəsul Rzaya münasibətin dəyişməsi məhz bu toqquşma ilə bağli idi. Amma bu söhbət də Rəsul Rzanın müstəqil, məğrur xaıakterinin bir örnəyidir və Bağırov təbii ki, belə xasiyyətli adamları sevə bilməzdi, yeri düşəndə onları sıxışdırmağı lazım bilirdi. İkinci cəhət Bağırovun Azərbaycan yazıçılarının, o cümlədən Rəsul Rzanın gizli millətçi olması haqqında şübhələri ilə əlaqədar idi.

Haşiyə: Atamın bağ qonşusu və dostu Əvəz Sadıq çox bamәzə adam idi. Bir söhbəti yadıma düşür. Deyirdi ki, vaxtilə Ağahüseyn (ya Əlihüseyn, adı dəqiq yadımda deyil) adlı bir respublika prokuroru olub, bayram günlərində nümayiş zamanı yazıçılar tıibunanın qabağından keçərkən tribunada dayanmış

prokuror dərhal: «Rədd olsun müsavatçılar», - deyə bağırarmış. Amma Azərbaycan sovet yazıçılarının müsavatçı olmasalar da, millətçi olmaları fikri tək bir Ağahüseynə (ya Əlihüseynə) mənsub olmayıb.

Sovet dövründə isə bundan qorxunc təhlükə, bundan müdhiş ittiham, bundan ağır «suç» ola bilməzdi. O vaxtkı Azərbaycanda yalnız yazıçılar hər halda onların 90 faizi övladlarını Azərbaycan dilində oxüdurdular. (Bir dəfə Bağırov atamdan: «Oğlun hansı məktəbdə oxuyur, - deyə soruşanda, atam: «Azərbaycan məktəbində», - deyib.

-Niyə? Atam: «Bəs hansı məktəbdə oxumalıymış», - cavabını verəndə Bağırov əlini yelləyib, rusca: «неисправимый» (düzələn deyilsən), - deyib.

Hər nə isə, 40-ci illərin ikinci yarısı ailəmizin həyatında təhlükəli bir dövr olub. O dövrün gizli nigarançılığı elə o vaxt dərk olunurdu. Hətta mən uşaqlıq və yeniyetməlik çağımda ailəmizin başı üzərində qorxulu bir kabusun dolaşdığını duyurdum. Anam ən çox nənəm Cəvahir xanım sarıdan nigaran idi. Hər gün gündüzlər onun yanında olub axşam evə qayıdardı, çox vaxt məni də özüylə aparardı. Ancaq ən qorxulu gecələr idi. Nənəmi aparsaydılar, başqa gedər-gəlməzə gedənlər kimi gecə aparacaqdılar. Odur ki, səhər açılan kimi anam dərhal nənəmə telefon edərdi, guya ki, qardaşı oğlunun zökəmini, qızdırması olub-olmamasını soruşardı, əslində isə, bu bəhanəylə nənəmin bu gecədən də salamat çıxdığını bilib sakitləşərdi.

Atamgil evimizə gəlib gedən adamların bəzilərindən şübhələnirdilər. Yəqin ki, bu şübhələr üçün əsasları varmış. Belələrini aralarında «yonca» adlandırırdılar. Yonca harda olsa bitdiyi kimi bu çağrılmamış qonaqlar da lapdan evimizə gələrdi, gələni qovmayacaqsan ki... Anama deyirdim, flankəs axı səfehin biridir, o gedib nə çuğulçuluq edə bilər? Anam:

-Elə bilirsən yoncaların hamısı akademik, ya professordur? – deyirdi, - beləsi elə evimizə kimlərin gəlib getdiyi haqqında lazımi yerlərə məlumat verirsə, onun da işi bundan ibarət olur.

Rəsul Rzanın «İblislə söhbət» şeirində o illərin məhz bu ovqatı ifadə olunmuşdur.

Gecənin bir aləmi.
Yarıqaranlıq otaq.
Açdım gözlərimi,
Gördüm kimsə dayanıb
pəncərə qabağında.
Kölgəsindən tanıdım onu İblisdi.
Kölgə təklifsiz oturdu,
yatağıma yaxın
Dedi: - Nə görmüsən yaşamaqda?
Dedim: - İnsan yaşamaq üçün doğulur.
Güldü İblis.
Qəhqəhəsi titrətdi
pəncərənin şüşəsini.
Dedi: - Allah kəssin
insanların bu standart
danışmaq peşəsini!
Dedim: - Sənlə mənim nə alverim!
-Nahaq əsəbiləşirsən - dedi,
-nahaq!
Mən İblis,
sən insan.
Gəl danışaq.
Necə?
Bax bu gecə
tanıdığın adamlardan
bir neçəsini sənə tanıdım!
Biri, bax, bu, - dedi,
Baxdım, tanıdım
Necədir sənlə arası? -dedi.
-Çox yaxşı.
Dost deyir, qardaş deyir mənə.
-Onda qulaq as – dedi,

-sənsiz dediklərinə!
Dinlədim.
İlk cümləsindən heyrətə gəldim.
Boğazıma qurğuşun kimi
tıxandı nəfəs.
-Kəs - dedim, - kəs!
Bu sənin hiyləndir!
Güldü İblis.
- Yox, - dedi.
Bu mən biləndir.
İndi bildin sən də.
Tanıyarsan adamını bundan sonra
duz-çörək kəsəndə.
Bu da tanışdır sənə,
Eləmi?
Baxdım, dinlədim,
Elə bil başıma çevirdilər aləmi.
Qulağımı tıxadım,
Yumdum gözümü...
Ayıldım.
Qan-tər içində gördüm özümü.
Gecəlik çırağın zəif işığında
divara düşmüşdü
kürsü üstündəki pencəyimin kölgəsi,
Nəfəsimi dərdim,
Dedim: Nə yaxşı ki,
yuxuda otağım olmuşdu
İblisin fənalıqlar ölkəsi.

Son sətirləri şeiri Qlavlitdən - senzuradan keçirmək xətrinə yazıbsa da yuxularda yox, gerçəklikdə fənalıqlar ölkəsində, heç kəsin heç kəsə sona qədər etibarı olmadığı bir quruluşda yaşadığını dərk edirdi.

Doğrudur, o illər də, lap elə sonralar da, mənə elə gəlirdi ki, anam bu məsələləri bir az şişirdir. Amma daha da sonra,

ananıın və atamın vəfatından çox illər sonra açılan bəzi sənədlər, yazılan bəzi xatirələr bu nigarançılığın heç də əsassız olmadığını sübut etdi.

Xalq yazıçısı İlyas Əfəndiyev anamın xatirəsinə həsr etdiyi çox qiymətli yazısında maraqlı bir faktdan söz açır:

«Nigar xanımın şeirlərini, tərcümələrinin çap olunduğuna, ailəsilə birlikdə həyatının sakit keçdiyinə baxanda elə düşünmək olardı ki, xalq arasında «Dəniz qırağı» adı ilə məşhur olan qorxulu idarədə onu yaddan çıxarmışlar. Ancaq bir dəfə qəribə bir əhvalatın şahidi oldum. Mən kinostudiyada ssenari şöbəsinin müdiri işləyirdim. Unudulmaz dostum rəhmətlik Mehdi Hüseyn də studiyanın direktoru idi. Bir gün onun kabinetində söhbət elədiyimiz zaman təhlükəsizlik idarəsinin bir polkovniki bir kapitanın müşayətilə içəri girib şən əhval-ruhiyyəylə salam verdi. Onlar əyləşəndən sonra: «Bəlkə, direktorla məxfi işləri var», - deyə fikirləşərək çıxdım. Özümdən asılı olmayaraq daxili bir qorxu da keçirirdim. Onlar gedəndən sonra Mehdinin kabinetinə getdim ki, görüm polkovnik nə üçün təşrif buyurmuşdu. Mehdi mənalı təbəssümlə mənə baxaraq dedi: Balam, bu polkovnik səni hardan tanıyır? Deyirdi, «İlyasın kefi necədir? «Özü də elə danışırdı ki, elə bil çoxdan dostsunuz. Mən Mehdinin danışığındakı zarafata baxmayaraq sərt ifadə ilə: «Hər halda, - dedim, - «dəniz qırağının» adamı deyiləm.

Bir gün bacanağım, hərbi həkim, polkovnik Əli Axundovu studiyaya gələn həmin polkovniklə küçədə dayanıb söhbət eləyən gördüm. Sonra studiya əhvalatını bacanağıma danışaraq dedim ki, o polkovnikdən soruşsun görək məni hardan tanıyır. Bacanağım da bunu soruşur. Polkovnik gülüb deyir ki, «Gəlsin İmran Qasımovun qızının ad günündə Nigar xanım haqqında dediyi tostun mətnini İlyasa göstərim». Daha buna nə söz demək olardı?

İmran Qasımovun qızı Səidənin ad gününü keçirirdik (İmran Qasımov o vaxt Kinematoqrafiya nazirliyində atamın müavini idi - A.). Məclisdə nazir, nazirin müavinləri, başqa

mühüm vəzifələri olan otuza qədər «görkəmli» adam iştirak edirdi. Mən həmin məclisdə Nigar xanım haqqında sağlıq demişdim. Necə olmuşdu ki, o sağlıq bütün təfsilatıyla «Dəniz qırağına» çatdırılmışdı? İmranla mən oturub həmin məclisdə iştirak eləyən adamların hamısını bircə-bircə xatırladıq ki, görək o sağlığı kim xəbər verə bilər? Nə qədər götür-qoy elədiksə, heç kəsin üzərində dayana bilmədik.

Demək, həyatı zahirən sakit keçən şairə Nigar xanım «Dəniz qırağının» ciddi nəzarətindəymiş. Və yəqin ki, şairə də ürəyinin dərinliklərində bunu bilirdi» («Şairənin qisməti» adlı yazısından. 1990).

İlyas müəllimin xatırladığı hadisə və bu sayaq «nəzarət» bizim günlərdə konkret sənədlərlə də təsdiq olundu (Bu hələ açılan sənədlərdir, gör indi açılmamışlarda nələr var. Ənvər Məmmədxanlı yarı ciddi, yarı zarafat deyərdi ki, bircə arzum var, bir mənim haqqımda ORA yazılanlarla tanış olaydım, biləydim KİM və NƏ yazıb).

Tarix elmləri doktoru, professor Eldar İsmayılov «Mərkəz» qəzetində (16-23 fevral, 2000) dərc etdirdiyi «Tariximizin «şanlı» dövrü» adlı yazısında o vaxtın bəzi sənədlərini gətirir:

«Həmin sənəd 1950-ci ilin oktyabrın 6-da tərtib olunub... M.C.Bağırova ünvanlanıb. Sənədin müəllifləri respublika Nazirlər Sovetinin sədri Teymur Quliyev, Kommunist Partiyası MK-nın katibi T.Yaqubov, Dövlət Təhlükəsizlik Komitəsinin sədri S.Yemelyanov, Daxili İşlər naziri A.Atakişiyevdir.

Türkiyəyə qarşı təəssübkeş olan şəxslər və Türkiyədə qohumları yaşayan məsul işçilər və ziyalılar barəsində təkliflər:

RƏSUL RZA Yazıçılar İttifaqının üzvü çekist nəzarətinə alınsın».

Çekist nəzarətinə alınan Rəsul Rza həmin siyahıda adları olan və şübhəli sayılan digər 18 ziyalı və məsul işçilərdən biridir.

«Sənədin sonunda tövsiyyə edilir ki, yerli təşkilatlar yuxarıda adları çəkilənləri partiyadan xaric edərkən onun əsl

səbəbini göstrməsinlər. Başqa bir bəhanə ilə göstərişi yerinə yetirsinlər».

Bu illərdə daha böyük təhlükə anamın başı üzərindən asılmışdı. Rəfibəylilər nəslinin qeyrətli nümayəndəsi, Ədliyyə nazirinin müavini vəzifəsində çalışan Ədliyyə generalı Akif Rəfiyevin yardımı ilə DTK arxivindən əldə etdiyimiz bir sənəd də var. Bu Nigar Rəfibəylinin və anası Cəvahir xanımın sürgün olunması haqqında Daxili İşlər Nazirliyinin təqdimatıdır. Sənəddə deyilir:

«Rəfibəyova Cəvahir xanım. 1880-cı il təvəllüdü. Keçmiş Gəncə general qubernatoru, sovet hökuməti orqanları tərəfindən 1920-ci ildə güllələnmiş X.Rəfibəyovun arvadıdır. Oğlu Rəşid son vaxtlaradək Moskvada təhsil alırdı. İkinci oğlu Kamil müsavatçıdır. Türkiyəyə mühacirət edib. Hazırda Kars şəhərində yaşayır. Türk ordusunda xidmətdədir. Müsavatın İstanbul komitəsi və türk kəşfiyyatı ilə əlaqədardır. SSRİ-yə qarşı fəal kəşfiyyat işi aparır.

Qızı Nigar Xudadat bəy qızının indi Türkiyədə mühacirətdə yaşayan iki əmisi var. Ana və qız 1936-cı ilə qədər xariclə yazılı əlaqə saxlamışlar. Hazırda Sovet hökumətinə qarşı düşmən münasibətdədir»

Sənəd müəllifinin sonda çıxardığı nəticəyə gəlməzdən əvvəl onun müddəalarındakı yalanları göstərmək istəyirəm:

Kamil dayı müsavatçı olmayıb, türk ordusunda xidmət etməyib, türk kəşfiyyatıyla heç bir əlaqədə deyilmiş və təbii ki, SSRİ-yə qarşı heç bir fəal kəşfiyyat işi də aparmayıb. Xudadat bəyin qardaşları olmadığı üçün Nigarın da əmiləri ola bilməzdi. Nigar Rəfibəylinin Sovet hökumətinə qarşı guya ki, düşmən münasibətdə olması da heç bir konkret fakta əsaslanmır. Sənədin sonunda çıxarılan hökm isə belədir: «Sürgün edilsinlər.

Imza: Qriqoryan»

Bu Qriqoryan həmin Xoren Qriqoryandır ki, «Qızılgül olmayaydı» poemasında onun haqqında:

«Bağırmaq olardımı elə bir gündə?
Elə bir gündə ki,
Xorenlər iş başındaydı,
Ruhullalar zirzəmidə, can üstündə!»

sözləri yazılıb.

O illərdə təhlükəsizlik orqanlarının rəhbərlərindən biri, 37-ci il repressiyalarının əsas icraçısı və təşkilatçılarından olan Xoren Qriqoryan sonralar aşkar edildiyi kimi gizli daşnak imiş, ilk növbədə Azərbaycan ziyalılarını məhv etməyi qarşısına məqsəd qoyubmuş. 1956-cı ildə M.C.Bağırovun məhkəməsində bu açıldı və o da Bağırovla bir yerdə güllələndi.

Yuxarıda gətirdiyim sənədin «Sürgün olunsunlar» hökmündən sonra yanında dərkənar qoyulub: saxlanılsın.

Bu dərkənar M.C.Bağırovundur. Kim bilir kefinin hansı duru vaxtına düşüb. Yaxud nə səbəbdənsə insafa gəlib, Rəsul Rzanın ailəsini dağıtmaq istəməyib. Anam danışardı ki, Rəsul dəfələrlə: «Səni sürgün etsələr, mən də sənin lə gedəcəm», - deyərmiş.

Bunu Niyazi də xatırlayır: «...bir sıra namuslu ziyalıları bəy familiyaları daşıdıqları üçün sıxışdırır, təqib edirdilər. Bu qara kölgənin qorxusu Nigarı da çox narahat edirdi. Rəsul onu hər dəfə sakitləşdirirdi. Bir dəfə: «Nigarım, sən hara getsən, lap dünyanın o başına da səfərə çıxmalı olsan, mən də sənin ardınca gedəcəyəm», - dedi. Mən də qayıtdım ki, «ay Rəsul, vaxtilə dekabristlərin arvadları onların ardınca düşmüşdülər. İndi sən əksini etmək istəyirsən. Ağrılı-ağrılı gülüşdük» (Niyazi. «Nə yaxşı ömrümdə o günlər olub!», «İki ömrün işığı» kitabında).

Bir bu «SAXLANSIN» sözüylə tək nənəmin, anamın, atamın taleyi deyil, bizim, onların üç övladlarının, mənim, iki bacımın da taleyi həll olunub.

1950-ci ildə Rəsul Rzanın «Lenin» poeması Azərbaycan və rus dillərində nəşr edildi.

***

«Lenin» poemasının mətnində deyilir ki, əsəri on il müddətində yazıb. Bu rəqəm, əlbəttə, şərtidir. Bu mövzuda əsər yazmaq fikrinə poemanı bitirdiyindən on il əvvəl gəlsə də, materiallar toplayıb, tanış ola biləcəyi sənədlərlə tanış olub müəyyən qeydlər etsə də, təbii ki, nə müharibə illərində, nə sonralar kino sahəsində çalışdığı vaxt «Lenin» üzərində ardıcıl iş apara bilməzdi. Əvvəllərdə dediyim kimi, hər dəfə məsul bir vəzifədən, məsələn, elə Kino Nazirliyindən uzaqlaşdırıldıqdan sonra yaradıcılıqla intensiv şəkildə məşğul olmağa imkan tapırdı. «Lenin» poeması da əsasən, 49-cu ildən sonra bir il, ya il yarıma yazılıb. Poema bitirilən kimi bir ay Bakıda, bizim evdə yaşayan görkəmli rus şairi (məşhur rejissor Andrey Tarkovskinin atası) Arseni Tarkovski onu rus dilinə tərcümə etdi. Bu əsəri yüksək qiymətləndirən böyük şairimiz Səməd Vurğun qeyd edirdi ki, «Rəsul Rzanın «Lenin» poeması bütün dünyanı gəzəcək».

Doğrudan da belə oldu. «Lenin» poeması bütünlüklə ya iri fraqmentlərlə SSRİ xalqlarının və dünyanın ondan artıq dilinə çevrildi. Azərbaycanda, Moskvada, xarici ölkələrdə poemanı yüksək dəyərləndirən yazılar çıxdı.

«Lenin» poeması haqqında söhbətin məhz bura düşməsi sırf xronoloji prinsiplə bağlıdır. Ancaq bundan bir az əvvəl elə həmin illərdə Rəsul Rza ailəsinin başı üstünü alan təhlükələr haqqında söz açdığım üçün belə təəssürat oyana bilər ki, şair bu əsəri özünü və ailəsini bir növ sığortalamaq üçün yazıb. Belə bir təsəvvür yanlış olardı. Ola bilsin ki, hardasa şüuraltı surətdə, ya elə şüurlu şəkildə Rəsul Rzanın bu məqsədi də olub, amma atamın sənətkar xisləti inanmadığı, qəbul etmədiyi mövzularda əsər yaratmasına yol verməzdi və bunu etməyə çalışsa belə, əsəri bu qədər səmimi və ehtiraslı alınmazdı.

Səməd Vurğun yazırdı:

«Mən qələm yoldaşım Rəsul Rzanın Lenin haqqında yazdığı qüvvətli, təsirli poemadan parçalar oxumuşam. Cəsarətlə deyə bilərəm ki, Mayakovskinin Lenin haqqında poemasından sonra Lenin haqda bütün sovet poeziyasında belə

bir vüsətli əsər oxumamışam. Şair, Lenin haqqında öz ideyalarını, öz fikirlərini, öz böyük hisslərini sadə, savadsız bir qoca qarının dili ilə ifadə edir (Səməd Vurğun poemaya daxil olan «Qarının dastanı» hissəsini nəzərdə tutur - A.). Mən bir yazıçı və şair kimi bu ədəbi üsulun nə qədər çətin olduğunu hiss edirəm. Rəsul Rza poemanın bu hissəsini oxuyarkən mən dedim ki, bu təsvir üsulu şairin ixtirası sayılmalıdır. Bu hünərdir. Şair zəmanəmizin ən böyük insanı olan Leninin əzəmətli, həmişəcanlı, həqiqi obrazını, dərin humanizmini parlaq bədii lövhələrdə əks etdirmişdir.

(«İki ömrün işığı» kitabında).

Xatırlayıram, Natəvan klubunda bir şeir gecəsində atam «Lenin» poemasından parça oxuyandan sonra Səməd Yurğun onu qucaqladı:

«Belə ağır bir etiraf ilə
Hara gedir bu qafilə»

misralarını təkrar edərək, «bu beyt nəyə desən dəyər», - dedi.

Poemanın bədii dəyərinə qiymət verərkən Səməd Vurğun, əlbəttə, haqlıdır. Obraz zənginliyi, təsvirlərin əyaniliyi və təsirliliyi, ritm, intonasiya, təşbeh və qafiyə yeniliyi baxımından bu poema Rəsul Rzanın yaradıcılıq zirvələrindən biridir. Biridir, amma birincisi, ən ucası və şübhəsiz, yeganəsi deyil.

Sovet ideoloji sistemi şairin məhz bu poemasını geniş təbliğ edir, məktəb dərsliklərinə salır və nə yazıq ki, Rəsul Rzanı ilk növbədə «Lenin» poemasının müəllifi kimi təqdim və təqdir etmək, tanıtmaq istəyirdi. Tarixi parodoks ondan ibarətdir ki, indi müstəqillik və azadlıq dövründə, kommunizm ideolojisi tənqid hədəfinə çevriləndə də bəziləri Rəsul Rzanı yalnız tək bir bu əsəriylə təqdim etmək, tanıtmaq və suçlamaq istəyirlər.

«Mən hansı bir insana bənzədim ki, Lenini» misralarını rişxəndlə qəzet başlıqlarına çıxaranların bəxti onda gətirib ki, bu dünyaya on-on beş il əvvəl gəlməyiblər. On-on beş il əvvəl doğulsaydılar heç şübhəsiz pioner qalstuku yaxud komsomol nişanı taxıb yığıncaqlarda «Lenin» poemasından əzbər parçalar söyləmələriylə iftixar edərdilər.

2000-ci ildə Azərbaycanın Milli Məclisinə seçkilər keçirilən zaman mənim seçildiyim dairədən namizədliyini irəli sürmüş cavan jurnalist yetərincə səs toplaya bilməyib məğlub olduqdan sonra rəhbərlik etdiyi qəzetdə haqqımda ədəbsiz bir yazı yazdı və əlinin altında işləyənləri də üstümə qısqırdaraq demək olar ki, hər nömrədə mənə qarşı bir-birindən səfeh atmacalar dərc etməyə başladılar. Sanki şefinin uğursuzluğundan şefin özündən daha artıq yanıqlı olan birisi xüsusi canfəşanlıq göstərərək mənə ən ağır ittiham kimi mətbuatda müasir dövrün danosunu verirdi: «Atası «Lenin» poemasını yazıb». Guya ki, bunu Azərbaycanda bilməyən var.

Lenin haqqında Sovet İttifaqında yaşayan bütün xalqların şairləri və o cümlədən, Azərbaycan şairlərinin hamısı əsərlər yazıb. Rəsul Rzanın «suçu» ondan ibarətdir ki, digərlərindən yaxşı yazıb. Başqa şairlərin Lenin haqqında yazdığı əsərləri unudulub, ya unutdurulub, Rəsul Rzanınki hələ də yadda qalıb.

«Lenin» poemasını yazdığı üçün Rəsul Rzanı nə ittiham etmək, nə də ona bəraət qazandırmaq fikrindəyəm. Bəraətə ehtiyacı da yoxdur. Yalnız bir neçə məqamın üzərində dayanmaq istərdim. «Lenin» poeması 40-cı illərin sonunda, yəni Stalinin hakimi-mütləq olduğu illərdə, onun kultunun hər cür əndazədən çıxdığı bir dövrdə yazılıb, özü də Stalin barəsində yox, Lenin barəsində yazılıb. 30-cu illər və müharibə dövrü haqqında bir şey deyə bilmərəm, amma 40-cı illərin ikinci yarısından, yəni mənim bu məsələləri daha aydın dərk etdiyimdən bəri atamın Stalinə müəyyən dərəcədə tənqidi münasibət bəslədiyinin şahidiyəm. «Müəyyən dərəcədə» deyirəm, çünki Stalini hər halda böyük şəxsiyyət və müdrik insan sayırdı. Stalin vəfat edəndə evimizdə, yəni ailə üzvlə-

rindən başqa heç kəsə nümayiş etdirmədən səmimi-qəlbdən kədərlənir, hətta ağlayırdı. Amma o da yadımdadır ki, ən yaxın adamlarla söhbətlərində Stalin repressiyaları haqqında, dövlətin apardığı ruslaşdırma siyasəti haqqında böyük ağrıyla və narazılıqla danışardı. Rəsul Rza rus xalqının böyük ədəbiyyatına, sənətinə dərin hörmət bəsləyirdi, lakin Stalinin başqa xalqları, o cümlədən, Azərbaycan xalqını ruslaşdırması siyasəti haqqında deyirdi ki, «heç Nikolay da bu qələti eləməmişdi». Rusların böyük qardaş olmaq iddiasına işarə edərək «qardaşın kiçiyi olmaqdansa donuzun böyüyü olasan» el məsələni tez-tez çəkərdi. Bu fikri şeirlərində də ifadə edib:

«Qardaşım yoxdur.
neçə qardaş kimilərim var.
Bəlkə, belə yaxşıdır.
Məndən kiçik olsaydı
əlimdən dad çəkərdi,
Məndən böyük olsaydı
başımda turp əkərdi...»

1956-cı ildə Stalinin cinayətləri açılıb ifşa olunandan, repressiya qurbanları haqqında həqiqətlər üzə çıxandan sonra ona nifrət bəsləyirdi...

Leninə isə inanırdı. Rəsul Rzaya elə gəlirdi ki, Sovet cəmiyyətinin bütün naqisliklərı Leninin ölümündən sonra başlayıb. Lenin qalsaydı ölkənin tarixi başqa yöndə inkişaf edərdi, baş vermiş hadisələr də olmazdı. Axı hələ 81-ci ilə, Rəsul Rzanın ölüm ilinə qədər sovet xalqları da, elə dünya da Leninin əməlləri haqqında indi bildiklərinin mində birini bilmirdi, tarixdə ilk konslagerlərin Leninin iradəsiylə qurulması, ən görkəmli ziyalıların, yazıçıların, filosofların zorakılıqla xaricə göndərilməsi (hələ yaxşı ki, Sibirə yox, Avropaya), ruhanilərə divan tutulması, kəndli narazılıqlarına qarşı zəhərli qazların işlənməsi, çar ailəsinin məmə yeyəndən pəpə deyənə qədər qəddarlıqla məhv edilməsi, bütün bu amansız:

«güllələyin, asın, kəsin» tipli Lenin teleqram və dərkənarlarından bixəbərdi.

Xatırlayıram, 62-64-cü illərdə Moskvada təhsil aldığım zaman Leninlə bağlı bəzi gizli faktları ucundan-qulağından eşitmişdim: məsələn, Birinci dünya müharibəsi vaxtı Leninin İsveçrədən Rusiyaya Alman hərbi qərargahının birbaşa maddi və təşkilati yardımıyla, yəni əslində bir təxribatçı kimi gətirildiyi haqqında.

İndi hamı bilir ki, Lenin Avropadan Rusiyaya məxfi yolla, plomblanmış vaqonda gətirilib. Rəsul Rzanın poemasında isə Lenin açıq vaqonda, başqa sərnişinlərlə söhbətləşə-söhbətləşə, dərdləşə-dərdləşə gəlir. Almaniyayla müharbə aparan Rusiyada inqilab yaratmaq üçün Leninin almanlardan Parvus aldı bir adamın vasitəsilə külli miqdarda pul aldığını da Moskvada xısın-xısın pıçıldaşırdılar. Bu söhbətləri Bakıda atama danışanda heç cür inanmaq istəmirdi. «Sən belə şeylərə uyma, bu düşmən təbliğatıdır», - deyirdi.

Nə etməli ki, yalnız ucqar bir ölkədə, açılmamış arxivlərdən, sənədlərdən bixəbər Rəsul Rza deyil, hürr dünyada, ən böyük informasiya mərkəzlərində yaşayan, bir çox həqiqətlərlə, faktlarla tanış olmaq imkanlarına malik, istədiklərini istədiyi şəkildə yaza bilən neçə-neçə dəyərli sənətçi də illər uzunu bu hipnoza uymuşlar, Kommunizm ideyasına, Leninə, Stalinə pərəstiş etmişlər və çoxları indi də edir. Məşhur ingilis yazarı Herbert Uels Lenini xəyalpərvər idealist sayırdı, fransız yazıçısı Anri Barbüs Stalini mədh edirdi, Amerika jurnalisti Con Rid Leninin, Oktyabr inqilabının heyranı və salnaməçisi idi, alman yazıçısı Lion Feyxtvanger 37-ci ilin qanlı Moskva proseslərinə bəraət qazandırırdı. Fransanm ünlü şairləri Pol Elüar və Lüi Araqon, Nobel mükafatı laureatı, Çili şairi Pablo Neruda, dünyaca tanınmış sənətçilər rəssam Pablo Pikasso, kinorejissor Lukino Viskonti, heykəltəraş Mantsu, dramaturq Bertold Brext Leninə tapınan kommunistlər idi. Hələ Nazim Hikməti demirəm. Belə olan surətdə Sovet İttifaqında yaşayıb

yaradan sənətkarların Kommunist ideyalarını az, ya çox dərəcədə paylaşması, Lenini bütləşdirmələri təəccüblüdürmü?

Poemanın adı və baş qəhrəmanı Lenin olsa da, əsər yalnız konkret bir şəxsiyyət, Rəsul Rzanın o vaxtkı təsəvvürlərinə və o vaxtki bilik imkanlarına görə hətta ideal saydığı şəxsiyyət haqqında yazılmış əsər deyil. Daha artıq sosial ədalət uğrunda mübarizəni, zülmə, əsarətə, xalqlar məhbəsinə qarşı mübarizəni tərənnüm cdən əsərdir. Əsərə bu günün gözüylə baxarkən hissə qapılmadan, dağılmış bir quruluşun, Leninin ifşasında gecikmiş cəsarətimizi nümayiş etdirmədən poemaya yazıldığı dövrün kontekstində yanaşmaq, əsəri, o vaxtkı poeziyamızın, ictimai şüurumuzun, Rəsul Rza bioqrafiyasının bir faktı kimi (o sıradan, ailəsiylə bağlı məqamları nəzərdən qaçırmadan) qiymətləndirmək gərəkdir.

Əgər poemada Lenin ideallaşdırılırsa, bunun bir səbəbi də var. Çox sonrakı illərdə yaratdığı «Xalq həkimi» və «Bir gün də insan ömrüdür» poemalarında da baş qəhrəmanlar, adı birinci çəkilən əsərdə Nəriman Nərimanov, ikincisində raykom katibi - müəyyən anlamda idealizə edilmiş surətlərdir.

Rəsul Rza cibində partiya bileti daşıyırdısa və deməli, kommunizm ideolojisinin təməl prinsiplərinə səmimi qəlbdən inanırdısa, bir sənətkar kimi bu ideyaların təhrif olunmuş eybəcər şəklini deyil, onun ilkin, saf mahiyyətini və bu mahiyyətin təmiz, ləkəsiz rəmzi daşıyıcılarını qələmə almalıydı. Bu baxımdan Rəsul Rza üç iri əsərində «Lenin», «Xalq həkimi» və «Bir gün də insan ömrüdür» poemalarında hansı dərəcədəsə sosializm realizmi estetikasına yaxınlaşır, yəni həyatda olanı yox, ola biləcəyi təsvir edir. Nərimanovu siyasi yanlışlıqların və aldanışların qurbanı kimi deyil, sadə xalqın min bir dərdinə çarə axtaran humanist kimi, ziyalı kimi, həkim kimi təsvir edir. «Bir gün də insan ömrüdür» poemasının baş qəhrəmanı da daha çox tanıdığımız katiblərə oxşamır - o katiblərə ki, fikri-zikri ancaq plan doldurmaq, əksəriyyətinin isə həm də öz cib planını doldurmaq idi. Poemadakı katib insanpərvər, rəhbərlik etdiyi adamların hər dərdinə, hər qay-

ğısına qalan, dünyagörüşü, maraqları geniş, mənəviyyatı zəngin olan bir şəxsiyyətdir. Bu, əlbəttə, şairin real həyatda gördüklərindən daha artıq görmək istədiyi partiya işçisinin obrazıdır, olan yox, ola biləcək və təəssüf ki, heç bir zaman olmamış, baş tutmamış rəhbərlik, idarə üsulunun arzusu, həsrətidir.

Nəinki bizim günlərdən, «Xalq həkimi» və «Bir gün də insan ömrüdür» poemaları yazılan illərdən də çox-çox qabaq, tamamilə başqa bir dövrdə meydana çıxmış «Lenin» poemasının da əsas amalı belə bir ideal dünyanın, sosial bərabərlik («müsavat» sözü də elə «bərabərlik» deməkdir), dostluq, qardaşlıq dünyasının tərənnümü idi və o vaxt şairin inancına görə bu ideallar uğrunda mübarizəni Lenin və onun silahdaşları aparırdı.

Lenin - poemanın mərkəzi obrazı olsa da, əsərin fonu həm həcm, həm səhnələrin canlı təsviri baxımından daha önəmli yer tutur. Odur ki, təkrar edirəm, «Lenin» poeması yalnız Vladimir İliçə deyil, daha çox Oktyabr inqilabı hadisələrinə həsr olunmuş əsərdir. Həmin hadisələrə «Dünyanı sarsıdan on gün» adlı kitabını həsr etmiş, yuxarıda adı çəkilən Con Ridin mətni əsasında sovet rejiminin liberallaşma dövründə belə Moskvanın ən dissident teatrı sayılan Taqankada ölkənin ən ipə-sapa yatmayan rejissoru sayılan Yuri Lyubimov tamaşa qoymuşdu. Ən «sol» şairlərdən Andrey Voznesenski bir qədər sıxma-boğmaya salınan zaman Lenin haqqında poema yazmışdı. Dahi bəstəkar Dmitri Şostakoviç də Leninə simfoniya həsr edib. Hələ «Vladimir İliç Lenin» poemasının müəllifi Vladimir Mayakovski bir yana dursun.

Bütün bu sənətkarları qeyri-səmimilikdə günahlandırmaq olarmı?

Səməd Vurğun də elə yuxarıda sitat gətirdiyim yazısında Lenini zəmanəmizin ən böyük insanı adlandıranda, onun əzəmətli, həmişəcanlı obrazından, dərin humanizmindən danışanda tamamilə səmimi idi. Rəsul Rza da poemasında:

«Lenin - qəlbi məhəbbətlə
dolu insan!
Lenin - yersiz mərhəmətə,
fövqəlbəşər məhəbbətə,
qəti düşmən»

-yazanda səmimi-qəlbdən yazdığına inanırdı.

Bu təəccüblü deyil. Təəcüblü həmin ideoloji və mənəvi məhbəsdə hər halda öz dünyaduyumuna sadiq qalmaq, cəmiyyətin, quruluşun eybəcərliklərinə göz yummamaqdır.

Təəccüblü odur ki, rəsmi sovet ədəbiyyatı sovet adamlarının xoşbəxtliyindən, bəxtəvərliyindən, ağ günlərindən danışdığı bir zamanda Səməd Vurğun:

«Həyat» dedikləri şübhəli bir şey,
«Ölümsə şübhədən çıxmaq deməkdir»,
-yazırdı. Rəsul Rza acı-acı deyirdi:

Doğrudur «yamanlığa yaxşılıq
«həyat fəlsəfəm olmayıb.
Ancaq hansı günüm var ki,
könlümcə olsa belə
bir anı, bir zərrəsi
qayğı, nigaranlıq,
qəm olmayıb...»

Məgər Səməd Vurğunun da, Rəsul Rzanın da yuxarıda gətirdiyim misraları və onlarca, yüzlərcə belə poetik etirafları sovet şairinin, sovet adamının dünyagörüşüdür? İndi elə bir zaman gəlib ki, bu suala qorxmadan cavab vermək olar: Əlbəttə, yox. Amma axı onlar bu şeiriləri indi deyil, o vaxtlar qorxmadan yazıblar.

Doğrudur, Rəsul Rzanın da, Səməd Vurğunun da, Süleyman Rüstəmin də, Mikayıl Müşfiqin də, lap elə Əliağa

Vahidin də Leninə, Stalinə, Kommunist partiyasına həsr etdikləri əsərləri var.

Sırf bu temalarda olmasa da, günün tələbatına uyğun şeirləri də az deyil. Amma məgər yayda qısaqol köynəkdə gəzən adamı günahlandırmaq olarmı ki, sən niyə qışda isti palto geyirdin, yaxud əksinə, yayda niyə əyninə yun sırıqlı keçirmirsən? Əsas geyilən qiyafə deyil, bu qiyafələrin içindəki insandır. Onun qəlbi və şüuru, ümidləri və aldanışları, saflığı, səmimiliyi və yaxud riyakarlığıdır.

Indi içində yaşadığımız Zaman bəzi hallarda sovet dövrünü güzgüdəki kimi təkrar edir. Sovet dövründə şairləri, yazıçıları bir tərəfdən ideyalı kommunistlərə, «partbiletsiz bolşeviklərə», beynəlmiləlçilərə, o biri tərəfdən «xalq düşmənlərinə», nıillətçilərə, musavatçılara böldükləri kimi indi də ölənləri-qalanları «yaxşılara»-«pislərə» ayırmağa, ədəbiyyat tariximizdə qütbləşdirmə aparmağa cəhd edənlər var, kimlərisə günahsızlar siyahısına salıb bütün başqalarını təqsirləndirməyə çalışırlar.

Lakin ədəbiyyatımızın bütün dövrlərini obyektiv təhlil etməyi bacaran namuslu araşdırıcılarımız da az deyil. Bu baxımdan mən yazıçı və alim Rafiq Yusifoğlunun «Azərbaycan poeması» (axtarışlar və perspektivlər) kitabını lazımınca dəyərləndirirəm. Məhz bizim dövrdə deyilməsi cəsarət tələb edən fikirlər və faktlarla zəngin olan bu kitabdan bir neçə fraqment gətirmək istərdim:

«İndi imperiya dövründə yaşayan şair və yazıçıların dilindən tutub onları divana çəkmək o qədər də çətin deyil. Çünki həmin dövrdə yaşayan elə qələm sahibi tapmaq olmaz ki, Leninə, kommunist partiyasına, yeni quruluşun tərənnümünə şeir, məqalə həsr etməsin. Hətta ədəbiyyata 60-70, eləcə də, səksəninci illərdə gələn istedadlı yazıçıların əsərlərindən də kifayət qədər misallar gətirə bilərdik».

Həqiqətən də belədir.

Yadımdadır, atam ürək ağrısıyla danışardı, o vaxtlar Bəkir Çobanzadə kimi böyük alimi o günə qoymuşdular ki,

«Kommunist küçəmlə mən gedərəm,
Firqəm nə desə, onu edərəm»
kimi misralar yazmağa məcbur olmuşdu.

Belə ürək ağrısıyla mən Əhməd Cavad kimi tamamilə başqa məfkurə daşıyıcısı olan şairin də yazmağa məcbur olduğu bəzi şeirləri xatırlayıram. Rafiq Yusifoğlu kitabında Əhməd Cavadın «həqiqi sənətkarın bayramı Oktyabr», misrasını:

«Pambığın feyzindəndir,
Sarsıldı köhnə həyat
Dünyaya örnək oldu,
Kollektiv təsərrüfat».

-kimi şeirini, Mikayıl Müşfiqin «Mən kiməm, o böyük Leninin oğlu» misrasını və:

«Hamı başdan başa girmiş kolxoza,
Səyini, gücünü vermiş kolxoza,
Bütün köhnəliyi yıxırlar indi,
Elliklə ağ günə çıxırlar indi».

-şeirini xatırladıqdan sonra B.Vahabzadənin «Leninlə söhbət» poemasını da yada salır, Əli Kərim kimi gözəl, siyasətdən uzaq şairin də Lenindən məhəbbətlə əsər yazmasını və Xəlil Rzanın aşağıdakı misralarım qeyd edir:

Mənə elə gəlir ki,
Lenin mənim qəlbimdə,
Mənimlə bir doğulub.
İnsanlığın atası,
anama oğul olub.
Lenin azadlıq eşqi,
Lenin azadlıq nuru,
Tarix boyu can atmış

Bəşər Leninə doğru.
Lenin bəşərə doğru.
O mənim varlığımda
yaşayır məslək kimi,
Köksümdə ürək kimi,

(Rafıq Yusifoğlu.
«Azərbaycan poeması». 1998)

Həyatını bir «xarabatı» kimi yaşamış, yaradıcılığını, əsasən «qəzəllərə-gözəllərə» həsr etmiş Əliağa Vahidin də bu səpkili şeirləri yox deyildir:

«Bizə yaxın gələ bilmək kimin cəsarətidir.
Vətənimiz indi azad xalqların vilayətidir.
Leninə, partiyaya ellərin məhəbbətidir
Qızıl çiçəklər açıbdır fəzası ölkəmizin...»

Belə misalların sayını - başqa şairlərimizin də yaradıcılığına müraciət etməklə - xeyli artırmaq olardı. Amma belə misalları gətirməklə mən heç vəchlə bu böyük və gözəl şairlərimizin, eləcə də, bütün digər sənətkarlarımızın üzərinə kölgə salmaq istəməzdim. Ayn-ayrı misralarına, hətta ayrı-ayrı əsərlərinə görə Rəsul Rzanın ittiham edilməsini istəmədiyim təkin Əhməd Cavadın, Səməd Vurğunun, Süleyman Rüstəmin, Mikayıl Müşfiqin, Əliağa Vahidin, Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın, Əli Kərimin və XX əsrin bütün nəsillərinə mənsub olan neçə-neçə başqa şairimizin ləkələnməsinin də qəti əleyhdarıyam. Ədəbiyyat xəzinəmizə Əhməd Cavad Cümhuriyyət dövrünün milli ruhlu şeirləriylə, «Göy-gölüylə», böyük Üzeyirə ilham vermiş «Çırpınırdı Qara dəniz» nəğməsiylə, Səməd Vurğun, Süleyman Rüstəm, Mikayıl Müşfiq, Əliağa Vahid neçə-neçə gözəl şeirləriylə, poemalarıyla, qəzəlləriylə daxil olduqları kimi, sovet rejiminin amansız günlərində «Gülüstan» poemasını yaratmış Bəxtiyar Vahabzadə də bu poemasıyla və başqa dəyərli əsərləriylə, «Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram» -deyə haykıran, Lefortova məh-

başında belə döyüşkən ruhu sarsılmayan Xəlil Rza Ulutürk xalqımızın İstiqlaliyyət arzularını ifadə edən şeirləriylə, Əli Kərim də büllur kimi saf və incə poeziyasıyla ədəbiyyat tariximizdə şərəfli yer tuturlar.

Rəsul Rzaya da yalnız tək bir «Lenin» poemasının müəllifi kimi qiymət vermək insafsızlıq olardı.

O da var ki, Rəsul Rzanın poemasında Lenin ilk növbədə Çar Rusiyasında həqiqətən də mövcud olan ictimai bərabərsizliyin, haqsızlığın, zülmün düşmənidir.

«Gəzdi Volqa boyunu,
Gördü xalqın başına açılan
min oyunu.
Gördü insanların
həm toxunu, həm acını,
Gördü xalqın dərdini,
sonsuz ehtiyacını».

Poemada səmimi bir hisslə ifadə edilən fikirlər, arzular da nəcibdir:

«Bizim arzumuz budur,
Millətlər qardaş olsun.
Nə aclıq, nə qəhətlik,
nə qanlı müharibə,
nə dava-dalaş olsun.
Budurmu günahımız?
Budurmu bizim qüsur...»

Məhz elə bu ideallara uzun illər boyu ürəkdən inandıqlarındandırmı Rəsul Rzanın və onun çağdaşlarının günahı, qüsuru?

Nəhayət, son bir cəhəti də vurğulayım. SSRİ çökəndən, Azərbaycan müstəqilliyini qazanandan bəri biz, bazar iqtisadiyyatı, başqa sözlə desək, kapitalizm qururuq və bu cəmiyyətin də bütün naqisliklərilə hər gün üz-üzə gəlirik.

Zəmanəmizin çox dəqiq bir zarafatı var: Sovet təbliğatı bizə Kommunizm haqqında nə deyirdisə, hamısı yalan çıxdı, amma kapitalizm haqqında nə deyirdisə, hamısı düz oldu. «Lenin» poemasıdan bir parçanı yenidən oxuyanda mənə elə gəldi ki, bugünkü Bakının mənzərəsini görürəm:

«Tamaşalar, şux baletlər.
Kazinolar. Kef. Qumar.
Yuxusuz gecələrdən,
İçgidən, incilərdən
Gözləri qıpqırmızı

bir qan çanağı kimi
ağalar, zədəganlar...»

***

1951-ci ildə Rəsul Rza «Lenin» poemasına görə SSRİ-nin o vaxt ən yüksək mükafatı olan Stalin mükafatıyla təltif olunur. Amma bu şairə heç bir sevinc gətirmir. Çünki elə həmin il, həmin aylarda çox-sevdiyi kiçik bacısı, ailələrinin son beşiyi memar Turə uşaq doğuşu zamanı vəfat edir, bir il sonra isə bu dərdə dözə bilməyən anası Məryəm xanımı itirir.

Bibilərimin ən çox sevdiyi şairlər Sabir və Tofiq Fikrət idi. Yadımdadır, mən uşaq olarkən Turə Tofıq Fikrətin «Həmşirəm üçün»(Bacıma) şeirini əzbərdən oxuyardı:

«Biz çocuqduq, səni dəfn eylədilər,
Bivəfa qumlara biqeyd əllər.
Sən ölmədin, səni öldürdülər, zavallı qadın.
Öldürdülər... Bu həm də bu gün, indi olmadı,
Çoxdan gömüldü hüsnü şəbabın, zərafətin,
qəlbin, qadınlığın, şərəfin, istirahətin
Bir an didikləməkdən o xain yorulmadı.
Bitdi çamurlı dırnağı altında gilzətin!»

O da yadımda qalıb ki, bir dəfə Turə həmin şeiri oxuyandan sonra: «Bilsəydim ki, qardaşım mənə belə şeir yazacaq, ölməyə razı olardım», - dedi.

Turənin ölümündən çox illər sonra, - görünür, isti-isti, dərdin yaraları bir qədər ovunmamış yaza bilməyib - Rəsul Rza kiçik bacısına həsr olunmuş «Anamın gəlin qızı" poemasını yaratdı.

"Bilmirəm ki, tabutun
şamdır, yoxsa arçandır.
Sənin son səfərindir,
bizim səfər haçandır?!
Sinəmdəki bu ürək
tabutundan ağırdır.
O qanlı barmaq hara,
bu sakit ölüm hara!
Tabutun kölgə salıb
indi qəmli yollara,
Anamın gəlin qızı!
On ildən artıq olur
Bu şeiri başladığım,
Yazıb-yazıb pozuram,
Heç qurtara bilmirəm.
Yanıqlı xatirələr
Hey gəlir axın-axın.
Hara qaçım onlardan,
hara, hara, bilmirəm!
Otaq.
Masa.
Masanın üstündə
bir cənazə.
Hansı həyat lövhəsi,
hansı sənət əsəri
var ki...
bir an içində
çökə ağır dağ kimi,

insanı birdən əzə
Cənazə sapsarı mum.
Mən bir yanda qurudum
Bir yanda, bir yanda da..
Əgər allah var isə,
küllü ixtiyar isə,
gərək
bu mənzərəni görüb
qan ağlayaydı.
Əzraili
yetmiş il
belə cinayət üçün
əli, qolu zəncirli
dustaqda saxlayaydı.
Əgər allah var isə,
külli ixtiyar isə,
ağsaçlı bir ananın
qarşısında diz çöküb
Gərək üzr istəyəydi.
-Yoxdur, yoxdur xəbərim,
Bu, şeytani-ləinin
əməlidir, deyəydi.
Neçə-neçə il keçib
o gündən
və bu gündən,
Ürək yüngülləşməyib
bu itkinin yükündən.
Toy da, bayram da olur,
Şənlik də, ad günü də.
Ancaq ki, ürəyimdə
damğa yanığı kimi
qalıb sənsiz ananın,
«verin mənim balamı!»
-deyən fəryad günü də!
Anamın gəlin qızı!

Deyərdin: «Sən şeir yaz,
Mən layihələr çəkim ».
İndi sənsizliyinin
dərdini necə çəkim?
Niyə pozdun
o böyük, o yaxşı andımızı,
Anamın gəlin qızı!»

(1959-1970)

Bir il sonra itirdiyi anasının da qübarını Rəsul Rza ömrü boyu unutmurdu. Bu ağrı, bu həsrət neçə-neçə şeirində ifadə olunmuşdur.

«Min-min ana içində,
anamı tanıyaram,
gözlərimi bağlasalar belə. Tanıyaram
ayaq basdığı torpağın qoxusundan,
qəlbimə dolub boşalan
onu itirmək qorxusundan...

(«Ana» şeirindən. 1957)

«Mən ana məhəbbətindən doymamışam
əgər doymaq mümkünsə.
Anam məhəbbətini yüz yerə böldü
vaxtını, qayğısını, gözünün işığını,
Ürəyinin taqətini,
Bir insan gücündən
qat-qat çox olan işini bölən kimi...
«Soyuqdur, qayıt pencəyini gey!»
Öz-özümə təəccüblə deyirdim,
Soyuq hanı?
O zaman bilmirdim,
şaxta, sazaq deyil,
nigaranlıq üşüdür ananı.
Nə bileydim ki, mən beşikdə yatanda,
yuxuda qovlayanda

qanadları əlvan kəpənəkləri,
gecəyarı sən
«Dağda dardar,
Sünbülü sarılar», - deyə
Mənə qurban verirdin qoca qarıları?
Tez-tez könlümə laylan düşür,
könlümə nağılın düşür.
Elə düşür ki,
göynəyinə dözə bilmirəm.
İstəyirəm qaça-qaça,
qayıdam uşaqlıq günlərinə.
Bir-bir atam yollara
Şöhrəti, adı, imtiyazı
nəyim var:
kitab, dövlət, yazı.
Xəyalım illərin
uzaq-uzaqlığından qayıdıb
yorğun-arğın.
Məni düşmən qoşunu kimi
aralığa alıb
dilsiz divarları otağın.
Səsim çatmır, ünüm yetmir deyəm:
-Ana! Ana!
Bir cırtdan nağılı danışsana!»

(«Ana, nağıl dünyasına apar məni» şeirindən.1966-67)

Ən uzaq qitələrdə, böyük okeanlarda da ana nisgilini daima ürəyində daşıyırdı Rəsul Rza.

«Dörd yanım dənizdir,
gömgöy!
Başımın üstündə
buludsuz göy.

Göz işlədikcə işləyən əngindən,
dənizin rəngindən,
gəmimizi yalayıb keçən
ağ ilan köpüklü suların ahəngindən
sərxoşam.
Yol uzaq.
Gedirik dənizi yararaq.
Arxada yavaş-yavaş
üfüqə çökür axşam.
Xatırlayıram,
neçə belə axşamın arxasında,
ömrün uzaq sahilində,
dağ kimi
qalaq-qalaq yığılmış
illərin yaxasında qalan günləri...
Beş yaşlı uşağam
Tüstülü ocaq başında,
qolları çirməkli
paltar yuyur anam,
Sonra göy suda
axara çəkir paltarları.
Gömgöy su ilə doludur
qalaylı tiyan
Mən də bu tiyanın yanındayam,
Kağız gəmi salıram
bu göy suya
Sonra ovurdlarımı şişirdib
gücüm gəldikcə üfürürəm.
Gəmim gedir yırğalana-yırğalana.
Əllərimi vurub bir-birinə
Bağırıram. Ana! Ana!
Gəmimə baxsana!
Ayrılaram xəyaldan
Üfüqlərə çöküb axşam.
Okean gəmisində

göyərtədə durmuşam.
İllər köçüb gedib.
Nə tüstüsü gözümü göynədən
ocaq var,
nə qara saçlı anam.
Yolum ucsuz-bucaqsız okeana.
O günlərdən ancaq
xalirimdə
balaca kağız gəmimin ağ yelkəni qalıb
bir də
geri dönməyən çocuqluq illərinin
yumşaq tikəni qalıb.

(«Ötən günlər» şeirindən, 1958)

***

Stalin mükafatı alandan sonra Rəsul Rzanı bir müddət rahat buraxmışdılar, amma bu müddət çox qısa oldu.

Bir-iki il sonra yenə kəskin hücumlar başladı. 1954-cü il oktyabrın 9-da «Ədəbiyyat və incəsənət» qəzetində «Ədəbiyyatımızın bəzi məsələləri» məqaləsində atamın «köhnə dostu, təzə düşməni», müəyyən illərdə Rəsul Rzanın rəhbərliyi altmda kino sahəsində və «Azərbaycan» jurnalında çalışmış «həm dramnəvis, həm romançı, həm tənqidçi» Mehdi Hüseyn – yazırdı:

«Görünür ki, «biz kənddən çox yazırıq, ədəbiyyatımızı bir tərəfli istiqamətləndiririk», - deyən yazıçı öz səhvinin ciddiyyətini layiqincə dərk etmir. Azərbaycan sovet yazıçılarının açıq partiya iclasında bu zərərli fikri ortaya atan və beləliklə də, qaba siyasi səhvə yol verən Rəsul Rza yoldaş yazıçılarımız tərəfindən haqlı tənqid atəşinə tutuldu. Əlbət ki, belə bir səhvi təsadüfi saymaq olmaz. Çünki bu səhv fikrin arxasında sovet ədəbiyyatının vəzifələrini düzgün dərk etməmək kimi bir qüsur gizlənir. Təsadüfı deyildir ki, Rəsul Rzanın son şeirlərində

zamanımızın aktual mövzularından deyil, ən çox meşşan lirikasına qida verən əhval-ruhiyyədən danışılır. Bu gün biz hər məclisdə sovet adamlarının gözəl əxlaqi keyfiyyətlərinə ziyan vuran halları ciddi surətdə tənqid edirik, ümumi intiresləri pozan adamları satira atəşinə tuturuq, böyük siyasi-təsərrüfat məsələlərinin həlli üçün bütün xalqımızı daha yaxşı səfərbərliyə alırıq. Bu vaxt Rəsul Rza yəqin ki, yenə də orijinal görünmək üçün:

«Ev sahibi bu gün bizdan küsməsin,
Oğrun-oğrun adamları süzməsin,
Süfrəmizə xırda qədəh düzməsin
(qaraltma məqalə müəllifinindir - A.)
Məscid deyil, ibadətdən danışaq.
Gəlin dostlar, səxavətdən danışaq», - deyir.

Qəribə burasıdır ki, şair həmişə yazıçı yoldaşlarına siyasətdən dərs deməyi sevir, amma özü belə söz oyuncaqlarına və ideyasızlığa uyur:

«Pəncərəmdən gələn yaz,
Yazılmamış bir nəğmənin
İlk xalları kimidir.
Bir körpənin xəyalları kimidir.
Həqiqətdir, əfsanəyə bənzəyir,
Bir xəyaldır, həqiqəti bəzəyir».

Rəsul Rza «kənddən çox yazırıq, fəhlə sinfini unutmaq olmaz», - deyərkən bu cür əsərləri nəzərdə tutursa, buna ən azı təəccüb etmək lazımdır. Çünki bu formalistik söz oyuncaqlarının ümumən sovet poeziyasına heç bir dəxli yoxdur» (Bu son fikir doğrudur - A.).

Otuzuncu illərdən başlayaraq hər onillikdə Rəsul Rzaya qarşı təşkil olunan kəskin tənqid kompaniyalarına zamanın bu günündən nəzər salarkən bir şey diqqətimi çəkdi: Hər onillikdə

Rəsul Rzanın məhz SON şeirləri tənqid olunur. Sonra vaxt keçir, tənqid olunan şeirlər ədəbiyyat tarixində öz yerini tutur, layiqincə qiymətləndirilir, ciddi etiraz doğurmur və onda da yeni SON şeirlər tənqid olur. Ta ki, onlar da həqiqi qiymətini alıb tənqid hədəfi kimi öz yerlərini yeni SON şeirlərə verənəcən.

«Ədəbiyyat və incəsənət» qəzetində (6 noyabr, 1954) dərc olunmuş «Lirik şeirlərimiz haqqında» məqaləsindən: «Azərbaycan» jurnalının bu ilki 9-cu nömrəsində R.Rzanın «Yaz gəlir» kimi başdan-başa mücərrədlikdən, söz oyunundan ibarət olan əsərindən başqa «İnsaf da yaxşı şeydir», «Toy nəğməsi» və «Süfrə nəğməsi» adlı üç lirik şeiri dərc olunmuşdur. Xalqımız öz təbiəti etibarilə səxavətlidir. Xalqın bu ənənəsilə böyümüş azərbaycanlı evinə qonaq çağırıb süfrə açarkən, heç kəsə qaşqabaq sallamaz, xəsisilik edib öz nemətini qonaqlardan əsirgəməz. R.Rza isə bütün bunlara qarşı laqeyd qalaraq yazır ki:

«Ev sahibi bu gün bizdən küsməsin,
Oğrun-oğrun adamları süzməsin.
Süfrəmizə xırda qədəh düzməsin
Məscid deyil ibadətdən danışaq,
Gəlin dostlar səxavətdən danışaq.»

Belə bir şeirə «Süfrə nəğməsi» adı vermək bizim milli adətimizə, xalqımızın səxavətinə, adamlarımızın səmimiyyətinə böhtan atmaq deməkdir.

R.Rza «İnsaf da yaxşı şeydir» şeirində isə bugünkü adamlarımızın mənəviyyatı ilə bağlı olan heç bir real əhval-ruhiyyəni ifadə cdə bilməmişdir. Məzmun, fikir orijinallığına, hiss və həyəcan reallığına laqeyd münasibət bəsləyən müəllif formaya uymuş, gəlişi gözəl sözləri qafiyələndirmiş, konkret, özü də rəğbətli bir məzmun ifadə etmək qayğısına qalmamışdır».

Tənqidimizin ciddi probleminə çevrilmiş «Süfrə nəğməsi» sadəcə bir şux məclis nəğməsidir, nə az, nə çox. Bu

nəğmənin bircə misrasından yapışıb millətə, xalqa «qahmar» durmaq absurd təsiri bağışlayır.

«Yaz gəlir» şeiri Rəsul Rzanın yeni çoxcildliyinə daxildir. Oxucu onu mütaliə edib nə dərəcədə «mücərrəd» və «söz oyunundan» ibarət olduğunu təyin edə bilər. «İnsaf da yaxşı şeydir» şeirinə gəlincə, xatırladım ki, söhbət sonralar Azərbaycanda (həmçinin Türkiyədə) ən populyar mahnılardan biri olan mahnının mətnindən gedir (Musiqisi Emin Sabitoğlunundur).

Məqalə müəllifi sözünə davam edir:

«Məcnun olub «min fəryad qoparmaq», vurulduğu dəymədüşər qızın «gözlərinin rəngini dağlarda axtarmaq» arzusuna düşmüş bu lirik qəhrəmanla həyata dərindən bağlı olan, yüksək bir məhəbbətlə sevən bugünkü sovet gənci arasında nə kimi əlaqə ola bilər? Müəllif şeirə «İnsaf da yaxşı şeydir» adı verməklə, görəsən, hansı dövrün adamının insafından danışır, «insaf» və «yaxşılıq» dedikdə, görəsən nəyi nəzərdə tutur?

Bütün bu təhlil etdiyimiz şeirlər bizim lirikamızın sağlam atmosferasına bir bayağılıq gətirir. Belə şeirlərin qarşısı alınmalıdır! (Məhz belə: «Qarşısı alınmalıdır!» - A.) Bu ruhda «lirik» şeir yazmaq meyli sənətkarlarımızın diqqətini indi qarşımızda duran çox ciddi yaradıcılıq məsələlərindən müəyyən dərəcədə yayındırır. Partiyamızın MK-sı kənd təsərrüfatı məhsuldarlığını artırmaq, kolxoz və sovxozlarımızı yeni inkişaf mərhələsinə qaldırmaq, beləliklə də, kütlələrin maddi rifahını durmadan yaxşılaşdırmaq üçün tarixi qərarlar qəbul etmiş, böyük tədbirlər görmüşdür. Poeziyamız bu tədbirlərin həyata keçirilməsi işinə, adamlarıımzı daha da ruhlandırmağa borcludur. Buna görə də bir sıra şairlərimizin poeziyamıza bayağılıq gətirən lirikaya uyması dözülməzdir»

Rəsul Rzanın partiyanın hər yeni qərarı ruhunda şeir yazmadığı üçün, kənd təsərrüfatında məhsuldarlığın artması naminə kolxoz və sovxozların inkişafmı nəzmə çəkmədiyi

üçün tənqidin ona qarşı dözümsüzlüyü növbəti dəfə şairin DÖZÜMüylə qarşılaşdı.

Oxucu yəqin fərqinə varır ki, mən Rəsul Rzanın əleyhinə yazılmış məqalələrin müəlliflərinin adlarını çəkmirəm.

Əvvəla ona görə ki, çoxu rəhmətə gedib. Rəhmətə gedənlərin, o cümlədən, elə atamın da dalınca danışmağı şərəfsizlərin öhdəsinə buraxıram - onlar bu işi yaxşı bacarır və həvəslə edirlər. Amma mətnindən sitat gətirdiyim bu son məqalənin müəllifi çox şükür, sağdır. Mən onun da adını çəkmirəm, birincisi ona görə ki, hər şeyə rəğmən bir alim və ağsaqqal kimi ona hörmət bəsləyirəm. İkincisi ona görə ki, özü mənə etiraf etdiyi kimi o vaxt yazdığı məqaləsinin peşmançılığını çəkir. Bu etirafın səmimiyyətinə inansam belə o məqalədən parçaları gətirməyə də bilməzdim: Yazılana pozu yoxdur və o dövrdə Rəsul Rzanın hansı mühitdə, hansı ab-havada yaşayıb-yaratdığını hiss etməkçün bu mətnlərin üstündən keçmək olmaz. Bir də ki, bu mətnlərlə tanış olmadan atamın bəzi misralarının da ünvanı bilinməz.

«Su içməkçün göy fıncanı götürəndə əlinə
Məlik kişi oğrun-oğrun baxır qıza, gəlinə.

Yox, oğrun yox, doğrun baxır, oğrun baxmaq yasaqdır,
Tənqidçimiz buyurubdur bu xüsusda haçaqdır!»

(«Bir qaragözlü haqqında ballada». 1959)

«Lenin» poeması təltif və təqdir olunandan bir neçə il sonra Rəsul Rzaya qarşı güclü tənqid kompaniyasında hətta bu əsər də «canını qurtara» bilmədi. «Ədəbiyyat və incəsənət» qəzetində poemada istifadə olunan axtarış, soraq formasına etiraz olunurdu:

«Lenini «axtarmaq», onun məhəbbətini görüb göstərmək üçün scçilən bu «Soraq» forması, bu yolla «ayaqların yarıq-yarıq olması nağıllara məxsus köhnə bir üsuldur. Xüsusilə sovet

adamlarından, sovet həyatından söhbət gedəndə bu «axtarış» forması yaramaz. Çünki Lenin hər bir sovet adamının qəlbindədir...

Lenin bir çıraqdır ki,
xalqların məhəbbəti
onun pərvanəsidir.

Məhəbbətin təsvirində çıraq-pərvanə münasibəti gətirmək qəzəl şeirində dəb idi. Lenin haqqında, xalqın dahi rəhbərə bəslədiyi böyük və tükənməz məhəbbət haqqında isə bu cür təsvir münasib ola bilməz. Şeirdən gətirdiyimiz ifadələr isə bu məzmundan uzaqdır».

Tənqidçilərin qarşısına qoyulan məqsəd aydın və dəqiq idi: nəyin bahasına olursa olsun Rəsul Rzanı suçlamaq, onun yaradıcılığında ancaq və ancaq nöqsanlar axtarmaq. Bəli, məqsəd aydın idi, ancaq tənqidçiləri pərişan edən başqa məsələ vardı: görəsən, Rəsul Rzanı nədə günahlandırmaq daha münasibdir, ədəbi ənənələrə zidd getməkdə, onlara biganəlikdə, yaxud əksinə, arxaik ənənələrə aludəçilikdə, nağıl, qəzəl üsullarından istifadə etməkdə?

Doğrudan da burada «mətləb bir az tul» idi...

***

Universitetə təzə girmişdim, birinci kursda oxuyurdum, bir gün kimsə Universitet qəzetini gətirib mənim skamyamın üstünə qoymuşdu. Universitetin həyatını işıqlandırmalı olan kiçik formatlı qəzetin iki nömrəsi başdan ayağa Rəsul Rzanın tənqidinə həsr olunmuşdu. Universitet müəllimlərindən biri şairin o vaxt iyirmi beş illik yaradıcılıq yolunda heç bir işıqlı nöqtə görmürdü və xüsusi hiddətlə yenə də onun məhz SON şeirlərini yamanlayırdı. Əsas iradlardan biri bu idi ki, Rəsul Rza nərgizin asfaltı dəlib çıxmasını qələmə alıb. Tənqidçi

mötəbər bir tərzdə «nərgiz asfaltı deşə bilməz, bunu ancaq qanqal edə bilər» deyə hökm verirdi.

Atam o vaxt Bakıda yoxdu, çox gəncdim, məqalə mənə ağır təsir göstərmişdi, oturub ona kəskin bir cavab yazdım. Bu həyatımda ilk tənqidi məqaləm idi. Yazımın bir yerində qeyd edirdim ki, məqalə müəllifi ola bilsin qanqala yaxşı bələddir, amma şeir haqqında fikir yürütmək üçün bu azdır.

Atam Bakıya qayıdanda əvvəlcə öz yazımı ona verdim oxusun.

Oxuyub gülə-gülə: Nə yaman qəzəbli yazmısan, - dedi. Sonra o tənqidi məqaləylə tanış olandan sonra yenə gülə-gülə: - hər cəfəngiyata fikir verməyə dəyməz, - dedi.

Bu söhbət yadıma 48 il sonra İstanbulda dərs dediyim zaman düşdü. 93-cü ildə Memar Sinan Universitetinin dəvətiylə yeddi ay İstanbulda Azərbaycan ədəbiyyatını tədris etdim. Hamı daha uzun müddətə Türkiyəyə də, daha uzaq ölkələrə də işləməyə gedir. Hətta indi gedənlərin bir parasını qəhrəman kimi də təqdim edirlər. Mənim nisbətən qısa müddətli gedişim isə mətbuatda hay-küyə səbəb oldu. Hərə bir şey yazır, bir yerə yozurdu. Qəzetləri mənimçün saxlamışdılar. Yazılardan biri daha insafsız idi (Doğrudan, insaf da yaxşı şeydir bütün dövrlərin adamları üçün).

Bu yazı haqqında da, oğlum Turalın ona verdiyi cavab haqqında da xəbər tutanda uzaq Universitet illərimdəki olay yadıma düşdü.

Ancaq mənim o vaxtkı qəzəbli yazımdan fərqli olaraq Turalın yazısı daha təmkinli, daha məntiqli və tutarlı idi. Həm də mənim yazım heç vaxt heç yerdə dərc olunmadı, Turalın cavabı isə «Xalq qəzeti»ndə çıxdı.

***

1954-cü ilin aprel ayında Azərbaycan Yazıçılarının II Qurultayında məruzə edən İttifaqın sədri deyirdi:

«Rəsul Rza şeirlərində çatışmayan cəhətlərdən ən ümdəsi onun şeirlərində insani hiss və coşqunluğun, ehtiras və ürək

döyüntüsünün azlığıdır. Mənə elə gəlir ki, R.Rza şeirində ürək və hissdən çox mühakimə, şüur iştirak edir. (Şüurun, mühakimənin iştirakı böyük günahmış! - A.). Nə isə, sən bu şeirləri oxuyanda bir soyuqluq hiss edirsən, qızmırsan. Sənət duyğuları ilə alovlanmırsan. Bir də tənqiddə R.Rzanın xalq yaradıcılığına biganə olduğunu deyirlər. Mətbuat səhifələrində ciddi münaqişə və etiraza səbəb olan bir məsələyə qarşı mən də qurultay qarşısında bir məruzəçi kimi öz münasibətimi bildirmək istəyirəm:

«Kür qırağının əcəb seyrəngahı var,
Yaşılbaş sonası yaxşı ki, yoxdur.
Boz dağın ətəyi insan əlindən
indi yarıq-yarıq, oyuq-oyuqdur».

(Xatırladım ki, M.P.Vaqifin şeirindəki misralar belədir: "Kür qırağının əcəb seyrəngahı var, Yaşılbaş sonası hayıf ki, yoxdur» - A.)

Mingəçevir tikintisilə bağlansa da ruh və məna etibarilə bu şeir düzgün deyildir. Rəsul Rza öz şeirini nəhəng Vaqif tradisiyasına qarşı qoyur, ona ehtiram və məhəbbətlə yanaşmadığını göstərir. Sözdə R.Rza tamamilə başqa cürə deyir, Vaqif yaradıcılığına pərəstiş etdiyini söyləyir. Biz isə bu şeiri Vaqif ənənələrinə sadiq olan şairlərə qarşı etiraz, yanlış bir münasibət kimi qiymətləndirmək istəyirik!» («Ədəbiyyat və incəsənət» qəzeti 17 aprel 1954).

Rəsul Rza yalnız sözdə deyil həqiqətən də Vaqif şeirinə dərin hörmət bəsləyirdi, onu keçən əsrlərdə hecayla yazan üç böyük şairimizdən (M.P.Vaqif, M.V.Vidadi, Aşıq Ələsgər) biri hesab edirdi. Hələ 40-cı illərdə yazdığı bir şeirndə Molla Pənah Vaqif haqqında belə misralar var:

«Vaqif, vətən torpağının şirin sözlü bəstəkarı
Ana dilli şeirimizin, çiçəkləyən şən baharı!
Öz dilində, öz elində, öz xalqına yazan Vaqif,
Farsın bizə yad ruhunu dilimizdən pozan Vaqif.

Qurban oldu gözü qızmış bir azğının qəzəbinə,
Lakin onun təmiz ruhu el qəlbində qaldı yenə...»

Şairin «Görmədim» müxəmməsi atamın ən çox sevdiyi şeirlərdən idi. Vaqifin bir çox başqa qoşmalarını da əzbər bilir, «Sən elə gözəlsən binədən, pəri» misralarını xüsusi heyranlıqla təkrar edərdi.

Hətta haçansa, qırxıncı illərdə bu şeirə elə «Pəri» adlı bir bənzətmə də yazmışdı:

O boy-buxun gözlərimə dəyəndə,
Xəstə ruhum tazələnir ay Pəri!
Hərdən kaman qaşlarını əyəndə,
Elə bil ki qırılacaq yay, Pəri.

O sallanış, o davranış, o əda,
Şirin olub, qüssə verir Fərhada,
Sən atdı olmusan, könlüm piyada,
Hansı eldə olar sənə tay, Pəri?

Səbir dedin, bilmədim ki, dəryadı,
Ərşə çıxdı həsrət könlüm fəryadı,
Dost elədin hər nadanı, hər yadı,
Çəkdiyim əməklər oldu zay, Pəri.

Yerişdə ceyransan, duruşda maral.
Qonmuş yanağına bir cift qara xal.
Dodağın aləmə salıb qilü-qal
Gözlərinə heyran olub ay, Pəri.

O sayaq baxma gəl, sən xumar-xumar,
İllərdir könlümün bir arzusu var,
Səxavətə gəlib bir gün nə olar
Ver mərcan ləbindən mənə pay, Pəri!

Tək bir dəfə, 1946-cı ildə Rəsul Rzanın «Vəfa» kitabında dərc olunmuş, sonralar heç bir kitabına və o cümlədən, indiki çoxcildliyinə salınmayan bu şeiri bütünlüklə gətirirəm ki, Rəsul Rzanın Vaqif poeziyasına da, xalq şeir səpkisinə də münasibəti aydın bilinsin. Göründüyü kimi, bu münasibət heç də məruzəçinin dediyi kimi deyildi.

Vaqifin bir misrasını bu şəkildə dəyişməsini, Molla Pənah yaradıcılığına, hələ üstəlik Vaqif ənənəsinə sadiq qalan şairlərə qarşı yönəldiyini hansı məntiqlə söyləmək olar? Belə məntiqlə Füzuli və Füzuli ənənəsinə sadiq qalan şairlərə qarşı ən böyük «hörmətsizliyi» Mirzə Ələkbər Sabir göstərib, çünki böyük Füzulinin ən incə, ən zərif qəzəllərini tamamilə başqa səpkili satirik şeirlərində təxmis edib. Misal gətirmirəm, çünki hər bir savadlı azərbaycanlı onları bilir.

Gözlərə yüzlərlə şair və aşıq söz qoşub. Rəsul Rza da məhz bu yeknəsəkliyə etiraz kimi «Gözlər» qoşmasını yazıb. Ənənəvi üslubda:

«Biri qara dedi, biri alagöz,
Bu, ceyrangöz dedi, o, piyalə göz,
Mənə nə iri göz, nə də bala göz,
Ruhuma xoş gəlir miyana gözlər»

bəndiylə başlanan şeirin polemik ruhu yalnız sonuncu misralarda bilinir:

«Dərin bir dəryadır şair xəyalı
Götürdüm boynuma şəri, babalı.
Biri alça dərir, biri gavalı
Heç bilmirəm baxır hayana gözlər?»

Bu səpkili misraların, şeirlərin ruhu yenə də böyük Sabirin «Qahqah qəribə gülməlisən xaniman xərab» şeirində ifadə olunmuş ruh idi - çeynənmiş, yıpranmış təşbehlərə, bənzətmə-

lərə, şit mübaliğələrə etiraz ruhu. Bunu başa düşmək çətin iş imiş?

Bəlkə də, başa düşürdülər, amma məqsəd ayrı cür proqramlaşdırılmışdı və odur ki, tək elə bu iki misraya görə tənqidçilər xeyli mürəkkəb işlətməli oldu.

Müxtəlif vaxtlarda gah Rəsul Rzanın şeirlərinə tərifnamələr yazan, gah da onlara qarşı səlib yürüşünə çıxan bir tənqidçi «Ədəbiyyat və incəsənət» qəzetində (12 sentyabr 1953) «Sənətkarlıq haqqında» üçüncü məqaləsində yazırdı:

«Məsələn, Rəsul Rzanın «Bu günün həqiqəti» adlı şeirini alaq. Bəzən adama elə gəlir ki, bu şeir yalnız birinci iki misra xatirinə yazılmışdır. Doğrudan da, axı Vaqifin gözəl və qüvvətli şeirini bu şəklə salmağın mənası nədir? Bir də axı iki kəlməni dəyişməklə Vaqif misralarının qüdrətli bədii təsirini qırmaq mümkün deyildir və buna ehtiyac da yoxdur. Nəticə isə göz qabağındadır: Vaqif yenə də Vaqifliyində qalır, R.Rzanın beyti isə sönük və süni çıxmışdır».

Bircə şey göz qabağında deyil, Rəsul Rzanın beyti bu qədər süni və sönükdürsə bu iki misranın ifşasına yüz-yüz sətiriər sərf etməyə nə hacət?

Mən yalnız o illər «Ədəbiyyat bəzi və incəsənət» qəzetində çap olunan yazılardan bəzi. nümunələr gətirdim, amma axı başqa qəzetlər də vardı. Məsələn, deyək «Azərbaycan gəncləri» qəzeti ailəmizin bütün üzvləri haqqında bir-birindən kəskin tənqidi yazılar verməyi özünün Azərbaycan gəncliyi qarşısında müqəddəs borcu sayırdı. Sözlərimdə heç bir mübaliğə yoxdur. Məhz bu qəzetin səhifələrinə ayrı-ayrı vaxtlarda Rəsul Rza, Nigar Rəfibəyli, Ənvər Məmmədxanlı və mənim elə ilk qələm təcrübəm haqqında kəskin məqalələrdən başqa babam Xudadat bəy Rəfibəylinin də xatirəsini təhqir edən yazı dərc olunmuşdu. Hələ «Azərbaycan» jurnalı da vardı və onun səhifələrində də Rəsul Rzaya qarşı az hücum olmayıb. Atam bu sayaq yazılara ciddi reaksiya vermirdi, çünki nə səbəbə və kimlər tərəfindən fitvalandığını bilirdi. Amma ara-

sıra polemik şeirlər və ayrı-ayrı misralarla onların bəzilərini cavabsız da qoymurdu.

«Tənqid yarınmaq deyil,
Tənqid barınmaq deyil.
Tənqid nəcib sənətdir
Tənqid yeddi oxuyub,
birini qanmaq deyil.
Tənqid də iş növüdür,
Bu nə zordur, nə də güc.
Nə gərəkdir tənqidə zəhər,
duz, iynə, ülgüc?
Sığallı, səksəkəli,
sətirləri ləkəli,
yüz eyhamlı, kölgəli
tənqidin həm şairə,
həm də onu yazana
vallah, bir xeyri yoxdur.
Istəyirsən sözünü,
kükrəyən alovla yaz,
istəyirsən buzla yaz.
Bircə şərti unutma:
Nə yazsan , namusla yaz!
Sözümdən inciməyin,
Çünki özünə görə
yeri var hər əməyin.
Mən şeirimi oxuyum,
Siz köhnə sitatları.
Sevgili vaxtdaşlarım,
Təzkirə doktorları,
Filan-filan əsrdə,
filan cüngün
mötəbər elm kandidatları.
Təzkirə, cünk deyəndə,
zənn etməyin mən elmin

əleyhinə gedirəm,
Yox, yox, tövbə.
Mən ancaq
deyirəm, təzkirə də,
cüng də lazımdır bizə,
Lakin köhnə vərəqlər
hörmətlə yad edilib
kölgə salmasın gərək
müasir üstümüzə.
Yenilikdən qaçmayın
Hər dəfə
yeni sözü gələndə,
tər-tələsik, iki
dırnaq açmayın.
Daş daş üstə qoymasaq,
ucalarmı binalar?
Torpaq daxmada bir de,
indi yaşamaq olar?
Təyyarəmiz var ikən
arabaya minəkmi?
Traktoru olanlar
Torpağı xışla əkmir.
Gələcək-yenilikdir,
öyrənişdir, bilikdir
Insan ölü deyilsə,
yeniliyə meyl edir.
Hərdən bir açıq-aydın,
mən sizdən gileylənir,
yeri gələndə,
bir azca sancıramsa
nə olar?
Mənim də bədənimdə sizin küt iynənizdən
göynək yaralarım var.

(«Tənqid nəcib sənətdir» şeirindən, 1959)

«Təyyarəmiz var ikən, arabaya minəkmi» misraları Sabirin «Əcnəbi seyrə balonlarla çıxır, biz hələ avtomobil minməyiriz» nisgilini xatırlatmırmı? Bu illərdə də, bundan əvvəl və bundan sonra da Rəsul Rza haqqında çox vaxt elə bəzi həmkarları tərəfindən verilən danoslar iki növ idi. Biri «Dəniz qırağına» NKVD-yə, KQB-yə verilən gizli danoslar, biri də mətbuat səhifələrinə çıxarılan açıq danoslar. Amma bu danoslar mahiyyəti etibarilə bir-birindən tamamilə fərqli idi. Təhlükəsizlik orqanlarına çatdırılan anonim, ya imzalı danoslarda Rəsul Rza millətçi, türkçü, sovet quruluşunun gizli düşməni kimi qələmə verilirdi. M.C.Bağırovdan Heydər Əliyevəcən respublikaya müxtəlif illərdə rəhbərlik edənlərə də, təhlükəsizlik orqanlarından görünür, məhz bu səpkili məlumatlar gəlirmiş. Açıq mətbuat səhifələrində Rəsul Rza milli dəyərlərə etinasızlıqda, ədəbi ənənələrə biganəlikdə, klassik bədii irsimizə laqeyd münasibətdə günahlandırılırdı. Birinci ittihamlarda - nalayiq danos şəklində olsalar da, müəyyən həqiqət vardı: əlbəttə, Rəsul Rza millətçi deyildi, amma millətini ürəkdən sevən, ömrü boyu onun varlığı, mənliyi, dili, ədəbiyyatı, inkişafi və gələcəyi yolunda yorulmaz mübarizə aparan adam idi. Türkiyəyə, türk ədəbiyyatına rəğbət bəsləyirdi. Mövcud quruluşun düşməni olmasa da onun bir çox qüsurlarına göz yummur, naqis cəhətlərinə gerçəkdən tənqidi yanaşırdı. Ikinci irad isə tamamilə əsassız idi. Rəsul Rzanın:

«Mən vətənin qoynundayam,
Vətən adlı bir torpağın
Borcu hər an boynumdadır.
Torpağını əkmişəm də,
əkirəm də.
Qeyrətini çəkmişəm də,
çəkirəm də»

-deməyə haqqı vardı, çünki Ana dilinin ağrılı problemlərindən, ikiyə bölünmüş vətənimizin həsrətindən, torpağımıza həris gözlərlə tamah salanlardan, xalqımızın min bir dərd-bəlasından neçə-neçə şeirində, məqaləsində, çıxışında yana-yana bəhs etmişdi. Çünki bu xalqın Keçmişinə, onun mənəvi, mədəni, ədəbi dəyərlərinə bir oğul sədaqətiylə bağlı olduğu qədər, onun Gələcəyinə də sadiq olmaq yolunda mübarizə aparırdı.

Rəsul Rzanın ömrü boyu məslək dostu olmuş görkəmli alim və tənqidçi Cəfər Cəfərov deyir:

«Rəsul dərindən milli adamdır... Bütün qanıyla, canıyla azərbaycanlıdır. Bununla belə bütün yaradıcılığı boyu onu xalqdan uzaq olmasında günahlandırıblar. Amma elə bu da onun yaradıcılığının inkişafı üçün əlavə təkan olub. Öz xalqına münasibətdə Rəsul həmişə çox namuslu olub, amma eyni zamanda polemik ehtiraslara qapılaraq bəzən ədalətsiz hökmlər də verib. Hər bir güclü şəxsiyyət kimi, onun xasiyyətində də ziddiyyətli cəhətlər var, amma bu cəhətlər yalnız səthi adamları ondan uzaqlaşdıra bilər. Rəsul Rzanı vəhdətdə və bütövlükdə qavramaq lazımdır və onun təməl cəhətlərini görmək lazımdır. O, mərd adamdır. Bütün ömrü boyu o, mətanət və mərdliklə anlaşılmamaq faciəsini yaşamışdır» («Iki ömrün işığı» kitabında).

Mirzə Fətəli Axundzadənin dram və nəsr kimi yeni janrları ədəbiyyatımıza gətirməsi, Mirzə Ələkbər Sabirin klassik əruzu yeni dövrün problemlərini ifadə eləmək şəklində sadələşdirməsi, Mirzə Cəlil Məmmədquluzadənin istər «Molla Nəsrəddin» jurnalında, istərsə də bədii yaradıcılığında satirik üsluba müraciəti yalnız sırf sənət çərçivəsiylə məhdudlaşmayan ictimai mübarizə idisə, Rəsul Rzanın da yeni şeir, yeni bədii vasitələr yolunda illər uzunu davam edən çarpışması Milli ədəbiyyatımızı, milli mədəniyyətimizi XX əsrin çağdaş inkişaf səviyyəsində, dünya estetik ölçülərinə boy verəcək bir şəkildə görmək arzusuydu.

Deyirlər ki,
uzun-gödək
sətirli şeir yazanlara
məqbul deyil şair demək.
Deyirlər ki,
şeirin sətirləri
bərabər olsun gərək,
köhnə alaçıq çığları kimi.
Təşbehlər cunalı olsun,
sətirlər sığallı, yaplı,
qafiyələr xınalı olsun
köhnə bir qoçunun bığları kimi.
Sətrin boyu ilə ölçürlər
şeirin dəyərini.
Təyyarədən doğma, əziz bilirlər
cağlı araba təkərini.
Əsərdə fikir az olsa da, keçər,
söz bol olsun.
Həm də bu sözlər gərək
Onlara tanış olsun,
Kəblə Fatmanın balağı kimi.
Kitab gərək böyük olsun,
Yeddi il qızdırma çəkmiş
bir titrətmənin dalağı kimi.
Onlar sətrin boyuna baxır
Yağlı bir tikəyə baxan kimi.
Əgər söz alışırsa,
əgər söz çaxırsa
ildırım çaxan kimi
Deyirlər:
-Bunlar ənənəyə ziddir.
Kim «bismillah» deyib,
Nahara qurşanmasa
Xalis Yezid oğlu, Yeziddir .
...Şeir də həyatın bir parçasıdır.

Yeni yolları biz açmasaq,
kim açasıdır?
Vətəndaş,
işdaş,
yoldaş,
kim açasıdır?
Axı bəs, kim açasıdır?

(«Natiq dedi ki...» şeirindən, 1954)

Bu Rəsul Rzanın möhkəm, sarsılmaz əqidəsi idi və bu əqidəni «şeirimizi öz milli köklərindən ayırıb beynəlxalq standartlara uyğun bir şəklə salmaq» kimi qələmə vermək istəyənlər də vardı və var.

Bunu bəzən məsələnin mahiyyətinə varmadan, ötəri və səthi müşahidələrindən nəticə çıxararaq, bəzən də qəsdən, bilərəkdən, qərəzlə edirlər. Rəsul Rzanın yaradıcılığına və həyat yoluna bələd olanlarçün bu sayaq ittihamların nə qədər ədalətsiz və əsassız olduğu aydın-aşkardır.

Müharibə illərində Krım cəbhəsində Rəsul Rzanı daha yaxından tanıya bilmiş Xalq yazıçısı Əli Vəliyev qeyd edir ki, «Rəsul Rza çoxlu bayatı, qoşma bilir. O bunları işlədir, ancaq olduğu kimi kağıza köçürmür. Xalq ədəbiyyatından öyrənmək, istifadə eləmək, bu tükənməz xəzinəni eyni ilə köçürməkdən ibarət deyildir. Xalqın yaratdığı ölməz əsərlərdəki dərin məna, hikmətli kəlam, yerində deyilmiş söz, işlənmiş təşbeh, obrazlı fikir və başqa cəhətlər sənətkarın diqqətini cəlb etməlidir. Klassik irsə münasibətdə bu yol ilə getmək faydalıdır. Rəsul Rza məhz bu cür hərəkət edir. O, əxz elədiklərini sənətkar təxəyyülündən, sənət süzgəcindən keçirir, özünə lazım olan şəklə salandan sonra ona şeir donu geydirir («İki ömrün işığı» kitabında).

Krımda Rəsul Rzayla çiyin-çiyinə oddan-alovdan keçmiş başqa bir cəbhə dostu Abbas Zamanov da məhz bu cəhəti vurğulayaraq yazırdı:

«Ədəbiyyat tarixindən tanıdığımız bütün həqiqi novatorlar kimi, Rəsul Rza da klassik irsə bağlı sənətkardır. Rəsul

poeziyasında Nizamidən gələn fəlsəfi bir duz, Nəsimidən gələn qeyrət, Füzulidən gələn insan sevgisi, Sabirdən gələn öldürücü gülüş və nifrət vardır. Rəsul Rza poeziyasında Vaqif şuxluğu, Vidadi kədəri, Hadi narahatlığı vardır. Rəsul Rza klassik poeziyamızın gözəl ənənələrini davam və inkişaf etdirən əməlpərvər söz ustasıdır, bugünkü poeziyamızın canlı klassikidir» («Iki ömrün işığı» kitabı).

Hörmətli Abbas müəllim bu sözləri yazarkən şübhəsiz ümumi müddəalara yox, konkret faktlara əsaslanırdı. Həqiqətən də, Rəsul Rzanın yaradıcılığı klassik ədəbiyyatımızın dəyərlərini bu, ya başqa şəkildə əks etdirən güzgünü xatırladır. «Kitabi Dədə Qorqud» dastanına münasibəti, oradakı şeir biçimlərindən faydalanması barədə əvvəllərdə yazmışdım. Nizaminin ən böyük poemasını «Xosrov və Şirin»i dilimizə Rəsul Rza çevirib. Nizami haqqında məqalə yazıb. Rəsul Rza Suriyanın Hələb şəhərində Nəsiminin məzarını aramış, bu barədə Azərbaycan oxucularına ilk dəfə o məlumat vermişdir.

Atam Azərbaycan nümayəndə heyətinin tərkibində Suriyaya səfər edən zaman ortancıl bacım Fidan orada tərcüməçi işləyirdi. Sonralar Fidan Nəsiminin qəbriylə bağlı məsələni belə xatırlayırdı:

«Hələbdə bələdiyyə rəisinin qəbulunda çox sual verildi. Axırda atam da bir sual vermək arzusunu bildirdi. Camaat sual-cavabdan yorulduğu üçün bir az narazılıq etdi. Atam bir qədər pərt oldu. «Yaxşı, onda mənim sualım qalsın», - dedi. Lakin hamı ondan xahiş etdi ki, istədiyini soruşsun. Atam bir an ara verib:

Burada, Hələbdə bizim Nəsimi adlı bir şair basdırılıb. Mən onun qəbrinin yerini öyrənmək istəyirəm, - dedi.

Bələdiyyə rəisi işçilərindən birini çağırıb, ona yavaşca nə isə dedi. Biz orada bir qədər də ləngidik. Gedənə yaxın həmin işçi qayıtdı. Bələdiyyə rəisi onun söylədiklərinə qulaq asıb, bizə müraciət etdi:

Sizin maraqlandığınız şair Hələb qalasının yanında basdırılıb, istəsəniz indi ora getmək olar.

Məsləhətləşib qərara aldıq ki, oraya səhər gül alıb gedək. Sabahısı gün dalımızca maşınlar gəlib bizi həmin məhəlləyə apardılar. Dar, tozlu küçə ilə gedib balaca bir həyətə girdik. Bir azdan başında fəs papaq, əynində uzun əba, hündürboylu, dolu bir kişi gəldi. Bu, evin sahibi Hikmət Nəsimi idi. Bizi salamlayıb içəri dəvət etdi. Divarlardan asılan kağız və parça üzərində Nəsiminin şeirlərindən beytlər yazılmışdı. Otağın bir tərəfində köhnə, süzülmüş bir əski ilə örtülü hündürlük var idi, altında sanki meyit yatırdı. Mən otaqda olan bütün yazıları vərəqə köçürüb atama verdim. Sonra Hikmət Nəsimi ilə söhbət etdik. Məşhur əcdadı haqqında o qədər də məlumata malik deyildi, lakin həyətində Nəsimi nəslindən bir çox adamın qəbri var idi.

Atam mənə tapşırdı ki, Nəsimi haqqında bacardıqca çox məlumat toplayım. Hələb kitabxanasına getdim. Oranın qoca arxivariusundan Nəsimi haqqında məlumat olan kitabları tapmasını xahiş etdim. O, gedib bir neçə qədim kitab gətiıdi. Mən oradan Nəsimiyə aid parçaları seçib dəftərimə köçürdüm. Sonra Bakıya qayıdanda bunları atama verdim» (Fidan Rzayeva. «Suriyada atamla keçən günlər», «Xatirələr işığında» kitabında).

Fidanın topladığı materiallar və Türkiyədə professor Əhməd Cəfəroğlunun yardımıyla əldə etdiyi nadir Nəsimi əlyazmasının fotosurəti əsasında Rəsul Rza böyük şair haqqında bir neçə məqalə yazmış, ona həsr olunmuş «Son gecə» adlı poema yaratmışdır.

«Diyari eşqə sultanəm, dila, mən də zəmanımda,
Vəzirimdir qəmü-qüssəm, oturmuş iki yanimdə».
Beytini tez-tez təkrar etdiyi Şah Ismayıl Xətayi,
«Ayrılıqmı çəkmiş boynu əyridir,
Heç yerdə görmədim düz bənövşəni»

misralarını çox bəyəndiyi Aşıq Qurbani, Vaqif, Vidadi, Aşıq Ələsgər, Seyid Əzim Şirvani, «Sordum sorağını, dedilər

qeyrə yar olub, ey kaş lal olaydı dilim, bu sorağidən» sətirlərinin müəllifi Bahar Şirvani, «Hər yanda bir ümmid evi tikdimsə səbrdən, Yıxdı, dağıtdı, eylədi, bərbad gözlərin» sətirlərinin müəllifi Bixud və neçə-neçə başqa şairin şeirini arasıra əzbərdən söylərdi.

Ədəbiyyatımızdan üç örnəyi dilinə gətirəndə isə gözlərinin dolduğunu da görmüşəm. Bunlardan biri, Sabirin «Ey dərbədər gəzib ürəyi qan olan çocuq, Ey ehtişami-milləti talan olan çocuq» beyti, biri, Məhəmməd Hadinin «Qoymuş milət imzasını övraqi həyata, Yox millətimin xətti bu imzalar içində» misraları, bir də Cəfər Cabbarlının «Oqtay Eloğlu» pyesindən Oqtayın son monoloqunda söylədiyi sözlər idi: «Nə bağırırsan səfil xalq, səndə sənətkar bir qadın yox, varındırsa, yarat, yaratmırsansa, sus, uzan, öl!»

Bu acı sözləri, onların dərin ağrısını, yanğısını bütün qəlbiylə duyaraq təkrar edirdi.

Hüseyn Cavidin adı yasaq olanda böyük dramaturqun «Topal Teymur» pyesindən Bayazidin sözlərini, «Çal, bəxtəvər çoban, çal! Nə Sivas kimi qalan əldən gedib, nə Ərtoğrul kimi oğlun» sözlərini mən kitablardan oxumaqdan əvvəl atamın dilindən eşidib yadda saxlamışdım.

Anam da, nənələrim də mənə uşaqlıqda nağıllar danışar, layla çalaıdılar, amma hələ oxuya bilmədiyim zaman anamın mənə oxuduğu ilk kitablar «Koroğlu» dastanı və Nazim Hikmətin «Günəşi içənlərin türküsü» idi.

Füzulinin bir çox qəzəliylə, «Leyli və Məcnun» poemasından böyük parçalarla da mən kitablardan çox-çox əvvəl atamın və anamın bu şeir incilərini əzbər dedikləri vaxt tanış olmuşam. Rəsul Rzanın və Nigar Rəfibəylinin ən çox sevdiyi şairlər, şübhəsiz, Füzuli və Sabir idi.

İraqa səfəri zamanı Füzulinin etnik mühiti haqqında bu ölkədə çox miqdarda dili eynən dilimizdən olan xalqın yaşadığını, xoyratlarının eynən bizim bayatılarla ekiz olduğunu təəccüb və sevinc hisslərilə bilmiş, qayıdandan sonra xalqımı-

zın bu hissəsinin varlığına və folkloruna aid «Uzaq ellərin yaxın töhfələri» adlı geniş məqalə həsr etmişdi.

«Dostum Rəsul Rza» adlı məqaləsində Nazim Hikmət yazırdı: «Ötən il Rəsul Rza Iraqa getmişdi. Qayıdanda əlində bir kitab gördüm. Elə bil şair əlində öz ürəyini aparırdı. Azərbaycancaya çox, lap çox yaxın olan bu şeirlər Iraqda yaşayan türkmənlərin şeirləri idi. Rəsul Rza xalq və klassik ədəbiyyata böyük pərəstiş edən bənzərsiz şair, Azərbaycan poeziyasının novatorlarından biridir. Üç ildir o, Füzuli haqqında bir poema üzərində işləyir. Axı, novatorluq ənənəni inkar etməkdən deyil, ədəbi irsdən bəhrələnməkdən başlayır».

Nə yazıq ki, Rəsul Rza uzun illər üzərində işlədiyi «Füzuli» poemasını bitirə bilmədi. Poemadan yalnız ayrı-ayrı fəsilləri çap etdirdi.

Füzuli qədər sevdiyi Sabirə münasibətində isə nə isə xüsusi bir kövrəklik vardı. Bu, bəlkə də Sabirin acı taleyi haqqında daha çox məlumata malik olmasıyla bağlı idi. Rəsul Rza ta uşaqlıq çağlarından «Hophopnamə»ni demək olar ki, başdan axıra qədər əzbər bilirdi və ömrünün sonuna qədər oradakı ən uzun şeirləri, taziyanələri unutmamışdı.

Rəsul Rzanın təşəbbüsü və rəhbərliyi ilə hər il may ayının 30-da Bakıda, Şamaxıda Sabir poeziya günləri keçirilməyə başladı.

Görkəmli yazıçı-alim Əzizə xanım Cəfərzadə «Sabir üçün zaman yoxdur» adlı yazısında qeyd edir ki, Sabir poeziya günlərinin yaradıcısı «İmadəddin Nəsimi məzarını Hələbdə bizim üçün ziyarətgaha çevirən gözəl şairimiz, xalq şairi Rəsul Rzadır. O qoyub bu günlərin bünövrəsini. O başlayıb bu təntənəni, xatirələri canlandırıb, gənc nəsli, əli təzə şeir qələmi tutan kövrək şairləri o aparıb Sabir dünyasına, qəbrinin ziyarətinə, Sabir Vətəninin havasını bir neçə saatlığa da olsa, tənəffüs etməyə. Hər bahar, may ayının sonunda o gətirib bizi Sabir dərgahına... Ətirli çiçəklərlə. Hər il Rəsul müəllim bu çiçəklərin sayını Sabirin yaşı artdıqca artıracaqdı. Sabir ölməmişdi ki!.. İldən-ilə yaşı artırdı. Sabirə layiq movzoley, abidə

qoyulması Rəsul müəllimin ən mavi arzusuydu bəlkə... Sənə rəhmət olsun, məzarın nurla dolsun, vətən çörəyi, analar anası Anan südü, Sabir dühasından gələn şeirlər təkin sənə halal olsun, Rəsul müəllim! Təəssüf ki, Zamanın keşməkeşli çağları sənin Sabir haqqında diləklərini həyata keçirməyə bizə imkan vermədi» («Ədəbiyyat qəzeti», 31 may 1996).

Atamın vəfatından sonra Sabir günlərinin Rəsul Rzasız keçirilməsindən təsirlənən Xalq şairi Məmməd Araz bu kövrək hissi şeir diliylə ifadə etmişdir:

Bu il «Sabir günləri»nə gəlmədi Rəsul,
Hər ocağa bu xəbərin ayazı yetdi.
Avazıdı qara torpaq, qaraldı ağ su,
Zaman bir də çətin doğa o planeti!

Alqışlar da bircə əlin «himi»ni gözlər,
Yer üzünü ətəkləyib çəkə salona.
Çox ərmağan acı deyil, o mavi gözlər,
Bircə çinar yarpağı da bəs elər ona.

Haqqım yoxdu, yamacına düz deyim onun,
Ölüm adlı bir araba durur qapıda.
Gözü yaşlı misraları az deyil onun,
Ağlayanı, sızlayanı çətin tapıla.

Ölçülərə boy verməzdi əyilməzliyi,
Boz, qranit qayalara duruşu təndi.
Göyərtdiyi ölməzliyin, yenilməzliyin
Əkinçisi Rəsul idi, barı vətəndi.

Bu hikmətə yerin, göyün özüdür şahid,
O, ölümü dəfn elədi özündən qabaq,
Söz yaşayan ünvanlarda yaşayır şair,
Yaşayıbsa, «yaşamışdır» yazılmayacaq.

***

Rəsul Rza Sabirə bir neçə məqalə, şeir və «Xalq şairi» adlı poema həsr edib. Ən əsası isə, öz əsərlərində Sabir irsinin bir çox cəhətlərini yaradıcı şəkildə davam etdirib. Rəsul Rza şübhəsiz, Mayakovskini də bir şair kimi çox sevirdi, ona da şeir və məqalələr həsr etmişdi. Amma yaradıcılığını hökmən Mayakovski təsiriylə bağlamaq istəyənlərə qarşı həmişə etirazını bildirirdi. «Bəzi tənqidçilər mənim yaradıcılığımı mütləq Mayakovski ilə bağlamağa çalışaraq, ilk şeirlərimdə belə böyük şairin təsirini görürlər. Lakin onu deməliyəm ki, 1931-ci ilə qədər Mayakovskiyə mənfi münasibət bəsləyirdim. O zaman Mayakovskini «inkar» etməyim ondan irəli gəlirdi ki, şairin yaradıcılığı ilə yaxşı tanış deyildim, böyük şairi pisləyənlərin fikrini çox eşitmişdim. Bu məsələyə bir də, 1930-1931-ci illərə qədər rus dilini pis bildiyimi əlavə edim. Tərcümələri üzərində işləmək, onun yaradıcılığının mənasını daha dərindən başa düşməkdə mənə kömək etdi. Bütün bunlara baxmayaraq Mayakovskinin Rəsul Rzaya təsiri haqqında qəti hökm verənlər mənə elə gəlir ki, məsələyə birtərəfli yanaşırlar. Mənim ilk əsərlərimə ən dərin təsiri bizim milli ədəbiyyatımız və ilk növbədə Sabir yaradıcılığı göstərmişdir».

Rəsul Rzanın bu fikri Nazim Hikmətin sözləriylə bir daha təsdiqlənir.

«Rəsul Rza yaradıcılığı Sabirdən qeyri-adi şəkildə faydalanmışdır. Sabir poeziyasındakı satirik elementlər, polemik kəskinlik, məntiq üstündə satira və polemika yaratma bacarığı, şeir texnikası Rəsul Rza poeziyasına təbii, orqanik bir şəkildə təsir edib» (Nazim Hikmət. «Dostum Rəsul Rza» məqaləsindən).

Yazımın əvvəllərində yeri gəldikcə, Sabir yaradıcılığının Rəsul Rza poeziyasında dil prinsipləri, fikir, obraz sistemi baxmından nə şəkildə əks-səda verməsini bir neçə konkret örnəklərlə göstərmişdim. Təbii ki, Rəsul Rzanın satirasında, Sabir şeirlərinə birbaşa isnad edən əsərlərində bu təsir daha

aydın görünür. Amma satiraya dəxli olmayan başqa səpkili şeirlərində də Sabirin yenilikçi, tərəqqiyə, irəliyə, gələcəyə çağıran, can atan ruhu yeni dövrün dili və anlayışlarıyla görünür. Həyata aktiv münasibət, ədəbiyyatın mühafizəkar, zamanı keçmiş estetik meyarlarına, bayağı zövqlərə qarşı, avamlığa, cəhalətə qarşı barışmazlıq, milli ictimai problemlərdən və bəlalardan yan keçməmək, dünyanın, ən uzaq yerlərin belə dərdini duymaq və ifadə etmək istəyi, şübhəsiz, Sabirdən gələn bir ənənədir. Sabir məşhur şeirində «görməməyə, eşitməməyə, danışmamağa» razılaşırsa, ancaq «qanmamağı» heç cür qəbul edə bilmirsə, Rəsul Rza da «Qınamayın Isgəndəri, yaman olur anlamaq dərdi» deyir. Hər iki şeirin təməlində eyni hiss, eyni fikir, eyni ağrı durur.

Rəsul Rzanın sırf satirik şeirlərinə gəldikdə isə özü bu barədə belə yazır:

«Son zamanlar mən satira fsilahına tez-tez müraciət edirəm. Ancaq deməliyəm ki, həm də bir az qorxa-qorxa, nigarançılıq və təşvişlə müraciət edirəm. Sabirin yaradıcılıq nümunələri o qədər ciddi və əhəmiyyətlidir ki, indi, onun ölümündən əlli il keçəndən sonra belə, böyük məsuliyyət hissi, ürək çırpıntısı və ciddiyyətlə bu yola ayaq basırsan. Ixtiyarsız düşünürsən: Sabir sağ olsaydı, həyatımızdakı bəzi eybərcərliklərdən necə qəzəb və amansızlıqla yazardı...»

Rəsul Rza satirasında «Sabir sağ olsaydı» başlığı ilə yazdığı şeirlər mühüm yer tutur. Dörd şeir birbaşa Sabirdən təxmis edilmişdir. Sabir şeirlərinin vəznində, biçimində, qafiyə düzümündə yazılıb. Onlardan biri, «Rüşvətxorlar mərsiyəsi» cəmiyyətimizin böyük ictimai bəlalarından birinə - rüşvətxorluğa qarşı yönəlib:

«Ax, necə kef çəkməli əyyam idi,
Onda ki övladi-vətən xam idi»
Rüşvət alırdıq azı-az, çoxu-çox.
Ömr eləyirdik cibi tox, qarnı tox.
Indi nədir? Qoyma, - haray, qorxa-qorx,

Xalqa ağır gün bizə bayram idi.
«Ax, necə kef çəkməli əyyam idi».
Biz kişiyik, məclisimiz şəndi, bil!
Bizdə vəfa, bizdə səxa gəndi, bil!
Vardı bir az qorxusu hərçəndi, bil,
Yeddi verən on verənə zam idi,
«Ax, necə kef çəkməli əyyam idi».

(1964)

«Yeddi verən on verənə zam (yəni müavin) idi» misrası 64-cü ildə olduğu qədər bu gün də aktualdır. Bəlkə yalnız məbləğlər dəyişib.

Sabirin başqa bir məşhur satirasına nəzirə kimi yazdığı «Qorxuram» şeirində isə Rəsul Rza başqa bir ciddi ictimai bəlamıza - yerlibazlığa qarşı çıxır:

«Taksi maşınla çıxıram yollara
Şoferi lülxan görürüm, qorxmuram;
Bağlı, dəmir çaxçaxın ardında çox,
Mürgülü aslan görürəm, qorxmuram.
Modaya vurğun bala meymunları
Az qala üryan görürəm, qorxmuram.
Tənqidə düşmüş neçə gənc şairi
Qanına qəltan görürəm, qorxmuram.
Gah bitirib iclası, dərhal yenə,
Bir yeni elan görürəm, qorxmuram
Sözləri əzbər, quru natiqləri,
Kürsüyə qalxan görürəm, qorxmuram.
Boylə şücaətlə, sözün doğrusu
Neyləyim?..
Qoy olanı söyləyim:
Yerlipərəstlikdə hünər göstərən
Arxalı nadan görürəm, qorxuram.
Bisəbəb qorxmuram, vəchi var

Fikrini qanqan görürəm, qorxuram
Dəyməsələr onlara mikrob kimi,
Günbəgün artan görürəm, qorxuram
Qorxuram, qorxuram, qorxuram...»

(1962)

Sabir satiralarına nəzirə olan iki başqa şeirdə «Sual-cavab» və «Qora ikən mövüc olmuşlar» şeirlərində də mövcud ictimai bəlalara boşboğazlığa, yalançı vədlərə, ədəbiyyat aləmində nadanlığa qarşı çıxır.

Amma, bilavasitə, «Hophopnamə» üslubunda yazılmamış satiralarında da böyük Sabirin nəfəsi duyulur.

«Damğa». Rüşvətxor Binamusoviçə açıq məktub»unda bu iyrənc mərəzi ən kəskin satirik ifadələrlə ifşa edir. Bu şeir çox populyar olmuşdu və oxucular onu qəzetdən kəsib respublikanın ən məşhur rüşvətxorları kimi tanınan adamlara göndərirdilər.

«Qəlbini arayıb axtarsan
dibə kimi,
bu fikirləri taparsan ancaq.
Neyləyək alaq?
Kimdən alaq?
Necə alaq?
Gündüz alaq,
gecə alaq?
Ucdantutma hamıdan
yoxsa seçə-seçə alaq?
Pul var, pul alaq
Yoxdu, imarət, pendir, yağ,
Xalça, palaz, keçə alaq!
Lap bəd başı,
fərə alaq, beçə alaq!
Necə olur-olsun,
necə yaşayır-yaşasın xalq.

Biz alaq, alaq!
Tutasan yaxasından, deyəsən,
Yəni sən də kişisən?
Gözünə girsin o maaş!
Bilirsənmi, ən layiq adın nədi?
Aşın müqəyyəd qafıyəsi!
Anlamadın?!
Dara-bara salma!
Sus!
Rüşvət puluna
külfət saxlayan dəyyüs
İndi get, al rüşvətini,
ala bilirsən.
Bu adla, adamlar içində qal,
Qala bilirsən».

(1962)

Rəsul Rza satirasının hədəfi paxıllar, yaltaqlar, anonimçilər, sitatcılar, boşboğazlar, yerli-yersiz yubiley aludələridir.

«Paxıllar cürbəcürdür
Kimini qonşusunun canı sağlam olduğu,
Kimini qonşusunun xəstəliyi çürüdür.
Xəstəliyi deyəndə,
can yandığından deyil,
Başqa səbəbdən doğur bu nisgil.
Paxıl baxıb deyinir:
-Bəxtəvərin evinə
Nə tez-tez həkim gəlir!
Iynə vuran, qan alan,
Sığalçı, küpə salan
Daha, daha kim gəlir.
Dava-dərman görürsən,
Hey daşınır, hey axır,
-deyə sızlayır paxıl.

Kimi anadangəlmə
Görürsən paxıl olur.
Kimisinin ürəyi
Get-gedə paxır olur.
Kimisinin qəlbinə
paxıllıq qurdu, gördün,
Mururla daxil olur.
Kimisi də görürsən
Qəflətən paxıl olur.
Dostuna baxır, olur.
Kimi bekarçlıqdan,
qüssədən paxıl olur.
Oğru, rüşvətxor kimi
paxıllıq da pis addır.
Görünür, paxılların,
bazarı çox kasaddır.
Adam var, paxıllığı
özgəsindən borc alır.
Görünür paxıllığın ölümünə az qalır.
Paxıllıq da qocalır».

(«Qonşu paxıl olmasa bağ çəpəri neyləyir» şeirindən. Dekabr, 1962)

Insanlar əmək çəkir, tər tökür.
Kimi ev tikir.
Kimi dağ sökür.
Hərənin bir işi var, bir sənəti.
Ancaq, necə gizlədim həqiqəti
Yaltaqlığı da özünə sənət eyləyən var,
Bu da bir növ döldür-yaltaqlar!
Elə zənn etməyin
yaltaqlıq asan işdir.
Elə söhbətdir, gülüşdür.
Yox.

Zarafatdırmı, hər gün
nimdaş köynək kimi
üz-gözünü dəyişdir?
Lazım olan vaxt şən görün,
lazım olan vaxt qaşqabaq elə.
Hər gün qarşıla müdirləri
gülə-gülə,
əyilə-əyilə.
Gözlərini müdirin ağzına dikib
durur.
Əllərini ovuşdurur.
Dodaqlar yaylı qapılar kimi
açılır, yumulur.
Dişlər lazım gəlsə, qıcanır qəzəblə,
Lazım gəlsə irişir.
Böyük yanında arıqlayır,
kiçik yanında şişir.
Şübhəsiz, işsiz qalar yaltaq,
biz ucuz təriflərə uymasaq».

(«Yaltaq «şeirindən. 1963)
«*Ax, anonimçi!*
Ax, anonim!
Sənin bacını, ananı...
Ağlar görəydim».

(«Anonimçi» şeirindən. 1968)

***

Füzulini, Sabiri hədsiz-hüdudsuz bir məhəbbətlə sevən Rəsul Rza təbii ki, ədəbiyyatımızın başqa klassiklərini və istedadlı çağdaşlarını da dəyərincə qiymətləndirirdi. Şairin bu ədəbi simalara münasibəti Mirzə Fətəli, Hüseyn Cavid, M.S.Ordubadi, Cəfər Cabbarlı, Mikayıl Müşfiq, Səməd

Vurğun, Süleyman Rüstəm, Mirzə Ibrahimov, Sabit Rəhman, Əbülhəsən, Zeynal Cabbarzadə, Əzizə Cəfərzadə, Mədinə Gülgün, Bəxtiyar Vahabzadə, habelə, Əli Kərimdən üzü bəri gənc şair və yazıçılar, Məmməd Araz, Fikrət Qoca, Fikrət Sadıq, Vaqif Səmədoğlu, Vaqif Nəsib, Şamil Salmanov, Abbas Abdulla, Mövlud Süleymanlı, Ramiz Rövşən, Çingiz Əlioğlu, Vahid Əziz, Iltifat Saleh və başqalan barəsində yazdığı məqalələrdə, açıq məktub və başqa səpkili yazılarında görmək olar. Müxtəlif çıxışlarında Ilyas Əfəndiyevin dram və nəsr əsərlərini, Ismayıl Şıxlının «Dəli Kür» romanını, Bayram Bayramovun «Sərinlik» povestini, Qabilin «Küləkli havalarda, yağışlı havalarda», «Məhəbbət deyil» şeirlərini, Teymur Elçinin və Xanımana Əlibəylinin uşaqlar üçün əsərlərini bəyəndiyini səmimi sözlərlə bildirmişdi.

«Ilyas Əfəndiyev 1990-cı ildə qələmə aldığı yazılarının birində göstərmişdir ki, «bir gün gənc tənqidçi Əkbər Ağayevlə təsadüfən küçədə rastlaşdığımız zaman mənə dedi: Yazıçılar Ittifaqının sədri Rəsul Rza iclasda sənin kitabın haqqında yaxşı sözlər danışdı. Deyirdi, hiss olunur ki, gənc müəllif istedadlıdır, ümidverəndir. Onu Ittifaqa cəlb etmək lazımdır». (Əmin Əfəndiyev. «Ədibin ilk hekayəsi». «Ədəbiyyat qəzeti», 26 noyabr 1999-cu il).

***

«Mirzə Cəlil nisgilləri» adlı şeir silsiləsi böyük ədibin əsərləri mövzusunda sərbəst improvizələrdir. (Kefli Isgəndərin adı keçən şeirlər bu silsilədən ayrıdır). Beş şeirdən ibarət bu siklə daxil olan «Ölülər», «Nazlılar», «Zeynəbin qisası» şeirləri «Ölülər» pyesinin və «Danabaş kəndinin əhvalatları» povestinin personajlarıyla bağlıdır. «Bəlkə də qaytardılar» şeirinin isə yalnız adı Mirzə Cəlilin hekayəsiylə eynidir, mətləbi tamam başqadır. Burda söhbət 37-ci ilin və başqa illərin siyasi repressiyalarından gedir:

«Dərdi dərdlər dərdi,
Ümidə haqlı
neçə ata, ana,
neçə övlad,
qardaş, bacı
qucaqlayıb dizlərini,
yola tikib gözlərini
neçə qış,
neçə bahar inlədilər:
-Bəlkə də qaytarddar!
-Bəlkə də qaytarddar!
Bu nə mülk-maş,
nə yatır,
nə dəyirman dərdi idi.
Bu, sorağı qanlı yollarda itən
Insan dərdi idi...»

Tutulmuş, sürgün edilmiş əzizlərinin qayıdacağına ümidlə səslənən «bəlkə də qaytardılar» sözləri şeirin sonluğunda başqa bir anlamda da mənalandırılır - xəbərdarlıq kimi, həyəcan siqnalı kimi...

«Indi də o günlərdən
ürəklərdə bir nigaranlıq,
Bir səksəkə var.
Insanlığın qəzəbi
sədd çəkməsə,
o ağır, o acı günləri
bəlkə də qaytardılar,
bəlkə də qaytarddar...»

(1967)

Silsilənin «Kamança» adlanan beşinci və sonuncu şeiri də məzmunu etibarilə deyil, humanist, insansevər ruhu etibarilə Mirzə Cəlilin eyni adlı pyesinə yaxındır.

Qulaq asın Mirzə Cəlilin sözünə!
Nə ədavət saxlayın,
nə dava-dalaş salın!
Insanda insan oyadın!
Kamança çalın!
Kim sındırsa kamançanı,
Halaldır qanı!

(1967)

Yadımdadır, Bakıda M.C.Məmmədquluzadənin 100 illiyi keçirilərkən Filarmoniyada təntənəli iclasda Əziz Nesin çıxışını bu şeiri oxumaqla bitirdi və «Böyük Azəri şairi Rəsul Rzanın dediyi kimi, insanda insan oyatmaq biz yazarların ən böyük görəvidir», -dedi.

***

Əvvəllərdə də dediyim kimi, ailəmizdə atamın da, anamın da, bibilərimin də Türkiyəyə, Türkiyə ədəbiyyatına böyük marağı və rəğbəti vardı. Əlbəttə, o illərdə bu rəğbəti açıq ifadə etmək öz-özünə ölüm hökmü yazmaq kimi bir şeydi. Amma Rəsul Rzanın hətta o illərdə yazdığı şeirlərinin bəzisində bu hiss hansı şəkildəsə üzə çıxır. Yadımdadır, Qara dənizdə həlak edilmiş Mustafa Sübhiyə və silahdaşlarına həsr olunmuş şeirini - Soçidə yazdığı şeiri - anama oxuyanda, anam şeirin əvvəlindəki bəzi misralara görə xeyli təlaşlanmışdı. O vaxt bu təlaşın səbəbini başa düşə bilmirdim, axı burda nə vardı, şeir Türk kommunistlərinə həsr edilmişdi? Indi həmin parçanı bir daha mütaliə edəndə şeirin bəlkə də əsl yazılma səbəbinin məhz bu Türkiyə həsrətini ifadə edən misralar olduğunu düşünürəm.

Qara dəniz,
Bu sahildən o sahilə

nə qədərdir.
Bir göyərçin olub uçsam,
yolum uzaq,
yorularaq,
qanadlarım bükülərsə,
ümidlərim
saplağından qopan
sarı yarpaq kimi
sularına tökülərsə,
dalğaların qoruyarmı
məni, söylə, Qara dəniz!
Bir vətənin balasıyıq,
sənlə biz.
Mən baxıram
dumanların arxasında
itib qalmış o sahilə.
Ürəyimə kədər axır,
məlal axır
gilə-gilə.

Əgər vaxtilə bədbəxt Əhməd Cavadın misilsiz «Göygöl» şeirində iki misraya görə: - «Bir sözün varmıdır əsən yellərə, Sifariş etməyə uzaq ellərə» misralarına min cür rəng verib şairi gözümçıxdıya salmışdılarsa, Rəsul Rzanın bu sətirlərindən də istənilən «qorxunc» mənaları çıxara bilərdilər və anamın təlaşı da yəqin ki, bununla bağlı imiş.

***

Atamgilin nəsli məktəb illərində ədəbiyyat dərsliklərində Azərbaycan klassiklərindən daha artıq Türkiyə ədəbiyyatını keçdiklərinə görə Türkiyə şairlərinə yaxından bələd idilər. Daha doğrusu, onları Azərbaycan şairlərindən ayırmırdılar.

Hələ otuzuncu illərdə Mayakovskiyə həsr etdiyi şeirində Rəsul Rza «Sözlərimi anlama qeybət kimi, Sevirəm Puşkini də

Fikrət kimi» deyirdi. Yunis İmrənin («Mən Yunisi biçarəyəm, eşq əlindən avarəyəm, başdan ayağa yarəyəm, gəl gör mənə eşq neylədi»), Nədimin («Məst-nazım, atam nədənsə «sərvinazım», deyə oxuyardı, - kim böyütdü boylə bipərva səni? Kim yetişdirdi bu günə sərvdən bala səni, Buyidən xoş, rəngdən pakizədir nazik tənin, Bəsləmiş qoynunda guya kim güli-rəna səni» beytləriylə başlayan qəzəlini), Namiq Kamalın («Ölürsəm görmədən millətdə ümmid etdiyim feyzi, Yazılsın səngi qəbrimdə vətən məhzun, mən məhzun), Əbdülhaq Hamidin (Eyvah! Nə yer, nə yar qaldı, Könlüm dolu ahu-zar qaldı. Şimdi buradaydı, getdi əldən, Getdi, əbədə gəlib əzəldən. Baqi o ənisi-dildən, Eyvah, Beyrutidə bir məzar qaldı), Tofiq Fikrətin («Zülmün topu var, gülləsi var, qələsi varsa, haqqın da bükülməz qolu, dönməz üzü vardır»), Camal Müdhət Kuntayın («Bir ovuc torpaq əzirsən bir çəlig, bir tunc olur, ağlayan bir millətin siması pək qorxunc olur». Bu misraları söylərkən «gərək «ağlayan» yox, «hayqıran» yazaydı, daha güclü olardı»-deyərdi), Yəhya Kamalın («Dün qəhqəhələr yüksəliyərkən evinizdən, Bəndim keçən, ey sevgili, sandalla dənizdən»), Əhməd Haşımın («Bizə bir zövq təhəttür qaldı, Bu sönən, kölgələnən dünyada»), Faruk Nafizin («Əlimi beş yerindən dağladı, beş barmağın, Bağrımda da yanmamış bir yer buraxmadan get... Köçdüyünü bir elin, çökdüyünü bir dağın Görmək istəmiyorsan, arxana baxmadan get») şeirlərini çox sevirdi. Gətirdiyim misraları isə atamın və anamın dilindən o qədər eşitmişdim ki, o vaxtdan əzbər bilirəm.

1954-ci ildə tərtib etdiyi və geniş ön söz yazdığı «Sülh və dostluq» adlı Şərq ədəbiyyatı antolojisində Azərbaycanda ilk dəfə Yunis Imrə, Qaracaoğlan, Qul Mustafa, Əşrəfoğlu, Kamaləddin Kamu, Şükufə Nihal Başar kimi şairlərin şeirlərini Azəri türkcəsinə uyğunlaşdıraraq nəşr etmişdi. Həmin antolojiyə Nəcib Fazil Qısakürəyin «Otel odalarında» şeirini də Azəri Türkcəsinə uyğunlaşdıraraq daxil etmişdi və bu Türkiyənin böyük çağdaş şairiylə oxucularımızın da, Rəsul Rzanın

özünün də ilk tanışlığı idi. Bu şeir atamın xoşuna gəlirdi və bəzi misralarını heyranlıqla təkrar edirdi:

Gizli bir iz qalıbdır gəlib keçən üzlərdən,
Tozlu aynalarında, tozlu aynalarında.
Hiss edilir zamanın taxtanı gəmirdiyi
Tavan aralarında, tavan aralarında.
Ağlayın aşinasız, səssiz can verənlərə
Otel otaqlarında, otel otaqlarında.

Etiraf etməliyəm ki, elə o vaxt tanış olduğum bu şeirin mənə də elə güclü təsiri olmuşdur ki, 40 il sonra yazdığım «Otel otağı» povestində Nəcib Fazilin son iki misrasının mistik ruhu nə şəkildəsə öz əksini tapmışdır.

Həmin antologiyada başqa bir gözəl Türkiyə şairini, Kamaləddin Kamunu da məşhur «Qürbət» şeiriylə ilk dəfə Azərbaycana Rəsul Rza tanıtdırdı:

«Qürbət elə acıdır.
Hər nə varsa içimdə,
Həm mənə yabançıdır,
Həm də başqa biçimdə.

Əməldən, arzudan kəm,
Yaralanmış bir eləm.
Mən qürbətdə deyiləm,
Qürbət mənim içimdə».

Tərtib etdiyim «Min beş yüz ilin Oğuz şeiri» antolojisində Nəcib Fazilin və Kamaləddin Kamunun bu şeirlərini orijinalda - Türkiyə türkcəsində olduğu kimi vermişəm, burada isə hər iki şeiri Rəsul Rzanın Azərbaycancaya uyğunlaşdırdığı şəkildə gətirirəm.

Nazim Hikmətin ən məşhur şeirlərini Azəricəyə Rəsul Rza uyğunlaşdırmışdı və indi bəzi növcavan şairlər bu tərcü-

mələri bəyənməsə də, Azərbaycan dilinin bütün incəliklərini hələ 20-ci illərdən yaxşı mənimsəmiş Nazim Hikmət özü çox bəyənirdi. Azərbaycan televiziyası ilə çıxışında: «Dostum Rəsulun çevirisində, Azəri ləhcəsində şeirlərim daha gözəl səslənir», -deyirdi. (Radioda Nazimın öz səsiylə bu çıxışı qalıb, Televiziyada isə lentini təəssüf ki, itiriblər). Şübhəsiz, bu məsələdə (və elə bir çox başqa məsələlər- də də) Nazim Hikmətin fikri özünü guya ki, onun biliciləri və pərəstişkarları kimi qələmə verənlərin dediklərindən daha mötəbərdir. O ki, qaldı üç cüt bir tək «əlli yaşında cavan» şairin Nazim Hikmətlə Azərbaycanlı həmkarlarının münasibətləri haqqında gücsüz hikkədən və həsəddən doğan hərzə sözlərinə, o illərin abhavasına da, Nazim Hikmət yaradıcılığına da, Türkiyə mühitinə də min dəfə artıq bələd olan Tofiq Abdin «Uvertüra və yaxud yolun sonu görünmür» adlı yazısında («Ədəbiyyat qəzeti», 27 iyul, 2001) bu məsələdən də bəhs edir. Adını belə bu yazıma salmaq istəmədiyim birisinə cavab verərək Tofiq Abdin yazır:

Filankəs «amansız həyat mənzərələrini yazmaq üçün Nazimə azadlıq verən Kommunist partiyasının üzvü ola-ola məhz Sarı dana və qızcığaz şeirini yazan, həm də o zamanın Azərbaycan həqiqətini və faciəsini amansızca yazan Rəsul Rzanı hansı insafla bir kənara qoyub bu şairlərdə «qohumluq» belə tapmır».

Nazim Hikmətin Rəsul Rza haqqında Moskva mətbuatında «Известия» qəzetində və «Литературня газета»da dərc olunmuş üç məqaləsi var. Atam onun haqqında (Nazimin vəfatından sonra) bir çox şeirlər və bir neçə məqalə yazıb... Həm Nazim Hikmətin, həm Rəsul Rzanın məqalələri dəfələrlə nəşr olunub və hər iki şairin bir-biri haqqında yüksək fikirlərini bir daha gətirməyə ehtiyac yoxdur. Bilənlər bilir. Bilmək istəməyənlərə də dedin, demədin, fərqi yoxdur. Bu üç məqalədən başqa Nazimin atama çox səmimi məktubları, teleqramları Qədir Ismayılın «Nazim Hikmət və Rəsul Rza» və Aqşın

Babayevin «Üfüqdə göy gözlərin sarı həsrəti» adlı yazılarında verilib:

«Rəsulcuğum! Salam. Sənə Anarla bu qısacıq məktubu yollayıram. Sizin dərgidə son şeirlərimi oxudum, çox bəyəndim. (Rəsul Rzanın tərcümələri nəzərdə tutulur - A.) Əllərin kədər görməsin. Sentyabr ayında Qafqaza gəlmək niyyətindəyiz. Sənə teleqram vuracağız. Bəlkə də imkan olarsa, yolçuluğumuzu sənlə birlikdə yaparız. Anar sənə təfsilatı ilə danışar. Səni, Nigar xanımı, balaca sultanı (bacım Təranəni - A.) qucaqlayıram. Yaxında görüşmək ümidi ilə

Nazim Hikmət»

Aqşin Babayev yazısında Nazimin bir müsahibəsini də gətirir. Bu Rəsul Rzanın vəfatından sonra «Огонек» jurnalında dərc olunmuş müsahibə vaxtilə, Nazim Hikmətin Italyan dərgisinə verdiyi müsahibəsinin tərcüməsidir. Italyan jurnalistinin çağdaş sovet ədəbiyyatı haqqında sualına cavab verərkən Nazim yenə də Rəsul Rzanı xatırlayır. Məsələn, - deyir, - Azərbaycan şairi Rəsul Rza şəxsiyyətə pərəstiş illərində Azərbaycan xalqının başına gətirilən müsibətlər haqqında çox maraqlı poemanın müəllifidir. Rəsul Rzanın yaradıcılığında forma cəhətdən də çoxlu yeniliklər var. Heç də cavan olmayan bu yaşda şairlərin forma sahəsində axtarışları, məsələn, Yevtuşenkonun elədiklərindən qat-qat maraqlıdır» («Огонек» jurnalı, mart 1987).

Nazim Hikmətlə dəfələrlə şəxsən görüşmüş Aqşin böyük şairin 1961-ci ildə dediyi bu sözlərini xatırlayır:

«Nazim Hikmətin Rəsul Rza haqqında dediyi bu sözləri heç zaman unutmaram: «Siz xoşbəxt xalqsınız ki, sabahın şairi olan Rəsul Rza kimi sənətkarımz var. Xalqınız yaşadıqca Rəsul Rza da yaşayacaq» («Xatirələr işığında» kitabında).

Nazim Hikmətlə Rəsul Rzanın şəxsi dostluq əlaqələri və yaradıcılıq yaxınlığı ayrı bir yazının mövzusudur və burada mənim bu məsələdən geniş bəhs etmək imkanım yoxdur. Yalnız bir məsələyə toxunmaq istəyirəm. Nazim Hikmət 20-ci illərdə, Sovet Ittifaqına və Bakıya ilk gəlişində atamla tanış ol-

mamışdılar. 50-ci illərdə, SSRİ-yə ikinci gəlişində isə Rəsul Rzayla tanış və az zaman içində çox yaxın dost oldular. 20-30-cu illərdə Sovetlər İttifaqını çoşğun bir həvəslə yeni dünya quran bir ölkə kimi qoyub getmiş, bu ölkənin xülyasıyla öz məmləkətinin məhbəslərində illərlə ömür çürütmüş Nazim Hikmət 50-ci illərdə yenidən bura qayıdarkən gənclik röyalarının məmləkətinə deyil, tamam başqa bir diyara - imperialist, diktator rejimində yaşayan, şovinist ruhlu bir dövlətə düşdüyünü çox tez dərk elədi. Ancaq elə o illərdə - Stalin rejiminin ən soyuq, ən sərt dövründə, Azərbaycanda «türk» sözünü dilə belə gətirmək imkansız olanda, Nazim Hikmət Bakıda ən yüksək kürsülərdən: «Mən türkəm, - deyirdi, - siz də türksünüz, dilimiz bir, gələnəklərimiz ortaq, millətimiz qardaşdır», - deyirdi.

O illər Türkiyə üçün Nazim Kommunizmin, sosialist ideyalarnıın simvoluydusa, Azərbaycan üçün Türkiyənin, Türklüyün, türk qardaşlığının, dil birliyimizin rəmzi idi və Azərbaycan xalqı, Azəri aydınları şairi məhz bu çür qavrayır, qarşılayır və bağırlarına basırdılar. Rəsul Rzanın Nazimə məhəbbətini də, ona həsr etdiyi şeirləri də məhz bu baxımdan və əlbəttə, böyük şairin təkrarsız şəxsiyyətinə və poeziyasına hörmətdən yaranmış əsərlər kimi dəyərləndirmək lazımdır.

***

Nazim Hikmətin vəfatı atama çox ağır təsir etmişdi. Bu xəbəri eşidən kimi anamla bərabər dərhal Moskvaya uçmuş, dəfn mərasimində iştirak və çıxış etmişdi. Nazim Hikmətin Konstantin Simonovun sədrliyi ilə yaradılmış ədəbi irs komissiyasının üzvü olan Rəsul Rza dəfələrlə Simonova, SSRI Yazıçılar Ittifaqının Birinci katibi G.Markova məktublar və teleqramlar göndərərək böyük türk şairinin xatirəsinin əbədiləşdirilməsi, onun 70 illiyiylə bağlı yubiley tədbirlərinin layiqli şəkildə keçirilməsi haqqında məsələ qaldırır vo konkret təkliflər irəli sürürdü. Simonova məktubunda yazırdı:

«Hörmətli Konstantin Mixayloviç! Nazımın 70 illiyi məsələsi məni çox narahat edir. Bildiyiniz kimi, bununla əlaqədar olaraq mən SSRİ Yazıçılar Ittifaqının katibliyinə məktub göndərmişdim. Moskvada Yazıçılar Ittifaqında görüşümüz zamanı Siz söz verdiniz ki, hansısa yubileylə əlaqədar işlərinizi bitirdikdən sonra bilavasitə bu məsələylə məşğul olacaqsınız. Söhbətimizdən xeyli vaxt keçir. Nazımın doğum gününə - yanvarın 20-nə çox az vaxt qalır. Ümumittifaq jurnallarının redaksiyaları bu münasibətlə nə edirlər? Heç nə məlum deyil. O da məlum deyil ki, hansı tədbirlər və haçan keçiriləcək. Sizə, Nazım Hikmətin ədəbi irs komissiyasının sədri kimi müraciət edirəm: Xahiş edirəm, böyük nüfuzunuzdan istifadə edərək bu işi donduğu yerdən hərəkətə gətirəsiniz. Xahiş edirəm buna vaxt ayırasınız və Nazımın yubileyiylə əlaqədar işlərin nə yerdə olduğu haqqında və şəxsən məndən bu məsələyə görə nə tələb olunduğu barədə məlumat verəsiniz.

Salamlarımla,
Sizin ***Rəsul Rza***
26 oktyabr. 1971»

Rəsul Rzanın arxivində K.Simonovun teleqramı da durur:

Əziz Rəsul! Çox təəssüf edirəm ki, Siz Nazımın xatirə lövhəsinin açılışında iştirak edə bilmədiniz. Axı Siz Nazım poeziyasına dildə yox, işdə yaxın olan adamlardan birisiniz.

Sizin Konstantin Simonov
29.VII.1976»

***

Rəsul Rzanın Türkiyə yazarlarından Əziz Nesin, Yaşar Kamal, Xaldun Taner, Məlik Cövdət Anday, Fazil Hüsnü Dağlarca, A.Qədir və başqalarıyla da mehriban münasibətləri vardı və onların çoxu SSRI-yə səfərləri barədə yazılarında Rəsul Rzayla görüşləri haqqında səmimiyyətlə danışırlar. Bu

yazılardan müəyyən parçalar Rəsul Rzaya həsr olunmuş məqalələr və xatirələr kitabında verilir.

Kitaba daxil olmayan bir parçanı burada gətirirəm. Məlik Cevdət Anday «Sovetlər Birliyi gəzisi» adlı yol qeydlərində yazır:

«Moskvaya gəldiyimiz gün soruşmuşdum: «Sovetlər Birliyinin indi ən məşhur şairi kimdir? Bir az düşündükdən sonra: Rəsul Rza», - demişdilər.

Mənsə Yevtuşenkonun, Voznesenskinin adının çəkiləcəyini sanmışdım.

-Başqa? -Rəsul Həmzət.- O kim? - Dağıstanlı bir şair.

Romançılarını soruşaq dedim: Ən məşhur romançınız?

Çingiz Aytmatov.

Rəsul Rza ilə bir neçə axşam öncə Yasnaya Polyanadan qayıdandan sonra tanış olmuşduq, mən bir az xəstəydim, ayaqüstü danışıb ayrıldıq. Bu axşam birlikdə yemək yeyəcəyik. Babayev və Aleksandrov (Əkbər Babayev və Aleksandrov, Moskva türkoloqları - A.) da bizimlədirlər. Rəsul Rzanın otelində buluşub küçəyə çıxdıq. Mən Rəsul Rza ilə ağır-ağır arxadan gedirik. Müxtəlif məzmunlar üzərində dururuq. Uzun sükutlarla danışır Rəsul Rza. Mən də, «vaz keçdi bu məzmunun üzərində dayanmaqdan»,- deyə düşünmək istərkən məzmunu can evindən qavrayan ən açıqlayıcı sözü bulur. Doğru, səmimi, duyğulu və inandırıcı. Şəxsiyyəti hörmət oyandırır. Şeirləriylə dərindən maraqlanıram».

SSRİ-yə elə həmin səfərləri zamanı Məlik Cevdət Anday, Əziz Nesin və Yaşar Kamal Moskvadan sonra Bakıya gəldilər, Yazıçılar Ittifaqında, Natəvan klubunda görüş keçirdilər. Atam hələ Moskvadaydı, bu görüşdən sonra anamla mən türkiyəli qonaqları evimizə dəvət etdik. Yaşar Kamalla Məlik Cevdət bizə gəldilər, Əziz Nesinin haradasa görüşü vardı, gələ bilmədiyi üçün üzr istədi.

Natəvan klubundakı yığıncaq, orada türk yazarlarına verilən suallar və onların cavabları, bizim evdəki söhbətlər haqqında mənim qeydlərim də var, xatirələrim də hələ

unudulmayıb. Haçansa bunları yazacam. Amma indi yazdığım yazının prinsiplərinə riayət edərək burada mən həmin görüşlər haqqında özüm yox, bu söhbətlərin başqa bir iştirakçısının diliylə söz açmaq istəyirəm. Isa Ismayılzadə yazır:

«Bir dəfə, gərək ki, 1968-ci ildə türk dostlarından məşhur şair Məlik Cevdət Anday, görkəmli nasirlərdən Yaşar Kamal Rəsul müəllimin evinə qonaq çağrılmışdı. Mərhum alimimiz Əkbər Babayev, Ənvər Məmmədxanlı, Emin Sabitoğlu, o dövrün cavan şairlərindən Ələkbər Salahzadə, Vaqif Səmədoğlu, bir də bu sətirlərin müəllifi qonaqların arasında idilər. Emin Sabitoplu el havalarından, Üzeyir bəyin melodiyalarından, öz mahnılarından pianoda astaca-astaca çalırdı... Bizi, cavanları çağırmaqla türk qardaşlara şeirimizin yeni havasını, yeni ruhunu hiss elətdirmək istəyirdilər. Sözü bizə verdilər, hərəyə bir şeir deməli idik. Həyəcanlandığımızı duyan Anar şeirlərimizi alıb aramla özü oxumağa başladı. Ələkbərin «Beş yarpağı»nı, Vaqifin gərək ki, «Qantel»ini, mənim «Yuxuları»mı. Bir həqiqəti aşkarca duyurdum. Rəsul müəllim bizi öz yanımızda yox, həmişə başqalarının yanında qaldırmağa çalışırdı» («Neçə dostu sağ görmədim», «Xatirlər işığında» kitabında).

Rəhmətlik Isanın yaddaşı bircə məqamda səhvə yol verib. Əlbətlə, Rəsul Rzanın gənc şairləri başqalarının yanında qaldırmağa çalışması doğrudur, amma konkret olaraq o görüşdə atam iştirak etmirdi, dediyim kimi, o vaxt hələ Moskvadaydı.

***

Türkiyədən siyasi muhacir kimi çıxmış məşhur jurnalist və alimlər Zəkəriyyə bəy Sərtəl, həyat yoldaşı Səbihə xanım Sərtəl və qızları Yıldız bir müddət Bakıda yaşadılar. Onlar Bakıya gəlməzdən qabaq Nazim Hikmət atama telefon etmiş, bu köhnə dostlarına qayğı və diqqət göstərməsini xahiş etmişdi. Sərtəlgil tez-tez atamgilə gələr, biz onların evlərində olardıq (Onlardan sonra həmin mənzilə Toğrul Nərimanbəyovgil

köçdü). Səbihə xanım Bakıda vəfat etdi və Ikinci fəxri xiyabanda dəfn olundu. Bundan sonra Zəkəriyyə bəy və Yıldız xanım Parisə getdilər. Onlarla son dəfə Parisdə görüşdüm.

Zəkəriyyə bəy də çoxdan dünyasını dəyişib. Yıldız xanım isə indi İstanbulda yaşayır. Bu yaxınlarda Yıldız Sərtəlin «Ardımdakı illər» adlı xatirələr kitabını aldım. Yıldız xanım yazır:

«Atam Bakıya getdikdən sonra Nazim Bakıya gəlib onu Azəri yazarlarıyla tanış etməyi vəd etmişdi, bir türlü gələmədi. Nəhayət, bu işi Əkbər Babayev yapdı. Əkbər Azəri aydınlarını, özəlliklə Yazarlar Birliyinin Başqanı Mehdi Hüseyni çox yaxşı tanıyırdı. Mehdi Hüseynlə arvadı bizi tez-tez evlərinə dəvət etməyə, bütün sorunlarımızla ilgilənməyə başladılar. Rəsul Rza və arvadı Nigar xanım, Sabit Rəhman kimi Azərbaycanın həssas şair və yazarlarıyla tanış olduq. Bəzi gecələr Nigar xanım məlahətli səsiylə bizə gözəl şeirlərini oxuyurdu. Nazimi çox sevən bu insanlar, bizimlə də qaynaşdılar və Bakını bizə sevdirdilər».

O illər Sərtəllərə Türkiyəyə getmək yasaqdı (Yəni elə Yıldızdan başqa hamısına atasına və anasına ömürlərinin sonuna qədər doğma məmləkətləri yasaq qaldı).

Rəsul Rzayla Nigar Rəfibəyli Türkiyəyə gedəndə oradan torpaq gətirmişdilər. Yıldız xanım bu barədə də yazır:

«Anamı Azəri dostlarımızla bərabər Bakı məzarlığına gömdük. Nigar xanımın Türkiyədən gətirmiş olduğu bir kisə Türk torpağını məzarına səpdik. Yurd həsrəti içində olduğunu bilirdik. Azərilər ona çox gözəl bir məzardaşı yapmışdılar və üstünə də «Səbihə Sərtəl. 1898-1968» yazdılar».

Yıldız xamm bir məqamı yazmayıb, bəlkə də unudub. Səbihə xanım Tofiq Fikrət haqqında kitabın müəllifiydi. Anam da Türkiyədən gətirdiyi torpaq məhz Tofiq Fikrətin məzarı olan «Aşiyan»dan idi.

Zəkəriyyə bəylə bağlı bir xatirəm də çox kədərlidir. Nazim Hikmət artıq həyatda yoxdu. Türkiyənin məşhur rəssamı (artıq o da dünyasını dəyişib), Nazimin və Sərtəllərin

dostu, Parisdə yaşayan Abidin Dino Moskvaya, oradan da məhz Zəkəriyyə bəyi görmək üçün bir günlüyə Bakıya gəlmişdi. Atam yenə də Moskvadaydı, telefonla mənə dedi ki, Abidin bəyi qarşılayım. Zəkəriyyə bəylə Abidin Dinonu qarşıladıq. Toğrulun emalatxanasına getdik, birlikdə nahar etdik, bir ara Dinoyla Sərtəli tək buraxdım ki, bəlkə şəxsi söhbətləri var. Sonra axşam birlikdə hava limanına getdik. Zəkəriyyə Sərtəl soyadına uyğun olaraq çox mətin və möhkəm adam idi. Başı çox bəlalar çəkmiş, çox sınaqlardan keçib sərtləşmişdi. Bakıda vətəni üçün nə qədər qəribsəsə də, bunu heç cür biruzə vermirdi. Amma Abidin Dinoyla görüşdükdən və rəssam bizdən ayrılıb təyyarəyə mindikdən sonra birdən-birə Zəkəriyyə bəy hönkürüb ağlamağa başladı. Mən özümü itirmişdim, bir təhər onu sakitləşdirməyə çalışırdım: «bura da sizin vətəninizdir», -deyirdim.

Bir qədər toxtayıb mənə: - Nə xoşbəxt adamsınız, - dedi, - öz vətəninizdə yaşayırsınız.

Bunu heç bir vaxt unutmaram.

***

Nazim Hikmət də, başqa türk yazıçılarıyla da xoş əlaqələrimizin yaranmasında Rəsul Rzanın yaşca daha cavan, unudulmaz dostu Əkbər Babayevin xüsusi yeri vardı.

Nədən rejimlər insanlara bu qədər qənim kəsilir? Nazimçün, Sərtəllərçün, Abidin Dinoyçun doğma məmləkətləri - Türkiyə yasaq olduğu təkin, Əkbər Babayev də hədsiz bir məhəbbətlə sevdiyi, ədəbiyyatıyla nəfəs aldığı, yaşadığı, yazıçı və şairlərini doğma adamları kimi tanıdığı ölkəyə gedə bilmirdi; indi də qadağanı Türkiyə iqtidarı yox, Sovet hökuməti qoymuşdu. Əkbər vaxtilə hansısa bir dissident məktubuna imza atmışdı və birdəfəlik qara siyahıya düşmüşdü.

Moskvadakı mənzilində, yatağının başında İstanbulun böyük xəritəsi asılmışdı, evi Türk kitablarıyla, jurnal-qəzetləriylə, Türkiyə yazarlarının avtoqraflı əsərləriylə,

İstanbuldan, Ankaradan, Izmirdən gələn məktublarla, Türkiyə müğənnilərinin kassetləriylə dopdoluydu, amma mütəxəssisi və heyranı olduğu bu məmləkəti görmək Əkbərə qismət olmadı. Hər Türkiyəyə gedib gələni (o cümlədən məni) elə Şeremetyev aeroportundaca qarşılayar, acgözlüklə və doyumsuzluqla sorğu-suala tutardı.

***

Moskvada yaşayan başqa bir görkəmli türkoloqumuz Tofiq Məlikli yazır ki, İstanbulda Rəsul Rzayla Nigar xanımın vəfatları xəbərini Fazil Hüsnü Dağlarcaya çatdıranda çox pərişan oldu və səhərisi gün «bütün gecəni yata bilmədim, onların xatirəsinə bir Ağı həsr etdim», - deyib:

RƏSUL İLƏ NIGAR

Birdən-birə oldu;
Yaz gözəlliyində
bir azacıq da olsun aramadan
Tapdılar bir-birini -
Sevgini bölüşdülər.
Hərb illəri boyunca
Biri göy üzüydü, o biri yer üzü -
Dağları bölüşdülər.
Yazdılar, yazdılar günəş qalxanadək
Gerçəyi, həqiqəti
Xalqın xoşbəxtliyini bölüşdülər.
Başqa-başqa otaqlarındaydılar xəstəxananın
Biri vücuduyla duymuşdu,
heç kim söyləmədən.
O birisinin bir neçə gün əvvəl
nəfəssiz qaldığını
- Ölümü bölüşdülər...

Dağlarcanın şeirini Azəricəyə Tofiq Məlikli uyğunlaşdırıb).

***

Nə yazıq ki, Rəsul Rza sağlığında şeirlərinin Türkiyədə kitab şəklində nəşr olunmasını görmədi. Yalnız vəfatından neçə il sonra Istanbulda və Ankarada üç kitabı çıxdı. Istanbulda «Cem» nəşriyyatı tərəfindən, Ankarada Mədəniyyət Nazirliyi tərəfindən buraxılmış «Seçilmiş şeirləri»ni Türkiyə türkcəsinə ədəbiyyatımızın fədakar təbliğatçısı Ildəniz Qurtulan uyğunlaşdırıb.

İstanbulda «Ötükən» nəşriyyatının buraxdığı həcmcə daha böyük kitabının tərtibatçısı Səbahəddin Çağın isə başqa yolla getmişdir: Rəsul Rzanm şeirlərini demək olar ki, eynilə orijinalda, Azərbaycan dilində olduğu kimi saxlamış, bir çox sözün və ifadənin Türkiyə türkcəsində izahını vermişdir.

***

2000-ci ilin yaz aylarında Rəsul Rzanın 90 illiyi Azərbaycandan öncə Türkiyədə qeyd edildi. Martın 23-də Istanbul Böyük şəhər Bələdiyyəsi mədəniyyət işləri və onun müdiri Şenol Dəmirözün təşəbbüsüylə Tarik Zəfər Tunaya salonunda Türkiyə və Azərbaycan ziyalılarının iştirakıyla xatirə gecəsi keçirildi. Iki gün sonra isə yubiley tədbirini Ankarda Əhməd Yasəvi Universitesi və vəqfi təşkil etdi. Namiq Kamal Zeybəyin, Irfan Nəsrəddin oğlunun, Əhməd Bican Ercilasunun, Ildəniz Qurtulanın, Irfan Ciftçinin, rəssam Ibrahim Balabanın və başqa görkəmli alimlərin, ədəbiyyat adamlarının, siyasətçilərin iştirak etdiyi bu tədbirə Türkiyənin Baş naziri Büləncd Ecevid, Baş nazirin müavini Dövlət Baxçalı, Mədəniyyət naziri Istemixan Talay və bir sıra başqa nazirlər təbrik göndərmişdilər. Təbriklərdə «Azərbaycanlı Böyük türk şairi Rəsul Rzanın» yaradıcılığı yüksək dəyərləndirilirdi.

Türkiyənin qəzet və jurnallarında Rəsul Rza haqqında yazılar çıxdı. Bu yubiley tədbirlərindən bir neçə ay əvvəl

«Cümhuriyyət» qəzetində Ataol Bəhramoğlunun «Şairin istədikləri» adlı məqaləsi dərc olunmuşdu. Ataol Bəhramoğlu yazır:

«Rəsul Rzanı tanımırsınız? XX yüz il Azərbaycan şeirinin ən böyük nümayəndələrindəndir. Bu şeirin çağdaşlaşmasında önəmli xidmətləri olan şəxsdir. Moskvada, bir xəstəxanada oğlu, məşhur yazıçı və mənim sevimli dostum Anarla birlikdə Rəsul Rzanı ziyarət etməyimiz yadımdadı... Yorğundu, Bakıyçün darıxırdı, oğlu ona Bakıdan bir balon bal gətirmişdi... Görüşümüzdə böyük Azəri şairi ona daha öncə göndərdiyim şeir kitabımdan söz açmış, bir şeirimdəki xüsusiyyətlərlə bağlı ondan əvvəl heç kəsdən eşitmədiyim incəliklə və bilgiylə dolu sözlər söyləmişdi mənə. Ildəniz Qurtulan mənim Rəsul Rzadan Türkiyə türkcəsinə uyğunlaşdırdığım «Mən istəyirəm» adlı şeiri öz seçdiyi şeirlərə ilk şeir olaraq əlavə edərək lütfkarlıq göstərmişdir. Moskvada xəstəxanada yatarkən oğlundan vətən çiçəklərindən toplanmış bal istəyən Rəsul Rza ölkəmizdə də çox məşhurlaşan, nəğməyə çevrilən bu şeirində görün nələr istəyir:

«Mən istəyirəm,
axsın bulaqlar göz yaşı kimi.
Göz yaşı bulaq kimi axmasın
dünyanın heç bir yerində.
Mən istəyirəm,

sevinc, səadət bol olsun.
Ürəkdən ürəyə,
ölkədən ölkəyə
açıq yol olsun».

Şairin dünya və insanlıq üçün istədikləri çoxmudur? Məncə bu istəklərin gerçəkləşməsi Bakıdan Moskvaya bir balon bal gətirilməsi kimi asandı. Çünki elə təbii və insani istəkdir ki... Fəqət miladdan sonrakı üçüncü min ilə

girməkdəykən, dünyamız və insanlıq nə yazıq ki, şairin həsrətini çəkdiyi dünyadan və insanlıqdan hələ çox uzaqdır...» (Cümhuriyyət» qəzeti, 18 dekabr, 1999).

***

Dəfələrlə qeyd etdiyim kimi sovet rejiminin çox sərt illərində də və nisbətən mülayim dövrlərində də Azərbaycan ədəbiyyatının ən namuslu əsərləri həm Azəri türkcəsində, həm də Ezop dilində yaranıb. Yunanıstanın kölə filosofu Ezop tarixə fikirlərini birbaşa deyil, dolayı yolla, təmsillər, eyhamlar və işarələr vasitəsilə söyləməsi ilə düşüb. Rəsul Rza da bir çox şeirlərində Ezop dilinin imkanlarından istifadə edərək onu ağrıdan, düşündürən mətləblərdən söz açır. «Bağları qum basır», «Balıqların nəğməsi», «Qaranquş və sərçə», Qəhrəman turac», «Dürək», «Göy at», «Ana qız», «Ağ fil» və neçə-neçə başqa şeir məhz Ezop dilində yazılıb. Bu şeirlərin ikinci, üçüncü alt mənasının olmasına işarə edən, onların Ezop dilində anlanılmasını istəyən şair niyyətini açıqdan-açıq şəkildə bəyan etməkdən də çəkinməyib. Qədim təmsilçiyə həsr etdiyi «Ezop» adlı şeirində fikrini, əl atdığı üslubu birbaşa göstərir:

Bilmirəm
yaşayıb-yaşamayıb
Belə bir adam,
kölə filsof
Düzü-düzünə deyə
bilmədiyini
çevirib eyhamlar, imalar
dilinə.
Belə əlac axtarıb
ürək dərdinə,
könül nisgilinə.
Necə olur-olsun
ya varmış, ya yox

Ezop gedib, dili qalıb
Dünyanın min bir müşkülü
qalıb.
Bəzən qorxudan
işlənir bu dil,
bəzən qəzəbdən.
Sizi necə,
bilmirəm,
Allah
rəhmət
eləsin,
mən ki,
yerdən göyə
razıyam
Ezopdan.

(1968)

Şair ona görə yerdən göyə Ezopdan razıdır ki, ayrı heç bir imkan qalmayanda dərdini, niskilini, qəzəbini, min bir müşkülünü eyhamlar, imalar diliylə ifadə edə bilir. Bu gözlə, bu «dilin» özəlliyini nəzərə alaraq Rəsul Rzanın şeirlərini oxuyanda hər kəs aydın görürdü ki, şair «bağları qum basır», - deyə haray çəkərkən təbiət hadisəsini deyil, o illər Azərbaycana rusların axın-axın gəlib burada məskunlaşmasından danışır. «Qaranquş və sərçə» şeirindən sərçəni doğma yuvasından qovub onun yerinə yiyələnmək istəyən qaranquşun əhvalatı da eyni mətləbin ifadəsidir və təbii ki, burada söhbət iki quşdan yox, iki xalqın taleyindən gedir: öz yurdunda-yuvasında yaşamaq istəyən xalqdan və bu yeri ələ keçirmək istəyən qolu zorlu işğalçıdan. Və bu niyyəti daha da aydın olsun deyə Rəsul Rza şeirin sonluğunu xüsusi vurğulayır:

«Ancaq sərçənin sözləri
xoşuma gəldi mənim.

Insan dili bilsəydi
bir nəğmə də öyrədərdim ona:
«Könlümün sevgili məhbubi mənim
Vətənimdir, vətənimdir, vətənim».

Şeirini Abbas Səhhətin məşhur beytiylə yekunlaşdıran Rəsul Rza söhbətin hansı mətləbdən, hansı Vətəndən getdiyini dəqiqləşdirir.

Bu anlamda «Ağ fil» adlı şeirində gerçək mətləb yalnız filin aqibəti deyil.

Fillər içində ağı nadir olur
Fil dustağı nadir olur.
Meşədən ayırıblar onu bildir,
qəlbinin qəfəs ağrısına dözə bilmir.
Tez-tez
xortumunu qaldırıb bağırır
Gözündən yaş axır gildir-gildir.
Qəfəssiz qardaşlarını
haraya çağırır.
Deyirlər, fillər uzun yaşayır.
Ağ fil, ağ fil
neyləyirsən uzun ömrü
Yerin qəfəs olacaqsa yüz il?

Dediyim kimi, o illər Ezop dilində yalnız Rəsul Rza yazmırdı. Bəxtiyar Vahabzadənin «Latın dili», Fikrət Qocanın «Risq» şeiri, Vaqif Səmədoğlunun «Rus çarının tankları» (çar vaxtında tank yox idi, şairin dediyi tanklar Brejnevin «Praqa baharını» viran qoymaq üçün göndərdiyi tanklar idi) Ezop dilində söylənmiş və söylənməsi yalnız Ezop dilində mümkün olan acı həqiqətlər idi. Bu o dövrkü bütün, ümumən, sovet ədəbiyyatmın ən problemli əsərlərinə şamil edilən bir üsul idi. Çingiz Aytmatovun Manqurt əfsanəsi də, Yevtuşenkonun, Voznesenskinin, Bulat Okudjavanın bir sıra şeirləri də məhz Ezop dilində yazılıb. Azərbaycanda bu üsuldan ən çox istifadə

edən və ona görə də «Mən ki, yerdən göyə razıyam Ezopdan», - deyən Rəsul Rza idi.

Ezop dili yalnız şairi düşündürən məsələləri müxtəlif quşların, heyvanların adlarından istifadə edərək çatdırmaqdan ibarət deyil. Ezop dilini Azəri ədəbiyyatında, o cümlədən, ən çox Rəsul Rza yaradıcılığında tətbiqinin ikinci bir tərəfi də var. Azərbaycanın ağrılı taleyinə aid problemləri uzaq ölkələrə, ilk növbədə və ən çox müstəmləkə ölkələrinə ünvanlayaraq ifadə etmək.

Rəsul Rza:

«Keçməlisən bu qəm dolu ağır yolu,
çətin yolu.
Vuruşlarda qazanacaq azadlığı
insan oğlu»,

-deyəndə bu şeirin başlığını «Afrika nəğmələri» kimi vermək senzordan başqa kimsəni aldada bilməzdi. Senzor da (senzorların arasında da çox şeyi anlayan qeyrətli Azərbaycan övladları vardı) bəlkə elə qəsdən aldanmaq istədiyi üçün aldanırdı.

Afrikaya ünvanlanmış digər şeirindən misralar:

«Torpağı zəbt edirlər,
mənimsəyirlər.
Bura bizim idi!
-Bura da bizim oldu, - deyirlər.
«Yox!» - desən,
söz verirlər topa, gülləyə.
Yenə inanmasan,
Susmalı olursan
Zəncirlərin nəğməsini dinləyə-dinləyə.
Yenə inanmasan,
yenə qane olmasan,
yenə desən: «Mənimdir bu torpaq!»
Onda: - Qaldır başını deyirlər,

o gedərgəlməz qapısına,
o yellənən kəndirə bax!
Kimin yenə sözü var?
Kimin yenə bu torpaqda gözü var?
Bəlkə «Vətən» sözünü gətirəndə dilə,
cavab verdi ona
birdən açılan yeddi güllə.
Kim qumlu səhralarda
adsız qəbirləri axtarasıdır?
hələ bu harasıdır,
hələ bu harasıdır?»

Deyilənlərdən belə nəticə çıxmasın ki, Rəsul Rzanın Afrika, ya digər müstəmləkə xalqlarına həsr etdiyi şeirlər ancaq və ancaq Azərbaycan faciələrinin başqa ünvan göstərilmiş ifadəsidir. Əlbəttə, müstəmləkə yaxud yarımmüstəmləkə olmaq dərdini qələmə alarkən «Zəncinin arzuları» poemasının müəllifi Səməd Vurğun kimi, zəncinin dilindən «Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram, qolumdakı zəncirləri gərək qıram, gərək qıram» - deyən Xəlil Rza Ulutürk kimi, «Salam, Vyetnam» adlı poemasında «bu parçalanmış uzaq ölkənin iki hissəsi arasından Araz axır» - deyən Fikrət Qoca kimi, Rəsul Rza da ilk növbədə həmin duyğuları öz doğma xalqlarının taleyində yaşadıqları üçün bu qədər təsirli və təbii, daxili ağrıyla və daxili yanğıyla dolu misralar yarada bilirdilər. Amma bu o demək deyil ki, başqa müstəmləkə ölkələrinin adları onlar üçün yalnız və yalnız bir vasitə, az ağrılı duyğularını söyləmək üçün bəhanə idi. Yox, məsələn, Rəsul Rza (bu yazıda söhbət məhz ondan gedir) ən uzaq ölkələrin acılarını duymağı, içində yaşamağı bacaran bir sənətkar idi və:

«yatmağa qoymur məni,
dünyanın dərdi» -

etirafı da tam səmimi və üzvi bir hissin ifadəsi idi. Amerika irqçilərinin zülm etdiyi zənci balası Villi də, Fransız ulturalarının Əlcazair meydanında qətlə yetirdikləri ərəb Əbu

Səlman da, çinli Siau da, ispan balası Inqalesyo da Rəsul Rza poeziyasının doğma qəhrəmanlarıdır. Italyan faşistlərinin həbəş xalqına qarşı təcavüzündən qəzəblə danışanda da, Karmenin əcaib görünən hərəkətini təsvir edəndə də «ağrıdan ulayan ölkələrin Səkinəsini, Salmanını, Əhmədini» xatırlayanda da, «bilsin bütün aləm, mən müsəlmanan», - deyə hayqıranda da Rəsul Rza həm özünün şair xislətinin, həm də milli ədəbiyyatımızın önəmli bir ənənəsinin ifadəçisi idi. Axı Azərbaycan mentalitetinin bir özəlliyi də bütün Şərqin, bütün dünyanın problemlərini içdən, ürəkdən duymaq, qavramaq, dərk və ifadə etməkdir. Bu cəhət Nizamiyə, Füzuliyə, Mirzə Fətəliyə, Mirzə Cəlilə, Sabirə, Cavidə, Cəfər Cabbarlıya, Səməd Vurğuna xas olduğu kimi, Rəsul Rzaya da xas idi. O da böyük sələfləri və çağdaşları kimi bütün dünyanın dərdinə ortaq çıxırdı. Əzilən, iztirab çəkən bütün insanların, min bir fəlakətə düçar olmuş günahsız cocuqların, ağ dərili olsun, qara, sarı dərili olsun, oğulları nakam getmiş anaların dərdi, ovunmaz kədəri, azadlıq, vətən, ləyaqət yolunda qurban getmiş bütün şəhidlərin ağrısı Rəsul Rzanı için-için yandırır, göynəm-göynəm göynədirdi.

Rəsul Rza «Azadlıq» adlı şeirinin üstündə «Əlcəzairli dostuma» sözlərini yazanda bunu bəlkə də yalnız senzuradan keçmək xatirinə etmirdi. O, bütün müstəmləkə xalqlarının azadlığını arzulayırdı, amma ilk növbədə öz doğma xalqının - Azərbaycanın azadlıq eşqiylə yaşayırdı:

Qara bir gündə,
yaralı bir ölkənin üstündə
dikəldi
Qüvvətdən sərxoş,
qan ləkəli bayraq.
Günəşli bir gündə,
qəzəbli bir ölkənin üstündən
endirildi
Ölüm kölgəli bayraq.

Qollarını geniş açdı insan.
Qucaqlaşdı günəş, hava, lorpaq.

Bu gün bu «Azadlıq» şeiri Rəsul Rzanın nə yazıq ki, görə bilmədiyi milli istiqlaliyyətimizin tərənnümü kimi səslənmirmi?

Tənqidçi Arif Əmrahoğlu «Rəsul Rza kədəri» adlı məqaləsində yazır:

«Rəsul Rzanın kədər, ağrı, dərd poeziyası da özünəməxsusluğu ilə yadda qalır. Şairin poeziyasında ağrının bir ünvanı vardır: Insan. Ağrını yaradan da Insandır, ağrının altını çəkən də. Rəsul Rza bizim o şairlərdən idi ki, ədəbiyyata ictimai-siyasi, sosial iqtisadi problemləri yox, insanı gətirdi» («Xatirələr işığında» kitabında).

Gün batanda
üfüqlərə qəm dağılır,
Elə bil ki, dünyamızdan
nəsə bir şey əskilir.
Hər kəsdən artıq
bu itkini insan duyur,
insan bilir.

(«Gün batanda», 1971)

Günəş getmək istəmir.
Bəlkə bilir
Getsə, gələcək insan qəlbinə
qaranlıq kədəri.
Ömür ölümə əsir;
Həyat yubanım deyir,
Ölüm yaman tələsir.

(«Etüd», Mart, 1980)

«Insan şəkli» adlı məşhur şeirində Rəsul Rza yazırdı:

Mənə bir sərgi salonu verin!
Nə geniş olsun dünya qədər,
Nə elə hündür ki,
ətəyində qala uzun kölgələr.
Mənə bir sərgi salonu verin!
Orda bir insan şəkli asacam –
adi bir insan.
Nə elə kiçik ki, məhəl qoyan olmaya,
nə elə böyük ki, baxanda qorxasan.
Bir insan şəkli asacam;
bir yanında Nəsimi –
dabanından soyulandan sonra,
Bir yanında
məşəl kimi yanmış Azəri qızı –
tunc heykəli qoyulandan sonra.
Bir yanda Cordano Brunonun külü,
Bir yanında Məmmədhəsən kişi
ömrü, günü yollara tökülü.
Bir insan şəkli asacağam,
qapalı dodaqlarında söz yanığı.
Ətrafında bayram təntənələri.
Baxışında sınaq günləri,
dözüm sənələri.
Şəklin müəllifi - Zaman
Adı: - Insanlığın ömür yolu.

(1964)

Şair yer üzündə yalnız insanları deyil, hər canlının, hətta qurumuş ağacın, tapdanmış çiçəyin, qırılmış meşənin, susuzluğundan, yağışsızlığından cadar-cadar olmuş torpağın, yatağında qızdırmalı kimi çırpınan dənizin həsrətini, nisgilini şeir diliylə ifadə etməyə qabil idi.

Rəsul Rzanın torpaqla, təbiətlə üzvi bağlılığını dərindən duyan Azəıbaycan təbiətinin füsunkar nəğməkarı, Xalq rəssamı Səttar Bəhlulzadə şairə həsr olunmuş «Insana məhəbbət poeziyası» adlı məqaləsində yazırdı:

«Rəsul Rzanın lirik qəhrəmanı heç vaxt özünü dünyadan ayırmır. O, torpaqla, insanla vəhdətdədir. Buna görə onun özü barədə «Mən torpağam, mən küləyəm, buludam, işığam, baharam» deməsi tamamilə təbii və poetikdir» (Iki ömrün işığı» kitabında).

Mən torpağam, məni atəş yandırmaz –
tərkibimdə kömürüm var, külüm var.
Mən baharam,
Çəmən-çəmən çiçəyim var, gülüm var.
mən küləyəm, əsməsəm,
kim bilər ki, mən varam.
Mən buludam,
səhraları susuz görüb ağlaram.
Mən insanam,
vətənim var, elim var.
Ən böyük həqiqəti,
azadlığı, məhəbbəti, nifrəti
söyləməyə qadir olan
dilim var.
Mən torpağam,
nemətimi, varımı
zəhmət sevən insanlarla bölərəm.
Mən ürəyəm,
döyünməsəm, ölərəm.

(1963)

Zamanın keçəriliyi, vaxtın ötücülüyü, uçub getmiş gəncliyin özlənməsi, xiffəti, qocalığın ağır kölgəsi, ölümün soyuq həniri, əbədi sükutun gün-gündən yaxınlaşan məşum kabusu şairi həm kədərli, həm müdrik fəlsəfi düşüncələrə qərq edir.

«Vaxt var ikən», «Buruqların söhbəti», «Gənclik, qocalıq, vəfasızlıq və sədaqət haqqında» və bir çox başqa şeirlər bu mövzudadır.

Çıq-çıq saat işləyir.
Düşür əbədiyyətə
ömrün geri dönməyən anları.
Zaman alıb aparır insanları
bu günəcən heç kəsin
qayıtmadığı uzaqlara.
Vaxt var ikən dünyaya bax!
baxıb, doymasan belə.
Bir divara daş qoy!
Çiçək iylə!
Saçlarını
baharın xoş nəsimiylə dara
Könlünü aç günəşə, bahara.
Düşmənə amansız ol,
Dosta xoşqılıq...
Vaxt var ikən.
elə yaşa, elə çalış
bir gün sən olmayanda
hər kəsə aydın görünsün
yerində qalan boşluq.

(«Vaxt var ikən» şeirindən. 1961)

Qoca buruq
yanındakı cavan buruğa dedi:
ayaqlarını möhkəm bas
polad döşəməyə!
Hazır ol!
Fırtına gəlir
dəmir çeynəməyə,
polad kövşəməyə.
Cavan buruq dedi:
Niyə nigaransan?

Qorxum yoxdur mənim
fırtınadan, tufandan.
Bəlkə, paslanıb dirəklərin?
Bəlkə dalğaların ləngəri
qaynaqlarını qoparıb, töküb?
Yoxsa canına
cilovsuz küləklərin qorxusu çöküb?
Qoca buruq dedi:
Mən uzun bir ömür yolu keçmişəm.
Yıxılsam da nə qəm!
Təkəbbur hünər deyil!
Ağır gündə möhkəm dayan qoçaqsan!
Mən getsəm, keçmişim qalar.
Sən getsən,
Gələcəyini aparacaqsan.

(«Buruqların söhbəti» 1962)

Deməyin, yaşamağa hərisdir.
Gənclik vəfasız çıxdı,
Qocalıq vəfalıdır.
Ömrün son gününəcən
məndən ayrılmayacaq.
Bu pisdir.

(«Gənclik, qocalıq, vəfasızlıq və sədaqət haqqında», 1962)

Dünyanın, zamanın, bütün mürəkkəbliyi, varlığın açılmaz sirləri qarşısında insanın yalqızlığını və yalqızların ən dəhşətlisini - insanlar içində tənhalığı dərindən-dərin dərk edirdi.

Kimə deyim dərdimi,
Dünya dolu adamdır-

deyirdi.

Güclü təbiəti, iradəsi, binədən həyata nikbin, xeyirxah baxışı onu çox vaxt hər gün gördükləri, rastlaşdıqları qarşısında

tam bədbinləşməkdən qoruyur, yeganə xilas, çıxış və nicat yolu, tək bir təsəlli kimi ona ümidi nişan verirdi:

Sığınmışıq qəlbimə
Ümid
Şübhə, kədər
və mən.
Xeyli keçib gecədən.
Yağış yağır.
Külək əsir.
Ümid deyir:
- Yağış kəsəcək,
külək kəsəcək.
Qaranlıq əriyib
sabah olacaq.
Günəş doğacaq
qızıl telləri saçaq-saçaq.
Şübhə deyir:
-Haçaq?
Haçaq?
yağış qara çevrilə bilər?
Külək tufana dönə bilər.
Gecə uzana bilər.
Kədər deyir:
Yağış qurusa da,
külək kəssə də,
Nə təsəlli var
nə son var
içimdəki yetim səsə.
Danış, ümid!
Danış!
Köhnə tanış!

(1960)

Amma elə anlar olurdu ki, «köhnə tanış» Ümid də dada çata bilmirdi.

Ümidim də yellənir,
Quru budaqda bir tək
yellənən yarpaq kimi,
Qalıram «çox» içində
bir azad dustaq kimi...

Canlı, diri insanlar arasında, real «çoxlar» içində həmdərd, həmsöhbət tapmayanda şair tarixi və ədəbi qəhrəmanların ünsiyyətinə möhtac qalırdı, telefonu götürüb Bəhlul Danəndəni, Bayron personajı Çayld Haroldu, Mirzə Cəlil qəhrəmanı Kefli Iskəndəri «qonaq» çağırırdı.

Bu da «adamla dolu dünyada», insanlar içində tənhalığın son həddi idi.

Ah Bəhlul Danəndə,
Bəhlul Danəndə!
Nə tab qaldı,
nə tavan məndə.
Götür Isgəndərə zəng elə,
Bəhlul Danəndə.
Içkini siz gətirin,
yeməyə bir şey tapılar məndə.

Kefli Iskəndər, bəlkə də Rəsul Rzanın Azərbaycan ədəbiyyatında ən çox sevdiyi və dərdini duyduğu personaj idi.

Iskəndəri soruşdunuz məndən
Iskəndər içərdi.
Ləqəbi də Kefli Iskəndərdi.
Gecə-gündüz düşündürürdü onu,
diri ölülərin dərdi.
Yoxsa, o da bir poçt məmuru olar,
Nə dərdlənər, nə içərdi.
Ömrü ölülər içində
sakit, səssiz keçərdi.

Qınamayın Iskəndəri!
Yaman olur anlamaq dərdi.

Anlamaq dərdi doğrudan da, bəşər oğlunun taleyinə, bəxtinə yazılmış ən böyük bəlalardandır. Ancaq insan da yalnız anladıqca insan olur.

***

Yazımın əvvəlki səhifələrində qeyd etmişdim ki, bu gün Rəsul Rzanın bədxahları onu yalnız bircə əsəriylə tanımaq, tanıtmaq və suçlamaq istəyirlər: «Lenin» poemasıyla. Amma nə yazıq ki, Rəsul Rzanı bu hücumlardan müdafiə etmək istəyən xeyirxahları da hər zaman yalnız şairin bir şeirinə isnad edirlər: «Sarı dana və balaca qız» şeirinə, sovet rejimində belə bir əsərin yaranmasının şücaət olduğunu vurğulayırlar. Bu şeirin ictimai kəsərini dəyərincə qiymətləndirsəm belə, yenə də Rəsul Rza poeziyasına sırf ideoloji baxımdan yanaşmağın tərəfdarı deyiləm. Əvvəla, Rəsul Rzanın sovet cəmiyyətində insanın taleyini bütün acılığıyla əks etdirən başqa şeirləri də var. Bu şeirlər bəlkə, «Sarı dana» qədər məşhur olmasalar da, şair cəsarəti etibarilə ondan aşağı olmayan şeirlərdir. Məsələn elə onlardan biri, «Dinmədik» şeiri...

Yağış yağdı,
bir gün ara vermədi,
Yağdı gecə-gündüz.
Sən dinmədin,
Mən dinmədim.
Dörd bir yan yağış oldu,
Yazın oğlan çağında
Qış oldu.
Sən dinmədin,
Mən dinmədim
Külək əsdi.
Budaqlardan yarpaqları

Qırdı, tökdü.
Yenə susduq.
Sən dinmədin
Mən dinmədim.
Yanğın oldu,
Tüstüsü də görünmədi.
Sən də susdun.
Mən də susdum.
Bu dinməzlik adət oldu.
Özümüzü inandırdıq.
«Qismət», dedik günümüzə.
Neyləyək biz,
əlac yoxdur.
Olmalılar olacaqdır.
Bir dostumuz görünmədi,
Niyə? Niyə?
Sən bilmədin,
Mən bilmədim.
Soruşma ki, kim bildi, kim?
Bəlkə bilsən,
Bəlkə bilsəm
Neyləyərdik?
Qəm yükümüz azalardı
bilsə idik?
Demirəm ki,
Nigaranlıq yox olardı,
Qəm yükümüz az olardı.
Bəlkə,
çoxdan çox olardı.
Bəlkə də verib əl-ələ
Quraqlığa göz yaşından
Nəm verərdik.
Yanğınları söndürərdik,
Külәkləri sındırardıq-
Çilik-çilik.

Bəlkə nəvə-nəticələr
Dünyamızın bəd kücünə
bir gün olar, qalib gələr.

(1977)

Ancaq Rəsul Rza poeziyasının özəlliyi hətta bu cür açıq-açığına dövrə, mühitə etiraz hisslərivlə, bu mühitdə insanların dilsiz-ağızsız mütilərə çevrilməsinə qarşı qəzəb duyğularıyla da məhdudlaşmır. Şairin yaradıcılığında bu gün və bütün zamanlarda ədəbi dəyərini saxlayan quruluşun da, cəmiyyətin də yaşadığı dövranın da fövqündə dayanan əbədi motivlərdir.

Rəsul Rzanı İnsandan yazdığı üçün günahlandıran sovet tənqidçiləri haqlı idilər. Rəsul Rzanı sovet adamı, yaxud hər hansı quruluşun təbəəsi deyil, əbədi insan, həyat və ölüm, gənclik və qocalıq, ləyaqət və ləyaqətsizlik, tənhalıq və ümid məfhumları maraqlandırırdı. Dünyanın və dövrünün konkret dərd-bəlalarından başqa onu həyatın qlobal, metofizik problemləri, fəlsəfi düyünləri də düşündürürdü.

INSAN Rəsul Rza üçün öz-özlüyündə böyük, sonsuz, ucsuz- bucaqsız bir dünyadır və bu dünyanın özü də INSANA dar gəlir.» Məndə sığar iki cahan, mən bu cahana sığmazam», deyən böyük sələfi kimi Rəsul Rza da dünyanın darısqallığmdan şikayətçi idi:

Uzun illər sıxdı məni gah çəkmələrim,
bəzən, ötüb keçən ilə təəssüfüm.
Gah ümidim yeni ilə.
Gah dünyanın dərdi, qəmi sıxdı məni,
Gah corablarımın boğazı.
Gah alçaq buludların qalın pərdəsi,
Gah bir nadan qələmindən
tökülən yazı.
Qırıb çıxmaq istədim
«olar», «olmaz» çərçivəsindən.

Dedilər: «Yox! Yox».
Dəblərə, qaydalara gir!
Vərdişləri, adətləri gözlə!
Sığallı dillə yaz!
Sıxdılar məni
maddələrlə, sözlərlə.
Darıxır insan,
Hüdudlar, ölçülər içində.
Deyirəm,
Öləndə atın,
ən dərin quyuya məni,
qaldırıb buludlardan
yuxarı.
Son yolum uzun,
son mənzilim geniş olsun barı!

1967-ci ildə bu şeirin nəşrinə izin verən sovet senzurasının genişqəlbliliyinə yaxud sadəlövhlüyünə təəccüb edilə-sidir. Bəlkə çəkmələrin, corabların sıxmasına irad tuta bilməyən senzura şeirdə məhz elə bu sayaq «darısqallıqdan» bəhs olunduğunu zənn eləyib, hüdudlar, sərhədlər, ölçülər içində darıxan, maddələrlə, sözlərlə sıxılan Insanın nümunəvi «sovet insanından» nə qədər uzaq, Kommunist ideolojisinin görmək istədiyi «insana» nə qədər zidd olduğunun fərqinə varmayıb.

Məşhur yazıçılardan kiminsə çox dəqiq fikri var: «Senzura elə bir tordur ki, kiçik balıqlar bu tora düşür, böyük balıqlar isə qurtulub çıxır». Doğrudan da Rəsul Rzanın şeirlərində «kiçik balıqlar» senzura toruna düşüb çabalayanda, nəşrinə izin verilməyəndə, «iri balıqlar» bu toru deşib hürr fikir dəryasına qovuşurdu.

Bu, bəzən senzorların «dünyadan bixəbərliyindən» (nə yaxşı ki, heləydi) irəli gəlirdi. Azərbaycan ədəbiyyatında, bəlkə də bütün sovet ədəbiyyatında ilk dəfə olaraq Rəsul Rza «Insan şəkli» şeirində (1964) Alman nasistlərinin ölüm düşərgəsi olan Osvensimin adını Stalin sisteminin sürgün və ölüm yeri

Kolımayla yan-yanaşı çəkmiş və beləliklə bu iki qəddar rejimin insana eyni şəkildə düşmən kəsildiyini göstərmişdi:

Bir yanda Osvensim -
minlərlə insan dizi bükülü.
Bir yanda yolları insanla döşənmiş
Kolıma.

...və senzura bunu buraxmışdı.

***

Stalin rejiminin və onun Azərbaycandakı M.C.Bağırov filialının qurbanları, 37-ci il cinayətlərinin günahsız «gedənləri» Rəsul Rzanı həyatı boyu düşündürən və yaza bildiyi vaxt yazdığı mövzu idi.

37-ci il qurbanı nakam Mikayıl Müşfiqə həsr olunmuş «Qızılgül olmayaydı» poeması yalnız Azərbaycanda deyil, bütün SSRİ-də bu mövzuda yazılmış ilk əsərlərdən idi. A.Soljenitsinin məşhur «İvan Denisoviçin bir günü» povesti 1956-cı ildə yazılmış və nəşri 1961-ci ildə mümkün olmuş «Qızılgül olmayaydı» poemasından bir il sonra meydana çıxdı.

Poemada Sovet rejiminin ən amansız və ən qəddar repressiyalar dövrü belə təsvir edilir:

Neçə mərd oğulların adı silindi
dirilər sadalağından,
Yetmiş günah asdılar hər ayağından.
Gedənlərdən neçəsi axşam evində
yatıb, gecə getdi.
Gedənlər bilir, gedən
gedəndə necə getdi.
Cavanlar vardı ki,
qaynar suya düşmüş çiçək kimi
soldular.
Qocalardan nə deyim,
Əydilə, əyim-əyim.
Kimisi, getdi,

bir də geri dönmədi
qara maşına minib.
Kimisi, xoşbəxt oldu
əqlini itirib.

Bu poema yalnız «gedənlərin», Sibirə sürgün olunanların, öldürülənlərin, məhbəslərdə çürüdülənlərin faciəsi haqqında deyil, həm də «qalanların», öz içinə sürgün edilmişlərin, yaddaşlarının təklik məhbəsinə atılmışların, susmağa məhkum olunmuşların, keçmişləri, hafizələri güllələnmişlərin faciəsi haqqında Zamanın şəhadətidir. Rəsul Rzanın özünün də mənəvi iztirabları barəsindədir. O dövr haqqında acı və səmimi etirafıdır.

Anadan yeni olmuş kimi
çırpınırdı ürək,
gecə qapı döyülsə.
Anadan yeni olmuş kimi sakitləşirdi adam,
döyülən qapı onunku deyilsə...
...Evinizə getmədim.
Buna nə ehtiyac vardı?
Gecə yoxa çıxanları
Gündüz kim axtarardı.

Riyakar üzürxahlıq
nəyə yarar,
O gündən ürəyimdə
düyün desən düyün,
yara desən, neçə-neçə yara var...

...doğrudur, «Müşfiqi apardılar»,-
deyib kitablarını
ev-ev qaçırmadım.
Şəklini, məktubunu cırmadım.
Ancaq götürdüm onları,

gözə görünə bilən
qəfəsəsindən kitabxanamın.
Gizlətdim, göz yaşından
möhürü çaylaq daşı kimi hamarlanmış
köhnə canamazında anamın.
O ağır gündən sonra
Doğrudur, dostluğumuzu danmadım.
Ancaq həm inandım,
həm inanmadım.
Uzun zaman qara şübhələr
məni incitdi yaman.
Lakin məntiqi nəticə birdi:
Apardılar,
yəqin, müqəssirdi.
Bu nəticəyə gələndə mən
Bir səs qalxırdı sinəmdən:
«Bəs qüsuru nədir?»
«Bəs cinayəti nədir?!
Bu cavabsız suallar indi də,
əziz bacım,
duz basılmış yara kimi
ürəyimi göynədir.

...Min sübut gətir,
min dəlil,
Əql kəsməyənə
ürək inanan deyil.
Xalqın gözündən iraq
nə ədalət
Nə haqq!
Gündüzlər belə düşün,
Belə düşün
gecələr.
Yormazmı beynini,
qırmazmı iradəni,

Fikirlər, düşüncələr?

...Bağırmaq olardımı?
Çağırmaq olardımı?
Bir zaman ki,
Mir Cəllad cəlladın əlini sıxıb,
Ədalətə qənim çıxıb,
qanunları yumruğunda sıxıb
dövran sürürdü?!

Kiçik bir haşiyə çıxıb bir faktı qeyd etmək istəyirəm. «Qızılgül olmayaydı» poemasının ilk nüsxəsini makinada mən yazmışam. Çap edərkən «Bir cəllad cəlladın əlini sıxıb» misrasında «BİR» sözünün ycrinə səhvən «MİR» yazmışdım və buna fıkir də verməmişdim. Atam makina mətnini oxuyanda «Mir cəlladı» sən özün tapmısan?» - deyə təəccüblə soruşdu. Mən də eyni təəccüblə, yox; «b» hərfi əvəzinə səhvən «m» hərfini vurmuşam», - dedim. Atam fikrə getdi, sonra «yaxşı, qoy elə belə də qalsın», - dedi, «MIR CƏLLAD».

Bəzən bir hərfin necə böyük əhəmiyyət daşıdığının əyani örnəyini gördüm.

Qəhrəmanlar var indi,
irişə-irişə
qulp qoyurlar hər işə.
Tərcümeyi-hallarından
«artıq» yerləri kəsib indi,
Çalışırlar yada salan olmasın ki,
bir zaman
hər nemət onlara nəsib idi.

Həm xüsusi idarələrin qapalı arxivlərində davamlı araşdırmalar aparmış, həm də o illərin mətbuatına yaxşı bələd olan Rafael Hüseynov Rəsul Rzaya həsr etdiyi məqaləsində yazır: «Repressiyalar girdabı onu udmadı, bu bəladan qurtuldu.

Otuzuncu illərin qarayaxa mətbuatında bircə qələm dostu haqqında da bir əxlaqsız, naməd sətri belə görünmədi. Amma neçələrinin qələm yoldaşları haqqında xəlvətdə yazdıqları donoslar bir yana, o dövrün mətbuatında donosdan geri qalmayan, dünənəcən üzünə güldükləri neçə şairi, yazıçını dirigözlü məhvə yuvarlayan nə qədər riyalı yazılar işıq üzü gördü».

Sovet quruluşunun bir qəddarlığı da ondaydı ki, ayrı-ayrı şəxsləri, onların yaxın-uzaq qohum-əqrabalarını yalnız tutmaqla, sürgün etməklə, güllələməklə kifayətlənmirdi. Gedənləiin ardınca «dostlarının» əliylə böhtan yazılar da yazdırır, ya belə yazıların altına imza qoymağa məcbur edirdi. Poemada Rəsul Rza bu məsələyə də toxunur:

Ona naməd şilləsi kimi vurulan
imzalar içində
Mənim imzam olmadı,
heç kəs məndən iltizam almadı.
Lakin necə sakit deyim ki,
səsim gəldikcə bağırmadım.
Xalqı ədalətsiz
hökmü pozmağa
çağırmadım.
Indi sakit deyirəm bu sözü,
Heç bilmirəm, düzü,
Bağırmaq olardımı?
Çağırmaq olardımı?
Bir gündə ki,
Xorenlər iş başındaydı,
Ruhullalar zirzəmidə -
can üstündə.

Xoren adını əvvəlləıdə də çəkdiyim həmin elə o Xoren Qriqoryandır. Ruhulla Axundov millətçilikdə suçlanaraq tutulmuş, güllələnmiş, qətlindən qabaq sümükləri qırılmış,

gözləri çıxarılmış Azərbaycan ziyalısı, alim, lüğətçi və partiya işçisidir.

Ruhullanı ruhullalar, Xoreni xorenlər yazmaqla saxta beynəlmiləlçiliyin, qəlp «erməni - Azərbaycan» dostluğunun, yalançı «Qardaş olub Hayastan Azərbaycan» mahnılarının rəsmi ideologiya olduğu illərdə Rəsul Rza Azərbaycan ziyalılarına zülmün çox vaxt erməni daşnaklarının əliylə olduğunu açıq-aşkar bəyan edirdi.

***

Əlbəttə, Rəsul Rzanın «Qızılgül olmayaydı» poeması da, bu səpkili başqa əsərləri də yalnız Sovet sistemində müəyyən dəyişmə dövründə, sərt ideoloji məngənələrin bir qədər azaldığı yumşalma zamanında yazıla və əsas da ki, çap oluna bilərdi. Bu dəyişikliklər isə müəyyən ictimai-siyasi hadisələrlə bağlı idi, onlar haqqında çox yığcam şəkildə olsa da danışmadan, o illərin ədəbi həyatı haqqında, Rəsul Rza yaradıcılığının bu mərhələsi haqqında dolğun təsəvvür almaq olmaz.

1953-cü il martın 5-də yalnız SSRİ tarixində deyil, XX əsr dünya tarixində də mühümdən mühüm hadisə baş verdi: Stalin öldü.

Yaxud, öldürüldü. Tarix hələ ki, bu müəmmanı tam açа bilməyib. Doğrudan da, kommunistlərin Stalinin iştirak etdiyi son XIX Qurultayında Molotovu və Mikoyanı ABŞ qarşısında qorxaqlıqda ittiham edən Stalin öz gizli fikir və niyyətlərində nəinki bu köhnə «silahdaşlarını», bəlkə, Beriyanın özünü də cəhənnəmə vasil edəcəyi vaxtı müəyyənləşdirirmiş və «cəhənnəmə namizədlər» daha zirək tərpənərək müdrik rəhbərlərini ora özlərindən əvvəl göndəriblər.

Hər halda 53-cü ilin mart ərəfəsində, fevralda Kreml həkimlərinin həbsiylə başlanan hadisələr bu ilin də tarixə 37-ci il kimi düşməsinə açıq-aydın işarə idi. M.C.Bağırov da Azərbaycan yazıçılarını «sizə bir divan tutacam ki, 37-ci il yalan olacaq» sözləriylə hədər yerə hədələmirdi.

Hər nəsə Stalin öldü və bir adamın ölümü neçə-neçə milyon insanı ölümdən xilas etdi. Ölümdən, məhbəsdən, sürgündən...

Stalin öləndən az sonra «Правда» qəzetinin səhifələrində tarixdə şəxsiyyətin rolu haqqında əvvəlcə mücərrəd, dumanlı, ikibaşlı yazılar çap edilməyə başladı, bu baş məqalələri Dövlət radiosu da verirdi. Sonra «Şəxsiyyətə pərəstiş» (Ənvər Məmmədxanlı bu istilahın daha düzgününü təklif edirdi: «Şəxsiyyətə sitayiş») istilahı ortaya atıldı və bir qədər də sonra bunun məhz Stalinə aid olduğu açıq-aşkar deyildi.

1956-cı ildə Sov.IKP-nin XX Qurultayında isə N.Xruşşov gizli məruzəsində Stalin cinayətlərini ifşa etdi (O başqa məsələ ki, özü də bu cinayətlərin ortağı idi).

Tarixdə şəxsiyyətin rolu nədən ibarətdir? Xruşşovun timsalında bunu aydın görmək olar. Stalin dövründə Xruşşov yüksək rütbəli olsa da, adicə bir partiya funksioneri idi, özü kimilərindən bəlkə yalnız Qopaq rəqsini məharətlə ifa etməsiylə seçilirdi. Stalinin ölümündən sonra isə XX Qurultaydakı məruzəsiylə Xruşşov XX əsr tarixində yeni bir dövrün başlanğıcı yolunda ilk addımı atdı. Əgər tarixdə şəxsiyyətin rolu varsa nədən Stalin dövründə bu şəxsiyyətin, konkret olaraq Xruşşovun heç bir rolu olmadı?

Yox, əgər şəxsiyyətin heç bir rolu yoxdursa, nədən başqa partiya rəhbərlərindən heç də ağıllı, savadlı, ya hətta qəddar və məkrli olmayan Xruşşov onların heç birinin edə bilmədiyi işi etdi?

Məncə, bu sualın ən məqbul cavabı şəxsiyyətlə zamanın bir-birinə tən gəlməsidir. Yəni müəyyən tarixi şərait məhz bu tip şəxsiyyəti tələb edir və həmin şəxsiyyət öz fəaliyyətiylə zamanın sifətini dəyişdirir.

Mirzə Cəlilin məşhur sözü sadə olduğu qədər dəqiqdir: «Molla Nəsrəddini» zəmanə özü yaratdı». Sovet tarixinin 56-cı ildə başlanan dönüş nöqtəsi cəmiyyətə azacıq da olsa, bir «asudəlik», yenə də Mirzə Cəlilin sözləriylə desək, «nəfəs genliyi» gətirdi. Az sonra, bütün sovet ədəbiyyatlarında, o

cümlədən Azərbaycan ədəbiyyatında, «altmışıncılar nəsli» deyilən bir nəsil meydana çıxdı. Onlar indiki cığal inkarçıların çiy və dayaz iddialarına rəğmən sənətdə, sənət vasitəsilə şüurlarda yeni bir epoxa yaratdılar ki, inkarçılar da məhz o dəyişmiş ictimai havada belə cəsur yetişdilər.

Mən hər zaman onu da qeyd edirəm ki, «altmışıncılar» deyəndə, yalnız bu illərdə ədəbiyyat, sənət aləminə gələnləri nəzərdə tutmuram. Dövrün aparıcı estetik və ictimai qüvvəsi altmışıncılar olsa da, bu yeniləşmədə daha yaşlı nəslin ən qabaqcıl, mütərəqqi, irəlici nümayəndələri də fəal iştirak edirdi.

...və Rəsul Rza yenə də bu mübaiizənin ən ön sıralarında idi.

Rəsul Rzaya həsr olunmuş «Altmışıncıların lideri» adlı məqalədə gənc tənqidçi İradə Musayeva yazır: «Özünəməxsus yaradıcılıq dəst-xətti, ideya-estetik prinsipləri ilə ayrıca bir mərhələ yaradan altmışıncı illər ədəbi nəslinin nümayəndələrindən danışarkən Rəsul Rzanın adı birinci yada düşür... Bir çox şairlər bizə təmtəraqlı, pafosla qəhrəmanlar, qaliblər təqdim edəndə Rəsul Rza bizə bu hay-küydə itib-batmış insanı göstərdi və içimizdəki insanı oyatdı. Rəsul Rza sözünə, şeirinə, hiss və düşüncələrinə azadlıq istəyirdi, çünki bizə - oxuculara, gələcək nəslə deyiləsi sözü çox idi. O qədər sözü isə qandallanmış əllərlə, göstərişlə yazmaq mümkün olmazdı. Rəsul Rza istədiyinə nail oldu. Biz onu eşidirik. Inanırıq ki, bizdən sonra gələn nəsillər də Rəsul Rza sözünün işığında dünyaya və insanlara baxacaq və bir-birilərinə şəfqət dolu təbəssümlə gülümsəyəcəklər» («Azərbaycan müəllimi» qəzeti, 17 yanvar, 2001).

***

Sovet cəmiyyətinin yetmiş illik tarixini eyni bir şəkildə donub qalmış, dəyişməz TAM, BÜTÜN, KÜLL halında təsəvvür və təqdim edənlər zənnimcə, yanılırlar. Təməl ideoloji siyasi prinsipləıi sabit və dəyişməz olan Sovet cəmiyyəti müxtəlif mərhələlərdən keçib və bu mərhələlər bir-birindən

bəzən ciddi şəkildə fərqlidir. 20-ci-30-cu illərin Vətəndaş nıüharibəsi, hərbi Kommunizm, NEP mərhələlərini bir yana qoysaq belə, Leninin sağlığında sovet cəmiyyətinin bir sifəti vardı (yaxud, daha dəqiq desək, sifətinin bir ifadəsi vardı), Lenindən sonra, özəlliklə otuzuncu illərin ikinci yarısında qanlı repressiyalar sonucunda Stalin diktaturası tam təsdiq olandan sonra isə başqa bir sifətə malik oldu.

1941-1945 arası müharibə illəri bəlkə də sovet tarixinin yeganə dövrü idi ki, rejimin rəsmi siyasəti xalqın dəruni hisslərivlə, Vətəni işğalçılardan qurtarmaq əzmiylə üst-üstə düşürdü. Bu illər Azərbaycan üçün isə Cənubi Azərbaycan məsələlərində rəsmi siyasətlə xalqın ən gözəl arzuları bir-birinə uyğun gəldiyi dövr idi. Müharibədən və Cənubi Azərbaycan azadlığının məkrli siyasətə qurban verildiyindən sonra Sovet həyatına yenə də əvvəlki buz soyuqluğu və məzar sükunəti hakim oldu. Müstəbid Stalinin öliimü ərəfəsində «sovet insanının» ömrü - Siyasi Büro üzvündən ən xırdaca məmuruna, ən adicə ziyalısına qədər qorxunc vahiməyə çevrildi, yeni repressiyalar kabusunun xofuyla yaşanıldı.

Stalinin ölümündən sonra cəmiyyətdə müəyyən «qımıldanma» duyuldu və 1956-cı ildə XX Qurultayda Xruşşovun məruzəsiylə SSRI tarixinin yeni bir dönəmi başladı. Əlbəttə, bu günün zirvəsindən baxanda bu yarımçıq və ürkə-ürkə, qorxa-qorxa, çəkinə-çəkinə aparılan reformalar miskin təsir bağışlayır. Amma bu dəyişikliklərin hansı ictimai şaxtalardan sonra meydana çıxdığını nəzərə alanda, həddən ziyadə bürokratikləşdirilmiş sovet sistemində yüz minlərlə siyasi dustağın sürgünlərdən vətənlərinə qaytarılaraq evlə, işlə təmin olunmasını unutmayanda, məhz bu dövrün yeni bir səhifə açdığını etiraf etməliyik. Bu, 1991-ci ilin dekabrında böyük bir dövlətin süqutuna aparıb çıxaran yolun başlanğıcı, ilk addımı, ilk pilləsi idi. Doğrudur, bu iki tarix arasında hələ uzun bir dövr - Brejnev dövrü, sonralar durğunluq dövrü adlandırılacaq bir zaman kəsiyi də vardı. Andropovun və Çernenkonun qısa sürən «bildirçinin bəyliyi» də vardı.

Tarix, məlum olduğu kimi, düz xətlə deyil, spiralvari irəliləyir və 1956-cı ildə başlanan sürəc, proses 1991-ci ildə tamamlandı (Əlbəttə, Xruşşov başladığı işin 35 il sonra belə nəticələnəcəyini ağlına da gətirməzdi).

Xruşşov dövrü Nikita Sergeyeviçin hakimiyyətdən uzaqlaşdırıldığı gün deyil, bir qədər daha əvvəl bitdi. Xruşşov hələ vəzifədə olduğu vaxt, müəyyən dərəcədə elə onun öz əliylə məhvə doğıu yuvarlandı. 1962-ci ilin dekabrında Moskvada Manejdə Rəsm sərgisinə gəlib abstraktsionist, yaxud abstraktsionist saydığı rəssamları küçə söyüşləriylə təhqir edən Xruşşov özü də dərk etmədən qonduğu budağı baltalayır, öz siyasi tabutuna ilk mıxları çalırdı.

Az sonra bütün qabaqcıl ziyalılara divan tutulmağa başlandı. Həbslər, sürgünlər, edamlar olmasa da, mənəvi basqınlara, pisikdirmələrə, ictimai tənələrə geniş meydan verildi. Nisbi asudəlik illərində bir qədər səsləri qısılmış mühafizəkarlar hayıf çıxmağa, özləri kimi düşünməyən və yaratmayan sənətçilərdən qisas almağa başladılar. Beləliklə, Xruşşov onu dəstəkləyən mütərəqqi intelligensiyanın və buna görə də dünya əfkar-ümumiyyəsinin rəğbətini itirirdi. Bu tarixi səhv az sonra onun öz başında çatladı. Siyasi intriqa ustaları onu tədbirlə, ehmallıca vəzifədən atdılar.

Kiminsə çox dəqiq bir ifadəsi var ki, «Moskvada, mərkəzdə dırnaq tutanda əyalət respublikalarında barmaq kəsməyə başlayırlar». Doğrudan da, 1962-ci ilin gerici, mühafizəkar dekabr dönüşü yerlərdə, o cümlədən, bəlkə daha da ifrat şəkildə, Azərbaycanda növbəti «əcinnə ovuna» çevrildi.

...Və yenə də tənqidlərin, tənələrin əsas hədəflərindən biri Rəsul Rza oldu.

Bu tənqid kompaniyalarından danışmazdan öncə 50-ci 60-cı illər ab-havasının Rəsul Rza yaradıcılığında əks olunmasından, ona danılmaz təsirindən söz açmaq istəyirəm.

***

Otuzuncu illərdən, ədəbiyyata ilk gəlişindən 81-ci ilə - ölüm gününə qədər Azərbaycan həyatının elə bir problemi çətin tapıla ki, Rəsul Rza yaradıcılığında əks olunmamış olsun. Otuzuncu illərin birinci yarısındakı ilhamlı quruculuq həvəsi, 37-ci il faciəsi, Ikinci dünya müharibəsində azərbaycanlıların iştirakı və tarixi daha əvvəllərə uzanan səbəblərdən qat-qat artıq qurban verməyimiz, Güney Azərbaycanda milli azadlıq hərəkatı və bu hərəkatın amansızcasına boğulması, minlərlə fədainin dara çəkilməsi, hər iki tərəfdən türk qanı axıdılan mənasız İran-Iraq hərbi, əzəli torpaqlarımıza - Qarabağa, Naxçıvana erməni tamahı, saxta «beynəlmiləlçilik» adı altında dilimizə, milli dəyərlərimizə etinasızlıq, «vətən xaini» adıyla damğalanan Azəri mühacirlərinin, didərginlərin qəmli taleyi, ölkədə baş alıb gedən rüşvətxorluq, yalan, yerlibazlıq, paxıllıq, donosçuluq, ədəbi mühitdə cahil anlayışlar, zövqsüzlük, mühafizəkarlıq - bütün bu sadalanan mövzular Rəsul Rza poeziyasının əlvan, çoxtərəfli və çoxtutumlu ictimai palitrasının çeşidli boyaları, mətləbləri, fərəhi və ağrı-acılarıdır... Bura hələ dünyanın müxtəlif ölkələri, xalqları haqqında silsilələri, kosmik mövzuları, klassiklərimizə həsr olunmuş şeir və poemaları, məhəbbət lirikasını, fəlsəfi lirikanı, satirik şeirləri, pyesləri, onlarca məqalə, oçerk, esse, xatirə, çıxış və müsahibələri, gənclərə xeyir-duaları, habelə dünya ədəbiyyatından tərcümələri də əlavə etsək, Rəsul Rza yaradıcılığının mövzu, janr, forma zənginliyi haqqında təsəvvür almaq olar. Uşaqlar üçün şeirlə yazdığı «Təbiət ensiklopediyası», «Təranənin oyuncaqları», «Səkil və çəkil», neçə-neçə şeir, poema və mahnı da şairin irsində mühüm yer tutur. Balacalar, yeni yetişən nəsil, millətin gələcəyi Rəsul Rzanı daima düşündürən və narahat edən məsələlərdən idi. Əvvəllərdə yazdığım kimi, Sabirin «Ey dərbədər gəzib ürəyi qan olan cocuq, ey ehtişami milləti talan olan cocuq» misralarından riqqətlənən və kövrələn Rəsul Rza öz çağında da belə dərbədər gəzən cocuqların aqibətindən yana-yana söz açırdı. Sabirin yuxarıda gətirdiyim sətrini epiqraf qoyduğu «Çörək satan

qızlar» adlı şeirində məktəbdə dərs oxumalı balaların küçədə çörək satmasından ürək ağrısıyla yazırdı:

Bəzi adamlar buna
«tərbiyə işimizdə
çatışmazlıq, ya nöqsan»,
Bəziləri «keçmişin
qalıqları», - deyirlər.
Düşünürəm: Qalıqlar!
Bu acı xırdalıqlar,
Nə qədər qalacaqdır?
Qalıqların yuvası
Dağıldığı haçaqdır!

(1962)

Bir dəfə atama «bilirsən o qızlar harda çörək satırlar, - dedim, Cavid küçəsiylə Cəlil Məmmədquluzadə küçələrinin tinində». Fikirli-fikirli: «Bu özü də kədərli bir şeir mövzusudur», - dedi.

«Uşaqlar bizim cəmiyyətdə yeganə inıtiyazlı sinifdir», - deyə bir-birindən gözəl kəlamlar bəyan eləyən sovet rejimində körpələrə amansızcasına laqeyd, biganə münasibət «Sarı dana və balaca qız» şeirinin faciəvi mövzusudur. Kolxozun sarı danası xəstələnəndə sədr, partkom, baytar, briqadir bir-birinə dəyir, qoca mühasib gəlir.

Dedi: - Yazığın gəlsin bizə,
sarı dana.
Amandır bu zülmü eləmə
illik plana!

Sağıcı Gülxaranın gözünə dünyanın zülməti çökür, dana sakit yatanda «ağrın alım», qurcuxanda «can» deyir.

Nə evinə gedə bildi,
Nə urvalıq apara bildi
uşaqlara dəyirmandan.
Tənzifə qızmadı ürəyi,
Dananın qarnına bağladı
gəlinlik şalını.
Sədr hər axşam,
hər səhər şəxsən soruşdu
dananın əhvalını.
Partkom gündə bir dəfə xəbər aldı,
«Necədir sarı dana?»
Əhvalat uzundur, nə deyim.
Bəsdir bunu desəm,
Dana ölmədi bu azardan.
Ancaq
Gülxaranın kiçik qızı...
Beşcə qulac bez alddar bazardan.

Quyruğunu qoyub belinə
qaçır, tullanır
sarı dana indi.
Ancaq soruşan yoxdur,
yaşıl otlar içindəki
o balaca qəbir kimindir!

Cəmiyyətdə ağır ittiham kimi səslənən bu səpkili şeirləri Rəsul Rza təbii ki, yalnız 50-ci illərin ikinci yarısından sonra, ölkədəki məlum dəyişikliklərdən sonra yaza və çap elətdirə bilərdi. Tənqidçi Qulu Xəlilovun dediyi kimi, «bu yeni ab-havada hamıdan artıq Rəsul Rza yazıb-yaratmağı bacardı».

Siyasi həyatda çox qısa sürən bu dövrdə nisbi «nəfəs genliyi» olan illərdə Rəsul Rzanın da «ikinci nəfəsi» açıldı. Amma bir müddətdən sonra bu dövrə son qoyuldusa da, ictimai şüur, düşünən insanların dünyaduyumu və dünyagörüşü artıq əvvəlki kimi qala bilməzdi və Rəsul Rza da ömrünün bütün

bundan sonrakı illərində bu tərzdə xeyli əsər yazdı. Artıq dünyaya pəncərə açılmışdı. «Bağbanın qəfləti» şeirində yazdığı kimi, bu bağın heç də dünyada yeganə «cənnət» olmadığı aydınlaşmışdı. Düzdür, dünyaya qapılar və pəncərələr taybatay açılmamışdı, Rəsul Rzanın arzuladığı kimi,

«Ürəkdən ürəyə,
Ölkədən ölkəyə
açıq yol olsun»

istəyi tam həyata keçməmişdi, yollar da, ürəklər də hələ xeyli qapalıydı. Amma hər halda az-çox dünyayla təmasa imkan yaranmışdı, bəzən sadəcə turist kimi, bəzən rəsmi heyətlərin tərkibində yaxud yaradıcılıq ezamiyyətində müxtəlif ölkələrə gedə bilirdi. Bu vaxta qədər Rəsul Rza yalnız bircə xarici ölkədə, Iranda olmuşdu, əgər Cənubi Azərbaycanı xarici ölkə hesab etmək caizsə (Tehrana və İranın başqa şəhərlərinə gedə bilməmişdi). 50-ci illərin ikinci yarısından sonra isə bir çox Avropa ölkəsini, o cümlədən Fransanı, Italiyanı, ərəb dövlətlərini - Misiri, Iraqı, Suriyanı, Livanı, uzaq Asiya məmləkətlərini - Hindistanı, Indoneziyanı, Birmanı görə bildi, üç dəfə (birinci kərə cəmisi bir neçə saat) Türkiyəni gəzdi. Hindistanda Cəvahirləl Nehruyla görüşü haqqında qısa xatirə yazıb. Azərbaycanın Asiya və Afrika ölkələriylə həmrəylik komitəsinin sədri kimi bir sıra beynəlxalq tədbirlərdə iştirak və çıxış edib. Əsas odur ki, müxtəlif xalqların günü-güzəranıyla sovet təbliğatının təqdim etdiyi tərzdə deyil, öz gözüylə gördüyü və dərk etdiyi şəkildə tanış olub. Əlbəttə, belə qısa səfər təəssüratı ötəri və səthi tanışlıq sayıla bilər, amma hər halda iti müşahidəli sənətkar gözüylə görüb-götürdükləri onun dünya haqqında təsəvvürlərini xeyli genişləndirib.

Bu illərdən başlayaraq xarici ölkələrlə gediş-gəliş xeyli artmışdı, Bakıya tez-tez əcnəbi qonaqlar gələrdi və Rəsul Rza da onların bir qismiylə görüşərdi. Bəzilərini evimizə dəvət edərdi. Əvvəlki illərdə evimizin qonaqları əsasən sovet

yazıçıları olardı: Luqovskoyun, Svetlovun, Antokolskinin, Smelyakovun, Rəsul Həmzətovun evimizdə olmalarını yaxşı xatırlayıram. «Buzların ərimə» dövründə Rəsul Rza Yazıçılar İttifaqında, Ensiklopediyada və evimizdə nıəşhur fin yazıçısı Martti Larni ilə, İsveç şairi Artur Lundkvistlə, Amerika publisisti Skott Nirinqlə, fransız yazıçısı Elen Parmelenlə, polyak jurnalisti Vatslav Kubatski ilə, hind şairəsi Amrita Pritamla, kürd şairi Həjarla və əvvəllərdə dediyim kimi, bir çox Türkiyə yazarlarıyla görüşmüşdü.

Bu görüşlərdən bir məzəli xatirəm də var. Evimizə İsveçrədən bir ədəbiyyatçı gəlmişdi. Süfrə açılmışdı. Söhbət əsnasında qonaq qırmızı şərabı ağ süfrənin üstünə dağıtdı və çox pərt olub üzr istəməyə başladı. Atam tərcüməçinin vasitəsiylə dedi ki, bir şey deyil, narahat olmasın. Amma rafınə olunmuş Qərb intelligenti heç cür sakit olmurdu, elə hey üzrxahlıq edirdi. Atamın hövsələsizliyinə bələd deyildi axı. Axır növbəti dəfə öz təəssüfünü bildirib üzr istəyəndə atam təngə gəldi və qırmızı şərab şüşəsini götürüb süfrənin üstünə tökdü ki, qonaq sakit olsun. Qonağın gözləri kəlləsinə çıxmışdı: güman ki, ömründə ilk dəfə belə hərəkət görürdü.

***

Deyildiyi kimi, beynəlxalq mövzuların Rəsul Rza yaradıcılığında önəmli yeri var. Beynəlxalq mövzuda yazdığı əsərləri də məncə, üç qismə ayırmaq olar. Bir qismi hələ SSRİ sərhədlərindən dişara çıxmadığı dövrlərdə yazdığı və təbii ki, müəyyən dərəcədə sovet təbliğat ştampları tərzində yazılmış şeirlərdir («Şairin anası», «Azadlıq heykəli», «Haqqın səsi» və s.). Hətta xaricə ilk səfərlərindən sonra yazdığı bəzi şeirlərdə belə sovet təbliğatının qəlibləri və qalıqları sezilməkdədir. Parisdə Luvrun sərvətlərindən, Miloslu Venera heykəlindən zövq aldığını da yazır, amma eyni zamanda elə zənn edir ki, Eyfel qülləsi Fransa azad olmadığı üçün qüssə çəkir. Eyfel qülləsi guya ki, belə düşünür:

Ayağımda zəncir yoxsa,
düşünməyin ki, azadam.
Dustaqları yoxlasan
Zəncir dustağıdır az adam.
Dil dustağı,
göz dustağı,
fıkir dustağı olanlar
saya gəlmir...
Dərdlilər çoxdur,
hamısı Senaya gəlmir
Versala gedə bilmərəm,
Başım keçməz darvazadan.
Elə bilməyin ki, azadam!
Ayağım torpaqda,
başım göydə,
Parisin emblemasıyam...
Ancaq məyus olmayın.
Kim deyir ki, mən
beləyəm,
belə də qalasıyam?
Nə qəm ki,
burda indi tənhayam,
təkəm,
Mən Parisin səhərini
hamıdan qabaq görəcəyəm!»

Bu səpkili şeirlərdə canlı müşahidələr, maraqlı obrazlar olsa da, onların ümumi pafosu Qərbə sovet təbliğatının gözüylə baxışdır.

Beynəlxalq mövzulardakı şeirlərin başqa bir qismi isə müəyyən dərəcədə sovet təbliğatının möhürünü daşısa da əsas qayəsi və amalı etibarilə antiimperialist ruhda, müstəmləkəçiliyə etiraz ruhunda, əzilən xalqların hüquqlarını müdafiəsi ru-

hunda yazılmışdır və bu hadisələr Rəsul Rzaya daha yaxın, daha doğmadır.

Əlcəzairdə,
geniş meydanda
öldürdülər onu.
Öldürdülər günün günorta çağı
Minarədə əzan başlayanda.
Əlcəzair meydanında
Günün günorta çağı,
öldürdü onu «ultralar».
Öldürən avropalı, gəlmə,
«mədəniyyət» silahlı,
«qüdrəl» səngərli.
Ölən-tərsanə fəhləsi
Əbu Səlman,
müsəlman.
Şükran dini deyil,
dinim mənim.
Düşmənə düşmənəm,
Qənimə qənim.
Mən də sənin dinindəyəm.
Qalib gələnə qədər mübarizəm
Azadlıq uğrunda lazım gələrsi,
təəssüfsüz ölmək
«vətən» deyilən ana torpağı
Qəlbimin duyğusu,
Gözümün çimiri,
yuxusu,
Ömrün az, ya çox qalan
günləri bahasına
qorumaq dinində!
Mənim dinimdir,
sənin qəzəbin də, kinin də.
Eşitsin yer kürəsi,

Böyük anam!
Mən müsəlmanam!

Və nəhayət, beynəlxalq mövzulu şeirlərin üçüncü qismi bilavasitə müxtəlif ölkələrdə gördüklərini, müşahidə və təəssüratlarını əks etdirən şeirlərdir. İraqa, Suriyaya, Hindistana, İndoneziyaya, Avstriyaya, Çexoslovakiyaya aid olan şeirlər və şeir silsilələrində çoxlu diri cizgilər, əyani mənzərələr, canlı insan portretləri var. Türkiyəylə bağlı şeirlərinin çoxu Nazim Hikmətin anımlarıyla bağlıdır. Maraqlıdır ki, əziz dostunu yalnız İstanbulda, Bursada, onunla birbaşa əlaqədar olan yerlərdə deyil, Bakıda, xəstəxanada, ağır azarlıq keçirəndə də xatırlayır. Türkiyəylə bağlı mühüm şeirlərindən biri «Didərginlər»dir. Bu şeirin ictimai cəhətdən prinsipial əhəmiyyəti ondadır ki, sovet mətbuatında ilk dəfə Azəri siyasi mühacirlərini vətən xaini kimi «damğalamaq» əvəzinə onların halına acıyır. Türkiyədə tanış olduğum mühacirlərdən bir neçəsi mənimlə bu şeir haqqında təəssüratlarını bölüşürdülər, «bizə ən düzgün təyini rəhmətlik atanız verib, deyirdilər «didərginlər».

Şeir, mənim də tanış olduğum bir azərbaycanlıya, Nəsib bəy Yusifbəylinin qohumu Saleh Gəncərə həsr olunub.

Saleh özü gedib vətəndən
beyninin qaynar çağı.
Macəralar romantikası məst eləyib
On dörd-on beş yaşlı uşağı.
Peşmanam demir.
Güzəranım yaxşı,
Dost-aşnam.
Ancaq Boğaziçinə baxanda
hər axşam
Yadıma Xəzər düşür,
Xatirələrimlə bacara bilmirəm.
Fikrimi, xəyalımı
Göynəklərdən qaçıra bilmirəm.

«Peşmanam», demir Gəncər,
Ancaq qırx ildən sonra
yenə yerli türklər
göyərtiyə «səbzə» deyir,
Saleh «pəncər»...

Şeirdə söhbət Saleh Gəncərin evində toplaşmış məclisdən, azərbaycanlı mühacirlərin yığışdığı məclisdən gedir.

Biri əczaçıdır
həmməclisimizin,
Gəlsəm, deyir, necə olar?
Mən bu davada
əsir düşmüşəm
Yaralı deyildim,
nə yalan deyim.
Ancaq,
yaşamaq istəyirdim.
Yaşamaq.
Taleyim belə gəldi.
Nə vətəndən incimiş,
nə xalqımdan küsmüşəm.
Amma...
«xain » deyirlər bizə,
Xain!
Gəlsəm necə olar?
Ürəyim deyil arxayın...
Məhkəmənin hökmünü gözlər kimi
gözləyir cavabımı.
Bilmək istəyir fikrimi.
Gəlin, deyirəm,
vicdanın ləkəsizdirsə,
istəyiniz düzdürsə,
nankorluq olmayıbsa
fikrinizdə, işinizdə.

Nankorluq olmasın həm də,
bu gedişinizdə...»

Açığını deyim ki, bu mənim çox sevdiyim şeirlərdəndir və gətirdiyim parçada son iki misranın məncə, prinsipial əhəmiyyəti var. Vətən həsrətiylə yanıb qovrulan mühacirin Azərbaycana dönmək imkanı olarsa belə, o, sığındığı, qorunub saxlandığı, çətin günündə ona çörək verən ölkəyə -Türkiyəyə də bu gedişiylə nankorluq göstərməməlidir.

«Didərginlər» şeirinə xoş münasibətim bəlkə də özümün müəyyən dərəcədə keçirdiyim hisslərlə bağlıdır. Əvvəllərdə dediyim kimi, 1993-cü ilin fevralından yeddi ay müddətində İstanbulun Memar Sinan Universitetində Azərbaycan ədəbiyyatından dərs vermişdim. İstanbula gəldiyim elə ilk günlərdən dəli bir həsrət çuğladı məni, dərhal Universitetlə müqaviləmi pozub (hələ maaş-zad da almamışdım) Bakıya qayıtmaq istədim. Nə yaxşı ki, iradəmi toplayıb bunu etmədim. Türkiyə təcrübəm də, bundan əvvəl Moskvada yaşadığım illərin təcrübəsi də ömrümün mühüm parçasıdır və mənə çox şey verdi.

***

Türkiyəni çox sevirəm. Bu sevgiyə görə «Qobustan»da işlədiyim illərdə başım az çəkməyib. Elə indinin özündə də türklük düşmənlərinin hədəfiyəm. Bəlkə bu sevgi genetik olaraq valideynlərimdən keçib. Bəlkə də ailəmizdə uşaqlığımdan Türkiyə şairlərinin şeirlərini eşitməyimdən, ilk gəncliyimdə Rəşad Nurinin «Çalı quşu», Xalidə Edibin «Atəşdən gömlək» romanlarıyla, Ömər Seyfəddinin hekayələriylə tanışlığımdan, Atatürkə pərəstişimdən, Nazim Hikmətlə ünsiyyətimdən, Türkiyənin yaşca məndən böyük və ya yaşıdım olan həm sol, həm sağ yazarlarıyla, alimləriylə, jurnalistləriylə məhrəm söhbətlərimdən gəlir. Türkiyədə çoxlu dostum var, xeyli qohumum, o cümlədən ən yaxın qohumlarım, dayımın oğlu

Aydın, qızları Nigar və Bertan İstanbulda yaşayır (Nigar indi əriylə Almaniyada olur).

Bütün bunlara rəğmən 1993-cü ildə İstanbulda ilk günlərdə keçirdiyim qəriblik hissləri sonralar bir az səngisə, korşalsa da müddətimin sonuna qədər davam etdi. Ən çətin dəqiqələrimdə təsəllimi onda tapırdım ki, istədiyim dəqiqə şələ-küləmi yığışdırıb Vətənə dönə bilərəm. Və bu zaman başıma başqa bir fikir də gəlirdi «Yaxşı, - deyirdim, özüm-özümə, - istədiyin vaxt bilet alıb Bakıya qayıda bilərsən. Sən bu cür hisslər keçirəndə gör, Vətənə dönmələri mümkünsüz olan insanlar qürbətdə nələr çəkirmiş?!»

Qəribədir ki, ilk öncə xəyalımda əqidələri etibarilə bir-biriylə tam zidd mövqedə dayanan iki böyük insanın surəti canlanırdı: Məmməd Əmin Rəsulzadənin və Nazim Hikmətin.

Siyasi fəaliyyətinin ilk dövründə M.Ə.Rəsulzadə də Nəriman Nərimanov və Məşədi Əzizbəyov kimi sosialist, hümmətçi idi, birgə fotoşəkilləri də var. Amma Nərimanovdan fərqli olaraq, Rəsulzadə bir müddətdən sonra bu ideyalara inamını itirdi və qatı antikommunist, SSRİ yaranandan sonra isə bu dövlətin barışmaz düşməni oldu. Kommunist ideyalarına tapınan Nazim Hikmət isə əqidəsinə görə on beş il Türkiyə məhbəslərində yatdı, sonra qaçıb Sovet İttifaqına gələndən bir müddət sonra dərin peşmançılıq duyğuları yaşadı. Məsələ bu insanların nə zaman və nəyə inandıqlarında, nədə aldandıqlarında deyil, məsələ ondadı ki, hər ikisi, hərəsi öz əqidəsinə uyğun olaraq Vətənlərini həqiqi məhəbbətlə sevirdilər və məmləkətlərindən əbədi iraq düşmələri hər ikisinin sağalmaz könül qubarı idi.

Bir söhbət də yadıma düşür: Bakıya Füzuli yubileyinə Moskvadan Nazim Hikmət, Türkiyədən ədəbiyyatşünas alim Agah Sirri Ləvənd də gəlmişdi. Türkiyədən gələn hər qonağı adətən gurultulu alqışlarla qarşıladıqları kimi Ləvəndə də uzun zaman əl çaldılar. Nazim də əl çalırdı. Sonra söz Nazim Hikmətə veriləndə, salonda daha da sürəkli alqışlar qopdu. Nazim Hikmət çıxışını bitirəndə alqışlar bir az da şiddətləndi.

Hamı əl çalırdı, bircə Ləvənddən savayı. Prezidiumda əyləşmiş türkiyəli qonağın sifəti daş kimi donub qalmışdı. Tədbirdən sonra Nazim atamgilə, evimizə gəldi. Onun özündən artıq deyəsən, atamla anam pərtləşmişdilər. Nazim sanki onlara təsəlli verirdi: «Niyə təəccüblənirsiniz, - deyirdi, - düşünün ki, siz Türkiyədəsiniz, bir toplantıda, Məmməd Əmin Rəsulzadə çıxış edir, hamı əl çalır. Sizdəmi əl çalacaqdınız?»

Deyəsən, xatirələr məni çox uzaqlara və tamam başqa mətləblərə aparır. Ancaq yazımın əsas mövzularına qayıtmadan öncə bir haşiyə də çıxmaq istəyirəm. Vaxtilə yazdığım «Qürbət mənim içimdə» essesindən bir parçanı bura göçürürəm:

«Vətən sevgisinin son bir həddi də var. Vətən naminə Vətəni tərk etmək. Siyasi mühacirət Vətən uğrunda Vətəndə mübarizə imkanlarının qeyb olduğu zaman başlanır. Azərbaycan mühacirəti də bu baxımdan istisna deyil. Bəzən düşünürəm: həsrət, ayrılıq, qürbət və qəriblik motivləri bizim ədəbiyyatımızda «Kitabi Dədə Qorqud»un Beyrəyindən Aşıq Qəribə qədər, bayatılarımızdan Şəhriyara qədər nədən belə önəmli yer tutur, niyə itirdiklərimizi xatırladan «Yadıma düşdü» ifadəsi poeziyamızın çox işlənən rədiflərindəndir? Niyə dilimizin ən gözəl misraları qürbət rəmzi durnalara həsr olunub?»

Rəsul Rzanın «Köçəri quşlar» şeirində deyildiyi kimi:

Düzülüb qatar-qatar
Göyə qanadlandılar
durnalar.
Qalxdıqca qatar,
buludlar endi yavaş-yavaş.
Çaylar nəzilib, dolaşıq göy sapa döndü,
Dağlar irili-xırdatı qabar kimi göründü.
Göydən yarpaq-yarpaq töküldü
qaqqıltı səsi.
Qatardan ayrıldı, durnalardan bir dənəsi
Ləngidi, geri qaldı.
Qatar yolundan qalmadı,
Ancaq
qatarın bir durnalıq yeri boş qaldı.
Elə bil, bir bağ göy muncuğun

bir buğumu boşaldı.
Yel qalxdı,
bulud ucaldı
Durna endikcə aşağı.
Nə ovçu vurmuşdu onu,
nə qanadı qırılmışdı.
Durna uçmaqdan,
köçməkdən yorulmuşdu.
Durna yumdu gözlərini,
öldü sakit, səssiz
Üzü qürbətə
uzaqlaşdı, üfüqdən aşdı
qaqqıltılı qatar.
Qürbətdə qaldı tək durna.
Qaldı, biganə
səfərin qəzasına,
yolların uğuruna.
Harda qalsa,
qürbətdə qalmırmı,
Hara uçsa,
qürbətə uçmurmu,
köçəri quşlar?!

(May, 1962)

İtirdiklərimizə sonradan daha çox yandığımız kimi, Vətənə bağlılığımız da qürbətdə sınanır.

***

Vətəni sevmək hər bir insan üçün, əgər o normal insandırsa, ananı sevmək qədər təbii hissdir. Vətəni sevdiyini bəyan etmək «mən anamı sevirəm», - deyə dönə-dönə aləmə car çəkmək qədər qeyri-təbii haldır. Vətən sevgisi quru sözlə yox, işlə, əməllə, Vətən yolunda fədakarlıqla təsdiq olunur. Rəsul Rza Vətənə məhəbbətini qışqıra-qışqıra bəyan etmirdi (xudanəkərda birdən kimsə onun «patriotizmindən» bixəbər qalar).

Vəsiyyət kimi səslənən «Unutmayın» şeirində yazırdı:

Bir ovuc torpaq üstünə qoyun başımı
Mən o torpağı sevmişəm.
Ancaq məhəbbətim
nə sərgiyə qoyulan tablo olub,
Nə parıltısı diqqət çəkən üzük qaşı.
Mənim sevgim sevgi idi
sadə, yaxşı.

Vətənə məhəbbətin belə, geniş şöhrət gətirməyən, sərgidə nümayiş etdirilib diqqət çəkməyən şəkli də var sadə, yaxşı... Ancaq belə sakit, sadə, haray-həşirsiz, çığır-bağırsız Vətən sevgisi çoxlarının gözündən yayınsa da, «ideoloji sapıntılara» qarşı amansız mübarizə aparan Partiya orqanlarının diqqətindən yayınmırdı. Rəsul Rzaya qarşı aparılan hücum kompaniyaları çox vaxt məhz Kommunist Partiyasının ideoloji aparatı tərəfindən təşkil olunuıdu. 1959-cu ilin aprelində Bakıda partiya fəallarının toplantısında çıxış edən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin o vaxtkı ideoloji katibi məruzəsində deyirdi:

«Yaradıcı işçilərimizin heç də hamısı həyatla ayaqlaşmır. Bəzən ədəbiyyat və incəsənətimizdə ideya və bədii cəhətdən zəif əsərlər meydana çıxır. Rəsul Rzanın «İnsan» şeiri buna misal göstərilə bilər... Kommunizm qurucusu olan sovet adamı ədəbiyyat və incəsənət əsərlərinin əsas qəhrəmam olmalıdır».

Əsərin bədii cəhətdən zəifmi, güclümü olduğunu otuz illik yaradıcılıq yolu keçmiş Rəsul Rza hər hansı partiya katibindən daha yaxşı müəyyənləşdirə bilərdi, amma kommunist ideolojisi baxımından «İnsan» şeirində təsvir edilən obrazın gerçəkdən də «Kommunizm qurucusu» olan sovet adamına heç bir dəxli yoxdu və bu cəhətdən katib də, onun sözlərindən vəcdə gəlib «əlüstü» nəticələr çıxaran tənqidçilər də haqlı idi. Elə həmin 59-cu ilin aprel ayında ideoloji katibin tənqidindən dəhral sonra «isti-isti» «Ədəbiyyat və İncəsənət» qəzeti (11

aprel 1959-cu il) «İnsan» şeirinə şairin başqa əsərlərini də qataraq hücuma keçir:

«Rəsul Rzanın «İnsan» adlı bədbinlik təlqin edən zərərli şeiri, cləcə də «Anket əhvalatı», «Sadə səbəb», «Təcrübəsizlik», «Ceyran dedi», «Sığorta» və başqa şeirləri müasir həyatımızdan, onların (Kimlərin? Həyatın? - A.) dünyagörüşündən uzaq əsərlərdir. Belə əsərlərin dərc edilməsi təkcə öz yaradıcılığına qarşı az tələbkar olan müəllifin qüsuru deyil, həm də onların çapına icazə veıən redaksiya heyətinin də nöqsanıdır».

Əlbəttə, hər bir əsəri bəyənməmək, mətbuatda tənqid etmək təbii haldır. Amma sovet ideoloji sisteminin əzazil özəlliyi onda idi ki, əsərin həqiqi, ya zənn edilən nöqsanlarından başqa, onun çap olunması faktının özü belə suçlanır, damğalanırdı. Yəni, hər hansı şairin bu və ya digər cəhətdən məqbul sayılmayan yazısının işıq üzü görməsinə etiraz edilirdi, qadağan olunması, ümumən, belə əsərlərin çıxmaması tələb edilirdi. Başqa sözlə desək, bu, şairi susdurmaq göstərişi idi. Şairçün, sənətkarçünsə susdurulmaq öldürülmək, susmaq ölmək deməkdi.

Ədəbi qəzetdə bir rəy kimi söylənmiş bu fikir Kommunist Partiyasının rəsmi mətbu orqanı olan «Kommunist» qəzetində artıq bir rəy kimi yox, bir hökm kimi səslənirdi. 1959-cu il aprelin 18- də «Kommunist» qəzeti iki padval yazı - Rəsul Rzanın SON şeirlərinin kəskin tənqidinə həsr olunmuş «Günün tələbləri səviyyəsinə» adlı məqalə verdi. Məqalə imzasız idi və sovet ideoloji sisteminin qaydalarına bələd olanlar bilirlər ki, bu daha da təhlükəli idi. Çünki imzayla hətta rəsmi mətbuatda dərc olunmuş yazı müəyyən bir adamın şəxsi fıkri qəbul edilə bilərdi, rəsmi partiya orqanında imzasız verilən yazı isə ümumən Kommunist Partiyasının, onun Mərkəzi Komitəsinin, yəni, ən ali hakimiyyətinin rəyi, daha doğrusu, hökmü və qərarı kimi anlaşılırdı.

Bu məqalədə də Rəsul Rzanın şeirləri sovet ədəbiyyatının ümumi ruhuna xas olmayan xarici haşiyələr kimi səciyyələndirilir, onların sovet lideri Xruşşovun ədəbiyyat qarşısında

qoyduğu vəzifələrə zidd olması vurğulanırdı. Uzun-uzadı məqalənin sonunda yenə də yalnız konkıet şairi - Rəsul Rzanı tənqid etməklə kifayətlənməyən anonim müəllif bu şeirləri çap etdiyi üçün Yazıçılar İttifaqının «Azərbaycan» jurnalını, onun redaktoru Əli Vəliyevi və hətta Yazıçılar İttifaqının özünü belə təqsirləndirir, onları məsuliyyət hissini itirməkdə günahlandırırdı. Məqalənin axırında sovet siyasi təbliğat sisteminin ənənəvi metodundan istifadə olunur: «Şübhəsiz Rəsul Rza bir kommunist şair, bir vətəndaş kimi öz nöqsanlarını boynuna almaqdan çəkinməyəcəkdir. Lakin təkcə bu azdır. Oxucu ondan günün tələbləri ilə səsləşən yeni-yeni əsərlər gözləyir»

Anonim məqalə müəllifi də, adından danışdığı «oxucu» da çox gözləməli oldular. Gözləri yolda qaldı. Rəsul Rza nə bu «nöqsanlarını», nə də bundan əvvəl və bundan sonra ona irad tutulan və tutulacaq başqa «nöqsanlarının» heç birini heç bir vaxt boynuna almadı və ondan «gözlənilən» əsərləri də yazmadı. Daha doğrusu, gerçəkdən də günün tələblərini qələmə aldı, amma şair bu tələbləri məqalə müəllifinin düşündükləriylə daban-dabana zidd olan problemlər kimi dərk edir, duyduqlarını, gördüklərini anladığı kimi çatdırmaqda davam edirdi.

Maraqlıdır ki, «Kommunist» qəzetində dərc edilmiş məqalənin əks-səsası çox uzaqlara, Sovet İttifaqının hüdudlarından kənarlara da çatmışdı. İkinci dünya müharibəsində almanlara əsir düşmüş, Avropada, sonralar Türkiyədə siyasi mühacir kimi sığınacaq tapmış ədəbiyyatşünas alim, publisist Süleyman Təkinər Münxendə türk dilində çıxan «Dərgi» adlı ədəbi jurnalda (1959, №5) bir məqalə dərc etdirmişdir. «Sovet Azərbaycanında tənqidlərə hədəf olan bəzi şeirlər üzərində araşdırmalar» adlı yazıda «Kommunist» qəzetində Rəsul Rzaya qarşı yönəlmiş məqalədən ətraflı danışmış, onun məzmunsuzluğunu, saxtakarlığını, bəsitliyini tutarlı dəlillərlə, güclü məntiqlə alt-üst etmişdir. Süleyman Təkinər yazır: «Azərbaycanın müasir sovet yazarları arasında misilsiz şairlik qüdrəti və həssas daxili aləmi ilə çoxdan bəri oxucuların diqqətini çəkməkdə

olan şair Rəsul Rzanın son aylarda basılmış şeirləri bu yöndə önəmlə üzərində durmağa dəyər.

Şairin «Azərbaycan» məcmuəsinin 1959-cu il fevral nüsxəsində basılan bir sıra şeirləri Azərbaycanda bir hadisə oldu. Bəhs edilən şeirlər qızıl tənqidçilərdən başqa bəzi partiya çevrələrini də ciddi məşğul etmişdir. Hadisənin təsiri hələ də davam etməkdədir.

Azərbaycanda qızıl tənqidçilər qədər bəzi partiya məmurlarının da şiddətli tənqidlərinə hədəf olan şairin «İnsan» şeirini birlikdə oxuyaq:

Səslər kəsildi,
fikirlər dolaşdı,
qurğuşun asıldı kirpiklərdən.
Aç qapını,
Mən ölüməm, gəlmişəm!
«Xoş gəldin « - desəm
bir az gülməli çıxar.
Gəlmisən, apar!
Adı, atasının adı,
yaşı, ünvanı budur...
Gedək! Dur!
Sükut çökdü araya,
uzun, dərin bir sükut,
Bir saniyə tamam...
Qalxdı ayağa
Dedi: - Gedək.
Demədi yanılmısan,
Mən deyiləm.
sən axtardığın adam.

Təqribən 40 illik bir zamandan bəri sözdə «ən bəxtiyar insanların yaşadıqları bir cəmiyyət» - Azərbaycan sovet kommunist cəmiyyəti vadisində içdə və dışda yapılan aramsız və güclü bir propoqandadan sonra, eyni cəmiyyətə mənsub məğrur

bir yazarın günün birində ortaya çıxaraq «burada insanların ölümü cana minnət bildiklərini» deyərək bu cəmiyyətin həqiqi mənzərəsini təsvirə təşəbbüs etmiş olması, qızıl məmurları qəzəbləndirməyə kafi gəlmişdi. Dərhal qələmə sarılan qızıl münəqqidlər «İnsan» şeirinin şairini yaylım atəşinə tutdular».

Daha sonra S.Təkinər yazır:

«Həssas bir şairin «çürük bir fəlsəfə təsisi» və ya «insanlara qarşı iftiraçılıq» kimi töhmətlər altında buraxılması, hər şeydən öncə sovet kommunist cəmiyyətinin üzərində qurulu bulunduğu şikəst bir zehniyyətin məhsuludur. Şübhə yoxdur ki, şair «İnsan» şeiriylə sovet cəmiyyətində insanın həqiqi durumu haqqında duyğu və müşahidələrini ifadə etmişdir. Bu duyğu və sevgilər insanın cəmiyyətdə mövqe və rolunu təsbit edən kommunizm fəlsəfəsinin iddialarından çox fərqlidir... İnsanı «çox yüksək qiymətləndirən» sovet kommunist propoqanda ədəbiyyatının hər gün tutdurduğu təranələrlə, insanın real mövqeyi və durumu arasında mövcud olan bariz uyğunsuzluqlar «Divar daşı» adlı şeirində də bəlirtilmişdir».

Süleyman Təkinər Rəsul Rzanın tənqidə məruz qalmış «Qədim əlyazması», «Yazıq» kimi şeirlərini də geniş təhlil edib, haqsız tənqidlərə əsaslı cavab verəndən sonra «Sığorta» şeiri üzərində dayanır:

«Və nəhayət, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin orqanı - «Kommunist» qəzeti şair Rəsul Rzanın son şeirlərini şiddətli tənqid edən məqaləsində «Sığorta» başlıqlı şeir üzərində də önəmlə durmaqdadır... Özünə-həyatının sığorta edilməsini təklif edən sığortaçıya şairin verdiyi cavab budur:

De görüm, böhtandan, qaradan,
yalandan, riyadan,
nahaq sözün acısından,
adamın nacinsindən
Sığorta edə bilərsənmi?

Və şair sığortaçıya xitabən deyir ki, şayət sən insanları bütün bu bəlalara qarşı sığorta etməkdən acizsən, bu halda:

Dəftərini bük,
qələmini yaxana sanc.
Məndən sənə nə qazanc.
Mən ölümdən sığorta istəmirəm.
Yox, bu deyil məqsədim.
Şair demiş:
-Ölüm də həyat qədər qədimdir, qədim.

Şairin «Sığorta» şeiriylə ilgili olaraq «Kommunist» qəzeti bunları yazır: «Əvvəla, sığorta yapılmasma etiraz etmək qabaqcıl bir görüş məhsulu deyildir. Bununla bərabər, şayət şair bu nəticəyə varmışsa, o halda bu mövzuda yeni bir düşüncəyə malik olmalıdır. Və səbəbsiz deyildir ki, oxucu ilk misralardan sonra bu «yeni fikrin» açıqlanmasını gözləyir. Buna müqabil, «ölümün də həyat qədər qədim olduğunu» öyrənir. Fəqət, bu «yenilik» oxucumuzu təmin etməyir».

Nə qəribədir ki, qəzet şairin sığortaçıya necə bir cavab verməsi haqqında bir fikir bəyan etməkdən də utanıb-çəkinmir. Qəzetə görə, şair ona xitab edən sığortaçıya bunları söyləməliydi:

Nə deyirəm,
Lazımdırsa, edin.
Təki razı gedin!
Qəlbim də, canım da
xalqıma bağlıdır.
Xalqa isə ölüm yoxdur.
Demək, yoxdur mənə də.
Mənim şüarım budur.
Bax, deyirəm yenə də,
Lazımdırsa, edin,
Təki razı gedin!»

Yazıq Süleyman əfəndi belə «tənqid üsuluna» təəccüb qalmasın, neyləsin? Onu qəribə adlandırmasın, neyləsin? Ədəbiyyat tarixində bu yəqin ilk və yeganə faktdır ki, tənqidçi şairə NECƏ şeir yazmağın nümunəsini ÖZÜ yazdığı «şeir»lə

göstərir. Bu eyni zamanda anonim müəllifin «partiya məmuru» olmaqdan savayı adicə bir qrafoman olduğunu da nümayiş etdirir.

Hər ikisi - Rəsul Rzanın yazdığı şeir və anonim müəllifin ona örnək olaraq göstərdiyi cızma-qara göz qabağındadır. Oxucu onların bədii dəyəri, məna tutumu, ifadə səviyyəsi haqqında özü nəticə çıxara bilər.

Rəsul Rza ömrü boyu belə bir mühitdə - vəzifəli paıtiya funksionerlərinin, yarımçıq şairlərin, kəmsavad tənqidçilərin ona NECƏ və NƏDƏN yazmaq «öyrətdikləri» bir şəraitdə yaradırdı. Poetik istedaddan başqa bütün bunlara tab gətirmək üçün, bağrının çatlamaması üçün şairin hüdudsuz dözüm hünəri də olmalıydı.

***

Rəsul Rza yalnız öz çağında yaşadığı, gördüyü, duyduğu, şahidi olduğu mənzərələrdən yazmaqla kifayətlənməyib. Şair fəhmiylə sanki ölümündən sonra baş verəcək hadisələri də öncədən görə bilib. Bu baxımdan Rəsul Rzanın vəfatından yeddi il sonra başlayan Qarabağ olayları da onun şeirlərində bu gün yazılıbmış kimi səslənir.

Rəsul Rza Bakını, Gəncəni, Şirvanı, Şəkini, Naxçıvanı bütün Azərbaycan torpaqlarını sevdiyi kimi, Qarabağı da xüsusi bir məhəbbətlə sevirdi, ana tərəfdən nənəsi Tavat cijinin Qarabağın Qaradolaq obasından olmasıyla fəxr edirdi. Şuşaya məhəbbəti isə ilk gənclik xatirələriylə bağlıydı. Sonralar da tez-tez Azərbaycanın bu dilbər guşəsində dincəlməkdən zövq alırdı. Yadımdadır, əllinci illərin əvvəllərində, istirahətə Şuşaya gəldiyimiz zaman şəhərin girəcəyində rəmzi erməni qızına, şəhərin mərkəzindəsə Nelson Stepanyana ucaldılmış heykəlləri görəndə çox pis oldu. O vaxt Şuşada heç bir azərbaycanlıya abidə ucaldılmadığını nəzərə alsaq, bu, açıqdan-açığa Şuşanın milli sifətini dəyişdirmək cəhdləri idi. Elə oradaca atam Şuşa istirahət evinə Üzeyir Hacıbəyovun adının verilməsi məsələsini

qaldırdı və həll etdi. Görkəmli bəstəkarımız Süleyman Ələsgərov yazır: «Rəsul Rza altmışıncı illərdə (səhvdir, əllinci illərdə - A.) ömür dostu Nigar xanımla birlikdə yay istirahətini respublikamızın gözəl, qəlb oxşayan guşələrindən olan Şuşada keçirirdi. Xurşidbanu Natəvanın evini ziyarət etdikdən sonra həmin binaya şairənin adının verilməsi barədə təklif irəli sürdü. (Süleyman müəllim bir az yanılır: təklif Natəvanın evi haqqında yox, dediyim kimi, Şuşa istirahət evinə Üzeyir bəyin adının verilməsi haqqında idi - A.). Rayonun partiya, sovet təşkilatları tərəfindən şairin bu təşəbbüsünə ehtiramla yanaşıldı və uşaq sanatorisinə (uşaq sanatorisi deyil, Həmkarlar İttifaqının sanatorisinə - A.) Natəvanın (Ü.Hacıbəyovun A.) adı verildi. Rəsul Rza Şuşanı çox sevirdi, mənim xahişimlə hətta Şuşa haqqında bir şeir də yazmışdı».

Başqa qəzetdə dərc olunmuş yazısında Süleyman müəllim yenə bu məsələdən söz açır:

«Boğazdan yuxarı «beynəlmiləlçiliyin» çiçəkləndiyi dövrlərdə Rəsul Rzanın uzaqgörənliyinə heyran qalmaya bilmirəm. Şeirlərinin birində Babəki satan haqqında «Sumbatlar bu gün də var» deyə yazarkən, ermənilər həngamə qaldırdılar. Şair hədəfi gözündən vurmuşdu. Yadımdadır, «Вакинский рабочий» qəzetində dərc olunmuş bu şeir Ermənistanda hiddət fırtınası qaldırdı. Ermənistan Yazıçılar İttifaqının o vaxtkı sədri Yardqes Petrosyan təcili olaraq təşkilatın rəyasət heyətini topladı və orada qəbul olunmuş təhqiramiz bəyanat Azərbaycan KP MK-ya göndərildi. Bizim rəhbərlik isə fitnəkarlığa layiqli cavab vermək əvəzinə şairi sıxışdırmağa başladı. Öz torpağına vurğun olan, onu xəyanətdən və satqınlıqdan qorumaq istəyən vətənpərvər şair necə də ağır günlər yaşamalı oldu» («Ədəbiyyat qəzeti», 22 fevral, 1985-ci il; «Вакинский рабочий» qəzeti, 28 iyul, 1992-ci il).

İş yalnız Ermənistan Yazıçılar İttifaqının bəyanatıyla bitmədi. Azərbaycanlılara, türklərə zooloji nifrət bəsləyən erməni yazıçısı Sero Xanzadyan Babəkin şəxsiyyəti və Rəsul

Rzanın «Babək» şeiriylə əlaqədar olaraq föhş və böhtan dolu məktubunu Azərbaycan KP MK və Sov.İKP MK-ya göndərərək Rəsul Rzaya Heydər Əliyevin təşəbbüsüylə Sosialist Əməyi Qəhrəmanı adı verilməsinə kəskin etirazını bildirirdi. Babəki «quldur», «cani», «qaniçən», «uşaq əti yeyən qatil» adlandıraraq onun haqqında Azərbaycanda film çəkilməsi, adına rayon verilməsi münasibətilə qəzəblənir, Rəsul Rzanın Səhl ibn-Sumbat haqqında dediklərini «xunveybin ifadəsi» adlandırırdı və iddia edirdi ki, şair «Babək» kimi şeirləriylə Lenin milli siyasətinin ruhunu ləkələyir.

Sero Xanzadyanın bu məktubuna Azərbaycan tarixçisi İqrar Əliyev tutarlı cavab vermişdi. Tarixi faktlarla Xanzadyanın iddialarını bir-bir təkzib edən alim sonda yazırdı:

«Biz Xanzadyanın Rəsul Rzanın tarixi təhrif etməsi haqqında iddialarını da rədd edirik. Rəsul Rza tarixi təhrif etmir, Xanzadyan Azərbaycan xalqının tarixinə böhtan atır. Bütün dediklərimizi əsas tutaraq, Rəsul Rzayla bərabər, biz də Babəki tam haqla qəhrəman adlandırır və şairin Babəkə aid sözlərini qürurla təkrar edirik: «İnsan var ki, işlərlə böyüyər».

Azərbaycan xalqının mənşəyində, soykökündə türklüyün rolu haqqında atamın və mənim fikirlərim İqrar Əliyevin mövqeyindən çox fərqlidir. Amma bu məsəbdə İqrar müəllimin Rəsul Rzanı qeyrətlə müdafiə etməsini minnətdarlıq hissiylə qeyd edirəm.

Yenə bir balaca haşiyə çıxaraq xatırlayıram ki, həmin bu Sero Xanzadyan SSRİ Ali Sovetinin sessiyasında mənim çıxışım zamanı yerdən nə isə replika atdı, nə dediyini eşitmədim, amma başa düşdüm ki, hər halda yaxşı söz deməz. Odur ki, kürsüdən «Mən bu yüksək məclisə hörmət edirəm, ona görə də, sizin kimi ədəbsizlik etmək istəmirəm», - dedim.

Bu vaxtlar artıq erməni mətbuatında «Kommunist», «Qrakan tert» və başqa qəzetlərdə mənə ard-arda hücumlar edilirdi. Poçt əlaqəmiz kəsilənə qədər Ermənistandan və Dağlıq Qarabağdan çox sayda hədələyici və söyüş məktubları alardım. O vaxt hələ Bakıda yaşayan ermənilər Azərbaycan televizi-

yasıyla mənim Qarabağ məsələsiylə bağlı çıxışlarımı eşitmişdilər. Ermənistandakı ermənilər də bir neçə dəfə Mərkəzi televiziyayla (o cümlədən, Henrix Borovikvin verilişində) və Moskva mətbuatında bu barədə dediklərimlə tanış idilər, odur ki, mənə xüsusi bir nifrət bəsləyir, məni «ermənilərin qatı düşmənlərindən biri kimi» qələmə verirdilər. Hədələyici və söyüş məktublarının da əsas səbəbi bu idi. İndiyəcən heç yerdə açıqlamadığım və arxivimdə qalan onlarca belə məktub və teleqramlardan mətnlərin dilini və orfoqrafiyasını saxlamaqla, bəzi nümunələr vermək istəyirəm. Əvvəlcə, üç məktubdan parçalar verirəm, yalnız tək bir bunlar az-çox abırlıdır.

«Многоуважаемый Анар муаллим!

Я убежден: трагедии Сумгаита не было бы если бы заранее не отравили людей национализмом. Страшно, ох как страшно размышлят об этом. У меня уже болит сердсе от бессоных ночей. Я помню Ваши слова: «Обычно перед камерой я не курю, но простите, сегодня не тот случай», помню Ваши, дрожащие от волнения руки и помню холодные от гнева и ненависти глаза некоторых писателей. Помню вопрос моей 3-х летней дочери: «Папа, нас убют». И даже слезы мое бабушки, когда, Вы выступали по телевидению - это твой Анар?» Твой Анар – она так сказала и в этом я вижу путь. Мы должны и дальше жить в покое, если будем взаимно уважат друг друга, историю, культуробычаи (289), даже религию каждого народа. Простите за ошибки.

Атасян Ваграм Сергеевич
05.88г»

***

«Писать Вам писмо заставило Ваше выступление по программе «Время». Честно говаря я тоже не согласен с «Позицией» потому что там вся правда не показана. Жаль конечно, что зта правда для меня и для Вас сейчас разная, я бы хотел выяснить, что конкретно Вы отвергаете, 1915

год в судьбе армян, или историю Арцаха (с 1388 г. Карабах) в 1921 и 1923 г. или историю армянского населения в Нахчыване в результате которой из 40 процентов армян в настоящее время осталосъ 1, 5 процента. Вы нанесли новую рану и без того раненному телу. Если Вы прочтете то мое письмо и Вы можете что-то возразить, то жду ответа. Мой адрес: Ереван, ул. Джапаридзе 49, кв.41, Пилтаяну Гайку Аршаковичу».

«Salam hörmətli Anar can. Mən ermәniyәm, özüm də Qarabağın Martuni rayonun Çartaz kəndində anadan olmuşanı. 53 yaşım var. 20 yaşından Sumqayıt şəhərində yaşayıb və işləyirəm. Sumqayıtda baş verən hadisələrdən sonra çox narahatam, bir də mənim üçün çətindir Sumqayıtı tərk etməyi, axı ömrümün çoxunu Sumqayıtda keçib. Lap elə düzünü deyirəm az qala xəstəlikə düşək. Evdə oturanda yaxşı oluram, elə ki, bazara maqazinə çıxtım gərək qulağıva pambıq qoyasan, belə bir misal çəkə bilərəm. Bir gün durmuşam süd oçeredna deyilər ki, Anar getdi Erevana gəzməyə çıxanda erməni dostlanna rast gəlib Andranik paşanın hegalına baxıb və sual verib yoldaşlar bəs o vaxt türklər Andranikin bir qulağını kəsiblər nə yaxşı indi hegalda iki qulağı var. Siz belə sözlərə necə qiymət verərsiniz, axı deyilənə görə Erevanda Andronikin hekalı yoxdır.

Sahflərimi bağışlayasınız
Ваbажанян Асмик».

Председаателю Соıоза Писатлей Азербайджана Анару не напишу уважаемый, nотому что вы этого не стоите. Вы nровакатор с вашего лица капает кров сумгаитцев. Как у вас еше совест хватает выступат по телевидению **с ненужнеми** речами с призывым поднят народ против друг друга, как Вагабзаде своей стиховорением галх Азяербайджан который читает сейчас каждый школник. Вы и ваши ученые уже 3 месяца по телевидению каких только лож и глупости говорили. Лучше было вы

вести воспитательную работу среди молодежи, который так далеко от истории. Бакиские специалисты в других городах позорятся от своей неграмотности вы бы лучше постеснялис бы такой народ невоспитанные убийцы, воры, разбойники, взяточники. Вместе того, чтобы учит их уму разуму, призываете к расправе, разбою.

Imzasız.

"Председателю правления Союза писателей Аз.ССР Анару

Мы, нижеподписавшиеся, считаемя Ваше выступление по программе "Время" от 17 мая 1988г. Глубоко аморальным, неподобающим представителю столь гуманной профессии и делегату XIX Всесоюзной партийной конференции. Даже крайная недоброжелательность, вызванная Вашим выступлением, не мешает осознать, что Вы человек мыслящий. И не прикидывайтесь, будьто не понимаете сути карабахского вопроса. И просим Вас, не пачкайте святое слово "интернационализм"! Никакая маска интернационалиста не в состоянии прикрыть чудовшиный позор Сумгаита! Даже столь скупой и смягченный показ в передаче Генриха Боровика актов вандализма потряс всех честных людей. Попытка же отмахнуться от Сумгаита аморальна, особенно для писателя, и свидетельствует о Вашем варварском национализме".

Zərfin üstündə «Erevan ul. Leninqrad 14 kv 23» yazılmış bu məktubda 71 nəfər ermənin imzası var.

«Dağlı Qarabağlı erməni Karlen Mamunsdan bir açıx məktub Azərbaycan yazıçıların inqlabında (yəqin İttifaqı deməkdir - A.) birinci katib Anar yoldaşa salam verirəm sizda, hamını azərbaycan yazıçıları və şairları.

Mən bir neça vaxt sus elmişəm, çünki ela bildim ki, sizin ağlı gəlir. Amma gəlmədi, bilmirəm nə! Bu sözləri yazmışam, çünki siz yalansız. Birdən soruşunur ki «nə biz yalanık» mən dedim ki, siz çox vaxta deyırsınız biz интернационалист xalqlardanık ama sizi əməl deyir ki siz nastoyaşi neonats

ionalist xalqsız. Neonasionalistlardan: sən Anar, Vahabzadə, S.Rustam və Elçin. Интернационалист adam heç bir vaxt deymir ki torpaq mənimdi. Axı bir xalqın doğma hariflar da yoxtı, onun hardadı torpax, hı!... Deyirsınız dokma Qarabağ sizin torpaq hardandı. Sizin o akademik Zinayida Bunyatov və Fiyada Axundova yalan-palan kitablar yazırlar, bizim iki xalqın arasında duşman edirlar. Biz işak döyülük ki sizin yalan sözlarnıza qulak asırık. Ermənti xalq əsərdən əsər 9 hökumətın var:Urartu, böyük Ayk, Vaspurakan, Şirak, Qarabak (Сйуник Apcax), Kilikiya. Bəs sizin albanların hanı hökmətı hardandı hı Alban xalqı həmişə başqa xalqların nökəridi. Yaxşı mən razıyam sizda, alban xalqı hökmatı var. Bəs nəyə albanlar öz xalq adını dəyişmək və Azərbaycan xalqı deyir. Siz parazitsız. Başqa xalqların torpakları alırsınız. Hələ tamah elirsınız, yalan kitablar da yazırsınız. Siz Bakı şəhərda erməni məktəblər da bağlayırsınız, bizim yazıçıları kitablar istəmirsınız. Bakı şəhərin Авагян kuçəsi dəyişmisınız və təza ad verirsınız, Ermənistan SSR ın qerbdən Böyük və balaca Masis dağının şəkil də çıxarırsınız. Və Qarabağ sizinki döyül. Paktı var(Ermənilər bəzən «F» hərfı yerəni «P» hərfin işlətdikləri üçün yəqin ki, «faktı var» dcmək istəyir A.) Erməni kitab və kartıçkamızda var. Qarabağ bizimdi bizim doğma arsaxdı, siz yalansız, pax belə.

Mamuns
15. 10 88»

"Председателу управление писателей Аз.ССР тов. Анару

Часто выступаем по централному телевидению и всегда призываем "Дружба народов" Мы хорошо знаем, что такое анарская дружба народов. Это лож, обман и хитрост . Мы знаем, что вы участвовли, организовали сумгаитскои трагедии, акдамское кровополитие. Кто создал Кировабадское, Шамхорское, Мингечаруское кровополитие Анар, ты несколько раз был в Анкаре, Измире и очен тайно беседовал

со своим турецкими руководителями против армян. Мы знаем, что ты разведчик шпион. В Турции часто выстапеш по телевидению чтобы создать впечатление. Мы советуем, как шпион еше раз не выступайте. Если будет продолжат ваши подлости, тогда не обижайтес. Бывшии первый секретар Мирджафар Багиров, любимым Алиев, Багиров и другие руководители призывали "интернационализм", "Дружба" народов мы знаем его цена. Вы шовинист, мусафашист и враг армян. Во время землетресение вы поздравляли нам. Вы были в Париже в редакции "Фигаро" дали интервю о нам оскорбили армян. Вы подлец, звер , опасное чудовише. Скоро для вас вернется 1937 год и вы как примитивные, до сих пор ничего не давший "народ" будете отвечат".

Bu məktubun altında: Ереван. Qpynna екстремистов» sözləri yazılmışdır.

Bir məktub da guya ki, atası Azərbaycanlı, anası erməni olan «dürək»dəndir. Moskvaya SSRİ ALİ Məhkəməsinə Sumqait üzrə iş aparan R. Burizinə, surətini mənə göndərib. Bu məktub da əvvəlkilər kimi savadsız rus dilindədir.

Отвечаю Ваш допросу о Сумгаитски геноциди против армян. Да 26-27 феврал писател Азербайджана Анар с секретар К Багировым были в Сумгаите проводили свои секретные разговоры с членами Партии Ислама. А Анар их председател по республике. Анар совместно с людоедами мусулманами был в 41 микрорайоне и воодушевлял банду против армян, он это не может отрицат. Также он не можеть отрицат как поджигател организовал погром против армян в Шуше, Ходжалу, создал пожар домов армяне, он сам ограбил ковры и ценные веши из домов армян и ночу повез Баку. Меня в Сумгаите не трогали потому меня считали азербайджане. Мой отес был азербаиджанс ем, у меня родственники живут в Кальбеджаре.

Арат Садых оглы Сойнов

Və nəhayət, Yerevandan gələn daha bir imzasız məktub.

«Erməni xalqının ən fis düşmənləri olan Vahabzadə və Anar (Bayaq xatırlatdığım kimi ermənilər «F»ylı «P»nı çaşdırırlar, odur ki, «ən fis» «ən pis» deməkdir - A.)

Düzdür məktubu yaxşı adamlara yazarlar, ancaq qərarə gəldim ki, sizin kimi əclablara da məktub yazmaq olar. Bu məktubun məqsədi odur ki, Sizin kimi avam, tarıxdan xəbər olmayan adamlara o tarix öyrətmək. Erməni xalqı dünyada öz bilikdə, öz bəşəriyəti ilə bütün dünyədə yayılıb. Çar hökumət sizdən əsgər götürmürdi, o qədər geri idin. Sizin xalqı bizim biliyimizə faxıllıq (paxıllıq A.) edir. Bizim alinılər sizi aydındır. V.Hambarsumyan indiki dövrün Nütonudur bilin. Akademiklər doludur, onların adları birbir vermirəm. oxuyun, onların adları kitablarda taparsız. Sizdə akademik olsa, Moskvadan gəlib iki istitutları bağlamazlar. Sizin milləti 1927ci ildə Bakıda oxuduyum zamandan tanıyıram. Hamısı pulun zorna akademik olmusuz. Cibində pul, başınızda ağıl yoxdur, samandır. Sizin cahıllar qurd çoxluğu kimi Bakının küçələrdə vəhşi kimi qışqırırlar «Qarabağ bizimdir, ermənilər də bizim eşəkimiz» Sizin kimi akademiklərin tələbələri bunu bilər, bunnan başqa heç şey bilməz. Erməni düzdür eşşəkdir ki, sizin həmədən eşşəkləri üçün çar zamanda Bakını tikib. Sovet dövrün Sumqayıt, Minqiçaur tikibdir, indi ermənilər qovdunuz arxayun siz istifada edirsiz. Azərbaycan milləti müqəssir dey, bunun təksiri Vahabzadədə görürəm. Bu şəkili cəlladı, Şəkiyə çatan kimi qırğın törətdi, həmin gecəsi Şəkidə bir eıməni qalmadı. Vaxt gələr cavab verərsən necə sənin babalar türk sultanları. Bizə xəbər var ki, sən bir də Anar həmişə Türkiyəyə gedib dərs alıb gəlirsiz. Hökumətin başı bir az qarışıqdır, sonra sizə yaxşı millət dərsi verəcək. Erməni xalqın verdiyi qırğın və Sovet sənaeyə verdiyi ziyanı unutmamalıdır. Onların əvəzi vercəksiz. Türk də 1915ci ildə ermənilərı qırdı və ölkədən qovdu, ancaq o rəhbərləri, erməni vətənpərvər oğulların əllərilə öldürdülər. İndi birbir göstərim:

1.Ənvər paşa. Uzbəkstanda 1921 ildə öldürdü Qarabağlı A. Melkumov.

2.Tələyət paşa. 15.03.1921 Berlində öldürdü Söqomon Tehleryan.

3.Camal Tbilisidə öldürdü Stepan Sağikyan

4.Şükri 1922-ci ildə Berlində öldürdü Aram Erkanyan.

5.Sayid Həşim 06.07.21. öldürdü Arşavir Şirakyan

6.Cavanşir Azərbaycanda Bakının qırğını (erməni) törədi, bunu öldürdü 19|U11 Tiflisdə Misak Turşukyan.

Vahabzadə və Anar sizi də gözdəyir bu öldürməyi.

12.12.88 il Eçmiadzin.

Yaxşı, tutalım, bunlar beyinləri zəhərlənmiş avam adamların, bisavad fanatiklərin məktublarıdır. Amma axı özlərini ziyalı sayan erməni yazıçılarının, jurnalistlərinin mətbuata çıxardıqları yazılar da eyni dərəcədə iyrənc və murdar təhqirlərlə doludur. O illərdə Bakıda Fransanın «Fiqaro» qəzetinin müxbiri məndən müsahibə almışdı və mən bu musahibədə Yerevandakı mitinqlərdə bəzi çağırışların mazoxist (yəni, öz-özünə əzab-işgəncə verməkdən zövq almaq) xaraterdə olduğunu söyləmişdim. Bunu deyərkən «Известия» qəzetində oxuduğum məlumatlara əsaslanırdım. «Известия»da yazıldığı kimi Yerevanda mitinqlərdə belə şüarlar səslənirmiş, «Biz rus-türk-tatar blokunu erməni qanında batıracayıq» yaxud «Biz məcbur edəcəyik ki, əsgərlər bizə güllə atsın!» və s.

Fransız jurnalisti sözlərimi «Fiqaro»da belə vermişdi: Anar dedi ki, ermənilər mazoxistdirlər.

Bu da ermənilərə yaman yer eləmişdi və indiyəcən bunu unutmurlar.

Yazıçı Perç Zeytunsyan «Xorurdain Ayastan» qəzetinin iki nömrəsində əleyhimə kəskin təhqiramiz məqalələr çap etdirmişdi və mən də öz məktubumuzda ona layiq olduğu cavabı yazdım. Ermənistan Yazıçılar İttifaqı isə məndən Moskvaya, SSRİ Yazıçılar İttifaqına şikayət məktubu - donos göndərmişdi. Məktubda deyilirdi:

«Azərbaycan Yazıçılar İttifaqının birinci katibi Anarın antierməni, ermənilərə nifrətlə dolu fəaliyyəti sizə yaxşı məlumdur. Bu həm də antisovet fəaliyyətidir, çünki millətlər arasında düşmənçiliyi qızışdırır. Anar ara-sıra xaricə müsahibələr verir və bu müsahibələr dezinformasiya, Ermənistana, ermənilərə və ümumiyyətlə, bütün ermənilərə qarşı böhtanlardan ibarətdir. Qəribədir ki, öz «konsertləri» arasında fasilələr zamanı Anar SSRİ Yazıçılar İttifaqının katibi vəzifəsinə qədər yüksəlir. «Bu necə olur?» - deyə soruşmuruq. Bu, SSRİ Yazıçılar İttifaqının səlahiyyətidir. Bizi SSRİ Yazıçılar İttifaqının katibliyində hökm sürən vəziyyət təəccübləndirir. Hər hansı bir şəxsə himayədarlıq onun fəaliyyətinə rəvac vermək deməkdir. Biz tələb edirik ki, SSRİ Yazıçılar İttifaqının katibliyinin və Partiya Komitəsinin iclası çağırılsın və Anarın fəaliyyətinə obyektiv qiymət verilsin. Ermənistan Yazıçılar İttifaqı, 25 may, 1989-cu il».

Yazımın əsas mövzusundan bir qədər kənar düşsəm də bu faktları və sənədləri gətirməklə heç də özümü reklam etmək niyyətində deyiləm, lap yəqin ki, belə düşünənlər də tapılacaq. Sadəcə olaraq, yazımın əvvəllərindəki fikrin «ermənilər bizim ailəmizin dörd nəslindən donoslar verib» fikrinin gəlişi gözəl söz olmadığını konkret örnəklərlə göstərmək istədim.

Elə yazımın bu yerini işlədiyim zaman qəzetlərdə bir məlumat çıxdı. Ermənilərin terrorist «Asala» təşkilatı 48 Azərbaycan ziyalısını öldürməyi qərara alıb. «Olaylar» qəzetinin yazdığına görə, mənim adım bu siyahıda üçüncüdür. Bu, mənimçün təzə xəbər deyildi. Vaxtilə hələ mərhum Ziya Bünyadov mənə belə bir sıyahının olmasını və mənim adımın onun özünün adından sonra ikinci olduğunu demişdi. «Olaylar» qəzetində və özəl TV kanallarında bu xəbər verilən kimi, Milli Məclisin foyesində bir neçə jurnalist mənə yanaşıb buna münasibətimi soruşdular. «Mən bu məsələyə bir qədər komik şəkildə baxıram, - dedim, - niyə? - Əvvəla, ona görə ki, təsəvvür edirəm, təşkilat üzvləri yığışıb ciddi şəkildə müzakirə edirlər: Kimi siyahıya salaq, kimi salmayaq, kimi birinci, kimi

beşinci, yəni kimi əvvəl öldürək, kimi sonra... Yəqin bu barədə mübahisə də edirlər, bu və ya digər «namizəd» haqqında hərə bir sübut dəlil gətirir. Bu özü komik bir süjet deyilmi? İkincisi də, təsəvvür edirəm ki, bizim özümüzün içində bu siyahıda adları olmayanların arasında necə inciklik, umu-küsü olacaq, bəs mən niyə yoxam, mənim filankəsdən nəyim əskikdir ki, onu öldürmək istəyirlər, məni yox? Bu da komediyanın ikinci pərdəsi».

Sözlərim çin çıxdı. Səhərisi gün bir sıra qəzetlərdə bu siyahının niyə məhz belə tərtib olunması, niyə filankəsin ora düşməsi, bəhmənkəsin düşməməsi barədə müzakirələr başladı. Yəqin ki, «ASALA» təşkilatı hansı azərbaycanlıları qətlə yetirib-yetirməmək siyahısını tərtib edəndə əvvəlcədən bizim qəzetlərin redaksiyaları ilə məsləhətləşməliymiş. «Yeni Müsavat» qəzetindəki (31 oktyabr, 2001-ci il)yazıda deyilir: «Siyahıda adı çəkilən Anar müəllimlə işim yoxdur. Anar müəllimi ermənilərdən qabaq elə özümüzünkülər də öldürmək istəyir».

Düz sözə nə deyəsən? Bəlkə də elə bu komediyanın, daha doğrusu, traqifarsın üçüncü və son pərdəsidir.

Komediya komediya yerində, amma erməni terrorizminin tarixini və ənənələrini xatırladıqda, (elə aldığım məktubda da bu tarixin bəzi «paktları» yəni, faktları xatırlanır), əlbəttə, bu məsələyə qeyri-ciddi münasibət bəsləmək də düz deyil. Amma nə etməli? Olacağa çarə yoxdur. Və onu da düz deyiblər ki, cənab Allahın verdiyi ömrü yalnız özü ala bilər.

«Olaylar» qəzetində bu «ölüm siyahısının» bir hissəsini (ardı da var) açıqlayan R.Novruzoğlu bildirir ki, bu siyahının son variantı keçən ilin dekabrında təsdiq olunub və icrası bu ilin, yəni 2001-ci ilin dekabrında başlanacaq. Dekabra hələ bir ay var. İnşallah, o vaxta bu yazımı yazıb qurtararam.

***

Rəsul Rza 1970-ci ildə yazdığı «Qarabağ Baba yurdum!» və on il sonra, 1980-ci ildə yazdığı «Şuşam mənim!» şeirlərində gələcəkdə qanlı hadisələrə səbəb olacaq Qarabağ məsələsinin səbəblərini göstərir, torpaqlarımıza düşmən tamahı, yad iştahı haqqında xəbərdarlıq edir. Nə yazıq ki, bu xəbərdarlığı o vaxt eşidən olmadı. Daha doğrusu, yalnız ermənilər eşitdi və Moskvadakı erməni dairələrinin təhriki ilə Rəsul Rzaya «millətçi» damğası vuruldu. Həmişə deputatı olduğu Azərbaycan Ali Sovetinə seçilmədi, həmişə üzvü olduğu SSRİ Yazıçılar İttifaqının idarə heyətinə düşmədi. Ensiklopediyadakı fəaliyyəti də «günahlarından» biri və bəlkə də birincisi sayılırdı ki, bu barədə bir az sonra damşacam.

Şairin «günahı» cərəyan edəcək hadisələri qabaqcadan duymaq və bu barədə öz sözünü demək idi.

Sinəsi qabarıq,
Nağıllardan gəlmiş pəhləvandır
Şuşam mənim!
Mərdliklə, gözəlliklə,
qoşam mənim.
Azərbaycan torpağının
nur parçası,
İncə mahnılar yuvası.
Tarix sənin torpağında,
daşındadır.
Hər yan-yörən,
hər dolayın, hər cığırın
Azərbaycan, Vətən dadır!
Könüllərdə neçə-neçə mahnıların
züm-züməsi, sözü qalıb.
Sənin doğma torpağında
neçələrin gözü qalıb.
Bəd əllərin kükrətdiyi
alovlardan diri çıxdın.
Ey Səməndər, Həyat quşu!

Kim nə deyir, desin,
Sən beləsən,
bu adla da qalacaqsan.
Şuşam mənim!
Mətanətlə, dəyanətlə, səxavətlə
qoşam mənim!
Yüz bir şəhər adı çəkim
Gözəllikdə sənə tay olarmı?
Vətən adlı doğma yurddan
Püşk olarmı? Pay olarmı?

(«Şuşam mənim!» şeirindən, 1980)

Nə yazıq ki, Vətəndən - Qarabağdan, Şuşadan «püşk olarmı, pay olarmı» sualına cavab minlərlə insanın qanı bahasına verildi.

1970-ci ildə yazdığı «Qarabağ Baba yurdum!» şeirlər silsiləsində bu diyarın adından, tarixindən, qoynunda yetişən böyük insanlardan Vaqifdən, Natəvandan, Üzeyir bəydən qürurla söz açır.

Qarabağın binayi-qədimdən Azəri yurdu, rəmzi Piri babanın torpağı olduğunu «Piri babanın bağı» şeirində xüsusi bir ahənglə vurğulayır.

Piri babanın yaşını bilən yoxdur.
Kirs dağının dumanlı başı vardı,
Piri babanın neçə yaşı vardı?
Hamı onu burda görüb, qoca, cavan,
Burda onun səpdiyi loxumlar cücərib,
Burda cığırları yol eləyib,
Burda bağ-bostan becərib
Piri baba-bağban.
Burda ilk ağac əkən,
Burda ilk ev tikən,
Burda sevinən, dərd çəkən,
Piri baba olub.

Yaşını bilən yoxdur onun,
Kimi deyir neçə yüz,
kimi deyir neçə min ildir.
Keçmişdən könlündə qalan
həsrət, arzu, nisgildir.
Burda anadan olub,
Burda ata olub,
Burda baba olub,
Piri baba.
Ölüm yoxdur ona,
Torpağa ölüm olmayan kimi.
Zirvəsi buludlarda gizlənən
Dağa ölüm olmayan kimi.
Dünən də vardı Piri baba,
bu gün də var,
sabah da olacaq.

Nə qolu girdən düşmüş,
nə bir gün naçaq.
Hər aydın havada, hər gün
Yenidən doğulur Piri baba.
Onu tanıyır hamı,
Tanımayan varsa, aşıq demiş,
«dalınca qara palçıq».
Piri babanın hörməti
doyum-doyumdur.
Qəzəbinə dözmək zor olar.
Piri habaya dost gözüylə baxanlar
mehribanlıq, ülfət görər.
Bəd nəzərlə baxanlar kor olar.

«Qarabağ-Baba yurdum!» silsiləsində o illərin bir faciəvi hadisəsi də öz əksini tapıb. 1967-ci ildə Xankəndində (onda Stepanaketdə) üç azərbaycanlını Linç məhkəmə üsuluyla bir

maşına salıb yandırmışdılar. Sonra həmin yerdə güllər əkiblər. «Tonqal yerində çiçək» şeiri bu faciə haqqındadır.

Burda torpaq yanmışdı,
qapqara.
Tonqal tüstüşü yayılmışdı,
yaxınlara, uzaqlara.
Havadan asılmışdı
yanmış ət qoxusu.
Gözlərdə közərmişdi
qurbanlıq olmaq qorxusu.
Torpaq dözdü
atəşin ağrısına, inciyinə.
Yanıq qalıqları
qalmışdı ikinci günə.
Üçüncü gün yağış yağdı,
dənəvər, kurşad.
Yudu tonqalın külünü.
Nə ah qaldı, nə fəryad.
Keçdi bir neçə gün,
Tonqal yerində çiçək əkdilər.
Ancaq deyən olmadı,
«Burda qırmızı qərənjillər
tonqaldan qabaq gərəkdilər.
Yanıq ət qoxusundan qabaq,
qurbanlıq qoxusundan qabaq».
Soruşan olmadı,
«Tonqalı kimlər qaladı,
çiçəkləri kimlər əkdi?
Bu işin yaxşı tərəfi nə,
pis tərəfi nədir.
Yoxsa, bu qan rəngli qərənfillər
sallaqların şərəfinədir?»

Rəsul Rza erməni millətçilərinin qələmə vermək istədikləri kimi, heç də erməni düşməni deyildi, heç bir xalqın düşməni olmadığı kimi, Azərbaycan Yazıçılar İttifaqının üzvü, müharibədə həlak olmuş Tatul Huryana şeir həsr etmişdi. Avetik İsahakyan haqqında yazdığı xatirələrdə erməni şairinin Azərbaycan folklorundan, dilimizin musiqi ahəngindən necə heyranlıqla danışdığını yada salır. İsahakyanın bayatılarımız haqqında söylədiyi sözləri gətirir: «Kaş o bayatılarınızdan yüzdə biri mənim olaydı. Gözəl xəzinədir».

Marietta Şakinyanla xoş münasibətləri vardı. M.Şakinyan «Lenin» poeması haqqında böyük bir məqalə yazaraq əsəri yüksək qiymətləndirmişdi. Başqa bir məqaləsində M.Şakinyan Rəsul Rzanın «Dəniz nəğmələri» haqqında yazırdı ki, «görəsən bu şeirlərin nə qədər ağıllı və dəqiq olduğunu şair özü bilirmi? Bu şeirlər mənə fıkirlərimi yekunlaşdırmağa kömək etdilər.

Qoca dənizçi danışdı mənə,
«Fikirli olur, - dedi,-
məkrli olur, - dedi, -
sirli olur, dedi, -
təmiz olur,
kirli olur, - dedi, - dəniz».
Sonra da əlavə etdi:
«İnsan kimi!»

...Qoca dənizçi «dəniz insan kimidir», - deyib. Amma əlavə də edib: «dəniz, zaman kimidir». Bu dahiyanə əlavədir».

Yeri gəlmişkən, R.Rzanın Dəniz haqqında şeirlərini Qazağıstanın Prezidenti N.Nazarbayev də Alma-Atada çıxışında xüsusi qeyd etmişdir: «Xəzər dənizinin kiminçünsə su sərhəddi olduğu halda bizim ölkələrimiz üçün dostluq və ünsiyyət körpüsünə çevrilməsindən danışarkən görkəmli Azərbaycan şairi Rəsul Rzanın gözəl şeirlərini necə xatırlamayasan», - demişdir.

Rəsul Rza 1939-cu ildə Yerevanda Sasunlu Davud yubileyində iştirak etmişdi, erməni şairlərindən tərcümələri var.

Ermıəni şairlərindən də Yekişe Çarents, Amo Sakiyan və başqaları Rəsul Rzanın şeirlərini çeviriblər.

Ancaq Rəsul Rzanın qatı millətçi, cibində kommunist bileti gəzdirsələr də, mahiyyətcə daşnak olan erməni yazıçılarını görməyə gözü yoxdu. Onun nəinki çağdaş yazıçıların əsərlərini, ermənilərin klassik saydıqları Raffinin «Xent», «Samvel» kimi qatı antitürk romanlarını oxuyarkən necə əsəbiləşdiyinin, hiddətləndiyinin şahidiyəm. O, eyni qəzəb hissiylə L.Qurunsun, Kevork Eminin azərbaycanlılara nifrət püskürən kitablarıyla tanış olurdu.

Rəsul Rzanı çox hiddətləndirən kitablardan biri də Silva Kaputikyanın «Karvanlar hələ yoldadır» kitabı idi. Bu yaxınlarda atamın arxivindən Silvaya yazdığı məktubun surətini tapdıq.

Silva Kaputikyanı çoxdan tanıyırdı, yəqin elə buna görə də ona «sən» - deyə müraciət edir. Yadımdadır, anam danışardı ki, Sasunlu Davud yubileyinə gedəndə Silva bizim başımıza pərvanə kimi dolanırdı.

Bizim günlərdə isə S.Kaputikyan Qarabağ avantürasının da. Ermənistanda antiazərbaycan isteriyasının da əsas ilhamvericiləindən biri oldu. Bu ovqatın köklərini Rəsul Rza hələ çox illər qabaq, Silva Kaputikyanın yuxarıda adını çəkdiyim kitabını mütaliə edən zaman görmüş və müəllifə fikrini açıq yazmışdı.

«Salam Silva!

Yəqin ki, məktubum səni təəccübləndirəcək. Sənə belə bir müraciətim isə səni daha da çox təəccüb qoyacaq. Məsələ ondadır ki, qulağa xoş gələn «əzizim», «hörmətli» və başqa epitetlər məktubumun məzmunuyla əlaqədar olaraq saxta və qeyri məntiqi görünərdi. Bu məktubu sənə ona görə yazıram ki, yazmaya bilməzdim. Dünən və bu gün sənin «Karvanlar hələ yoldadır» kitabını oxudum.

Biz oxucularımızı nəyə çağırırıq? Hansı ideallar uğrunda mübarizə aparırıq? Mənə elə gəlir ki, yazıçı oxucusuyla

danışmaq istəyəndə qarşısına çıxan ilk məsələ və ilk fikir budur. Əgər məqsəd ayrı-ayrı şər daşıyıcılarına deyil, bütöv xalqlara qarşı nifrət. düşmənçilik duyğularını balalarımıza, nəvələrimizə aşılamaqdırsa, onlan məhz bu qisasçılıq hisslərivlə tərbiyə etməkdirsə onda sən sakit ola bilərsən, imkanların daxilində bu məqsədə çatmısan.

İndi kim dəqiq hesablaya bilər ki, sənin erməni soyqırımı saydığın o illərdə dinc əhali sırasından neçə erməni, neçə türk qətl edilib? Sən isə buna görə konkret günahkarları deyil, türk xalqını bütünlüklə ittiham edirsən. Amma, axı, Sultan Əbdülhəmid Türkiyəsi vardısa, Namiq Kamal, Tofiq Fikrət, Kamal Atatürk, Mustafa Sübhi, Nazim Hikmət Türkiyəsi də vardı və var. Bütün türklərə qarşı nifrət hissləri aşılamaq məgər erməni xalqının xeyrinədir? Kitabında Azərbaycan xalqına da eyni bədxah münasibəti görürəm. Bəs bizim reklam edilən dostluğumuz necə oldu. Mən Yerevanda bizim də iştirak etdiyiniiz Sasunlu Davud yubileyini xoş hisslərlə xatırlayıram. Avetik İsahakyanla yol yoldaşlığım, Nairi Zaryanla, Tatul Huryanla dostluğumuz yadımdan çıxmayıb. Bəs nədəndir ki, indi cürbəcür avantüristlər Naxçıvanla, Qarabağla bağlı fitnəkar məsələlər qaldırır, xalqlarımız arasına nifaq salmağa çalışır, biz yazıçılar da tarixdən müxtəlif fitillər çıxarıb odlayırıq. Sadə bir həqiqəti anlamaq üçün heç də yanğınsöndürən olmaq lazım deyil: Odu odla söndürməzlər. Öz xalqını sevmək bir şeydir, onu başqa xalqlara qarşı qoymaq, öz xalqını yüksəltmək üçün başqalarını alçaltmaq tamam başqa şeydir. Sən kitabında murdar işlər görmüş daşnaklan belə nəcibləşdirməyə cəhd edirsən. Əlbəttə, daşnaklara birbaşa bəraət qazandırmaq lap ağ olardı, bunu sən də başa düşürsən. Ona görə də məsələni belə qələmə verirsən ki, daşnaklar daha təhlükəli deyil, zərərli deyil. Amma əslində onlar cəzaya layiq KONKRET cinayətkarlardır, onların cinayətlərinə görə sənin hər zaman etdiyin kimi bütün xalqı ittiham etmək olmaz. Bilmirəm, məktubum səni xalqlarımızın qarşılıqlı əlaqələri

üçün çox vacib olan məsələlər haqqında düşünməyə vadar edəcəkmi? Amma hər halda mən bunları yazmaya bilməzdim.

Rəsul Rza».

Rəsul Rza çox şeyi öncədən görə bilirdisə də, yəqin heç təsəvvür etməzdi ki, həmin bu Silva Kaputikyan Qarabağ avantürasının mərkəzi fiqurlarından olacaq və cinayətkar daşnaklar da Ermənistanın siyasi həyatında meydan sulayacaqlar.

Atamın vaxtsız ölümünə (əziz adamın ölümü həmişə vaxtsızdır) nə qədər yansam da, bəzən düşünürəm: Yaxşı ki, sonrakı illərdə başımıza gətirilən müsibətləri görmədi.

Amma o biri tərəfdən, heyif ki, ürəyinin gizli arzusunun həyata keçdiyini - Azərbaycanın müstəqilliyini də görmək ona qismət olmadı.

Anamla atamın bir söhbətini xatırlayıram! Haçansa Azərbaycanın Türkiyəylə birləşəcəyindən söz düşdü. Atam «yox, mən bunu istəməzdim, - dedi, - müstəqil olaydıq, amma Türkiyəylə də ən yaxın dost və müttəfiq. Anam: - Cənubi Azərbaycanla da birləşəydik, - dedi. Atam:- bu da olsaydı, bundan böyük nə xoşbəxtlik mümkündür ki?», - dedi.

Söhbəti eynən olduğu kimi, heç bir vəchlə və heç bir məqamda bu günə uyğunlaşdırmadan gətirirəm.

***

Görürəm ki, Rəsul Rzanın ömür yolu və bu bioqrafıyasının yazılarında əks olunması haqqında danışarkən ictimai-siyasi məqamlara daha artıq ağırlıq vermişəm və beləliklə, onun yaradıcılığının bədii xüsusiyyətləri bir növ kölgədə qalıb. Rəsul Rzanın Azərbaycan ədəbiyyatında yeri və mövqeyi isə ilk növbədə onun poeziyamıza gətirdiyi yeniliklərlə ölçülməlidir. Odur ki, yazımın bu hissəsində Rəsul Rza şeirinin bədii cəhətləri üzərində daha ətraflı dayanmaq istəyirəm.

Rəsul Rza adı gələndə, ilk öncə sərbəst vəzn anlayışı yada düşür. Şair özü də xatırlayırdı ki, gənclik illərində cavan şair və yazıçılarımız bir-birinə müxtəlif ayamalar verəndə onun özünün ayaması «Sərbəst» imiş. Bununla belə, Rəsul Rza irsinə nəzər salanda aydın olur ki, onun hecayla yazdığı şeirlər təqribən elə sərbəst vəznlə yazdıqları qədərdir. Hələ ondan çox deyilsə. Bədii keyfiyyətləri baxımından da sərbəst şeirlərin çoxundan geri qalmır. Əlbəttə, bu şeirlərin içində zəifləri də var, amma elə «sərbəstlər» arasında da belələrini tapmaq mümkündür. Söhbət belə ötəri yazılardan deyil, Rəsul Rzanm yaradıcılığını müəyyənləşdirən ən vacib və səciyyəvi əsərlərdən gedir.

Sərbəst və heca şeirlərindən başqa atamın əruzla yazdığı şeirlər də var. Azdır, amma var.

Bu şeirlərin ən məşhurları «Sabir sağ olsaydı» başlığıyla və əruzun Sabirin işlətdiyi bəhrlərində yazdığı satiralardır ki, onların barəsində danişmişdım.

Vaqif Səmədoğlu xatulayır kı, bir dəfə Rəsul Rza onunla söhbətdə «Əruz üçün burnumun ucu göynəyir, qəzəllər yazmaq istəyirəm», - deyib. Mənimlə belə söhbəti olmayıb, amma Vaqifin sözlərinə inanmaq olar. 1946-cı ildə yazdığı «Süleyman Rüstəmin qəzəlləri haqqında» adlı məqaləsində Rəsul Rza müasir şeirimizi nəzərdə tutaraq qeyd edirdi ki, «Vahidin qəzəlləri istisna edilərsə, şeirimizdə qəzəl forması heç bir görkəmli yer tuta bilmədi. Əsrin hərarətli romantikasını yeni sözlərlə, yeni formalarla, yeni boyalarla ifadə etmək lazım gəldi. Qəzəlin ana vəzni - əruz vəzni unudulmağa başladı heca vəzni sovet şeirinin əsas yolu oldu. Sərbəst şeir, nəsrlə nəzmin birləşməsindən doğan yeni formalar yarandı. Lakin sovet şeirinin inkişaf yolları bu yeniliklərlə də kifayətlənə bilmədi. Odur ki, bu gün ayrı-ayrı şairlərimizdə qəzəl formasına qarşı olan meyl tamamilə qanuni və hərtərəfli təhlilə layiq olan hadisədir. Bu, əski formanın yüksək bir inkişaf pilləsində yeni keyfiyyətlə meydana çıxmasıdır. Bu, geri dönmək, keçənləri təkrar etmək deyildir. Bu cəhətdən Süleyman Rüstəmin

qəzəlləri xüsusi diqqətə layiqdir. Süleyman Rüstəm qəzəllərinin çoxu mahiyyət etibarilə yeni qəzəllərdir».

Söhbət Süleyman Rüstəmdən düşmüşkən, onunla atamın münasibətləri haqqında da iki kəlmə demək istərdim. Yaradıcılıq yolları tamamilə fərqli olsa da, bir-birinin poeziyasına hörmətlə yanaşırdılar, atam «Süleyman əruzu hamımızdan yaxşı bilir» deyərdi. Məzəli şeirləşmələrini də xatırlayıram.

Məmməd Rahimin vaxtilə yazdığı:

«Məni Türkiyəyə gec buraxdılar,
Yəqin, çəkindilər isledadımdan»

misralarını parodiya edərək Süleyman Rüstəm

«Məni Türkiyəyə tez buraxdılar,
Yəqin bildilər ki, istedadsızam»

yazmışdı və telefonla atama oxumuşdu.

Atam da yenə elə Məmməd Rahimin «Çəkili başmağın olaydım, ay qız» sətrinə uyğun olaraq yazdığı:

«Böyük bir arzun vardı
Qızlara başmaq olmaq.
Çox nigaran qalmışıq,
Oldun, ola bilmədin?»

sətirlərini telefonla Süleyman Rüstəmə oxuduğu yadımda qalıb.

Rəsul Rzanın Sabirsayağı şeirlərindən başqa əruz vəzniylə mənə məlum olan iki şeiri var. Bəlkə hələ də tam açılmamış arxivində, ərəb əlifbasıyla əlyazmaları arasında, yaxud dövrü mətbuatda sonralar özünün də unudub kitablarına salmadığı əruz şeirləri var. Qəti bir şey deyə bilmərəm. Belə bir fərziyyəm ona əsaslanır ki, əruzla yazılmış və bitirilməmiş bir qəzəlini vəfatından sonra tapdıq və əruz vəznində başqa bir

şeiri 1943-cü ildə nəşr olunmuş «Qəzəb və məhəbbət» kitabında, özü də müharibə oçerklərinin birinin içində verilib:

Yox, yox, girə bilməz o gözəl qoynuna düşmən!
Bağrında günəş var, boğa bilməz səni zülmət!
Zalimlərə, canilərə qalib gələcəksən,
Sən aləmə yaydın yeni bir nuri-həqiqət!
Hər an sənin eşqinlə öyünmüş bəşəriyyət!
Ey bağrı günəşlər dolu yurdum, ana torpaq!
Enməz yerə al rəngli, zəfər elçisi-bayraq!

Arxivindən tapdığımız bitirilməmiş qəzəl isə belədir:

Gözün qurbaniyəm saqi, xəbər tut bir məlalımdan,
Keçər günlər, keçər aylar, neçin çıxmaz xəyalımdan.

Onun hicranı könlümdə keçən gündən əmanətdir,
Görünməz ol vəfasız, ya əl üzmüşdür vüsalından.

Bu naləm, göz yaşım, ahım, fəqanım qoy xəbər versin,
Xəbər versin nə qalmışdır böyük eşqin cəlalından.

Qəzəlin məqtəli, yəni müəllifin adı çəkilən son beyti yoxdur, dəli şeytan ağlıma belə bir fikir saldı ki, bu beyti özüm yazım və qəzəli çapa bu şəkildə verək, xanəndələr oxusun:

Rəsul söylər, bu dünyanın işi böylədir, böylə,
Sualı çox cavabından, cavabı az sualından.

Sonra bu fikirdən vaz keçdim, çünki bir an xəyalımda atamın mənə istehzayla baxan gözləri canlandı. Amma hər halda əcaib təşəbbüsümün örnəyini bu yazıya salıram, Rəsul Rzanın ruhu məni bağışlasın.

***

Arxivindən tapılmış və heç yerdə çap olunmamış daha bir şeir:

Bağçalara, bağlara
Dəydi qışın nəfəsi.

Soyuqlaşdı yenə də
Ağacların kölgəsi.

Qışın ağ örpəyinin
Görsənməyir axırı.
Uçdu göylər boyunca
Payızın yarpaqları.

Hər evdən, hər obadan
Tüstü qalxdı göylərə.
Qış fikirlər fəslidir,
Fikirləşməz boş yerə.

Fikirləşir təbiət
Ah, gündüz də, gecə də,
Fikirləşir təbiət,
Bahara yetmək üçün
fikirləşir necə də!

Rəsul Rza hecanın bütün biçimlərində yazıb və hətta «Şeir vəzni və məhəbbət haqqında dastan» adlı şeirində bəzən ona xas olan uşaq dəcəlliyiylə hər beyti hecanın bir bölgüsündə verib.

Nə vəzndə yazım ki mən, məhəbbətin acı-şirin sözünü
Yeknəsəklik yelləriylə soldurmayım alovunu-gözünü

Onaltılıq çoxotaqlı geniş, yekə bir mənzildir,
Yaxşı-yaman nəyin varsa, yığ içinə, doldur bir-bir.

Onbeşlik də tutumludur, yazmağa da asandır,
Ancaq belə vəznlərdə yazmaq xeyli nöqsandır.

On dördlük heç bəd deyil, sevirəm bu vəzni mən
Ancaq neyləyəsən ki, yarı bölürlər hərdən.

Onüçlük də ara-sıra yarayır işə,
Ancaq onu tutub durmaq olmaz həmişə.

Üç bölgülü on ikilik vəzn də var,
Ahəngində oynaqlıq da, hüzn də var.

Onbirlik gözəldir onu biz gərək,
İşlədib, yormayaq seyid atı tək.

Onluq da var, bazarı kasaddır,
Çünki başqa vəznlər hasanddır.

Doqquzu işlədən azdır, az.
Üç və üç, yenə üç yaramaz.

Səkkizlik də çox yaxşıdır,
On altının qardaşıdır.

Nə deyim yeddilikdən,
Bir dastan yaz, istəsən.

Bir də var altılıq,
Həm kiçik, həm arıq.

Beşlik vəzn var,
Bilir uşaqlar.

Dörd hecalı
Cüt haçalı.

Üç heca
Asanca.

Nə ki,
İki.

Mən,

Sən,
Bir-dir.

Soruşarsınız, «sərbəst hanı?
Gəlib versin

Vəzn və qafiyə meydanında
Kamal imtahanı!»

(1957)

Sərbəstin «kamal imtahanına» keçməzdən qabaq bir şeyi də qeyd etmək istəyirəm. Şeirlərində heca vəzninin müxtəlif bölgülərindən istifadə edən Rəsul Rza aşıq şeirinin bütün biçimlərində örnəklər yaratmışdır: qoşma, gəraylı, bayatı, cinaslı bayatı.

Xumar baxışından, şirin dilindən,
Az qalıram olum divanə, dilbər.
O gözlər nə gözdü bir baxmağınnan
Döndərdi ahımı dumana, dilbər.

Söhbətin şəkərdir, gülüşün məzə,
Çox gülüb-danışma gələrsən gözə.
O qumral saçları tökəndə üzə
Olur könlüm evi viranə, dilbər.

Sən bir mələksən ki, xəyaldan gözəl,
Boy-buxundan qəşəng, camaldan gözəl.
Yoxdur üzündəki o xaldan gözəl,
Dəyərsən min şeirə, dastana, dilbər.

Ay üzündən götür qara zülfünü!
Çəkmə şərdənində dara zülfünü!
Şümşad barmağınla dara zülfünü
Üstündə gəzməsin qoy şanə, dilbər!

Gülüşün oxşayır bir ilk bahara,
Vurmusan qəlbimə sağalmaz yara,
İnsafdırmı Rza qalıb avara,
Hicran atəşilə odlana, dilbər?

***

Göydə bulud oynayanda,
Həm o yanda, həm bu yanda,
Dalğaların qaynayanda,
Mən sənə heyranam, dəniz!

Havanın sərxoşluğunda,
Aydınlığın xoşluğunda,
Gecələrin boşluğunda
Nə gözəlsən, sonam, dəniz!

Duyğu coşub, ürək dolub,
Könül eşqinlə qovrulub.
Nə xoşdur bir fanar olub
Yollarında yanam, dəniz!

Mən çoxdan vurğunam sənə.
Böyük arzum budur yenə,
Dönüb bir göy göyərçinə,
Sahilinə qonam, dəniz!

Mən səndən olmaram bezar,
Mənim böyük bir eşqim var,
Sənətkar duyduğun yazar,
Anam dəniz! Anam dəniz!

(Pirşağı, 1937)

Rəsul Rzanın aşıq səpkisində yazdığı şeirlər içində çağdaş poeziyamızda nadir nümunə olan dodaqdəyməz də var. Aşıq Ələsgərin məşhur «Çata-çat» qoşmasını nəzərə alaraq yazılmışdır.

«Qışda dağlar ağ geyinər, yaz qara,
Sağ dəstinlə ağ kağıza yaz qara,
Doğar günəş qəhr eləyər yaz qara,
Daşar çaylar, sellər gəzər çata-çat».

Yaz könüllər dərd əlindən saralsa,
Çən düşədə uca göylər qaralsa,
Tülək tərlan oylağını sar alsa,
Haray salsın nər igidlər, çata-çat.

Qoy eşitsin yaxın dostlar, özgələr,
Xalq arzusu, el istəyi tez gələr.
Qış qurtarar, çovğun keçər, yaz gələr
Hər otaqda şənlik olar çata-çat.

Qır zənciri, sındır səddi, toru yar!
Anaların göz yaşları quruyar,
Azad insan kainatı qoruyar
Dilə gələr könül quşu çata-çat.

Tarlalardan ney səsləri ucalsın,
Aşıq sözü şirin olur, o, çalsın.
Naxələfi doğan ana qocalsın,
Qoy ciyəri oda yansın çata-çat.

(1944)

Belə düşünənlər ola bilər ki, Rəsul Rzanın hecanın müxtəlif bölgüləri və biçimlərində yazması ancaq və ancaq polemik xarakter daşıyır. Yəni, sərbəst vəznin aludəçisi təkin tanınan şair «mən başqa ölçü və formalarda da yaza bilərəm və heç kəsdən pis yazmaram» fikrini isbat etmək üçün yaradılıb. Bu, əlbəttə belə deyil. İntəhası Rəsul Rza heca vəzninin də imkanlarını sınamaq, bu forma və biçimlərdə də çağdaş duyğu və düşüncələrini çatdırmağa çalışırdı. Müharibə dövründə isə dediyim kimi bu həm də aktual bir məqsəd daşıyırdı, xalqın daha çox bələd olduğu və sevdiyi vəzndə ona daha tez çatacaq və təsir edəcək əsərlərə olan tələbatdan doğulmuşdu.

İlk proqram xarakterli şeirlərindən olan «Çinar»dan, müharibə dövrünün «Bəxtiyar»ından və lirikasından savayı Rəsul Rza müxtəlif dövrlərdə heca vəzniylə başqa mühüm əsərlərini də yaradıb. Belə şeirlərdən biri, zənnimcə, «Göy at» şeiridir.

Göy atın sorağını eşitməyən var ola?
Yel qopa, tufan gələ, çovğun düşə, qar ola.
Göy alın dırnağından qığılcımlar qopardı,
Göy at kimi aparsa, deyərdin, yel apardı.
Yol gedəndə bilməzdi yoxuşdu bu, enişdi,
Ömründə bir dəfə də Göy at büdrəməmişdi,
Qıratın nişanları onda tamam cəm idi,
Sinə meydan, göz alma, sağrısı əynəm idi.
Quyruğu qapqara saç, xırda qulaqları dik.
Alnı geniş, bel nazik, ayaq səkil, baş kiçik.
Kişnəyəndə deyərdin, yer əsdi, göy kişnədi.
Ağız-ağıza verib, yeddi ərdöy kişnədi.
Ömründə bircə gün o, ayaq büküb yatmadı.
Göy atı dərd qocaltdı, ömür-gün qocaltmadı.
Darvazadan girəndə sədrin göy «Pobedası»
Ürəklərdən çəkildi göy atın da sevdası.
Nə tərini soyudan, nə tumar verən oldu,
Nə göy atı yəhərli, yüyənli görən oldu.

Səllimi buraxddar, kənddə səs elər, - deyə
Arpasını kəsdilər, göy ot bəs elər, - deyə,
Tərliyi ayaq altı, tövləsi qaraj oldu.
Elə gün oldu Göy at susuz qaldı, ac oldu.
Arabaya qoşdular, mala da çəkdi Göy at
Çölə peyin daşıdı, şumladı, əkdi Göy at.
Hərdən suya, oduna Göy atla gedərdilər.
Bir gün oldu kolxoza yük maşını verdilər,
Göy at lap düşdü gözdən, arıqladı, üzüldü,
Yal quyruq seyrəklədi, alma gözlər büzüldü.
Bir gün baytar gözucu baxdı Göy ata sarı
Dedi: - ət hazırlığı tez başlayaydı barı.
Göy atın nə dəftəri, nə də qələmi vardı.
Olsa da, əli yoxdu, Göy at necə yazardı?
Amma yaza bilsəydi, nələr yazmazdı Göy at
Hamısı da fəlsəfə - ömür, ölüm və həyat.
Göy at nə vurhavurda, nə də döyüşdə öldü
Nə yarğandan sıçradı, qayadan uçdu öldü.
Göy atın son günləri qəmli keçdi həyatda
Göy atı öldürdülər myasokombinatda.
Həyatın qanunudur, getməlilər gedəcək.
İndi maşın dövrüdür, Göy at anlasın gərək!
Nə eybi var, Göy atdan bir nam-nişan qalmasa,
Zato hər yanda boldur at ətindən kolbasa!

(1957)

«Göy at» Rəsul Rzanın ən çox sevdiyim şeirlərindəndir və bu şeir mənə hardasa Əhməd Cavadın «Əyil Kürüm, əyil, keç, Meydan sənin deyil, keç» misralarını xatırladır. Əvvəllərdə demişdim ki, vaxtilə «Bolşevik yazı»nda Rəsul Rza bu misralara etiraz olaraq «Əyilib keçmə Kürüm, Meydan sənin, söz sənin» yazmışdı.

27 il ötüb, Rəsul Rza tarixin, zamanın, cəmiyyətin bütün keşməkeşlərini yaşayıb, başı daşdan daşa dəyəndən sonra vaxtilə Əhməd Cavadın duyduğu hissləri keçirib: xalqımızın

qəhrəmanlıq, igidlik rəmzi olan at da - Göy at da Kür kimi rəmzdir - itirilmiş və yanıqlı təəssüf hisslərivlə xatırlanan ötən dövrlərin, dövranlann rəmzi. Bu şeir həm Rəsul Rza yaradıcılığının nəinki formal cəhətdən, yəni, vəzn, ölçü, qafiyə, ənənəvi biçimlər baxımından çoxçeşidli zənginliyinin örnəyidir, həm də şairin bir şəxsiyyət kimi nə qədər mürəkkəb, müəyyən anlamda ziddiyyətli dünyaduyumuna malik olmasının nümunəsidir. Ömrü boyu yeniliyin, o cümlədən, texniki yeniliklərin, çağdaş həyat tərzinin təbliğatçısı olmuş Rəsul Rzanın patriarxal keçmişə, əbədi qeyb olan dəyərlərə sevgisi, onlarçün qəribsəməsi ən parlaq şəkildə məncə, «Göy at» şeirində ifadə olunmuşdur. Rəsul Rzanın dünyagörüşü üçün «Təyyarəmiz var ikən, arabaya minəkmi? Traktoru olanlar torpağı xışla əkmir» mövqeyi nə qədər səciyyəvidirsə, «Göy at»da ifadə olunmuş acı kinayə o qədər səciyyəvidir:

Ağzınızı büzməyin deməyin ki, bu nədir?
Deməyin şairə bax, maşın əleyhinədir.
Maşın üssuflu kəsdi Göy atımın başını,
Şair necə bəyənməz belə kamil maşını?

***

Rəsul Rzanın həm sərbəst, həm heca vəznində yazdığı əsərlərdə külli miqdarda yeni, orijinal, gözlənilməz obrazlar, təşbehlər, bənzətmələr var. Onların hamısını şərh etsəm, mətləb xeyli uzanar. Odur ki, bu obrazları, metaforaları yalnız sırayla gətirirəm. Bu sıranın düzümündə nə xronoloji, nə də mövzu-məzmun prinsipi gözlənilib. Sadəcə, Rəsul Rzanın kitablarından qeyd etdiyini örnəkləri bura köçürürəm:

«Qapqara fəlakət kimi qara gözlər. Kölgələr mehriban köpək, dırmanırlar qucağıma titrəyərək. Göyə baxdım, tez-tez naxışı dəyişən nə qədər bulud xalçaları vardı. Külək, elektrik silgəci kimi, bir anda təmizlədi dünyanm tavanını, şəfəqlər bəzədi yerin üfüq eyvanını. Sarı nərgizin əsəbi insan kimi

diksinib titrəməsi. Yerə qurşaq bağladı Magellanm kürəkləri (Magellanın kürəkli gəmiylə dünyanı dövr etməsi nəzərdə tutulur). Torpaq altında kökləri bir kor kimi su axtaran, torpaq üstündə gilələri kəhraba kimi saralan üzüm. Atasının papağını qoymuş uşaq kimi görünən göbələklər. Yapışqan dost. Çərkəzi çuxalı incəbel körpülər elə bil, miniblər haraylı, köpüklü çayları. Keşikçinin kirpiklərindən elə bil, daş asılmış, elə bil, iki çiyninin arasından saplağı yumşaq bir armud kimi baş asılmış. Bülbülün cəh-cəhindən elə bil, dəli olub Bakının gecələri. Küçədən bir nəfər keçdi, əl ağacı ilə yolunu axtara-axtara, kor keçib getmişdi, nə əl ağacının beynimə quru noxud kimi tökülən səsi vardı, nə də dəmrov küçədə bədbəxt kölgəsi vardı. Dəvə ləpirləri xəzəl kimi düşür yollara. Acı, qara günlərin sayı-hesabı yoxdur, balıq kürüsü kimi. Bir an çəkmir, əriyir mənzərə, qızdırmalı bir ovuca düşən qar naxışı kimi. Göy oldu dama-dama, elə bil, allah hazırlaşır mələklərlə şahmat oynamağa. İşığı bir çimdik. Parça-parça işıq cındırı ilə doldu, boşaldı küçə. Bəlkə mən, zamanın akkardeon köynəyi kimi açılmış müxtəlif illərini yığıram üst-üstə, tez olsun deyə. Raketlər xaraba qusur. Son edam edilmişin sabunlu dul xaltası. Qaranlıq qara xəbər kimi çökdü üstümə. Şəfəq bir an parladı, sarı sabun parçası kimi sürüşdü düşdü pəncərəmdən, qaranlıq uddu onu, zil qara bir pişik sarı bir pərvanəni udan kimi. Sükuta-bürünmüşəm, soyuqda qara yapıncıya bürünən yolçu kimi. Vurdumu yüksəliş qanadlarını imkan ildırımları? Maşından endik, elə bil qaynar paltar geyindik. Tokio zəlzələlər üstündə canbazdır. Yaxın-uzaq zəlzələlərin əsəbi titrəyişi torpaq altında-dərində. Günəşdən qopmuş işıq basqını. Lal torpağın ağrısı, kömür daşlar, kül ağaclar yoxdu. Toza dönmüş binaların külə dönmüş sümükləri. O gündən sanki badam gözlərin yası qara bir matəm olub, çökdü bütün cahana. Hər yerdə qanlı xaç kimi gəzən təyyarə kölgəsi. Fironun sümükləri xaş-xaş kimi dağılar, pillələrin başından üzüaşağı gilləsən. Kəlküttədə, tin başında durub, əlləıində taqəti qırılmış bir ömrün titrəyişi. EIə bil qəlbinin tellərini dəmir dişli daraqla

darayır ağır-ağır. Kilyotin baltası kimi süsür italyan-həbəş davası. Qara təkərlərin ağ köbəsi zənci balası Villiyə qara boğaza dolanmış sabun köpüklü kəndir kimi göründü. Qara torpağın sinəsində kaman səsi kimi həzin yaşıl bir ot göründü. «Torpağa salam!» - dedi. «Mən qoynumda baharı qaldıracağam», - dedi. Hər addımda ölüm gəzir ömürləri yığa-yığa. Vədlər, qarantilər «inamlı», «qüvvətli»dir yeddi ac qurd arasına düşmüş bir dərvişin duası kimi. O gündən pencəyinin sağ qolu boş qaldı, indi hava soyuq olanda, ona elə gəlir ki, kütmül qolunun ucunda üşüyür barmaqları. Onlara Anrinin adı gərəkdir, nitqlərini bəzəmək üçün, yeni tabut bəzəyən çiçək kimi. Dalğaları varaqlayır bir cüt avar. Ay elə bil, xəzəldir üzür, bu göy çəmənin ləpələnən köksündə. Avarlar qırıq qol kimi sallanır qayığın kənarından. Ulduzsuz bir gecəyarı qaranlığa bürüyüb gətirdilər onları. Üzünüzü reyxstağın qəbirdən çıxmış bir kəllə sümüyü kimi eybəcər xarabasına tutun. Əcaib bir heyvan ləpirinə oxşayır xəritədə adalar, qitələr. Məhkumlar bir-bir çıxır qabağa, hər yan süngü hasarı, qarovullar sağda, solda, kiminsə ayağı dolaşır həyatla ölüm arasındakı bir qarış yolda. Qabarlı insan əlinə bənzəyir xəritədə Afrika. Afrikanın sinəsi boyanıb qana, qaralar yurdunu qanayan bir ələ oxşatmaq üçün. Gözlərimlə bütün günü daraya-cağam Bakının dolaşıq küçələrini. Qulaqlarımda ayaq səslərinin yoxluğu. Bir səs məni təbrik etdi, köhnə, əziz dost kimi, mənə elə gəldi ki, lalə açdı buz üstündə, mənə elə gəldi ki, qoca bir qurd sentimental nəğmə oxudu xəstə quzu üstündə. Ayılıram, hələ iniltilər də var, xəstə arabasının xırçıltıları da, su, toz dərmanlar da, tiyəsindən qan daman xilas bıçaqları da. Ləpələr elə bil, göy dəvə karvanıdır döşünü qabardıb gəzir, başqa təşbeh tapmayanda demək olar: böyükləri sanki şahdır, kiçikləri vəzir, kiçiklər böyüklərin dalınca gəzir və həmişə başı aşağı, onların başından yuxarıdır iri dalğaların qurşağı. Qayalar da əyilib elə bil, axtarır qərq olmuş sükutu. Dəniz yenə tövşüyür. Elə bil ki, dənizin bugünkü tənhalığı onun gurultusundan qopub, düşüb bu yerə. Dalğalar axıb gedir, üstü

köpüklü, elə bil, ağ saçlı bir qoca göy rəngli bərə çəkir. Səhər açılır, uğurlu yolun ilk səhəri bahqçılara, uğursuz yolun son səfəri balıqlara. Belə tənha deyildi Xəzər də, üzülməmişdi əli dəniz qardaşlarından, duyurdu babası okeanın nəfəsini küləklərdə. Bir toy xələti kimi çiynimdən sallanıb nənə qurşağı. Suyu kəsilmiş bulaq kimi dodaqlarımda qurudu Üzeyirin «Sənsiz»i, elə bil nəğmə küsdü məndən. Buludlardan süzülən şəfəqlər elə bil, iplikləri yerdən göyə tarım çəkilmiş bir hanadır. Dörd yandan bürüyüb məni ulduzlar, hərəsi novruz xonçasından asılmış, gümüş kağıza bükülü qoz boyda. Keçdi maşınlar rezin papışlı. Əyri-üyrü qaytanla göydən asılmış dağlar. Rəngli yuxum tağ qurur gözlərimdə, göy üzündə yarı cənbər, yeddi rəngli, yüz çalarlı qurşaq kimi. Şəhər döyünür, gecənin qoynunda qaranlıq içində ürək kimi. Dar ağacı kəndirinə bənzəyir, minarənin buruq-buruq pilləkani. Vaxtın metereoitləri, günlər. Yataqda oğlan uşağı, çırpınır başı kəsilmiş quş kimi. Burda göz yaşını udmasa torpaq, gurhagur çağlayan bulaq olardı. Qəlbim deyilməmiş sözlər qını. Tünd narıncı zolaqlar üfüqə naxış salır, nəhəng arıqapan quşun qanadları kimi. Qatar dirənib bir cüt qaban daşı kimi dimdik qalxmış relsə. Göyün üzü ulduzludur dənizin üzü ulduzlu, ay çinar xəzəli. Buhenvald cəsədlərdən yaranmış nəhəng külqabı. Axşam çıxır yer üzündən ağacların başına. Ulduzlar aydın-aydın çiçəkləyir, qabıqdan çıxmış günəbaxan tumu kimi. Gecə düşdü ulduzluqdan, töküldü hər yana, ağ gündə qara xəbər kimi. Üfüqlərə qan çilənib, səhər sırtıq dilənçiləşib, yığır ulduzları gizli dağarcığına. Yarpaqlar uçur bir-bir xəstənin qürub günləri kimi. Ay batdı, üfüqdə qanlı izi aldı. Göylər qaraldı, ulduzlar göz qırpır hərdən-hərdən. Sahil bənzəyir Xəzərin narın qum döşəyinə, baxıb, heyran qalıram, sahil boyu çıxıb yatmış karvan-karvan qum köşəyinə. Bombalar, minalar çopur-çopur çopurlayıb hər yanı. Bir tək daxma, ağ göbələk, qəribliyin buz heykəli. Elə bil Admirallıq iynəsini salıblar bu zülmətin içinə, qara bir mürəkkəbə qələm batıran kimi. Susurlar, top ağzına qoyulmuş mərmi kimi, susurlar, lövbər

atmış qırx toplu gəmi kimi, susurlar bir kilyotin bıçağı kimi, susurlar canilərin cani alçağı kimi, susurlar ov görmüş gözü yaşlı timsah kimi, susurlar, taxtadan qayrılmış allah kimi. Döyüş bayrağı kimi parça-parçadır ölkə. Küçələrdən keçir sahili görünməyən qaraqılçıq sünbül kimi, dalğa-dalğa izdiham. Dalğaların köpüyü, gecələrin örtüyü bir əlamət olarmı, yollarında gəmiçinin? Dayandı bir lal kimi, nigaranlıq çölündən təsəlli yuvasına qayıtmış xəyal kimi. Rütubətli məclislərin şəbədəçi iblisi. Ögey analı uşaq kimi qısılıb bir küncə susdu ilham...»

Bu bənzətmələrin, obrazların orijinallığıyla bərabər çox əyani, görümlü olmaları da diqqəti çəkir. Hətta insan gözüylə görülə bilməyən şeyləri təsvir edərkən də Rəsul Rza çox əyani obraz yarada bilir. Məsələn, «Ana qaz» şeirində belə bir yer var:

Qazın yeddı balası vardı;
Qonaq gəldi, ev yiyəsi birini kəsdi,
Dedi: «altısı qalar, bəsdir».
Gecə bala qaz,
Boynunda qan qırmızı lent
girdi Ana qazın yuxusuna.

Yaxud, qatarından ayrılıb yerə düşən durnanın gözüylə görünən dünya:

Yer qalxdı,
bulud ucaldı
durna endikcə aşağı.
Külək sürtdü özünü onun döşünə,
Durna endi, endi,
düşdü sarı kövşənə.
Ona elə gəldi ki,
üstündə uzandığı
sarı kövşən deyil,
qaynar səhraların qumudur.

Ona elə gəldi ki,
Göyə baş qaldırmış qələmələr,
yaşıl boyanmış fil xortumudur.
Ona elə gəldi ki,
uçur,
Günəşdir kürəyini yandıran.

Bəzən təşbehlərində belə əyanilik, görümlülük yoxdur, amma onların da başqa səbəbi var. Mənim nəzərimdə bu, əlbəttə, subyektiv təəssürat ola bilər, «İşıqlar üşüyəndə» şeiri və bu təşbehin özü impressionist rəssamların üslubunu xatırladır. Soruşula bilər: «İşıq da üşüyərmi?» Bəs gül necə, üşüyərmi? Gülün üşüdüyünü hardan bilirik? Poeziyadan, xalq şeirimizdən: bayatılarımızda: «Şeh düşdü, gül üşüdü», - deyilir.

Rəsul Rzanın bəzi təşbehləri satirik səciyyə daşıyır. «Bədən üzvləri» adlı bol mizahlı silsilədə belə oxşatmalar çoxdur. Qaşlar haqqında: «Neyləmisiniz, deyin, bəzi xanım-xunuma, sizi pörşələnməmiş yolurlar, cücə kimi», qulaqlara aid: «Qapı dalında dayanmayın, qulaqlar, üşüyərsiniz, soyuq dəyər, yazıqsınız, ələ keçərsiniz, hamı insaflı deyil, elə çəkərlər, uzanarsınız, üzdəniraq, olarsınız uzunqulaq».

Polemik ruhda rişxəndli təşbehləri də var:

Traktorlar da çıxsın, ürkək sonalar kimi,
İdrakın seyrəngahı geniş ana çöllərə.
Gəmilər qıy vuraraq, qoy quba qazlar kimi,
şeiriyyətlə tökülsün hikmət dolu göllərə.
Yaxud:
Fel, sifət xonçadır evin hər səhmanında,
Xalça vəzn döşənib otağa naxış kimi.

Rəsul Rzanın təşbehləri, obrazları sırasında, bəzi şeirlərində sürrealist boyalar da nəzərə çarpır. Bu baxımdan, «Üç girdin arçan odunu, divar sobası və yuxu» şeiri maraq doğurur.

Qalan bir az kül,
bir də hərarəti beş dərəcə qalxmış
termometrin civəsi.
Bir də göz yaddaşımda
qırmızı zolaqlar.
Bir də
qulaq yaddaşımda
ocağın cırıltısı.
Bir də
dil yaddaşımda
tüstü acısı.
Bir də barmaqucu yaddaşımda
soyuğun yumşaq ölümü.
Əcaib kölgələr yüyürüşüb,
doluşdu otağın küncünə.
Közün əcaib naxışları
hopdu kərpiclərə.
Divarlar çəkilmişdi geri,
yenə irəli gəldilər.
Qalan bir az gül oldu.
Ağ çarpayı da,
ağ yastıq da,
ağ köynəkli yorğan da
yox oldu.
Divar qara!
Döşəmə qara!
Tavan qara!
Qara boya axdı kitablara.
Soyunub girdim yuxuma,
axtardım, axtardım
Yuxumun yuvasını.
Mən, ayaqlarım, iki gözüm!
yuxuma bələdçilik edirdim özüm.
Gəzirdik dünyanı.
Yuxuda yuxum gəlirdi,

yata bilmirdim,
Yuxuda ayıldım, yuxudan.
Beynimdə dünyanın nigaranlığı,
Milyon işıq ilinin
bir anlıq pərişanlığı.

Başqa bir şeirində də sürrealist boyalar, yuxu ovqatı var:

İki dəfə sağa,
bir dəfə sola burulub getdim.
Yol tanış,
döngələr tanış,
Tanış doqqazın əyri ağacları, tanış.
Dam üstündə tanış dəmir xoruz,
Tanış nar topası
budaqlarından neçəsi quru.
Çağırdım bir ağız,
Çağırdım iki ağız,
Əvvəlcə yavaşdan çağırdım,
sonra ucadan:
-Ay ev yiyəsi!
Ev susdu.
Qapılar susdu.
Neçə yerdən sökülmüş
batdaq divar susdu.
Qanrılıb bir də baxdım.
Hər şey tanışdı,
həyətə gedən,
üstünü ot basmış cığırdan başqa.

(1965)

Belə duyum ancaq vahiməli yuxularda olur; sanki tanış bir mühitdəsən, amma bu mühit eyni zamanda sənə yaddır, özgədir, elə bil, başqa bir zaman kəsiyinə düşmüsən.

Rəsul Rzanın yaradıcılığının ilk addımlarından başlayan axtarışları, eksperimentçiliyi, sonralar çağdaş rus və dünya ədəbiyyatıyla daha yaxından tanışlığı, rəssamlıq, musiqi sahəsində biliklrinin zənginləşməsi və ən başlıcası yaşadığı çətin ömrün təcrübəsi nəticəsində həyata fəlsəfı baxışının yetkinləşməsi onun son dövr poeziyasının ən önəmli örnəyi olan «Rənglər» silsiləsində bitkin yekun şəklində meydana çıxdı.

Əgər Rəsul Rza şeirinin yalnız Azərbaycan və ümumtürk poeziyasında deyil, çağdaş dünya poeziyasında da yeri varsa, bu yeri ilk öncə «Rənglər»lə qazanıb.

***

«Rənglər» silsiləsinin təhlilinə keçməzdən əvvəl bu şeirlərə qarşı başlanmış və uzun müddət ardıcıl davam edən tənqid kompaniyasından danışmaq istəyirəm.

Rəsul Rzaya qarşı tənqid kompaniyaları, adətən, iki yöndə gedirdi. Ya bu kompaniya rəsmi dairələrdən başlanır və yazıçı qardaşlar tərəfindən davam etdirilirdi, ya da bu nəcib işə qələmdaşlarının özləri təşəbbüs göstərir və kifayət qədər material toplanandan sonra Mərkəzi Komitə də öz münasibətini bildirib bu tənqidləri rəsmi suıətdə dəstəkləyirdi. «Rənglər»in tənqidi məhz bu ikinci üsulla başlamışdı. Bu tənqidə yenə də yazıçıların mübarək orqanı «Ədəbiyyat və İncəsənət» qəzeti ton vermişdi.

Qəribə paradoksdur ki, elə həmin il Rəsul Rzanın «Qəlbimdə bahar» («Vesna vo mne») kitabı Lenin mükafatına təqdim olunmuşdu. Moskvaya yola düşdüyüm üçün mükafata təqdimatla bağlı bəzi sənədləri aparmağı Yazıçılar İttifaqı mənə tapşırdı. Moskvada Mükafatlar Komitəsinə gedib sənədləri təqdim edəndə, onları qəbul edən qız atamın adını görüb gülümsündü. «Sənədləri ancaq indi göndəriblər, amma Rəsul Rzanın əleyhinə yazılmış məktublar bizə artıq bir neçə gündür ki, daxil olur», - dedi.

Bu imzalı, ya imzasız məktublardan başqa şairin Lenin mükafatına təqdim olunmasını «Ədəbiyyat qəzeti» də özünəməxsus şəkildə qeyd edirdi. Qəzet atamın «Qəlbimdə bahar» kitabının mükafata təqdim olunması münasibətilə guya ki, müsbət rəy ifadə edən formal bir yazı çap etmişdi, amma məqalə bu sözlərlə bitirdi:

«Pəncərəmə düşən işıq», «İki tarix» şeirlərinin sonluğu zəifdir. «Quzu», «Mahnı dərsi», «Qaz» şeirlərində yürüdülən fikir müəyyən dərəcədə dumanlıdır. «Ağ fil» şeirinin ideyası orijinal deyildir. «Bakı», «Ana, dərdin nədir?» şeirləri lakonizmdən uzaqdır, ritorik xarakterdədir və s. Şair bəzən prozaik ifadələrdən həddindən çox istifadə edir ki, bu da sətri tərcümə təsiri bağışlayır. Ayrı-ayrı nöqsanlarına baxmayaraq, Rəsul Rzanın «Qəlbimdə bahar» şeir kitabı maraqla (?!-A) qarşılanır» (19 yanvar, 1963-cü il).

Qəzetin elə həmin nömrəsində dərc edilmiş başqa bir məqalədə belə bir abzas var: «Qəlbimdə bahar» kitabına çəkilmiş şəkillərdə gənc rəssam T.Nərimanbəyov formalist axtarışlarının faydasız bəhrəsini nümayiş etdirmişdir. Həyat ilə, insan təfəkkürü ilə heç bir əlaqəsi olmayan bu mücərrəd, ifrat, şərti rəsmlərin meydana çıxması, hazırda, sovet incəsənətində mücərrədçi, formalist hoqqabazlıqlarla gedən ciddi mübarizə şəraitində xoşagəlməz bir hadisədir».

Ölkənin ən yüksək mükafatına təqdim olunmuş kitaba bu sayaq, bu dillə xeyir-dua verilir, «uğur dilənirdi».

Qəzetin (9 fevral, 1963) «Xalq üçün yazıb yaratmalı» adlı baş məqaləsi demək olar ki, tamamilə Rəsul Rzanın «Rənglər»inə həsr olunmuşdu. Məqalədən bəzi parçalar:

«Biz mücərrəd insanpərvərliyi poeziyamıza və ümumiyyətlə ədəbiyyata və incəsənətimizə yaxın qoymamalıyıq. Çox təəssüf ki, bizim poeziyamızda mücərrəd insanpərvərlik, ümumiyyətlə, insandan danışmaq kimi hallara təsadüf olunur. Müasir poeziyamızın görkəmli nümayəndələrindən olan xalq şairi Rəsul Rzanın ədəbiyyatımızdakı xidmətləri geniş ictimaiyyətə məlumdur. Onun gözəl ictimai siyasi lirikası, beynəlxalq

mövzulardakı şeirləri, Dövlət mükafatına layiq görülmüş «Lenin» poeması oxuculara yaxşı tanışdır. Bütün bunlarla yanaşı şairin bir sıra *son* (kursiv mənimdir - A.) şeirlərində və xüsusilə, «Rənglər» adlı silsilə şeirlərində gözə çarpan ciddi qüsurlar da ədəbi ictimaiyyətimizi narahat etməyə bilməz. Şairin həmin şeirlərində məhz mücərrəd insanpərvərlik, müasir həyatımızın aktual məsələlərindən uzaqlaşmaq halı aydın hiss olunur. «Rənglər» silsiləsindəki 27 şeirin demək olar ki, hamısının axırı insan haqqında belə mücərrəd fikirlər və ifadələrlə qurtarır: «İnsan ülfəti», «Anlayan, duyan insan», «İnsan qayğısı», «İnsan əməli», «İnsan düşüncələri», «Gülən, ağlayan insan, insan, insan», «İnsan bəzəyi», «Dərindən nəfəs aldı insan», «İnsanın bəlalı başı» «Bəzi insan niyyəti», «İnsan dünyası» və sairə... Bu şeirlərdə hansı insandan danışılır? Şairin insana demək istədiyi nədir? Tamamilə aydındır ki, bu şeirlərdə konkret insan yoxdur. Rənglərin dili ilə insana söylənən fikirlər çox mücərəddir, dumanlıdır və oxucu bu fikirləri duymaq, başa düşmək bir yana qalsın, yozub məna çıxarmağa da çətinlik çəkir. Həmin parçalardan aydın görünür ki, şairin məntiqində heç bir ardıcıllıq yoxdur, müqayisələrində predmetlər, insanlar, hadisələr haqqında real təsəvvür yoxdur, rənglərin insana münasibətində, hadisələrə təşbeh gətirilməsində uyğunsuzluq və mücərrədçilik var. Belə tapmacaçılığa müasir şeirimizdə nə ehtiyac var? Bizim həm fikir, həm ifadə cəhətdən aydın, axıcı və ahəngdar sovet poeziyamızın ənənələri harda qalmışdır ki, belə «tapmacaçılıq» və mücərrədlik şeirimizə yol tapır».

Kəlmə başı «mücərrədçilik» sözünün təkrarıyla «Rənglər»i o zaman Xruşşovun Manej sərgisində rəssamları şil-küt etməsindən sonra sənətdə «mücərrədçiliyə» qarşı aparılan kompaniyayla bağlamağa çalışırdılar.

O vaxt mən Moskvada Ali ssenari kurslarında təhsil alırdım. Atam məni «Ədəbiyyat və İncəsənət» qəzetinə abunə yazdırmışdı, hər həftə qəzetdə «Rənglər»ə bu sayaq hücumları oxuyub narahat olurdum. Atam məktublarında məni sakit

eləməyə çalışırdı. Bu məktubların tam mətnini «Sizsiz»də vermişəm, burada isə müxtəlif məktublarından bəzi fraqmentləri gətirirəm:

«Evə gəldik, dedilər zəng eləmisən. Əzizim, oğlum, qardaşım, mənim mehriban dostum, inamlı, etibarlı, ümidli arxam, yoldaşım Anar bala, nə üçün bu qədər nigaranlıq keçirirsən? Məgər sən atanın həyata ilk qədəm qoyduğu gündən mübarizələrdən, həyatın sınaqlarından, illərin, günlərin imtahanından keçdiyini bilmirsən? Nə üçün mənim gücüm, davamım, dözüm və iqtidarım haqqında sən şübhə edirsən? Nə üçün nigaransan? Məgər mən inandığım, seçdiyim həyat və sənət yolunda azmı ədəbi və qeyri-ədəbi mığmığaların sancaqlarını görmüş, dızıltısını eşitmişəm. Paxıllar zümrəsinin, nadanlar dəstəsinin, talantsızlar guruhunun tənə daşları hansı sənətkarı yolundan qaytara bilmişdir? Məgər sən mənim az-çox sənət adamları qəbilindən olduğuma şübhə edirsən? Anarım! Mən axır günlər yumoristik şeirlər yazıram. Bu son hadisələrə mənim necə baxdığıma sübut deyilmi? «Karvanımız gedəcək» şeiri yadında deyilmi? Oğlum! İnsan anlamağa qadirdirsə, heç bir məhrumiyyət, çətinlik, zərbə onu sarsıda bilməz. Mən xoşbəxtəm ki, anlamağa qadirəm. Bu söz sənə özündən dəm vurmaq, «Özünü bəyənən ağam vay» qəbilindən gəlməsin. Mən söz gəzdirən ədəbi fahişələrin nə üçün belə etdiklərini anlamasaydım, qəzəbinə səbəb nədir, bilməsəydim, bugünkü yeni ədəbi cərəyanın, xüsusilə, Azərbaycan şeirində hər gün daha artıq bir qüvvətlə səslənən yeni mübarizlərin bir sıraya topladığını anlamasaydım, bəlkə də məyus olar, ruhdan düşərdim. Bütün bunların şah səbəbini aydın-aşkar gördüyüm üçün, anladığım üçün bu hadisələr (əgər bunları hadisə adlandırmaq olarsa) məndə bir təbəssümdən, bəlkə də təəssüfdən başqa bir şeyə səbəb olmur. Yeni yaradıcılıq səfərinə, yeni mübarizələrə özümdə hər zaman olduğundan artıq qüvvət hiss edirəm. Kim nə desə, inanma. Sənin atan kefi kök, damağı çağ, əlində hələ gücünü, axtarışını, yeni boyalarını itirməmiş bir qələm olaraq «bənzəyir bir qocaman dağa ki,

dəryada durur»... Yeni şeirlər yazıram, gələcək yarış və mübarizələrə qüvvət toplayıram. Sən bilirsən ki, yarışı qazana bilmək üçün biz üçqat artıq layiq olmalıyıq...

...İnsanın ən böyük ləyaqəti ondadır ki, bütün bu istilər, soyuqlar, işıqlar, qaranlıqlar içində yolunu insan kimi keçsin. Bəlkə də ədəbi mığmığalar bu sözləri oxuyub ağız büzərlər. «Yenə də mücərrəd insan», - deyə dızıldayarlar. Olsun. Konkret heyvan olmaqdan, mücərrəd insan olmağın nəyi pisdir?

Hələlik.Öpürəm.
Rəsul Rza.
16 fevral, 1963-cü il»

«Ədəbiyyat və İncəsənət» qəzeti (30 mart, 1963-cü il), «Məqsəd aydınlığı və sənətkarlıq» adlı məqalədən:

«Yenilik pərdəsi altında düşmən ideologiyasının mədəniyyətimizə nüfuz etməsinə, kommunist tərbiyəsində qüdrətli vasitə olan ədəbiyyat və incəsənət silahımızın pas atmasına, kəsərdən düşməsinə laqeyd qalmaq olarmı? Əlbəttə, yox. Qəribə burasıdır ki, formalizmi, abstraktsionizmi əsaslı surətdə tənqid edən qiymətli partiya sənədlərindən söhbət gedərkən «bəs bizim ədəbiyyatımızda necə, mücərrədçiliyi və onun müxtəlif təzahürlərini andıran əsərlər yoxdurmu?» - deyə sual etdikdə, yazıçı yoldaşların bəziləri «məsələnin bu şəkildə qoyulmasından» narazı olurlar. «Şərt deyil ki, hər yerdə mücərrədçilik axtarıb tapasan» - deyir, tənqidin diqqətini qüsurlardan, səhvlərdən yayındırmaq istəyirlər. Bizim estetika dərnəyinin bir məşğələsində olduğu kimi. Sual olunur: - Hörmətli yoldaş, hərgah belə qüsurlar varsa, onları «axtarıb tapmaq», yəni, göstərmək qəbahətdirmi? Bir də ki, əgər belə səhvlər uzaq keçmişdə deyil, bu yaxın zamanlarda baş vermişsə, onlar çox köhnə kitab və jurnallarda deyil, bizim öz orqanımız «Azərbaycan» jurnalının 1962-ci il 12-ci nömrəsində çap edilmişsə, daha onları «axtarıb tapmağa» nə ehtiyac var? Onlar «tapılmışdır», daha doğrusu, onları hamımız

oxumuşuq. Jurnalımızın yuxanda göstərilən nömrəsində xalq şairi Rəsul Rzanın «Rənglər» başlığı altında 27 yazısı verilmişdir. Mən bu parçaları diqqətlə oxudum, bunlarda həyatımız üçün, cəmiyyətimiz üçün xeyirli bir məna, faydalı bir məzmun axtarmağa çalışdım, çox təəssüf ki, tapa bilmədim... R.Rza «Rənglər»i çap etdirməklə indi çıxılması çətin olan bir vəziyyətə düşmüşdür. Əlbəttə, müəllif deyə bilər ki, burada bir çətinlik yoxdur.

Bu nədir ki, mən bundan çətin vəziyyətlərə düşüb çıxmışam. Hələ neçə il bundan qabaq formalizmə meyl etməyim üstündə məni möhkəm tənqid etdilər. Nə oldu? Nə itirdim? (Kursiv mənimdir - A.)

...Novatorluğu «novatorluq» xatirinə deyil, əsərlərimizlə xalqımızın böyük işlərinə daha yaxından və daha layiqli kömək göstərmək xatirinə etməliyik. «Rənglər» müəllifi necə, beləmi etmişdir? Çox təəssüf ki, yox. Bəlkə, müəllif yuxarıda göstərilən səhvlərini səmimiyyətlə etiraf edəcəkdir. Yaxud, bəlkə o, «imkan verin, düşünüm, o səhvlərin nədən ibarət olduğunu özüm üçün aydınlaşdırım: Görüm qatıq həqiqətən ağdır, yoxsa qara, qurum qaradır, yoxsa ağ, qum yeməlidir, yoxsa yeməli deyildir». Bu müddət ərzində formalizmin, mücərrədçiliyin tənqidinə bir çox məqalə həsr olunmuşdur. Hərgah R.Rza yoldaş «Rənglər» haqqında olan tənqidlərə kəmetina olmasaydı, indiyə kimi «Rəngləri» özü üçün aydınlaşdırar, müəyyənləşdirər, əslində qatığın ağ, qurumun qara rəngdə olduğu haqda qəti fikir söyləyə bilərdi. Məlumdur ki, həyat həqiqətlərindən uzaq, bədii keyfiyyətlərdən məhrum olan bu «rənglərin», «çalarların» bizim üçün heç bir ictimai-siyasi, tərbiyəvi əhəmiyyəti yoxdur. *Əksinə, formalizm, abstraktsionizm kimi zərərli meyllər və onların müxtəlif «çalarları» lazımınca tənqid olunmasa, döyülüb ədəbi mühitdən qovulmasa* (kursiv mənimdir A.), oxucularımızda şeirə, sənətə ikrah hissi doğurar, sənət aləminə hərc-mərclik gətirər. «Azərbaycan» jurnalı bu cür yazıları qeydsiz-şərtsiz çap

etməklə həm bu yazıların müəllifinə, həm də oxuculara çox pis xidmət göstərmişdir».

Bu müəllif də Rəsul Rzanın «döyülüb qovulmasını» nə qədər arzuladısa, ötən tənqidlərdən sonra salamat qalmasına, bir şey itirməməsnə nə qədər təəssüf etdisə, Rəsul Rzanın «səhvlərini boynuna almasını nə qədər gözlədisə» elə gözləməkdən gözləri sarala-sarala qaldı. Rəsul Rza bu sayaq «tənqidlərə» kəmetinalığında israr edir, «qatığın ağ olduğunu» heç cür etiraf etmirdi və «qatığın ağ olduğu» kimi həqiqətləri, bu sayaq kəşfləri, ixtiraları opponentləri olan başqa şairlərin ixtiyarına buraxırdı. Əlbəttə, Rəsul Rza qatığın ağ, qurumun qara olduğunu ən azı onu tənqid edənlər qədər bilirdi. «Qatıq ağdır» yazsaydı, yəqin ki, düz olardı, hamı da razılaşardı, heç kəs etiraz etməzdi. Amma bu şeir olmazdı. Rəsul Rzanı tənqid edənlər və özlərini xalq dilinin, xalq ifadələrinin bilicisi kimi qələmə verənlər xalqın işlətdiyi ən adi deyimləri unudurdular. Xalq «ağ yalan» deyir, «qara böhtan» deyir. Yalanın, ya böhtanın rəngini necə təyin etmək olar görəsən? Nəyə görə yalan məhz ağ, böhtan isə qaradır? Xalq «ağa qara demək» ifadəsini də işlədir. «Rənglər»i, həqiqətən də diqqətlə, həm də pis niyyətlə oxumasaydılar, görərdilər ki, «qatığın qara», «qurumun ağ» olması sözləri silsilənin məhz bir şerində, «Əl vurmayın rənglənib» şeirində ifadə olunub. «Əl vurmayın, rənglənib!», yəni, üstünə boya çəkilib, toxunsan, bulaşarsan. «Əl vurmayın, rənglənib!» şeiri yalana, saxtakarlığa, riyakarlığa, qəlp anlayışlara qarşı yönəlmiş şeirdir. Odur ki, burda hər şey olduğu kimi deyil, əksi, tərsi şəklində, tərsməz-həb göstərilir. «Qara qatıq da, ağ qurum da, yeməli qum da, dodaqlara yapışmış saxta təbəssüm də, məhəbbətin surraqatı da, məqsədli, yəni, təmənnalı alqışlar da». Bir sözlə, sovet cəmiyyətinin bütün «doğruya bənzər yalanları», hər şeyin yanlış şəkildə, həqiqətin üstünə boya çəkməklə təqdim edilməsi... Həmin şeirdə adı çəkilən buqələmunlara, rəngdən-rəngə düşən xameleonlara qarşıdır bu şeir.

Yuxarıda sitat gətirdiyim məqalənin bir məqamına da diqqəti çəkmək istəyirəm. Rəsul Rzaya qarşı ciddi tədbirlərin (oxu: repressiyalar, ya ən azı partiyadan, Yazıçılar İttifaqından qovulmaq) olmamasının xiffətini çəkən məqalə müəllifi başqa bir yazıçının da bostanına daş atır.

Estetika dərnəyində «Şərt deyil ki, hər yerdə mücərrədçilik axtarıb tapasan» sözlərini o vaxt İttifaqın sədri olan Mehdi Hüseyn deyib. Mehdi Hüseyn «Rənglər»ə qarşı hücum kompaniyasına qoşulmamışdı və elə buna görə də, tənələrə məruz qalırdı. Bu yazıda adı çəkilməsə də, başqa bir məqalədə açıqca tənbeh olunurdu:

«Mehdi Hüseyn yoldaş Moskvada partiya və hökumət rəhbərlərinin yaradıcı ziyahlarla görüşlərində iştirak edib qayıtdıqdan sonra iki dəfə çıxış etmiş və yalnız «təəssürat» söyləməklə kifayətlənmişdir. O, bu çıxışlarınm heç birində «təəssürat» formasından kənara çıxıb partiya və hökumət rəhbərləri ilə görüş zamanı müzakirə edilən mühüm yaradıcılıq məsələləri ilə əlaqədar müasir Azərbaycan ədəbiyyatındakı formalizm təzahürləri, ciddi ideya nöqsanları haqqında danışmamışdır. Mehdi Hüseyn yoldaşın son zamanlarda mətbuat səhifələrində çap etdirdiyi məqalələrdə də eyni vəziyyəti görürük. O, partiya və hökumət rəhbərlərinin yaradıcı ziyalılarla görüşləri ilə əlaqədar olaraq şair Rəsul Rzanın mücərrəd, konkret həyati məzmundan məhrum, çoxunun məzmunu dumanlı olan (bədbəxtlər elə bil Azərbaycan dilinin zənginliyindən yalnız iki sözü bilirlər «nıücərrəd» və «dumanlı» A.), başa düşülməyən «Rənglər» silsiləsi haqqında danışmamış və bu əsərlər ətrafında gedən yaradıcılıq mübahisələrində özünün prinsipial mövqeyini bildirməmişdir. Halbuki, ədəbiyyatın ideyalılığı məsələlərindən söhbət gedən yerdə belə bitərəflik ola bilməz» («Ədəbiyyat və İncəsənət» qəzeti, aprel, 1963-cü il).

Bununla da ürəkləri soyumur, qəzetin elə həmin nömrəsindəcə «Rənglər»ə həsr olunmuş «Şeir, yoxsa tapmaca» adlı məqalə çıxır. Bayaq bir balaca şəhv etdim. O dövrün

müəllifləri «mücərrəd» və «dumanlı» sözlərindən başqa «tapmaca» sözünü də bilirmişlər və bu da bəyənmədikləri şeirləri damğalamaq üçün ən çox işlətdikləri sözlərdəndir. Amma onu düşünməyiblər ki, tapmaca damğa deyil, ədəbi janr, formadır və tapmacanı xalq beyinləri işlətmək üçün, düşünüb tapmaq üçün, üzdə olam yox, ikinci, üçüncü mənanı dərk etmək üçün yaradıb. Nə isə... həmin məqalədən də bir parçaya diqqət edək:

«Rənglər» şeiri başdan ayağa qədər bənzətmələr, müqayisələr üzərində qurulmuşdur. Lakin bu bənzətmələr çox qəribə, gözlənilməz və mücərrəd görünür. (Əhsən belə məntiqə; guya ki, şeir bənzətmələr üzərində qurulmamalıdır və bu bənzətmələr gözlənilməz olmamalıdır. «Mücərrədlik» də ki, öz yerində - A.)

Müxtəlif parçalar içərisində işlənmiş «soyuq tənhalıq», «cansız barmaqlar», «boş ürəklər», «kədər çökmüş üzlər», «dəryalarla göz yaşı», «milyonlarla qəbir daşı», «yanmış ürək», «şaxta qorxusu», «hicran qorxusu» «yanıqlı göz yaşı», «gecənin tabutuna salınmış örtük», «buz nəfəsli qaraltı», «ömürlük dustaq», «həsrətli gözlər», «pərişan saçlar», «titrək dodaqlar», «nəğməsiz dağlar», «kor bulaqlar», «ovsuz ovlaqlar», «odsuz ocaqlar» və bir sıra başqa ifadələr şeirlərə bir ümidsizlik əhval-ruhiyyəsi, qüssə və soyuqluq gətirmişdir».

Bir xüsusiyyəti qeyd etmək istəyirəm. Sital sovet tənqidçiləri nəyi başa düşməsələr də, hər halda «ideoloji sapıntıların» iyini çox yaxşı ala bilirdilər. «Rənglər»in şifrə edilməsinin bir səbəbi də Rəsul Rzanın senzura duzaxlarından qurtulmaq cəhdi idi. Bu biçarə tənqidçi haradan biləydi və öncədən duyaydı ki, «Rənglər» yazılan gündən 25-30 il keçəcək və sovet dövrü, repressiya qurbanlarının «milyonlarla qəbir daşı», Sibirə sürülmüşlərin «şaxta qorxusu», «buz nəfəsli qaraltısı», əzizlərini itirmişlərin «dəryalarla göz yaşı», «titrək dodaqlar», «hicran qorxusu», «yanmış ürəklər», «soyuq tənhalıq» insanların bu rejimdə «ömürlük dustaq olmaları» artıq hamının işlətdiyi ifadələrə çevriləcək. Bütün bunlar

haqqında, qüssə və soyuqluq gətirən əhval-ruhiyyə barəsində dönə-dönə yazılacaq, bu hətta bir dəbə, modaya çevriləcək, imkan verilən zaman hər kəs öz keçmişdəki cəsarətini bol-bol reklam edəcək. 1963-cü ildə sovet mətbuatında «Rənglər» silsiləsindən məhz bu faciəvi, bədbin, qüssəli və ümidsiz ifadələri seçib yan-yana düzmək isə müəllifin bunu qəsdən və ya başa düşmədən etməsindən asılı olmayaraq siyasi xəbərçilik, danos idi.

«Şeir yoxsa tapmaca» məqaləsi belə tamamlanır:

«Qoca Şərqin böyük mütəfəkkiri Nizami Gəncəvi əsrlərin arxasından baxa bilsəydi yəqin ki, müasir şeirimizin bəzi nümayəndələrinə üzünü tutaraq deyərdi: «Axı mən də, bir zaman təbiətin hər an dəyişən gözəlliklərinin təravət və rayihəsini həyəcanla müşahidə etmişəm, sevilməyə layiq olan əsl insana da ürəyimdə yer vermişəm. Mən də rənglərdən yazmışam: qara, sarı, yaşıl, qırmızı, göy, səndəli, ağ... Amma insansız bu gözəlliklər nəyə gərəkdir?» (Bıy, bəs o biri tənqidçilər «Rənglər»də insanın çoxluğundan gileylənirdilər - A.)

«Nizami» sözünə davam edir:

«Əgər bu rənglər insanın itirilmiş səadətindən doğan məyusluğunu, onun dərin səmimiyyətini, elmin gücü ilə tilsimləri açmaq qüdrətini, həyat eşqini, yaxşılıq, mənəvi saflıq kimi sifətlərini aşkara çıxarmağa kömək etmirsə, nəyə lazımdır? Əgər bu rənglər xalqın böyük həyat təcrübəsindən, müdrik sözlərindən qida almazsa, necə yaşaya bilər?»

İşə bax e, üslubu, düşüncə səviyyəsi məqalə müəllifindən fərqlənməyən Nizami də, demə, «Rənglər»ə qarşı kompaniyanın fəal iştirakçılarından imiş. Digər məqalə müəlliflərinin adlarını çəkmədiyim halda, «Nizaminin» adını çəkdiyimə görə, böyük şairin ruhu məndən inciməsin.

Bəli, əlqərəz, «Nizami» də daxil olmaqla əhli-qələmlərin «Rənglər»ə qarşı səlib yürüşünə, nəhayət, Partiya rəhbərliyi də münasibət bildirməli oldu. Əvvəllərdə gətirdiyim tənqidlərdən sonra dəyişmiş növbəti ideoloji katib 1963-cü il martın 21-də Respublika yaradıcı ziyalılarının müşavirəsində etdiyi

məruzədə Rəsul Rzanın xidmətlərindən, «Lenin» poemasının geniş oxucular arasında rəğbət qazanmasından bir-iki söz deyəndən sonra, keçir «Rənglər»ə.

«Rəsul Rzanın yaradıcılığında, daha doğrusu, onun axtarışlarında artıq ədəbi ictimaiyyəti narahat etməyə başlayan cəhətlər də müşahidə edilir. Şairin əsərləri içərisində bəzən faydalı və aydın fikir ifadə etməyən, konkret həyatı məzmundan məhrum olan şeirlərə də rast gəlirik... «Rənglər» silsiləsi buna canlı misal ola bilər. Bu silsiləyə daxil edilmiş şeirlərin çoxunun məzmunu *mücərrəd, dumanlı* (kursiv mənimdir - A.) fikirlərdir; bəzən hətta müəllifin nə demək istədiyi əsla məlum olmur... Söhbət orijinal, novator bir şairdən gedir. Bu nöqsan üzərində ciddi düşünməsi, bu nöqsanı aradan qaldırması Rəsul Rza yoldaşın özü üçün də, ümumiyyətlə, bugünkü Azərbaycan şeiri üçün də faydalı olardı» («Ədəbiyyat və İncəsənət» qəzeti, 23 mart, 1963-cü il)

Göründüyü kimi, bu dəfə partiya məzəmməti yazıçı qardaşların tənqidindən daha yumşaq, daha mülayimdir.

Düşünürəm, bəlkə doğrudan da heç kəsi qınamalı deyil. «Rənglər»in mənasını anlamaq, dəruni mənasını dərk etmək o qədər də asan deyil. Əvvəla, bunun üçün müəyyən savada, biliyə, erudisiyaya malik olmalısan. «Qəhvəyi»də Balzakın, yaxud Qogenin adlarının nə üçün çəkildiyini başa düşmək üçün Balzakın qəhvəyə aludə olduğunu, Qogenin Taiti rəsmlərində qəhvəyi rəngə üstünlük verməsini bilmək lazımdır. Müəyyən rənglərlə bağlı fransız impressionist rəssam və bəstəkarlarının xatırlanmasının səbəbini aydınlaşdırmaq üçün bu sənətkann yaradıcılığına azacıq da olsa bələdliyə ehtiyac var. Deqanın «Mavi rəqqasələr»i, Van Qoqun «Qızılı günəbaxanlar»ı haqqında cüzi təsəvvürün olmalıdır. Debüssinin «Kürən saçlı qız» əsərini dinləməsən də, heç olmasa, adını eşitməliydin.

Ancaq bu savad kasadlığı bir yana dursun, «Rənglər» Rəsul Rzanın Azərbaycan şeirinə və Nazim Hikmətin dediyi kimi, ümumən Türk şeirinə (içi Türkiyə qarışıq) gətirdiyi önəmli bir yeniliyi-assosiativ düşüncə tərzini, anımların,

yaddaşda oyanan xatirələrin çox vaxl təsadüfi, altşüurla bağlı olduğunu qavramaq və qəbul etmək gərəkdi. Buna əski ibarəylə «tədayi-əfkar» deyirlər. Məhz elə buna görə Nazim Hikmət «Rəsul şeirimizə tamamilə yeni bir özəllik gətirdi, «Rənglər» də özü-özünü ötüb keçdi», - deyirdi.

«Rənglər»in açarı elə silsilənin başlanğıcında «Üvertüra» adlı şeirdə verilmişdir.

Rənglər xatirələr oyadır,
duyğular oyadır.
Gördüyümüzdən artıq görmək istəməsək,
hər rəng adicə boyadır.

«Rənglər silsiləsinin hər bir şeiri bütün məziyyətləri nəzərə alınmaqla araşdırmalara, təhlilə möhtacdır...

Ancaq «Gördüyümüzdən artıq görmək istəməsək hər rəng adicə boydadır» deyimi anlamca yalnız rənglərə aid edilərək məhdudlaşdırıla bilməz. Bu deyim əslində hər bir elm və bilik sahəsini əhatə edir. Başqa cür desək, insanın bilikləri onun bilmək, öyrənmək imkanlarının sonsuz kiçik hissəsidir. Hər bir öyrənilənin öyrənilməmiş hissəsinin, hər bir baş verənin başvermə imkanlarının olması mümkündür. İnsan hər bir fəaliyyətində bu halı nəzərə almalı, «gördüyündən artıq görməyə» çalışmalıdır. Elmin həm çağdaş imkanlarını, həm də gələcək imkanlarını ortaya çıxaran Amerika Birləşmiş Ştatlarında yaşayan qüdrətli alimimiz Lütfizadə (Lütfi Ələkbərzadə) nəzəriyyəsi də Xalq şairi Rəsul Rzanın yuxarıda deyilən flkrilə lazımınca səsləşir. O da maraqlıdır ki, «Rənglər» şeirləri 60-cı illərdə yazılmışdır, Lütfizadə nəzəriyyəsi də həmin illərdə ortaya gəlmişdir. Bu paralelin araşdırılmasına ehtiyac göz önündədir. (Bəhmən Sultanlı, Aybəniz Bəhmən qızı. «Rənglər» şeirlərinin rəngləri. «Açıq dünya» İctimai-siyasi, elmi-kütləvi jurnal №1 2002).

«Üvertüra»da rənglərə verilən səciyyələrin müəyyən mənada şərti olduğu da vurğulanır.

Ağ, qara, sarı, yaşıl, qırmızı,
Hərəsi bir sınaqla bağlıdır.
Biri həsrətimizi xatırladır,
biri dərdimizi, arzumuzu.
Hərəsində bir məna arayıb,
bir səbəb görən var.
Kim bilir, kim sınamış,
Kim bunu ilk dəfə demiş,
Qara - matəm, qırmızı - bayram
sarı - nifrət rəmzi imiş.
Qırmızı qan da ola bilər,
Bahalı üzük qaşı da, göz yaşı da.
Qara matəm rəmzi də ola bilər.
məhəbbət rəmzi də, nifrət rəmzi də.
Rənglərin də musiqi kimi ahəngi var,
Ağrının, sevincin, ümidin də
rəngi var.
Düşündükcə açılır
əlvan səhifələri rənglərin.
Canlanır gözümdə rəngi ömrün,
mübarizənin, qələbənin, nifrətin,
Gecənin, səhərin
və insan taleyinin.

«Rənglər»in məğzi və əsas estetik prinsipi budur: yalnız gözlə görünən əşyaların rənglərinin bəsit tərəfini vermək deyil, rənglərin oyatdıqları müxtəlif assosiasiyalar, anımlar, xatirələr, düşüncələr, duyğular vasitəsilə «ağrının, sevincin, ümidin, insan taleyinin də» mənzərəsini yaratmaq.

Həyat haqqında, insan taleyi haqqında, öz ömrünün təcrübəsi və çeşidli təəssüratlarıyla bağlı duyduqlarını, düşündüklərini ifadə etmək üçün rəngləri seçməsi təsadüfi deyildi. Ta uşaqlığından bəri Rəsul Rzada rəng duyğusu çox güclü olub. Dünyanı həmişə birrəng - boz, ya ağ-qara deyil, əlvan, çoxboyalı görürdü. Bir şeirində yazdığı kimi xəyalında

həftənin hər gününü bir rəngdə görürmüş. Uşaqlıqda əlvan kəpənəklər gördüyü yuxular da, sonrakı illərin yuxuları da rəngli imiş.

Rəngli yuxular görürəm;
qırmızı, sarı, yaşıl,
rəssam Toğrulun lövhələri kimi
Rəng rəngə dirsəklənir,
rəng rəngə dolaşır.
Ağ-qara yuxularım
cansıxan söhbətlərə bənzəyir.
Bəzən acı xatirələrə,
bəzən şip-şirin qafiyəyə bənzəyir.
Yoruluram
rəngsiz yuxulardan
adilikdən, əzbər bilikdən
yorulan kimi.
Yuxularıma girən
qayğılı dünyamın rəngləridir
Bəzən gümüş damcı
alın təri,
bəzən çeşid-çeşid
ömür mənzərələri.
Ağ-qara yuxularım
göhnə fotolara bənzəyir,
bir də sığallı şeirə.
Rəngli yuxularım
əlvandır
həyat kimi.
Min bir çiçəkdən
içdiyim ətir, müxtəlif
meyvədən duyduğum
dad kimi.

Bu sətirlər «Rənglər»dən bir neçə il sonra yazdığı «Rəngli yuxular» silsiləsindəndir. Silsilədə «Rənglər»ə tənqidlərlə bağlı acıları da öz ifadəsini tapmışdır:

Rənglər aləmindən
Yazardım, yazar, yazar,
neçə ədəbi pəltək,
buqələmun yassar.
Rənglərə rəng yaxmasalar.

«Rənglər»i duymaq, anlamaq üçün, dediyim kimi, bu silsilənin açarını, poetik şifrini, kodunu tapmaq lazımdır. Məsələn, tutalım «Şirmayi rəng» Rəsul Rzanın xəyalında fil dişini canlandırır, fil haqqında anım çəkib Hindistanı, Afrikanı yada salır və bundan dolayı şair daim onu narahat edən müstəmləkə ölkələrinin taleyi məsələsinə toxunur. «Şirmayi» şeirində Afrikanın dərdindən, qaraların taleyindən, zindan barmaqlılarından, ilməkli kəndirdən, məftilli qırbancdan söz açılır. «Xurmayi» şeirində də yenə xurmalıqlarla assosiasiya, anım yaranaraq müstəmləkələr xatırlanır. «Qəhvəyi» rəng yalnız Balzak və Qogenlə deyil, həm də bu rəngi öz rəmzinə çevirmiş faşizmlə əlaqələndirilir. «Qəhvəyi» şeirində «yer üzündə cəhənnəmin şöbəsi» alman kontslagerləri, ölüm düşərgələri haqqında deyilib. Bəzən eyni bir şeirdə müəyyən rəngi Rəsul Rza həm konkret, görümlü bir şeylə, həm də mücərrəd (axırı bu sözü mən də işlətməli oldum) bir anlayışla bağlayır. Məsələn, «Boz» şeirini alaq. «Cansız barmaqlar arasında sönmüş siqaretin külü», «vağam güllər selofana bükülü», yaxud «soyuq tənhalığın saçlarda qalmış gümüşü» - sözlərini oxuyanda gözümüz önünə siqaret külü ya ağ saçlar gəlir. Elə həmin şeirdə «yetim bir qız uşağının dəyişiksiz dizliyi» sözləri isə bir qədər dolayı şəkildə konkret lövhə yaradır: ehtiyac içində yaşadığı üçün illərlə geyilib sürtülmüş, bozarmış dizlik - yetim qızın dizliyi. Bəlkə də ilk baxışdan asan qavranılmasa da, hər halda bu ifadə də diqqətlə yanaşıldıqda konkret, əyani mənzərəni canlandırır. Amma elə həmin o şeirdə BOZ rəng konkret görümlü səhnəylə, mənzərəylə deyil, doğrudan da ilk nəzərdə mücərrəd sayıla biləcək anlayışla əlaqələndirilir: VAXTIN RƏNGSİZLİYİ.

Məncə, bu çox tutumlu və mənalı obrazdır. Həqiqətən də elə zamanlar olur ki, həyatın heç bir rəngi qalmır, bozdan qeyri. Başqa bir şair «rəngi qaradan başqa» rəng qalmadığını etiraf edirsə, Rəsul Rza bozluğu ümumən vaxtın rəngsizliyi kimi görür.

«Rənglər»də bir çox ifadələr aysberqin su üzünə çıxıb görünən tərəfi kimidir, obrazın əsas kütləsi, tutumu isə görünməzdir. Görünməzdir, amma - düşünüb, duyub onu təsəvvür etmək gərəkdir. Məsələn «Qaranın dərd çaları» şeirinin görünməyən alt qatında nələrin gizləndiyini oxucu özü təyin edə bilər;

Həsrətli gözlər,
Pərişan saçlar,
Titrək dodaqlar,
Sürət yolunda dəstəbaşı çolaqlar,
Söz eşidə bilməyən qulaqlar,
Sındırdmış puçurlu budaqlar,
Yaşamalı ölülər,
Ölməli sağlar.
Dili ali məclislərdən qovulan,
qolları buxovlu olan
qəbilələr, xalqlar.

Şeiri assosiativ prinsiplə qurarkən yalnız adlıq cümlələrdən istifadə etmək üsulundan da ilk dəfə R.Rza istifadə etmişdir. Sonralar bu üsulla yeni nəslin şairləri bir sıra şeirlər yazmışlar. Məsələn, Fikrət Sadığın Qara Qarayevin Üçüncü simfoniyasına həsr etdiyi şeiri, Nüsrət Kəsəmənlinin «Durğu işarələri» silsiləsi bu üslubda yazılıb.

Təbii ki, Rəsul Rzanın assosiativ prinsipləri subyektivdir, özünəməxsus qanunauyğunluqlar üzərində qurulur, yalnız öz fikir, düşüncə axarına tabedir. Amma məgər şair öz içəri aləminə deyil, başqa birisinin fikir və düşüncə axınına tabe oimalıdır? Doğrudan da sual oluna bilər: Bənövşəyi rənglə boynuburuq yetimin nə əlaqəsi var? İzahı çox sadədir: Aşıq

Qurbaninin «Bənövşə» qoşmasında deyilir: «Ayrılıqmı çəkmiş boynu əyridir, heç yerdə görmədim düz bənövşəni».

Yaddaşında yaşayan bu misralara görə Rəsul Rza öz təsəvvüründə boynuburuq yetimi məhz bənövşəyi rəngdə görür.

Olsun ki, oxucu deyə bilər, nəyə görə mən başımı sındırıb bu şeirləri anlamağa çalışmalıyam?

Bunu etmə, əzizim, beynini yorub eləmə. Baş işlətmək lazım gəlməyən şeirlər ədəbiyyatnnızda kifayət qədərdir, onları oxuyub feyziyab ol.

Belə bir sual da doğa bilər: «Rənglər» bu qədər qəliz prinsiplərə əsaslanırsa, onları qavramaq üçün bu qədər müxtəlif bilgilərə malik olmalısansa, həm də şair çox vaxt yalnız onun özünə aid assosiasiyalar - anımlar yoluyla nəyisə xatırlayırsa, bu şeirləri anlaya bilməyən oxucunun nə təqsiri var? Heç bir təqsiri yoxdur. Bu silsiləni başa düşməyən ya başa düşmək istəməyən tənqidçilərin də bir təqsiri olmazdı, o halda ki, dərk edə bilmədiklərini ən ağır ittihamlarla, həm də o vaxtlar üçün daha təhlükəli olan siyasi-ideoloji ittihamlarla damğalamasaydılar.

«Rənglər»i qəbul etmək də olar, qəbul etməmək də, amma bu səpgili şeirləri qapıdan qaytarmaq, qadağan etmək, çap olunmasına yasaq qoymaq və müəllifi döymək, qovmaq, cəzalandırmaq kimi o dövrün çağırışları dözülməzdir. Dözüm demişkən, bir az dözümlü, səbrli olmaq gərəkdir, tanış və vərdişli olmadığın hər ədəbi yeniliyi tənə daşına tutmağa tələsmək lazım deyil, alışmadığımız sənət əsərinin dəyərləndirilməsini zamanın ixtiyarına buraxmaq gərəkdir.

«Rənglər»in nəşrindən, tənqidindən, müxtəlif dillərə tərcümə edilib təqdir olunmasından və Rəsul Rzanın vəfatından neçə il sonra yeni nəslin nümayəndəsi Rəfael Hüseynov bu silsiləni belə qiymətləndirir:

«Bu gün «Rənglər»i bir də oxuyuram və o silsilənin hər misrasında misralara, sözlərə sığmayan yeni-yeni hikmətlərlə üzləşirəm. Axarına sığmayan, sahillərini uzaq-uzaq aşıb keçən

bu hikmətlər məni də düşüncələrimin adiliyindən, hisslərimin birovuzluğundan qoparıb çıxarır, mehriban əlləriylə əllərimdən tutub irəliyə aparır. O irəlidən daha irəli olan mənzilləri də tuş verir. «Rənglər»dən beynimə düşən işıq məni həyat haqqında düşüncələrə yönəltdi, qol-qol açılan sonsuz, sərhədsiz yolllara, cığırlara, dolaylara səslədi. Və məncə elə böyük şeirin, yüksək sənətin əsil sirri, təməl mayası da bundadı: səni öz divarlarının arasında dayanmağa vadar etmir, səni cəbr kəməndiylə tutub saxlamağı rəva bilmir. «Çiynimə qalx» deyir, «Bax, bir az da uzaqlarda nə görərsən». O sənə irişilməz üfüqləri göstərir, bələdçin, qanadverənin olur, beynini yeni güclə, ürəyini təzə sevgilərlə doldurur.

Rəsul Rza rəngləri və dünyanı «Rənglər»dəki kimi görüb və deməyib ki, sən də belə gör. Amma hər halda bir istəyini deyib. Onu deyib, daha dəqiqi, elə diriliyində onu vəsiyyət eləyib ki, əntiq təşbehlərin məstedici xoşagəliminə uymayın, asari-ətiqəyə dönmüş köhnəçi baxışların əsnəyinə tutulmayın, ömrünüzdə ən azı bir yol beyninizdəki hansısa buxovdan, düşüncənizdə paslı lövbər salmış qart məlumların kirli zəncirini qırıb aləmə, insana və aləmlə insana aid hər şeyə iri-iri açılmış gözlərinizlə özünüz baxın. Onda görəcəksiniz ki... Yox, onda, bizim, sənin, mənim nə görəcəyimizi Rəsul Rza demirdi. Çünki o gördüklərinizi yalnız özümüz görəcəyik. Müdrik şair də vur-tut bunu istəyirdi».

Bu sözlər Rəfaelin «Rənglər»in baş tutmayan nəşrinə yazdığı ön sözdəndir. «Rənglər» naşirləri hələ də xoflandırırdı. Halbuki, doğrudan da, «Rənglər»in çıxmasından və hücumlara məruz qalmasından neçə il sonra onlar artıq çətin anlaşılan tapmaca, hoqqabazlıq, oyunbazlıq kimi, nə bilim, dumanlı, mücərrəd görünmür.

Rəsul Rzanın tapdığı, açdığı bu ədəbi forma da - assosiativ düşüncələr, obrazlar sistemi, təzadlarla, paradokslarla aşılanmış sətirlər indi tamamilə təbii bir şeir biçimi kimi vərdişli olub, daha heç kəsi çaşdırmır. Yeni nəsil şairlərinin bir çoxu bu biçimdən gen-bol istifadə edirlər. Milli poeziyamızın yeni

mərhələləri bu sayaq şeiri bizə məhrəmləşdirdi, aydınlaşdırdı. Təəssüf ki, haçansa belə çətinliklə açılmış yolla indi asanlıqla addımlayanların bir parası bunu unudur, ya başa düşmür, ya da qəsdən özlərini bilməməzliyə vururlar.

Abbas Zamanov demişkən: «Vay zamanı qabaqlayan şairin gününə». Rəsul Rza öz çağında da ədəbi mühitdə «Vaxt qürbətinə düşmüş» adam kimi yaşayıb-yaradırdı, indiki zəmanəmizdə də hardasa qərib kimi görünür...

Bəlkə, elə bizim bu günlərin fikir, düşüncə, söz sərbəstliyi arzulayaraq Rəsul Rza özünün və çağdaşlarının yaşadığı zaman haqqında «Rənglər»də deyir:

«Xatirlərdə qalmış
tapşırıqlı yolumuz»

Mən «Rənglər»dəki başqa misraların, obrazların, təşbehlərin də gizli, örtülü mənalarını açа bilərdim. Bunu etməməyimin bir səbəbi odur ki, onda gərək silsilənin həcmindən iki-üç dəfə artıq şərhlər yazam. İkincisi də, «Rənglər»dəki bəzi assosiasiyalar (onların sayı çox deyil) mənə də tam aydın deyil. Ayn-ayrı anımların, obrazların müxtəlif yozumları da ola bilər, amma mənim burda «Rənglər»in oxucusuna çatdırmaq istəydiyim əsas fikir silsilənin hansı poetik prinsiplər əsasında qurulması fikridir.

Hər obrazın necə qavranılması isə oxucunun zövqündən, özünün anılar-düşüncələr aləmindən, assosiasiyalarından, tədayi-əfkar sistemindən, bir sözlə, subyektiv amillərdən asılıdır. Şairin subyektiv olmaq haqqı varsa, oxucunun da subyektiv olmaq hüququ var. Söhbət yalnız ondan gedir ki, şairin fikrinə, qarşısına qoyduğu bədii niyyətə kəmetinalıq edərək onu bəri başdan səhv, yanlış yolla getməkdə suçlamaq olmaz.

Bəzi əhli-qələmlərin yaylım atəşinə tutduqlan «Rənglər»in partiya orqanları tərəfindən də eyni şiddətlə tənqid olunmamasının, yumşaq tənbehlə kifayətlənmələrinin səbəbi «Rənglər»in tez bir zamanda Moskvada rus dilində nəşr edilməsi, başqa dillərə çevrilməsi və böyük rəğbətlə qarşılanması idi. Hətta bir neçə ildən sonra Komnıunist

Partiyasının əsas orqanı «Pravda» qəzetində tənqidçi Yuri Lukinin Rəsul Rzaya həsr olunmuş «Həyatın rəngləri» adlı məqaləsi çıxdı. Məqalədə deyilirdi:

«Azərbaycan sənətkarının ən maraqlı əsərlərindən biri «Rənglər» silsiləsidir. Bu silsilədə şair-novatorun dərin fəlsəfi düşüncələri, şeir forması sahəsində axtarışları əks olunmuşdur. Rəsul Rza poeziyasının nəbzi - müasirlik nəbzidir. Bu poeziyanın Rəngləri - bizim həyatınıızın Rənglərıdir». («Pravda» qəzeti, 26 dekabr, 1977-ci il)

Mötəbər partiya qəzetinin səhifələrində deyilmiş bu fikir Rəsul Rzanı və onun «Rənglər»ini bir müddət heç olmasa siyasi-ideoloji ittihamlardan qorumalı idi.

***

Moskvada «Nedelya» həftəliyində dərc olunandan sonra «Rənglər» başqa dillərə də tərcümə edildi, bir neçə ölkədə çıxdı, həqiqi sənət sərrafları tərəfindən yüksək dəyərləndirildi və heç yerdə ilk nəşr zamanı Azərbaycanda olduğu kimi cahil hücumlara məruz qalmadı. Yenə rəhmətlik Abbas Zamanovun - qəbri nurla dolsun - sözlərini xatırlayıram:

«Necə olur ki, bu şeirləri müxtəlif ölkələrdə anlayırlar, amma özümüz anlamırıq?»

Məşhur rus şairi İlya Selvinski yazır:

«Rəsul Rza qələmində zəngin harmoniyası açılan Rənglər ilkin folklor anlamına uyğun şəkildə yəni «ağ - təmizlik», «qara - matəm», «qırmızı» - qəzəb» və s. kimi elementar səciyyələr daşımır. Bu və başqa rəngə müəllifin fərdi yanaşa bilməsi sayəsində hər bir şeir digərindən qəti şəkildə fərqlənir və tamamilə sərbəst tonda səslənir. Bu şeirləri rəsmdən fəlsəfəyə doğru hərəkət birləşdirir. Bu rəng əlvanlığı boyaları hərflərdə görən Artur Rembonun zənginliyini kölgədə qoyur».

Yadıma yarıməzəli bir əhvalat düşür.

İ.Selvinskinin Rəsul Rzaya həsr etdiyi iki məqaləsi - «Büllur ürək» və «Rəsul Rzanın lirikası» məqalələri atamın

sağlığında Moskvada nəşr olunmuşdu, azərbaycanca çıxmamışdı. Rəsul Rzanın vəfatından sonra bu məqalələri dilimizə çevirib Azərbaycanda çap etmək istəyəndə bir redaktor Selvinskinin bir cümləsini ixlisar etmişdi. Rəsul Rzanı boyalarının əlvanlığına görə XIX əsrin məşhur fransız şairi Artur Rembodan üstün qoyduğu cümləni - niyə? - deyə soruşanda, - yaxşı deyil, - dedi, - hər halda Rembo...

Məncə Rembonun adını ilk dəfə eşidirdi (əgər onu məşhur kinoboeviklər qəhrəmanıyla çaşdırmırdısa), amma hər halda fransız şairinin təəssübünü çəkirdi. Məni gülmək tutdu; rus şairi Azərbaycan şairini hansı cəhətdənsə fransız şairindən üstün tutur, azərbaycanlı redaktor isə buna qulp qoyur... Nə deyəsən.

Maraqlıdır ki, əcnəbi oxucular «Rənglər»in məhz milli Azərbaycan duyumunu hiss edir və bunu xüsusi vurğulayırdılar. Macar şairəsi Juja Rab yazırdı:

«Coğrafi mənada məndən çox uzaq olan şairə məni cəlb edən «Rənglər» adlı şeirlər silsiləsi oldu. Bu şeir dəmətinin mahiyyəti beləydi - şairin incə, cilalanmış diliylə ifadə olunmuş rəngli assosiasiyalar tufanı. İlk dəfə Bakıya 1975-ci ildə orada təşkil olunmuş ədəbiyyat həftəsinin qonağı kimi gəldim. Orada qulaqlarımda yenidən «Rənglər»in misraları səsləndi, onlar mənim təcrübəmi genişləndirdilər, hər şeyi daha dolğun dərk etməyə yardım göstərdilər. Bu ana qədər inanırdım ki, həmin şeirlər yalnız «xəyali görüm» poeziyasıdır. Orada isə anladım ki, şeirlər tam realistikdirlər. Sanki Azərbaycan torpağının adi günlərindən alınmış kadrlardır. Məsələn, «Mavinin təsəlli çaları»nda «qızmar səhrada qaratikan kolunun naxışlı kölgələri», yaxud «Sumağı»da «nənəmin gəlinlik şalı», «kabab qoxusu» və ya da «Xurmayı»da «səhrada dəvə karvanı», «babamın zər naxışlı quranı» sətirləri Azərbaycan torpağının adi, gündəlik gerçəkliyindən alınan dəqiq kadrlardır».

«Rənglər» bütünlüklə ya ayrı-ayrı örnəklərlə Türkiyə türkcəsində, eston, latış, polyak, çex, macar, ingilis və başqa dillərdə (Çexoslavakiya, Macarıstan və Estoniyada kitab şəklində) nəşr olundu. Tədqiqatçı Vaqif Arzumanlının verdiyi

məlumata görə Stokholmda İsveç Elmlər Akademiyası tərəfindən nəşr olunan «Artes» («Mədəniyyət») jurnalında Uldis Berzinş və Yuris Kron sberqin tərcüməsində «Rənglər» silsiləsi çap edilmişdir. Tanınmış İsveç şairi Yuris Kronberqs şeirləri təqdim edərək yazır:

«Rəsul Rza poeziyası sovet ölkəsindən çox-çox uzaqlarda səslənir. Başqa dillərə onun əsərlərinin edilmiş tərcümələri içərisində ingilis, fransız və çex dilinə tərcümələr xüsusilə uğurludur. Şairin «Rənglər» silsiləsi bütünlüklə 60-cı illər sovet şeirinin ən layiqli nümunələrindəndir».

Rus ədəbiyyatşünası N.Fedorenko Rəsul Rzanın «Rənglər»ini Yaponiyada xatırlayır, onları Orta əsrlərin klassik yapon rəssamı Utimaronun əsərləriylə müqayisə edir.

Dahi rus bəstəkarı Dmitri Şostakoviç, görkəmli Litva şairi Eduardas Mejelaytis, «Rənglər»i çex dilinə çevirən məşhur şair İrji Taufer də bu silsiləni və ümumiyyətlə, Rəsul Rza yaradıcılığını yüksək qiymətləndirirdilər.

Çex şairəsi Daniçka Kozlova yazır:

«Çex oxucuları Rəsul Rzanı ilk növbədə bildir bizdə nəşr olunmuş «Rənglər» silsiləsinin müəllifi kimi tanıyırlar. Sovet İttifaqında bir neçə il bundan qabaq dərc olunmuş bu şeirləii bəziləri «formalistik», başqaları «impressionistik», üçüncüləri isə «mücərrədi» adlandırdılar. Lakin bu silsilənin bir sıra ədəbi tənqidçilər və yazıçılar müdafiə etdilər ki, onların arasında Nazim Hikmət və Eduardas Mejelaytis də vardı».

Kanadadan yazıçı və naşir Dizon Karterdən gələn məktubda deyilir:

«Kanadada poeziyanı az oxuyurlar və şeir kitablarını çox nadir hallarda təkrar nəşr edirlər. Ancaq Rəsul Rzanın şeirləri özünün yüksək humanizmi ilə o dərəcədə fərqlənir ki, Kanadada və Amerika Birləşmiş Ştatlarında minlərlə oxucu onları cəmi bir neçə ay ərzində alıb oxudu. Bu şeirləri ikinci dəfə, indi isə üçüncü dəfə nəşr etməli olduq».

İnsaf naminə deməliyəm ki, «Rənglər»in özəlliyini Azərbaycanda elə o illərdə də dərindən anlayanlar yox deyildi.

Tənqidimizin ağsaqqalı, akademik Məmməd Arif «Rənglər»in bəziləri tərəfindən dərk edilməyən xüsusiyyətlərini çox böyük təmkinlə izah edirdi: «Diqqətli oxucu bu şeirlərin yalnız ifadə tərzində deyil, məzmun və mənasında bir təzəlik olduğunu hiss etməyə bilməz. «Rənglər» oxucuda tədayi-əfkar, assotsiatsiya vasitəsilə xarakterlər, duyğular oyatmaq, onu düşündürmək yolu ilə həyatı və insanları yaxşı öyrənib, dərindən dərk etmək məqsədilə yazılmışdır. Oxşarlığın gözlənilməzliyi, təbiəti, ictimai hadisələri, sənət aləmini əhatə edən müqayisələrin həyati dolğunluğu oxucunu xəyala daldırır, düşündürür, onda yeni intibalar oyadır, şairin kəşfləri onu sevindirir!..»

Bütün bunlara baxmayaraq «Rənglər»in əleyhdarları da əl çəkmirdilər. İki il sonra 1965-ci il fevralın 20-də «Ədəbiyyat və incəsənət» qəzetində «Şeirimizlə əlaqədar bəzi mülahizələrim» adlı məqaləsində bir Xalq şairi Rəsul Rzaya irad tuturdu ki, o, bütün tənqidi qeydlərə baxmayaraq, «Rənglər» silsiləsini yeni «Duyğular, düşüncələr» kitabında da çap etdirmişdir. Demə, Rəsul Rzanın öz kitabını özü istədiyi şəkildə tərtib etmək hüququ da yox imiş. Məqalə müəllifi yazır:

«Kitabın («Duyğular, düşüncələr» kitabının - A.) müqəddiməsində, mətbuatdakı etirazlara daban-dabana zidd olaraq, belə yazılmışdır: «Rənglər» adlı fəlsəfi şeirlər silsiləsində şair rənglər vasitəsilə insan şüurunda yaranan dəyişikliklərdən, mübarizə motivlərindən, insanpərvərlikdən bəhs edir. Bu şeirlərdə ilk baxışda adi görünən hadisələr fəlsəfi ümumiləşdirilmiş, onlarda bu günün səsi, əsrin nəbzi duyulur». Kitabın redaktoru Faiq Məmmədov yoldaşdan soruşmaq lazımdır ki, haçandan mücərrədçilik, dumanlılıq bu günün səsinə, əsrin nəbzinin duyulmasına çevrilmişdir? «Rənglərə belə qiymət vermək - siyasi mütilik deyil, bəs nədir? Nə üçün Rəsul Rza «Rənglər» haqqında həqiqətə zidd olan fikrin kitabında getməsinə yol vermişdir? (Yəqin Rəsul Rza öz kitabına «Rənglər» haqqında yazılan hədyanları salmalıymış - A.) Axı, məhz belə yanlış qiymətlər gəncləri çaşdıra bilər. *Belə qiymətin nəticəsidir ki,*

Rəsul Rza yeni «Rənglər» silsiləsini yazmışdır. (kursiv mənimdir - A.)

Göründüyü kimi, məqalə müəllifi Rəsul Rzanın qarşısına kitabını necə tərtib etmək, şeirləri haqqında rəyi çap etdirib etdirməmək tələblərini qoymaqdan başqa ona, ümumiyyətlə rənglərdən yazmağı da qadağan edir.

Məqalə müəllifini əsəbiləşdirən başqa bir məsələ bəzi yazılarda Rəsul Rzanın gənc şairlərə göstərdiyi qayğıdan, onların yaradıcılığına təsirindən danışılması, «Rəsul Rza ədəbi məktəbindən» söz açılmasıdır: «İsgəndər Axundov yoldaş «Молодеж Азербайджана» qəzetində çap etdirdiyi məqaləsində «Rəsul ədəbi məktəbi» deyə yazır. Məqalə müəllifi bilməlidir ki, Azərbaycan ədəbiyyatında ayrı-ayrı şair və yazıçıların ədəbi məktəbi yoxdur. Bizim bir yolumuz, bir ədəbi məktəbimiz var, o da sosialist realizmi yoludur».

Bəlkə, bu xalq şairinin yolu həqiqətən də sosialist realizmi yoluydu, amma Rəsul Rza haqqında heç vəchlə belə demək olmaz. Bu yazımda gətirdiyim şeir örnəkləri, faktlar, mətnlər buna sübut deyilmi?.. Qeyd edim ki, tək bu xalq şairi deyil, başqaları da «Rəsul Rza məktəbi» istilahını narazılıqla, qısqanclıqla qarşılayır və buna etiraz edirdilər.

O vaxtkı sovet mentalitetinə görə hansı bir sənətkarınsa öz məktəbi olması orden, ya fəxri ad almaq kimi bir şeydi, «Niyə filankəsin ədəbi məktəbi (ordeni, fəxri adı - fərqi yoxdur) olsun, mənimki yox? Tənqidçilərimizin də çoxusu qorxudan o vaxtdan bəri bu istilahı - «Rəsul Rza məktəbi» istilahını işlətmir. Əlbəttə, məsələ istilahda ya «ədəbi məktəbin» təsdiq olunub olunmamasında deyil. Atam həmişə deyərdi ki, mən yalnız özləri mənim məktəbimə aid olduqlarını etiraf edənləri bu məktəbə mənsub hesab edə bilərəm.

Əgər bu etirafı edənlər varsa. Bunu deməkdən çəkinmirlərsə. («Özgələri nə deyər»). Yoxdursa? Nə qəm... Mətnlər, şeirlər ki, durur, Rəsul Rzanın və başqalarının şeirləri. İndinin ya gələcəyin oxucuları bu mətnlər əsasında özləri nəticə çıxara və hər şeyi yerbəyer edə bilərlər.

***

Hələ otuzuncu illərdə Rəsul Rzanın Moskvada rus dilində şeirləri qəzet və jurnallarda, sonralar onlarla kitab şəklində nəşr ediləndən bəri o vaxtkı təbirlə desək, ümumittifaq oxucusunun da diqqətini çəkmişdi. Şeirlərini rus dilinə Rusiyanın ən məşhur şairləri tərcümə etmişlər. Şairin Moskvada çıxan kitablarından birinə öz söz yazmış Boris Slutski bu barədə belə deyir:

«Rəsulun tərcüməçiləri arasında Anna Axmatova və İlya Selvinski, Vladimir Luqovskoy və David Samoylov, Pavel Antokolski və Yaroslav Smeylakov, Adelina Adalis və Muza Pavlova, Yevgeni Vinokurov və Boris Kornilov, Yunna Morits, Marqarita Aliker və çoxlu gənc şairlər var - tərcümə ilə məşğul olan şairlərinin az qala yarısı».

Bu sıraya Arseni Tarkovskini, Konstantin Simonovu, Nikolay Qlazkovu, kitablarını Nikolay Arjak gizli təxəllüsüylə xaricdə nəşr etdirmiş və bu «suçdan» həbs olunmuş məşhur dissident Yuli Danieli və Boris Slutskinin özünü də daxil etmək olar. Bu siyahıya Rəsul Rzanın şeirlərini öz dillərinə çevirmiş başqa sovet respublikalarının şairlərini də əlavə etmək olar: Ukraynadan Mikoia Bajan, Leonid Pervomayski, İvan Draç və Boris Oleynik, Litvadan Eduardas Mejelaytis, Gürcüstandan Qriqol Abaşidze, Başqırdıstandan Mustay Kərim, Özbəkistandan Maqsud Şeyxzadə, Moldovadan Yemelian Bukov, Qırğızıstandan Suyunbay Eraliyev, Türkmənistandan Ata Atacanov, Tacikistandan Loik Şeirali, Litvadan Uildis Berzinş, Estoniyadan Liy Seppel və neçə-neçə başqaları.

Eston şairi Aleksandr Summan yazır: «Bizim şairəmiz Liy Seppel həqiqi mənada böyük şair olan Rəsul Rzanın ecazkar şeirlərini eston dilinə çox gözəl çevirmişdir. Estoniya SSR-in Dövlət miikafatına layiq görülən həmin tərcümələr bizim respublikamızın oxucularına Rəsul Rza yaradıcılığının dərinlikləri ilə tanış olmaq və bu vasitə ilə şairin vətənini, xalqını tanımaq imkanı vermişdir».

***

Rəsul Rzanın şeirləri, məqalələri, müsahibələri "Правда», «Известия», «Литературная газета», «Комсомолская правда» və başqa Moskva qəzetlərində, «Новый мир (A.Tvardovskinin redaktorluq etdiyi dövrdə), «Огонек», «Дружба народов», «Юность», «Вопросы литературы» kimi mötəbər jurnallarda çap olunurdu.

Rəsul Rza haqqında çağdaş rus ədəbiyyatmm bir çox görkəmli nümayəndələri məqalələr yazmışlar: Nikolay Tixonov, İlya Selvinski, Pavel Antokolski, Arseni Tarkovski və başqaları. Nikolay Tixonov yazırdı:

«Rəsul Rza öz fikirlərini, dərin, səmimi hisslərini kamil şəkildə ifadə etmək üçün daim axtarışda olan bir şairdir. Onun ilhamının əhatə etdiyi geniş aləm iztirab və əziyyətlərlə, insanın ən ali və nəcib sifətləriylə - məhəbbətlə, mərdliklə doludur».

İlya Selvinskinin «Büllur ürək» məqaləsindən bir parça:

Aydındır şeirin dili,
İstəyirsən sevincdən,
İstəyirsən qəmdən yaz.
Elə aydındır bu dil,
Nadan yüz yol oxusun,
Yenə bir şey anlamaz.

Necə ağıllı və incədir. Azərbaycan şairinin Şərq müdrikliyini özündə toplamış siması bu şeirin prizmasından necə də aydın hiss olunur. Belə şeirin altından Nizami, yaxud Sədi imza qoya bilərdi. Bundan əlavə, hər hansı ölkənin hər bir müasir şairi lirikasında belə bir mirvariyə malik olmaq şərəfindən imtina etməzdi».

Pavel Antokolski yazır:

«Yaxşı yadımdadır, 1958-ci ilin sonunda Azərbaycan Yazıçılar İttifaqının Bakıda Füzuliyə həsr olunmuş Plenumu zamanı xaricdən yenicə qayıtmış Rəsul Rza cəmisi bir neçə

saat ərzində yenidən Moskvaya uçmağa, Füzulinin Moskvadakı təntənələrində məruzə etməyə və lazım olan vaxt geri qayıtmağa macal tapdı. Bu nədir - operativlik? Əlbəttə, təkcə operativlik deyil. Rəsul Rzaya belə vacib tapşırıq verən yoldaşlar əla bilirdilər ki, Azərbaycan mədəniyyətinin layiqli nümayəndəsi kimi, məhz o, həmin tapşırığı qeydsiz-şərtsiz və parlaq şəkildə yerinə yetirə bilər».

Arseni Tarkovski «Литературная газета»da çap olunmuş açıq məktubunda yazır:

«Poeziyanın mahiyyətini - vergi, zövq, həqiqi bədiilik prinsiplərini əhatə etmək dərəcəsində Rəsul Rza filosof şairdir. O, yalnız doğma dilində yeni bədii forma yaratdığına görə deyil, həm də yalmz özünəməxsus şəkildə düşündüyü və duyduğuna görə, dünyanı və hadisələri dərk etdiyinə görə novatordur. Rəsul Rza təkcə adına görə yox, mahiyyətinə görə də xalq şairidir».

Rəsul Rzanın rus şairləri və yazıçılarının, başqa sovet xalqlarının ədəbiyyat və sənət adamlarının bir çoxuyla səmimi dostluq münasibətləri vardı. Arxivində Moskvadan, müxtəlif respublikalardan gəlmiş yüzlərlə teleqram, məktub qalıb.

Bəstəkar Dmitri Şostakoviçin iki məktubu, Konstantin Fedinin, Muxtar Auzovun, Maksim Rılskinin, Georgi Leonidzenin, Samuil Marşakın, Aleksandr Tvardovskinin, Pavel Antokolskinin, Mikola Bajanın, Maksim Tankın, Petrus Brovkanın, Tomas Venslovanın, İrakli Abaşidzenin, Qriqol Abaşidzenin, Aleksey Surkovun, Stepan Şipaçovun, Sergey Mixalkovun, Nikolay Qribaçovun, Konstantin Simonovun, Rəsul Həmzətovun, Berdı Kerbabayevin, Eduardas Mejelaytisin, Çingiz Aytmatovun, Mustay Kərimin, Qaysın Quliyevin, David Kuqultinovun, Mirşəkərin, Yemelian Bukovun, Boris Polevoyun, Sergey Borodinin, Oljas Süleymenovun, Ermənistan Elmlər Akademiyasının Prezidenti Hambarsumyanın, bir çox başqalarının teleqram və məktubları şairin 50, 60, 70 illik yubileyləri, təltifləri, müxtəlif bayramlar münasibətilə göndərilib. Bir qismi (əsasən tərcüməçilərdən, naşirlərdən və

redaksiyalardan) işgüzar xarakterdədir, bir qismi də heç bir konkret hadisəylə əlaqədar olmayaraq Rəsul Rzanın kitablarından, şeirlərindən alınan təəssüratlarla bağlıdır.

Bəzi məktublardan sətirlər:

«Əziz Rəsul İbrahimoviç!

Sizin yaradıcılığınızı mən çox sevirəm və «Davamlı əks-səda» kitabını heyranlıq hissi ilə oxuyuram. Sizə ən yaxşı arzularımı göndərirəm.

Dmitri Şostakoviç.
Jukovka. 29.11.1971»

«Əziz Rəsul!

Türkiyəyə səfərim zamanı Sizin bir şeirinizi çevirdim. Başqalarını da çevirmək istədim - alınmadı. Bu sərbəst tərcümə isə, məncə alınıb. İmkan düşən kimi bu tərcüməni çap elətdirəcəm, ancaq ona qədər bilmək istərdim - bəlkə, tərcüməyə aid qeydləriniz var.

Ailənizə səmimi salamlar.

Sizin Konstantin Simonov.
20.IX.1976»

Əziz Rəsul Rza - mənim gözəl dostum! Çoxdan, lap çoxdan Sizi görmürəm, çoxdandır məktublarınızı almıram. Amma heç vaxt Sizi unutmuram və unutmayacam. Qəzet və jurnallarda Sizin şeirlərinizi oxumaq çox xoş idi mənimçün. Sizin bütün şeirlərinizdə canlı insan səsinizi eşidirəm. Kitabınız mənim masamın üstündə hörmətlə qoyulub. Böyük maraqla oxuyuram, bəzi silsilələri isə (məsələn, «Rənglər»i) böyük ləzzətlə yenidən mütaliə edirəm. Mənə tanış olan və mənə tanış olmayan şeirlərinizi oxuyuram. Sizin poetik və insani simanız gözlərimdə bir az da böyüyür. Əziz dost, şeirlər kitabınızla mənə verdiyiniz estetik zövq üçün, ürək sevinci üçün, həqiqi səadət üçün çox sağ olun. Kitabınız məni hətta ilhama gətirir və işləməyə sövq edir: ətrafında dostlarının necə işlədiyini görəndə özün də daha çox və daha yaxşı işləmək istəyirsən...

Möhtəşəm vüsətinizə, poetik istedadınıza, insanlığımıza görə, insanlığa bəxş etdiyiniz hər şeyə görə çox sağ olun! Siz həmişə mənim duyğularımda, qəlbimdəsiniz. Mən həmişə Sizinləyəm.

Hörmətlə və məhəbbətlə
Eduardas Mejelaytis»

«Əziz Rəsul!

Nigarı, səni və Anarı Qələbə günü münasibətilə təbrik edirəm. Düşünmək istəyirəm ki, əgər doğrudan da ədəbiyyatın müharibədə bir xidməti olubsa, bu bayramda sənինlə mənim də payım var. Təəssüflənirəm ki, Azərbaycan dilini bilmirəm, amma rus dilinə tərcümələrdə də şeirlərin əladır. Xüsusiylə «Rənglər»i oxuyuram və səndə bir şair kimi yeni-yeni cəhətlər kəşf edirəm. Səni qardaşcasına qucaqlayıram. Nigara və Anara səmimi salamlar.

İlya Selvinski»

«Əziz Rəsul müəllim!

Yubileyiniz mənim sizə hörmətimi və məhəbbətimi ifadə etmək üçün daha bir vasitədir. Sizin gözəl yardıcılığınız uzun illərdir ki, milyonlarla oxucu qəlbini sevindirib və sevindirir. Sizə əbədi ilham, möhkəm cansağlığı, işıqlı sevinclər arzulayıram. Sizi bağrıma basıram.

Rəsul Həmzətov»

«Əziz bacımız Nigarı, əziz dostumuz Rəsulu, Sizin gözəl əsərlərinizi - balalarınızı Oktyabr bayramı münasibətilə təbrik edirik.

Arzu edirik ki, hamımızı sevindirərək Nigar tezliklə sağalsın. Kədər və xəstəliklər Sizin evinizin yolunu daha heç vaxt tanımasınlar. Qoy sizin evinizdə sevinc, dostluq və səadət hökm sürsün, qəm-qüssə isə yalnız şeirlərinizdə, o da lap azacıq olsun.

Zarema, Patimat,
Rəsul Hamzatovlar»

«Əziz Rəsul müəllim!

Zəmanəmizdə ən çox hörmət bəslədiyim şairlərdən biri də sizsiniz. İlhamlı təfəkkürünüz, obrazlarınız üçün sizə təşəkkür edirəm.

Çingiz Aytmatov»

«Əziz Rəsul!

Sizi çoxdan tanıyır və poeziyanızı sevirəm. Bizim ümumi dostumuz olan Nazim Hikmət hələ çoxdan mənə Sizin barənizdə və Sizin bənzərsiz qələminiz haqqında məhəbbət və ümidlə danışardı. Şeirlərinizi, boynuma alıram ki, yalnız jurnal nəşrlərindən tanıyardım. Onlar xoşuma gəlirdi - həmişə təzətər, cavan, özünəməxsus, yalnız Sizə aid olan obrazlı quruluşa malik şeirlər idi bunlar.

İndi kitabınızı oxuyarkən, üç gün ərzində bütünlüklə Sizi bir şair kimi dərk etdim. Bir şair filosof kimi. Böyük poeziya adama yüksək zövq verir. Əla şeirlərdir - ahəngdar, səmimi və onların ən yaxşıları öz lakonik fəlsəfəsiylə sizi Şərqin ən böyük şairlərinə yaxınlaşdırır.

Sizin Boris Polevoy
17 yanvar, 1976»

«Əziz Rəsul!

Keçən həftə mən Hələbdə Nəsiminin qəbri üstünə getmişdim və orda bu gözəl şairin məzarına sizin qoyduğunuz əklili gördüm. Nəsimi nəslindən olan şeyx həm əklili, həm də sizin ora gəlişiniz haqqında söhbətləri ən əziz bir xatirə kimi hifz eləyir. Bunu sizə böyük fərəh hissiylə çatdırıram. Çünki sələflər haqqında xoş xatirə - xələflər haqqında xatirələri də möhkəmləndirir. Teymurləngin Azərbaycana hücumu haqqında romanımın bir neçə səhifəsini həsr etdiyim şairin türbəsi önündə Sizin adınızla, bax beləcə rastlaşdım. Ən xoş arzularımla

Sergey Borodin Bağdad,
16 iyun, 1972»

«Əziz Rəsul!

Səməd Vurğundan sonra mənim ən yaxın azərbaycanlı dostum sənsən. Bizdə Azərbaycan mədəniyyəti dekadasının parlaq keçən günlərində mən sənin şeirlərini tərcümə və çap etdim, radioda sənin yaradıcılığın haqqında danışdım. Bu yaxınlarda Polşaya getmişdim. Orada Vrotslavda səni və sənin şeirlərini tanıyan adamlarla rastlaşdım. Xahiş edirəm mənə rus dilində və orijinalda kitablarını göndər. Moldav dilinə tərcümə etmək istəyirəm. Sənin poetik dəst-xəttin mənimkinə çox yaxındır. Əllərini sıxıram. Öpürəm.

Yemelian Bukov»

«Əziz Rəsul ağa!

Bu xoş səbəbdən istifadə edərək Sizə bir daha sağlamlıq, yeni gözəl kitablar, ailənizə xoşbəxtlik, doğma Azərbaycana çiçəklənmə arzulayıram.

Sizin

Oljas Süleymenov»

«Vaxtilə Oljasın «Комсомолская правда» qəzetində İssık göldəki türk yazıları haqqında məqaləsi atamı çox maraqlandırmışdı və ona məktub yazmışdı.

Oljas «AZ i YA» kitabı çıxanda onu atama göndərmiş və avtoqraf olaraq bu sözləri yazmışdı:

«Hörmətli Rəsul ağa! Mənim məqalələrimdən biri haqqında (İssık göl yazıları haqqında) mənə göndərdiyiniz məktubunuzu minnətdarlıq hissiylə xatırlayıram. Qoy bu kitab Sizin xeyir-duanıza cavab olsun.

Sizin Oljas 20 iyul, 75»

Elə o vaxt Oljasın bu kitabına qarşı kompaniya başlamışdı və atanı «AZ i YA»nın müəllifinə yeni bir məktub yazdı:

«Hörmətli Oljas! Hədiyyənizə görə sağ olun. («AZ i YA» kitabı nəzərdə tutulur - A.) Kitabınızı vərəqlədim. Ötəri də olsa, ilk təəssüratım belədir ki, bu ciddi elmi əsər ölkəmizin xalqları arasında qarşılıqlı münasibətlərlə bağlı çox mürəkkəb

tarixi dövrün araşdırılmasında yeni səhifələr açır. Vaxt tapıb mütləq kitabınızla daha ətraflı və daha diqqətlə tanış olacam.

Qardaşlıq salamıyla

Rəsul Rza»

İndi Oljas Süleymenov Müstəqil Qazaxıstanın İtaliyada səfiridir. 2000-ci ildə Rəsul Rzanın 90 illiyi münasibətilə atam haqqında məqalə yazıb Romadan mənə göndərmişdi. Bakıda nəşr etdik.

Məqalədə deyilir: «Deyə bilmərəm ki, Rəsul Rza ilə tez-tez görüşürdük. O, müəllimlər nəslinə mənsub idi. Hərçənd gənc ədəbiyyatçılar heç də yaşca böyük olan hər şairi bu hörmətli silkə daxil etmirlər, buna yalnız əsl sənətkarları layiq bilirlər. Rəsul Rza ən hörmətli və sevilən ağsaqqallar sırasında idi. O, ənənələri dərindən bilməklə yanaşı, onları novatorluq ruhu ilə birləşdirə bilən nadir adamlardan biri idi, novatorluğu dərin ənənəvi biliklərlə uyğunlaşdıranlardan biri idi. O başa düşürdü ki, yeni reallıq ifadə vasitələrinin yeniləşməsini tələb edir. 20-ci illərin futuristlərinin təkid etdikləri kimi, bədii dilin əsaslı dəyişdirilməsini deyil (Rəsul Rza bu cərəyanı da qiymətləndirirdi), məhz yeniləşməsini, tarixi varisliyin qorunması ilə yanaşı, palitranın zənginləşməsini vacib sayırdı. Milli və dünya poeziyasında çox düzgün orientirlər seçmişdi: Sabir, Mayakovski, Uitmen. Danışıq intonasiyası poetik nitqi daha təbii edir, şeiri muzey dəbdəbəsindən uzaqlaşdırır. Rəsul Rza poeziyasının bu nəzərə çarpan xüsusiyyəti haqqında sovet ədəbiyyatşünaslığında və bugünkü ədəbiyyatşünaslıqda çox danışılıb. Mənim fikrimcə, şairin şeir texnikası məsələlərini dil tarixiylə əlaqələndirən nəzəri baxışlardan az söz açıblar. 1982-ci ildə «Вопросы литературы» jurnalı (N2) Rəsul Rzanın şeir ənənələrinin (İran-ərəb ölçüsünün) Azərbaycan dilinə əsaslı təsirindən danışan «Kanonların pozulması» adlı maraqlı məqaləsini çap etdi.

Türkoloqlar türk saitlərinin müasir vəziyyətinin ulu dildən gələn ilkinliyini, qədimliyini yekdilliklə qəbul etmişlər.

Və ilk dəfə buna şübhə ilə yanaşan dilçi deyil, yeni söz və ifadələrin yaradıcısı Rəsul Rza olmuşdur».

2000-ci ildə Xalq şairi Fikrət Qocanın sədr olduğu Rəsul Rza fondu Oljas Süleymanovu beynəlxalq Rəsul Rza mükafatıyla təltif etdi.

***

Rəsul Rzanın Moskva və başqa respublikaların yazıçıları, tənqidçiləriylə mübahisələri də olurdu. Klimoviç familiyalı tanınmış Moskva aliminin Cəlil Məmmədquluzadəni mürtəce yazıçı adlandırmasına qarşı kəskin çıxış etmişdi. Moskva şairəsi A.Adalisin də bir kitabından çox narazı qalmışdı. «Adalisin «Azəri» adı ilə yazdığı kitabında azəri xalqına hörmətdən başqa nə desən var. O, inqilabdan qabaq xalqımızı heç bir mədəniyyətdən xəbəri olmayan, aşağı dərəcəli insanlar kimi göstərməyə çalışmışdır. «Bizim xalqımız inqilabdan qabaq Adalisin yazdığı kimi bir cahillər kütləsindən ibarət idimi? Bundan həyasız bir böhtän olarmı?» (Çıxışı əsasında yazdığı «Tənqidimiz haqqında bəzi qeydlər» məqaləsindən).

Moskvada Gürcüstan ədəbiyyatı və incəsənəti ongünlüyünə qonaq sifətilə dəvət olunan Rəsul Rza oradakı çıxışında da bəzi tənqidi fikirlərini gizlətməmişdi. Ongünlüyün ədəbi müzakirəsində məruzə edən görkəmli rus şairi Nikolay Zabalotskinin bir çox xalqların ədəbiyyatlarını ümumi «Şərq ədəbiyyatı» adı altında göstərməsiylə razılaşmayan Rəsul Rza deyirdi: «Şərq poeziyası? Bu nədir? Bu, hind xalqının yaratdığı poeziyadır, yoxsa İran xalqının? Bu, Türkiyə xalqının yaratdığı poeziyadır, yoxsa Azərbaycan xalqının? Bu, ərəb poeziyasıdır, yoxsa başqa Afrika xalqlarının yaratdığı poeziya? Şübhəsizdir ki, bu xalqlar arasında müəyyən ümumi cəhətlər olsa da, onların sənət və ədəbiyyatlarını eyniləşdirmək düzgün deyildir».

Rəsul Rza başqa bir məsələyə də toxunur:

«Zabolotskinin irəli sürdüyü bir fikir də kökündən yanlış idi. Onun iddiasına görə Şərq poeziyası bədbin poeziyadır. Aydındır ki, bu iddia doğru deyildir; Firdovsi, Nizami, Ömər Xəyyam, nəhayət, Vaqif! Bu adlar və bu yazıçılar «bədbin şərq poeziyası» fikrinin nə qədər əsassız olduğunu sübut edir. Müxtəlif xalqların ədəbiyyatını bir termin altına toplayıb ona bədbin damğasını vurmaq olmaz. Bu fikrin davamı olaraq Zabalotski yoldaş iddia edirdi ki, guya Şərq bədbinliyinin konkret təzahürü olan məcnunluq fəlsəfəsi Şota Rustaveli tərəfindən rədd edilmişdir. Nizami, Nəvai, Füzuli və bir sıra başqa şairlər tərəfindən ölməz nümunələri yaradılmış «Leyli və Məcnun» dastanını bədbinlik fəlsəfəsini təzahürü adlandırmaq, ən azı bu əsərlərdən və məcnunluq fəlsəfəsindən xəbərdar olmamaq deməkdir. Məcnun iztirablar içərisindən keçərək yüksək mənəvi məhəbbətə qovuşmaq istəyir. O, tanrıdan daha artıq iztirab, daha artıq əziyyət və əzab istəyir. Pessimizm bunun harasındadır?»

(«Qardaş xalqın bayramı» məqaləsindən. Rəsul Rza Moskvadakı çıxışını və təəssüratlarını bu məqalədə verir).

Atamın gürcü şairi Simon Çikovani ilə xoş münasibətləri vardı, onun haqqında xatirə də yazıb. Amma həmin elə o gürcü ongünlüyü zamanı çıxışında Çikovaninin bir şeirinə də etiraz edir:

«Müasir gürcü şeirinin müvəffəqiyyətlərindən danışaraq şəxsən mənim köhnə dostlarımdan olan və şeirinə, sənətinə hörmət bəslədiyim Simon Çikovaninin bir şeiri haqqında da fikrimi söyləməyi vacib bildim. Bu, Çikovaninin «Gürcüstan kiçikdirmi?» şeirdir. Şeir özünün emosional qüvvəti və obrazlılığı ilə, şübhəsiz şairin yaradıcılığında gözəl nümunələrdən biridir. Lakin məncə şair dostum bu şeirdə özü öz fikrinin əleyhinə çıxır və şeiri onun bədii məntiqinə zidd olan bir nəticə ilə qurtarır. Şeirinin birinci bəndlərində Çikovani Gürcüstanı balaca bir yer adlandıranlara qarşı etiraz edir və deyir ki, mənim vətənim Gürcüstan kiçik deyildir. Şair belə bir fikir irəli sürür ki, ölkənin böyüklüyü onun ərazi

böyüklüyündə deyil. Bu doğrudan da belədir. Ərazi hələ bir ölkənin, bir xalqın yüksək mənəviyyatını, böyüklüyünü göstərən amil deyildir. Lakin axırıncı bənddə şair öz fikrinin əleyhinə gedərək, Gürcüstanın böyüklüyünü onda görür ki, nə zamansa döyüşlər nəticəsində gürcülər Dərbəndin qapılarını fəth etmişlər. Mənə elə gəlir ki, basqın və qəsbkarlıq heç bir zaman bir xalqın böyüklüyünü, mənəvi üstünlüyünü göstərən amil olmamışdır. *Odur ki, gözəl hiss ilə yazılmış şeirə yamaq olan və tarixi paralellər yanında şairin xeyrinə olmayan* (kursiv mənimdir - A.) bu fatehlikdən bəhs etmək yersizdir, sovet şairi üçün ciddi qüsurdur».

Tarixi paralellərin Çikovaninin xeyrinə olmaması haqqında deyərkən Rəsul Rza, şübhəsiz, vaxtilə Nadir şahın, Ağa Məhəmməd şah Qacarın Tiflisi fəth etmələri qəbilindən faktları nəzərdə tuturdu və bu çıxışı eşidən gürcü dostlanmız da şairin nəyə işarə vurduğunu duymuşdular.

***

50-ci illərdən başlayaraq Rəsul Rzanın poeziyası SSRİ-nin hüdudlarından kənarda da tanınmağa başlayır, şeirləri müxtəlif dillərə çevrilir, jurnal və qəzetlərdə dərc olunur, bir neçə ölkədə kitabları çıxır və ədəbi ictimaiyyətin diqqətini cəlb edir. Ümumiyyətlə, əsərləri iyirmiyə yaxın xarici dilə tərcümə edilib. Keçmiş SSRİ-nin indi müstəqil dövlətlər olmuş respublikalarını da saysaq çevrildiyi dillərin sayı otuzu aşar. Rəsul Rza özü də bir çox klassik və çağdaş şərq, qərb, rus şairlərinin əsərlərini tərcümə edib. Esxilin, Ömər Xəyyamın, Şəms Təbrizinin, Cəmaləddin Ruminin, Petrarkanın, Fransua Viyonun, Dü Bellenin, R.Bernsin, H.Haynenin, A.Puşkinin, M.Lermontovun, N.Nekrasovun, T.Şevçenkonun, Şandor Petefinin, B.Verxarnın, Lonqfellonun, U.Uitmenin, A.Rembonun, R.M.Rilkein, A.Blokun, V.Mayakovskinin, M.Svetayevanın, P.Elüarın, F.Q.Lorkanın, R.Frostun, R.Taqorun, İsibasi Takubokonun, İ.Selvinskinin, V.Luqovskoyun, T.Rujeviçin, V.Nezva-

lın, İ.Tauferin, E.Mejelaytisin, Nadir Nadirpurun, Jalənin, Kateb Yasenin, Patris Lumumbanın bir sıra şeirlərini dilimizə Rəsul Rza çevirib və bu şairlərin əksəriyyəti Azərbaycan dilinə ilk dəfə tərcümə edilib.

Bir məsələni də burada açım. Atam danışardı ki, cavanlığında bəzi şeirlərini özünün uydurduğu və heç bir zaman mövcud olmayan Avropa şairlərindən, məsələn, Cinnidən tərcümələr kimi çap etdirirmiş.

Bu yaxınlarda isə Rəsul Rzanın «Dünya ədəbiyyatından tərcümələr» adlı kitabını nəşr etdik. Kitabda yuxarıda adlarını verdiyim Qərb və Şərq ədəbiyyatlarının klassik və çağdaş şairlərindən tərcümələr toplanıb. Kitaba Son söz yerinə vaxtilə Xəlil Rza Ulutürkün yazdığı «Rəsul Rzanın tərcümələri haqqında» məqaləsini verdik.

***

Dünyanın çeşidli yerlərində Rəsul Rza yaradıcılığı maraq doğurursa, onun özünün müxtəlif ölkələri görmək, gəzmək, müxtəlif xalqların şairlərini tərcümə etmək həvəsi dünyaya marağıyla bağlıydı. «Xoşbəxt poeziya» adlı məqaləsində Xalq yazıçısı Elçin yazır:

«Rəsul Rza poeziyasındakı vətəndaşlıq coğrafi sərhədlər və milli çərçivələr daxilindəki vətəndaşlıq deyil, bu vətəndaşlıq əsrin, zamanın vətəndaşlığıdır, xalqların, özgələrin «mənim-sənin» bilməyən sənətkar vətəndaşlığıdır... Dünyanı çox gəzmiş, həm də səyyah kimi yox, bir şair kimi gəzmiş, poetik mövzusunun coğrafi üfüqləıi İndoneziyadan tutmuş ərəb ölkələrinəcən geniş olan Rəsul Rza milli şair idi və millilik onun poeziyasının təbiətindədir və məhz belə bir nıilli mahiyyətə malik olduğu üçün də Rəsul Rza poeziyası beynəlmiləl, bəşəri poeziyadır. Azərbaycan koloriti, Azərbaycan düşüncə və görmə tərzi, dənizə, meşəyə, torpağa azərbaycanlı bağlılığı, milli problematikanın vüsəti, milli bədii təfəkkür yönümü Rəsul Rza poeziyasının ən yaxşı nümunələri üçün səciyyəvi cəhətlərdir və

buna görə də bu poeziya öz milli oxucusunu ələ ala və ona təsir edə bildiyi kimi rus, eston və Litva, yaxud ərəb və Kanada oxucusunu da ələ alır, ona təsir edir...» («İki ömrün işığı» kitabında).

SSRİ-dən xaricdə Rəsul Rza poeziyası ilk dövrlərdə əsasən sosialist ölkələri adlanan müttəfiq dövlətlərdə tərcümə və təbliğ olunmağa başladı: Polşada, Çexoslavakiyada, Macarıstanda, Bolqarıstanda, Yuqoslaviyada... Polyak publisisti Vatslav Kubatski SSRİ-yə səfəri haqqında kitabında Rəsul Rzayla görüşlərindən və onun yaradıcılığından söz açır. Kubatski Rəsul Rza yaradıcılığı vasitəsilə Azərbaycanı daha yaxşı dərk etdiyini xususi vurğulayır. Çex şairi İrji Tauferin də Rəsul Rzaya yazdığı məktubda təxminən eyni fikir ifadə olunmuşdur:

«Hətta biz, beynəlmiləlçi əqidəyə malik olan insanlar da dəhşətlə dərk edirik: təəssüf ki, bir çox xalqlar haqqında çox cüzi mlumatlarımız var. Demə, Azərbaycan xalqının çox qədim və zəngin tarixi varmış. Onun çox dramatik, faciə və qəhrəmanlıqlarla dolu keçmişi və çox əsrlik son dərəcə maraqlı mədəniyyəti var. Mən mat qalmışam və valeh olmuşam».

İ.Taufer Azərbaycanla Rəsul Rzanın şeirlərini çex dilinə çevirən zaman tanış olmuşdur. Çex şairi yazır:

«Rəsul Rza Azərbaycan poeziyasının görkəmli simalarından biridir. O, qədim zamanlardan bəri ənənə halını almış şeir formalarından fərqli olaraq Azərbaycan poeziyasına yeni forma gətirmişdir. O, novator şairdir. Rəsul Rza yaradıcılığının xüsusi cəhəti dilinin təbiiliyi, rəngarəngliyi, müasir lirikaya xas olan incəlik və lakonikliyidir. O, fikir və zəka şairidir. Dolğun ideya və dərin məzmun onun şeirlərinin əsasını təşkil edir».

Çex şairəsi Danika Kozlovanın və macar şairəsi Juja Rabın Rəsul Rza poeziyası haqqında fikirlərini əvvəllərdə gətirmişdim. İstedadlı şairimiz Məmməd İsmayıl «Doğmalıq işığında» adlı məqaləsində («Ədəbiyyat və incəsənət» qəzeti, 2 iyul, 1986) Budapeştdə yazıçılarla görüşlərini xatırlayaraq macar şairəsi Anna Bedenin sözlərini gətirir:

«Mənim ilk tanıdığım Azərbaycan şairi Rəsul Rzadır. Yadımdadır, Macarıstanda keçirilən beynəlxalq poeziya bayramında iştirak edən şairlər Balaton gölünü seyrə çıxmışdılar. Onların arasında gözləri Balatonun mavi sularına oxşayan və zahirən bizim Yojef Atillaya bənzəyən bir şair də vardı. Düzü, onun ağır təmkini məni özünə çəkdi. O zamana qədər mən Azərbaycan poeziyası ilə tanış deyildim, təbii ki, Rəsul Rzanın da şeirlərini oxumamışdım. Sonra biz tanış olduq. Mən sonralar onun şeirlərini oxuyub tərcümə etdikcə onun elə daxilən də Yojef Atilla kimi çox qüdrətli bir şair olduğunu yəqin etdim...»

Bir qədər sonra Rəsul Rza poeziyası Qərbi Avropa və Amerika qitəsində də tanınmağa başlayır. Şeirlərinin ABŞ-da və Kanadada oxucuların böyük marağına səbəb olması haqqında əvvəllərdə yazmışdım.

Bu barədə məlumat verən «Şimal qonşuları» adlı jurnalın redaktoru Dizon Karter yazdığı məktubdan sonra da Rəsul Rzanın şeirlərini dərc etmiş və jurnalında belə bir yazı da vermişdir:

«Əgər siz hər işinizin yaxşı olduğuna arxayınsınızsa, onu da düşünün ki, elə bir gün gələ bilər hər şey dəyişər - ürəyinizcə, arzunuzca olmaz. Heç birimizin zəmanəti yoxdur ki, qəfil ümidsizlik hissinə qapılmayacağıq, bədbinlik duyğuları bir gün bizi çuğlamayacaq. Bax belə məqamlarda imdadımıza şairlər, ruhlarımızın xilasediciləri çatır. Bax belə məqamlarda köməyimizə böyük sovet şairi Rəsul Rza gəlir. Hadisələrdən yorulub usananda, gələcəyə ümidləriniz sarsılanda dərhal bu heyrətamiz və ilhamlı şeirləri - insan qəlbinin ülviliyi haqqında sözləri oxuyun. Ancaq dörd şeir - amma onların hər biri ürək-dirək verməyin ən gözəl vasitəsidir. Onları ümidlərini itirmiş insanlara da tövsiyə edin, oxusunlar bu şeirləri». («Şimal qonşuları» jurnalı. 1971, sentyabr).

Rəsul Rzanın şeirləri Londonda çağdaş dünyanın bir sıra böyük şairləriylə yanaşı «Qızıl Şərq» almanaxında dərc

edilmişdir. İngilis ədəbiyyatşünası Boni Korey «Veld litreçe tudey» jurnalında (1980) yazır:

«Rəsul Rzanın sənət dünyası təzadları, sevgini və nifrəti, yaxşılığı və pisliyi, həyatı və ölümü, xoşbəxtliyi və kədəri realistcəsinə təsvir və tərənnüm edir. Şairin yarı canı dəhşətdən gözləri qaralan vyetnamlı körpənin yanındadır. Şairin qəlbində gələcəyə inam şeirin uğurlu finalına çevrilir. Bütün dünyada sülh və əmin-amanlığı, bütün bəşər övladlarının birliyini görmək arzusu Rəsul Rza poeziyasının canına hopmuşdur».

Fransız şairi Jak Qoşeiron 1966-cı ildə Rəsul Rzanın bir neçə şeirini çevirərək «Lete Fransez» və «Humanite» qəzetlərində çap etdirmişdir.

Şairin ayrıca kitabı Monqolustanda, şeirləri və şeir silsilələri Çində, Hindistanda - Dehlidə və Kəlkütddədə (ingilis və benqal dillərində), Pakistanda, ingilis dilində də nəşr olunmuşlar.

Ərəb dilində kitabı və müxtəlif ərəb ölkələrinin dövri mətbuatında bir çox şeirləri çıxmışdır. Bu ölkələrin ədəbi ictimaiyyəti şairi yüksək dəyərləndirir:

«Şimali Azərbaycanın hal-hazırda ən böyük şairi sayılan Rəsul Rza Sovet İttifaqında geniş şöhrətə malikdir». («Əl-əxa»-«Qardaşlıq» jurnalı, İraq, 1969-cu il) «Novator bir şair olan Rəsul Rza Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindəndir. Onun şeirlərində nikbinlik, həqiqətin qələbəsinə inam var. Onun əsərləri öz işığı və təravəti ilə qəlblərə məhəbbət gətirir. Şairin bəşər övladına olan məhəbbətinin özü bu şeirləri yazdırmışdır». («Ələxbar» qəzeti, Misir, 1963.)

«Rəsul Rzanın poeziyası qəlbimin dərinliyinə qədər məni sarsıtdı. Mən Azərbaycanın gözəlliklərini dərk etmək istəyirdim. Bu gözəlliyin bir hissəsini şairin qəlbində özünə məskən salmış baharda tapdım».

Adnan Səlim
İraq alimi və jurnalisti. 1967.

Tehranda çıxan «Süxən» («Söz») jurnalının 1966-cı il 9-cu nömrəsində «Rənglər» silsiləsi fars dilində dərc edilmişdir.

***

Rəsul Rza poeziyasının sorağı dünyanın ən uzaq guşələrindən gəlir.

Vyetnamdan, Hanoydan şair Monq Kuin «Rənglər»i xoş sözlərlə xatırlayır və onları tərcümə etmək arzusunda olduğunu bildirir. Dünyanın o biri başından, Kanar adalarının Las Palmas şəhərindən Telesforo Fuantes Suares Rəsul Rzanın şeirlə yazdığı Təbiət ensiklopediyası haqqında məlumat oxuduğunu bildirir və şairin avtoqraflı kitabını istəyir.

Bolqarıstandan, Sofiyadan Mila İvanova da «Неделя»da «Rənglər»i oxuduğuna görə özünü xoşbəxt hesab edir. Xarkovdan Valentin Semyonoviç Markov adlı mühəndis-radiotexnik ailəsinin başına gəlmiş qəmli hadisələrdən söz açır və ümidsizilyə qapılmadıqlarına səbəb Rəsul Rzanın «Dördümüzün söhbəti», «Qayıqlar», «Damlalar» və xüsusilə «Gənclik və qocalıq» şeirlərinin olduğunu yazır.

1983-cü ildə «Ulduz» jurnalında dərc olunmuş bir məqalə də maraq doğurur. ABŞ-da səfərdə olmuş hüquq elmləri doktoru pıofessor Məmməd Xələfov Nyu-Yorkun bir muzeyində Rəsul Rzanın portretini gördüyündən iftixar hissiylə söz açır. SSRİ-nin başqa şəhərlərindən olan yol yoldaşları professoru «Millətlərin böyük zəkaları» adlanan salona dəvət edir və Rəsul Rza haqqında ətraflı məlumat verməsini xahiş edirlər.

M.Xələfov deyir:

«Tahir Salahovun «Rəsul Rza» portretindən reproduksiya edilmiş bu şəkli L.N.Tolstoy, F.M.Dostoyevski və A.S.Puşkinin portretlərilə bir sırada görəndə ürəyim köksümə sığmadı».

***

Bu yazımın əvvəllərində bildirmişdim ki, Rəsul Rzanın həyatı və yaradıcılığı haqqında düşüncələrim olsun ki, bir qədər pərakəndə görünə bilər. Xronoloji ardıcıllığı gözləməyə çalışsam da, mətləbdən mətləbə, mövzudan mövzuya keçidlərin çox vaxt sərbəst xarakter daşıdığının da fərqindəyəm. Amma elə sərbəst xarakter daşıdığı üçün də bəzən müəyyən mövzuların yan-yana düşməsindən tamamilə başqa, mənim istəmədiyim məntiqi nəticə alına bilər. Sözü uzatmamaq üçün yazımın bu bölümünə aid bir məsələnin üstündə durmaq istəyirəm. 60-cı illərdə sənətdə mücərrədçiliyə qarşı mübarizə kompaniyasıyla bağlı Rəsul Rzaya hücumlar, özəlliklə tənqidimizin «Rənglər»i top-tüfənglə qarşılaması haqqında yazdıqlarımdan sonra həmin silsilənin müxtəlif dillərə tərcümə olunması, müxtəlif ölkələrdə mötəbər ədəbiyyat adamları tərəfindən rəğbətlə qarşılanması, ümumiyyətlə Rəsul Rza yaradıcılığına Azərbaycandan kənarlarda olan maraq haqqında gətirdiyim faktlardan belə bir nəticə çıxa bilər ki, şairi öz vətənində yalnız qınıyır, sıxma-boğmaya salır və o, layiq olduğu həqiqi qiymətini yalnız kənarlarda alırdı. Yəni sanki mən dünya qədər qədim olan «Öz vətənində peyğəmbər olmur» fikrini bir daha təsdiqləmək istəyirəm. Heç vəchlə belə deyil. Rəsul Rzanı doğma vətənində də sevənlər, onun yaradıcılığını yüksək qiymətləndirənlər, əsərləri haqqında obyektiv rəylə çıxış edənlər az deyildi. Şairin arxivində Azərbaycanın hər yerindən, ən ucqar kəndlərindən belə göndərilən məhəbbət və rəğbət ruhlu məktublar kənarlardan aldığı kağızlardan müqayisə edilməyəcək dərəcədə çoxdur. Müxtəlif illərdə ayrı-ayrı adamların qələmindən çıxan, rəsmi orqanlar tərəfindən bəyan olunan, yaxud təşkil edilən hücumlar istisna olmaqla Azərbaycan ədəbi-ictimai fikri Rəsul Rza poeziyasına əsasən müsbət yanaşırdı, onu milli şeirimizin ən görkəmli nümayəndələrindən biri sayırdı. Rəsul Rza özü də hərdən qərəzli və nadan tənqidlərdən təngə gəlib tənqidçiləri sancırdısa,

ədəbiyyatın mühüm janrı olan tənqid haqqında həmişə ehtiramla danışırdı və konkret olaraq bir çox tənqidçilərə dərin hörmət bəsləyirdi... Görkəmli tənqidçi ədəbiyyatşünaslardan Məmməd Arif, Mikayıl Rəfili, Mikayıl Rzaquluzadə, Cəfər Cəfərov, Abbas Zamanov atamın ən yaxın dostları idi. Bəzi bədnam tənqidçilərin ünvanına atmacalarından başqa Rəsul Rzanın belə misraları da var:

Tənqidçi var, görəndə
Hörmətlə qarşılayıb
xəstə olsam da belə
gərək ayağa duram.
Eləsi var, rəhmətlik Sabir demiş,
fikrini qan-qan görüb qorxuram.

«Fikrini qan-qan gördüyü tənqidçilər» haqqında isə başqa dördlükləri var:

Hər biçilən taxıl deyil,
sünbülü var, samanı var.
Hər tənqidçi paxıl deyil,
yaxşısı var, yamanı var.
Və yaxud:
Mən hansı xanədə tutdumsa qərar,
Hər yetən piyada «Şah! Şah!» elədi.
Neyləyim ki, belə kür taleyim var,
Məni nadanlara ürcah eylədi.

***

Rəsul Rza yaradıcılığını müxtəlif illərdə obyektiv təhlil edilən məqalə müəllifləri çağdaş ədəbiyyatımızın bütün nəsillərinə mənsub olan tənqidçilərdir: Məmməd Arif və Məmməd Cəfər Cəfərov, Cəfər Xəndan və Əkbər Ağayev (Əkbər Ağayevin Rəsul Rza yaradıcılığını müsbət qiymətləndirən

və bunun tam əksini iddia etdiyi məqalələri var), Mikayıl Rzaquluzadə və Abbas Zamanov, Bəkir Nəbiyev və Gülrux Əlibəyova, Yaşar Qarayev və Şamil Salmanov, Tofiq Abdin, Tofıq Məlikli, Azad Nəbiyev, daha gənc nəslin nümayəndələrindən Vaqif Yusifli, Arif Əmrahoğlu, İsmayıl Vəliyev, Rəfael Hüseynov, Hacı Azər Əbilov şairin poeziyasını çeşidli baxış bucaqlarından peşəkarlıqla təhlil etmişlər. Ədəbiyyatımızın yorulmaz fədaisi İmamverdi Əbilov Rəsul Rzanın yaradıcılığı üzrə namizədlik dissertasiyası, Bağır Bağırov doktorluq dissertasiyası müdafiə ediblər. Hər ikisinin şair haqqında kitabları nəşr olunub. Bağır Bağırov «Rəsul Rza» foto-albomunun da tərtibçisidir. Şair haqqında rus dilində «Хрустальное сердце» foto-albomu da nəşr olunmuşdur.

Məsud Vəliyevin (Məsud Əlioğlunun) və Qulu Xəlilovun birlikdə yazdıqları «Rəsul Rza» kitabçası 1970-ci ildə nəşr olunmuşdur. Gülrux Əlibəyovanın Rəsul Rza haqqında «Axtarışlar, kəşflər» kitabı Bakıda (1970), «Всегда в пути» kitabı Moskvada «Советский писатель» nəşriyyatında (1972) çıxmışdır.

Şairin vəfatından sonra, 1987-ci ildə nəşr olunan «İki ömrün işığı» adlı kitaba Rəsul Rza və Nigar Rəfibəyli haqqında məqalələr, xatirələr, şeirlər və poemalar, vida sözləri, məktublar daxil edilmişdir. Rahid Xəlilovun (Rahid Uluselin) «Rəsul Rza poeziyası» kitabı 1987-ci ildə şair və tədqiqatçı Arif Abdullazadənin «Od nə çəkdi» kitabı 1990-cı ildə çapdan çıxmışlar. Samirə Orucovanın «Rəsul Rzanın ədəbi-tənqidi görüşləri» kitabı nəşr olunmuşdur.

Teyyub Qurbanın tərtib etdiyi «Yaşıl kitabın işığı» adlı kitabda Rəsul Rzanın ensiklopediyidakı fəaliyyətinə aid materiallar, məqalələr və xatirələr toplanmışdır.

Şairə və araşdırıcı Sona Xəyalın Rəsul Rza haqqında monoqrafiyası çapa hazırlanır.

Unudulmaz şairimiz Xəlil Rza Ulutürkün fədakar həyat yoldaşı Firəngiz xanım Xəlilin müxtəlif illərdə Rəsul Rza haqqında yazdığı məqalələrini, apardığı araşdırmalarını,

gündəliklərindən parçaları, atama həsr etdiyi səkkiz şeiri toplayaraq 2000-ci ildə Əzizə Türkanın redaktorluğu və ön sözüylə «Rəsul Rza həsrəti» adlı kitab buraxdırmışdır. Xəlil Rzanın şeirlərindən bəzi fraqmentləri burda verirəm:

Bir möcüzə umuram,
Səhər evdə əyləşib şeir yazdığım çağda
Haray çəkə telefon,
qaldıranda dəstəyi
Şadlıqdan, iftixardan üzüm alışıb yana:
-Salam, Rəsul müəllim!
Hara, bizim Səlyana?
aman, nə gözəl səfər!
Yaman sevinəcəklər!
Bizim ünvanı deyim. Əli Bayram, 25
Hüsü Hacıya yandaş.
«Yandaş» sözü dad verir damağına ustadın,
«Paralel» əvəzinə bu sözü yaxşı tapdın».
Maşın gələ bir azdan.
Öndə sürücü Fikrət, yanında Fikrət Qoca,
ustad ilə yanaşı əyləşəm arxadaca.
Kimsə maşınla gedə, qanadlarda uçam mən.
Rəsul xəzinəsini yavaş-yavaş açam mən.
Rəsul Rzadır gələn!
Eşidib bu xəbəri çinarlar qalxa bir boy,
Hər tərəfdə bayram, toy.
...Bir Rəsul həsrəti qəlbimdən keçir,
Əcəlin zülmündən yaman asıyam.
Kişi bir ustadın, qoca bir gəncin
Bir şair mehrinin tamarzısıyam.

(«Rəsul Rza həsrəti» şeirindən, 1983)

Mən allahın ver günü oxuyuram Rəsulu,
Qorxuram sona yetə.
Oxuyuram cirəylə, aram-aram Rəsulu.
Misraları elə bil Qubanın ağ alması
Ətirli, sağlam, sulu.
Xoşlayıram Rəsulu,
Çünki cəsur, mərd şeir vətənimin canıdır,
Məni mənə tanıdır.
Rəsulu dinləyəndə təpə qalxıb dağ olur,
Elə bil içərimdə bir pəhləvan doğulur.

Eşqi, nifrəti dullar,
Ağa görkəmli qullar,
Yeni fikri boğmağa könüllü yasovullar
Müqəvva qaravullar,
Onu bəyənər məgər?

(«Sevdiyim şair» şeirindən)

Nəsimi dərgahından gələn bir elçi... Rəsul...
Neçin bunu vaxtında dərk etmədi bir çoxu?
Hələ də sürünən var... adı insan... özü qul,
Kitab kimi aç oxu... gəzən meyiddir çoxu.

Mənim üçün bayraqdır sərkərdə Rəsul Rza,
Yanında sıraları seyrələn bir ordu var!
Hələ də səngərdədir, səngərdə Rəsul Rza
Snayper gözlərində Od yurdunun odu var.

Silir alın tərini döyüş fasiləsində,
Ata və oğul kimi qonuşuruq ara-bir.
Ən böyük mübarizə hələ öndədir, öndə,
Ölüm-dirim döyüşü ömrü girov istəyir.

(«İkinci doğuluş» şeirindən)

Yada sal adaşın Rəsul Rzanı,
Qızılsaç, alagöz şeir əsgərini.
50 yaşdan sonra 21 ildə
Yaratdı ən gözəl əsərlərini.

(«Sarsılma, casur ol!» şeirindən. Moskva, Lefortovo zindanı. Şənbə, 15 eylül, 1990)

Misralar - bulud yırtan, qızıl ildırım təki,
Aman, nə tez qocaldı şeirimizin Babəki.
Döyüşlərdə qocaldı düşməni tapdayan fil,
Döyüş müddəti bəlli!
Babək - 22 il, Rəsul Rza - 50 il!
Salon ona müntəzir, ancaq o gəlmir dilə,
Göylər günəşlə dolu, mən Rəsul atəşilə.
*Nə düşünür sənətk*ar?
Bəlkə, fikirləşir ki,
Daha söz kürsüsünə qalxmaq əbəsdir, əbəs,
Çünki iş otağında ucaldığı zirvəyə
heç vaxt ucala bilməz!
Salon gurlayır, axır çəpik, alqış selində,
Bir də qalxır ayağa, söz qırılır dilində.
Aldım şeiri əlindən, oxudum uca səslə,
Otuz il öncə onun oxuduğu həvəslə.
Gümüş pəncərələrin əridi buz naxışı,
Qocalığın yükünü şair çiyinlərindən
Aldı bəlkə salonun sevgi dolu baxışı.
Sandım Bəzz qalasında cavan bir döyüşçüyəm
Mən - Rəsul silahdaşı!

(«Şeirimizin Babəki» şeirindən)

Məlumdur ki, Xəlil Rza ömrü boyu hər yerdə, hər şəraitdə qeydlər edir, aparılan söhbətləri yazırdı. Bunların əsasında qələmə aldığı gündəliklər bir neçə cilddən ibarətdir və

hələ tam açılmayıb. Bir neçə il bundan qabaq «Güney» qəzetində şairin gündəliklərindən bir parça dərc edilmişdi. Bu parça «Rəsul Rza həsrəti» kitabına düşmədiyindən onun bəzi maraqlı məqamlarını burda verirəm.

Xəlil Mikayıl Müşfiqin xatirəsinə həsr olunmuş bir dost məclisindən söz açır.

«Bizim sevimli Mikayıl Müşfiqin gözəl zövcəsi Dilbər xanım bu axşam bizi çağırmışdı. Firəngizlə bərabər getdik».

Mətndən aydın olur ki, bu məclisdə Rəsul Rza, Nigar Rəfibəyli, Əkrəm Cəfər, Bəxtiyar Vahabzadə, Qabil və başqaları iştirak edirmiş. Azərbaycan enisiklopediyasından söz düşür. Söhbətin bu məqamında kimsə Əlibəy Hüseynzadənin adını çəkir, onun ensiklopediyaya düşməsinin zəruri olduğunu bildirir.

«- Heç şübhəsiz, - deyə Rəsul Rza buna zərrəcə şəkk etmədiyini bildirir, mənim üzümə təbəssümlə baxır».

Əkrəm Cəfər:

-Rəsul, bizim elmimiz qədimdir, sənətimiz də, memarlığımız da çox qədimdir,- deyir, - Bunlar gərək ensiklopediyada layiqincə öz əksini tapsın. Deni Didronun Fransada gördüyü işi Azəıbaycanda sən görürsən. Bununla öz adını türk-azər mədəniyyəti tarixinə əbədi həkk edirsən.

Bu söhbət əsnasında kimsə «Вообще» sözü işlədir, mən həmin adamdan beş qəpik cərimə tələb edirəm. Rəsul Rza ciddiləşir:

-Elə Müşfiqi belə zarafatlar bada verdi, - deyir, - o birini demişsə, beşini üstə qoyub bir-birinə xəbər verirdilər... Güclü olmaq üçün ağıllı olmaq gərəkdir. Belə işlərlə məşğul olmağı sənə məsləhət görmürəm, Xəlil.

Rəsul Rza ciddiyyətlə dik gözümün içinə baxır, düşünür və bir misal çəkir:

-Beli kaman kimi əyilmiş bir qocaya yoldan keçən bir cavan sataşır: - Əmican, - deyir, - kamanını sat mənə. - Yox bala, pulunu saxla cibində, vaxtı gələndə həyat özü o kamanı sənə havayı verəcək.

Rəsul Rzanın çəkdiyi misal məni düşündürür. O yəqin demək istəyir ki, Xəlil, səbirsiz olma, həyat özü səni öz arzularına qovuşduracaq. O günəcən isə özünü qorumalısan. Ucuz yerdə bada getmək igidlik deyil.

Rəsul Rzanın kəlamı Əkrəm Cəfərin yadından çıxmayıb:

-Nizami deyir ki, yalnız bilik sahibləri güclü olur.

Rəsul Rza Nizami yubileyi günlərini xatırlayır:

-Akademik Krımskiyə dedik ki, Nizaminin türk azərcə bircə şeirini tapmış olsanız, hər misrasına bir qızıl verərik.

-Yoxdur - dedi.

Buna rəğmən Əkrəm Cəfər «yoxdur» kəlməsini deməyin qəti əleyhinədir.

Qüvvət elmdədir. Başqa cür heç kəs heç kəsə üstünlük eyləyə bilməz. Son zamanlar Bakıda milli ruhun qüvvətlənməsindən söz salırıq. Rəsul Rza bildirir ki, «Nərgiz» qəhvəxanasının, «Göyərçin» restoranının adları gözəldir. Buna uyğun olaraq ayrı-ayrı yerlərə doğma adlar vermək olar. Niyə Bakıda Çinarlıq, Meynəlik, Söyüdlük adına küçələr, xiyabanlar olmasın. (Rəsul Rzanın bu barədə və bu təkliflə şeiri də var - A.)

Yenə dildən söz düşür. Rəsul Rza deyir:

-Bizim sözlərimizin bir çoxu Əziz Nesini bərk sevindirirdi: «Asqı», «açar», «üzlük» (maska mənasında) sözlərini eşidəndə uşaq kimi üzü gülürdü.

Rəsul Rzanın bu kəlamından sonra kimsə şeir oxumağı təklif etdi. Birinci olaraq Rəsul Rza «Qızıl gül olmayaydı» poemasından parça oxuyur. Sonra mən «Tamam doğmayan günəş» şeirini oxuyuram. Alqışlanır. Əkrəm Cəfər də şeir oxuyandan sonra Rəsul Rza gülə-gülə deyir:

-Əkrəm, Xəlilin şeiri ikimizinkindən də güclüdür.

«Yenə o bağ olaydı» şeirinin adı çəkiləndə hamının gözləri parlayır.

«Bizimlə əyişəydin» ifadəsini eşidəndə Rəsul Rza gülümsəyir: «Əyişmək!» - «ухажывать» deməkdir - deyir. - O dövrün jarqonudur.

Rəsul Rzanın bir şair kimi gücü həm də ondadır ki, canlı xalq dilindən, hətta şivələrdən, ləhcələrdən bacarıqla istifadə edir.

Dilbər xanım dilə gəlir, özünün yazdığı «Arasındadır», «Yadıma düşdü» şeirlərini oxuyanda bütün məclisi heyran qoyur. Nigar xanım ilə Əkrəm Cəfərin aşkar ağladığını görürəm.

Habil kamanı yenidən dilə gəlir, sanki bütün bəşəriyyəti Azərbaycanın yardımına haraylayır ki, yer üzündə belə bir müsibətzadə xalq var. Başından min tufan sovuşsa da yaşayır, sınmadan, əyilmədən yaşayır, döyüşür.

-Habil kamanın Müşfiqidir.

-Müşfiq sağ olsaydı, yəqin ki, Habilə şeir qoşardı:

Oxu kamançа, oxu kamaça,

Dinləyək səni doyunca.

Rəsul Rzanın şux bir ruh ilə dediyi bu sözlər bizə ləzzət verir. Rəsul Rza yaxşı masabəyidir. Özü az danışır. Məclisdəkilərə meydan verir. Şənlik-şuxluq, gözəllik içində nəfəs alırıq. Hər bir dəqiqəmiz zövq ilə, ilham və məhəbbətlə doludur. Yaşamaq gözəldir» («Günay» qəzeti, 15 yanvar, 1994-cü il).

***

Rəsul Rza haqqında çağdaş ədəbiyyatımızın demək olar ki, bütün görkəmli xadimlərinin və atamın sağlığında hələ gənc olan nəslin nümayəndələrinin ayrıca yazıları var. Onların bir qismi atamın yubileyləri, vəfatıyla bağlıdır, böyük bir hissəsi isə ölümündən sonra qələmə alınmış xatirələrdir. 1987-ci ildə Rəfael Hüseynovun və Nizaməddin Şəmsizadənin tərtib etdikləri «İki ömrün işığı» kitabında (Ənvər Məmmədxanlının ön sözüylə) Rəsul Rza və Nigar Rəfibəyli haqqında yazıların müəllifləri sırasında Azərbaycan şair və yazıçıları mühüm yer tutur. Səməd Vurğun, Süleyman Rüstəm, Süleyman Rəhimov, Mirzə İbrahimov, Sabit Rəhman, İlyas Əfəndiyev, Əli Vəliyev, Məmməd Rahim (M.Rahimin R.Rza haqqında müəyyən

vaxtlarda «Məhəbbət və mübarizə şairi», «Xalq şairi Rəsul Rza» adlı tərif dolu məqalələri də, başqa illərdə yazdığı kəskin tənqidi mətnləri də var), Əhməd Cəmil, Bayram Bayramov, Balaş Azəroğlu, Nəbi Xəzri, Bəxtiyar Vahabzadə, Əli Kərim, Məmməd Araz, Fikrət Qoca, Eyvaz Borçalı, Vaqif Səmədoğlu, Elçin, Vaqif İbrahim, Vaqif Arzumanov və başqalarının məqalələri, Abbas Zamanovun, Hüseyn Abbaszadənin, Mirəli Seyidovun, Qasım Qasımzadənin, Altay Məmmədovun, Gülrux Əlibəyovanın, Şəkər Aslanın, teatr rejissoru Vaqif İbrahimoğlunun, Nəriman Həsənlinin xatirələri bu kitabı çağdaş Azərbaycan ədəbiyyatşünaslığının qiymətli sənədi saymağa əsas verir. Həmin kitab əsasında daha sonrakı illərdə çıxan yazıları da daxil etməklə mənim tərtib etdiyim «Xatirələr işığında» toplusuna Süleyman Vəliyevin, İbrahim Novruzovun, Fikrət Sadığın, Aqşin Babayevin, Qədir İsmayılın, Rüstəm İbrahimbəyovun, Rəfiq Zəka Xəndanın, Mövlud Süleymanlının, Ramiz Rövşənin, Sabir Rüstəmxanlının, Vahid Əzizin, Çingiz Əlioğlunun, Afaq Məsudun, Maarif Teymurun, Kələntər Kələntərlinin, Əli Səmədlinin, Vladimir Qafarovun, İsa İsmayılzadənin, Vaqif Nəsibin, Hamlet Qocanın, Bahar Bərdəlinin mətnləri də əlavə edilmişdir.

Sitatlar gətirmirəm, çünki dediyim kimi, neçə il qabaq çıxmış «İki ömrün işığı» kitabındakı mətnlərin hamısı indi, 2001-ci ildə Azərbaycan Milli Ensiklopediyası nəşriyyatı tərəfindən buraxılan «Xatirələr işığında» kitabında latın əlifbasıyla dərc edilib, maraqlananlar oxuya bilər. Yeri gəlmişkən bu kitabın redaktorları İsmayıl Vəliyevə və Gülbəniz Qocayevaya çəkdikləri zəhmətçün təşəkkürümü bildirirəm.

***

Bu kitabı tərtib edərkən mətnləri bir daha gözdən keçirdikcə, kitaba daxil edilməyən, müxtəlif vaxtlarda dövrü mətbuatdakı yazılarla tanış olduqca düşüncələrə dalırdım. Atamı tanıyan, onunla ünsiyyətdə olan adamların bir qismi xasiyyətinin tünd olduğunu, işlədiyi və rastlaşdığı adamlarla

bəzən həddən ziyadə sərt dayrandığını, ara-sıra acı sözlər dediyini xatırlayırlar. Doğrusu, bu sərtliyi, bu acıdilliyi biz ailə üzvləri, hər halda ailədə heç vaxt hiss etmirdik. Bəli, zəhmi, zabitəsi vardı, bəzən bir çəpəki baxışla adamı məzəmmət edə bilirdi. Uşaqlığımda, məktəb illərində dərslərimdən pis qiymətlər alanda onun mənə acıqlanacağından qorxurdum da. Amma yeniyetməlik çağımdan mənə qarşı atalıq tələbkarlığı heç bir vaxt sərt, tünd şəkil almırdı. Təbii ki, bacılarımla, anamla daha artıq həssaslıqla davranardı.

Ədəbi həyatda, Yazıçılar İttifaqında, kino sahəsində, ensiklopediya fəaliyyətində sərt və ötkəm olduğunu inkar etmirəm. Amma bu sərtlik qəlbinin genişliyiylə, hətta quru davrandığı adamlara belə lazımi məqamda yardım əlini uzatması, köməksizlərin dar ayaqda imdadına yetməsi, çətinə düşənlərə həyan durmasıyla üzvü surətdə tamamlanmasaydı, yəqin ki, onun haqqında bu qədər insan da bu qədər xoş xatirələr yazmazdı, bu qədər rəğbətlə və hörmətlə danışmazdı. Və bu xatirələr tamamilə təmənnasız, heç kəsdən heç nə ummadan, müəlliflərin öz şəxsi təşəbbüsləriylə qələmə alınmış yazılardır. İndi Rəsul Rza dünyada olmayanda ondan nə təmənnaları, nə keçəcəkləri ola bilər ki? Kitablara daxil olan xatirələrdən başqa dediyim kimi, ara-sıra qəzet-jurnallarda atama aid olan bu səpgili faktları görəndə də sevinirəm. Atama, anama aid olan hər hansı xırda faktı belə dərc etmiş qəzetləri saxlayıram: çünki çox vaxt bu məsələlər mənimçün də təzə bir şey olur. Bu yaxınlarda «Ədəbiyyat qəzeti»ndə (24 avqust, 2001) ədəbiyyatşünas Xeyrulla Əliyevin «Rəsul Rza ocağının istisi» adlı məqaləsi dərc olunmuşdu. Təəssüf edirəm ki, bu yazını «Xatirələr işığında» kitabına sala bilmədik, çünki kitab artıq yığılmışdı, çıxa-çıxdaydı. Xeyrulla Əliyev akademik Məmməd Arifin auditoriyada bir söhbətini xatırladır. M.C.Bağırov partiya fəallarının yığın cağında kürsüdən Məmməd Arifi Türkiyə cəsusu adlandırmışdı və Arif əminin oğlu, mənim uşaqlıq dostum Araz danışırdı ki, hər gün atamın həbs olunacağını gözləyirdik. Anam şeylərini hətta bir çemodana yığıb hazır qoymuşdu. Xeyrulla müəllim də Məmməd Arifin təqiblərə məruz qaldığı o çətin günləri yada salır, akademikin sözlərini gətirir:

«O vaxt dörd-beş yerdə işləyirdim. Bir günün içində hər yerdən çıxarmışdılar. Haraya getdimsə, divarda əmri gördükdə qayıdıb oturdum evdə... Elə bilirdim ki, indi kimsə dalımca gəlib aparacaq. Amma... ilk gündən gələn və bir gün də ayağını kəsməyən Rəsul Rza oldu... Bir də Abbas Zamanov».

Abbas Zamanov demişkən, 1960-cı ildə Universitetdə Səməd Vurğunun xatirə gecəsində Abbas müəllim çıxış edib ermənilərin Naxçıvana göz dikmələri, buranı alıb Ermənistana qatmaq istədikləri haqqında xəbərdarlıq etmişdi. Buna görə başı çox bəlalar çəkdi, partiyadan çıxarıldı. Atam: Fikir eləmə, Abbas - deyirmiş ona. - Bu gün səni partiyadan çıxarırlar, sabah buna görə səni qəhrəman sanacaqlar.

Beş ildən sonra Abbas Zamanov yenidən partiya üzvlüyünə bərpa edilir və Rəsul Rzaya məktubunda bu barədə sevinclə xəbər verir:

«Əziz qardaşım, Rəsul!

Salam! Vallah, lap ağ eləyibsən. Adam da bu qədər gəzər? Sən Bakıda olanda aylarla səni görməsəm, darıxmıram. Ancaq sən Bakıda olmayanda şəhər mənə darlıq edir. Xahiş edirəm, bir də belə uzun müddətə Bakını tərk etməyəsən.

Sənə bir-iki ürək açan xəbər vermək istəyirəm. Onun biri və ən mühümü budur ki, dövlət arxivindən bir xəzinə tapmışam. Arxivdə işləyərkən təsadüfən bir-birinin üstünə talanmış 75 şişman qovluğa rast gəldim. Gördüm ki, 30-cu illərdə AzFAN-ın tarix, ədəbiyyat və dil sektorlarında aparılmış bütün materiallar burdadır. Yanvarın 27-də Nizami İnstitutunun geniş elmi yığıncağında onların haqqında müfəssəl məlumat verdim.

İkinci xəbərim budur ki, artıq 23-də Mərkəzi Komitənin Rəyasət Heyəti məninı partiyaya qaytarılmam haqda qərar çıxartdı. Sənə yazmaq istədiyim şad xəbərlər bunlardır.

Öpürəm səni ***Abbas 25.11.1965»***

Bundan bir neçə il qabaq - 1954-cü ildə isə Rəsul Rzanın başqa bir yaxın dostu - Cəfər Cəfərov ağır günlər yaşamalı olmuşdu. Bu görkəmli ədəbiyyatşünas və teatrşünas alim,

savadlı və iti qələmli münəqqid nihilist və kosmopolit elan olunmuşdu. Yazıçılar İttifaqından çıxarılmışdı. Bu çətin günlərdə dostunun yanında olan, onu müdafiə edən adamlardan biri Rəsul Rza idi. C.Cəfərov irsinin araşdırıcısı Xatirə Quliyeva yazır: «C.Cəfərov sənətini qiymətləndirən, onu kəskin tənqidlərdən, iftira və təhqirlərdən müdafiə edənlər də vardı. Rəsul Rza bu yığıncağın (Yazıçılar İttifaqında Cəfərov ittiham olunan yığıncaq nəzərdə tutulur - A.) çoxsaylı çıxışçıları arasında yeganə adam idi ki, tənqidçinin nöqsanları ilə bərabər onun ədəbiyyatımız, sənət tariximiz üçün gördüyü əhəmiyyətli işləri göstərir, onu düşmən hesab etmir, Cəfər Cəfərovun hal-hazırda məşğul olduğu mövzular və gələcək planlarından danışırdı».

Həmin iclasın stenoqrammasında Rəsul Rzanın çıxışı belə verilib:

«Biz indi çox mürəkkəb bir məsələ müzakirə edirik - bir yazıçının taleyini. Ona görə də münasibət aydın və qəti olmalıdır. Cəfərovu düşmən hesab etmirəm. (Stenoqrammda Cəfərova məhz belə münasibət də əks olunub - A.) Elə hesab edirəm ki, onun düzəlməsinə şərait yaratmalıyıq. İndi o M.F.Axundov haqqında böyük bir kitab üzərində işləyir. Onun Azərbaycan teatrı haqqında kitabı rus oxucularını Azərbaycanın bir sıra teatr xadimləriylə tanış etmişdir. Qoy Cəfərov öz qüvvəsini səfərbər etsin, kitab və müasir mövzularda məqalələr yazsın».

Dərhal yığıncağın başqa bir iştirakçısı:

- Mən Cəfərova çox yumşaq münasibət göstərən yazıçıların çıxışlarından narazıyam, - deyir, - bu xüsusilə Rəsula aiddir. Dostluq münasibətlərini bir qıraға qoyub bunu partiya məsələsiylə qarışdırmaq olmaz. Əgər öz vaxtında Cəfər Cəfərov Ənvər Məmmədxanlının, Sabit Rəhmanın əsərlərinin nöqsanlarını tənqid etsəydi, indi Ənvər Məmmədxanlının yaradıcılığının sönməsinin (? - A.) şahidi olmazdıq. Cəfəri nihilist adlandırıram, yoldaşlar mənə irad tutur. Bütün mədəniyyətimizi inkar edən adama ayrı nə ad vermək olar. (Cəfərovun bütün

mədəniyyətimizi inkar etməsi onun teatr tariximiz haqqında ilk və hələ ki, yeganə samballı kitabı yazmasında, Mirzə Fətəli Axundov yaradıcılığını dərin elmi səviyyədə araşdırmasında, klassik və çağdaş Azərbaycan sənətkarları haqqında dərin məzmunlu məqalələr çap etdirməsində imiş - A.) Təklif edirəm, onu sıralarımızdan çıxaraq, qoy bizim ailəmizdən kənarda düzəlsin.

Rəsul Rza kimi Sabit Rəhman, Əbülhəsən, Məmməd Rahim də tənqidçinin Yazıçılar İttifaqı sıralarında qalmasını, öz səhvlərini düzəltmək üçün ona vaxt verilməsini təklif etmələrinə baxmayaraq səs çoxluğu ilə Cəfər Cəfərovu Yazıçılar İttifaqından çıxardılar. Çox illər sonra o, Mərkəzi Komitənin katibi olanda belə yenidən bu təşkilatda üzvlüyünü bərpa etməyə heç bir səy göstərmədi. Yalnız vəfatından neçə il sonra biz onu da, Heydər Hüseynovu da rəmzi olaraq İttifaq üzvlüyündə bərpa etdik...

60-cı illəıdə Mərkəzi Komitənin şöbə müdiri vəzifəsində çalışan Şıxəli Qurbanovu guya ki, millətçilik mövqeyindən yazılmış «Azərbaycan Kommunist partiyası tarixi»nin müəlliflərini müdafiə etdiyinə görə yüksək rütbəli Moskva partiya məmurları tənqid etmişdilər. Millətinin qeyrətini çəkən adam olan Şıxəli Qurbanov bu tənqidlərlə razılaşmamışdı və onu dərhal vəzifəsindən azad etmişdilər. O zaman Ensiklopediyanın baş redaktoru olan Rəsul Rza Şıxəli Qurbanovu dəvət etmiş və ona öz müavini vəzifəsini təklif etmişdi. Şıxəli təşəkkür etmiş və hansı mülahizələrə görə isə bu təklifi qəbul etməmişdi. Bir müddət sonra Vəli Axundov tərəfindən Azərbaycan KP MK-da daha da yüksək vəzifəyə irəli çəkilən - ideoloji katib seçilən Şıxəli Qurbanov atamın bu xeyirxahlığını unutmurdu və ensiklopediyanın bütün məsələlərinin həll olunmasında yardımını əsirgəmirdi.

Üç il bundan qabaq jurnalist Minaxanım Nuriyeva gözəl müğənni Nərminə Məmmədova haqqında xatirələr kitabını mənə bağışladı. Kitabda mənim «Sizsiz» adlı yazımdan da Nərminəylə əlaqədar bir parça dərc olunmuşdu. Vaxtilə radionun «Axşam görüşləri» verilişində əməkdaşlıq etdiyim

Nərminə xanımın atasının repressiya olunduğunu bu kitabdan bildim. Kitabda belə bir yer də var:

«Nərminə xanımın anası Şəfiqə xanım ərinin həbs olunduğu illərdə Stalin muzeyində işləyirdi. Nərminə özü isə xora gedirdi. Ana-bala birtəhər dolanırdılar. Lakin «Xalq düşməni» sözünün xofu, vahiməsi bir anda ana-balanı tərk etmirdi. Nərminə xanımın qızı Sevinc deyir:

«Anam həmişə dərdlərini mənimlə bölüşüb, elə hadisələr danışırdı ki, istər-istəməz kövrəlirdim. Anam deyirdi ki, həmişə özümə belə bir sual verirdim: «Bəlkə doğrudan da atam nə isə edib, onu tutublar? Və yaxud atam nə iş görüb ki, onu tutsunlar?!» Yenə anam danışırdı ki, radio komitəsində bir nəfər qəddi-qamətli, alagöz kişi mənə yanaşıb soruşdu ki, Ağası Məmmədbəylinin qızısan? Dedim - bəli. Dedi ki, sən deyilənlərə inanma, o, çox yaxşı adamdır. Anam sonra bilib ki, bu Rəsul Rzadır. Və deyir ki, biz hamıdan qaçdığımız, gözə görünmək istəmədiyimiz bir vaxtda onun məni dindirməsi, mənim daxilimdə gözəgörünməz bir dəyişiklik yaratdı» («Solsa da göy çəmənlər» kitabından).

Xalq artisti, rəhmətlik Nəcibə xanım Məlikova da bir dəfə mənə danışmışdı ki, məhz Ruhulla Axundovun bacısı qızı olduğuna görə atam ona kinostudiyada çox yardım edib.

Xalq artisti Zeynəb xanım Xanlarova görkəmli yazıçımız İlyas Əfəndiyevə həsr etdiyi yazısında xatırlayır: «Günlərin bir günü bir nəfər qəzetdə mənim haqqımda tənqidi bir yazı yazdı, guya, səhnədə azərbaycanlı qızına yaraşmayan açıq-saçıq hərəkətlər edirəm, sənətə yüngüllük gətirirəm. Doğrusu, bu haqsız iradlar mənə bərk təsir etdi, boynuma alım ki, bir qədər də ruhdan düşdüm, özümü danladım: «Gərək elə müğənni olaydın?..»

Bir gün lap tezdən İlyas müəllim zəng elədi: Balam, səndən nə istəyirlər? Yenə yazıblar. Sən bir «Ədəbiyyat və incəsənət» qəzetini tap oxu. Sonra zəngləşərik... Görək neyləyirik...

Düşüb köşkdən «Ədəbiyyat və incəsənət» qəzetini aldım, elə küçədəcə varaqladım. Gözlərimə inanmadım. İlyas Əfəndiyevlə Rəsul Rza mənim haqqımda ayrı-ayrılıqda məqalə yazmışdılar və həmin müəllifə «həddini» bildirmişdilər. Hərdən mənə elə gəlir ki, sənətə, daha doğrusu, əsil sənətə bu iki məqalə, bu iki xeyir-dua ilə gəlmişəm...»(«Azərbaycan» qəzeti», 3 oktyabr, 2000).

***

Əlbəttə, Rəsul Rzanın çağdaşları, öz nəslindən olan əhli-qələmlərlə münasibətləri problemlərsiz, mübahisələrsiz, birmənalı olmayıb. Qarşılıqlı anlaşılmazlıqlar da olub, toqquşduqları, şifahi çıxışlarında, mətbu yazılarında bir-birləri barəsində kəskin, bəzən ədalətsiz sözlər söylədikləri məqamlar da... Amma hər halda o nəslin də, sonrakı ədəbi nəsillərin də ən dəyərli nümayəndələri Rəsul Rzanın layiq olduğu yeri bildikləri və yazılarında etiraf etdikləri kimi, Rəsul Rza da heç bir istedada göz yummurdu; ayrı-ayrı şəxslər haqqında yazılarında, ədəbiyyatın ümumi problemlərinə həsr etdiyi məqalə, çıxış, məruzə və müsahibələrində çağdaşlarını layiqincə qiymətləndirirdi. Gənclik dostu Mehdi Hüseynlə çox yaxın silahdaş olduqları, bir-birini dəstəklədikləri məqamlar da vardı, yadlaşdıqları, şifahi çıxışlarında ya mətbuatda bir-birinə acı sözlər dediyi illər də, 50-ci illərdə Rəsul Rzanı kəskin tənqid edən Mehdi Hüseyn 60-cı illərdə mücərrədçiliyə qarşı kompaniya başlayanda Rəsul Rzanın tərəfində idi, çünki ədəbi əqidələrində - düz olsa da, yanılsa da, - səmimi idi.

Təsadüfi deyil ki, «Qızıl gül olmayaydı» poemasında xatırladığı və bir neçə cizgiylə portretlərini çəkdiyi gənclik dostları arasında Mehdi Hüseynin də obrazı var:

Biri də vardı
Qaşqabaqlı.
Aləm haqsız,
bir o haqlı.
Yetənə yetər,
yetməyənə bir daş atardı.
Düşmən bildiyinə kiri gəldikcə,
dosta bir az yavaş atardı.
Amma atardı.
Həm dramnəvis,
həm romançı,
həm tənqidçi.
Dili də
demə, görmədim, -
lap elə dilim kimi,
şəkərli badam içi.
Şeirimizə ürəkdətı yanırdı,
haqq desə də, deməsə də,
dediyinə ürəkdən inanırdı.

Mehdi Hüseyn öz iş yerində əsəbiləşib öləndə atam Moskvadaydı, həmin iclasda iştirak edə bilməmişdi. Mehdinin ölümünü böyük kədərlə qarşıladı, «mən olsaydım, qoymazdım o qədər üstünə düşsünlər, müdafiə edərdim», - deyirdi.

Özündən sonrakı nəslin istedalı nümayəndələrini də təqdir edirdi. Bəxtiyar Vahabzadənin kitabına ön söz və onun haqqında aynca məqalə yazmışdı. Əli Kərimdən üzü bəri o vaxtın gənc şair və nasirlərə münasibəti haqqında irəlidə danışacam.

***

Bu yazımda bir məsələyə də toxunmaya bilmərəm - Rəsul Rzayla Səməd Vurğunun münasibətləri məsələsinə. Bu münasibətlərdən danışanda bəzən iki bir-birinə zidd və məncə ikisi də səhv olan fikir yürüdülür. Bəziləri - əlbəttə, xeyirxah

məqsədlə, - bu iki şairi çox mehriban dost, onların əlaqələrini idillik planda təqdim etmək istəyirlər. Bəziləri isə onları bir-biriylə barışmaz, qatı düşmən sayırlar. Dediyim kimi, hər iki fikir kökündən yanlışdır; bu iki şairin arasında müəyyən illərdə çox isti münasibətlər olsa da, onların dostluğu, tutalım Səməd Vurğunun Mehdi Hüseynlə, ya Rəsul Rzanın Sabit Rəhmanla dostluğu qədər yaxın olmamışdır. Amma heç vaxt bir-birinə barışmaz düşmən də kəsilməmişlər. Səməd Vurğunun «Lenin» poeması haqqında dediyi və əvvəllərdə gətirdiyim sözlərindən başqa bir neçə məqalə, çıxış və məruzələrində də Rəsul Rzanın adı rəğbətlə çəkilir, şeirləri müsbət qiymətləndirilir. Rəsul Rzanın Səməd Vurğunun yaradıcılığını və şəxsiyyətini yüksək dəyərləndirən üç məqaləsi var və bir sıra başqa yazılarında da böyük şair haqqında fikirlər söyləyib. Rəsul Rza Səməd Vurğunun altmış illiyində yubiley komissiyasının sədri kimi Moskvada və Bakıda məruzələr etmiş, təntənələrin layiqli səviyyədə keçirilməsi üçün çox işlər görmüşdür. Səməd Vurğunla bağlı yazdığı yazılarında çoxlu xoş xatirələri var. Yerevanda Sasunlu David yubileyinə gedərkən qatarın Səməd Vuığunun gənclik xatirələriylə bağlı Dilican dərəsindən keçdiyi zaman onun kövrəlməsindən, sonra Yerevanda ora daha əvvəl gəlmiş və pisikdirilmiş Azərbaycan nümayəndələrinə ruh verməsindən, məclisi ələ almasından fərəhlə danışır, hər ikisinin hansı səbəblərdənsə gözdən düşdüyü vaxtlarda Samur-Dəvəçi kanalının açılışına birgə getmələrindən söz açır, ovçuluq xatirələrini yada salır. Atam ovçuluğa Səməd Vurğun kimi alüdə olmasa da ara-sıra ova gedərdi. Səməd Vurğun əsasən Mikayıl Rzaquluzadə ilə, atam Bəhram Ağayevlə ova çıxardılar, ancaq birlikdə ovçuluq etmələri də olub. Rəsul Rza ovda olan bir epizodu xatırlayır: «Mən tüfəngimin qayışını çiynimdən keçirmişdim. Ha-hu eləyib tüfəngi əlimə alınca Səmədin tüfəngi gurladı. Mənə baxıb güldü. - Səməd, niyə gülürsən - dedim. - Ayə, ov yerində tüfəngi dəyənək kimi saxlamazlar. Həmişə əlin tətikdə olsun».

Atamın xatirələrində yazmadığı başqa bir məzəli əhvalatı da danışdığı yadıma gəlir. Bir neçə yazıçı, o cümlədən atamla Səməd Vurğun da bir maşına doluşub qaranlıqda çöllükdə bir tülkünün dalınca düşüblərmiş. Maşın böyük sürətlə irəliləyirmiş.

Birdən sürücü əyləci basaraq maşını xırpadan saxlayıb. Düşüb görüblər ki, dərin bir yarğanın lap kənarında imişlər. Səməd Vurğun: bütün Azərbaycan ədəbiyyatı bir tülküyə qurban gedəcəkdi - deyib.

Bu idillik səhnələrdən söz açmaqla mən heç də onların münasibətlərinin həmişə dostcasına, mehriban olduğunu söyləmək istəmirəm, çünki bu da yalan olardı. Bir-birinə iclaslarda ağır sözlər dedikləri məqamlar da olub. Atam özü də bu barədə səmimi şəkildə yazır:

«Səməd Vurğunla harada, haçan tanış olduğumu deyə bilmərəm. Qalaq-qalaq günlərin arxasından bu ilk tanışlıq günlərini arayıb tapmaq çətindir. Səməd Vurğunu bir şair, bir insan kimi uzun illərin axarında, əgər belə demək olarsa, pillə-pillə, səhifə-səhifə tanıdım. Mübahisəmiz, birgə mübarizəmiz, fikir, zövq uyarsızlığımız, dostluğumuz, soyuqluğumuz da oldu».

1951-ci ildə bibim Turə rəhmətə gedəndə Səməd Vurğunun atama necə həssaslıqla, nəvazişlə ürək-dirək verdiyini xatırlayıram. Atamın bir söhbəti də yadıma gəlir. «Bir dəfə Səməd mənə sən kişisən, - dedi, - sənin yanında filankəs mənim barəmdə hərzə danışanda ağzından vurmusan».

Atam deyirdi ki, doğrudan da, belə bir məsələ olmuşdu və bunu Səmədə söhbətdə iştirak edən üçüncü bir adam çatdırıbmış. Amma Səməd Vurğun həmin o filankəsin ünvanına ana söyüşü söymək istəyəndə atam qoymayıb və Səməd: Sən indi də kişi kimi hərəkət edirsən, - deyib.

Abbas Zamanov «Kişi şair» adlı xatirələrində yazır: «Səməd Rəsulu bir şair kimi yüksək qiymətləndirirdi. Yazıçılar İttafaqında keçirilən bir yığıncaqda Səmədin dediyi sözlər yadıma düşür: «Rəsul istedaddır, orijinal şairdir. Ancaq

tünddür, inaddır, ipə-sapa yatmır. Buna görə biz onu ata bilmərik. Çalışıb onunla əl-ələ verməliyik...»

Abbas müəllim sözünə davam edir:

«Bir dəfə Buzovnada Rəsulun bağında nə münasibətlə isə kiçik bir qonaqlıq var idi. Gərək ki, kiminsə ad günü idi. Yadıma gəlir ki, Ənvər, mərhum akademik Mirəli Qaşqay, İsmayıl Əfəndiyev, rəssam Tağı Tağıyev Rəsulun qonağı idilər. Mən də oradaydım. Söhbət müasir ədəbiyyatdan, yazıçıların qarşılıqlı münasibətlərindən gedirdi. Mirəli Qaşqay Rəsula dedi:

-Ay Rəsul, mən ha eşidirəm ki, Səməd ilə Rəsul yola getmirlər, ancaq niyəsini demirlər. Bəlkə, bunu sən deyəsən. Axı sizin nəyiniz ortaqlı düşüb?

Rəsul cavab verdi:

-Ortaqlı malımız yoxdur. Doğrudur, Səmədlə mənim aramda mübahisələr, hətta küsüb barışdığınıız vaxtlar da olur. Lakin bu, sırf şəxsi səbəblərdən doğmur, üslub yarışından irəli gəlir. Üslublar yarışı olmayan yerdə əsl poeziya yarana bilməz. Təəssüflər olsun ki, bulanıq suda balıq tutmaq istəyənlər buna şəxsi don geydirib, ara vuıur, bizi bir-birimizə qarşı qoyur, dedi-qodulara səbəb oluıiar.

Məncə, bu doğru izah idi. Əslində Rəsul ilə Səməd bir yolun yolçuları olan əməl dostları idi. Axı, dostların da, qardaşların da aralarında müəyyən narazılıqlar olur».

Abbas müəllimin sözünə qüvvət, belə ara vuranlar, bulanıq suda balıq tutmaq istəyənlər şairlərin sağlığında olduqları kimi, indi də var.

Səməd Vurğun o vaxtlar «Литературная газета»da çap etdirdiyi məqalədə atam haqqında etinasız bir cümlə işlətmişdi. Atam bundan bərk incimişdi və Səməd Vurğunun məqaləsinə cavab yazıb həmin qəzetə göndərmişdi. Yadımdadır ki, bu məqalədə Rəsul Rza hissə qapılaraq Səməd Vurğuna ədalətsiz iradlar da tutmuşdu.

Yaxşı ki, məqalə dərc olunmadı və bir müddət sonra atam «soyuyub» mənim də iştirak etdiyim iclasda həmin

məqalədən imtina etdiyini söylədi. Yaxşı yadımdadır, belə dedi: «Səməd yoldaşın iradlarından narazı qalıb mən də məqaləmdə bəzi düzgün olmayan hökmlər vermişdim, bu məqaləni indi yazmış olsaydım, çox şeyləri təshih edərdim».

Bununla da incilik, narazılıq, anlaşılmazlıq aradan qalxdı.

Amma bu günün özündə də həmin məqaləni ədəbi polemikanın məhsulu kimi deyil, tamam başqa şəkildə yozmağa çalışan vicdansızlar tapılır. Səməd Vurğunla Rəsul Rzanın sağlıqlarında onların arasını vurmaq üçün dəridən-qabıqdan çıxanların mənəvi varisləri indi onların ölülərindən də əl çəkmirlər. Vaqif Səmədoğlu belələrinə mətbuat səhifələrində tutarlı cavab verdi. Yusif Səmədoğlu vaxtsız rəhmətə getdi, amma nə qədər ki, Vaqif və mən sağıq, belə cəhdlərə yol verməyəcəyik, bizdən sonra da bu sayaq təşəbbüslərə cavab verən vicdanlı adamlar tapılar.

Yenə də Abbas Zamanovun xatirələrindən bir parçanı gətirmək istəyirəm: «Təsadüfi deyildir ki, Yusif, Vaqif və Anar şüurlu həyata qədəm basdıqları günlərdən dostdurlar, özü də adicə dost deyil, doğma qardaş kimidirlər. Heç şübhəsiz ki, bu dostluq onlara atalarından keçmişdir».

Abbas müəllim haqlıdır, bizim evdə atamın, anamın dilindən Səməd Vurğuna qarşı heç bir nalayiq söz eşitmədiyimiz kimi, Yusiflə Vaqifin dediyinə görə onların ataları da heç vaxt Rəsul Rza haqqında pis danışmazmış.

Rəhmətlik Yusif həmişə Vaqiflə mənə: «biz üç qardaşıq» deyirdi. Mən də hər ikisini həm doğma qardaş kimi, həm də ədəbiyyatımızın çox istedadlı nasiri və şairi kimi sevirdim və sevirəm. Xəbis ürəkli adamlar, özləri heç bir vaxt dostluqda sədaqətin və etibarın nə olduğunu bilmədikləri üçün bizim münasibətlərimizin səmimiyyətini ağıllarına sığışdıra bilmirlər.

Saxladığım ən mühüm və mənimçün çox qiymətli sənədlər arasında Yusif Səmədoğlunun «Müxalifət» qəzetinə göndərdiyi məktubun surəti var:

«Möhtərəm redaktor!

«Müxalifətin 12 sentyabr 1992-ci il nömrəsində Aydın Uluxanlının «Yaxşı padşahın nağılı» yazısını oxuduqdan sonra bir daha başa düşdüm ki, səhifələri şəxsi ambisiya naminə böyük Azərbaycan ədəbiyyatına güclə soxulmaq üçün xalqımızın gözəl ziyalısını, görkəmli yazıçımız Anarı təhqir məqsədinə yönəlmiş tendensiyaya xidmət edən bir qəzetin redaksiya heyətinin üzvü ola bilmərəm. Xahiş edirəm, məni redaksiya heyəti üzvlüyündən azad edəsiniz.

Y.Səmədoğlu»

Bu kiçik məktub mənə dostluqda etibarın, sədaqətin günümüzdə nadir hallarda rastlaşdığımız misilsiz örnəyi kimi əzizdir.

***

Yazıçılarla, bəstəkarlarla, rəssamlarla, teatr və kino xadimləriylə yanaşı Rəsul Rzanın alimlər arasında da dostları az deyildi. Akademiklərdən Yusif Məmmədəliyev, Mirəli Qaşqay, İmam Mustafayev, Həsən Əliyev, Əbdülkərim Əlizadə, İsmayıl Hüseynov, Həmid Araslı, Şəfaət Mehdiyev, Əhəd Yaqubov, Fuad Əfəndiyev, Ələvsət Quliyev, Ziya Buniyadov və başqa alimlərimizlə çox xoş münasibətləri vardı. Akademik Murtuza Nağıyevi yaxından tanımırdı, amma onun atamın yaradıcılığına marağını, şeirlərni dərindən qavradığını böyük məmnunluq hissiylə bilirdi. Murtuza Nağıyev «Fikirlər poeziyası» adlı məqaləsində yazırdı:

«Müasir şeir, müasir poeziya dedikdə ilk növbədə yadıma düşən şairlərdən biri Rəsul Rzadır. Mən Rəsul Rzanın şeirlərini oxuduqdan sonra özümdə qəribə rahatlıq duyuram. Bu şeirlər adamı düşündürür, mənəvi cəhətdən təmizləyir, yüksəldir. Onun yaradıcılığındakı intellektual səviyyə, günün problemlərinə verilən aydın cavablar, elmlərin inkişafı ilə şeiri əlaqələndirmək bacarığı sübut edir ki, Rəsul Rza gündən-günə inkişaf edən, planetimizin nəbzini tutmağı bacaran şairdir. Rəsulun şeirlərində tibbə, riyaziyyata aid ifadələr şeir dili ilə

elə sadə deyilir ki, hiss edirsən - bunu yalnız elmlərə yaxşı bələd olan sənətkar bacarar» («İki ömrün işığı» kitabından).

Uzun illərdən bəri Moskvada yaşayan başqa bir görkəmli alim, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü Həbib Məmədəliyev də Rəsul Rza yaradıcılığını diqqətlə izləyir, atama yazdığı məktublarda təəssüratını bölüşürdü. Məktublarından birində yazırdı:

«Əzizlərim Rəsul müəllim, Nigar xanım və Anar! Şeirdə əsrin şairləri Mayakovski və Nazim Hikmətin, Azərbaycan poeziyasında da Rəsul müəllimin, sizin yaratdığınız cərəyan şeirin gələcək inkişafında əsas istiqamətdir. Bu axının qarşısını almaq olmaz, çünki məhz bu cərəyanda poetik sözün və poetik fikrin ifadəsi üçün hüdudsuz imkanlar yaranır. Bu gün çox adam bununla razılaşmaya bilər, amma bunun heç bir əhəmiyyəti yoxdur. Əminəm ki, Zaman öz hökmünü verəcək».

Rəsul Rzanın «İnsan şəkli» və başqa şeirlərindən çoxlu misallar gətirdiyi on səhifəlik məktubunun sonunda Həbib müəllim yazır: «Mən dəfələrlə demişəm ki, Rəsul müəllimin «Qızıl gül olmayaydı» poeması müharibədən sonrakı şeirin zirvəsidir və düşünürəm ki, yanılmıram».

Dəqiq elmlərin və təbabətin daha sonrakı nəsillərinə mənsub olan Fərəməz Maqsudov (atam haqqında xatirələr yazıb), Xudu Məmmədov, riyaziyyatçılardan Arif Babayev, Arif İsmayılov (atam haqqında məqaləsi var), cərrah Nurəddin Rzayev (şair haqqında telefilmdə çıxış edib) Rəsul Rza yaradıcılığını yüksək dəyərləndirirdilər.

Atam bəzən, «vallah dəqiq elmlərin nümayəndələri şeiri bəzi tənqidçilərimizdən min dəfə yaxşı başa düşürlər», - deyərdi. Özü də elmə maraq göstərər, alimlərimizin hər uğuruna ürəkdən sevinərdi. O vaxtlar elm aləmində hələ təzə-təzə tanınan, indi akademik olan Azad Mirzəcanzadəni «Известия» qəzetində dərc olunmuş məqalələrinin birində ümumittifaq oxucusuna təqdim etmişdi.

Dəqiq elmlər sahəsində çalışan alimlərin, (əlbəttə, hamısının yox) şeirə bu marağı, ən əsası isə yeni şeiri dərindən

duyması haqqında düşünəndə XX əsrin ən böyük alimi fizik Albert Eynşteynin bir fikri yadıma düşür. Eynşteyn deyirdi ki, bədii əsərlərdən aldığım qidanı heç bir riyaziyyat yaxud fizika qanunlarından ala bilmərəm.

***

Rəsul Rza və ədəbi gənclik. Bu həm çox fərəhli, həm də kədərli bir mövzudur. Həyat və yaradıcılığının təqribən iyirmi ilini əhatə edən son dövründə Rəsul Rzanın ən böyük sevinclərindən biri Azərbaycanda çox güclü və istedadlı şairlər nəslinin yetişməsi idi. Üslub, yaradıcılıq prinsipləri etibarilə ona yaxın olub-olmamasını əsas götürmədən Rəsul Rza heç bir ədəbi istedadı nəzərindən qaçırmırdı. Onlarca gənc şair haqqında ya «Ümid və arzular», «Gənclər», «Ümid verən gənclərimiz», «Müxtəlifiər və yaxşılar» adlı ümumi məqalələrində, müsahibələrində bəhs edir, ya ayrı-ayrılıqda bir çoxu haqqında yazılar yazırdı. Ona müraciət edənlərə şəxsi ya mətbuatda dərc etdirdiyi açıq məktublar göndərir, bu məktublarda tanış olduğu örnəklər haqqında tələbkarlıqla fikir söyləyir, qüsur və müsbət cəhətlərini göstərirdi. Neçə-neçə gəncə «uğurlu yol» başlığıyla xeyir-dua verib jurnal, qəzet səhifələrində şeirlərini təqdim edirdi. Və bu gün istedadına inandığı adamların demək olar ki, tam əksəriyyəti, nadir istisnalarla, ədəbi aləmdə görkəmli yer tutmuş, özünü təsdiq etmiş və şeirimizin aparıcı qüvvələrinə çevrilmiş adamlardır. İndi bunu hamı təsdiq edir, amma o vaxt, çoxusunu ilk addmılarından görmək, təqdir etmək, meydana çıxarmaq üçün şair fəhmi və ədəbiyyatın gələcəyinə ciddi, məsuliyyətli münasibət gərək idi. Bayağı və bəsit adamlar bunu bəzən Rəsul Rzanın öz ətrafına havadarlar toplaması kimi, ancaq onun yoluyla gedən şairləri dəstəkləməsi kimi və beləliklə, onları yollarından sapdırması kimi qələmə verirdilər. Əgər Rəsul Rzanın kimlər haqqında ayrıca məqalələr yazdığına (bu məqalələr cildlərinə daxil edilib) nəzər salsaq belə fıkirlərin nə

qədər əsassız olduğu aydın görünür. Özündən sonra gələn nəsillərdən kimlər haqqında məqalələr yazırdı Rəsul Rza, kimlərə ümid bağlayırdı? Yalnız adlarını çəkmək kifayətdir: Bəxtiyar Vahabzadə, Əli Kərim, Məmməd Araz, Fikrət Sadıq, Fikrət Qoca, Vaqif Səmədoğlu, Vaqif Nəsib, Ramiz Rövşən, Abbas Abdulla, Çingiz Əlioğlu, Vahid Əziz... Bu şairlərin bugünkü ədəbiyyatımızda yerini kim inkar edə bilər və kim iddia edə bilər ki, onlar məhz Rəsul Rza yoluyla gedirlər? Hərəsinin öz yaradıcılıq fərdiyyəti, öz üslubu, öz yolu var. Rəsul Rzayla onları yalnız bir şey birləşdirirdi - istedad və bu istedadı vaxtında duymaq bacarığı.

Atam təbiətcə çılğın olan Xəlil Rzanı qayğıkeşliklə qoruyurdu. Bəxtiyar Vahabzadə xatırlayır ki, Xəlilin «O sahildə, bu sahildə» rədifli şeirinin üstünə düşəndə, «bir gün hər şey dəyişəcək o sahildə, bu sahildə» misralarına siyasi rəng veriləndə Rəsul Rza: «şairdən nə istəyirsiniz, düz deyir, o sahildə də hər şey dəyişəcək, xalq azadlığa çıxacaq, bu sahildə də hər şey dəyişəcək, indi sosializmdə yaşayırıq, haçansa kommunizmdə yaşayacayıq» sözləriylə gənc dostunu qanadı altına almış, ağır ittihamlardan xilas etmişdi.

İsa İsmayılzadəni və Ələkbər Salahzadəni elə ilk şeirlərindən dəstəkləmiş, yeri gələndə müdafiə etmiş, onlara hər cəhətdən yardım əlini uzatmışdı.

O vaxt şeirlərini atama təqdim etmiş Şamil Salmanova ətraflı açıq məktub yazıb çap etdirmiş, gənc müəllifin yazılarında uğurlu cəhətləri və gözə çarpan nöqsanları ətraflı təhlil etmişdi. İltifat Salehə, Əjdər Fərzəliyə, Rasətə də təhlil xarakterli məktublar yazıb.

Nüsrət Kəsəmənlini və Tair Taisoğlunu, Camal Yusifzadəni və Rəhman Babaxanlını, Sadıq Qaranı və Qürbət Əzizi, gənc şairələrdən Rəhiləni və Laləni də gərək ki, mətbuata ilk təqdim edən Rəsul Rza olmuşdu.

Belə təqdimatlarından birində yazırdı:

«Gündə məktublar gəlir, oxucu məktubları, şeirli məktublar. Şeirli məktublara daha çox sevinirəm. Şeirli

məktubları əvvəllər də alırdım. Vaxt var idi məktublar məni tez-tez kədərləndirirdi. Müxtəlif rayonlardan, şəhərlərdən, kəndlərdən gəlmiş bu şeirlərin çoxunu sanki bir adam yazmışdı - qafiyələr, ifadələr, düşüncə, deyim tərzi, obrazlar sistemi o qədər çeynənmiş, o qədər tanış, o qədər olanların təkrarı idi ki, bu ümumi sözlərin axarında müəllif fərdini, sifətini görmək mümkün deyildi. Son illərin şeirli məktubları məni fərəhləndirir. Yeni ifadə formaları, təşbehlər, yeni obrazlar, fikrin, hissin hələ açılmamış, deyilməmiş çalarları və bütün bunlardan doğan fərdi sima, müstəqillik, özünəlik. Son illərdə aldığım şeirli məktubların bir məziyyəti də var. Əvvəllər aldığım məktubların müəllifləri, əsasən bircə məqsəd güdürdülər - necə olur-olsun təki mətbuat səhifələrində yazılarını, imzalarını görsünlər. Son illər aldığım şeirlərin müəlliflərini daha ciddi, mən deyərdim, daha nəcib və nigaran suallar düşündürür. Çap olmaqdan daha artıq nə dərəcədə çapa layiq olbu-olmadıqlarını bilmək ehtiyacı, axtarışlarının yönü, istiqamətinin nə qədər doğru-düzgün olması fikri, reklam və şöhrət həvəsi yox, ünsiyyət, məsləhət, yaradıcı söhbət istəyi. Ədəbiyyat çox zaman adamı seçmək məcburiyyəti qarşısında qoyur: ya gərək sənəti şöhrətə qurban verəsən, ya da şöhrəti sənətə» («Ədəbiyyat və incəsənət» qəzeti, 15 fevral 1969).

Rəsul Rzanın arxivində gənc şairlərin göndərdikləri məktublar və şeirlər saxlanır. Belə məktublardan ikisi Vaqif Cəbrayılzadədəndir: Bir məktubunda o vaxtlar tez-tez mətbuatda məqalələrlə çıxış edən tənqidçi-filosofun fikirləriylə mübahisə edir. İkinci məktub isə belədir:

«Salam Rəsul müəllim!

Vaxtınızı aldığım üçün əvvəlcədən üzr istəyirəm. Məktub yazmaqda məqsədim yazılarım haqqında Sizin fikrinizi bilməkdir. Mümkünsə, yazın, boş vaxtlarda dərslərlə, qalan vaxtlar isə şeirlə məşğul olmağıma dəyərmi? Hörmət və səmimiyyətlə

Vaqif Cəbrayıldzadə
Azərbaycan Politexnik İnstitutunun II kurs tələbəsi»

Yəqin ki, Vaqif indi çox şeyi unutduğu kimi bu məktubunu da unudub, bəlkə məktubunda göndərdiyi şeirləri də unudub və kağız əllə yazıldığı üçün ola bilsin ki, onların ikinci nüsxəsini də saxlamayıb. Odur ki, həmin şeirləri burda verirəm:

Qürbətdə Vətən

Gözəlliklərə baxış
göz ucunda
Göynək - burun ucunda,
Od bürcündə.
Göydə axtarmaq,
Yerdə tanış üz.
Hər çayı Arüz bilib köks ötürmək.
Uzaq üfüqləri yaxın gətirmək.
Ətəyi yerə çatan
Söyüd, nanə, tənək.
Bir sənək,
içində də yuxusuz uşaqlığın
qarpızı ola.
Ya da arxanca atılan su.
Yataqda qor, hərəsi bir ilan vuran yuxusu.
Bir iylim yarpaq.
Öpüb gözə qoymağa
bir ovuc torpaq.
Uşaq kimi göyrələn böyük,
dünyada ən ağır yük.

Şəlalə
Çiçək çələngi.
Dağlar deşən Fərhad külüngü.
Qəflətən qışqıran lal.
Ov üstünə düşən qartal.
Çayların ayaq səsi.
Yuxarıların aşağılara qəhqəhəsi.

Canavar qorxusundan aşağı atılmış quzu.
Gözdən tökülən yuxu.
Cəmşidin yana əyilmiş camı.
Bir hörüklük söyüd salxımı,
özü də toxuna yellərə.
Burdan batıb hardansa çıxacaq fəvvarə,

Dəniz düşüncələri

Nədir dənizdən gələn səslər, haraylar?
Yoxsa dənizdə darıxır qayalar
Şülək-şülək verib əl-ələ
dalğa-dalğa qayıdır sahilə.
Bəlkə ata həsrətli uşaq axtarırlar,
Göyərçin ləpələrin qanadında ovutmağa.
Yox! Yox! Çaylar yol axtarırlar
dağlara qayıtmağa.
Dəniz niyə pıçıldayır,
Yoxsa sahildən cüt-cüt keçənləri sayır?
Bəlkə də qorxur, göyərçin ləpələri
uçurda, sahil yalqız qala.
Ya da hansı qayadansa oğlan gedə, qız qala.
Niyə qışqırır dəniz?
Yoxsa böyüyüb ləpə balaları
cavan dalğa olublar,
İndi də baxmırlar sözünə.
Deyəsən, qışqırmaqdan dəli olub dəniz,
Cindar Tükəzban xala üfürür gözünə.

Təzad
Dənizdəyik, suyumuz qurtarıb.
Bilmirsən ki, belə işə necə inanasan,
Dörd yanın su ola, susuzdan da- yanasan.

Bulaq
Əyilib qaya dizinə dağ ağlayır.
Bəlkə, duman tüstü kimi dolub gözünə?
Bəlkə, gedib qayıtmayan yollar
oğlunun ağ çalmasını əlində qoyub?
Günahı ağzıgöyçəklərin boynuna.
Deyirlər:
kimsə yanında soğan soyub».

Açıq-aşkar Rəsul Rza poetikasının, özəlliklə «Rənglər» silsiləsinin və «Dəniz nəğmələrinin» təsiriylə yaranmış bu şeirlərə atamın münasibətini, müəllifə cavab məktubu yazıb-yazmadığını bilmirəm. Amma 1981-ci ildə M.Əhmədin apardığı son müsahibələrinin birində istedadlı gənclərin sırasında Rəsul Rza Vaqif Cəbrayılzadənin də adını çəkib:

«İndi istedadlı gənclik gəlib ədəbiyyatımıza. Bu gənclər arasında adını çəkmək istədiyim az deyil. Lakin hamısının adını çəkmək çətindir. Bunların arasında, belə demək mümkündürsə, artıq öz yolunu müəyyən etmiş «yaşlı gənclər» də vardır: M.Araz, Ə.Əylisli, Elçin, İ.Məlikzadə, F.Qoca, F.Sadıq, M.İsmayıl, İ.İsmayılzadə, V.Səmədoğlu, Ə.Salahzədə, V.İbrahim və başqaları... Daha gənc şair və nasirlərdən diqqəti çəkən yeni qüvvələr var: Ramiz Rövşən, Mövlüd Süleymanlı, Vaqif Cəbrayılzadə, Eldar Baxış, Tahir Tais, Dilsuz...»

Rəsul Rza gənc nəsli öz nüfuzuyla dəstəklədiyi kimi, istedadlı cavan şairlərin sənət uğurları öz-özlüyündə Rəsul Rzayçün mənəvi dayaq idi, qəlbini qürur və fərəh hisslərilə doldururdu. Rəsul Rzanın böyük ümid bəslədiyi o vaxtın gənc şairi, bu gün həmin ümidləri yüzə-yüz doğrultmuş Xalq şairi Fikrət Qoca haqqında kitab yazmış tənqidçi Vaqif Yusifli bu məsələyə də toxunur:

«Rəsul Rza kimi böyük sənətkar altmışıncı illərdə bir şair kimi sanki yenidən doğuldu. İncə, zərif nərgiz öz yenilməz həyat qüvvəsi ilə qalın asfaltı yarıb günəşə boylanan kimi Rəsul Rza poeziyası da ədəbiyyatda belə bir missiyanı yerinə

yetirir... Rəsul Rza altmışıncı illər üçün doğrudan da fenomen şair idi. Azərbaycan şeirinin sərt realizmlə zənginləşməsində, üslub polifonizminin, fəlsəfi lirikanın yeni forma elementlərinin yaranmasında onun xidmətləri layiqincə araşdırılmamışdır...

Altmışıncı illərdə ədəbiyyata bir sıra istedadı gənclər gəldi, onların əksəriyyəti Rəsul Rzanın ədəbi qayğısı ilə yetişdilər, poeziyada təsdiq və etiraf olundular. Qətiyyətlə deyə bilərik ki, Əli Kərim, Fikrət Sadıq, İsa İsmayılzadə, Ələkbər Salahzadə, Yusif Həsənbəy, Vaqif Səmədoğlu, daha sonralar Ramiz Rövşən kimi istedadlı şairlər Rəsul Rza məktəbinin yetirmələridir. Nəhayət, Fikrət Qoca... Fikrət Qocanın bir şair kimi püxtələşməsində, kamilləşməsində heç şübhəsiz ustadın böyük rolu olmuşdur. Altmışıncı illər hələ başa çatmamış son dərəcə istedaddı şair Əli Kərim dünyasını dəyişdi. Onun da böyük istedadını ilk dəfə Rəsul Rza duya bildi». (Vaqif Yusiflinin «Ürəyimi sərdim günəşə» kitabından, 1997)

Ədəbi insafı olan heç bir kəs dana bilməz ki, altmışıncı illərdən başlayaraq «Yeni şeir» yeni nəsilləri təsiri altına aldı, daha əvvəlki illərdə Rəsul Rzanın uğrunda tək başına mübarizə apardığı ədəbi təmayül, ədəbi cərəyan - qarşısıalınmaz bir axına çevrildi. İndi Rəsul Rzanın çağdaş şeirimizə güclü təsirini inkar etmək mərhum şairi yox, onu dananların əxlaqını səciyyələndirir.

***

60-cı illərdə yetişən ədəbi nəslin hər uğuru Rəsul Rza üçün güvənc yeri, onun iftixarı və fərəhi idisə, gənclərlə bağlı sevincləri çox idisə, qayğıları, «baş ağrısı», kədərli anları da az deyildi. İstedadlı gəncləri Rəsul Rzaya dayaq, arxa olduqlarına görə, Rəsul Rzanı isə onlara qahmar durduğuna görə tənqid atəşinə tuturdular.

Vaqif Səmədoğlu yazır:

«İndi gülünc görünür o şeylər, o söhbətlər... Amma o vaxtlar Rəsul Rza olmasaydı çoxumuzun iradəsi sına bilərdi... Yeni şeirə tamamilə ədalətsiz münasibət vardı və bu çəpərləri sındıran əlbəttə ki, Rəsul Rza idi. Əsas zərbələri də məhz o alırdı» (Xəzər» dərgisi, N2, 1997).

Bu belədir, indi o söhbətlər, o qərəzli yazılar, tikanlı replikalar adama gülünc gəlir, amma o illərdə nə qədər qan-qaralığa səbəb olurdu. Bəzi örnəklər verirəm. Ona görə yox ki, təzədən o köhnə söhbətlərə qayıtmaq istəyirəm. Ona görə ki, indiki nəsillərin o illərin ədəbi-ictimai ab-havası haqqında ya heç anlayışları yoxdur, ya da çox səthi təsəvvürləri var. Elə o vaxtkı gənc nəslin indi yaşlaşmış bəzi nümayəndələri də bir çox faktları unutmuşlar, yaxud özlərini unutmuş kimi göstərirlər. Bütün bunları görməmiş, yaşamamış sütül şairlər bu gün istədikləri kimi və asanlıqla getdiyi yolların vaxtilə hansı nıüqavimətlərə rast gəlinərək aşıldığını bilsələr pis olmaz.

***

1964-cü ilin oktyabrında «Kommunist», «Azərbaycan gəncləri» və «Ədəbiyyat və incəsənət» qəzetləri gənc şair və nasirlərə qarşı - məhz Rəsul Rzanın təqdir və təqdim etdiyi cavanlara qarşı təşkil olunmuş və koordinə edilmiş geniş kompaniya başladı.

Oktyabrın 30-da «Kommunist» qəzeti imzasız bir replika verdi. Replikanın çox «orijinal» başlığı vardı: «Şeir yoxsa tapmaca?»

Tənqid hədəfləri Əli Kərim, İsa İsmayılzadə və Ələkbər Salahzadə idi. Replikada deyilir:

Boynuna qol salıram saatımın.
Otururam ömrümün
Bir parçasının kölgəsində.

Düzürük yetişmiş dəqiqələri
On dörd günlük ay boşqaba.
Yeyirik şirin-şirin.

Elə güman etməyin ki, bu nə məqsədləsə yazılmış parodiyadır. Xeyr, yuxarıdakı misralar şair Əli Kərimin «Fraqmentlər» adlı lirik şeirindən götürülmüşdür. Şair həmin şeirində otuz illik ömrünə nəzər salır və tapmacaya oxşar belə misralar deyir.

«Azərbaycan» jurnalının 9-cu nömrəsində dərc olunmuş bu şeirdə:

Bəzən baş tutmayan şeirimin
Dağılmış divarlarının xarabasında.
Bəzən söz yarışında,
Bəzən ölüm sözünün
polyar qışında,
Bəzən günlərimi
başlı-başına buraxıb
onlarsız əylənmişəm.

-kimi dolaşıq, dumanlı misralar da vardır. Şair ömrünün günlərinin hara düşdüyünü, nə vaxt düşdüyünü bilmir?! Onların bəzisinin toz olub ayaqlar altında qaldığını, bəzisinin hansı maşındasa yadından çıxıb getdiyini deyir. Əgər o özü mənalı günlərini mənasız günlərdən ayırmağa çətinlik çəkirsə, bəs oxucu şairin demək istədiyi fikri anlaşılmaz misralardan necə başa düşsün? Görəsən, «Azərbaycan» jurnalı bu dumanlı şeiri oxuculara nə fikirlə təqdim elmişdir».

Replikanın anonim müəllifi Əli Kərimlə haqq-hesabı çürüdüb keçir Ələkbər Salahzadəylə İsa İsmayılzadənin şeirlərinə: «Bu şeirlərin də əksəriyyəti məzmunsuz, sönük və dolaşıqdır.

Hər iki gənc şair elə bil söz güləşdirir, sanki qəsdən çalışır ki, fikri oxucuya gec çatsın və ya heç çatmasın. İ.İsmayılzadə «Yağış gölməçələri» şeirində yağışdan sonra

yaranmış bulanıq gölməçələrə «fəlsəfi» münasibətini belə bildirir:

Yağdı, tala-tala gölməçə yağdı,
Göylərin dəlisov ilhamı yağdı.
Sərçələrin soyuq hamamı yağdı.
Həmin «şeirdən» ikinci misal:
Uşaqlar yollandı yuxu dalınca
Onların doluxmuş izi soğuldu.
Göy-göyə çəkildi, payız-ağaca,
Gölməçə kor oldu,
Elə bil lorpağın gözü soğuldu.

Gənc şair ancaq özünün başa düşdüyü misralardan əvvəl isə özü haqqında bir neçə daha «orijinal» söz demişdir:

Göyə yuxarıdan aşağı baxdım
Bir vaxt Avropanın salonlarından
Bodenşted bizə baxdığı kimi.
Daş atıb göylərin evini yıxdım,
Bir dərviş Parisi «yıxdığı kimi».

Yaxşıdır ki, replikadakı rişxəndlər və istehzalar şeirlərdən gətirilən konkret misallarla «əsaslandırılır».

Daha doğrusu, əsaslandırılmır, əksinə ağıllı və zövqlü oxucu bu misraların dırnaqsız-filan orjinal olduğunu, onlara tutulan iradların isə bəsitliyini və bayağılığını özü görür.

Replikada Ələkbər Salahzadənin şeirləri də eyni səviyyədən tənqid olunur: «Gənc şair Ə.Salahzadə isə «Əsrin ortalarında» şeirində məzmunsuz və mücərrəd fikirlər söyləyir. Onun iddia etdiyinə görə bizim əsrin ortalarında:

Qurtulmaq olmur hələ
Namərdlərin torundan
Kosmonavtlar doğuldu...
Nazim qatardan düşdü...

Burada hansı namərdin torundan söhbət gedir, kosmonavtların doğulması ilə şair Nazim Hikmətin qatardan düşməsinin nə əlaqəsi? Nəhayət, əsrin ortalarında «yaxşı şeir çoxalır» – deyən müəllif nə fikirlə həmin şeirlərin, hələ üstəlik nəsrin də ortalarında əsrin havasının çatmadığından dəm vurur? Əslində bu şeirin özünün nə əvvəllərində, nə axırında, nə də ortalarında məhz əsrin havası yoxdur. Bu gənc şairin fəlsəfəsi deyil, büdrəməsidir.

«Adətən büdrəyən adamın əlindən tutub onu qaldırarlar. «Azərbaycan» jurnalının redaksiya heyəti də belə etməli, sənət yollarına təzəcə qədəm qoyan gənclərimizi büdrəməyə qoymamalı idi. Gənc şairin zəif, nöqsanlı şeirini mətbuatda vermək heç də xeyirxahlıq deyildir. Jurnalın redaksiya heyəti unutmamalıdır ki, gəncliyə ən böyük qayğı ona qarşı tələbkar olmaqdır».

Replikadakı bu son sözlər bir gün sonra, 1964-cü il oktyabrın 31-də «Ədəbiyyat və incəsənət» qəzetində dərc edilmiş məqalənin adı idi: «QAYĞI VƏ TƏLƏBKARLIQ».

Eyni gənc şairlərin tənqidinə həsr olunmuş bu iki yazının bir gün fərqlə çıxması, hər ikisində eyni anlayışlardan (qayğı, tələbkarlıq) istifadə olunması, nəhayət, irad tutulan misralarm eyniliyi - bu yazıların və bir neçə gün sonra «Azərbaycan gəncləri» qəzetində çap olunan «Şeir-rebus» yazısının eyni bir mərkəzdən təşkil və idarə olunduğunu göstərirdi. Əgər «Kommunist»dəki replika adsızdırsa, «Ədəbiyyat və incəsənət» qəzetindəki məqalənin müəllifiəri iki nəfər adlı-sanlı şairimiz idi.

«Qayğı və tələbkarlıq» məqaləsində də dediyim kimi eyni şairlər və eyni arqumentlərlə, amma bir az daha geniş şəkildə tənqid olunurdular. Heç bir şərh vermədən - bunun da səbəbi var - həmin məqalədən bir neçə fraqmenti gətirmək istəyirəm: «Çox qəribədir ki, belə gənclər bəzən «əbədi mövzular», yenilik pərdəsi altında -xarüqələrlə dolu zəngin həyatımızdan uzaqlaşır və nə yazdıqlarını yalnız özləri başa düşürlər. Bəzi gənclər oxucuları təəccübləndirmək üçün yazılarında əcayib-qərayib sözlər işlədir, şeir dilimizi eybəcər şəklə salırlar. Bizim

müqəddəs borcumuz istedadlı gənclərimizi doğru yola səsləmək, onlara ardıcıl kömək etməkdən ibarətdir. Lakin bəzən bizim aramızda belə gəncləri tərbiyə etmək əvəzinə, tərifləyənlər, lüzumsuz havadarlıq göstərənlər də tapılır. Bu doğru tərbiyə üsulu deyildir. Biz çox yaxşı bilirik ki, modabazlıq - novatorluq deyil. Yenilik - ilhamsız, quru mühakimələrdən, uydurmalardan, düyümlü ifadələrdən, qarışıq fikirlərdən ibarət olmamalıdır. Biz istedadlı gəncləri yanlış yoldan vaxtında çəkindirməliyik, var qüvvəmizi sərf edib, onları sağlam sıralarımızda tərbiyə etməliyik. Xalq şairimiz Rəsul Rza respublika məlbuatında və mərkəzi mətbuat səhifələrində gənclərimizin yaradıcılığına həsr edilmiş məqalələrlə çıxış etmişdir. Bu çox yaxşı təşəbbüsdür. Lakin, zənnimizcə, gənc istedadlara qayğı birtərəfli olmamalıdır. Elə bu nöqteyi-nəzərdən biz Rəsul Rza yoldaşın məqalələrindəki ifrat tərifla razılaşa bilmir və həmin məqalələrdə yaradıcılığından birtərəfli söhbət gedən bəzi gənc şairlərin lap son vaxtlarda çap olunmuş şeirlərindən danışmaq istəyirik.

Orada ki, fikir dumanlıdır - ifadələr də dolaşıq olur, şeir nə ürəyə, nə də beyinə təsir edir. Ə.Kərimin «Fraqmentlər» şeiri bu fikirimizi tamamilə təsdiq edir.

Ə.Kərimin bu şeirində fikir var, lakin fikrin ifadəsi süni və dolaşıqdır. «Sevgi toranı» nə deməkdir?.. Daha sonra

Bəzən söz yarışında.

Bəzən ölüm sözünün polyar qışında.

Axırıncı misranı başa düşmək üçün baş sındırmaq lazımdır. Bu - orijinallıq xatirinə yox, orijinalçılıq xatirinə deyilən ifadədir».

(«Qayğı və tələbkarlıq» məqaləsində Əli Kərimin şeirlərindən gətirilən misallar «Kommunist» qəzetinin replikasındakı misallarla eyni olduğuna görə və onları artıq bu yazımda verdiyimə görə burada təkrar etmirəm, yalnız həmin şeirlər haqqında məqalə müəlliflərinin rəylərini gətirirəm).

«Bu dolaşıq, tapmacalı misraların artıq müəyyən təcrübəyə malik şair qələmindən çıxdığına inanmaq istəmirsən.

Nə qədər mücərrəd fikirlər, nə qədər dumanlı, süni ifadələr! «Sevirəm! Sevirəm!» şeiri də belədir.

Başqa cavan şairlərin, yaradıcılıq yollarında yenicə addım atan gənclərin şeirlərinə müraciət edək. Ələkbər Salahzadənin «Boy», «Əsrin ortalarında», «Afrika, Afrika», «İşıq», «Dənizləı», «İlk qazanc», «Məməd» adlı şeirləri dərc edilmişdir. Elə ki, gənc şair bildiyi-duyduğu mövzudan yazır, onun sözü inamla səslənir, yadda qalır. «İlk qazanc» və «Məməd» şeirləri buna misaldır. Başqa şeirlərinə gəldikdə isə ifadələr düyümlü, mücərrəd və anlaşılmazdır, həyat nəfəsi ilə isinməmiş, axıcılıqdan məhrum misralar mücərrədlik dumanlarında itib-batır. Gənc şair müharibənin törətdiyi dəhşətləri qələmə almaq istəmişdir. Elə çıxır ki, gəncliyin yaşı çoxalmış, boyu isə artmamışdır. Lakin müharibənin boya nə dəxli olduğunu başa düşmək mümkün deyil. Belə səhv fikir cığırı ilə gedən gənc şair səhv nəticələrə də gəlib çıxır:

Əsgər kimi cəbhələrdə
ayaq döyən dünyamıza.
Dörd ilini bircə yerdə
Ayaq döyən dünyamıza
yanırıq biz...

Məlumdur ki, biz dörd il bir yerdə ayaq döyməmişik, qələbələrə addımlamışıq. Sovet Ordusunun, sovet texnikasının şöhrətini bütün dünyada nümayiş etdirmişik. Daha sonra gənc şair yazır:

Qayğılara möhtac olan
fıdan kimi
Kimlər kəsdi suyumuzu?
Kimdən soraq boyumuzu?
Kimdən alaq boyumuzu?
Bu misralardan nə başa düşürsünüz?
Dirsəklənib əsrimə(?)

Mən baxıram dənizə.
Dəniz qayğı möhtacı (?)
Mavi balığa bənzər(?)

Əsr zaman ölçüsüdür. Axı əsrə neçə dirsəklənmək olar? Belə quraşdırma, süni, hətta gülməli səslənən ifadələr gənclərimizin şeirlərinə haradan gəlir? Şeirin əsasını təbiilik və sadəlik təşkil etməlidir. Belə əllaməlik kimə lazımdır?

İsa İsmayılzadənin «Yağış gölməçəsi», «Həsrət», «Ovcumla dost olan mehriban əllər» şeirlərində də eyni nöqsanlara rast gəlirik:

Buludlardan yerə, yerdən buluda
Gölməçə yağacaq hələ nə qədər.
Neçəmiz dünyaya qədəm qoyacaq
Torpağa bir damcı gələnə qədər (?)
Ara-bir göylərə boylanmaq üçün,
Gəlinlər kimi
Özünə daha çox inanmaq üçün (?)
Torpağa güzgü də, göz də gərəkdir.

«Həsrət» şeirinə diqqət edin. Həsrət hissi insan ürəyinin konkret bir duyğusunun təzahürüdür. Deməli, onun konkret də ifadəsi olmalıdır.

Sənəd kimi öz yanımda (?)
Gəzdirirəm həsrətini.
Ora-bura sürüməkdən
Bezdirirəm həsrətini.

Şeiri axıra qədər oxuyursan, hansı həsrətdən, kimə və nəyə olan həsrətdən danışıldığı aydınlaşmır. Mücərrəd bir həsrətin mücərrəd və dolaşıq ifadəsi!

Yuxarıda göstərilən misraların sayını artırmaq olardı. Biz gənclərə qayğı göstərəndə onlara tələbkarlığı unutmamalıyıq. Əgər bu gün biz gənclərin qüsurlarına, büdrəmələrinə göz

yumsaq, onları ancaq tərifləməklə məşğul olsaq, bu acınacaqlı nəticələ gətirib çıxara bilər. Əsl qayğı eyni zamanda tələbkarlıq deməkdir»!

«Qayğı və tələbkarlıq» məqaləsi bu sözlərlə bitir. Demişdim ki, bu məqalənin əsas fikirlərini ifadə edən parçaları şərhsiz verəcəm və bunun səbəbi var. Səbəbi odur ki, zaman çox şeyi yerbəyer edəndən sonra, kimin kim olduğu, ədəbiyyatda keçici və qalıcı dəyərlər vaxtın xəlbirindən çıxandan sonra bu məqaləni də xüsusi şərh etməyə ehtiyac qalmır.

Amma şərh verməməyimin əsas səbəbi odur ki, həmin məqalənin müddəaları elə o yazıldığı günlərdə Rəsul Rza tərəfindən ətraflı təhlil edilmiş və iradlara bircə-bircə cavab verilmişdi. Rəsul Rzanın «Ədəbiyyat və incəsənət» qəzetində dərc olunmuş «Qayğı sözü və qayğı özü» adlı məqaləsinin əsas hissələrini də heç bir şərh vermədən oxuculara çatdırmaq istəyirəm. Ancaq bunu etməzdən əvvəl bir faktı da xatırlatmalıyam - «Kommunist», «Ədəbiyyat və incəsənət» qəzetindəki yazılarla həmahəng olaraq «Azərbaycan gəncləri» qəzetində də başqa bir tanınmış şairimizin - Qabilin «Şeir-rebus» adlı yazısı çıxmışdı və elə adından səpkisi bəlli olan bu yazının hədəfi Fikrət Qoca idi. Qabilin adını çəkməyi mümkün hesab edirəm, ona görə ki, əvvala, hörmətli xalq şairimiz, şükür Allaha sağ-salamatdır, pis gözdən iraq, cavan oğlan kimi gümrahdır və həm də özünə, yaradıcılığına rəğbətimi və hörmətimi ona həsr etdiyim müxtəlif yazılarımda bildirmişəm. İkincisi, bu gün Qabillə Fikrət Qoca bir-birinə səmimi dostluq hissləri bəsləyir, köhnə umu-küsülər də çoxdan unudulub. Amma mən bu faktın üstündən keçsəydim, o vaxtkı ədəbi həyatımızın mənzərəsi yarımçıq olardı. Və bir də təkrar edim: Yazılana pozu yoxdur.

«Şeir-rebusdan» sitatlar gətirmirəm, çünki Rəsul Rzanın cavabından o yazı haqqında da təsəvvür almaq olar.

Rəsul Rzanın «Qayğı sözü və qayğı özü» məqaləsindən bəzi fraqmentlər:

«Ədəbiyyatımıza son illərdə gəlmiş gənclərdən Fikrət Qoca və Vaqif Vəkilov, Fikrət Sadıq və Şamil Salmanov, Arif Abdullazadə və Eyvaz Borçalı, İsa İsmayılzadə, Ələkbər Salahzadə, Şəkər Aslanov və neçə-neçə başqaları bir sıra əsərləri ilə ədəbi ictimaiyyətimizin diqqətini cəlb etmişlər. Gəncliyin yaradıcılıq inkişafını diqqət və qayğıyla izləmək, onların səhvlərinə, büdrəmələrinə göz yummamaq, onlara ata tələbkarlığı ilə yanaşmaq, eyni zamanda onların müvəffəqiyyətlərinə sevinmək, qələmlərindən çıxan yaxşı əsərlərlə fərəhlənmək, gözəl misralarından, poetik tapıntılarından, sərrast ifadələrindən təbii qürur hissi ilə danışmaq bizim vətəndaşlıq borcumuzdur. Ədəbiyyatımızın yaxşı ənənələrindən biri də məhz gənclərin yaşlı nəslə yüksək hörmət hissi və yaşlı nəslin gənclərə qayğıkeş münasibətidir. Təəssüf ki, bu gözəl ənənəyə həmişə lazımınca sadiq qala bilmirik. Gənclərə münasibətimizdə bəzən lazımınca əsaslandırılmamış tələsik və əsəbi mülahizələrə yol verir, zövqsüzlüyə uyuruq. Obyektiv fikir əsassız ittihamla, yerli-yersiz işlənən istehza və kinayəylə əvəz olunanda, belə tənqid təsir qüvvəsini itirir, heç kəsi inandırmır. Belə tənqidin professional, elmi səviyyəsi də çox aşağı olur. Çünki novatorluq, orijinal sözlərinin hər iki tərəfinə daima sağdış-soldış kimi dırnaqlar qoymaq bir tənqidi məharət deyil. Son zamanlar mətbuat səhifələrində dabanbasma bir neçə tənqidi məqalə çıxmışdır. Bu məqalələrdə doğru mülahizələr, fikirlər vardır. Lakin ümumi pafosu, ruhu etibarilə həmin məqalələr ciddi etirazlara səbəb olur. Bu yazılarda söhbət şair Əli Kərimin, gənclərdən Yusif Həsənbəyovun, Fikrət Qoca, Ələkbər Salahzadə və İsa İsmayılzədənin şeirlərindən gedir. «Ədəbiyyat və incəsənət» qəzetində çap olunmuş «Qayğı və tələbkarlıq» məqaləsinin müəllifləri... mənim «Известия» qəzetində (oktyabr 1964-cü il) dərc edilmiş «Müxtəliflər və yaxşılar» adlı məqaləmdən narazı olduqlarını bildirirlər. «Известия»dakı məqaləmdə mən, şairlik istedadına inandığım gənclərdən ancaq bir neçəsi haqqında söhbət açıb, onları Ümumittifaq oxucusuna təqdim edə bilmişdim. Yaxşı olardı ki,

mənim qələm yoldaşlarım istedadlı gənclərimizdən daha bir neçəsi haqqında öz nüfuzlu fikirlərini yazıb, daha bir neçə gənc müəllifi Ümumittifaq oxucusuna tanıdaydılar. Yaxşı olardı. Amma təəssüf ki, qələm yoldaşlarım başqa yol tutmuş, məqaləmdə adları çəkilən gəncləri rüsvay etmək, onların guya səhv və nöqsan dolu yeni əsərlərindən danışmağı münasib bilmişlər. Əlbəttə, heç kəs məqalə müəlliflərindən bu haqqı ala bilməz. Bir şərtlə ki, nöqsan və səhvlər də həqiqətən mövcud olsun. Tənqid də inandırıcı olsun.

Tənqidi yazılarda haqqında söhbət gedən şairlərdən biri Əli Kərimdir. Onun «Fraqmentlər» şeirindən gətirilən parçalara əsasən şairə ağır ittihamlar verilir. Onun şeiri parodiya adlandırılır. «Görəsən, «Azərbaycan» jurnalı bu dumanlı şeiri nə fikirlə oxuculara təqdim etmişdir» - deyə ədəbi mülahizədən daha artıq inzibati intonasiyalı bir sual verilir. Gəlin bu şeiri bir də oxuyaq, görək doğrudanmı «Fraqmentlər» parodiyadır, dumanlıdır? Məqalələrdən biri Əli Kərimin şeirindən, daha doğrusu şeirin ortasından gətirilən misralarla başlayır. «Fraqmentlər»i bütünlüklə oxumamış adamda bu misralar doğrudan da təəccüb oyada bilər, necə yəni «oturdum ömrümün bir parçasının kölgəsində», necə yəni «düzmüşük yetişmiş dəqiqələri on dörd günlük ay - boşqaba, yeyirik şirin-şirin?»

Amma şeiri bütünlükdə oxuyanda bu kəsilib doğranmış, məntiqi fikir davamından ayrılnuş sətirləri öz yerinə qoyanda görürsən ki, burada təəccübə səbəb olacaq heç bir şey yoxdur. Şeirə müraciət edək. Şair yazır:

Elə saatım var ki,
ağac olub bir dost bağında.

Söhbət ömrün illərinin, günlərinin, saat və dəqiqələrinin harada və necə keçdiyindən gedir. Şair otuz illik ömrünün müxtəlif yerlərdə keçdiyindən danışır. Bu ömrün bir saatını da dost bağında ağac əkməyə sərf etdiyini söyləyir. İndi onun bir saatlıq zəhməti göyərib bir ağac olub, bar verib. Bu ağac onun ömrünün bir parçasıdır. Şair, indi bu ağacın - ömrünün bir

parçasının kölgəsində dincəlir. Yaradıcı zəhməti, ömrün səmərəli keçən saatlarını tərənnüm edən bu şeirdə anlaşılmaz, dumanlı nə var? Nə üçün belə poetik, orijinal ifadə olunmuş aydın-açıq fikir «dumanlanmalı», həm şairin, həm də şeirdə hay-küy, təmtəraq deyil, bədii idrak məhsulu olan obrazlı fikir görmək istəyən oxucunu çaşbaş salmaq lazımdır.

«Fikir aydın olan yerdə ifadə də aydın olur. Dumanlı fikirlərdən, hisslərdən dumanlı da ifadələr doğur». Bundan sonra gələn abzasda bu fikir təkrar olunur. «Orada ki, fikir aydındır - ifadə də gözəl olur, şeir xoşa gəlir». Bunun ardınca gələn abzasda bu sözləri oxuyuruq. Orada ki, fikir dumanlıdır - ifadələr də dolaşıq olur « ...Bir-birinin ardınca gələn bu təkrarlardan sonra müəlliflər Əli Kərimin şeirindən misal gətirib yazırlar: «Puşkin hələ vaxtilə demişdi ki, şeirdə meydan fikir üçün geniş, söz üçün dar olmalıdır». Mənə elə gəlir ki, qələm yoldaşlarım, heç olmasa, məqalənin bu yerində söz çoxluğundan gileylənməsəydilər, daha münasib olardı. «Şeirdə meydan fikir üçün geniş, söz üçün dar olmalıdır» sitatına gəlincə, məlumdur ki, bunu A.S.Puşkin yox, A.Nekrasov demişdir. Özü də belə demişdir:

Правилу следуй упорно.
Чтобы словам было тесно,
Мыслям – просторно.

Şairin işlətdiyi «Sevgi toranında» ifadəsini də bəyənmiriər. Məgər dilimizdə səhər toranlığı, axşam toranlığı ifadələri yoxdurmu? Səhərin açılha-açıl vaxtı, axşamın düşhadüş vaxtı. Şeylərin rəngi, konturu aydın bəlirmədiyi vaxt! Əgər sevgi hələ ilk oyanış çağındadırsa, hələ möhkəm, aydın, dərin bir hiss olmayıbsa, büllurlaşmayıbsa, onu toranlığa bənzətmək olmazmı? Məncə, belə poetik bir obraz, bir təşbeh üçün şairi tənqid deyil, təqdir etmək daha doğru olardı. Şair yazır: «Yaşamışam... bəzən ölüm sözünün polyar qışında». Məqalə müəllifləri iddia edirlər ki, bu ifadəni başa düşmək üçün «baş

sındırmaq lazımdır». Məncə, lazım deyil. Şair ölüm sözünü sərt, soyuq, qatı qaranlıq polyar qışa bənzədirsə, burda baş sındırmağa nə ehtiyac var? Məgər xalq zehniyyətində çox zaman ölüm-qaranlıq zülmət dünyası ilə bağlanmırmı? Məgər biz ölümün soyuq nəfəsi, buz nəfəsi haqqında azmı yazmışıq? Şeirə tutulan başqa iradlar da bir növ səliqəsiz təhlilin nəticəsidir. Ayrı-ayrı əvvəli, axırı atılmış misralarla deyil, «Fraqmentlər» şeirinin özü ilə, bütün mətni ilə tanış olanlar məqalə müəlliflərinin «nə qədər mücərrəd fikir, nə qədər dumanlı, sönük ifadələr» sualına «heç nə qədər» - deyə cavab verərlər. Yeri gəlmişkən, bu dumanlar haqqında;

Mən qələm yoldaşlarıma üz tutub demək istəyirəm: əzizlərim, bu «duman» çox olmadımı? Axı, bu «duman» sözü, qələm yoldaşına inamsızlıq, hər sözdə, hər ifadədə duman axtarmaq, çox zaman bu dumanı yoxdan yaratmaq nəyə lazımdır? Məgər bu dumanlar ittihamı nəticəsində vahiməli günləri keçmişdə qalmış, ağır illərin gedər-gəlməz yolunda azmı əziz qələm yoldaşımız yox oldu? Axı «dumanlı» sözü sadəcə anlaşılmaz demək deyil. Bunu ki, təcrübəli qələm yoldaşlarımız yaxşı bilməlidir.

Məqalələrdən birində İsa İsmayılzadənin «Yağış gölməçələri» şeiri «bulanıq gölməçələrə «fəlsəfi münasibət» adlandırılır. Bütün şeirin təhlilində də eyni priyom işlənmiş və tənqidçi, mülahizələrini şeirin ikinci bəndindən gətirilmiş misalla əsaslandırmağa çalışmışdır. Əslində bu şeir bir lövhədir. Şeir belə başlanır:

Damcılar göylardən əlini üzdü.
Buludlar özünü
seyr etmək üçün
Bulanıq güzgü tək gölməçələri
Torpağa düzdü.

Sonra şair yağış gölməçələrinin tala-tala yerə düzül-düyünü, bu gölməçələrdə buludun, günəşin, payız mən-

zərələrinin əks olunduğunu təsvir edir. Bu poetik mənzərə şeir sözünü dırnaq arasına almaq üçün nə əsas verir? Şeirdə belə bir bənd də var:

«Atını»göylərdə sürdü çoxusu,
Ayağı çırmalı uşaqların da,
Çubuq köhlənlərin dırnaqlarında
Çilik-çilik oldu göyün yuxusu.

Yerdə əmələ gəlmiş gölməçələrdə göylər əks olunmuşdur. Uşaqlar «atını» bu gölməçələrdə - «əks olunmuş göylərdə» çapırlar. Hər uşaq üçün onun mindiyi çubuq bir köhləndir. Çubuğun yerdə sürünən başı sanki bu köhlənin dırnağıdır. Uşaqların çubuq köhlənləri keçdikcə gölməçənin sükutu - yuxusu şüşə kimi (gölməçənin üzü doğrudan da, şüşəyə bənzəmirmi?) sınır, çilik-çilik olur. Əgər bu poeziya deyilsə, bəs poeziya nədir?

Tənqid olunan gənc şairlər arasında Ələkbər Salahzadə də vardır. Məqalə müəllifi sözə bilavasitə Salahzədənin şeirlərinin məzmunsuz və mücərrəd olduğunu söyləməklə başlayır. Bu mücərədçilik və məzmunsuzluq nə imiş:

Qurtarmaq olmur hələ
Namərdlərin torundan.

Məqalə müəllifi soruşur: burda hansı namərdlərin torundan söhbət gedir? Bu sualın özü mücərrəd deyilmi?

Məgər şair namərdlərin siyahisini verməli, ünvanını yazmalı imiş?

«Qayğı və tələbkarlıq» məqaləsinin müəllifləri də Salahzədənin şeirinə bir sıra irad tutur, «düyümlü ifadələr», «mücərrəd», «anlaşılmaz», «həyat nəfəsi ilə isinməmiş», «axıcılıqdan məhrum», mücərrədlik dumanında itib-batan və bu kimi söz birləşmələrini işlədir, dırnaqları bollu-bollu səpələyir, misraların qabağına sayıq qaravulçu kimi dayanmış sual işarələri qoyurlar.

Məqalə müəlliflərinin istehza və narazılığına səbəb olan bir neçə sətir haqqında da fikirimi demək istəyirəm.

Dirsəklənib əsrimə
Mən baxıram dənizə.

Belə demək olarmı? Əsrə dirsəklənmək olarmı? Əlbəttə, bu sözü hərfi mənada - anlasaq, bu mümkün deyil. Necə ki, «yar gəlməsə dünyanı yandırmaq» olmaz, necə ki, «bahar gülməz», necə ki, «Cığırın mənasına dalmaq» olmaz, «dağlar ah çəkməz» və s. və s.

Belə ifadələr isə istər klassik, istər müasir ədəbiyyatımızda çoxdur. Fəqət məsələ burasındadır ki, şair «gəlməsən yandırram bütün dünyanı!» deyəndə biz, onun məhəbbətinin hərarətini duyuruq. Lakin «cığırın mənasına dalanda» biz, bu sözlərin sadəlövh varlığına biganə qalırıq. Əgər şair məcazdan istifadə edərək təşbeh, obraz yaradırsa, bizim bu obrazları «başa düşülmür» deyə qapıdan qaytarmağa haqqımız yoxdur. Ələkbər Salahzadənin «Boy» şeiri də «Qayğı və tələbkarlıq» məqaləsində kəskin tənqid olunur. Məqalə müəllifləri soruşurlar, müharibənin boya nə dəxli var? Müharibənin boya belə dəxli var ki, o, anaların övlad bəsləməsinə mane olur, fizioloji mənada belə götürsək, böyüməli olan körpələrin boyunu xeyli ləngidir. Şair öz nəslini - müharibə vaxtı doğulanları qayğıya möhtac bir fidana bənzədir, müharibənin başqa fəlakətləri ilə yanaşı bu nəslə də vurduğu ağır zərbəni xatırlayır:

Kimlər kəsdi suyumuzu?
Kimdən alaq boyumuzu?

-deyə həyəcanla soruşur. Bu sual bizdə müharibəyə qarşı bir nifrət oyatmırmı? Bir şeir üçün bu azdırmı?

Haqqında danışdığımız həmin məqalələrdən sonra «Azərbaycan gəncləri» qəzeti də şair Qabilin bir məqaləsini dərc etdi. Bu məqalə «Şeir-rebus» adlanır. Özü də sərlövhə altına inansaq, «şairin qələm yoldaşına məktubudur». Belə bir qəribə başlıqla qələm yoldaşına məktub yazan şair Qabil, bütün qəzəbini şair Fikrət Qocaya qarşı çevirmişdir. Qabil yoldaşın

məqaləsi də başdan-başa «dumanlı», «düyünlər», «mücərrədlik» və başqa bu kimi sözlərlə doludur. Bu və bu kimi sözləri yerli-yersiz işlətməkdənsə, nə tapmaca, nə rebus, nə krossvord olan şeirləri başa düşmək üçün bir balaca fikri zəhmətə qatlaşsaq yaxşı deyilmi? Qabil məqaləsində Fikrətin misralarını təhrif etmişdir. Jurnalda misralar belədir:

Həyat, əlimdəsən,
sən mənimkisən.
Sən mənə mirassan öz
adım kimi.

Dilimizdə bir hərflə mənası büsbütün dəyişən çox söz var». Öz «adım» ifadəsini «öz adın» kimi yazıb, həyata şamil edən məqalə müəllifi bir az diqqətli olsaydı yəqin ki, belə ədalətsizliyə yol verməzdi. Qabil yoldaş «milyon kilometrlərlə ömür yaşamaq» nə deməkdir? - deyə sual verir və «nə vaxtdan ölçü vahidi zaman vahidini əvəz etməyə başlamışdır?» - deyir. Hörmətli Qabil! Çoxdan. Bəli, lap çoxdan. Folklor, bədii ədəbiyyatın klassik nümunələri, şeir formaları yaranandan. Qoca nənələrimizin danışdıqları nağıllardakı «üç gün, üç gecə yol getdi» ifadəsini eşitdiyimiz vaxtdan. Mən yaradıcılığına hörmət etdiyim, istedadına inandığım şair Qabilə məsləhət görərdim ki, öz məqaləsindəki təhqirli sözləri, rişxəndləri, ölçüsüz-biçisiz işlədilmiş dırnaqları bir də nəzərdən keçirsin, onları özünə rəva görsə belə yenə qələm yoldaşına aid eləməsin.

Evim -
avtobuslar, vaqonlar, təyyarələr,
kəndlər, şəhərlər, səyyarələr –
dayanacağım.

Qabil bu sözləri misal gətirib yazır, «Avtobusları, vaqonları ev eləməkdə məqsədin nədir? Bəlkə bununla inşaatçılarımızın əməyini yüngülləşdirmək istəyirsən? Fikirləşirsən

ki, daha köhnə qaydada yaşamağın vaxtı-deyildir, indi vaqonlara, avtobuslara köçmək gərəkdir? Əcəb «ixtiradır», «gözəl tapıntıdır».

Hörmətli Qabil, axı, bu - şairin şair haqqında, şeir haqqında mülahizələrinə oxşamır».

Rəsul Rzanın bu məqaləsi çıxar-çıxmaz, elə bir həftə sonra «Ədəbiyyat və incəsənət» qəzetində başqa bir xalq şairinin «Şeirimizlə əlaqədar bəzi mülahizələrim» adlı cavabı çıxdı. Məqalədən əsas parçaları gətirirəm:

«Düzgün mövqedən yazılmayan, ideya və fikir yanlışlığına aparıb çıxaran şeirlər bizi məyus edir. İstəyirik ki, belə şeirlər şairlərimizin yaradıcılığında özünə yer tapmasın. İstəyirik ki, ədəbiyyat gülzarı daha ətirli, daha təravətli olsun.

İsa İsmayılzadə də ədəbiyyata yeni gəlmişdir. Şeirləri göstərir ki, o qabiliyyətlidir. Lakin o, həyatı öyrənməli, «həsrət»dən daha çox varlığımızın işıqlı cəhətlərini tərənnüm etməlidir. Bu nöqteyi-nəzədən mən, xalq şairi Rəsul Rzanın bəzi məqalələrinə öz münasibətimi bildirmək istəyirəm. Rəsul Rza «Известия» qəzetindəki «Müxtəliflər və yaxşılar» adlı məqaləsində yazır:

«Doğrudur, bəzi köhnə forma qısqancları (rusca yazılmış bu məqalədə "ревнители» sözü «qısqanc» deyil, «təəssübkeşlər» deməkdir - A) belə danışmağa başladılar ki, gənc şair istedadlıdır, lakin istənilən yolla getmir. Onlar bu məsələdə onun atası Səməd Vurğuna istinad edirdilər ki, guya «o, belə yazmırdı?» Əvvəla, həqiqəti müdafiə üçün deyək ki, Vurğun məhz belə sərbəst formada şeirlər, əla şeirlər yazmışdır. İkincisi, hərgah bir gənc öz yolu ilə ədəbiyyata gəlirsə, bunu alqışlamaq lazımdır».

Əvvəla, Rəsul Rzanın Vaqif Vəkilov haqqındakı bu müddəasını kim harda yazmış və ya hansı ictimai yerdə söyləmişdir? İkincisi, həqiqəti müdafiə üçün biz də deyək ki, Səməd Vurğun sərbəst şeir formasında heç də əla deyil, orta səviyyəli bir neçə şeir yazmışdır. Vaqif Vəkilov cəmisi bir dəfə mətbuatda çıxış etmişdir. Belə olduğu halda, yox sən

orijinalsan, atandan belə öyrənmə, öz yolunla get - deməklə onu çaşdırmırıqmı?

(Burda şərh verməyə məcburam. Məqalə müəllifinin təbirincə desək, Rəsul Rza harda yazmış və hansı ictimai yerdə Vaqifə söyləmişdir ki, sən atandan öyrənmə? «Öz yolunla get» - demişdisə belə bunu «atandan öyrənmə» kimi yozmaq olarnu? Əksinə, Vaqif haqqında yazdığı - «Geniş yollara çıx» adlı yazısını bu sözlərlə bitirir: Uğur olsun Vaqif. Həm adınla, həm mənsub olduğun ocaqla bağlı şair adını şərəflə daşı, usanma, yorulma. (O ki, qaldı Vaqifə ilk şeirlərinin çapından sonra başlanan hücumlara, bir çox müşavirələrdə, o cümlədən, Zuğulbada keçirilən gənclər toplantısında elə bu məqalənin müəllifi Vaqifi kəskin tənqid edir, düz yolla getmədiyini söyləyirdi - A.). Məqalə müəllifi davam edir:

«Rəsul Rza yaradıcılıq məsələlərinə məhz belə əsəbilik mövqeyindən və şəxsi nöqteyi-nəzərindən münasibət göstərir. Əslində, bu təəccüblü deyil. Rəsul Rzanın yaradıcılıq arsenalında bu, «mötəbər» silahlardandır. Yaradıcılığından onun arzusuyla danışmayanlara - şair yoldaşlarına, tənqidçilərə dönə-dönə hücum etmişdir. Lazım gələrsə, bu barədə ətraflı danışmaq olar. Nəhayət, «Ədəbiyyat və incəsənət» qəzetində dərc edilən «Qayğı sözü və qayğı özü» adlı məqalə haqqında fikrimi bildirmək istəyirəm. Rəsul Rzanın bu məqaləsinin ruhundan belə çıxır ki, gənclər barədə, ədəbiyyatımızın inkişafi bəradə ondan başqa düşünən, narahat olan yoxdur. Özünə gəlincə, gəncləri Ümumittifaq oxucusuna tanıtdırdığından söhbət açır və deyir ki, başqa şairlər də belə etsələr yaxşıdır. Yox, onun qələm yoldaşları belə etsəydilər, narazılıq törədən məqalələrlərlə mətbuat aləmində çıxış etsəydilər, heç də yaxşı olmazdı. (Niyə? -A.) Rəsul Rzanın «Известия»dakı məqaləsində olan yanlış saydığım fikirlərinə mən münasibətimi yuxarıda bildirmişəm. «Qayğı sözü və qayğı özü» məqaləsində o yenə birtərəfli və doğru olmayan müddəalarla çıxış edir.. Mənim fikrimcə, şeir aydın olmalı, oxucuya tez çatmalıdır, onu səfərbər etmək əvəzinə yormamalıdır. Əllamətlik hesabına

düşündürmək olmaz. Belə etsək modernistlərə, abstraktsionistlərə haqq vermiş olarıq».

Müəllif məqaləsini çox ilginc bir fikirlə bitirir:

«Ədəbiyyat aləmindəki istedadları bir növ marafon yürüşü iştirakçılarına oxşatmaq olar. Münsif - həyatdır, xalqdır. Kim qüdrətlidir, sağlamdır, kim uzaq mənzilə sürətlə yaxşı qaça bilərsə o, yürüşdə qalib gələcəkdir. Mükafatı isə xalq məhəbbəti olacaqdır. Bu yolda maneçilik törədənləri, tərəfgirlik və havadar yığmaqla şöhrət və qələbə qazanmaq istəyənləri münsiflər heyəti pisləyəcəkdir...»

Doğru fikirlərdir. Ancaq «münsiflər» sırasında Zamanın da olduğunu unutmamaq şərtiylə...

Bu sözləri yazanda yadıma düşdü ki, o vaxt addım başı tənqid hədəfi olan Vaqif Vəkilovun - bu gün ən sevilən şairlərimizdən olan Vaqif Səmədoğlunun Rəsul Rzaya həsr olunmuş yazılarından biri sırf təsadüf nəticəsində «Rəsul Rza marafonu» adlanır: Vaqifə minnətdarlıq hissiylə həmin yazısından bir parçanı gətirmək istəyirəm ki, qoy bu da əvvəlki sözlərə - 36 il sonra XXI əsrdən verilmiş cavab kimi səslənsin: «Mən onun bu marafon yolunda hələ də gedib-gələn, kəsilməyən nəfəsini eşidirəm. Və mənə elə gəlməyə başlayır ki, indi, bu saat ölümcül yorğunluq onu üstələyəcək, Rəsul Rza dəf elədiyi əzablı, uzun yoldan çıxacaq, bir qocaman çinarın kölgəsində bardaş qurub oturacaq, qaralmış nəfəsini dərəcək. Yox, Rəsul Rza dayanmır, ayaq belə saxlamır. Yoldan nə çıxır, nə sola, nə sağa dönür. Elə hey gedir, gedir, gedir... Haraya qədər, nə vaxta qədər? Finiş xətti ölümmü olmalıydı? Yox, belə olmadı, yanıldım, Rəsul Rza mənim onun barəsində olan düşüncələrimi alt-üst elədi. Ölüm də onun bu mühdiş marafon yürüşünü kəsə bilmədi. Bu yol, şair taleyi adlanan bu məşəqqətli yol, nə zaman, haçan sona yetəcək bu dünyada? Anlamaq dərdi ilə yaşamış bir şair, bir alim əzəl başdan duyubmuş ki, getdiyi yolun mənzil başı, sonu Anlamaq nöqtəsidir. Və bu nöqtə, eyni zamanda Son və Əzəl, Şairin isə son həddən başlanacaq əsl şöhrəti uzaqda, çox uzaqlardadır. Və

bu Uzaqda onu özü arzuladığı, həsrətində olduğu, maariflə, onun gücü və iradəsiylə Azadlığa qovuşmuş insanlar qarşılayacaq... Rəsul Rzanın 90 yaşı tamam olur. Minillik Azərbaycan poeziyasının ən Anlanmamış Şairinin! Xalqına, torpağına uzatdığı əli hələ də havada qalmış, bu yurdun ən Mütəfəkkir Şairinin 90 yaşı. Bu əl gödək deyil, o uzalı ələ çatmayan bizim əllərimizdir. Bunu etiraf etməsəm, öz qələmimi yerə qoyasıyam. Ancaq mən o günü görürəm, bu əllər qovuşacaq günü. Rəsul Rza marafonu sona yetəndə. Orda bu böyük Şairi və əsrimizin ən maraqlı, parlaq insanlarından birini onun özü arzuladığı və aydın gördüyü bir Azərbaycan gözləyir. Azad düşüncəli, maariflənmiş, savadlı, güclü, dözümlü və həzin bir Vətən...» («Yaşıl rəngin işığı» kitabından, 22 yanvar 2000).

Vaqif Səmədoğlunun bu vüsətli sözlərindən sonra yenidən 60-cı illərin ədəbi çəkişmələrinə dönmək istəməzdim, amma məcburam, çünki əgər söhbət Rəsul Rzanm məşəqqətli və əzablı yolundan gedirsə, bu yolun təfərrüatlarını konkret faktlar əsasında bilmək lazımdır.

Gənclərin özünə də, onlarla əlaqədar olaraq Rəsul Rzaya da hücumlar yuxarıda verdiyim yazılarla bitmədi. Elə həmin günlərdə (koordinasiya yaxşı qurulmuşdu), yəni 1965-ci il fevralın 19-da yenə də «Azərbaycan gəncləri» qəzetində şair Kələntər Kələntərlinin iki podval həcmində «Gənclik, ənənə və novatorluq» adlı məqaləsi dərc olundu. Konkret hədəf yenə də Vaqif Vəkilov idi, amma Yusif Həsənbəyə də tənqiddən pay düşürdü. Və əlbəttə, Rəsul Rza da, başı sığallana-sığallana, Vaqif Vəkilovun şeirlərini bəyəndiyinə görə ittiham olunurdu. Bu məqalədən sitat gətirməyəcəm, çünki otuz beş il sonra onun çox qəribə bir sonluğu oldu. Hörmətli şairimiz Kələntər Kələntərli 2000-ci ilin may ayında iki qəzetdə «Tanıdığım Rəsul Rza» adlı xatirə çap elətdirdi. Bu yazıda belə bir parça var:

«Dəniz və məhəbbət» adlı poemam nəşr olunmuşdu. «Литературная газета»nın 1965-ci ilin 16 yanvar sayında yazıçı Çingiz Hüseynovun «Нефтяные камни и идеологический набор шаблонов» adlı bir məqaləsi çıxdı. Çingiz o

boyda poemanı yıxıb sağına da, soluna da sürümüşdü. Təsadüfən bir vaxt işlədiyim qəzetin redaksiyasına gəlmişdim. Məqaləni oxumuş redaktor mənə dedi ki, bunu Rəsul Rza yazmışdı, bizə gətirmişdi, mən çap etmədim. Sən ruhdan düşmə, özünü ələ al, tutarlı bir cavab yaz, mən çap edərəm. Bu sözləri elə inamla dedi ki, mən də ürəkləndim, eləmədim tənbəllik, cavab əvəzinə «Gənclik, ənənə və novatorluq» adlı əhatəli bir məqalə yazdım. Adından da göründüyü kimi məqaləni tamam başqa səpgidə, başqa istiqamətdə, Çingizin adını çəkmədən, yazısına da bir işarə belə vurmadan ərsəyə gətirmişdim. Bir-iki yerdə ədəbi gəncliyin qayğıkeş, simsarı kimi Rəsul müəllimin adı çəkilsə də, orda ustadın könlünə toxunan güldən ağır bir kəlmə də yox idi. Əksinə, bu və ya başqa şəkildə mən də onun mövqeyində dururdum. Məqaləm «Azərbaycan gəncləri»nin 1965-ci il fevral sayında işıq üzü gördü. Kaş görməyəydi. Oxudum, öz yazımı tanıya bilmədim. Sevinmək əvəzinə sarsıldım. Sonra məlum oldu ki, məqaləni mənə məqsədli yazdıran şəxs əvvəl özü öz istəyincə, sonra da onunla himi-cimi bir olan məşhur şairlərdən biri (yaxşı ki, hər ikisi sağdır) yazımın üstündə əməlli-başlı «cərrahiyyə» əməliyyatı aparıb, çoxlu ixtisarlar və bir qədər əlavələr edib nəticədə «novatorluq» sözünü üzünə qalxan tutub ədəbi gəncliyi xəlqi sənət yolundan sapdıran» xalq şairi R.Rzanın əleyhinə çevrilmiş bir yazı qəzet səhifələrinə çıxıb. Qəzetin həmin sayı oxuculara çatan gündən ta noyabrın 4-nə qədər hər yerdə Rəsul müəllimin gözündən yayınmağa çalışdım. Noyabrın 5-də yazıçıların V Qurultayı açılırdı. Bir gün qabaq mandatımı almaq üçün İttifaqa getmişdim. Başda S.Rüstəm olmaqla yazarların bir dəstəsi məsləhətçilər otağına, O.Sarıvəllinin yanına yığışmışdı. Birdən Rəsul müəllim də otağa gəldi. O, otaqdakılarla bir-bir görüşməyə başlayanda növbə hələ mənə çatmamış S.Rüstəm özünəməxsus şuxluqla dedi ki, Rəsul, olan olub, keçən keçib, mənimlə barışmısan, Kələntərlə də barış. Günahsız «günahkar» şagirdindən inciməyə haqqı olan ustad üzümə bir çəpəki nəzər saldı.

Ömrümün sonuna kimi unuda bilməyəcəyim yeddi sözdən ibarət bir cümlə işlətdi. Sonra mənə də əl verdi. Beləcə xalq şairi S.Rüstəm xalq şairi R.Rzanı mənimlə barışdırdı. Onda ürəyimin rahatlığı bir qədər özümə qayıtsa da, imkan tapıb deyə bilmədim ki, Rəsul müəllim, o məqalədə sizin adınıza ünvanlanmış tikanlı, bibərli ibarələrin yiyəsi mən yox, filankəslərdir. İndi nəhayət demək olar, o gün də, anlar da illərin arxasında qalıb».

Maraqlı, həm də təəccüb qalası söhbətdir. Rəsul Rzanın Kələntər Kələntərlinin poeması haqqında mənfi rəyi olsaydı özü açıq deyərdi ya yazardı, yazımış olsaydı, həmin redaktor cəsarət edib xalq şairinin məqaləsini geri qaytara bilməzdi. Rəsul Rzanın öz məqaləsini Çingiz Hüseynovun adıyla Moskvada dərc etdirməsi elə bir absurddur ki, buna yalnız Kələntər kimi sadədil insan inana bilərdi. Amma məsələ, bunda da deyil, keçənə güzəşt deyərlər, sonralar bir müddət Kələntər Kələntərli mənim yanımda «Qobustan»da çalışdı, Yazıçılar İttifaqına da mənim işlədiyim vaxt yenidən bərpa olundu. Bu faktı gətirməkdə məqsədim Rəsul Rzaya qarşı «mübarizədə» bəzilərinin hansı (epitet işlətməyəcəm) vasitələrə və metodlara əl atmasını əyani şəkildə göstərməkdir.

Hələ bu harasıdır? Rəsul Rzanı bəzən elə amansız yollarla, üsullarla yaralamaq, sarsıtmaq istəyirdilər ki, bunların çoxundan heç mənim də xəbərim olmayıb... Ara-bir evimizə gələn anonim təhqir məktubları aldığı barədə onun özündən yox, anonimçilərə həsr etdiyi şeirindən bildim. Bir dəhşətli faktdan da atamın vəfatından sonra xəbər tutdum. Özü bu barədə heç vaxt mənə deməmişdi. Rəfael Hüseynov «Qızıl güllü, yasəmənli, nərgizli nəğmələr» adlı yazısında məşhur müğənnimiz Şövkət Ələkbərovanın dilindən eşitdiyi bir söhbəti gətirir:

«Rəsulun 60 illik yubileyi idi. Yubiley məclisindən sonra böyük konsert olasıydı. Mən də Rəsul müəllimin sözlərinə yazılmış iki mahnı oxuyacaqdım. Filarmoniyanın foyesində Rəsul müəllimlə, Nigar xanımla görüşdük. Kimsə Rəsul

müəllimi telefona çağırdı. Bir-iki dəqiqədən sonra Rəsul qayıtdı. Rəngi ağappaq ağarmışdı. Paltosunu geyinib: - Nigar, burda olun, mən indi gəlirəm - dedi.

Doğrudan, bir saat sonra qayıdıb gəldi Rəsul müəllim. Sifətindən yorğunluq yağırdı. Sən demə, kimsə, hansı bədxahsa zəng vurubmuş ki, bəs oğlun düşüb maşın altına. Rəsul da evə gedib. Görüb uşaqlar yoxdu. Narahatlığı bir az da artıb. Qohumlarına zəng vurub. Deyiblər ki, uşaqlar bizdədir, hazırlaşırlar filarmoniyaya getməyə. Belə əziz gündə nə qədər sarsıntıya, narahatlığa məruz qalmışdı yazıq Rəsul».

Rəsul Rzayla bağlı - qərəzkarlıqmı deyim, şayiəmi deyim, - elə məqamlar da var ki, onları yalnız komik planda qavramaq olar.

Bir yazısında Əkrəm Əylisli küçədə şair Hüseyn Arifə rast gəlməsindən, pivə içmək həvəslərindən və pivəxana axtarmalarından söz açır. Axır ki, Hüseynin təklif etdiyi pivəxananı tapırlar. Əkrəm yazır:

«Evinin düz qapısı ağzındakı o pivəxananın işıqlı vücudu Hüseyn Arifin özünü də, deyəsən xeyli vəcdə gətirmişdi:

-Əyə, canın üçün, mən elə buranı deyirdim. Stadionun yanındakı pivnoyu Rəsul Rzanın fıtvasıyla hələ Axundov vaxtında Cəfər Cəfərov bağlatdırdı.

Rəsul Rzanın və ona yaxın bildiyi adamların kölgəsini qamçılamaqda xeyli təcrübəsi olan Hüseyn Arif bu dəfə, söz yox ki, lap ağ eləyirdi» (Azadlıq» qəzeti, 4 oktyabr 1997).

Deyə bilmərəm, bu söhbət nə dərəcədə dəqiqdir, babalı Əkrəmin boynuna, amma bilirəm ki, bir iclasda Hüseyn Arif atam haqqında kəskin sözlər deyəndə Əkrəm Rəsul Rzanı müdafiə edib. Bunu da unutmuram.

Çox sonralar rəhmətlik Hüseyn mənə deyərdi ki, o vaxt Rəsul Rzanın bir sözünü ona çatdırıblar, ona görə atamdan inciyib. -

Nə sözdür bu? - deyə soruşdum. - Deyib ki, Hüseyn - aşıqdır.

Əvvala, belə sözü dediyini eşitməmişdim, ikinci də məgər tutalım, Aşıq Ələsgər kimi şair olmaq hər sənətkar üçün ən böyük şərəf deyil? Vaxt keçdi, Hüseynlə də barışddar, oğlu Arifin faciəvi ölümü atama, anama da çox təsir eləmişdi. Anam hətta rəhmətlik Arifə həsr olunmuş şeir də yazıb. Cavab olaraq Hüseyn Arif də anama həsr olunmuş şeir və «Bir həzin axşamda» adlı təsirli poema yazdı. («Bir həzin axşamda düşsəm yadına» Nigar Rəfibəylinin vəfatından sonra çıxan şeir kitabının adıdır)

Nigar Rəfibəyli,
Əzizdən əziz
Nə deyim yaraşsın onun adına?
Yeni bir kitabla görüşürük biz
«Bir həzin axşamda düşsəm yadına»
Yazı masasına köksümü verdim,
Hər sözün, söhbətin öz siqləti var.
Məqalə yazmadım, yaza bilərdim,
Şairi şeirlə qarşılayarlar.
Kişi qadın kimi, mərd şair təki
Yayılıb şöhrətin eldə, obada.
Səni kim unutdu, kim unudar ki
Bir həzin axşamda düşəsən yada.
Nəvəni də sevdin, bacım,
Ananı da, balanı da,
Atanı da xatırladın,
Bibini də, xalanı da.
Qardaşı da tutdun uca,
Qardaş kimi.
Ömür boyu
Bir qəhrəman şairə də
Nigar oldun,
Koroğlunun adlı-sanlı
Nigarı tək.
Səbr - dərya, dözüm ümman,

Vüqar dağlar vüqarı tək.
Dəyişir təbiət, dəyişir iqlim,
Sellərə, sulara çox sinə gərdik.
Gözümün önündə Rəsul müəllim,
Biz sizi həmişə yanaşı gördük.
Günlər bənzəmədi biri-birinə,
Biri üzə çəkdi, biri dərinə,
Bəzən ağını da şərbət yerinə
Yanaşı içməyi bacardınız siz.
Yanaşı yaradıb yanaşı qurub,
Yanaşı düşünüb, yanaşı sorub,
Yanaşı yaşayıb, yanaşı durub,
Yanaşı köçməyi bacardmız siz.

(«İki ömrün işığı» kitabından)

***

Gənc şairlərə hücumlar isə səngimək bilmirdi. 1966-cı il yanvarın 30-da «Kommunist» qəzetində guya ki, oxucunun yazdığı bir məktub dərc olundu. «Yuyulmuş səsin mehi və islanmış köynək» adlı bir yazıda (məktuba ad vermək özü qəribə deyilmi?) deyilirdi:

«Şairlərimizin yeni əsərlərini tez-tez oxuyur, müzakirə edirik. Yaxşı şeirlər hamımızı fərəhləndirir. Biz «Ədəbiyyat və incəsənət» qəzetini xüsusən diqqətlə izləyirik. Qəzetdə tez-tez yaxşı şeirlər çıxır. Ancaq gənc şair İsa İsmayılzadənin qəzetin 8 yanvar tarixli nömrəsində dərc olunmuş iki şeiri doğrusu bizi çox məyus etdi. Şeirləri oxuyursan və başa düşə bilmirsən ki, müəllif nə demək istəyir. Məsələn, «Yağış yağsın üstümə» sərlövhəli şeirdə deyilir:

Yağış yağsın üstümə,
Oksigen balıncı buluddan,
Yarpaq yağsın üstümə

Ucaboy, enlikürək
Qovaqdan, palıddan.
Yağış yağsın üstümə,
Əllərimi açım mən,
balaca meydan kimi.
Buludlu mühacirlər
-iri, xırda damcılar
Gəlib düşsün üstümə
İcasəsiz-filansız.
Təmənnasız, plansız.

Qəribədir, «oksigen balıncı bulud», «buludlu mühacirlər» nə dcməkdıı? Yağış yağanda icazəmi istəyir, onun təmənnası, planımı olur?»

Bu gün adama qəribə gəlir ki, bu qədər aydın deyilmiş sözləri, bu qədər dupduru şeiri də başa düşməmək olarmış. «Yağışın icazə istəməsi»nə gəlincə bəs məgər yağış aşıq-məşuqun əmrini eşidir ki, yüzlərcə şair görüşə getdikləri üçün ondan yağmamasını tələb ya xahiş ediblər. Yaxud «ay batmasın» (ya batsın), «gün çıxmasın» (ya çıxsın) yazıblar. İntəhası, bu sayaq ifadələrə qulaqlar çoxdan alışıb, amma eyni səpgili təzə ifadələr qulaqları cırmaqlayır.

«Oxucu» sözünə davam edir:

«Yenə şeirə diqqət edək»: islanım ürəyimcə (?) deyən gənc şair birdən cuşə gələrək: «cəhənnəm olsun çətir» deyir və damcılara danışmaq istəyir. Elə güman edir ki, yağış onun səsini də yuya bilər.

Şeirdə elə belə də yazılmışdır:

Yağış yağsın üstümə,
Açılsın könlüm,
durulsun keyfim,
soyusun hirsim,
yuyulsun səsim.

Müəllif bununla da kifayətlənmir, sevgilisinə zəng vurub «yuyulmuş səsi» ilə deyir:

Gəl xəfif gülüşündə,
Səsinin mehində
Telimi, köynəyimi qurudum.

(Belə kövrək duyğularla və belə zərif ifadələrlə yazılmış şeiri bu cür qaba rişxəndlərə hədəf edən «oxucuya» Allah insaf verəydi. - A).

«Yuxular» adlanan ikinci şeirdə gənc şair daha da «irəli» gedərək yuxu haqqında məntiqsiz, lüzumsuz misralar yazır. Şeirdə oxuyuruq:

Çarpayıdan yuxumuza boylanırıq...
Külək əsir,
Yağış yağır yuxumuza,
Gözümüzdən şeh çilənir yuxumuza,
...Əl çatmayan illər keçir yuxulardan.

Hələ bunlar bir yana. Şeirin axırında qəribə «elmi kəşflər» var:

Lövhə-lövhə, qırıq-qırıq
yuxuları yaşamaqdan doymuruq biz...
Biz yatırıq...
Əsəbimiz, ümidimiz oyaq qalır.
Oyaq qalır arzumuz da, qayğımız da,
Oyaq qalır, oyaq qalır... yuxumuz da».

Gərək məktub yazan «oxucu» şairə istehza eləsə də, şeirlərindən örnəklər gətirməyəydi, çünki bu incə, poetik örnəklərlə tanış olanda onların nəyə görə bu sayaq cahilcəsinə lağa qoyulmasına mat qalırsan.

Məktubun sonunda çıxarılan nəticə isə bu tip tənqidlər üçün ənənəvidir:

«Bizi heç yuxumuzun oyaq qalması da, yuxunu yaşamaq da, yuxuya calaq vermək də narahat etməzdi, əgər bu məntiqsiz, dolaşıq sözlər ədəbiyyatımızın saflığı keşiyində duran bir qəzetin səhifəsində çıxmasaydı. Bizcə «Ədəbiyyat və incəsənət» qəzetinin redaksiya heyəti belə şeirlərə yer verməklə həm gənc şairlərə tələbkarlığın azaldığını göstərir, həm də öz oxucularına hörmətsizlik edir».

Bir neçə ay keçir və «Kommunist» qəzeti bu dəfə sıravi əsgərin imzasıyla «TƏLƏBKARLIQ OLMAYANDA» başlığıyla replika verir («Kommunist», 14 avqust 1966). Bu dəfə hədəf İlyas Tapdıq və yenə də Yaqif Vəkilovdur (V.Səmədoğlu).

«Hörmətli redaksiya!

Xahiş edirəm mənim bu məktubumu Azərbaycan Yazıçılar İttifaqının orqanı olan «Azərbaycan» jurnalının redaksiya heyətinə çatdırasınız. Düzünü deyim ki, jurnaldakı bəzi şeirlər məni çox narazı saldı, hətta əsəbiləşdirdi, xüsusən «Bir otaq - bir dünya» və «Qısa şeir» sərlövhəli şeirlər. Mən bu şeirləri dəfələrlə oxudum. Öz əsgər yoldaşlarımla məsləhətləşdim. Lakin nə mən, nə də onlar şair İlyas Tapdığın və Vaqif Vəkilovun nə demək istədiklərііı başa düşmədik. İlyas Tapdıq bir otaq təsvir edir. Şair belə yekunlaşdırır:

Bir otaq- bir röya,
Bir otaq - bir dünya.

Deməli, şairin təsvir etdiyi otaq olsa-olsa bir röya imiş. Belə isə onun arxasınca gələn «Bir otaq - bir dünya» misrasını necə başa düşək? Bizim yaşadığımız, iftixar etdiyimiz, qurub yaratdığımız, gecə-gündüz keşiyində dayandığımız bu gözəl dünyamız üçün belə demək nə dərəcədə doğrudur?

Vaqif Vəkilovun yazdığı- «Qısa şeir»i isə izah etməkdə çətinlik çəkdiyimdən eyni ilə köçürürəm:

İçimin cığırına qaya düşərsə,
Yenə səni görəcəyəm.
Görəcəyəm ağ şanı giləsinin içində.
Vallah, içimə kəpənək ciyəri

Tiksələr də
Nəfəs alıb səma udacağam
Ağ şanı giləsində Səni görmək üçün.

Bəlkə siz izah edəsiniz, burada-şairin məqsədi nədir? Necə yəni «içimin cığırı?». Müəllif bu qaynar həyatımızı qoyub «ağ şanı giləsinin içində» belə əziyyətlə nə axtarır? Ən nəhayət, gənc şairin öz içinə kəpənək ciyəri tikdirmək ifadəsi oxucuya hansı estetik zövqü verir?»

Təkrar edirəm, nə yaxşı ki, bu məktubu yazanlar (və yazdıranlar) mətnin içində lağa qoyduqları şeirlərdən örnəklər veriblər. Əgər şeirlərdən misallar verilməsəydi kimsə «bəlkə elə oxucu düz tənqid edir» fikrinə düşə bilərdi. Örnəklər verildikdə isə bu günün oxucusu həmin misraları da, onlara iradları da görüb nəticə çıxartmaqdan başqa o dövrün ədəbi abhavası, ideoloji tələbləri, rəsmi estetik meyarları haqqında da təsəvvürə malik olur.

Məktub-replikadan sonra Azərbaycan KP MK orqanı olan «Kommunist» qəzeti redaksiya adından öz hökmünü də çıxarır:

«Biz də həmin şeirləri oxuduq və bu qərara gəldik ki, V.Alkərəmov yoldaş (məktubu imzalayan - A.) narazı qalmaqda, əsəbiləşməkdə haqlıdır. İdeyasız, sənətkarlıqdan çox-çox uzaq yazılar oxucunu heç vaxt razı salmamışdır. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, «Azərbaycan» jurnalında «Ədəbi gənclik» rubrikası altında belə sönük, anlaşılmaz yazıların getməsi yeganə hal deyildir. Bu barədə respublika mətbuatında dəfələrlə yazılmışdır. Görünür, jurnalın redaksiya heyəti bu haqlı tənqidlərdən hələ lazımı nəticə çıxarmanuşdır. Belə olmasaydı yuxarıda misal çəkilən zəif və ideyasız şeirlər həyat vəsiqəsi alıb Yazıçılar İttifaqının orqanı olan bir jurnalın səhifəsində özünə yer tapmazdı. Respublikamızda istedadlı gənclər çoxdur. «Azərbaycan» jurnalının vəzifəsi bu gəncləri xəlqilik və partiyalılıq ruhunda tərbiyə etmək, onların tükənməz gücünü böyük kommunizm quruculuğu işinə yönəltməkdir.

Jurnalın redaksiya heyəti unutmamalıdır ki, gənc istedadlara ən böyük qayğı və kömək prinsipial tələbkarlıqdır. «Azərbaycan» jurnalı gənclərə tələbkarlığı mütləq artırmalıdır».

Əlbəttə, gənc şairləri də, yaşlı şairləri də tənqid etmək olar və lazımdır. Tənqidin belə yüngülsayaq, bəsit, felyetonvari üslubu da mümkündür. Amma məsələ ondadır ki, həm təşkil olunmuş «oxucular», həm də Partiyanın rəsmi orqanı olan qəzetin redaksiyası tənqidlə kifəyətlənmirdilər. Bu sayaq şeirlərin, ümumiyyətlə çap olunmamasını tələb edirdilər, yəni öz zövqlərinə uyğun gəlməyən ədəbiyyatı elə beşikdəcə boğmağa təşəbbüs göstərirdilər.

Elə həmin o vaxt mənim ilk iri əsərim «Ağ liman» povestim haqqında «Kommunist» qəzetində üç sütun həcmində kəskin tənqidi məqalə dərc olunmuşdu.

Dediyim kimi belə yazıların əksəriyyəti «Kommunist» qəzetində çap olunurdu. O vaxt bu qəzetin ədəbiyyat şöbəsinin müdiri yazıçı Əfqan idi və şübhəsiz, bütün bu tənqidi yazıların meydana çıxmasında onun da əli vardı. Bu gün mənim Əfqanla normal əlaqələrim var, köhnə incikliklər unudulub və onların bizim qarşılıqlı münasibətlərimizə heç bir təsiri yoxdur. Burda bu faktı yalnız bir məqsədlə yenidən xatırlayır və xatırladıram. Rəsul Rza, şübhəsiz bu tənqidi yazılardan da, Əfqanın bu işdə iştirakından da xəbərdar idi, amma Əfqanın «Gülyanaq» romanını və bir povestini oxyub bəyəndiyinə görə mətbuatda Əfqana açıq məktubla çıxış etmişdi. Həmin məqalə-məktubdan bir neçə parça:

«Hörmətli Əfqan! «Gülyanağ»ı maraqla oxudum. Yaxşı əsərdir'. Cəsarətlə yazılmışdır. Mən öz-özlüyümdə romanı «Həyatdan lətifələr» adlandırardım. Bu, doğrudan da belədir. Bu, bəzəksiz, diizəksiz, bəzən acı, göynəkli, bəzən qürurlu həyat lövhəsidir, bugünlü (müasir) həyat lövhəsi... Rekordbazlıq, yalan, yaltaqlıq, özümlük (eqoizm), real şəraiti bilmədən, nəzərə almadan standart göstəriş metodu ilə işləmək, insan ləyaqətini təhqir edən buyruqçuluqla planlaşdırmaq kimi halların ifşası inandırıcı, kəsgin, haqlı verilmişdir. Əsərin

vətəndaşlıq pafosu güclüdür... Romanın uğurları haqqında yenə də yazmaq olar. Mənə elə gəlir ki, son illərin nəsr əsərləri içində həyat həqiqəti, vətəndaşlıq cəsarəti, bədii səviyyəsi ilə «Gülyanaq» romanı xüsusi yer tutur. Bunu tənqidçilərimiz görməli və gur səslə deməlidirlər. Görünür, bu obrazların yaradılmasında müəllifin subyektiv nifrəti öz təsirini göstərmişdir. Bu hal «Dünya gözəlliyindi» povestində də görünür. Həm romanın, həm povestin dili səlis, təbii, aydın, oxunumludur. Obrazların özlərinə məxsus deyim (ifadə), təfəkkür fərqləri, xüsusiyyətləri var. Bu yaxşıdır. Əsərinlə mənə verdiyin estetik zövq üçün sağ ol.

Hörmətlə
***Rəsul Rza* 1978»**

Bu fakt mənimçün çox önəmlidir. Bu bir daha sübut edir ki, ədəbi mövqelərində Rəsul Rza subyektiv hisslərə, şəxsi münasibətlərə, hansısa gileylərə, incikliklərə heç bir vaxt məhəl qoymayıb. Bədii cəhətdən və özəlliklə vətəndaşlıq baxımından gərəkli saydığı hər bir əsərə qiymət verməyi bacarıb.

Dediyimə başqa bir örnək: Ensiklopediyanın keçmiş əməkdaşlarından Akif Əliyev «Cəsarətli şair, milli ensiklopedist» adlı yazısında(«Addım» qəzetində, 15.09.2001) belə bir epizodu xatırlayır:

«Rəsul Rza arxa-dayağı, kimsəsi olmayan istedadlı gəncləıə daim kömək edərdi. Sabiq millət vəkili mərhum Zakir Sərdarov Jurnalistlər Birliyində işə düzəlmək üçün R.Rzanın yanına gəlir. Rəsul müəllim soruşur ki, tənqidçi Asif Əfəndiyevin yazılarını oxuyursan? Z.Sərdarov cavabında deyir ki, Rəsul müəllim, Asif dayım oğludur. Amma onun yazılarını oxumaq istəmirəm, çünki başa düşmürəm. Get, onun yazılarını oxu! Və onun qohumu olduğuna görə sənə kömək edirəm - deyə İsrafil Nəzərova zəng çaldı. İşə düzəldim. Sonra Rəsul müəllimin tapşırığı ilə gedib Asifin yazılarına baxdım. Həmin

yazılarında Asif başdan-ayağa R.Rza poeziyasını tənqid atəşinə tutmuşdu. Rəsul müəllimin böyüklüyünə heyran oldum».

Şəxsi yaxınlığı olub-olmadığını əsla nəzərə almadan Rəsul Rza başqa istedadlı nasirlərimizin də yaradıcılıq uğurlarına sevinir, onları dəyərləndirir və lazım olan məqamlarda həmin müəllifləri müdafiə edirdi.

Görkəmli nasirimiz İsa Hüseynovun əsərləri mötəbər bir iclasda ən yüksək rəsmi səviyyədə, Azərbaycan KP MK-nın o vaxtkı Birinci katibi tərəfindən tənqid olunanda Rəsul Rza çıxış edib İsanı müdafiə etmişdi. Başqa bir məqamda Sabir Əhmədova haqsız hücumlara cavab vermişdi.

O vaxt Yazıçılar İttifaqında Rəsul Rzanın təşkil etdiyi və apardığı ədəbi dərnəyə gənc şairlərlə bir yerdə cavan nasirlər, tənqidçilər də toplaşırdı. Bunu da qısqanclıqla qarşıladılar və tezliklə bu dərnəyi qadağan etdilər. Mən o vaxt dərnəyin toplantılarında iştirak etməmişdim, amma yadımdadır, atam Əkrəm Əylislinin dərnəkdə müzakirə olunan əsərlər haqqında dəqiq mühakimələr yürütdüyünü xüsusi qeyd edirdi. Əkrəm Əylislinin yaradıcılıq uğurları haqqında müsahibələrində, o cümlədən «Дружба народов» jurnalında dərc olunmuş müsahibəsində də deyirdi və ona Yazıçılar İttifaqına üzv olmaq üçün zəmanət verənlərdən biri də Rəsul Rza idi.

Əkrəmin «Əylisdən Əylisəcən» kitabı haqqında, bu kitabın yazıçının təbiətinə və xasiyyətinə uyğun bir çox məqamları haqqında söhbət açmadan bir neçə yerini sitat gətirmək istəyirəm. Əkrəm yazır:

«Qonşu evdə (həmin o Vaqif küçəsindəki təzə binada) gedib Anara baş çəkdim. O məni yuxarı dairələrdəki, (əslində mənim üçün yox, onun özü üçün maraqlı olan) bəzi məsələlərdən hali elədi. Sonra dedi ki, Cəfər Cəfərov (o vaxt Cəfər müəllimi lap təzəcə Mərkəzi Komitənin ideoloji katibi qoymuşdular) səninlə maraqlanır. Rəsul (Anar öz atasına eləcə «Rəsul» deyirdi) iş barəsində (yəni mənim haradasa qulluq işinə düzəlməyim barədə) səninlə söhbət eləmək istəyir. Havaxt deyirsən, bir yerdə gedək yanına... Bir sözlə, məlum

oldu ki, Anar da elə həmişəki Anardır, mənim yolumda özünü fəda eləməyə can-başla hazırdır». Bilmirəm Əkrəm onun yolunda fədakarlıq etməyim haqqında fikrini səmimimi, yaxud rişxəndləmi deyir, amma mən doğrudan da o vaxt da, indi də elə həmişəki Anaram və onu da deyim ki, o vaxt yuxarı dairlərlə Əkrəm məndən çox maraqlanırdı. Mənim yuxarı dairlərlə əlaqəm yalnız ondan ibarət idi ki, Cəfər Cəfərov atamın dostu olmaqdan başqa Universitetdə mənim diplom işimin rəhbəri olmuşdu və yaş fərqimizə baxmayaraq mehriban ünsiyyətimiz vardı, o katib olmamışdan əvvəl də, katib olanda da, katiblikdən gedəndən sonra da, ta ömrünün axırınacan. Əkrəmin öz istəyiylə «Gənclik» nəşriyyatına baş redaktor təyin olunması harədə Cəfər müəllimdən mən də, atam da xahiş etmişdik. Az sonra Əkrəmi bu vəzifəyə təyin etdilər və nəşriyyatda qısa müddət işləsə də, ədəbiyyat üçün faydalı işlər gördü, müəyyən müqavimətlərlə rastlaşsa da, bir sıra istedadlı gənclərin kitablarını nəşr edə bildi. Kitabında bu barədə də yazır: «Əvvəlcədən ürəyimə dammışdı ki, mən bu nəşriyyatda çox işləyə bilməyəcəm. Buna görə də, orda işləyəcəyim müddətdə heç olmasa, ən istedadlı gənc yazıçıların bir neçəsinin kitabının nəşr olunmasına yaman tələsirdim. Və bu işdə çox vaxt Rəsul Rza dadıma çatırdı, çünki nəşriyyatın direktoru mənim fikrimlə hesablaşmağa hərdən məcbur olsa da, hər halda Rəsul Rzanın sözündən çıxmağa heç vaxt cəsarət eləmirdi». Sağ olsun Əkrəm ki, heç olmasa bunu unutmayıb. Başqa bir epizodu da özünəxas şəkildə xatırlayır. Povestinin çapına əngəl törədiləndə Əkrəmin yazdığına görə «əlac bir «adlı-sanlı» (dırnaqlar Əkrəmindir) adam tapıb, povestə rəy yazdırmağa qalmışdı. Rəsul Rza yazsa necə olar? Mən soruşdum, özü də bəlkə heç, bir saniyə də ölçüb-biçmədən soruşdum, çünki köhnə («adlı-sanlı») nəslin içində «yeni ədəbiyyatı» anlayan və müdafiə eləyən yeganə şəxs olaraq, o zaman hər yerdə və hamı yalnız Rəsul Rzanı tanıyırdı».

Əkrəmin yazdığına görə mənim vasitəmlə əsəri atama çatdırıb, atam oxuyub, bəyənib və fıkrini deyib. Amma

Əkrəmin yaddaşında bu həlledici rəydən daha artıq Rəsul Rzanın fikrini hansısa, Əkrəmin fikrinə görə şablon cümləylə çatdırması qalıb. Elə bu da əlamətdar ştrixdir.

«Rəsul müəllim, görünür, doğrudan da, çox məşğul idi. Öz iş otağında bizi çox saxlamadı. Birdən cəld hərəkətlə ayağa durub: Bir sözlə, mən əsəri bəyənirəm, çapını da lazım bilirəm, - dedi. Bu sözləri mənim adımdan Məmmədə və Zəkiyyə xanıma da deyə bilərsən. Lazım olsa, zəng eləyib direktora da fikrimi çatdırram. Ancaq kitaba rəy yazmağa bu saat vaxtım yoxdu. Əlimdə təcili iş var.

Və yəqin ki, öz yoldaşlıq borcunu axıracan yerinə yetirməyi qəti qərara almış Anar mənimlə bir yerdə o gün «Azərnəşr»ə getdi. Rəsul Rzanın əsəri bəyəndiyini Məmmədə və Zəkiyyə xanıma öz dili ilə deyib, üstəlik, ayrılanda məlul-məlul mənə baxıb, bir növ günahkarcasına gülümsədi də».

Bilmirəm, doğrudan da məlul-məlul baxmışam (bəlkə Əkrəmə elə görünüb) ya yox, amma hər halda çətin vəziyyətə düşmüş qələm yoldaşımı atamın nüfuzuyla və mənim azacıq da olsa köməyim və iştirakımla müdafiə etdiyimçün nə o vaxt, nə də indi «günahkarcasına gülümsəmək» fikrim olmayıb. Nə isə...

O vaxt hansı işiyləsə əlaqədar olaraq Moskvaya getmiş Əkrəm oradan mənə yazırdı: «Anari, mən çox güman ki, ancaq ayın axırlarında gəlib çıxa biləcəyəm. Burada iki məsələ var. Biri bizim Naxçıvan səfərimiz. Gecikməyimin buna dəxli yoxdur. Gələn ayın əvvəllərində səfərə çıxa bilərik. O biri məsələ komsomol mükafatı məsələsidir. Qorxuram Cəmil mənə badalaq gələ. Bu məktubu da, düzü, elə bu məsələyə görə sənə yazıram. Çünki orda mənim bu məsələ ətrafında bir söz deyə biləcəyim ikinci adam yoxdur. Anari, bilirəm ki, səni çətinliyə salıram. Ancaq başqa əlacım yoxdur. Mümkünsə bir az göz-qulaq ol. Mən istəyirəm o mükafatı alım, get-gedə daha çox hiss eləyirəm ki, lazımdır! Bilirəm ki, əgər Cəfər kişinin xəbəri olsa, məsələ mənim xeyrimə həll olunacaq. Ancaq, çox mümkündür ki, məsələni ondan ötürsünlər. Onda gərək sən Rəsul müəllimə deyəsən, onu da zəhmətə salasan zəng eləsin.

Anari, bütün bunların, bu zəhmətin nə olduğunu mən başa düşürəm. Daxilən xəcalət çəkirəm və ancaq bir şeyə ürəklənirəm, o da taleyimi sizinlə birləşdirməyimdir. Bilmirəm nə dərəcədə buna haqqım var, ancaq, mənə elə gəlir ki, bütün bunları sənə yaza bilərəm. Nə isə, mirzə, bu qədər. Özünə eşq olsun.

Sağ ol
Sənin Əkramin
20X68»

***

Mən əlbəttə, dərhal atama bu barədə dedim və o da Cəfər Cəfərovdan Əkrəmə komsomol mükafatı verilməsi barədə xahiş etdi. Mən özüm də Cəfərovun yanına getdim, xahiş etdim ki, bu ilin Komsomol mükafatlarının Əkrəmə və Fikrət Qocaya verilməsinə kömək etsin. (Fikrət özü bu barədə nə mənə, nə atama heç bir söz deməmişdi) C.Cəfərov əvvəl xahişimi zarafata saldı: Bəlkə bu mükafatı elə sənə verək, - dedi. – Yox, - dedim, - işdi mənə versələr, imtina edəcəm. Yenə zarafat elədi: Pasternak Nobel mükafatından imtina edən kimi? Ancaq fikrimin ciddi olduğunu görüb: Yaxşı, - dedi, - sənin Əkrəminlə Fikrətinə verərik.

Sonra Cəfər Cəfərov bu əhvalatı atama danışıb: Anarın da qəribə xasiyyəti var ey, bu xasiyyətlə yazıçılar arasında çətin baş çıxarda. Uzaqgörən adam imiş və yazıçı əxlaqına yaxşı bələdmiş.

Maqsud İbrahimbəyova da Yazıçılar İttifaqına üzv olmaq üçün Rəsul Rza zəmanət vermişdi. İctimai əsaslarla sədri olduğu APN mətbuat agentliyində onu işə qəbul etmişdi.

Rüstəm İbrahimbəyovun ssenarisi əsasında çəkilmiş «Bir cənub şəhərində» filmi rəsmi dairələri yaman təşvişə salmışdı və hətta filmin qadağan edilməsi, ekranlara buraxılmaması təhlükəsi vardı.

Rüstəm bu bəradə belə yazır:

«Şübhəsiz ki, bizim aramızda da özgənin ağrısını özününki kimi hiss etməyə qabil olanlar olub və bu gün də var. Bu mənada şəxsən mənim bəxtim gətirmiş, həyatımda bir neçə belə adama rast gəlmişəm. Onlardan biri Rəsul Rza idi. Mən bu gözəl, ala gözlü, azacıq axsayan (yadımda belə qalıb) adamla cəmi bir neçə dəfə ünsiyyətdə olmuşam və demək olar ki, hər bir görüşümüz onunla bağlı idi ki, çoxdan ümumxalq məhəbbətini qazanmış görkəmli şəxsiyyət yaradıcılığa təzəcə başlayan bir ssenarist və nasirin problemlərinin həllinə vaxt sərf edirdi. Düşünmürəm ki, onun taleyimdəki iştirakını yalnız elə o vaxtlardan Anarla dostluğumla izah etmək olar. Gözəl ata olan Rəsul Rza övladlarını sevirdi və onlarla hesablaşırdı, lakin heç kim, elə Anarın özü də ona öz fikrini qəbul etdirə bilməzdi. O vaxt mən bir povest, bir-iki hekayə və povestimin əsasında «Bir cənub şəhərində» filminin ssenarisini yazmışdım. Lakin artıq iik filmimin taleyi Azərbaycan KP MK Bürosunun iclasında həll edilmişdi.

Altmışıncı illərin sonlarında belə müzakirələrin nə ilə qurtara biləcəyini həmin illərdə yaşayanlar bilirlər. Məsuliyyəti ziyalıların boynuna qoymaq üçün belə bir «müdrik» qərar qəbul edildi: görkəmli incəsənət, mədəniyyət, elm xadimlərini Dövlət Kinematoqrafiya Komitəsində toplayıb filmi orada tənqid atəşinə tutmaq qərarına gəldilər ki, orada əl-qollarını yaxşıca aça bilsinlər. Lakin başqa cür düşünənlərə xalqın əli ilə divan tutmağın həmişə kara gələn üsulu bu dəfə keçmədi, xeyli dərəcədə Rəsul Rzanın səyiylə gözlənilməz bir vəziyyət yarandı. Onun çıxışı müzakirənin istiqamətini müəyyən etdi və çoxlarına adətən belə vaxtlarda oyanan özünüqoruma instinktini boğmağa kömək etdi. Artıq ilk ifadələrdən aydın oldu ki, Rəsul Rza respublika rəhbərliyinin heç də xoşuna gəlməyən mübahisəli film çəkmiş gənc adamları müdafiə etməyi özü üçün vacib saymışdı. Filmi bütövlükdə tərifiəyən Rəsul Rza onun müəlliflərinin düşdüyü vəziyyətin mahiyyətini üzə çıxaran bir təmsil danışdı. Bu təmsildə eyni zamanda, bütün dövrlərdə Sənətkar və Hakimiyyət münasibətləri obrazlı

ifadəsini tapırdı. Mənim təfsirimdə pəncəsindəki yaranın şiddətli ağrısından əzab çəkən aslanın əhvalatı o qədər də maraqlı görünməyə bilər. Lakin o zaman Azəıbaycan ziyalılığının qaymaqları hakimiyyətlə bu çətin qarşıdurma vəziyyətində özlərinə bir dayaq tapmaq üçün təmsili çox böyük diqqətlə dinləyirdilər.

Aslanın ağrısı get-gedə şiddətlənirdi, günü-gündən artan irin onun hərəkət etməsinə imkan vermirdi. Öz padşahına kömək etmək istəyən heyvanların növbə ilə yaranı yalaması ağrını yalnız qısa müddətdə yüngülləşdirirdi. Birdən padşahın taxtına inamla yaxınlaşan cavan bir dovşan özünü qəribə aparmağa başlayır. Pəncəyə tikan batdığını görən dovşan hamı kimi yaranı yalamaq əvəzinə qəfildən tikandan yapışır. Ağrıdan nərə çəkən aslan yarasından tikan çıxaran dovşanı sağlam pəncəsi ilə vurur. Səhərisi gün aslan sağalanda məlum olur ki, yaltaqcasına onun yarasını yalayanlar deyil, aslandan zərbə yemiş biçarə dovşanın hərəkəti şəfalı imiş. Lakin artıq gec idi. Aslan hər şeyi başa düşən zaman dovşan artıq ölmüşdü.

Bir çox başqalarından fərqli olaraq öz filmlərində həyatımızın real problemlərinə toxunmağa çalışan gənclərin ilk işini ittiham etsək bu aslana bənzəmiş olmarıqmı?» Rəsul Rzanın auditoriyaya verdiyi bu sual, əlbəttə ki, qüdrət sahibi olan MK üçün nəzərdə tutulmuşdu.«Kim bilir tikanı çıxarmağa cəhd etdiklərinə görə dəstəkləmək və təqdir etmək əvəzinə biz onlara zərbə endirsək başlarına nələr gələ bilər?»

«Bir cənub şəhərində» filminin taleyi sadə olmadı, onun ümumxalq müzakirələri hələ uzun müddət davam etdi. Lakin Dövlət Kinematoqrafiya Komitəsindəki həmin yaddaqalan müzakirədən sonra bizim üçün ən vacib olanı baş verdi, film ekranlara çıxdı və Azərbaycan ziyalıları ilk dəfə bu işin təhlükəsindən qorxmayaraq hakim dairələrin rəyinə zidd olan fikirlər söylədilər. Və şübhəsizdir ki, Rəsul Rzanın şəxsi nüfuzu o zaman həlledici rol oynadı. Mən bu qısa və çox şəxsi xatirələrimi yalnız böyük şairimizə duyduğum minnətdarlıq hissinə görə bölüşmək istəmədim (Rəsul Rzanın böyük

xidmətləri bütün xalqa məlumdur). Həyatımın bu epizodunu təsvir etməklə nə zamansa yaxşılıq edə bildiyim adamlara bir məqamı anlatmaq istəyirəm. Nəzərə almanızı xahiş edirəm ki, kiməsə xeyirxahlığımda həyatımın keçid mərhələsində özünüqoruma instinktini, baş girləmək məharətini üstələyərək insanlara kömək etməyin nümunəsini göstərmiş bir şairin əli vardı» («Baş girləmək məharətinin əksinə». «Литературная газета, 11.17 oktyabr 2000)

«Bir cənub şəhərində» filminin rejissoru Eldar Quliyev də bunu xatırlayır: «Filmə qapalı baxış keçirdilər. Rəsul Rzanın çıxışı yaxşı yadımdadır. O, böyük şəxsiyyət idi. Çox ruh verdi bizə. Müasir həyatdan misallar çəkib filmi müdafiə etdi» («Xalq qəzeti», 19 avqust 1999)

Başqa bir istedadlı nasirimiz Mövlüd Süleymanlının «Dəyirman» povesti də amansız və haqsız tənqidlərə məruz qalanda Rəsul Rza çox bəyəndiyi bu əsər haqqında geniş məqalə yazmış və povesti yüksək qiymətləndirmişdi.

Mövlüd da xeyirxahlığı unutmayan insanlardan biiidir. «Rəsul Rzaya doğru» adlı səmimi yazısında belə deyir:

«Bizi işığına yığan adamlar güclü idi, bizə sınmamaq, məhv olmamaq haqqında mənalar aşılayırdılar... Bir millət kimi sağ qalıb yaşamağımız da bu mənalara görədir. Azadlığın da bu mənalardan doğulduğunu bilməliyik və zaman-zaman düşüncələrimizdə varlığı közərən, məna işartılarıyla bizə yol göstərən, gizli mətləblər qandıran şəxsiyyətləri yenidən duyub yaşamalıyıq. Mən indi böyük, ulu Rəsul Rzanı minnətdarlıq hissiylə xatırlayıram və onun bir zamanlar bizi içimizdən qaldıran misraları düşür yadıma. Rəsul Rza yaradıcılığı Azərbaycanın poetik sözünün başını qaytarıb, yəni sözümüzü heç olmağa qoymayıb və şeirimiz hardasa ona, onun düşüncəsinə, bu düşüncə tərzinin ifadəsinə baxıb yerişini düzəldib...

«Rənglər» silsiləsi mühitimizdə ildırım kimi çaxdı və böyükdən kiçiyə hamı ayaq saxlamalı oldu. Ətraf işıqlanmışdı, daha doğrusu hardansa düşüncələrə işıq sızılırdı.

Rəsul Rzanın şeirləri ədəbi mühitdə gözlənilməz hadisə idi. Ona görə də ilk addımlarında daha çox çaşqınlıq yaratmışdı. Gözlənilməz olsa da, hər halda doğma, boyasız, bəzəksiz, sözü üzə deyən, dərdə, ağrıya yaxın olan bir səs idi. Yalvarışlardan, göz yaşlarından, mənasız tərənnümlərdən uzaq, soyuq və sərt söz deyilməyə başlamışdı. Rəsul Rza poeziyasına ağız büzənlər də istər-istəməz düşünməli olmuşdular. Başqa çarə yox idi. Rəsul Rza gələcəyin sözünü deyirdi. Bu dahiyanə məntiqin qarşısında bütün mənasızlıqlar çəkilməliydi və ən əsası Rəsul Rzanın gətirdiyi yeniliklər cücərib böyüyürdü artıq! Böyük şairmiz Rəsul Rza ömrünün axırınacan öz halal, doğru, əyilməz sözünü dedi ictimaiyyətə. Hələ o dövrün özündə bir-birini əvəz eləyən nəsillər Rəsul Rzanın haqsızlıqlara, «man-qurtlaşma» siyasətinə qarşı çıxışlarını, etiraz səsini yaxşı xatırlayırlar. Nəinki ədəbi dünyamızda, ümimiyyətlə ictimai-siyasi həyatımızda əgər bir haqsızlıq olardısa, kimlərsə qərəzli tənqidlərə məruz qalardısa, biz o illərin gəncləri bir adamın çıxışını gözləyərdik. Və çox keçməzdi ki, Rəsul Rzanın məntiqli, ağıllı, inandırıcı, bütün zamanlar üçün çağdaş səsini eşidərdik. Və bu gün Rəsul Rza yaradıcılığını daha çox xatırladığımız da təsadüfi deyil. Bu onun daha çox sabahların şairi olduğunu bir də təsdiq edir» («Xatirələr işığında» kitabında).

Maraqlıdır ki, bu fikirlər vaxtilə rəhmətlik Əbülfəz Elçibəyin bir müsahibəsində söylədikləriylə hardasa uyğun gəlir. Əbülfəz bəy özünəməxsus bir üslubda deyirdi:

«Respublikada gəncləri çox əzirdilər. R.Rza bıdən çıxdı, 20- 10 nəfəri himayə elədi. Camaat baxırdı ki, yuxarıda Rəsul da var. Rəsulun hesabına aşağıdan bəziləri cəsarətlənirdilər. Və onları Rəsul himayə edirdi. Məsələn, Fikrət Qoca idi, Vaqif Səmədoğlu idi və başqaları. O zaman ziyalılar çox böyük işlər görürdülər. Həmin dövrdə Ə.Əylisli də, Anar da, Elçin də, Y.Səmədoğlu da göz qabağında idi. Bəxtiyar müəllim o ağır vaxtlarda tələbələrinə, millətinə vətənpərvərlik şeirləri öyrədirdi... Bizimki o zaman yüksəliş deyildi, ölümdən qayıdış

idi. O zamanın ədəbiyyatı daha çox əzablıdır. O zamanın yazısına daha çox qiymət verilməlidir. Millətin ölüm nəfəsini geri qaytardığı üçün. Dil uğrunda ədəbiyyat mübarizə aparırdı. Əkrəmin «Azərbaycan» jurnalı, Y.Səmədoğlunun «Ulduz» jurnalı böyük rol oynadı. Onlardan əvvəl Anarın «Qobustan» jurnalı dili ilə, nəfəsi ilə təzə gəlmişdi. Sonra hamı düşdü onun üstünə, başladılar Rəsul Rzanın əleyhinə yazmağa, Anarın əleyhinə yazmağa. O dövrün ziyalalırı haqqında ayrıca yazı da yazmaq lazımdır. Onların qiyməti də verilməlidir. Bu Şabir ruhunun qayıtması idi. Bu XX əsrin birinci yarısında qaynayan ziyalı təfəkkürünün təzədən qaytarıb gətirmək, təzədən ona qayıtmaq və onun üstündə yenidən qurub getmək idi. İndi necə ki, biz Azərbaycan Demokratik Cümhuriyyətini bərpa etməyə çalışırıq, o zaman da bunlar həmin o məfkurəni bərpa eləyənlər idi və elədilər də. Çox şeylər elədilər».

***

Yazımın şərti olaraq «Rəsul Rza və ədəbi gənclik» adlana biləcək bu bölməsinin sonunda o dövrün cavan, indinin ağsaqqallar və orta nəslinə mənsub olan şairlərindən bir neçəsinin (nə yazıq ki, onların arasında dünyasını vaxtsız dəyişənlər də var) sözlərini vermək istəyirəm.

«Rəsul Rza məhz belə şairdir. Onun kitablarının hamısını bir dəfəlik oxuyub kənara qoya bilmirsən. Dəfələrlə onlara qayıtmalı olursan və hər dəfə oxuyanda sənə elə gəlir ki, əsər daha dərinləşmiş, mükəmməlləşmişdir, elə bil şair onu yenidən yazmışdır. Hətta bəzən şairin əzbər bildiyin şeirini də sənə məlum olmayan sirli bir hisslə yenidən oxuyursan.

Rəsul Rza yaradıcılığının biz gənc ədəbi nəslə təsiri böyükdür. Onun yaradıcılığı gözəl təcrübə məktəbidir. Söz üstündə əsmək, obrazlı fikirlər demək, vəzni fikrə tabe etdirmək, hissi ölçü çərçivəsində sıxılmağa qoymamaq kimi məsələləri biz məhz Rəsul Rzadan öyrənməliyik.

Əli Kərim 1960»

«Rəsul Rza yaradıcılığının hər yeni mərhələsində, özündə nəyisə qoruyub saxlayan, nəyisə rədd edən, dialektik sıçrayışlar yolu ilə irəliləyən sənətkar olmuşdur. Rəsul Rza yalnız başqaları ilə deyil, həm də özünü keçmək uğrunda çarpışmalarda kamilləşən sənətkardır. Yazıları isti şitillikdə süni yolla yetişdirilən tərəvəzə bənzəyən qələm sahibləri ilə müqayisə etmədikdə belə Rəsul Rza poeziyasının təbiiliyi, qaynarlığı, bənzərsizliyi apaydın görünür. Bəzi şairlərin mahirliyini nümayiş etdirmək üçün bir bəndini, yaxud beytini misal gətirməklə ürəyini soyudursan. Rəsul Rza sənətkarlığından danışanda isə bir, iki beyti, bəndi yox, şeiri, hətta mümkün olsa poeziyanı bütünlüklə misal gətirmək istəyirsən. Bunun başlıca səbəbi odur ki, Rəsul poeziyasının gücü yalnız özünəxas, gözlənilməz bənzətmə və məcazlarda deyil, bundan daha çox şeirin bütövlüyündə, mahiyyətində və daha dərin qatlarındadır. Gözləri nə üçün bunca unudulmaz, hələ də bunca nüfuzedicidir? Çünki bu gözlər böyük idrak işığı ilə dolu idi, tarix axarının ön cərgəsində addımlayan, ictimai tərəqqi və xalq səadəti uğrunda mübarizədə öz yerini birdəfəlik müəyyənləşdirmiş qəhrəmanlar sırasında addımlayan mərd, mübariz, xeyirxah və nəcib bir insanın tükü tükdən seçən, həqiqəti aydın görən sənətkar gözləri idi. Rəsul Rzanın şair gözlərinin itiliyinə, müşahidə zənginliyinə, hadisə və insanların tarix kəsimlərinin yalnız zahirini yox, həm də və ən başlıcası, batinini, mahiyyətini görmək bacarığına heyran qalmamaq çətindir

Xəlil Rza Ulutürk
1981»

«İlk baxışda Rəsul Rzanın yaradıcılığı bir qitəni başdan-başa öyrənməyə bənzəyir. Ancaq bu qitədə xeyli ayaq dəyməmiş cığırlar var, sehirli çeşmələr var, pusquda duran vulkanlar var. Dilimizin bütün incəliklərini qeyri-adi şəkildə duyan və anlayan, onun ecazkar şirinliyini, əlvanlığını və musiqili koloritini ustalıqla işlədən Rəsul Rza Azərbaycan

poeziyasını yeni bədii yüksəkliyə qaldıra bildi. Şairi öz sənətinə dərin idraki münasibət fərqləndirir. Peşəkarlıq, şeir «istehsalı», keçəri parlaqlıq onun yaradıcılığına kökündən yabançıdır. Onun bütün əsərlərinin ana xətti yüksək vətəndaşlıq, həqiqi patriotizmdir. Sənətin mürəkkəb və keşməkeşli yollarında Rəsul Rza məninçün öz yüksək amalına xidmət etməyin ən gözəl örnəyi olmuş, ən gözəl örnəyidir və ən gözəl örnəyi kimi qalacaq.

Məmməd Araz
1970

Rəsul Rza azad doğulmuş insan idi. R.Rza təbiətli adamlar növbədə, cərgədə durmağı sevmirlər. Rəsul bu cərgədən kənara ayaq atıb sərbəst şeir yazmağa məcbur oldu. O, bunu novator sayılmaq, novator şair olmaq üçün etmirdi. O, nəfəs almaq, yaşamaq, boğulub ölməmək üçün edirdi. Bu, Rəsulun yaşayış tərzi idi. Bizi müdafiə edirdi. Özünü zərbə qarşısında qoyurdu. Ortada çox vaxt tək qalırdı. Dörd yandan üstünə daşlar yağırdı. Heç müdafiə etdiyi biz gənclər də ona qahmar çıxa bilmirdik. Çünki cəmi dörd qazet çıxırdı. Onlar da gəncləri redaksiyaların heç kandarına yaxın qoymurdular. Rəsul Rza bilirdi ki, tək qalacaq, amma nahaqdan döyülənlərin müdafiəsinə qalxırdı. O, haqqın tərəfində dayanırdı ki, hər axşam evinə gedəndə Nigarının yanına alnı açıq, üzü ağ getsin. Kişi kimi getsin.

«Bir ömür də yaşayaydım bundan belə». Bunu 1977-ci ildə demişdin. İndi 2000-ci ildir. Doxsan illiyin Prezident qərarıyla keçirilir. Bu yubileyi qeyd etməyi Türkiyədən, İstanbuldan, Ankaradan başlamışıq. Bütün azad Azərbaycan sənin ad ilini qeyd edəcək. Yaşamaq bəs nəyə deyirsən, babam, atam, əziz şair qardaşım? Xoş gördük səni.

Fikrət Qoca
2000»

«Şair ömrü doğrudan da bir çinar ömrüdür. Özü də bir çinar yox. Haçansa «Yeddi çinar şairinə» adlı bir şeir yazmışdım:

Yeddi çinarın biri özü
Altısı şeiri, sözü.

O yeddi çinarın biri başdan-başa eyham, rəmz və atmacadır. Ezop dilidir. Şair razı qalıb Ezopdan. Ezop zəhmət çəkib dil düzəldib, bizi də qurtarıb əzabdan.

Nə qədər ki, torpaq var, nə qədər ki, bu torpaqda Azərbaycan var, nə qədər ki, Azərbaycanda, Göyçayda, Gəncədə, Şuşada, Şəkidə, Şamaxıda, Kəlbəcərdə, Qazaxda, Ordubadda, Astarada çinar var, deməli Rəsul Rza da var.

Şair ürəyi 20 yanvara dözərdimi görən?

Yaxşılıq unudulmur. Bu yaxşılığı istər insan eləsin, istər çinar!

Fikrət Sadıq
1990»

«O, Azərbaycanın xalq şairlərinin, Sosialist Əməyi Qəhrəmanlarının, SSRİ dövlət mükafatı laureatlarının ən cavanı idi. Və ömrünün axırına kimi də cavanlara sadiq qaldı, öyrətdi, qayğısını çəkdi, arxa durdu. Bu istedadlı şair öz ruhuna, üslubuna, şeirinin musiqisinə, obrazlı, zəngin dilinə görə xalq içindən çıxdıqları ilə öyünən bir sıra nasirlərdən çox-çox milli, dili isə canlı idi. O bizim ictimai şüurumuzun formalaşmasına, təfəkkür tərzimizin təşəkkülünə misilsz təsir göstərmişdir. Onun lirik şeirləri fiziklərin, riyaziyyatçıların dilinin əzbəridir. Bir çox dünya şöhrətli sənətkarların əsərlərini dilimizə çevirən Rəsul Rzanın misilsiz şeirləri də dünya dillərinə tərcümə olunmuşdu

Vladimir Qafarov»

«Şeir oxumağa başladığm vaxtdan onun poeziyasını sevmişəm. Elə həftə, elə ay olmayıb ki, Rəsul Rzanın şeirlərini oxumayım. Hər dəfə oxuyanda, hətta məlum şeirdə belə yeni fikir, yeni həqiqətlər tapmışam. 1962-ci ildən şeir yazıram. Şeirlərimin ilk hakimi, onlara ilk qiymət verən Rəsul Rza

olmuşdur. Əgər onlar gərəklidirsə, qorxunc yalan torundan uzaqdırsa, mən bunun üçün Rəsul Rzaya borcluyam. Çünki məsuliyyət hissi ilə şeir yazmağı mənə Rəsul Rza öz şeirləri və söhbətləri ilə öyrətdi. Onun estetik zövqünün yüksəkliyi, sadəliyi, poetik söz üçün daşıdığı böyük məsuliyyət məndən ötrü həqiqi məktəbdir.

Vaqif Səmədoğlu»

«Qızıl gül olmayaydı» dastanı Rəsul Rzanın şah əsəridir. Gələcək nəsillər bu Müşfiq abidəsini sevə-sevə əzizləyəcək, Müşfiq dastanını oxuduca hər iki şairimizi candan, könüldən alqışlayacaqlar.

Rafıq Zəka Xəndan
1968»

«Rəsul Rzanın «Ana» poeması bu cəhətdən xarakterikdir. Azərbaycan şairi «Ana» poemasını Ukrayna tarixi, Ukrayna ədəbiyyatı və mədəniyyəti ilə yaxından tanış olduqdan sonra yazmışdır. Ukrayna şairdə Azərbaycan assosiasiyası doğurur, şair Qərbi Ukrayna torpaqlarının Sovet Ukraynasına birləşməsini qələmə alır və bununla da öz xalqının tarixi faciəsini - Cənubi Azərbaycan torpaqlarının hələ də İran tapdağı altında qalmasını bir daha oxucuya xatırladır. Həm şair, həm də azərbaycanlı oxucu qardaş Ukraynanın timsalında doğma Azərbaycanı görür: onun da birləşəcəyi xoşbəxt günlərin gələcəyinə inanır. Təsadüfı deyil ki, Oksana Qərbi Ukrayna torpağına azadlıq aparanlar arasında ilk dəfə azərbaycanlı əsgərə müraciət edir.

Abbas Abdulla»
1982»

«Mən onun adını nə vaxt eşitmişdim? Bütün orta məktəb uşaqları kimi ədəbiyyat dərslərində, adına ilk dəfə dərsliklərdə rast gəlmişəm. Onda, əllinci illərin sonlarında ağlıma hardan gələ bilərdi ki, bir zaman mən bu şairlə yaxından tanış olacam,

hardan bilərdim ki, mənim şair taleyimdə, adicə, arxasız bir insan kimi həyata atılıb ayağa durmağımda bu xeyirxah insan necə böyük rol oynayacaq. İndi, artıq 25 il keçəndən sonra oturub ona xəyalən «minnətdarlıq məktubu» yazmaq fikrində deyiləm. Yaxşılıq elədiyi, xeyirxahlıq göstərdiyi adamlar, 60-cı illərin «döyülən-söyülən» cavan şairləri yaxşı bilirlər ki, ömrü dözüm üstündə köklənmiş Rəsul Rzaya yaxınlaşıb minnətdarlıq eləməyə bəlkə də, heç kəsin cəsarəti çatmazdı... Artıq bir söz işlətsən yerində sərt üz göstərəcəkdi.

Isa Ismayılzadə
1990»

«Bu dünyada Rəsul Rza şeiri ilə yanaşı, Rəsul Rza Xeyirxahlığı, Rəsul Rza əl tutmağı, haya yetməyi də qalıb. İçi mən qarışıq bir nəslin hayına çatmış həmin od-alov Rəsul Rza şeiri kimi bu diinyada yaşayır. Rəsul bizim qolumuzdan tutdu, ən çətin anda içimizdə gücə çevrildi. Biz o qayğını, o zamanki ömrümüzü xatırladan cavanlara ötürmək istəyirik. Bəlkə də vaxt gələcək, bunu edə biləcəyik.

Heyf sənə, heyf Rəsul Rza.

Vaqif Nəsib
1990»

«Rəsul Rza haqqında bir insan kinıi düşünəndə, səmimi olduğu qədər də təmkinli, sözünün yerini bilən, qaynar baxışlı bir insan haqqında düşünürük. Və R.Rzanın incə ruhlu şeirlərini oxuyanda onların belə dönməz təbiətli bir adamın qələmindən çıxdığına təəccüb edirsən. Yaşından, mövqeyindən və vəziyyətindən asılı olmayaraq hamıya qarşı son dərəcədə diqqətli olan Rəsul Rza öz xeyirxahlığı, sənətə obyektiv münasibəti ilə də çoxlarından seçilirdi. Bu xeyirxahlığı biz ədəbiyyata yenicə gəldiyimiz kövrək illərimizdə də hiss etmişik, bu gün onsuz da hiss edirik. Rəsul Rza sənətinə hələ çox qayıdılacaq, onun çoxtərəfli yaradıcılığının müxtəlif çalarl-arı dönə-dönə araşdırılacaq, haqqında yeni-yeni mülahizələr

söylənilәcәk, şairin nәinki Azәrbaycan vә Ümumittifaq, hәmçinin dünya poeziyasında hәqiqәtәn layiq olduğu әsil mövqeyi üzә çıxarılacaq.

Arif Abdullazadә»

«Biz hamımız o illәrdә Rәsul müәllimin әtrafında toplaşan gәnclәr, onu sevirdik, onun mövqeyini, sәnәtini, poeziyasını, yaradıcılıq prinsiplәrini bәyәnir vә tәqdir edirdik. Nә yaxşı ki, o illәrdә, o mәsul mәqamda Rәsul müәllim kimi bir şәxsiyyәt var idi. O vaxt mәn Rәsul müәllimlә sıx әlaqә saxlayırdım. O, mәnim şeirlәrim haqqında mәtbuatda böyük, son dәrәcә dәrin bir mәqalә ilә çıxış etmişdi. Etiraf etmәliyәm ki, bu yalnız mәnim şeirlәrim haqqında böyük sәnәtkarın sözü deyildi, yeni Azәrbaycan poetik gәncliyi haqqında söz idi. Rәsul müәllim bizә «poeziya necә olmalıdır», «әsrin poeziyasından nә tәlәb olunur» kimi mәsәlәlәri izah edir, bizdә poetik mәnlik hissi vә şüuru formalaşdırırdı.

Şamil Salmanov»

«Son iyirmi ildә Rәsul Rzanın әdәbi gәncliyә göstәrdiyi diqqәt vә qayğı bu gün bütün parlaqlığı ilә görünmәkdәdir. Bu qayğı neçә gәncin taleyindәn keçәrәk, istedadlı qәlәm sahiblәrini üzә çıxardıb. Azәrbaycan LKGİ Mәrkәzi Komitәsi gәnc yazıçıların respublika әdәbi birliyini yaratmaq haqqında qәrar vermişdi. İlk mәşğәlәyә Rәsul Rzanı dәvәt etmәk lazım idi. Mәn bununla әlaqәdar Rәsul müәllimlә görüşüb söhbәt etdim. Rәsul Rzanın sәhhәti o qәdәr dә yaxşı deyildi. Ancaq buna baxmayaraq o, ilk mәşğәlәmizә gәldi. Böyük şairin ilk mәşğәlәmizdә iştirakı gәnc qәlәm sahibləri üçün unudulmaz oldu. Rәsul müәllim әvvәlcә gәncləri dinlәmәk istәdiyini bildirdi. Allahverdi Mәmmәdli, Әhmәd Qәşәmoğlu, Adil Cәmil, Әhmәd Әsgәr, Paşa Әlioğlu şeirlәrini oxudular. Mәşğәlәyәdәk o, yalnız Paşa Әlioğlunun şeirlәri ilә tanış idi. Paşanın şeilәrini mәn ona mәşğәlәdәn üç-dörd ay әvvәl, elә evlәrindә oxumuşdum. O, Әli Kәrimin böyük oğlunun şeir

yazdığını eşitmişdi. Ancaq onun şeirlərinin necəliyini bilmirdi. Açığını deyim ki, Paşanın şeirlərini Rəsul müəllim ilk dəfə evlərində Nigar xanımla birlikdə dinləyərkən mən özüm də bilmirdim, böyük sənətkarımız bu ilk qələm təcrübələrini necə qiymətləndirəcək: Paşanın şeirlərini oxuduqca Rəsul müəllim də, Nigar xanım da sevinirdilər. Şeirlər onların xoşuna gəlmişdi.

Vaqif İbrahim»

«Doğrudur, hamı deyir ki, Rəsul Rza gözəl şairdir. Lakin ondan öyrənməyə gələndə çoxları etiraz eləyir. Hələ heç kəs deyə bilmir ki, Rəsul Rzadan nəyi öyrənmək olar və necə öyrənmək olar?

Bəli, biz Rəsul Rzadan öyrənirik. Rəsul Rza ədəbiyyatımızda buzqıran gəmi rolunu oynayırdı. Rəsul Rza bizimlə həyat arasındakı buz örtüyünü qırdı və həyata açıq gözlə baxmağı bəxş etdi. Diqqətlə baxıb gördük ki, ilahi nələr varmış, nələr! Öz-özümüzə nifrət elədik. Bu uzun illəri alma boyda gözlərimiz ola-ola kor kimi qaldığınıız üçün, özümüzə nifrət elədik. Rəsul Rza açıq gözlərin korluğunu sağaltdı. Aydın həqiqətdir ki, indi kor gözləri sağaldırlar. Lakin faciəlidir ki, açıq gözlərin korluğundan çoxumuzun xəbəri yoxdur... Gənclik bu şairin kəşf etdiyi notların səsi altında nəsiyyətçilikdən, hay-küydən, çığır-bağırdan, boğazdan yuxarı tərifdən, patetikadan uzaqlaşdı. Hər şeydən əvvəl Rəsul Rza gəncliyə öz poetik savadını bağışladı. Sadəlik, aydınlıq, geniş düşüncə bağışladı

Tofiq Abdin»

«Bakının mərkəzində pəncərəsi həmişə insanla, maşınla dolu, hay-küylü küçəyə açılan balaca bir otaq var. Üstünə kitablar, yazılı-yazısız vərəqlər səpələnmiş iş masası, sadə çarpayı, çarpayınm baş tərəfində içi dərmanla dolu balaca dolabça. Divardan şairin gənclik illərinin sirdaşı olan tar asılıb, neçə illərdir ki, bu torpağın taleyindən, keçmişindən, bu

günümüzdən danışan sevincli, ağrılı, yanğılı misralar, tarın sarı simləri kimi, güclü bir vətəndaşlıq duyğusuna köklənib. Dolabçanın üstünə tranzistor qoyulub, neçə illərdir ki, şair ürəyi dünyanın yaxınının, uzağının sorağındadır; insan səadəti və dünyanın gələcəyi uğrunda gedən mübarizələr bu otaqda, narahat, ilhamlı ürəkdə əks-səda verir. Bu balaca otağı dünya ilə bağlayan təkcə xalq şairimiz Rəsul Rzanın hər gün ağır-ağır qalxıb düşdüyü mərmər pillələr, küçəyə açılan pəncərə və radio dalğaları deyil; burda yaranan, burdan ellərə, ölkələrə yayılan nəğmələr minlərin, milyonların sevincinə, sevgisinə, minnətdarlığına dönür, məktubların qanadında təzədən geriyə qayıdır. Xalq şairimizin yaradıcılığı müasir şeirimizin güclü qollarından biri kimi insan sevinci, insan səadəti uğrunda mübarizədə həmişə fəal iştirak etmişdir. Ürəkdən-ürəyə, ölkədən, ölkəyə uzanan, adamlar arasında qırılmaz ünsiyyət yaradan yollardan biri onun bu balaca iş otağından başlanır.

Sabir Riistəmxanlı
1978»

«Mənim tanıdığım Rəsul Rza çox böyük şəxsiyyətdir. Mənə elə gəlir ki, tək Rəsul Rza ilə bir dövrdə yaşamağımla fəxr edə bilərəm. Onunla mənim çox səmimi, böyük bir dostluğumuz olub. Mənim nəinki təkcə bir şair kimi, həm də bir insan kimi formalaşmağımda, Vətəni daha çox sevməyimdə Rəsul Rzanın böyük təsiri şəksizdir. Rəsul Rzanın yanması da, nifrəti də mərdanə olub. O, sağlığında müəyyən haqsızlıqlara, təqibə məruz qalmış adam idi. Onun dünyadan tez köçməyiylə biz çox şey itirdik. Mənim yadımdadır, Rəsul Rzanın «Известия» qəzetində erməni millətçilərilə müharibəyə qalxması. O çox vətənpərvər insan idi, onun İraqa səfərindən sonra Kərkükdəki soydaşlarımızla bağlı yazdıqları bir tarixdir.

Vahid Əziz.
2000»

«O vaxt Rəsul Rza haqqında, mənim yadımdadır ki, çox adamlar «ətiacıdır» deyirdilər. Bunu deyənlər həmin dırnaq-

arası sənət adamları idilər ki, belə demək mümkünsə, Rəsul Rzanı diri-diri yeməyə hazır idilər. Amma əslində Rəsul Rza Azərbaycan poeziyasının, xüsusən gənc poeziyanın ən böyük xeyirxahı idi.

Ramiz Rövşan
2000»

«Böyük ustadın cəmi bircə «Lirika» kitabı çıxıb və onun da redaktoru, tərtib edəni, eləcə də ön sözün müəllifi olmaq mənim uğuruma düşüb. 1978-ci ilin qışıydı. Günlərin bir günündə xəbər gəldi ki, məni Mərkəzi Komitəyə çağırırlar. Gəldim. Məni girəcəkdə saxladılar, yuxarıdan ağbaşlı bir «impozant» məmur düşüb gəldi və əlində də bizim Qlavlitə möhürləyib yolladığımız nümunə. Qayıtdı ki, bəs bu nə məsuliyyətsizlikdir, Rəsul müəllimin kitabında yol vermisən. Qırmızı xətlə cızıqlayıb qızartdığı korrektura səhifəsini açıb bir-bir göstərdi: Bu «Ağ fil», «Qaranquş və sərçə», «Kefli İsgəndər», «Buruqların söhbəti» və s. şeirlərinin bura daxil edilməsində məqsədiniz, fikriniz nədir?

Apar, bütün bu işarə qoyduğumuz şeirlərin səkkizini də buradan çıxart, özü də Rəsul müəllim bunun bizim işimiz olduğunu bilməsin! Sonra da ver kitab çapa getsin!»

Beynimin cini dəbərmişdi, özümü bir təhər toparrayıb dedim ki, bəs «bağışlayacaqsınız, mən bunu edə bilmərəm. Bu şeirləri kişinin kitabından niyə çıxarmalıyam, Rəsul müəllim məndən soruşmazmı, başına at təpib nədir? Ötkəm adamdır, adama elə sözlər deyər ki, ondan sonra gərək özünü asasan. Mən burdan heç nə çıxardan deyiləm, heç bir hərfinə də toxunan deyiləm! Özü də Rəsul müəllim indi xəstədir, ancaq mən burdan çıxan kimi Anara zəng edib hər nə var eləcə deyəcəm. Onnan özünüz həll edin bütün məsələləri. «Hər şey elə də oldu. Anar müəllimə zəng edib necə var dedim. Dedi ki, eybi yox (Rəsul müəllim yataqda, Anar isə fikirliydi...) baxaq görək neynirik... Bir müddət sonra axır ki, neçə vaxtdı gözümü yolda qoyan kitab - Rəsul müəllimin «Lirika» toplusu işıq üzü

gördü. Hər şey yerində idi. Təkcə bir «Sarı dana»dan başqa... O şeirə qıymışdı nadanlar.

Çingiz Əlioğlu
2000»

«Rəsul Rza güclü şairdir. Nazim Hikmət Pablo Neruda haqqında yazır ki, Pablo Neruda ispan dilində danışan dünya şairidir. Mənə elə gəlir ki, eyni sözləri Rəsul Rza haqqında demək olar.

«Rənglər» təmiz Azərbaycan şeiridir, dədə-babamızın düşüncə tərzindən doğan Azərbaycan düşüncə tərzidir. Mən «Rənglər»in dili və üslubu ilə «Dədə Qorqud»un üslubu arasında təbii bir yaxınlıq görürəm. Sərbəstlik demirəm hələ, sərbəstlik həmin sərbəstlikdir. Söhbətin bir yerində Rəsul müəllimə Pablo Nerudanın dilimizə çevirdiyim şeirlərinin birindən dörd misra oxudum:

Ölüm deyirlər,
ölməzlik deyirlər,
mən bunların içindən
kitaranı götürərdim.

Bu misraları oxudum və Rəsul müəllimdən soruşdum ki, bəs siz bizim musiqi alətləri arasından nəyi götürərdiniz? Rəsul rnüəllim dedi:

Ölüm deyirlər, ölməzlik deyirlər, Mən bunların içindən yastı balabanı götürərdim

Bu cavab mənə Rəsul Rza yaradıcılığı ilə bağlı çox şey dedi. Əvvəla, onu dedi ki, umsuq, irmik, tıntın, dəngil-düngül, qut, qançır, çırtdaq, mızı, dov, dazımaq, papıç, geyşik, köbər kimi ədəbi dilimizdə az-az işlənən, yaxud heç işlənməyən sözləri Rəsul Rza şerlərində niyə bol-bol işlədir. Bu o demək deyilmi ki, dilimizi özgə dillərin yox, öz dilimizin (dialektləri nəzərdə tuturam) hesabına zənginləşdirmək lazımdır. İkinci,

onu dedi ki, Rəsul Rzanın sərbəst şeirlərində niyə bir bayatılıq var. Bayatılıq deyirəm, bayatı demirəm hələ.

Mən kölgəsiz bağ görmədim
El dərditək dağ görmədim
Gözlərimi yumub açdım
Neçə dostu sağ görmədim.

Üçüncü, onu dedi ki... Mən indi bildim Rəsul Rza İraqdan bura niyə Kərkük bayatıları yığıb gətirib və ayrıca kitab çap elətdirib. Bunlar əsl xəlqilik, əsl vətəndaşlıq deyilmi?

Eldar Baxış»

***

Şair çağdaşlarımın yuxarıda gətirilən sözləri mənimçün özəl qiymətə malikdir... Tək ona görə yox ki, böyük bir şair və mənim atam haqqında deyilmiş dəyərli fikirlərdir. Bir də ona görə ki, uzaq cavanlıq illərini unutmamış şairlərin belə qədirşünas münasibəti bəlkə kiməsə ibrət dərsi oldu. Ən dərin və səmimi minnətdarlıq duyğularıyla dünyadan gedənlərə min rəhmət deyir, yaşayanlara uzun ömür diləyirəm.

Əfsus ki, bu fikirlərin böyük qismi şairin ölümündən sonralar söylənmişdir. Bu sözlər Rəsul Rzanın sağlığında deyilsəydi, bəlkə də anlamaq və anlanılmamaq dərdiylə yaşanılmış ömrünün bir təsəllisi, gələcəyə ümidlərinin təsdiqi olardı. Ancaq bir yandan baxanda da, Nazim Hikmət demiş: «təsəllisiz yaşamağı da bacardı, təsəllisiz ölməyi də...»

***

1965-ci ildə Rəsul Rza nəşri nəzərdə tutulan ilk Azərbaycan ensiklopediyasının Baş redaktoru vəzifəsinə təyin olundu və ömrünün on ilini bu işə qurban verdi. Bəlkə on ilini

yox, daha artıq: xəstəliklərini şiddətləndirən çətin, gərgin, əsəbi iş, aramsız olaraq qarşıya çıxan maneələr, əngəllər, bədxah münasibət və sonucda on illik fəaliyyətinin amansızcasına heçə endirilməsi Rəsı Rzanın həyatını qısaltdı. 1975 ildə bir qədər sonra danışacağım hadisələr nəticəsində Azərbaycan KP MK Bürosunun qərarıyla bu vəzifədən götürüldü. Ensiklopediya Rəsul Rza ömrünün son ictimai fəaliyyət sahəsi, həyatının son döyüşü idi. Döyüşün o zaman kəsiyindəki vuruşu Rəsul Rzanın məğlubiyyətiylə nəticələndi, amma on beş-iyirmi il sonra bu savaşda məhz Rəsul Rzanın zəfər çalması hamıya aydın oldu, onun uğrunda fədakarlıq göstərdyi ideyaları, amalları, məqsədləri Tarix özü təsdiq etdi.

Rəsul Rza ensiklopediyadakı fəaliyyətinin elə ilk günlərindən hansı çətinliklərlə üz-üzə gəlmişdi? Bu ilk növbədə ümumi təşkilatçılıq problemləri, yəni iş yeri, bina, kadr axtarışı idi. Azərbaycanda bu sahədə heç bir təcrübə yox idi və bu yeni yaranmış redaksiyaya kadrlar toplamaq, hər hansı başqa bir idarəyə işçi götürmək qədər asan deyildi. Ensiklopediyaçılıq səriştəsi olmayan bir ölkədə ensiklopedik kadrlar, mütəxəssislər tapmaq, daha doğrusu, onları yetişdirmək, hazırlamaq, fəaliyyətlərini bu sahəyə yönəltmək tələb olunurdu.

O vaxt Azərbaycanın nəinki müxtəlif sahələrə aid terminoloji sözlükləri, heç ümumi izahlı lüğəti də yox idi. Terminologiyanın özü bir çox cəhətdən dəqiq və qəti deyildi. Azərbaycan tarixinin bir çox dövrləri, o sıradan, çox mühüm məsələ olan xalqımızın soykökü məsələsi alimlər arasında qızğın mübahisələr və münaqişələr doğururdu. O vaxta qədər bir dəfə də olsun Azərbaycan tarixinə aid xəritələr nəşr olunmamışdı.

Bütün bu çətinliklər Baş redaktorun sinli yaşına uyğun olmayan enerjisi, iradəsi və nüfuzu sayəsində həll olunurdu. Qısa bir zaman ərzində enskilopediyanın əsasən gənclərdən ibarət olan mütəxəssis kadrları hazırlandı. Tarixi, ədəbiyyatı, dəqiq elmləri, iqtisadiyyatı, kənd təsərrüfatını, ictimai-siyasi həyatın bütün sahələrini əhatə edən sözlüklər tərtib olundu. İlk

dəfə olaraq Azərbaycan və rus dillərində Azərbaycanın tarixi xəritələri nəşr edildi. Bu xəritələrin mümkünlüyünə və lazımlılığına şübhəylə yanaşanlara Rəsul Rza «Mən tarixi xəritəsiz ensiklopediya buraxmayacam» cavabını vermişdi və sözünün üstündə duımuşdu. İlk dəfə olaraq Azərbaycan və rus dillərində nəinki Azərbaycanın tarixi xəritələri nəşr olundu (Minskdə), hətta Azərbaycanın özündə ilk xəritə fabrikinin əsası qoyuldu. Azərbaycanın arxeoloji xəritəsi də yaradıldı. İlk milli ensiklopediyamızın nəşri üçün xüsusi mətbəə şıiftləri hazırlandı. Ancaq bütün bu çətin işlər demə, məsələnin hələ ən asan tərəfiymiş. Əsas döyüşlər ensiklopediyanın ruhu və qayəsi, verilən yazıların məzmunu və istiqaməti üzərində aparılacaqmış. Coğrafi xəritələrə, Azərbaycanın müxtəlif dövrlərdəki sərhədlərinə, tarixinin müxtəlif problemlərinə, ilk öncə də, dediyim kimi, xalqımızın soykökünə aid hərənin bir fikri, bir mövqeyi vardı, hər ağızdan bir avaz gəlirdi. Tarixə, coğrafiyaya, mədəniyyətə, hətta məişətə aid bir çox hadisələrə, şəxsiyyətlərə, yerlərə, istilahlara bədnam qonşularımız ya şərik çıxır, ya tamam özününküləşdirir, ya da etiraz edirdilər. Azərbaycan ensiklopediyasıyla eyni zamanda fəaliyyətə başlayan Ermənistan ensiklopedeyasında nəinki «küftə» və «dolma» erməni yeməkləri kimi göstərilirdi, hətta «muğam»a belə bu cür izah verilirdi:

«Muğam Bakının Erməni kəndində, Dağlıq Qarabağ Muxtar Vilayətində ermənilərin geniş yayılmış milli musiqi nümunəsidir» Təbii ki, bu anekdotik faktlardan başqa Ermənistan ensiklopediyası Azərpbaycan tarixinə və coğrafiyasına aid başqa mühüm faktları da təhrif edir, bununla kifayətlənməyib Azərbaycan ensiklopediyasında onların düzgün işıqlandırılmasına «dostcasına» etiraz edir, etirazlarını Moskvaya, Böyük Sovet Enskilopediyasının Levon Stepanoviç Şaumyanın rəhbərlik etdiyi Baş redaksiyasına və əlbəttə, Mərkəzi partiya orqanlarına çatdırırdılar.

İlk ensiklopediyamızın yaranmasıyla bağlı bir çox ibrətamiz və eyni zamanda faciəvi faktlar indi artıq Azərbaycan

ictimaiyyətinə daha çox məlumdur. Qeyrətli yazıçı, publisist, araşdırıcı Teyyub Qurbanın təşəbbüsü və hümmətiylə araya-ərsəyə gəlmiş «Yaşıl rəngin işığı» adlı məqalələr və xatirələr toplusunda bu işin içində olan adamlar, ensiklopediyanın sabiq əməkdaşları, hadisələrin canlı şahidləri bir sıra bu vaxta qədər qaranlıq qalmış məsələlərin üzərinə işıq tutublar. Teyyub Qurban böyük zəhmət bahasına Rəsul Rzanın buraxdığı Yaşıl cildli ensiklopediyanın işıq üzü görmüş 1 cildiylə ondan sonra çıxmış Qırmızı cildli ensiklopediyanı tutuşdurmuş, onların hansı prinsipial cəhətlərlə bir-birindən fərqləndiyini konkret faktlar əsasında göstərmişdir. Bu məsələyə mən bir qədər sonra qayıdacam, indi isə həmin o topluda yazıları dərc olunmuş müəlliflərə - Vaqif Səmədoğluna, Şamil Salmanova, Əzizə Əhmədovaya, Əlirza Balayevə, Azər Bağırova, Yaqub Mikayıloğluna (Mahmudova), İsmayıl Məmmədova, Südabə Şükürə, Nazif Ələkbərliyə, Nəriman Həsənəliyə, Arif Hüseynova, Kamran Hüseynova, Ələsgər Hüscynova, Ələsgər Cabbarova, Mahmud Ağaoğluna, Vaqif Nəsibə minnətdarlığımı bildirir, dünyasını dəyişmiş İbrahim Novruzova, İmran Xəlilova rəhmət diləyirəm. Bütün bu yazılar və Akif Əliyevin niyəsə bu kitaba düşməmiş, amma qəzetdə dərc olunmuş «Rəsui Rzadan da qisas alıblar» adlı məqaləsi, eləcə də bu kitab çıxandan sonra Rəsul Rza haqqında xatirələrini sadə və səmimi bir dillə danışan, atamın etibarlı sürücüsü - «dağlı balası» Mürvətin Nəriman Həsənəli tərəfindən qələmə alınmış və «525-ci qəzet»də dərc olunmuş xatirələri həm enskilopediyanıızın yaranma tarixinə aid, həm də Rəsul Rzanın fəaliyyətinə, iş üsuluna, rəftarına, bir sözlə xasiyyətinə və təbiətinə aid böyük əhəmiyyəti olan şəhadət-lərdir. Topluda qısa yazısı gedən Yaqub Mahmudovun Ensiklo-pediyamızm yaranma tarixi barədə daha geniş silsilə yazıları «Kaspi» qəzetinin bir neçə nömrəsində dərc olunmuşdur və bu da o vaxtkı hadisələrin mahiyyətini dərk etmək üçün çox vacib bir sənəddir.

Yaqub müəllim ensiklopediyanın yaranması dövründə meydana çıxan həm təşkilati, həm ideya-siyasi çətinliklər

barəsində ətraflı və çox dəyərli məlumatlar verməklə bərabər, yaşıl cildli ensiklopediyada Rəsul Rzanın və onun ilham, ruh verdiyi ensiklopediyaçıların hansı amallar uğrunda mübarizə apardıqları, qarşılarına hansı məqsədləri qoyduqlan haqqında da müfəssəl danışır. Özü də görkəmli tarixçi olan Yaqub Mahmudov ilk növbədə ensiklopediyada həll olunmasına çalışdıqları problemlərdən tariximizin mühüm və kimlərçünsə mübahisəli görünən məsələlərindən söz açır. Rəsul Rzanın bu məsələdə mövqeyini onun bir cümləsiylə ifadə edir. Şair: «Keçmişini bilməyən xalq atasını tanımayan uşaq kimidir» - deyirmiş. Bu məsələni şərh edən Yaqub Mahmudov yazır:

«İlk dəfə olaraq vahid Azərbaycan ideyası, Azərbaycanın Rusiya ilə İran arasında bölüşdürülməsi fikri, Bakı Kommunasının və daşnak Şaumyanın antiazərbaycan siyasəti, XI Ordunun Bakı əməliyyatı və Şimali Azərbaycanın işğal olunması, Azərbaycanın tarixi sərhədləri və bunun tarix xəritələrində əks olunması, XX əsrin əvvəllərində xalqı azadlıq və dirçəliş yoluna çıxaran Azərbaycan Xalq Cümhuriyyətinin xadimlərinin tarixi rolunun obyektiv qiymətləndirilməsi, Azərbaycan xalqının mənşəyi, xalqımızın tarix boyunca yayılmış olduğu geniş ərazilərin tarixi-coğrafi məntəqələrinin, türk dünyası tarixinin Ensiklopediyada əks olunması, bütün bunlar, bir sözlə, bu gün xalqımızı düşündürən və uğrunda mübarizə apardığımız bir çox problemlər hələ o zaman Azərbaycan Ensiklopediyasının Baş redaksiyası və onun ətrafında toplanmış mütərəqqi ziyalılar tərəfindən qaldırılmışdı. Universitetdə, Akademiyada və bütünlüklə Respublikada gedən ictimai-siyasi mübarizənin, elmi müzakirələrin əsas mövzularına çevrilmişdi. Xalqın sözünü hər yerdə, bütün şəraitlərdə ucadan söyləməyə cəsarəti vo təpəri çatan, zəngin erudisiyaya malik olan böyük mütəfəkkirimiz, Azərbaycan Ensiklopediyasının Baş redaktoru Rəsul Rza gedirdi bu mübarizənin önündə» («Kaspi» qəzeti, 6-12 may 2000).

«Özümüz» adlı silsilə yazılarında Yaqub Mahmudov Rəsul Rzanın və onun əqidələrini paylaşan ensiklopediyaçıların

tariximizin hansı məqamları uğrunda israrla mübarizə apardıqlarını göstərir. Bunlardan biri və başlıcası ensiklopediyanın Azərbaycan Sovet Ensiklopediyası adlansa da, mövzuları etibarilə yalnız bir Şimali Azərbaycanın deyil, güneyli-qüzeyli vahid Azərbaycanın ensiklopediyası olması cəhdidir. Elə hardasa, bu məsələylə əlaqədar olaraq Rəsul Rza XIX əsrdə Azərbaycanın Rusiyaya guya ki, könüllü surətdə ilhaq olunmasının da bu şəkildə təfsirinə qəti etiraz edirdi. Yaqub Mahmudov xatırlayır ki, Rəsul Rza ona dönə-dönə deyirmiş: «Yaqub, mən sizin tarixçilərin uydurmaları ilə razı deyiləm! Biri deyir «könüllü birləşmə», o biri «könüllü daxil olma», digəri «birləşdirilmə», daha nə bilim nə! Bu camaata nə üçün yalan satırlar? Axı çar generalları buranı qan içində boğublar. Biz Cavad xanı və başqa qəhrəmanlarımızı qaldırmalıyıq, xalqa həqiqəti deməliyik, bildin? Münasib bir adam tap! Bu məqalə elmi məqalə olsun, həqiqəti əks etdirsin. Tarixi həqiqəti xalqa olduğu kimi çatdırmaq lazımdır» («Kaspi» qəzeti, 13-14 iyul).

Yaqub müəllimin sözünə qüvvət, atam ömrünün son illərində Cavad xanın faciəvi taleyi haqqında poema yazmaq niyyətində idi. Əfsus ki, xəstəliklər və əcəl buna imkan vermədi.

Başqa bir vacib məqam Bakı Kommunasına münasibət idi. Mən də xatırlayıram ki, atam o vaxtlar bunu açıq ifadə edə bilməsə də, bu Kommunanın rəhbərlərinə həmişə pis münasibət bəsləyib. Şaumyan qoşunlarının Göyçayı topa tutmaları uşaqlıq yaddaşından silinməmişdi. Böyük bəstəkarımız Qara Qarayev «26-lar» movzusunda opera yazmaq fikrinə düşəndə atam onu bu niyyətdən daşındırmağa çalışırdı. Evimizdə Q.Qarayevlə söhbəti yadımdadır. O vaxtkı dövrün şərtlərinə görə bunu Qarayevə bir qədər örtülü şəkildə çatdırırdı: Hələ o dövrün tarixi yaxşı öyrənilməyib - deyirdi. - Şaumyan müəyyən məqamlarda daşnaklarla əlbir olub Azərbaycanlılara qarşı çıxıb.

Bilmirəm atamın sözlərinin təsiriyləmi, ya münasib libretto əldə etmədiyindənmi, yaxud yaradıcılıq planları dəyişdiyindənmi, çox şükür, Qara Qarayev belə bir əsər yaz-

madı. Bu mənim yeniyetməlik dövrümə, yəni 50-ci illərin ortalarına aid xatirələrimdir. Yaqub Mahmudovla ensiklopediyada işlədiyi dövrdə isə Rəsul Rza yəqin ki, tarixi faktlarla daha yaxından tanış olandan sonra Şaumyana qarşı kəskin mövqedə dayanırdı. Yaqub müəllim bunu belə xatırlayır:

«Rəsul Rzanın ən çox nifrət etdiyi tarixi «simalar» (daha doğrusu, Azərbaycan xalqının qatilləri) Şaumyan və Andronik idi. O, hətta arxivdən Şaumyanın «təhlükədə olan inqilabı qorumaq» üçün (əslində isə xalqımızı tamamilə qırıb məhv etməkdən ötrü) Androniki Bakıya çağıran teleqramını da tapıb gətirmişdi. Rəsul müəllimlə bu barədə çox söhbətlərimiz olmuşdu. O, 1918-ci ilin mart soyqırımını, Azərbaycan Xalq Cümhuriyyətinin mütərəqqi tarixi rolunu bütün incəliklərinə qədər bilirdi. Cümhuriyyət xadimlərinə dərin ehtiram bəsləyirdi. XI Ordunun vəhşilikləri barədə, xüsusilə Gəncə üsyançılarına tutulan divan haqqında mənə elə söhbətlər etmişdi ki, indi də həmin söhbətlər yadıma düşəndə canım gizildəyir» («Kaspi» qəzeti, 29-31 iyul 2000).

O vaxt Böyük Sovet Ensiklopediyası Baş redaktorunun Birinci müavini, əslində bütün işləri aparan Stepan Şaumyanın oğlu Levon Şaumyan idi. Levon Şaumyanı guya ki, erməni millətçiliyindən uzaq olan beynəlmiləlçi ziyalı, bir elm adamı kimi qələmə vermək istəyənlər vardı. Atamın vaxtında enskilopediyada redaksiya müdiri işləmiş, sonralar isə özü Ensiklopediyamızın Baş redaktoru olmuş unudulmaz dostum Araz Dadaşzadə danışırdı ki, biz Böyük Sovet Ensiklopediyasında Azərbaycana zidd olan materiallardan şikayətlənəndə və bunun baiskarı Levon Şaumyan olduğunu deyəndə Moskvadakı rus ensiklopediyaçıları təəccüblə: Siz nə danışırsınız? - deyirlərmiş, Levon Stepanoviç Tiflisdə doğulub, gəncliyini Avropada, sonra Rusiyada keçirib, o heç erməni dilini bilmir və erməni olduğunu xatırlamır belə». Ah, bu sadəlövh ruslar! Erməni milllətçiləri heç xüsusi məharət göstərmədən belə üzlərinə beynəlmiləlçi, milli təəssübkeşlik-

dən uzaq kosmopolit maskası taxıb öz gizli və məkrli niyyətlərini həyata keçirməyi çox gözəl bacarırlar.

Ensiklopediyanın o vaxtkı əməkdaşlarından Ələsgər Cabbarov «Durnalar pərən düşdü» adlı yazısında Levon Şaumyanla əlaqədar belə bir faktı xatırlayır:

«L.Şaumyanla ilk görüşümüz yaxşı yadımdadır. BSE-in dəhlizində rastlaşdıq. Özümü təqdim etdim. Qolumdan tutub kabinetə apardı. Daxili telefonla zəng edib redaktorlardan birini yanına çağırdı, «həmyerlimdir» deyə məni təqdim etdi və dərhal əsrin əvvəllərində türklərin ermənilər necə qətlə yetirdiklərindən danışmağa başladı. Və məni göstərib qeyd etdi ki, bunlar da türkdürlər. Azərbaycanlı adını onlar üçün Stalin qondarıb».

Bu da sənin beynəlmiləlçi ziyalın, millətçilikdən uzaq olan şəxs!

Akif Əliyev «Cəsarətli şair, milli ensiklopedist» məqaləsində belə bir epizodu da xatırladır:

«Prinsipial, milli mövqedə dayanan Rəsul Rza tutmuş olduğu dəst-xəttdən bir an da olsun çəkilmirdi. Ona qarşı artıq respublika rəhbərliyindən və Moskvadan güclü təzyiq, təqiblər başlanmışdı. Böyük Sovet Ensiklopediyasının Baş redaksiyası Baş redaktorunun birinci maüavini S.Şaumyanın oğlu L.Şaumyan Rəsul Rzaya zəng edərək demişdi: Rəsul müəllim, necə olur ki, «Məşədi Əzizbəyov» məqaləsinə 5 minlik söz həcmində yer verirsiniz, «Stepan Şaumyan»a isə min? Bu Azərbaycan ensiklopediyasıdır, Levon, - deyib Rəsul Rza dəstəyi asmışdı».

L.Şaumyan içində yaşayan genetik, bioloji türk, Azərbaycan düşmənliyini açıq göstərə bilməsə də altdan-altdan işini görürmüş. Və belə bir adamı məxsusi olaraq Azərbaycana dəvət edib Rəsul Rzaya dərs verməkistəyənlər tapılıb.

***

Mötəbər mənbə kimi yenə də Yaqub Mahmudovun yazısına müraciət edirəm:

«1970-ci ildə ilk «Azərbaycan Enskilopediyası»nın 1-ci cildi çıxdı. Lakin nə yazıqlar ki, bu böyük hünər milli ensiklopediyamızın nəşrinin baş tutması və bununla da xalqın ən cəsarətli ziyalılarının dünyagörüşünü əks etdirən qüdrətli bir mənəvi abidənin yaradılması hakim kommunist rejimindən qidalanan, imtiyazlar və bəxşişlərlə bəslənən moskvapərəst qüvvələrin, yazdıqları əsərlərdəki antiazərbaycan mövqelərindən əl çəkmək istəməyən mühafizəkar ziyalıların Ensiklopediya və Rəsul Rzaya qarşı birləşməsi ilə nəticələndi. Çox keçmədən Rəsul Rzanın Yazıçılar İttifaqındakı «dostları» və hakim ideologiyanın Ensiklopediyanın içərisindəki nümayəndələri də bu «cəbhəyə» qoşuldu, şər qüvvə daha da gücləndi. Azərbaycan ensiklopediyasına, daha doğrusu milli oyanışımıza qarşı şər qüvvələrin Bakı-Moskva-Yerevan üçbucağı yarandı... Əsas zərbə Ensiklopediyaya və onun baş redaktoru olan Rəsul Rzaya qarşı yönəldildi... Xalqımızın Moskvadakı və Yerevandakı düşmənləri, habelə öz içimizdə yuva salan bədxahlar, ara vermək bilməyən imzasız məktubların müəllifləri nə adlar vermirdilər, nə yarlıklar yapışdırmırdılar Rəsul Rzaya? Həmin dəhşəti ittihamların mübtədası da, xəbəri də bu sözlərlə bitirdi: «pantürkist», «panislamist», «Qardaş Azərbaycan və erməni xalqlarının arasında nifaq salmağa çalışan», «Ermənistandan torpaq istəyən», «burjua millətçisi», «Sovet dövlətinin və Rusiyanın düşməni» və s. və i. a. («Kaspi» qəzeti, 12 may 2000)

***

Yaqub Mahmudovun «Özümüz» silsiləsində də, «Yaşıl rəngin işığı» toplusundakı məqalələrdədə, xatirələrdə də Levon Şaumyanın Bakıya gətirdilməsi, Rəsul Rzanın onu çox soyuq qarşılaması (daha doğrusu, aeroportda qarşılamaması, yalnız öz iş otağında qəbul etməsi) barədə müfəssəl məlumatlar var.

Y.Mahmudov yazır:

«Rəsul müəllim onun yanında keçirilən müzakirələr zamanı hərdən bir istehza ilə üzünü müavinə və ya məsul katibə tutaraq soruşurdu: «Enskilopediyadan Şaumyana dəvətnamə-zad göndərən olmayıb ki?» Onlar isə qətiyyətlə bunu inkar edir və bitdə-bitdə məlumat verirdilər ki, yuxarıdan hansı tarixdə kimlər ensiklopediyaya zəng ediblər və «hörmətli qonağı» qarşılamaq barədə nə kimi tapşırıqlar veriblər. Rəsul Rza ciddi şəkildə bildirdi: «Biz heç yerdən qonaq dəvət etməmişik və heç kəsi də qarşılamayacayıq. «Qonağı» kimlər çağırıbsa, özləri də qarşılasınlar»

Beləcə, Elm şöbəsinin (MK-nın elm şöbəsinin - A.) bəzi əməkdaşları və bəzi «hökumət ziyalıları» öz qonaqlarını özləri də qarşılamalı oldular.

Əli çəlikli, iri gövdəli topasaqqal kəsi hamımız dərhal tanıdıq. Hər iki tərəfdən onun qoluna girmiş yerli məmurlar isə Elm şöbəsinin məsul işçiləri idilər. Rəsul müəllim yerindən tərpənmədi. İki yerli məmur topasaqqalı divarın dibi ilə Rəsui müəllimin yanına gətirməli oldular.

Hörmətli «qonaq» Rəsul müəllimlə «hal-əhval tutduq-dan» sonra işlə tanış olmaq arzusunda olduğunu bildirdikdə, Baş redaktor çox sərt şəkildə cavab verdi: Narahat olmayın, biz öz işlərimizi özümüz idarə edə bilirik. Köməyə ehtiyacımız yoxdur»

Bundan sonra müzakirə başlandı, nə başlandı. Tarixçilər, filoloqlar, dilçilər, sənətşünaslar, coğrafıyaşünaslar, Elmi nəzarət redaksiyasının əməkdaşları stolun üstünə yığılmış Moskva Ensiklopediyalarını vərəqləyərək xalqımıza qarşı yazılan bütün böhtanları, təhrifləri, onların baş təşkilatçısı L.S.Şaumyanın üzünə oxudular. Rəsul müəllim, nəhayət, üzünü Moskvadan gətirilmiş «qonağa» tutub: «Bizim ensiklopediyaçılar sizin başçılıq etdiyiniz Moskva ensiklopediyalarında Azərbaycana qarşı sistematik surətdə həyata keçirilən təhriflərin ancaq bir qismini dedilər. Əgər bütün bu deyilənləri nəzərə alsanız kifayətdir, başqa heç bir köməyiniz lazım deyil».

Nər kişinin qarşısında oyuncağa çevrilən və hikkəsindən, içində qaynayan qəzəbdən, nifrətdən gömgöy göyərmiş L.S.Şaumyan, atasından fərqli olaraq, bizə divan tuta bilmədiyi üçün çox pərt oldu və suyu süzülə-süzülə yerli məmurların qolunda otağı tərk etdi. L.S.Şaumyanın Ensiklopediyada «qarşılanma» mərasimi Rəsul Rzanın Azərbaycan xalqı üçün kim olduğunu bir daha, özü də bütün aydınlığı ilə göstərdi. Məmnuniyyətlə etiraf edirəm ki, ömrüm boyu aldığım bir neçə kişilik dərslərindən birini mən məhz həmin günlərdə Rəsul Rzadan aldım» («Kaspi» qəzeti, 13-14 iyul 2000).

Böyük Sovet enskilopediyasında Azərbaycan haqqında yanlış və qərəzli mövqedən yazılmış məqalələrdə atamın xüsusi etirazına səbəb olan məsələlərdən biri sovet hakimiyyətinə qədər Azərbaycan xalqının guya ki, ucdantutma savadsız, avam kütlə olması haqqında iftiralar idi. «Bəs bu «savadsız, avam» xalqın içindən bu qədər böyük şəxsiyyətlər, ziyalılar, alimlər, şairlər, yazıçılar necə yetişib - deyə soruşurdu və xatirələrdən məlum olur ki, həmin sualı Levon Şaumyana da verirmiş. Mənim də yaxşı yadımdadır, atam Bakıda Universitetin 1919-cu ildə açılması faktının üstündən keçib guya ki, Sovet hakimiyyətinə qədər Azərbaycanda heç bir ali məktəbin olmaması barədə yalanı da həmişə təkzib edərdi.

Azərbaycan enskilopediyaçılarının iradları yalnız Moskva ensiklopediyalarına qarşı deyildi, Emənistan ensiklopediyasına da tutarlı etirazları vardı. «Yaşıl rəngin işığı» kitabının sonunda əlavə olaraq bir neçə material da verilib. Bunlardan biri Ermənistan Sovet Ensiklopediyasında verilməsi nəzərdə tutulan «Azərbaycan SSR» adlı məqaləyə aid küllü miqdarda qeydlər və təkliflərdir. 1972-ci il tarixli bu qeydləri və təklifləri Rəsul Rza imzalayıb. İmzalayıb deyirəm, çünki şübhəsiz, müxtəlif sahələrə aid çeşidli qeydləri yəqin ki, bir neçə mütəxəssis, ya mütəxəssislər kollektivi hazırlayıb. Əlbəttə, Rəsul Rzanın göstərişi və lazımı təlimatıyla.

Qeydlərdə tariximizin, elmimizin, ədəbiyyatımızın, memarlıq və təsviri sənətimizin, musiqimizin Erməni ensiklo-

pediyasında təhrif olunmuş şəkildə təqdim edilməsi konkret və inandırıcı faktlarla göstərilir və bu yanlışlıqların düzəldilməsi üçün də konkret təkliflər verilir. Bu da təbii ki, ermənilərin heç cür xoşuna gələ bilməzdi.

Ensiklopediyamıza qarşı duran üçbucağın iki tərəfinə Moskada Levon Şaumyan, Yerevanda tarixçi akademik Suren Yeremyan başçılıq cdirdilər. Amma axı üçbucağın üçüncü tərəfi də olmalıydı... Əsas da bu idi.

Ensiklopediyaya hücumların ilk mərhələsində hələ yalnız Yerevandakı və Moskvadakı iki mərkəz işə salınmışdı. Yəqin elə məhz bu dövrdə Rəsul Rza Yaqub Mahmudovla söhbətində daha bir təhlükə barədə xəbərdarlıq edirmiş: «Cəsarətli ol, heç nədən çəkinmə, bizə ancaq bir qüvvə mane olar bilər, o qüvvədən mən də qorxuram, lakin o qüvvə hələ ki, tərpəşməyib-deyirmiş və fikrini dəqiqləşdirirmiş. İndiyədək bu yurdun başına nə fəlakətlər gəlibsə, hamısına bais özümüz olmuşuq, özümüz! Mən, bax bu qüvvədən qorxurdum. Özümüzük, Özümüz, bildin, öz qövmümüzün başına əngəl-kələf ancaq bizim özümüzük, başqa heç kəs deyil! Mirzə Fətəlinin də, Sabirin də, Hadinin də, neçə-neçə başqa sabirlərin, hadilərin də axırına özümüz çıxmışıq, bizim özümüz!» («Kaspi» qəzeti, 22-23 iyun 2000).

Ensiklopediyaya ən ağır zərbələri də elə «özümüzünkülər» vururdu. İndi çox illər keçəndən sonra bu məsələlər haqqında düşünəndə mən Enskilopediya olaylarının ictimai-siyasi, ideoloji aspektindən başqa digər müxtəlif motivlərini də aydın görürəm. Guya ki, Kommunist ideologiyasının və ifrat şəkildə anlanılan beynəlmiləlçiliyin (bu ifrat anlamda beynəlmiləlçilik hər cür milli maraqlara zidd bir məvhum kimi dərk edilirdi) keşiyində duranların böyük bir qismi bu ad altında tamam başqa səbəblərə görə ensiklopediyadan yanıqlı idi. Burada erməni maraqlarından başqa, ümumən türklüyə qarşı olan müəyyən etnik təəssübkeşlik də vardı ki, bunun təzahürləri bugünkü müstəqil Azəıbaycanda da əfsuslar olsun ki, görünməkdədir. Bu günün özündə məgər Azərbaycanlıların türk mənşəli xalq

olmasını, soykökümüzün türklüyünü, açıq ya örtülü şəkildə qəbul etməyənlər azdır?

Məhz bu baxımdan Ensiklopediyada «Azərbaycanlılar» məqaləsinə verilən mənfi rəydə deyilirdi:

«Azərbaycanlılar» məqaləsində çoxlu məntiqsizliklər var. Müəllif nəyin bahasına olursa-olsun türkdilli qəbilələrin Qafqaz sahələrində olmalarının qədimliyini sübut etmək istəyir. Qeyd etməliyəm ki, necə deyərlər, «türkpərəstlik» son vaxtlar bizim diletantlıq edən ziyalılarımızın bir qismi içində əsl azara çevrilib. Türkləri hər yanda axtarırlar. Skifləri türk elan edirlər. Qafqaz albanları arasında türkləri görmək istəyirlər və s. və i. a.»

Ensiklopediyadakı işində də, ictimai fəaliyyətində də Rəsul Rza bu baxışlara qarşı dururdu və onunla həmfikir olan alimləri daima dəstəkləyir, onlara hər cür kömək göstərirdi. Belə qiymətli vətənpərvər alimlərdən biri Mirəli Seyidov «Ulu yurddaş, böyük şair» adlı xatirələrində yazır:

«Rəsul Rzanı yada salarkən, bir hadisə həmişə gözümün qabağına gəlir. On beş-iyirmi il bundan qabaq mən erməni alimlərindən Rapusyanın kitabında belə bir yazıya rast gəldim. O, yapon aliminə dayanaraq yazırdı ki, eradan 14 əsr qabaq Cənubi Azərbaycanda Qaşqaylar yaşamışlar. Yapon alimi het abidələrinə dayanaraq belə bir fikir də irəli sürürdü ki, Qaşqaylar şəhər həyatı sürmüşlər. Bəllidir ki, Qaşqaylar Azərbaycan qəbilələrindəndir. Mən Rəsul müəllimə fikrimi söylədim. O, böyük teatrşünas, tənqidçi Cəfər Cəfərovla birgə mənə qulaq asandan sonra dedi ki, Qaşqaylar haqqındakı abidə hardadır? Mən dedim Yerevandadır. Rəsul müəllim çox çalışdı ki, rəsmi yollarla abidənin fotosurətini ələ keçirsin, yazıq ki, mümkün olmadı. Çox çalışmalarından sonra məni yanına çağırıb xeyli pul verdi və dedi get Yerevana, bəlkə o daş abidənin surətini çıxara bildin, əgər pul az olsa, telefonla danış, dərhal adamla sənə pul yollayım. Mən Yerevana getdim. Ancaq əliboş gəldiyimdən, onu sevindirə bilmədim» («Xatirlər işığında» kitabında).

Rəsul Rza Mirəli Seyidovun doktorluq əsəri haqqında da rəsmi rəy vermişdi. Rəydə deyilir:

«M.Seyidov Azərbaycan xalqının, onun mədəniyyət, ədəbiyyat və dilinin çox qədim və zəngin tarixə malik olduğunu, bu mədəniyyətin, bu dilin qonşu xalqlara, o cümlədən erməni xalqına da güclü təsir göstərdiyini faktlar, dəlillərlə sübut ctməyə müvəffəq olmuşdur. Bu, M.Seyidovun xalqımıza göstərdiyi mühüm xidmətdir. Azərbaycan xalqının soykökünün, etnogenezisinin müəyyələşdirməsi işində də M.Seyidovun bu əsərinın əhəmiyyəti böyükdür.

Müəllif elmi inandırıcılıqla sübut edir ki, türkdilli qəbilələr Azərbaycana eramızdan əvvəl III əsrdə, bəlkə daha əvvəllər gəlmiş, burada yerli qəbilə və qəbilə birləşmələrilə çarpazlaşmış, beləliklə də vahid Azərbaycan xalqı yaranmışdır. Böyük zəhmət və alın təriylə, yüksək elmi səviyyədə yazılmış bu qiymətli tədqiqat yalnız azərbaycanşünaslığın yox, ümumiyyətlə türkologiya elminin yeni, ciddi nailiyyətidir. Odur ki, bu əsərə görə M.Seyidov filoloji elmlər doktoru alimlik dərəcəsi almağa tamamilə layiqdir.

Azərbaycanın əməkdar incəsənət xadimi, Xalq şairi Rəsul Rza» .

***

Ensiklopediyada ən mübahisəli məsələlərdən biri xalqımızın adının «Azəri» kimi verilməsi idi. Ən qəribəsi də o idi ki, bu terminə qarşı özlərini aşırı türkçü kimi qələmə verənlərdən də bəziləri etiraz edirdilər. Niyə? Ona görə ki, farsofil və paniranist İran alimi Əhməd Kəsrəvi «azəri» dilini fars dilinin ləhcələrindən biri sayırmış. (Özü milliyətcə Azəri türkü olan Kəsrəvi deyilənə görə ömrünün sonuna yaxın tarixi faktlara yanlış şərh verdiyinə görə öz milləti qarşısında günahkar olduğunu etiraf edibmiş) Rəsul Rza (bu yazı da «Yaşıl rəngin işığı» kitabına əlavə olunub) Kəsrəvinin «Azəri» sözü barəsindəki fikirlərini bir-bir təkzib edir, onun «elə siyasət aparmaq lazımdır ki, Azərbaycanın (İran Azərbaycanın) əhalisi

dönüb irandilli olsun» tezisini sitat gətirərək «məgər belə mülahizələr «azəri» məvhumunu İran dillərinə aid etməyə əsas verirmi?» deyə soruşur.

Məlum olduğu kimi dünyanın bir çox xalqları, o cümlədən qardaş Türkiyədə bizə Azəri türkləri yaxud Azərilər deyirlər.

Əgər bir anlığa qəbul etsək ki, «Azəri» sözü doğrudan da haçansa farsdilli bir qəbilənin adı olub, bu yenə də həmin addan imtina etmək üçün yetərli əsas deyil. Axı, tutalım, vaxtilə türkdilli bir xalqın adı olan Bolqar etnonimindən bugünkü slavyan bolqarlar imtina etmir. Yaxud vaxtilə türk dilli xalqın adı olan Avar sözü indi qafqazdilli bir xalqın adıdır.

«Azəri» sözüylə əlaqədar Rəsul Rza Mərkəzi Komitəyə də məktub göndərmişdi (Çünki bu sözə iradlar da məhz Mərkəzi Komitəyə yollanırdı). Məktubda deyilir:

«Azəri» məfhumunun işlədilməsi ensiklopediyanın nəşrindən çox əvvələ (hətta keçən əsrə) aiddir. Respublikamızda dilçiliyə dair ədəbiyyatda xalqımız və dilimizlə əlaqədar «azəri» istilahı işlədilir. Xalqımızın yaşadığı ölkənin «Azərbaycan»ın adında da «azər» sözü var. Dilçi alimlərimizin «azəri» termini əleyhinə nəinki bir monoqrafiyasına, hətta belə samballı bir elmi məqaləsinə də rast gəlməmişik. Təəccüblü budur ki, «azəri» terminin fars mənşəliliyini sübut etmək üçün İran hökumətinin hakim fars millətçiliyi siyasətinin məddahı olan və bunu elmi şəkildə əsaslandırmağa çalışanlardan biri, İran tarixçisi Əhməd Kəsrəviyə isnad edirlər. Məgər Kəsrəvi «azəri» terminini başqa cür izah edərdimi? Nə üçün biz Kəsrəvinin yolu ilə gedib, onun Azərbaycanın ta qədimdən irandilli xalqların ölkəsi olması, burada irandilli azərilərin yaşaması haqqında bədnam iddiasını qəbul etməliyik?» (Məktubun surəti Rəsul Rzanın arxivindədir)

Rəsul Rzanın «Azəri» terminini belə israrla təkid etməsinin səbəbi xalqımızın adının yerli adı kimi deyil, millət adı kimi təsdiq olunması idi. Çünki «azərbaycanlı» yəni Azərbaycanda yaşayan rus da ola bilər, ləzgi də... («Gürcüstanlı azərbaycanlılar» qəribə səslənmirmi?) Qazaxıstanlı ruslar,

Gürcüstanlı ermənilər olan kimi. Özbəkistanlı taciklər, Qırğızıstanlı tatarlar, Tatarıstanlı başqırdlar, Başqırdıstanlı çuvaşlar və s. olan kimi. Ancaq rus, bir mənalı şəkildə yalnız rus, erməni erməni, gürcü gürcü, özbək özbəkdir. Azəri də ancaq azərilər ola bilərdi. Ola bilərdi, olmadı. Qoymadılar.

Yadımdadır, «azəri» sözünün damğalanıb aradan götürüldüyü günlərdə Moskvadan Böyük Sovet Ensiklopediyasının cildi gəldi bizə. Atamın təşəbbüsü və təkidiylə burada millətimizin adı «Azərbaycanlı, Azəri» kimi getmişdi. Mərdəkanda, xəstəxanada yatırdı. Həmin cildi ora, xəstəxanaya apardım. Necə də uşaq kimi sevinirdi, elə bil dünyanı onu bağışlamışdın.

Ensiklopediyaya qarşı bu milli və etnik etirazlardan başqa sıif şəxsi və bəzən adama qəribə görünəcək şəkildə xırda motivlərdən doğan narazılıqlar da vardı. Ensiklopediyaya düşüb düşməmələri, hətta düşdükdə belə şəklinin verilib verilməməsi, verilirsə nə ölçüdə verilməsi, haqqında biblioqrafik məlumatın olub olmaması da çoxlarının yuxusunu qaçırdırdı. Və bu sayaq şöhrət iddiaları təmin olunmadıqda ensiklopediyanın amansız düşməninə çevrilirdilər. Qısqanclıq da ki, öz yerində. Xüsusiylə, Rəsul Rzanın bir para şair həmkarları atamın bu vəzifədə qazandığı əlavə nüfuzla heç cür barışa bilmirdilər, qəsdən buraxılan şayiələr: «Ensiklopediyanın 1-ci cildi çıxan kimi Rəsul Rzanı Akademiyanın vitse-prezidenti qoyacaqlar» qəbilindən ara söhbətləri də bəzilərini yamanca qıcıqlandırırdı... Guya ki, vitse-prezident olmaq Rəsul Rzayçün böyük şərəf imiş. Necə vitse-prezident ola bilərdi ki, heç akademik də deyildi. «Yaşıl rəngin işığı» kitabında Şamil Salmanov qeyd edir ki, «Digər sovet respublikalarında Rəsul Rza səviyyəsində olan şəxsləri Elmlər Akademiyasına üzv seçirdilər. Bizdə isə, əksinə, belə bir şəxs mübarizə hədəfi idi. EA-nın həqiqi üzvü olması R.Rzanın qanuni haqqı idi. O, bu səviyyəyə tamamilə layiq idi. Həm bir şəxsiyyət olaraq, həm də öz zəkası, intellekti ilə. Iakin biz nə etdik? Nəinki onu EA-nın həqiqi üzvü seçdik, hətta başladığı işdən uzaqlaşdırdıq, imkan vermədik ki, ensiklopediya onun

rəhbərliyi altında nəşr olunsun. Onun adı hətta ensiklopediyanın Redaksiya şurası siyahısında saxlanmadı. Xeyli vaxt keçdikdən sonra ensiklopediyada R.Rza haqqında kedəcək məqalənin yazılması mənə tapşırıldı... Məqaləni yazdım. Məqalədə R.Rzanın vəzifələri sırasında onun ensiklopediyanın Baş redaktoru olmasının göstərilib-göstərilməməsi məsələsi meydana çıxdı. Ədəbiyyat redaksiyasının redaktoru Azər Bağırovla mən qorxurduq ki, bu fakt çıxarılsın».

Şamil Salmanovun dediyinə görə, o vaxt «Правда» qəzetində dərc olunmuş bir məqalədə Rəsul Rzanın adı müsbət mənada çəkildiyinə görə onun halal haqqı - Ensiklopediyaya on il rəhbərlik etməsi haqqında bir cümləlik məlumat da ixtisar olunmamışdı.

Rəhmətlik Arazın mənə danışdığı bir fakt da həm məzəli, həm səciyyəvidir. Demə, Rəsul Rzanın ensiklopediyada verilən şəklində döşündə deputat nişanı varmış, o vaxt isə atam deputat seçilməmişdi və bu məsələ redaksiyada uzun-uzadı mübahisələrə və müzakirələrə səbəb olubmuş: şəkil bu cür deputat nişanıyla verilsinmi, verilməsinmi? Doğrudan da ensiklopediyanın yeni rəhbərliyı ciddi məsələlərlə məşğul imiş.

Rəsul Rzanın böyük və ağır zəhməti nəticəsində inşa edilən Ensiklopediya binasının açılışına da sabiq Baş redaktoru dəvət eləməmişdilər. (Yəqin, o günlərdə «Правда»da Rəsul Rza haqqında münasib yazı çıxmayıbmış).

***

Hadisələrin ardıcıllığını pozaraq bir az qabağa qaçdım. Rəsul Rzanın hələ ensiklopediyanın Baş redaktoru olduğu günlərə qayıdıram və o acı mənzərələri canlandırmaq üçün yenə də Yaqub Mahmudovun yazısına müraciət edirəm. Yaqub müəllimin «şər qüvvə» adlandırdığı «özümüzünkülər» ensiklopediyanın Baş redaktorunun ayağının altını qazmaqdan usanmırdılar.

Y.Mahmudov yazır: «Şər qüvvə elə bir zərbə vurmağa çalışırdı ki, bu zərbə qarşısında təkcə Akademiyanın rəhbərliyi

deyil, heç ideoloji katibin (o zaman MK-nın ideoloji katibi Cəfər Cəfərov idi) özü də tab gətirə bilməsin! Yeni zərbənin «artileriya hazırlığı» (və ya ən mühüm addımı) bundan ibarət oldu ki, onun təşkilatçıları (əlbəttə, L.S.Şaumyanın «xeyirxah» məsləhəti ilə!) Moskvaya Sov.İKP MK-ya Enskilopediyada «pantürkizm», «panislamizm», «millətçilik» və «antirusiya əhval-ruhiyyəsinin» baş alıb getməsi barədə «sanballı» bir məktubla müraciət etdilər. Sapı özümüzdən olan baltaların hazırladığı bu «ittihamnamə» 21 səhifəyə bərabər imiş, nə az, nə çox! Ensiklopediyaya qarşı şərin ayaq açıb yürüməyə başladığı bir zamanda aparıcı təhsil ocaqlarımızdan birində keçirilən bir müzakirə vəziyyətimizi daha da ağırlaşdırdı. Həmin müzakirədə bir nəfər tarixçi alimimiz Ensiklopediyanın ona sifariş etdiyi və xüsusi cild üçün nəzərdə tutulmuş mühüm bir məqalənin məzmununu necə deyərlər, vaxtından qabaq «açıqladı». Məqalədə sübut olunurdu ki, Şimali Azərbaycan Rusiya tərkibinə «könüllü surətdə daxil olmayıb». Əksinə Rusiya imperiyası Azərbaycana qarşı qanlı müharibələr aparıb, torpaqlarımızın bir hissəsini silah və qan gücünə işğal edib...» («Kaspi» qəzeti, 13-14 iyul 2000).

***

Atamın vəfatından sonra onun kağızlarını araşdırarkən ensiklopediyadakı işinə aid qovluqları da diqqətlə nəzərdən keçirdim. Neçə-neçə səhifələrdə müxtəlif iradlara, elmi mülahizələrə və elmdən uzaq danoslara maddə-maddə, məntiqli, tutarlı cavablar verib. Bəzən bürokratik iradları bürokratik üslubda da cavablandırı. Ancaq haçansa, hardasa səbri tükənəndəmi, şairlik təbiəti soyuq idarəçilik təhkiyyəsini üstələyəndəmi satirik qələmə sarılıb, ürəyini şeirlə boşaldıb:

Qoca bir vücud vardı,
Gödəkboy, uzunburun.
Söz-söhbəti bu idi
Əzin! Qovlayın!Vurun!

Qəribə adı vardı
bu qocalmış kişinin,
Ad qoyanlar bilirmiş
yəqin onun işini.
Mirzə Kaftarlı!
Bəli
İşi-gücü həmişə
Böhtan, qiybət, yalandı.
Köhnə kövşən eşməkdə
mütəxəssis şeytandı.
Şərini, böhtanını
Gündüz-gecə yazardı.
Goreşənlər bilirlər
Hara, necə yazardı.

Bu «goreşənin» konkret prototipi vardı və adı, soyadı da elə şeirdəkinə çox yaxındı. Onun ensiklopediya, ümumiyyətlə Rəsul Rza haqqında yazıb göndərdiyi föhş və böhtanlardan atam xəbər tutmuşdu. Anıma axı xəbər tutmadığı və hara, necə yazıldığı bilinməyən neçə-neçə başqa danoslar da vardı.

Yalnız bizim günlərdə DTK-nın sabiq əməkdaşları xatirələrini ictimaiyyətə çatdırdıqda bütün bu işlər barədə ucundan-qulağından məlumat alırıq. O vaxtlar Azərbaycan DTK-sının məsul işçisi, sonralar bir müddət sədri olmuş İlhüseyn Hüseynov Rəsul Rza haqqında «dəniz qırağına» verilən danoslardan da söz açır:

«Əgər səmimi etiraf etsək, yazıçıların özlərinin danoslarına görə süni surətdə Rəsul Rzanı dissident eləməliydik. Danos verirdilər ki, o Türkiyəyə meyllidir, şeirlərində türk sözlərindən istifadə edir. Yeri gəlmişkən, danoçsuların arasında elələri də vardı ki, indi Türkiyəyə alovlu məhəbbətini və sədaqətini bəyan edir, deyir ki, biz qardaşıq... Ancaq yalnız DTK əməliyyat işçilərinin və rəhbərliyinin Azərbaycan KP MK tərəfindən dəstəklənən inadı bu görkəmli insanı, həqiqi Azərbaycan vətənpərvərini elə öz kolleqalarının təqiblərindən xilas

etdi» (Əsildar Hüsenovun «Kəşfiyyat generalı ilə müsahibə» kitabında).

Vaxt keçir, illər ötür, dövr dəyişir, Dövlətin xüsusi orqanlarının ya ayrı-ayrı adamların sirr kimi saxladıqları və həmişəlik sirr olaraq qalacağını zənn etdikləri gizli mətləblər gec-tez açılır. Bu yaxınlarda M.F.Axundov adına kitabxananın əməkdaşı Fazil Məmmədov mənə bir sənədin sürətini göndərdi - M.C.Bağırovun Poskrebişevə ünvanlandığı məktubun surətini. Bu həmin o Poskrebışevdir ki, sonralar Stalinin şəxsi katibi olmuşdu.

Sənədlə tanış olanda dərhal anamın bir sözü yadıma düşdü. Anam danışırdı ki, otuzuncu illərdə Moskvada təhsil alanda tək bir tələbəlik təqaüdüylə dolanmaq çətindi, odur ki, SSRİ Ali Sovetində tərcüməçilik işinə də düzəlmişdim. Ali Sovetin sənədlərini ruscadan azərbaycancaya çevirirdim. İşimdən razı idilər, amma bir gün gördüm ki, izahsız-filansız məni işdən azad ediblər. Səbəbini indiyəcən bilmirəm.

Əlbəttə, anam ehtimal edirdi ki, məsələ onun nəsliylə bağlıdır, amma ömrünün sonuna qədər bilmədiyi həqiqi səbəb bu gün əldə etdiyimiz məktublardır. Məktubun mətni belədir:

«**Tamamilə məxfi**

Şəxsən ÜK(b)P MK xüsusi sektorunun müdiri Poskrebışevə Azərbaycan K(b)P üzvləri Əli Həsənovun və Süleyman Rüstəmzadənin Nigar Rəfibəyliyə aid bu ilin 5 oktyabr tarixli məktubunu göndərirəm. Öz tərəfimdən də onun Kremldə işdə saxlanmasını mümkünsüz hesab edirəm.

Əlavə: deyilən məktub

Azərbaycan K(b)P MK Katibi
M.C.Bağırov
19.10.1937»

Cəfər Cəfərov katib olanda mənə demişdi ki, Ensiklopediya haqqında Mərkəzi Komitəyə DTK-nın verdiyi rəy mənfidir və Rəsul Rzanının Baş redaktor vəzifəsində qalması məqsədəuyğun hesab edilmir.

Ensiklopediyadakı fəaliyyətindən başqa Rəsul Rzanın yaradıcılığına da əl atırdılar, hər şeirini zərrəbinlə oxuyur və misraların arasında, deyilən fikirlərin altında bəlkə də heç yerli-dibli orada olmayan gizli mənalar, kommunist ideologiyasına zidd işarələr, eyhamlar axtarırdılar. Tək Rəsul Rzayla kifayətlənməyib ailə üzvlərinin fəaliyyətinə də göz qoyur, şübhəylə yanaşırdılar. Nigar Rəfibəylinin elə o zamanlar «Azərbaycan» jurnalında dərc olunmuş «Sağlıqla qal yaxın qonşu» adlı Türkiyə xatirələri də bu ölkəyə rəğbət hisslərilə yazıldığına görə ailəmizin «türkpərəstliyinə» daha bir sübut olmuşdu. Mənim redaktor olduğum «Qobustan» toplusu da rəsmi dairlərin daimi diqqət mərkəzində idi, məcmuənin adındakı «toplu» sözündən, içərisindəki materiyalların dili, məzmunu və ruhuna qədər hər şeyə «pantürkist», «antisovet» rəngi verməyə çalışırdılar. O vaxt Azərbaycan KP MK-nın ikinci katibi Kozlov Cəfər Cəfərovdan soruşurmuş: «Doğrudan «Qobustan» türk dilində (Türkiyə türkcəsini nəzərdə tuturdu) çıxır?». Güman etmirəm ki, Kozlov Azərbaycan dili və Türkiyə türkcəsi üzrə mütəxəssis olsun, intəhası «özümüzünkülər» qulağını belə doldurmuşdular.

Azərbaycan yazıçılarının X qurultayında çıxış edən hörmətli prezidentimiz Heydər Əliyev o illəri xatırlayaraq deyirdi:

«Keçən şeyləri indi açmaq olar. Gəlib nə qədər şikayət edirdilər, elə sizin özünüzün içərinizdən. Biri gəlirdi, deyirdi, bu pantürkistdir, biri deyirdi bu paniranistdir, biri deyirdi, nə bilim, bu Türkiyənin casusudur, biri deyirdi bu, İranın casusudur, biri deyirdi bunun babası da sovet hökumətinin əleyhinə olub, özü də sovet hökumətinin əleyhinə gedir. Nə qədər gəlirdilər, deyirdilər və nə qədər çalışırdılar ki, bu əsərlərin qarşısını alsınlar. O vaxtlar bizim həyatımızda olan mənfi halları tənqid edən əsərlərin qarşısını almaq istəyirdilər. Amma siz də bilirsiniz ki, 1969-cu ildə mən Azərbaycana rəhbər seçilən gündən Azərbaycanın həyatında olan eybəcərlikləri, mənfi cəhətləri daim tənqid etmişəm və onlarla mübarizə

aparmışam. Ona görə də gəlib mənə deyəndə ki, «Anar «Şəhərin yay günləri» pyesini yazıbdır, orada bizim quruluşun əleyhinə gedir, filan edir», dedim, yaxşı, gedib baxaram. Gəldim, baxdım, çox da tərifləmədim, mükafat da verdim.

«Qobustan» jurnalını xatırlayıram. O yarananda əleyhinə nə qədər cürbəcür hərəkətlər oldu. Mənim xatirimdədir, biri gəlirdi ki, nə bilim millətçilik ideyaları yayır;biri gəlirdi ki, bizim quruluşun əleyhinə ideyalar yayır; biri o tərəfdən, biri bu tərəfdən gəlirdi. Mən də götürürdüm, baxırdım bu «Qobustan» jurnalına, görürdüm burada bunların dedikləri şey yoxdur, amma bizim üçün lazım olan şeylər çoxdur. Ona görə də «Qobustan» jurnalı yaşadı. Bu gün məmnuniyyət hissi ilə deyirəm «Qobustan» jurnalı o vaxt çox böyük işlər gördü» (30 oktyabr 1997).

***

O vaxtlar Rəsul Rzaya qarşı sürülən ən ağır ittiham ayrı adlarla verilsə də və açıq deyilməsə də millətçilik «günahı» idi. Bu ittihamın əsası hələ 50-ci illərin ikinci yarısında erməni yazıçıları tərəfindən qoyulmuşdu. O vaxtlar ermənilər Naxçıvanın Ermənistanın tərkibinə verilməsi haqqında növbəti dəfə məsələ qaldıranda Rəsul Rza Azərbaycan Yazıçılar İttifaqının Plenumunun Naxçıvanda keçirilməsini təklif etmişdi və 1958-ci ildə Naxçıvanda bu Plenumda məruzə etmişdi. Məruzədə tarixə, ədəbiyyata, memarlığa aid faktlar əsasında Əbubəkr Əcəmi, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Əliqulu Qəmküsar, Məmməd Səid Ordubadi, Bəhruz Gəngərli vətəninin qədim Azərbaycan torpağı, mədəniyyətimizin beşiklərindən olduğu bir daha təsdiq edilirdi. Məruzədə belə sözlər səslənmişdi:

«Biz Naxçıvanın yaxın tarixindən danışdıqda Naxçıvan haqqında ayrı-ayrı vətən xainlərinin, xalq düşmənlərinin yürütdükləri fikirləri də xatırlamalıyıq. Erməni xalqının qəddar düşməni olan daşnaqlar «böyük Ermənistan» iddiaları ilə qonşu

xalqların doğma torpaqlarına diş qıcadıb yüzlər və minlərlə günahsız insanların qanı bahasına öz xüdpəsənd və çirkin arzularını həyata keçirməyə hazır idilər... Onlar girəvə tapsalar bu gün də qəsbkarlıq xülyalarını diriltməyə hazırdılar. Naxçıvan Sovet Azərbaycanının sərhədləri qızıl xətlə cızılmış, azad torpaqlarında yerləşən qədim Azərbaycan yeridir. Biz belə fitnəkarlara xalqlarımızın gur səsi ilə deyirik: Ağalar, sizin bu xam xəyallarınız heç bir zaman baş tutmayacaqdır. Doğma yurdumuzun qədim bir parçası olan, xalqımızın tarixini şanlı səhifələrlə bəzəmiş Naxçıvan Sovet Azərbaycanının ayrılmaz bir hissəsidir. Onun hər qarış torpağı bizim üçün müqəddəsdir».

Bu çıxışa Yerevandan dərhal əks-səda gəldi və o gündən erməni millətçiləri Rəsul Rzanı öz qara siyahılarına saldılar.

Altmışıncı-yetmişinci illərdə Rəsul Rzanın Andronikə həsr olunmuş misraları, «Babək» şeirində bu gün də aramızda olan xəyanətkar sumbatları damğalaması, «Qarabağ nəğmələri» və «Şuşa» şeirlərində Qarabağın bizimliyini dilə gətirməsi, «doğma yurddan püşk olarmı, pay olarmı» deməsi və nəhayət, ensiklopediyadakı fəaliyyəti ermənilərin var qüvvələriylə Rəsul Rza əleyhinə açıq və gizli mübarizə aparmalarına səbəb oldu.

Rəsul Rza nə erməni düşməni, nə də sözün bayağı mənaşında millətçi idi. Bu gün millətçilik bir növ dəbə və hətta «muşğulata» çevriləndə də mən yenə bunu israrla təkrar deyirəm. Bəli, o, Mirzə Cəlilin gülüb ələ saldığı millətçilərdən deyildi. Hələ əsrin əvvəllər ində Mirzə Cəlil yazırdı: «Bir para adamlar qələmi əllərinə alan kimi yalandan başlayır: Ay mənim yaxşı millətim! Nə qədər canım sağdır, hazıram sənə canımı fəda edəm, ey mənim gözəl millətim! Ay millətlərin padşahı millətim! Vallah, Molla Nəsrəddin yalan danışa bilməz. Biz deyirik ki, belə milləti biz canü-dildən istəyə bilmərik. Bəlkə içində bir-iki yaxşısı tapıla».

Bu sözləri yalnız xalqını qanamış bir qəlblə, odlu bir ürəklə sevən vətənpərvər yaza bilərdi. Elə bir vətənpərvər ki, onun üçün vətən sevgisi özünü reklam vasitəsi yox, təbii oğulluq borcudur.

Rəsul Rza da böyük sələflərindən, o cümlədən, Mirzə Cəlildən bu dərsləri almışdı, xalqının qeyrətini və təəssübünü çəkmək, onun dərdlərini, ağrılarını öz ürəyinin ağrısı kimi duymaq, lazım olan hər məqamda onun maraqlarının keşiyində durmaq Rəsul Rza üçün özünü reklam vasitəsi yox, üzvü övladlıq borcu idi. Və məhz elə buna görə də onun ensklopediyadakı fəaliyyətinə və bu illərin yaradıcılığına (əlbəttə, yenə də SON şeirlərinə) bu cür ittihamlar verənlərə cavab olaraq proqram şeirlərindən birini, «Nəsimiyə, Fizuliyə, Sabirə açıq məktub» (Onlara məhəbbət, bəzilərinə ibrət üçün) başlıqlı şeirini yazır:

Düşünürəm:
haqqım varmı sizə
ustadım, babam deyəm,
alam deyəm.
Yoxsa utanım, susum:
yolunuza, işinizə yadam deyə.
Qazanmışammı
övlad haqqını
zəhmətimlə
məhəbbətim, nifrətimlə,
cəsarətimlə?!
Sağ olun!
Sağ olun ki,
heç bir zaman
başqa xalqa xor baxmadınız.
Tarixə İnsan düşdü,
insan qaldı adınız.
Düşünürəm:
Bəlkə, yanınızda qəbahətim var.
Bəlkə, bu babətdən
az-çox xəcalətim var?
Xalqın taleyində
ağır günlər az olmayıb.

Sağ olun!
Sağ olun ki, neçə-neçə
sınaqdan keçə-keçə
qəlbinizi, şeirinizi
qəzəb-kin yuvası etmədiniz.
Bizə haqsızlıq edən təklərə görə
minlərə, milyonlara
düşmən gözüylə baxmaq
yoluyla getmədiniz!
Mən xalqımı sevirəm!
Bu sözün arxasında
ömrümün çətin illəri var,
ümidləri, arzuları, nisgilləri var.
Bu sözün özündə
məhəbbət var
yaxşı insanlara,
başqa xalqlara,
taleyinə yadlar
hökm eləyənlərə
daha çox.
Mən xalqımı sevirəm,
ancaq mənimkidir deyə yox.
Yalnız tanınmışları yox,
ona şöhrət gətirməyənlər
nifrət gətirməyiblərsə,
onlar da mənimkidir.
Başqa xalqlara
nə nifrətim,
nə pis niyyətim olmuşdur.
Kim nə deyir, desin.
Karvan keçir...
zingildəyən Alabaşdır.
Sağ olun ki,
gələcək övladlara
kin deyil,

məhəbbət vəsiyyət etdiniz;
Nə İsa deyən kimi
«bir üzünə vurdular
o birini çevir!»
yoluyla getdiniz.
Bizə mərdlik
ədalət,
böyük insan qəlbini tapşırdınız.
Nə aciz olun dediniz,
nə qılıqsız.
Filantropluğu,
mütiliyi bizə irs qoymadınız.
Düşmənlə düşmən kimi,
dosta dost kimil
Elə deyilmi,
Ata Sabir,
Dədə Füzuli,
Baba Nəsimi?!
Sağ olun, var olun!
Əziz, böyük babalar!
Sizə ustadım,
sizə babam deməyə,
sizə atam deməyə
haqqım var.

***

Daşnaq xislətli ermənilərin də, yerli manqurdların da hücumları hələ o qədər qorxulu deyildi, ən təhlükəli üçbucağın üçüıncə tərəfi - mərkəz, Moskva idi. O vaxt respublikanm hər işini, ilk növbədə də ictimai-siyasi həyatını, ideologiya sahəsini ciddi nəzarət altında saxlayan Mərkəzi orqanlar onlara verilən siqnallardan nəticələr çıxarırdılar.

Hörmətli alimimiz Əziz Mirəhmədov tənqidimizin ağsaqqalı Məmməd Arifə həsr etdiyi məqalədə xatırlayır ki, Arif

müəllim akademik Məmməd Cəfərlə söhbətində «gərək Mərkəzi Komitədə «Azərbaycan» jurnalını müzakirə edərkən bu məsələni Rəsul Rzanın şeirləriylə bağlamayaydılar» deyib. Ə.Mirəhmədov Məmməd Cəfər müəllimin bu sözlərə cavabını gətirir:

«Çox ola bilsin ki, Rəsulun Naxçıvan və Ermənistan məsələsi barədə Naxçıvandakı çıxışı da bu işdə pis rol oynayıb. Arif müəllim dedi: «Bu fikir ağlabatandır» («Ədəbiyyat qəzeti», 18 iyul 1997).

***

Atamın arxivində ensiklopediya dövrünə aid elə sənədlər var ki, onlarla ürək ağrısıyla tanış olursan. Respublikanın mötəbər şəxsiyyətlərindən olan Rəsul Rza hansısa «goreşənin» danoslarına görə idarənin baş müsahibiylə birgə imzaladığı hesabatla cavab verməyə məcbur imiş və bu hesabatda danosda verilən ittihamlarla əlaqədar belə bəndlər də var ki, «Volqa» N 54-95 avtomaşını Goyçay rayonuna ASE-nin Baş redaktoru Rəsul Rzanı aparmışdı, çünki həmin rayondan deputat olduğu üçün seçicilərlə görüşə getməliydi. Hətta öz idarə maşınında yay aylarında şənbə günü Buzovnadakı bağına getməsi haqqında da izahat verməli olub Xalq şairi, deputat, ensiklopediyanın Baş redaktoru.

Enskilopediya redaksiyanın işini müxtəlif, bəzən «elmi don» geyindirilmiş bəhanələrlə, bəzənsə açıq-aşkar şantajla ləkələmək, ipə-sapa yatmayan Baş redaktoru ya ram etmək, itaətə gətirmək, ya da dolaşdırıb cana-boğaza yığmaq istəyirdilər. Hətta xeyirxahları belə: «Rəsul nə əcəb öz xoşuyla ərizə verib çıxmır, - deyirdilər, ağır şəkər xəstəliyi fonunda bu təzyiqlərə, bu hücümlara necə dözəcək?»

Rəsul Rza isə: «Ərizə-zad verməyəcəm, çıxarırlar çıxarsınlar», - deyirdi. Mərkəzi Komitənin ən xırda məmurları da Rəsul Rzaya do gəlməyi məqbul sayırdılar. Amma atam da heç birini cavabsız qoymurdu. Bir dəfə mən onun iş otağında olarkən MK-dan zəng edən birisinə: Partiyanın adıyla möhtək-

irlik etməyin - deyib dəstəyi hirslə asdı. Nəriman Həsənəli xatırlayır ki, başqa birisi yenə Mərkəzi Komitənin adından yekəxanalıq edəndə, Baş redaktora kiminlə danışdığını xatırladanda, Rəsul Rza ona: bəs siz bilirsinizmi kiminlə danışırsınız deyib, Xalq şairi Rəsul Rzayla.

Yaqub Mahmudov Rəsul Rzanın Mərkəzi Komitəylə və oranın bu müddətdə dəyişən iki ideoloji katibiylə münasibətlərini xatırlayır:

«Gözündə (və ürəyində) qorxu olmayan, xüsusilə haqsız irad zamanı qarşı tərəfin üzərinə daha hökmlə yeriyən Rəsul Rza çox nadir, cəsarətlə deyərdim ki, hətta təkrarsız tarixi şəxsiyyət idi. Haqsız iradı o, heç vaxt, heç bir məclisdə, heç bir səviyyədə qəbul etməzdi. Məsələn, o zaman Rəsul Rzanın tanınmış sənətşünas Cəfər Cəfərovla möhkəm dostluğu barədə çox danışılırdı. Cəfər Cəfərov MK-nın ideoloji sahə üzrə katibi olduqdan sonra bir çoxları arxayın idi ki, daha «Ensiklopediyaya zaval yoxdur». Lakin bədxahlar onun vaxtında da «ensiklopediya məsələsi»ni dəfələrlə ideoloji katib səviyyəsinə qaldırmışdılar. Ensiklopediyanın fəaliyyətinə nəzarət tamamilə Elm və məktəb şöbəsininə verildi. Təbliğat və təşviqat şöbəsi bu işdən təcrid olundu (Təbliğat və təşviqat şöbəsinin o vaxt müdiri atamın dostu və xeyirxahı Teymur Əliyev idi - A.) Elm və məktəb şöbəsində isə birinci skripkanı ənənəvi olaraq «hökumət tarixçiləri» çalırdılar. Günümüz Elm və məktəb şöbəsində keçirdi. Ensiklopediyanın rəhbərliyini «qüvvətləndirmək» üçün mübarizə aparır, Rəsul Rzanın yerinə namizəd axtarırdılar. Elm və məktəb şöbəsinin müdiri Ensiklopediyanın ünvanına təxminən belə bir irad söylədi: «Bəzi məqalələrə yenidən baxmaq», «bir sıra məsələni dəqiqləşdirmək lazmıdır». Rəsul müəllim tənqid xatirinə deyilən bu ümumi iradları eşidən kimi dik yerindən qalxıb: «xahiş olunur, o «bəziləri», «bir sıraları» konkret söyləyin,- deyərək MK katibinə (MK katibi artıq C.Cəfərov deyildi - A.) öz sərt münasibətiini bildirdi. Həmin müzakirədə ideoloji katib «nöqsanlarımızı» konkret demədikdə Rəsul müəllim, «mənim

burda itiriləsi vaxtım yoxdur» - deyib iclası tərk etmişdi. Mətbuat Komitəsində, Akademiyanın Rəyasət Heyətində, 26-lar rayon partiya komitəsində keçirilən müzakirələrdə Rəsul Rzanın belə təpərli hərəkətləri adi hal idi».

Yaqub müəllim MK katibinin otağında başqa bir müzakirəni də xatırlayır.

«Rəsul müəllimin çox güclü məntiqi katibi çıxılmaz vəziyyət qarşısında qoydu. Müzakirələrin gedişində bütün «dəlillərinin» əlindən çıxdığını görən ideoloji katib çarəsiz qalıb guya bizə «güzəştə getdiyini» bildirdi: «Yaxşı, gedin kitabdakı «xırda-mırda» nöqsanları düzəldin, sonra gələrsiniz, baxarıq!» Rəsul müəllim bu «ümumi» iradı eşidən kimi alovlandı və yerindən qalxıb ideoloji katibdən təkidlə tələb etdi ki, «xırda» və «mırda» nöqsanları ayrı-ayrılıqda konkretləşdirsin! Lakin konkret, haqlı və əsaslandırılmış bir tənqid eşitmədiyi üçün Rəsul müəllim bu səviyyədə keçirilən növbəti bir müzakirəni də tərk etdi. Müzakirə yarımçıq qaldı və biz bir daha həmin səviyyədə müzakirəyə dəvət olunmadıq» («Kaspi» qəzeti, 29-31 iyul 2000-ci il).

Rəsul Rzanın belə, bəlkə də bir qədər lüzumsuz olan çılğın hərəkətləri, işi o yerə gətirib çıxartdı ki, Ensiklopediya məsələsi Sov.İKP MK yanında Partiya nəzarəti Komitəsinə gedib çıxdı. Ordan Baş redaktoru ləkələmək üçün Bakıya xüsusi. komissiya göndərildi. Moskvalı qonaqlara can-başla qulluq göstərən yerli «qonaqpərəstlər» də fürsəti fövtə vermədilər. Sokolov adlı bir məmurun hazırladığı arayışa cavabı Rəsul Rza Sov.İKP Siyasi bürosunun üzvü, Partiya Nəzarəti Komitəsinin sədri A.Y.Pelşeyə göndərdi.

Hörmətli A.Y.Pelşe yoldaş!”

Sokolov yoldaşın arayışında ASE-nin işindəki bəzi faktlarla yanaşı son dərəcə subyektiv, bu faktları birtərəfli izah edən müddəalar da var... Sokolovun arayışıyla tanış olmaq üçün mənə çox məhdud vaxt verildiyinə görə mən yalnız bəzi yadımda qalan maddələri təkzib edə bilərəm».

Bu müddətdə Enskilopediyada görülən işləri bir-bir sadalayandan sonra Rəsul Rza belə bir sual verir:

«Əgər bütün bunlar yoldaş Sokolovun iddia etdiyi kimi kollektivin başlı-başına buraxılmasıdırsa, onda bəs gərgin, faydalı və mütəşəkkil iş nə deməkdir?»

Sonra məktubda deyilir:

«Sokolov yoldaş nəyin bahasına olursa-olsun məni ləkələməyə çalışır. Rəsul Rzanın işə gec gəlməsi və işdən tez getməsi haqqında iddiası da görünür R. Hüseynovun verdiyi məlumata əsaslanır. Sokolov yoldaş bilməlidir ki, Baş redaktorun iş günü normalaşmış deyil. İkincisi, onu da yaxşı bilməlidir ki, ASE Baş redaksiyasındakı işimdən başqa mən xeyli ictimai vəzifə də daşıyıram: Asiya və Afrika ölkələri ilə Respublika Həmrəylik Komitənin sədri, APN-in respublika ictimai idarə heyətini sədri, Respublka Sülhü müdafiə Komitəsinin sədr müavini, Yazıçılar İttifaqı Rəyasət Heyətinin üzvü, Sumqayıt və Göyçay poeziya klublarının sədri, Terminologiya Komitəsinin üzvü, Sabir poeziya günləri Komitəsinin sədri, Böyük Sovet Enskilopediyası Redaksiya heyətinin üzvü, Azərbaycan KP MK-nın təftiş komissiyasının üzvü və i.a. Aydındır ki, bütün bu ictimai işlər üçün mən sutkanın 24 saatından vaxt ayırmalıyam: hətta istirahətimin və yuxumun hesabına olsa da. Ancaq bütün bunlara baxmayaraq, mən ensiklopediyanın Baş redaktoru vəzifəsini işin tam həcmində icra edirəm.

Sokolov yoldaş yazır ki, mən 1970-75-ci illərdə 18 kitabımı nəşr etdirmişəm. Bu irada birinci təbii cavab budur ki: Nə olsun? Amma işin həqiqi tərəfi odur ki, bu beş ildə mənim 18 yox, 9 kitabım çıxıb (arayış əlavə edirəm). Deyəsən, Sokolovun gözündə rəqəmlər nədənsə ikiləşir. Yəni, doğrudanmı Sokolov yoldaş elə hesab edir ki, mənim kolleqalarım şairlər M.Bajan, P.Brovka, İ.Abaşidze Ukrayna, Belorusiya və Gürcüstan ensiklopediyalarının Baş redaktorları olandan bəri şeir yazmır və kitab nəşr etdirmirlər?

Mənim Göyçaydakı bağım haqqında Sokolov yoldaşın iddiaları da həqiqətdən uzaqdır. Burada Sokolov yoldaş rəqəmi ikiləşdirməkdən də keçib, üçləşdirib: 95 kvadrat metrlik Göyçay evimi 265 kvadrata çatdırıb. Bu Göyçaydakı evdən Yazıçılar İttifaqının dörd üzvü - mən, həyat yoldaşım, oğlum və əmim oğlu da istifadə edirlər. Moskvada, Kiyevdə, Tbilisidə, Daşkənddə və başqa böyük şəhərlərdə yaşayan yazıçıların səs-küydən uzaq bir yaradıcılıq guşələri, bağları olduğu kimi mən də bu evi halal zəhmətimlə qazandığım pullara və dövlət təşkilatlarıyla müqavilə əsasında tikdirmişəm (bu barədə bütün sənəd və arayışları əlavə edirəm).

Partiya üzvlük haqqını da mən həmişə vaxtlı-vaxtında vermişəm. 1972-73-cü illərdə 8 ay ağır xəstə yatdığım üçün oğlum mənim üzvlük haqqımı səhv hesabladığına görə lazım olduğundan da bir qədər artıq məbləğdə verib. Bütün bu aydın faktları nə səbəbdənsə yanlış izah etdiyi üçün və ədalətsiz qənaətə gəldiyi üçün qoy yoldaş Sokolov öz partiya vicdanı qarşısında cavab versin. Mən heç bir vaxt razı olmaram ki, uzun illərin namuslu fəaliyyətimdən sonra, ömrümün 66-cı ilində mənə əsassız ittihamlar verilsin və mənim bir yazıçı və kommunist kimi bioqrafiyama kölgə düşsün. Məktubun yeganə məqsədi budur.

Hörmətlə, ***Rəsul Rza»***

Əlbəttə, bu məktub cavabsız qaldı.

***

Bu məktubdan və enisklopediyadakı fəaliyyətinin dramatik sonluğundan daha əvvəl işlərin müsbət nəticələnəcəyinə bir ümid yaranmışdı. Yenə də Yaqub Mahmudovun yazısına müraciət edək. Yaqub müəllim Elmlər Akademiyasında keçirilən bir iclasdan söz açır. Bu iclasda Enskilopediyanın işi haqqında elmi Komissiyanın rəyi müzakirə edilirmiş.

«1971-ci il fevralın 8-də səhər saat 10-da bütün komissiya üzvləri Akademiyanın prezidentinin kabinetinə toplaşmışdı. Həsən müəllim (Akademiyanın o vaxtkı prezidenti Həsən Abdullayev - A.) xalqımızın türk köklü olması, Şimali Azərbaycan ərazisinin həqiqətən də işğal edilməsi ideyasını müdafiə etdi, enskilopediya uzun müddətli soraq kitabı olduğu üçün bura əqidəsindən, siyasi görüşlərindən asılı olmayaraq (Əhməd bəy Ağayevə işarə edirdi) müxtəlif tarixi şəxslərin daxil edilməsini təbii hal saydı. Sonra isə bütün komissiya üzvlərinə bir-bir söz verildi. Komissiya materiallarının müzakirəsi 3 saatdan çox çəkdi. Hamı eyni fikirdə idi: Ensiklopediyanın 1 cildi xalqın istifadəsinə verilməlidir.

Komissiyanın rəyi hərəsi bir abzas olan aşağıdakı 4 cümlədən ibarət idi: «Enskilopediyanın nəşri Azərbaycan xalqının sosialist mədəniyyətinin inkişafı tarixində yeni mərhələdir.

Cildin əsasları siyasi və elmi cəhətdən düzgündür, marksizm-leninizm ruhunda şərh olunmuşdur.

Mətnin detallarında bəzi məqamlar var ki, bunlar ASE-nin yeni nəşrində dəqiqləşdirilməlidir.

Komissiya üzvlərinin və başqa mütəxəssislərin rəyləri əsasında Komissiya belə hesab edir ki, cildin çıxmasına maneə yoxdur» («Kaspi» qəzeti, 22-23. 2000).

Bu mətn «Yaşıl rəngin işığı» kitabında da dərc edilib və onun altında Elınlər Akademiyasının Prezidenti H.B.Abdullayevin, akademiklərdən Məmməd Arif Dadaşzadənin, Ə.S.Sumbatzadənin, Ə.Ə.Əlizadənin, M.Ş.Şirəliyevin, müxbir üzv Ə.Ə.Orucovun, tarix elmləri doktoru Z.İ.Yampolskinin, filologiya elmləri doktoru C.V.Qəhrəmanovun və tarix elmləri namizədi Y.M.Mahmudovun imzaları var. Yadımdadır, Komissiyanın bu imzalanmış rəyini alanda atamın sevincinin həddi-hüdudu yox idi. Amma düz deyiblər ki, sən öz saydığını say, gör fələk nə sayır.

Yuxarıda gətirdiyim faktlar, Enskilopediyaya qarşı aramsız hücumların davam etməsi, Moskvanın yoxlanış

komissiyası, ensiklopediyanın daxilində intriqalar və nəticədə Ensiklopediyanın 1 cildinin buraxılmaması isə bu rəydən sonra və ona məhəl qoyulmadan olanlardır.

***

Atamın arxivində ensiklopediyaya aid küllü miqdarda sənəd, arayış, müxtəlif instansiyalara, o cümlədən Mərkəzi Komitəyə məktubları içində kiçik, çox qısa bir kağız da gördüm. O biri məktubların makina surətlərindən fərqli olaraq bu atamın öz xətti, öz əlyazmasıydı, özü də rusca yazılmışdı:

«Первому Секретарю КП Азербайджана тов. Алеву Г.А.

Уважаемый Гейдар Алиевич Смертельно устал. Дальше не могу.

Жду Вашего решения

Расул Рза
25.08.1975»

Belə bir ərizə yazdığından mənim xəbərim yoxdu. Məncə, heç göndərməmişdi də onu (makinada da yazdırmayıb). İnsan nə qədər dözümlü, mətin olsa belə onun zəiflik məqamları, hər şeydən bezdiyi anları da var.

Yəqin belə dəqiqələrinin birində yazıb bu kağızı. Yazıb qoyub qovluğa. Çünki heç olmasa birinci cildi buraxmamış işdən çəkilmək istəmirdi. Ömrünün on ilini, səhhətini, əsəblərini qurban verdiyi və xalq üçün gərəkli olduğunu hesab etdiyi işin heç olmasa bircə cildlik bəhrəsini görmək istəyirdi. Amma bu istək ürəyinin nisgili oldu.

Nisgil kimi də apardı onu özüylə...

***

Ərizəsiz-flansız çıxartdılar onu.

Yadımdadır, Cəfər Cəfərov katiblikdən hələ təzəcə getdiyi vaxt mənə: Rəsulu üç qat cəzalandıracaqlar dedi, depu-

tat seçmədilər bu bir, Moskvda qurultayda Yazıçılar İttifaqının İdarə heyətinə düşmədi bu iki. Gec-tez Ensiklopediyadan da götürəcəklər bu da olacaq üç...Moskvada həmin qurultayda idare heyyətinə Rəsul Rzanın yerinə Əkrəm Əylisli seçildi.

Rəsul Rza Azərbaycan Ali Sovetinin ilk çağırışından həmişə dcputat olmuşdu (yalnız bir çağırışda, gərək ki, 1946-cı ildə deputatlığa namizədliyi verilməyib).

Təsəvvür edirəm ki, bu parçaları oxuyanlardan kimsə çiyinlərini çəkə bilər: «Bu nə söhbətlərdir belə, nə böyük işdir bəyəm deputat olmayıb, ya İdarə heyətinə düşməyib. Həqiqi şairçün bütün bunların nə əhəmiyyəti ola bilər?»

Şübhəsiz, bütün bunlara hadisələrin içindən deyil, fövqündən, ümumbəşəri, zamandan yüksək zirvələrdən baxanda, belədir. Amma axı, o vaxtkı sovet gerçəkliyinin, illah da əyalət gerçəkliyinin ab-havasında yaşayırdıq. Odur ki, bütün bunları vecinə almamaq mümkün deyildi.

Hər yaşda, ədəbi və ictimai mövqeyin hər mərhələsində başqa-başqa pisikdirmək üsulları var. Təzə başlayan müəllifin bir sətrini də çap etməyib onu elə beşiyindəcə boğmaq olar. İmzasını tanıtmış müəllifi tənqidin yaylım atəşləriylə sıradan çıxarmaq, şil-küt etmək mümkündür. Daha yüksək mövqeli şairi isə ətrafında təcrıd çəpərləri çəkməklə, haqqında israrlı susmaqla, onun yaradıcılığını görməməzliyə vuraraq ondan qat-qat aşağı dayanan tay-tuşunu üfürə-üfürə şişirtməklə, hıqqana-hıqqana qaldırmaqla və neçə cür bu sayaq fəndlərlə ruhdan salmaq, usandırmaq, əlini, dilini bağlamaq sınanmış vasitələrdir... Və bütün bunların təbii nəticəsi kimi telefonun birdən-birə susur, qapın döyülmür, küçədə səninlə salamlaşanda da əvvəlcə bərayi-ehtiyat o yan-bu yana boylanıb baxırlar görən yoxdur ki... Bütün bu vəziyyətləri gərək özün yaşayasan ki, dibinə qədər duya biləsən. Və bütün bu vəziyyətləri atam da, müəyyən dərəcədə mən özüm də yaşamışıq. «Sizsiz»də bu barədə ətraflı yazdığım üçün burada təkrar etmək istəmirəm.

1971-ci ilin qeyd dəftərimdə 5 yanvar tarixli bir yazı var. Yazı belədir:

«Bu gün Rəsul mənə yuxusunu danışdı. Yuxunu dünən gecə görüb. «Gördüm ki, Tiflisdə bir məclisdəyəm. Tost deyirəm, deyirəm ki, məsələ stolun üstündəki nemətlərdə deyil. Məsələ qəlbin açıqlığındadır. Bu vaxt bir erməni durub öz dilində danışmağa başlayır. Deyirəm: Mən bilmirəm o adam nə danışır, amma biri danışanda ikinci adamın danışması qanacaqsızlıqdır. Sonra da deyirəm ki, içək Azərbaycan və gürcü xalqlarının sağlığına. Sonra görürəm ki, aerodrom binası kimi böyük, geniş foyedəyəm. Hər tərəfdə ermənilərdir, mən lap təkəm. Mənə sataşırlar. Mən deyiləm ki, Tatul Huryana şeir yazmışam. Biri lap üstümə gəlir, provokasya eləyir ki, onu vurum, o da məni itələsin, yıxılım və guya təsadüfən basdırıqda məni ayaqlayıb tapdalasınlar. Hər tərəfdən üstümə gəlirlər. Lap təkəm, heç yerdən də kömək gümanım yoxdur. Nədənsə Ağasəfi, 34-cü ildə ölmüş bibim oğlunu çağırıram. Hardan düşüb o yadıma bilmirəm».

Demə, Rəsul Rzanın bu yuxusu dörd ildən sonra baş verəcək hadisənin sehirli xəbərdarlığı imiş.

***

1975-ci ilin oktyabrında Zaqafqaziya respublikalarının ensiklopediyaçıları Yerevanda toplaşdılar. İclasları növbə ilə Ermənistan Ensiklipodeyasının Baş redaktoru, Ermənistan Elmlər Akademiyasının Prezidenti Hambarsumyan, Gürcüstan Ensiklopediyasının Baş redaktoru, şair, akademik İrakli Abaşidze və Rəsul Rza aparırmışlar. Haqqında danışacağm gün iclasa Rəsul Rza sədrlik edirmiş. Burada sözü bu iclasın bilavasitə iştirakçıları olan və bu bərədə xatirələrini qələmə alan iki şəxsə - Ensiklopediyanın sabiq əməkdaşları Azər Bağırova və bu yaxınlarda uğursuz qəza nəticəsində vaxtsız itirdiyimiz İmran Xəlilova verirəm. «Yaşıl rəngin işığı»

kitabında dərc olunmuş «Müdriklik məktəbi» adlı xatirələrində İmran Xəlilov yazır:

«1975-ci ilin oktyabr ayı idi, eyni vaxtda Moskvada və Yerevanda tədbirlər keçirilirdi: Moskvada 1940-45-ci illər müharibəsinin otuz illiyi ilə əlaqədar müharibə mövzusunda dünyanın yazıb-yaradan veteran yazıçı və şairlərinin yığıncağı, Yerevanda isə «Zaqafqaziya respublikaları ensiklopediyalarında müxtəlif müştərək ziddiyyətli tarixi məsələlərin işıqlandırılması» mövzusunda elmi konfrans. Rəsul müəllim birinci məsələ ilə əlaqədar Moskvaya getməli idi. Lakin son anda yuxarılar fikrini dəyişərək Rəsul müəllimin Yerevana getməsini lazım bildiyindən Moskva bileti Yerevan bileti ilə əvəz olundu.

Konfransı akademik V.A.Hambarsumyan açaraq nümayəndələri salamladı. Axşam nümayəndə heyətlərinin şərəfinə ziyafət verildi. Məclisdə akademik Q.B.Qəribcanyan tamadalıq edirdi. O, qonaqları salamladıqdan sonra ilk tostu Rəsul müəllimin şərəfinə qaldıraraq dedi:

Mən, Azərbaycan poeziyasının canlı klassiki, görkəmli sovet şairi Rəsul Rza ilə ilk dəfədir ki, əyani surətdə tanış oluram və bu görüşdən iftixar hissi keçirirəm. İkinci, son dərəcədə gözəl və yaraşıqlı qadın olan N.A.Yeqorova çıxış edərək məclisin ən gözəl kişisi Rəsul Rzanın şərəfinə badə qaldırdı. Nümayəndə heyətinin üzvlərinin sevincinin həddi-hüdudu yox idi. Məclis bir növ Rəsul Rza fonunda keçirdi.

Üçüncü gün, yəni oktyabrın 12-də bizim növbəmiz yetişdi. Həmin gün sədrlik edən Rəsul müəllim idi. Artıq günorta iclası gedirdi. Xitabət kürsüsündən çıxış edən Rəsul müəllim idi. Və birdən yan otaqdan qapı açılaraq cavan bir adam içəri girdi və Rəyasət heyətində əyləşmiş Hambarsumyana yaxınlaşaraq onun qulağına nə isə pıçıldadı. Hanıbarsumyan iclası yarımçıq kəsdiyi üçün üzr istədi və Rəsul Rzanı qonşu otaqda Azərb.KP MKdan telefona çağırdıqlarını bildirdi. Sakitlik çökdü. Rəcul müəllim tutqun halda birbaşa xitabət kürsüsünə qayıdaraq məruzəsinə davam etdi. 10-15 dəqiqə çəkməmiş Rəsul müəllimi təkrarən telefona çağırdılar.

Artıq bu dəfə Rəsul müəllim yan otaqdan çıxıb bir-başa Hambarsumyana yaxınlaşaraq ona nəsə dedi. Hambarsumyan zala müraciətlə Rəsul Rzanın təcili olaraq Bakıya Azərb.KP MK-ya çağrıldığını bildirdi».

Bu hadisəni eynilə bu cür canlandıran Azər Bağırov isə sözlərini belə tamamlayır: «İmran Xəlilov Rəsul müəllimi təyyarə ilə (halbuki həkimlər ona təyyarə ilə getməyi məsləhət görmürdülər) yola saldı. Biz bunun yaxşı qurtarmayacağını başa düşüb çox məyus olduq» («Yaşıl rəngin işığı» kitabında).

Həmin iclasda iştirak etməmiş İbrahim Novruzov isə xatirələrində kimdənsə eşitdiyi məlumatı verir, Rəsul Rzamn Yerevanda iclasdan getməsindən danışaraq deyir:

«Salonu təəccüb bürüdü. Azərbaycanlılar və onların həmkarları gürcülər nə baş verdiyini bilmirdilər. Ermənilər isə zahirən təəssüf etsələr də, daxildə sevinirdilər. İşlədikləri məkrli əməl, deyəsən baş tutmuşdu... Mən xəstəxana parkında gəzişdiyimiz zaman bu əhvalatın belə olub-olmadığını Rəsuldan soruşdum. O, nə təsdiq etdi, nə də təkzib. Soyuqqanlıqla bircə bunu dedi: Millət yolunda igidin başı qalda gərək» («Yaşıl rəngin işığı» kitabındn).

Yerevandan qayıdan kimi Rəsul Rzanı Mərkəzi Komitədə H.Əliyev qəbul etmişdi. H.Əliyev yaranmış şəraitdə Rəsul Rzanın Baş redaktorluq vəzifəsində qalmasının mümkün olmadığını demiş və bu məsələnin sabah büroda həll ediləcəyini bildirmişdi.

Rəsul Rza:

-Bir xahişim var, - deyib, - icazə verin, mən sabah büronun iclasına gəlməyim.

H.Əliyev:

-Bizdə heç vaxt belə şey olmayıb, - deyib, - amma sizin xahişinizi nəzərə alarıq.

Atam mənə :

-Mən büroda özümü saxlaya bilməzdim, - dedi.

Artıq heç nə demədi, amma onun çılğın təbiətinə, söz götürməməsinə bələd olduğum üçün hər şeyi başa düşdüm.

Səhəri gün Rəsul Rzanın iştirakı olmadan Büroda onu işdən azad etdilər.

Bir neçə il keçdi və həmin o büro üzvlərinin əksəriyyəti müxtəlif vaxtlarda işlərindəki nöqsanlarına görə vəzifələrindən və büro üzvlüyündən azad edildilər. Hər biri də dünənki kolleqalarının onların ünvanlarına dedikləri tənqidləri kirimişcə dinləyir, razılaşır və qızğın təşəkkür edirdilər.

Bir çox illər də keçdi və yeni büro üzvlərinin çoxusu Heydər Əliyev Moskvadakı yüksək vəzifəsindən uzaqlaşdırılanda ona dönük çıxdılar.

***

O vaxt büronun iclasından sonra Rəsul Rzanın H.Əliyevə göndərdiyi axırıncı məktubunun surəti də atamın arxivindədir (məktubun əsli rus dilindədir).

«Hörmətli Heydər Əliyeviç!

Sizinlə görüşdən qabaq mən Quliyev (Danil Quliyev nəzərdə lutulur - A.) yoldaşla danışdım və dedim ki, arayışla müfəssəl tanış olmaq istəyirəm. Baş redaksiyanın partiya bürosü üzvləri, onun katibi, mənim elmi işlər üzrə müavinim Yerevandadırlar və məsələnin müzakirəsini bir neçə günlüyə təxirə salmaq məqsədəuyğundur. Mənim dediklərimə Quliyev yoldaş heç bir reaksiya verməsə, mən də belə nəticə çıxardım ki, məsələ artıq həll olunub. Məhz buna görə və səhhətimi nəzərə alaraq mən sizdən büroda iştirak etməyəcəyimi xahiş etdim. Siz razılıq verdiniz. Bunu ona görə yazmıram ki, Büronun ASE haqqmda qərarı barədə mübahisə edim. Ancaq yaxşı adımı qorumaq mənim borcumdur. Məlum oldluğu kimi ASE təşkil olunarkən respublikada müvafiq ensiklopedik kadrlar da yox idi, ensiklopediya yaratmaq təcrübəsi də. Baş redaksiyanın işlədiyi müddətdə kollektiv yarandı, bu kollektiv əsasən gənclərdən ibarət idi və onlar təcrübə və səriştə qazandılar.

Qeyri-səmimi olmaq istəmirəm və odur ki, öz təəccübümü bildirirəm. Nə səbəbə məni 21-25 oktyabr 1975-ci ildə Moskvaya, sovet və xarici yazıçılarla görüşə, dəvət olunduğum görüşə getməyə qoymadılar və əvəzində məsləhət gördülər ki, Yerevana, Zaqafqaziya ensiklopediyaçılarının müşavirəsinə gedim. Halbuki, artıq elə bu vaxt mənim ensiklopediyadakı vəzifəmdən azad edilməyim barədə məsələ həll olunubmuş. Birinci cildin buraxılmasını beş il ləngidəndən sonra doğrudanmı məni Yerevana ASE-nin redaktoru kimi göndərmək və müşavirənin ortasındaca, məruzəm vaxtı Bakıya geri çağırmaq vacib idi?

Yol. Əliyev H.Ə. Xalqıma layiqli mədəni abidə yaratmaq üçün əlimdən gələni əsirgəmədim. Müyəssər ola bilmədimsə bu mənim günahım deyil. Soruşmaq olar: əgər respublikanın ən görkəmli alimlərinin böyük qrupu «prinsipsizlik göstəribsə» (büronun qərarında deyildiyi kimi A.) belə alimlərlə necə işləmək və ilk Azərbaycan ensiklopediyasını yaratmaq olar? Əgər yeni yoldaşlar, əldə edilmiş böyük təcrübədən istifadə edərək yaxın zamanda ASE-nin yüksək keyfiyyətli çapını buraxarlarsa mən şad olaram.

Hörmətlə
Rəsul Rza»

Ensiklopediyayla bağlı bu hadisələr qismən Vəli Axundovun, qismən də Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi olduqları vaxtlarda cərəyan etmişdi. Şübhəsiz ki, onlar bu işlərdən xəbərdar olmaya bilməzdilər, ancaq o zaman Azərbaycan rəhbərliyinin müstəqil və tamamilə sərbəst olmadığını, Mərkəzi Ali Partiya orqanlarının da, önları istədikləri şəkildə məlumatlandıran Eımənistan və Moskvadakı erməni dairələrinin də, nəhayət, Azərbaycanın öz içində olan «özümüzünkülərin» də təsirini nəzərə alsaq, o dövrdə ən təhlükəli və əleyhinə ilk növbədə mübarizə aparılan suçun millətçilik (Azərbaycanda əlavə olaraq «türkçülük») olduğunu unutmasaq bu məsələyə daha düzgün və daha obyektiv qiymət

verə bilərik. Rəsul Rza da vəzifəsindən bütün bu təsirlərin və təzyiqlərin nəticəsində azad edilmişdi. O ki, qaldı «azad edilməyinin» vaxtı və məkanına (yəni, onun Yerevana göndərilib iclasın ortasında Bakıya geri çağrılması) bu şübhəsiz, aşağı rütbəli Partiya məmurlarının və ilk növbədə ideoloji katibin «özfəaliyyəti» idi. Atam bunu bilirdi və deyirdi.

Vəli Axundovla da, Heydər Əliyevlə də Rəsul Rzanın qarşılıqlı hörmətləri vardı. Uzun zaman məsul vəzifələrdə işləmiş Tofiq Bağırov müsahibələrinin birində deyir: «Mərkəzi Komitənin birinci katibi Vəli Axundovun Rəsul Rzaya cəsarətinə görə çox böyük hörməti vardı. Elə bir dövlət rəhbəri tanımıram ki, Rəsul Rzanın qiymətli, mənəvi tövsiyyələrindən yan ötsün» («Ədəbiyyat qəzeti», 30 mart 2001). 1970-ci ildə Rəsul Rzanın 60 illik yubileyində Vəli Axundov atama göndərdiyi təbrik məktubunda yazıdı: «Əziz dostum və qardaşım Rəsul. Sizi təbrik edir və bağrıma basıram. Qarşısıalınmaz məqsədə doğru gedən istedadınızın müdrikliyinə və ciddiliyinə heyranam. Sizə möhkəm can sağlığı və daha artıq yaradıcılıq uğurları arzulayıram. Sizinlə fəxr etdiyimi bu günlərdə söyləməyə böyük ehtiyac duyuram. Sizin Vəli Axundov».

Heydər Əliyev Azərbaycana partiya rəhbəri seçilməmişdən əvvəl Rəsul Rzayla bir görüşünü xalq rəssamı Mikayıl Abdullayev belə xatırlayır:

«Onunla (Rəsul Rzayla - A.) bir neçə il Moskvada Lenin mükafatı Komitəsinin üzvü olmuşuq. Yadımdadır ki, Qara Qarayevin «İldırımlı yollarla» baletinin müzakirəsində Rəsul nə dərəcədə tutarlı çıxış etdi. Bu 1964-cü ilin aprel günlərindən biri idi. Həmin günü iclasdan sonra Nigar xanımla bahəm üçümüz Moskvadakı «Bakı» restoranına nahara getdik. Biz orada Dövlət təhlükəsizlik orqanlarında xidmət edən H.Ə.Əliyev yoldaşla və sonra rəssam Tahir Salahovla rastlaşdıq. Biz həmyerlilər bir stolun arxasında əyləşdik. Bu maraqlı keçən məclisimizdə Heydər Əliyeviç Rəsul Rza poeziyasının ən yaxın bələdçisi kimi bizi heyran etdi. O, Rəsulun məşhur «Lenin» poemasının ən çətin misralarından savayı, şairin 40-cı,

50-ci illərdə yazdığı şeirlərini ona əzbərdən deyəndə, müəllif etiraf etdi ki, Heydər Əliyeviç, inanın ki, heç özümün belə bu şeirlər indi artıq yadımda qalmayıb və icazə verin mən sizə dərin minnətdarlığımı bildirim! Hətta Heydər Əliyeviç onu da əlavə etdi ki: «Amma Rəsul müəllim, inciməyin, hir qeydim də var. Bu son illərdəki şeirlərinizin bəziləri ilə mübahisə etməyə hazıram... «Bu vaxt hamımız gülüşdük və Nigar xanım bu söhbətə belə yekun vurdu: «Doğru sözdən heç kəs inciməz». Hamı bu qərara gəldi ki, qadın sözündən sonra daha söz ola bilməz!.. Özü də Nigar xanım ola...» («Unudulmaz sənətkar», «İki ömrün işığı» kitabında).

***

Heydər Əliyev Azərbaycan KP MK-nın Birinci katibi seçiləndən sonra respublikadan kənara ilk səfərlərindən birinə - Türkmənistana gedərkən nümayəndə heyətinin tərkibinə Rəsul Rzanı da salmışdı. Atam bu səfərdən çox xoş təəssüratla qayıtmışdı.

Hətta Enskilopediyaya qarşı Bakı-Moskva-Yerevan üçbucağının təzyiqləri başlananda belə Heydər Əliyevin israrlı təkidiylə Rəsul Rza MK-nın təftiş komissiyasına üzv seçilmişdi. (Bu barədə göstəriş verməsinə baxmayaraq hansısa partiya məmurunun Rəsul Rzanı siyahıya salmamasına görə ona möhkəm təpinmişdi də).

Rəsul Rza Ensiklopediyanın Baş redaktoru vəzifəsindən azad edildikdən sonra da Heydər Əliyevin bir şair və şəxsiyyət kimi ona böyük hörməti vardı.

1980-cı ildə Rəsul Rza yenidən Azərbaycan Ali Sovetinin deputatı seçildi və həmin ilin may ayında 70 yaşı tamam olan gün ona Sosialist Əməyi Qəhrəmanı adı verildi. Uzun zaman ermənilər və öz manqurdlarımız tərəfindən Moskvaya «millətçi», «pantürkist» kimi təqdim olunan Rəsul Rzaya SSRİ-nin on yüksək adının verilməsi Heydər Əliyevin nüfuzu və iradəsi sayəsində oldu. Yaqub Mahmudov yuxarı-

larda adı keçən yazısında qeyd edir: «Məhz belə bir vəziyyətdə, çox mürəkkəb şəraitdə Heydər Əliyev müdrik siyasət yeridərək Azərbaycanın mübariz ziyalılarının böyük bir nəslini, o cümlədən əsas hədəf olaraq seçilmiş dahi mütəffəkirimiz Rəsul Rzanı nəinki qoruyub saxlaya bildi, hətta ona Sosialist Əməyi Qəhrəmanı kimi yüksək fəxri adın da verilməsinə nail oldu» («Kaspi» qəzeti, 12 may 2000).

Bu barədə irəlidə də danışacam, amma ensiklopediya mövzusunu bitirmək üçün bir neçə kəlmə də sonralar nəşr olunmuş 10 cildlik ensiklopediya ilə Rəsul Rzanın Baş redaktor olduğu vaxt çıxmış bir cildin fərqi haqqında. Mən bu fərqləri təhlil etmək istəmirəm, amma bu bölümün əvvəllərində boyun olduğum kimi, səbrlə və böyük zəhmət bahasına bu təhlili aparmış Teyyub Qurbanın «Yaşıl» və «Qırmızı» adlı araşdırmasından bəzi yerləri diqqətə çatdırıram. Bir cildlik Rəsul Rza ensiklopediyasını «Yaşıl»(cildinin rənginə görə), on cildlik yenisini «Qırmızı»(yenə də cildinin rənginə görə) adlandıran Teyyub Qurban yazır: «Yaşıl»da 180 azərbaycanlı, 15 erməni adı vardır. «Qırmızı»da azərbaycanlıların sayı 150 nəfərə endirilmiş, ermənilərin sayı isə 51-ə çatdırılmışdır. Axı kimdir onlar, yasaq edilmiş «Yaşıl» da adları çəkilməyən ermənilər? Avakyan Baqdasar Hayrapetoviç, Amiryan Arsen Minayeviç, Amirov Tatevos Minayeviç - 26 Bakı Komissarının «A» ilə başlanan daşnak üçlüyü. Rəsul Rzaçılar milli qəhrəmanlıq nümunəsi göstərərək 1918-ci ildə mart faciəsinin iştirakçılarını «Yaşıl»a daxil etməmişdilər. «Qırmızı» isə 26-ların hamısı haqqında ayrı-ayılıqda məqalə verməklə yanaşı, şəkillərindən ibarət bir səhifəlik «fotosərgi» də vermişdir. «Qırmızı»dakı «A» ilə başlayan 51 erməni arasında elələri vardır ki, onların Azərbaycanla heç bir əlaqəsi olmamışdır. Bəlkə bəziləri heç Ermənistan Sovet Ensiklopediyasına da düşməmişlər. Elə çıxır ki, «Qırmızı»ya belələri ancaq və ancaq erməni olduqları üçün daxil edilmişdir.

Türkiyə və türklər «Qırmızı»nın «A»sının amansız düşmən obrazıdır. Bu səbəbdəndir ki, bir çox şəxsiyyətlərin adları

«Yaşıl»dan «Qırmızı»ya keçirilməmişdir. Yabançı əl Atatürkün tərcümeyi-halına müdaxilə etməkdən belə çəkinməmişdir. Alatürk haqqında «Yaşıl»da deyilənlər «Qırmızı»nın qəzəbinə gəlmışdir: «O, Azərbaycan xalqına dərin hörmət bəsləyir və Sovet Azərbaycanı ilə iqtisadi və mədəni əlaqələri daima inkişaf etdirməyə çalışırdı. Onun Azərbaycan SSR-nin Ankaradakı səfiri İbrahim Əbilov ilə şəxsi dostluğu və 1921-ci ildə Azərbaycan fəhlə və kəndli hökumətiinin Atatürkə yadigar göndərdiyi qızıl xəncər bunu göstərir»

«Qırmızı»nın məntiqinə görə Azərbaycanlı səfir ilə Atatürkün şəxsi dostluğu ermənilərin mənafeyinə zidd olduğu üçün ASE-yə həkk oluna bilməz.

«Qırmızı» tarixi hadisə və faktlara öz rəngində don biçir. Müqayisə üçün hər iki ASE-də Azərbaycan Dövlət Universiteti barədə yazılanlara diqqət yetirək.

«Yaşıl» da oxuyuruq: «Azərbaycan Dövlət Universiteti 1919- cu ildə təsis edilmişdir. Əvvəllər Bakı Dövlət Universiteti, 1922-ci ildən isə Azərbaycan Dövlət Universiteti adlanmışdır».

«Qırmızı» da deyilir: «Azərbaycan Dövlət Universiteti 1919-cu ildə inqilabi qüvvələrin, birinci növbədə bolşeviklərin, habelə mütərəqqi ziyalıların təşəbbüsü, mürtəce qüvvələrə qarşı gərgin mübarizəsi nəticəsində Bakı Dövlət Universiteti kimi təsis edilmişdi. Onun yaradılmasında Ə.Qarayev, S.Ağamalıoğlu fəal iştirak etmişdir».

«Yaşıl» da azərbaycanlıların yaşadıqları bütün ərazilər barədə məlumat tapa bilərsiniz. «Qırmızı» isə çox vaxt susmağı rəva bilmiş, bəzən də qonşu respublikalarda, ilk növbədə Ermənistanda əhalisi azərbaycanlılardan ibarət olan yer adlarını cildə daxil etməmişdir. «Yaşıl» da Ağbulaq «Ermənistan SSR Gorus rayonunda kənddir. Əhalisi azərbaycanlılardır» yazılıb. «Qırmızı» bu kəndi ixtisara salmışdır. «Yaşıl «üçün Azərbaycan eramızdan əvvəl doğulmuş və əbədiyyət ömrü qazanmış əzəmətli pəhləvandır. «Qırmızı» üçün Azərbaycan tarixi Azərbaycan Kommunist Partiyasının qurultaylarıdır. «Yaşıl»da

oxuyuruq: «Araz Kürün ən böyük qolu. Türkiyədə Bingöldağ silsiləsinin şimal yamaclarından başlanır».

Uşaqdan böyüyə hamıya aydındır ki, çayların uzunluğu mənbədən mənsəbədək olan məsafə ilə hesablanır. «Qırmızı» da bu qaydaya əməl edir. Ancaq Araz istisna olmaqla. «Qırmızı»nın «yer ölçənləri» arşını Ermənistandan qoyur. Araz haqqındakı məqalə belə başlanır: Zaqafqaziyada çay. Kürün ən böyük qolu. Axuryan çayı ilə birləşdiyi yerdən Bəhram təpə su qovşağının yaxınlığınadək təqribən 600 km məsəfədə Türkiyə və İranla dövlət sərhəddini təşkil edir».

«Qırmızı» Arazın ölçü qaydasını nə üçun pozduğunu özü həmin məqalədə belə izah edir: «Arazın Axuryan çayının mənsəbinədək olan hissəsi Türkiyə ərazisindədir». Elə çıxır ki, günah Arazdadır ki, Ermənistana «düşmən» torpağından axıb gəlir.

Məlumdur ki, DQMV Nəriman Nərimanovun qəti etirazına baxmayaraq, 1923-cü ildə iyul ayının 8-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin dekretinə əsasən yaradılmışdır. «Qırmızı» ASE üçün isə 1923-cü il... eramızdan əvvəl başlayır.

DQMV barədə məqalədə oxuyuruq: «Əlverişli coğrafi şərait hələ daş dövründən insanların Dağlıq Qarabağda məskən salmasına səbəb olmuşdu... III-V əsrlərdə Dağlıq Qarabağda feodal münasibətlər yaranmış, İU əsrdən xristianlıq yayılmağa başlamışdır... XI əsrin ortalarından XIII əsrin ikinci yarısına qədər Dağlıq Qarabağ Səlcuqilərin hakimiyyəti altında olmuşdur. XIU əsiin 30-cu illəıindən Dağlıq Qarabağı monqollar, XIU əsrin sonlarında isə Teymurun qoşunları işğal etdi. 1813-cü ildə Gülüstaıı müqaviləsinə əsasən Şimali Azərbaycanın tərkibində Dağlıq Qarabağ da Rusiya ilə birləşdirildi».

Qədim Qarabağ tarixini 1923-cü ildə bolşeviklərin təşkil etdiyi vilayətlə əvəz etməyə nə ad vermək olar?

«Yaşıl»a görə Ararat, türkcə Ağrıdağ Türkiyə ərazisində dağdır, Araz vadisindədir, Araz vadisi isə tarixən Azərbaycana məxsus olmuşdur. «Qırmızı»ya görə Ağrıdağ Türkiyənin

şərqində, Van gölündən şimalda, Ermənistan yaylasının orta hissəsində dağ silsiləsidir.

«Yaşıl» və «Qırmızı» ASE-nin «A» marşurutu ilə səyahətimiz haşa çatır (Teyyub Qurbanın bu «səyahəti» daha geniş yer tutur, mən ancaq bəzi parçalarını bura köçürdüm -A.) Cildləri qatlayıb fikrə dalırıq. İki kitabın səhifələrində yazılanları bir daha təhlil edirik. «Yaşıldan sanki «Əsrimizin Səyavuşu» boylanır. Səhifələrində Heydər Hüseynovların, Şıxəli Qurbanovların, Ziya Bünyadovların dəsti-xətti görünür. «Qırmızı» yalnız və yalnız Əliheydər Qarayevlərlə Stepan Şaumyanların sövdələşməsi dastanıdır.

Yaşıl, qırmızı... Bu rənglər barədə Rəsul Rza məşhur «Rənglər» silsiləsində hamıdan yaxşı deyib:

Yaşıl bir udum su, insan qayğısı.

Qırmızı zəfər bayraqlarının rəsmi keçidi» («Yaşıl rəngin işığı» kitabında).

***

Bu iki ensiklopediyanın qarşılaşdırmasıyla tanış olduqda mənə onsuz da aydın olan bir məsələ daha da aydınlaşdı. Yazıçı Altay Məmmədov «Yaddaş səhifələri» adlı xatirələrində yazır ki atamla ensiklopediyayla bağlı bir söhbəti zamanı ondan xəbər alıb:

«Rəsul müəllim, müəyyən yerdə güzəştə getmək lazım idi. Hamımız yaxşı bilirik ki, Azərbaycan ensiklopediyasının təşkilatçısı, yaradıcısı Sizsiniz. Birinci kitabın çoxdan hazır olduğunu da bilirdik. Onu da bilirdik ki, bir neçə termin üstə düşən mübahisələr cildin çıxmasına mane olub.

Prinsipial məsələ idi, - dedi Rəsul müəllim» («Xatirələr işığında» kitabından).

Məsələ də bundadır. Söhbət, əlbəttə, bir neçə termindən deyil, ensiklopediyanın ümumi ruhundan gedirdi. Bu isə prinsipal məsələ idi və Rəsul Rza bu işdə heç bir güzəştə getməzdi.

***

Hər dəfə hansısa işdən gedərkən ruhdan düşmədiyi kimi bu dəfə də Rəsul Rza aldığı mənəvi zərbənin nə qədər ağır olmasına baxmayaraq, bədbinləşmədi. İşdən azad edildiyindən qısa sürə sonra ikinci dünya müharibəsi illərindən bəhs edən «Min dörd yüz on səkkiz» adlı iri poema, «Çinar ömrü», «Babək», «Şuşa» və başqa şeirlər, şeir silsilələri, «Qız qalası» poeması, Əzizə Cəfərzadənin «Aləmdə səsim var» romanı haqqında böyük məqalə, cavan şairlər haqqında təqdimatlar və rəylər yazdı. Bakı kinostudiyası onun haqqında «Eldən soruş» adlı film çəkdi (Ssenari müəllifi Toğrul Cuvarlı, rejissor Ənvər Əbluc), Moskva televiziyası veriliş verdi, Toğrul Nərimanbəyov şairin yeni portretini işlədi. Mənim övladlarım Tural və Güneldən, Fidanın qızı Ayseldən başqa iki yeni nəvəsini Təranənin Nigar və Bayaz adlı qızlarını da gördü. Turala və Ayselə şeirlər həsr etdi.

Turalım!
Yəqin ki, sən
bir zaman
kitablarımı varaqlayıb
bəzi sətirlərə güləcəksən.
Deyəcəksən:
necə olub ki, babam
yepyekə adam,
şikayətlənib
ağcaqanaddan,
xərçəngdən, şəkərdən,
dilənçilərdən,
paxıllardan.
Oxuyacaqsan kitablarımı,
Duyduğun, bildiyin
nə yalnız giley olacaq,
nə nöqsan.
Yox.
Sətirlərimdən

bu günün havasını da duyacaqsan.
Necə olsa yenə,
ordakı sözlərdən
bəziləri qəribə gələcək sənə.
Başa düşməyəcəksən,
yəqin ki,
gələcəyin adamı - sən
başa düşmədim deyib
«izm «lərlə damğalamayacaqsan
onları.
Lüğət varaqlarını,
tarix yarpaqlarını,
elm soraqlarını
gəzəcək gözlərin
aşağı, yuxarı.
Gələcək o gün,
insan arzusuyla
imkan
həmahəng olacaq.
Yoxalacaq özümlük,
bayağılıq.
İnsanlar daha ünsiyyətli olacaq,
daha xoşqılıq.
Nə pisə yaxşı deyəcəklər,
nə yaxşıya pis.
Aydın, açıq, mərd olacaq
Ürəklər, əməllər təmiz.
Unutma, Turalım, ancaq
unutma ki, bu gün biz
çox çəkmiş,
çox dözmüşük ki,
xoşbəxt olasınız siz.

(1968)

Ayselə həsr etdiyi şeirdə də eyni hisslər, dünyanın gələcəyinə imidlər səslənir:

Gəl oturaq, baba, nəvə.
Sən de bildiklərini,
qulaq asım.
Mən də sənə söyləyim
dünyanın işlərindən;
gizli bir şey qalmasın.
Yol varmı baxaq, görək,
mənim qoca dünyamdan
sənin körpə dünyana.
Sən yuxular içində,
nağıllar dünyasında.
Mən bu əsrin təzadlı
sevincində, yasında.
Ömrümüzün yolları
ancaq bircə yönədir.
Geriyə nə cığır var,
nə ləpir var,
nə eniş.
Ümidsiz olma, bala!
Hər cəfaya, inciyə
Hər çətinliyə dəyər,
ömrü bir insan kimi
doğru yaşasan əgər.

(1973-74)

Çox illər sonra Tural da babası haqqında uşaqlıq xatirələrini yazıb çap etdirdi:

«Rəsul Rzanın ədəbi yaradıcılığına bələd olmaqdan əvvəl onu babam kimi, ailəmizin ağsaqqalı kimi tanımışam. İlk nəvəsi olduğum üçün uşaqlıqda nazımla oynayan, şıltaqlıqlarıma acıqlanmayıb gülümsünən mehriban bir baba kimi. 60-cı illərin axırlarında babam Azərbaycan Ensiklopediyasının Baş redako-

ru vəzifəsində çalışırdı. Sonralar bu dövr ilə daha yaxından maraqlanarkən bildim ki, o vaxt Baş redaktorun otağında ensiklopediyanın hər məqaləsi ətrafında qızğın mübahisələr gedirmiş, fikir ayrılığı, münaqişələr olurmuş. Belə mübahisələrdən biri baş verən zaman mən də babamın qəbul otağında katibənin yanında oturub şəkil çəkirdim. Katibənin başı telefon zənglərinə qarışarkən mübahisənin şıdırğı çağında iclas otağının qapısını açıb: «Bəsdirin də iclas etdiniz. Yorulmadınız?», - deyə sual verdim. Ehtirasların çoşğun məqamında altı yaşlı uşağın içəri daxil olub bu sadəlöhv, gülməli sözləri deməsi mübahisələrdən yorulmuş adamların sifətində təbəssüm oyatdı. Babam da gülərək: «Doğrudan da bu günlük bəsdir, - dedi, – hamımız yorğunuq. Dağılışaq. Təklikdə götür-qoy edib sabah görüşərik, bir fikrə gələrik». Bu təklif hamının ürəyindən oldu.

Həmin səhnə xatirimdə dumanlı qalsa da, iclas iştirakçılarından bəzilərinin gələcəkdə mənə bu hadisəni dəfələrlə danışması sanki gözüm qarşısındakı dumanı qovur, rəngləri aydınlaşdırır.

Babamın ayrı-ayrı sözləri, ifadələri, tövsiyyələri yadıma düşür: «Tural bala, həştad yox, səksən». «Sənə söz deyəndə cavabında «indi» yox, bu saat, yaxşı, baş üstə söylə. «İndi» düz deyil, bıı ruscadan tərcümədir. Çalış ki, hamıya kömək edəsən, özün heç kimdən kömək umma. Möhkəm ol!» («Xatirələr işığında» kitabından).

***

Rəsul Rza o illərdə Moskvada Nəsimi yubileyində, Gəncədə Nizami günlərində, Şamaxıda Sabir günlərində, Bakıda dostu Sabit Rəhmanın 70 illik yubileyində iştirak etdi, mənim teatr və kino premyeralarıma gəldi.

Doğrudur, bu illər xəstəliyi də şiddətləndi. Neçə ay xəstə yatandan sonra onu qatarla Moskvaya apardıq. Sağalacağına ümid azdı. Hətta onu Bakı vağzalında ötürməyə gəlmiş xeyli

adam yəqin ki, Rəsul Rzayla əbədi vidalaşdıqlarını zənn edirdilər. Bu acı günlərimiz haqqında da vaxtilə «Sizsiz»də yazmışdım.

Onu Moskva həkimləri xilas etdi. Ancaq xəstəliklər yenə də canından əl çəkmirdi.

Bakıda xəstəxanada yatdığı günlərin birində evimə zəng olundu.

-Sizinlə Heydər Əliyeviç danışacaq - dedilər.

H.Ə.Əliyev atamın səhhətini xəbər aldı, dedim ki, çox zəifdir, xəstəxanadadır. Sonra H.Ə.Əliyev dedi:

-Mən Suslov yoldaşla da, Çernenko yoldaşla da ətraflı danışmışam. Fikirləri belədir ki, Rəsul Rza Sosialist Əməyi Qəhrəmanı adına tamamilə layiqdir, bu barədə heç bir şübhə yoxdur. İşin çətinliyi ondadır ki, bizim respublikamızda artıq iki yazıçı bu adı alıb, amma 40 milyonluq Ukraynada da bu ad yalnız iki yazıçıya verilib. Hər halda biz yoldaşları qane edə bildik və artıq qərar qəbul olunub. Təbrik edirəm. Bu barədə atanıza deyin, hər halda bu xəbər də ona mənəvi cəhətdən kömək olar.

-Çox sağ olun, Heydər Əliyeviç, - dedim, bütün ailəmiz adından Sizə dərin minnətdarlığımızı bildirirəm.

Axşam saat doqquz radələri idi, mən dərhal xəstəxanaya cumdum. Bu axşam orda Fidan növbə çəkirdi. Xəstəxananın qapısı, darvazası çoxdan bağlanmışdı, barını aşıb birtəhər özümü içəri sala bildim.

Fidan mat qaldı:

-Bu vaxt sən hardan gəlib çıxdın bura?

-Yatmayıb ki?

-Yox.

Atam gözlərini güclə açdı. Onu öpdüm:

-Təbrik edirəm, - dedim. - Qəhrəman olmusan.

O zəif gülümsündü:

-Sağ ol, - dedi və təzədən gözlərini yumdu.

Rəsul Rzanın 70 illiyi ilə əlaqədar olaraq Sosialist Əməyi Qəhrəmanı və üçüncü Lenin ordeni ilə təltif olunması haqqında

L.İ.Brejnevin imzaladığı fərman qəzetlərdə dərc olunan kimi xəstəxanaya Azərbaycanın və ölkənin hər yerindən məşhur ədəbiyyat və sənət xadimlərindən tutmuş adi oxucularacan yüzlərlə teleqramlar, təbriklər, kağızlar gəlməyə başladı.

Anam:

-Mən heç bilməzdim ki, xalq Rəsulu bu qədər sevir, - dedi.

-Xalqımız öz şairlərini çox sevir, - dedim, xüsusiylə o vaxtlarda ki, onları hökumət də sevir.

Atamı bu vaxtacan qaldığı adi palatadan lüks palatasına keçirmək istədilər. Razı olmadı.

***

Xəstəxanadan çıxandan bir neçə ay sonra 1980-ci il dekabrın 4-də o vaxtkı Ali Sovetin binasında H.Ə.Əliyev bu nişanı Rəsul Rzaya təqdim edərək dedi:

- Rəsul Rza Azərbaycan sovet ədəbiyyatının görkəmli nümayəndələrindən biridir. O, gözəl şairlərimiz Səməd Vurğun və Süleyman Rüstəmlə birlikdə Azərbaycan Sovet poeziyasının banilirindən biri hesab olunur...

...Rəsul Rza yaradıcılığında həm Azərbaycanın tarixi, həm də yeni sosialist həyatı, sovet quruculuğu illərində respublika zəhmətkeşlərinin fəal işi ətraflı və yüksək bədii səviyyədə əks olunmuşdur...

...Rəsul Rza poeziyası zəmanəmizdə çoşğun inkişaf edərək son vaxtlar respublikamızda baş verən müsbət prosesləri parlaq şəkildə əks etdirir, zəhmətkeşlərin ideya-siyasi və estetik tərbiyəsinə kömək edir...

...Rəsul Rzanın bədii yaradıcılığı respublikamızda hamı tərəfindən sevilmiş, ona hüsn-rəğbət və hörmət, ölkəmizdə və xaricdə böyük şöhrət qazandırmışdır».

Cavab nitqində Rəsul Rza Məhəmməd Hadinin məşhur beytini xatırladı: «Qoymuş milət imzasını övraqi-həyata, Yox

millətimin xətti bu imzalar içində» və dedi ki, bu gün millətimizin xəttini tarix səhifələrində gördüyü üçün qürur duyur.

«Bu gün mən Azəıbaycanın ən xoşbəxt oğullarındanam, - dedi. - Bu ad hər şeydən əvvəl sovet ədəbiyyatına, mədəniyyətinə, o cümlədən Azərbaycan ədəbiyyatına, sənətinə partiyanın verdiyi yüksək qiymətdir. Bu mükafat yalnız mənim əməyimin təqdiri deyil, ilk növbədə Azərbaycan sovet poeziyasına verilən qiymətdir. Mən düşünürəm: Azərbaycan torpağı həmin torpaqdır, adamlar həmin adamlardır. Lakin insanlar bu torpağı dəyişmiş, özləri dəyişmişlər. Bu nailiyyətlər Azərbaycan partiya təşkilatının, onun Mərkəzi Komitəsinin, MK bürosunun böyük, yorulmaz işinin nəticələridir. Bu yüksək ad məni daha böyük ruh yüksəkliyi ilə çalışmağa çağırır. Partiyamızı əmin edirəm ki, bütün qüvvəmi və bacarığımı xalqıma xidmət işinə sərf edəcəyəm».

Bu Rəsul Rzanın son çıxışı idi və Ali Sovetin binasında təltifat mərasimi başlamazdan qabaq həkim ona ürəyi möhkəmləndirən iynə vurmuşdu.

Dörd aydan sonra 1981-ci il aprelin 1-də Mərdəkan xəstəxanasında həyatla vidalaşdı.

Xəbər ilan kimi
çaldı qulağımı.
Telefonun dəstəyi
əlimdə boğuldu.
Ölüm nə ucuzdu...
nə boldu...
Bu Mərdəkanın yolu nə uzaq oldu.
Bu, deyəsən, dünyada
ən uzaq yoldu
Mərdəkanda xəstəxana...
Bu otaqdan çıxıb son haray,
qapılar qalıb taybatay,
xəbərin yekəliyindən
Palatanın cırılıb yaxası.

Çarpayıda
Rəsul Rzanın üzünə çəkilib
yüz illərin ağ yuxusu.
Anar təslim olub indicə
qısdıb güncə.
Saçlarından, qaşlarından, üzündən
axıb tökülür,
neçə ildir ürəyində
gəzdirdiyi qorxusu.
Gözümün qabağında
bir çılpaq dünya qalmışdı,
Bir də üstünə ağ çəkilmiş
Rəsul adlı xatirə.
Bir andaca
Göyə hopmuşdu mavi gözlərinin rəngi,
Dənizi yun kimi didirdi
Mübarizəsi, cəngi.
Balacalaşıb taxta çarpayıya sığmışdı
Şeirimizin nəhəngi.
...Ömür gecə-gündüz olduğu kimi
Var hər ömrün öz ağı, qarası.
Ötən şirin ömründən
Şəkər xəstəliyi qalmışdı ona,
bir də ürək ağrısı.
Ağrılı ürəyində
Hələ nə qədər yazılası yazı,
Hələ neçə illər
Sevgili ölkəsinin çəkiləsi nazı,
Stolunun üstündə ağ kağızı.
Şair qocalmır
Ömrü bir yaz olur, qurtarır
Şair ölmür
Qara qələm kimi yazılır qurtarır.

(Fikrət Qoca «Rəsulsuz ilk dəqiqələr» poemasından)

Fikrət haqlıdır: «Şair qara qələm kimi yazılır qurtarır». Burada, Mərdəkan xəstəxanasında yatdığı müddətdə də ömrünün son ayında da şeirlər yazırdı. Müharibə günləri haqqında «Krım xatirələri» şeir silsiləsi, ayrı-ayrı şeirlər ömrünün son həftələrinin, hətta son gününün məhsullarıdır.

Olmasın, olmasın
Könül qaranlığı,
Ömrün qəmli günləri
Damcı-damcı süzülür
Arzuma, ümidimə.
Arxada qalan illər
İncikli yollar boyu
Uzaqlaşıb qərq olur
Xatirələr gölünün
Dumanlı sükutuna.
Hər gün yaxınlaşdırır
Axır mənzilə bizi.
Sahilini göstərir
Artıq ömür dənizi.
O sahildə nələr var,
Varmı xəbər gətirən.
Ordan geri qayıdan?
Nə yel qanadlı quş var,
Nə təyyarə, nə tren.
Ömür bir küçədir ki,
Bir tərəfli hərəkət
onun sərt qanunudur.
Günlər onu hər qarış udur...

(1981)

Səhərlərim açılır,
könlüm açılmır nədən?
Nəfəs alıb verdikcə
ömürdür keçib gedən.

Sarı-sarı yarpaqlar
Budaqlarda titrəşir.
Onları yavaş-yavaş
Yuyur yağış mürdəşir.
(mart 1981)

Ölümündən bir gün qabaq martın 31də yazdığı son şeirini əvvəllərdə gətirmişdim.

İstəyirdim ki, bu son şeirlərindən biri atamın dəfn mərasimində də də səslənsin. Partiya məmurlarından biri şeirlə tanış olub:

-Axı bu çox bədbin şeirdir, - dedi. Məgər dəfn mərasimində nikbin şeir səslənməlidir? - dedim.

-Necə bilirsən, bu Rəsul Rzanın ən güclü şeirlərindəndir?

-Bilmirəm güclüdür ya yox, amma bu onun SON şeirlərindəndir. Daha şeir yazmayacaq.

Həmişə olduğu kimi yenə də şairin SON şeirlərinə şübhəylə yanaşılırdı. Amma hər halda qərara alındı ki, bu şeirlərdən birini Cabir Novruz matəm mitinqində çıxış edərkən oxusun.

«Olmasın, olmasın» sözləriylə başlayan şeiri oxudu Cabir. O gün mənim qulaqlarımda isə atamın başqa bir şeiri daha əvvəllər yazdığı və vəsiyyəti kimi dərk etdiyim şeiri səslənirdi:

Mən güllü bir may səhəri doğulmuşam.
Bəlkə, getdim bir yanvar axşamı.
Tabutuma ipək salmayın!
Dəfnimə toplamayın izdihamı.
Bir ovuc torpaq üstünə qoyun başımı
Mən o torpağı sevmişəm.
Ancaq məhəbbətim
nə sərgiyə qoyulan bir tablo olub
nə parıltısı diqqət çəkən üzük qaşı.
Mənim sevgim sevgi idi

sadə, yaxşı.
Mən anamın südü kimi,
atamın öyüdü kimi
sevdim bu torpağı.
Bir ovuc torpaq əsirgəməyin məndən.
Mən ancaq onu aparacam
nəsil-nəsil insanlara
çeşid-çeşid nemət verən
bu vətəndən!
Mən öləndə ağlamayın.
Mən öləndə gülməyin.
Yox, nəyə gərəkdir.
Mən sağlığımda çox gülmüşəm,
çox ağlamışam.
Ancaq o həzin axşam
məni yalqız qoyub
əbədi sükut evində,
qayıdanda geri
açın, taybatay açın
otağımda pəncərələri!
Çıraq yanmasın.
Səssiz çıxın otaqdan
Elə çıxın ki, sükut oyanmasın.
Ölülər geri dönə bilsəydi,
mən bu otağa gələrdim.
Burda uzun bir dəqiqə dincələrdim.
Cənnətdə işim yoxdur.
Getmərəm, dəvət etsələr belə!
Cəhənnəmi söndürüb,
bütün ölülər ora getsələr belə...
Mən xoşbəxt olardım
tabutumu özüm apara bilsəm!
Adımı, xatirəmi
yazılı nitqlərdən,
sərin ahlardan qopara bilsəm...

«Mən xoşbəxt olardım tabutumu özüm apara bilsəm!» - bu sözlərdə Rəsul Rzanın bütün təbiəti ifadə olunub - məğrurluğu, tənhalığı, hikkəsi.

***

Rəsul Rzanın vəfatıyla əlaqədar olaraq qəzetlərdə xeyli yazı çıxdı:

«Qələm dostumuz Rəsul! Biz səni bütün varlığınla sevdiyin böyük anamız, müqəddəs Vətən torpağına tapşırırıq. O torpağa ki, səni böyük bir şair kimi yetirib. O torpağa ki, səni ədəbiyyat aləmində yaradıcılıq zirvələrini fəth etməyə pərvazlandırıb. O torpağa ki, onun yetirəcəyi gələcək yeni nəsillər əsərlərinə görə səni hörmətlə, məhəbbətlə yad edəcəklər.

Süleyman Rüstəm»

«Rəsul Rza vəfat etdi. Bu xəbərə inanmaq, alışmaq çox çətindir. Mən Rəsul Rza barədə düşünürəm, onun işıqlı simasını gözümün qarşısına gətirirəm və təskinliyi onda tapıram ki, Rəsul Rzanın güclü istedadı bütün öınrü boyu eyni qüvvətlə, eyni təravətlə yaşayıb yaratdı. O, sözün əsl mənasında novator şairdir və onun yaradıcılığı sovet mədəniyyətinin zirvələrindən olmaqla bərabər, Azərbaycan xalqının böyük milli koloritilə, milli poeziyamızın ən yaxşı ənənələri ilə son dərəcə sıx surətdə bağlıdır. Onun poeziyası hər cür sadəlövh fəlsəfəçiliyə, saxta xəlqiliyə, ucuz heyranlığa zidd olan həyatın real hadisələrindən doğub mərdanə romantika ilə uzaq üfüqlərə qanadlanan poeziyadır. Nə qədər ki, dilimiz yaşayır, nə qədər ki, poeziyaya mənəvi ehtiyacımz var, Rəsul Rza da bizimlə olacaq.

İlyas Əfəndiyev»

Rəsul Rza ağlının, şüurunun, fəlsəfəsinin, milli varlığının təcəssümü olan çağdaş şeirimizin ən yüksək dağ zirvələrindən

biridir... Rəsul, qardaşım! Mən sənə «əlvida» demirəm... Çünki sən bizimlə də, bizdən sonrakılarla da çiyin-çiyinə yaşayacaq, insan səadəti, insan ləyaqəti uğrundakı döyüşlərini davam etdirəcəksən.

Abbas Zamanov»

Özünü xalqının zərrəsi sayan, həyatını xalq işinə həsr edən, xalqın kədəri ilə kədərlənib, sevinci ilə sevinən adamlar öz həyatını deyil, xalqın həyatını yaşayır. Belə adamlar fərdilikdən çıxıb şəxsiyyət səviyyəsinə yüksəlir. Bu gün tabutu qarşısında baş əydiyimiz Rəsul Rza xalqımızın yetişdirdiyi belə böyük şəxsiyyətlərdən biri idi. Həm ölməz əsərləri, həm də şəxsiyyəti ilə ölməzlik qazanmış qüdrətli sənətkarımızın ölümü onun ölümünün deyil, ölməzliyinin təsdiqidir.

Xalq şairini xalq öz çiyinlərində əbədiyyət dünyasına yola salırkən bu ölümə ölüm demək olarmı?

Bəxtiyar Vahabzadə»

O, şeir, sənət mülkündə çox sənətkarı sevdi, səcdə elədi. Lakin heç kimə oxşamadı. Dayandı ulu babaları, öyündüyü sənətkarlarla Nəsimi, Füzuli, Sabirlə yanaşı, onların varisi, kiçik oğlu Rəsul Rza! Bu gün budur bizə təskinlik, təsəlli.

Hüseyn Abbaszadə»

«Ölüm qorxuludurmu? Kəm, naqis və səliqəsiz yaşayanlar üçün əlbəttə, qorxuludur. Mərd və gözəl yaşayanlar, zəhmətinin və istedadının qüdrətini, zəka cövhərini ülvü bir amala həsr edənlər üçün isə ölüm o qədər də qorxulu deyil, bəlkə qaynar və mənalı bir ömrün yekunudur. Buna görə bu gün biz Rəsul Rzanın çox sevdiyi və dönə-dönə vəsf etdiyi əlvan çiçəklərə qərq olmuş tabutu başında kədərlə birlikdə qürur hissi keçiririk. Ömrü onun kimi gözəl yaşayıb gözəl başa vurmaq haqqında düşünürük... Rəsul Rza onu yetirən Azərbaycan torpağına

bənzəyirdi. Bu torpağın nadir möcüzələrindən biri idi... Qəribədir: Rəsul Rzanın vəfatı 1 aprel gününə təsadüf etdi. Bu gün biz aldığımız, eşitdiyimiz xəbərlərin çoxuna inanmırıq, aldanmaq istəmirik. Rəsul Rzanın yalnız cismani öldüyünə inanırıq: onun mənəvi ömrünə, xalq yaddaşında yaşayacaq böyük, parlaq şəxsiyyətinin, məğrur, möhtəşəm, kişi poeziyasının ölümsüzlüyünə inananlar isə heç vaxt aldanmayacaqlar.

Xəlil Rza Uluturk»

«Güllərin altında qalmışdı ölüm...
Çiçək tabutunda təngnəfəs olub,
Elə bil saralıb solmuşdu ölüm...
Gözləri dolmuşdu qərənfillərin,
İşığı sönmüşdü qərənfillərin...
Səni tanıyandan bəri
Belə dərdli, belə yazıq görməmişdim çiçəkləri.
Fəxri qaravulda dayanan güllər
Gizli-gizli, xısın-xısın ağlayırdı
Fəxri qaravulda dayanan Vətən
Səni çiçəklərlə qucaqlayırdı.

Isa Ismayılzadə»

«Azərbaycanın xalq şairi Rəsul Rza fərvərdin ayının I3-də Bakıda vəfat etmişdir. Bu görkəmli söz ustası, bizim insanpərvər və mütərəqqi ədəbiyyatımıza yeni məzmun ilə bərabər yeni ifadə tərzi və yeni sözlər gətirmişdir. O, müasir Azərbaycan şeirinin əsl mənada novator şairi idi. İllərdən bəri öz xalqının mübarizə və həyatından həmişə ilham alan, zəmanəmizin böyük ruhlu, Şərq xalqlarının böyük şeir ustası, mübariz Rəsul Rzanın acı ölüm xəbəri bizi də sarsıtmışdır.

Onun şeirli həyatını örnək etmək arzusu ilə xatirimizdə əziz saxlayacayıq».

Hüseyn Sadiq
Tehran»

***

Evimizə, Yazıçılar İttifaqına Azərbaycanın hər yerindən, Moskvadan, SSRİ-nin başqa respublikalarından, Türkiyədən, İrandan axın-axın teleqramlar, məktublar gəlirdi.

«Rəsul Rzanın ölüm xəbəri məni dərindən kədərləndirdi. Biz höyük söz ustasını və müdrik sənətkarı itirdik. Mən Rəsul müəllimi yaxşı tanıyırdım. Moskvadakı çoxillik görüşlərimiz zamanı o mənim ən yaxın həmsöhbətim idi. Onun parlaq xatirəsi önündə baş əyirəm.

Çingiz Aytmutov»

«Böyük sənətkarın, əlçatmaz ustadın yaratdığı şeir və poemalar sosialist mədəniyyəti tarixinə, minnətdar oxucuların yaddaşına əbədi həkk olunub. Sizinlə birlikdə bu ağır itkiyə dərindən kədərlənirik, böyük yazıçı və insan Rəsul Rzanın işıqlı xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaqdır.

Şərəf Rəşidov
Daşkənd»

«Yarım əsrdən artıq duz-çörək kəsdiyim böyük şairin, mübarizə, məslək yoldaşımın və qardaşımın, ehtiraslı həyat vurğununun həyatla birdəfəlik vidalaşmağına inanmaq, bu ağır qüssəyə dözmək nə qədər çətindir. Rəsul Rzanın adı, Rəsul Rzanın böyük sənəti, - gözəllik, mərdlik, cəsarət, həyatı idrak poeziyasının əbədi, ölməz rəmzidir.

Mirzə Ibrahimov
Moskva»

«Çox ağır bir xəbər mənə də çatdı, mənim istəkli dostum Rəsul bizi tərk etdi. Dərindən kədərlənirəm. Təəssüflənirəm ki, bu günlərdə bir yerdə olub kədərinizi bölüşə bilmirəm. Rəsul Rza ölmədi, o əbədi dost və əbədi şairdir. Onun xatirəsini həmişə qəlbimdə yaşadacam.

Rəsul Həmzətov
Mahaçqala»

«Şərq xalqlarının parlaq poeziya ulduzu söndü. Böyük şairin və insanın böyük, xeyirxah ürəyi susdu. Azərbaycan xalqının mədəniyyətinə əvəzolunmaz itki üz verdi, onun dostları yetim qaldı. Əlvida, Rəsul, əlvida, əlvida.

Qara Qarayev
Moskva»

«Nigar Rəfibəyliyə.

Sirdaşınız Rəsul Rzanın ölümündən böyük bir hüznlə çox gec xəbər tutduq. Əziz Nigar xanım, mənim səmimi başsağlığımı qəbul edin. Toxtayın, həyat və poeziya sizdən hələ xeyli güc və igidlik tələb edəcək.

Sizin ***Zülfiyyə***
Daşkənd»

«Möhtərəm Anar bəy!

Bu gün Abbas Zamanov bəydən almış olduğum bir məktub bizi ələm və kədərə qərq etdi. Atanız Rəsul Rza bəyin vəfatı xəbəri bizləri də çox üzdü, kədərləndirdi. Başınız sağ olsun. Tanrı mərhuma qəni-qəni rəhmət eyləsin. Sizlərə başsağlğı və səbirlər dilər, acınızı paylaşarız. Ən dərin hörmətlərimlə, əfəndim.

Əli Yavuz Akpinar
Ərzurum. 17.04.1981»

«Salam əziz Anar qardaşımız!

Mən sizin ata-ananızın ülvi ana dilindən süzülən saflıqlarıyla müqəddəsləşən, kamilləşən, Sizdən xəbərsiz yetişən sizlərdən çox-çox uzaqlarda oxucunuz, qərib bacınızam, Mən Şəhriyarın nəvəsinə ana dilindən dərs deyirəm. Bu torpağı Rəsul Rzanın ev muzeyinə qoymaq üçün onun nəvəsi mənə verdi... Sizdən Şəhriyar və mən hər iki şairin və sizin öz əsərlərinizdən birini xahiş eləyirik. Çox sağ olun.

Hörmətlə ***Çinarə***
Təbrizdən»

«Əziz Anar! Sənin gözəl qəlbinə dəyən zərbələrə qarşı möhkəm və mətin dayan. Bağışla ki, başına gəlmişlər və gələnlərə dərhal hay vermədim. Abbas Abdulla burda idi, onunla sənin haqqında, sənin ailən haqqında, Rəsul Rza haqqında xeyli danışdıq... Həmişə hay verməsəm də, həmişə səninləyəm.

Məhəbbətlə, Sənin dostun

Ivan Draç
Kiyev»

«Hörmətli Anar Rəsuloğlu!

Atanızın, gözəl sovet şairinin, Azərbaycan nəğməkarının vəfatı münasibətilə mənim ən səmimi başsağlığımı qəbul edin. Sizin atanızla 30-cu illərdə Bakıda, Azərkinonun kinofabri-kində işlədiyim zaman tanış olmuşdum, sonralar isə Moskvada görüşmüşdüm və onun haqqında bir yazıçı və insan kimi ən xoş xatirələrim var. Mərhum şairin kədərlənmiş oxucusu və həm-yaşı kimi bütün ailənizə dostluq salamları göndərirəm.

Aleksandr Kron
Moskva, 01.05.1981»

«Əziz Anar. Rəsul poeziyası torpağımızdan axan nəhəng bir çaya bənzəyir. Rəsul qəlbi susdu. Rəsul nəğməsinin ömrü torpağımızın ömrü qədərdir. O, bir vulkan dağı kimi yaratdıqlarını torpağın üzərinə səpələyib öz qəlbinin odunu torpağın dərinliklərinə çəkdi. Rəsulun itgisi əvəzedilməzdir. Təsəlli isə onun sənətinin əbədiliyidir. Sənə, bütün ailənizə, Rəsul sənətini sevənlərin hamısına başsağlığı verirəm, Rəsul şəxsiyyətinə, Rəsul sənətinə dərin hörmətlə baş əyən

Məmməd Araz»

***

O günlərə qayıtmaq mənimçün çox ağırdır. «Sizsiz»də o iztirablı günlərimizin ayrıntıları haqqında ətraflı yazmışam.

Bu vaxt anam da ağır, sağalmaz xəstəliyə düçar olmuşdu, Bakıda xəstaxanada yatırdı. Atamın ölümünü düz yüz gün ondan gizlətdik. Nigar Rəfibəyli dünyadan Rəsulun ölümündən xəbərsiz gctdi.

Nigar xala,
niyə demədim sənə:
Rəsul öldü...
Niyə aldım əlindən
neçə il bir yastığa baş qoyduğun
acıdil, alagöz ərinin üstündə
dil deyib,
diz döyüb
ağlamaq haqqını?
Eh, Nigar xala...
Eh, Rəsul əmi...
Fələk də ayıra bilməzdi sizi
bu dünyada
bir-birinizdən.
İndi o dünyada
necə tapacaqsınız bir-birinizi?
Necə,
necə Nigar xala?
Bəlkə,gəldiyimiz bir dünyanı unutduğumuz tək
getdiyimiz dünyada da unuduruq
gəldiyimiz bu dünyanı.
Hələ soyumamış meyitinin yaddaşından
çıxmayıb ki, Rəsul əmi?
Yerişi ağır, ayağındakı yaradan azacıq axsaq,
oturuşu xan oturuşu,
ürəyi pambıq,

dili bıçaq,
gözləri ala...
Görəndə tanı,
Tanı, Nigar xala...

(Vaqif Səmədoğlunun şeirindən)

***

1981-ci il iyulun 10-da Nigar Rəfibəyli də dünyasını dəyişdi.

Dəfələrlə qəbirstanlıqların Fəxriyə və adiyə, birinciyə və ikinciyə bölünməsinin, ölülər arasında belə ayrı-seçgilik salınmasının əleyhinə olsa da Rəsul Rza Birinci fəxri xiyabanda dəfn olunmuşdu. Vəfatından iyirmi gün qabaq Xalq şairi adına layiq görülmüş Nigar Rəfibəylinin isə orada dəfn olunmasına izn verilmədi. İkinci fəxri xiyabanda dəfn olunması qərara alınmışdı. Buna da mən və bacılarım razı olmadıq. O vaxt Mərkəzi Komitənin məsul işçilərindən birinə:

- Yox, dedim əgər atamın yanında basdırmağa icazə verilmirsə, mən onu ümumi qəbirstanlıqda, öz anasının və əzizlərinin yanında basdıracam.

Məni çox dilə tuldularsa da, məhz belə etdik, onu anasının, xalsının, dayısının, dayısı oğlanlarının yanında, başı çox bəlalar çəkmiş Rəfibəylilərin arasında dəfn etdik. Rəfibəylilər haqqında dəyərli kitab yazmış, bu ailənin acı taleyiylə yaxından tanış olduqdan sonra həmin nəslə qəlbən bağlanmış Rəfael Hüseynov çox sonralar yazdığı bir yazısında deyir:

«1931-ci ildə, o çağkı Azərbaycan ədəbi gəncliyinin toplaşdığı əsas mərkəzlərdən olan «Maarif evi»ndə biri Göyçaydan, digəri Gəncədən gəlmiş iki gənc, Rəsulla Nigar ilk dəfə rastlaşdılar, toyları çox sonra qara ayaqlı 1937-nin fevralında olsa da, elə ilk rastlaşdıqları ildən qovuşdular.

Qovuşdular və yarım əsr birgə oldular. Birgə addımladılar, birgə mübarizə apardılar. Və heç birinin sevmədiyi

rejim onları yalnız öləndən sonra ayıra bildi. Rejim Rəfibəylilərdən son intiqamını aldı, Rəfibəylilərə son pisliyini etdi. İmkan vermədi ki, Rəsulla Nigar eyni məzarlıqda yanaşı uyusun. O məzarlıqda ki, orada Mirzə Cəlillə Həmidə xanım yanaşıdır. O məzarlıqda ki, orada Üzeyir bəylə Məleykə xanım yanaşıdır».

Yazımın mənim üçün ən ağır olan bu bölümünü Ramiz Rövşənin «Rəsul müəllimlə Nigar xanımın xatirəsinə» həsr etdiyi «AĞI»yla bitirmək istəyirəm:

Zalım dünya öz işində,
Gəlişində-gedişində
Gəl ağlayaq yetmişində
Sevgilitək ölənlərə.

Ürəyi min cür dərd görüb
Gözü min cür sifət görüb,
Gözəl-göyçək ömür sürüb
Gözəl-göyçək ölənlərə.

Keçib kolundan-kosundan.
Tikanların arasından,
Qan sızdıqca yarasından
Əldə çiçək ölənlərə...

(«Iki ömrün işığı» kitabında)

***

Sənətkar dünyasını dəyişəndən sonra onun şərəfinə ucaldılan ən möhtəşəm abidə əsərləridir. Şairin özündən sonra dünyada yaşayan xatirəsi onun qoyub getdiyi mətnlər, kitablarıdır.

1980-ci ildə Rəsul Rzanın 70 illiyiylə əlaqədar olaraq onun cildlərinin çap edilməsi nəzərdə tutulmuşdu. Atam çox

gözəl dərk edirdi ki, bu onun özü həyatdaykən çıxacaq son çoxcildliyi olacaq və bu nəşrə bir növ yaradıcı ömrünün yekunu kimi baxırdı. Ona görə də şeir və poemalarını beş cilddə tərtib etmişdi. Amma yenə də hansısa partiya, yaxud nəşriyyat məmurunun şıltağıyla bu Beş cildi iki cildlə əvəz etmişdilər. Atam bunu yalnız Birinci cild çapa imzalananda gördü və bərk əsəbiləşdi. Rəsul Rzanın seçilmiş əsərlərinin 1-ci cildinə baxanlar bir şeyə təəccüb qala bilərlər. Titul səhifəsində «Rəsul R. (?)Seçilmiş əsərləri. 2 cilddə» sözləri yazılmışdır. Ondan aşağıda kiçik annotasiyada isə «Xalq şairinin birinci cildinə ədəbi ictimaiyyətimizin rəğbətini qazanmış, həm ölkəmizdə, həm də ölkəmizin hüdudlarından uzaqlarda dönə-dönə çap olunmuş seçilmiş şeirləri daxil edilmişdir» cümləsi var.

Bu cümlədə mənim üç nöqtə qoyduğum yer kitabdakı mətndə bərk-bərk qaralanmışdır. Məsələ ondadır ki, bu yeıdə «ikicildliyinin» sözləri yığılmışdı. Dediyim kimi, Rəsul Rza yubileyi ərəfəsində aldığı bu son zərbədən çox sarsılmışdı və onsuz da ağır olan xəstəliyi bir az da şiddətlənmişdi. Bu barədə kəskin etirazına isə Mərkəzi Komitənin məmuru kobud cavab verərək onu daha da əsəbiləşdirmişdi. Mən bu söhbətin şahidiydim və atama: Sən heç əsəbiləşib eləmə, - dedim - bu məsələ sən istədiyin kimi həll olunacaq. Atam bir az sakitləşdi, bir neçə gün sonra: Sən məni belə arxayınlaşdıranda nəyə əsaslanırdın? - deyə soruşdu. Nəyə əsasladığımı özüm də bilmirdim, ancaq əmin idim ki, Rəsul Rzanın yubileyi ərəfəsində, ən yüksək dairələrdə onun könlünü qırmaq istəməzlər. O vaxtki ideoloji katib olan rəhmətlik Kamran Bağırova telefon etdim, məsələni ona dedim və o da görünür, H.Ə.Əliyevlə məsləhətləşib müsbət cavab verdi. Rəsul Rzanın sağlığında nəşr olunan son kitabını beş cilddə buraxmaq qərara alındı. Nəşriyyat isə artıq yığılmış kitabın titul səhifəsində «ikicildlik» sözünü qaraladı. Ancaq bir yerdə bu söz qalmışdı və bəlkə tələsdiklərindən, bəlkə də qəsdən, hikkələrindən atamın adını Rəsul R. şəklində vermişdilər. Nə isə...

Nə yazıq ki, Rəsul Rza «Seçilmiş əsərləri»nin ancaq iki cildini görə bildi, o biri cildlər onun ölümündən sonra 1982 və 1983-cü illərdə çıxdı. Moskvada çıxan ikicildlik «Seçilmiş əsərləri»ni də, Türkiyədə çıxan üç şeir kitabını, İranda çıxan «Mən torpağam» kitabını da görmədi.

Rəsul Rzanın vəfatından sonra iyirmi il ərzində onun bir neçə kitabı çıxdı «Mən torpağam» və «Çinar ömrü» adlı iki kiçik lirika vo uşaq şeirləri kitabları, «Duyğuların izi ilə» adlı məqalələri, xatirələri. «Kitabsevərlər cəmiyyəti»nin sədri Zərifə xanım Salahovanın xeyirxahlığı ilə «Eldən soruş» şeirinin on beş dildə miniatür nəşri işıq üzü gördü.

90 illiyi ərəfəsində sponsorların yardımı ilə bir neçə kitab buraxdırdıq. Bunlardan birini Rəsul Rza arzu edir və hazırlayırdı, amma nə yazıq ki sağlığında çap etdirə bilməmişdi «Dünya ədəbiyyatından tərcümələr» kitabını nəzərdə tuturam. Bu kitabda atamın ömrü boyu Şərq və Qərb ədəbiyyatından, klassik və çağdaş şairlərdən etdiyi tərcümələri topladıq.

Şair Çingiz Əlioğlu öz şəxsi təşəbbüsüylə Rəsul Rzanın rus dilində "Подснежник» adlı şeir toplusunu tərtib edib kitab şəklində buraxdı.

2000-ci ildə Pezident Heydər Əliyev cənablarının fərmanıyla Rəsul Rzanm 90 illiyiylə əlaqədar Yubiley Komissiyası yaradıldı. Xalq Yazıçısı Nazirlər Kabinəsi sədrinin müavini Elçin Əfəndiyevin sədr olduğu bu komissiya yubiley tədbirləri sırasında dövlətin maliyyələşdirməsi ilə şairin kitablarının da nəşr olunmasını qərarlaşdırmışdır. Bu kitablara lazımı vəsait ayrılmasında Baş nazir Artur Rəsizadənin, Maliyyə nazirimiz Əvəz Ələkbərovun xeyirxahlığını qeyd etməyi özümə borc bilirəm. Nəzərdə tutulduğu kimi uzun illərdən sonra Rəsul Rzanın kitabları yenə də latın qrafikasıyla çıxır. Azərbaycan Ensiklopediyası nəşriyyatı Rəsul Rza haqqında «Xatirlər işığında» adlı məqalələr, xatirələr toplusunu artıq nəfis şəkildə nəşr etmişdir. Arif Əmrahoğlunun redaktəsi ilə şairin beş cildlik «Seçilmiş əsərlər»i çıxdı.

Fatma xanım Abdullazadənin xeyirxah təşəbbüsüylə «Rənglər» şeir silsiləsi dörd dildə (Azərbaycan, rus, ingilis, fransız) ayrıca kitab kimi nəfis şəkildə nəşr olunmuşdur. Kitaba «Rənglər»dən başqa «Rəngli yuxular» silsiləsi də daxil edilmişdir. Rus dilinə şeirləri B.Slutski, D.Samoylov, Y.Morits, L.Toom, A.Axundova, Muza Pavlova, ingilis dilinə Aynur Hacıyeva tərcümə etmişlər. Fransız dilinə «Rənglər»i Hamlet Qoca, başqa şeirləri Şamil Zaman çevirmişdir. Təəssüf ki, diqqətsizlik ucbatından tərcüməçi kimi Hamlet Qocanın adı göstərilməmişdir.

«Azərbaycan» nəşriyyatı «Azərbaycanın tanınmış şəxsiyyətləri» seriyasında «Rəsul Rza, Nigar Rəfibəyli» foto-kitabını buraxmışdır. Hər iki Xalq şairinin ömür yolunu əks etdirən fotolarla və müxtəlif adamların onlar haqqında söylədikləri dəyərli fikirlərlə zəngin olan bu nəşrin tərtibçisi Nazim İbrahimovdur. Onun giriş sözüylə açılan foto-kitabda Rəfael Hüseynovun Rəsul Rza və Nigar Rəfibəyli haqqında ayrıca təsirli esseləri də verilmişdir.

Atamın xatirəsini əziz tutan, onun əsərlərinin və ona aid kitabların çapı üçün zəhmətlərini, səylərini, xeyirxahlığını əsirgəməyən bütün insanlara dərin minnətdarlığımı bir daha bildirmək istəyirəm.

Minnətdarlığımı Rəsul Rzanın və Nigar Rəfibəylinin sözlərinə yazılmış mahnıları və onların şeirlərini iki kompakt disk şəklində hazırlayan bəstəkar Gavanşir Quliyevə, onları araya-ərsəyə gətirən Etibar Babayevə, disklərin üzərində iki şairi təsvir edən şəkillər çəkmiş rəssam Vəfa Allahyarovaya da bildirmək istəyirəm.

Kompakt disklərə sənətşünaslıq doktoru, musiqişünas Zemfira Səfərovanın yazdığı ön sözdə deyilir:

«Səslər... oxuyan insan səsləri... İstər şeir, istər mahnı oxusunlar, nə qəribə assosiasiyalar yaradır, nə qədər qüvvətli, cazibəli təsir gücünə malik olur bu səslər! Xüsusilə də dünyalarını dəyişmiş insanların, sənətkarların səsləri... Bu gün bu səsləri yaşadan kasetlərdir, disklərdir. Kasetlərdə, disklərdə

səslər qaldıqca bu insanlar da yaşayır, bu gün bizimlə ünsiyyətdə olur, ömürlərini davam etdirirlər. Təqdim olunan disklərdə iki şairin Rəsul Rzanın və Nigar Rəfibəylinin şeirləri və sözlərinə bəstələnmiş mahnılar səslənir. Hər iki ustad şairin mahnı mətnləri axıcılığı, sadəliyi, musiqiyə yatımlılığı ilə Azərbaycanın ən görkəmli bəstəkarlarının gözəl mahnılar yaratmağa ilhamlandırmışdır. Bədii xüsusiyyətlərindən, üslubundan, musiqi dilindən asılı olmayaraq lirik səpkidə yazılmış «Qızıl üzük» («Üzüyümün qaşı firuzədəndir»), «Gözlərin aladır yar», «Bakı haqqında mahnı», «Laylay», «Ala gözlü yar», «Neyləyim», oynaq ritmli «Gəncəm», «İnsaf da yaxşı şeydir», dramatik səpgili «Yeddi çinar», «Gözlərinə de ki» və sairə mahnılarda sözün və bəstənin vəhdəti nəticəsində yaddaqalan, dəyərli sənət əsərləri yaranmışdır və məhz buna görə də onlar musiqimizin qızıl fonduna daxil olmuşdur... Disklərdəki mahnılar, habelə Rəsul Rzanın və Nigar Rəfibəylinin öz ifalarında, məşhur səhnə ustalarının ifasında dinlədiyimiz şeirləri bizi Sözün və Musiqinin ecazkar səslər aləminə aparır».

***

Atamın və anamın nəsildaşları Süleyman Rüstəm, Mirzə İbrahimov, Mirvarid Dilbazidən üzü bəri Şimali və Cənubi Azərbaycanın ən məşhur şairləri daxil olmaqla ədəbiyyatımızın bütün nəsillərinə mənsub olan əllidən artıq müəllif Rəsul Rzaya və Nigar Rəfibəyliyə şeirlər, Hüseyn Arif, Fikrət Qoca, Eyvaz Borçalı, Firuzə Məmmədli, Yusif Nəğməkar isə poemalar həsr etmişlər. Rus şairi Aleksey Markovun, alban şairi Dmitri Şuterekinin, tatar şairi Renat Xarisin, özbək şairi Normurad Nərzullayevin də Rəsul Rzaya həsr olunmuş şeirləri var. Bu şeirlərin bir qismi atamın sağlığında onun yubiley günlərində yazılmışsa da əksəriyyəti hər iki şairin vəfatlarından sonra yazılmış yanıqlı ağılardır.

Ən son zamanlarda mənə məlum olan iki şeir isə çox-çox qabaqlar iyirminci və otuzuncu illərdə Rəsul Rzaya həsr olunmuş yazılardır.

1920-ci ildə yazılmış şeirin müəllifi atamın dayısı Məhəmmədhüseyn Rzayevdir. Yazımın əvvəllərində dediyim kimi babam Mirzə İbrahimin vəfatından sonra atamgilin ailəsinə himayədarlıq etmiş Məhəmmədhüseyn dayının bədii əsərləri, şeirləri də var və hətta vaxtilə «Molla Nəsrəddin» jurnalında «Daş oğlu» imzasıyla satiraları da çap olunub. Məhəmmədhüseyn kommunist idi, 20-ci illərdə məsul partiya işlərində çalışmışdı, Raykom katibi olmuşdu. Amma qəribədir ki, elə 20-ci ildə yazdığı və Rəsul Rzaya həsr etdiyi şeirdə çox bədbin bir ovqat var. Şeiri mətbuat səhifələrinə çıxaran Hacı Azər Əbilov onu atası İmamverdi müəllimidən alıb. Şeir o vaxt Rəsul Rza haqqında dissertasiya üzərində işləyən İmamverdi Əbilova atamın göndərdiyi məktubun içində imiş: «Hörmətli İmamverdi! Mən sabah Moskvaya gedirəm. Vəd etdyim şeirləri (dayımın şeirlərini) göndərirəm.

Hörmətlə Rəsul Rza. 10.11.60»

Təəsüf ki, məqalədə şeirdən ancaq bir parça gətirilir.

Rəsul Rzanın arxivində surəti qalmadığı üçün mən də yalnız Hacı Azərin dərc etdirdiyi sətirləri verirəm:

Çal! - deyirsən fəqət sınıqdır sazım.
Qırılmış tellərin çıxmayır səsi.
Yaz deyirsən, lakin bən nələr yazım.
Yox artıq qəlbimin şeirə həvəsi.
Gözləyən gözlərdə yaş görüb də mən
Nə cür nəşələnim sevgidən, güldən.
Bu qəmli ellərə yas çökən gündən
Duymadım qəlbimdə mən sevinc səsi.
Bayquş iniltisi hər bucağında,
Yad əllər oynayır yar qucağında.

Mən tək hər tərəfin qəmli çağında
Ağlatmaq istərəm ancaq hər kəsi.
Çal! deyirsən, fəqət sınıqdır sazım.
Qırılmış tellərin inləyir səsi.
Yaz, deyirsən, lakin mən nasıl yazım
Könlümdə bulmuram keçmiş həvəsi.

(1920)

Şeiri verəndən sonra Hacı Azər əlavə edir: «Şeirdəki incik ruhla onun yazıldığı tarix arasındakı milli kədər bağlantısı diqqəti istər-istəməz və daha çox cəlb edir»

Başqa bir maraqlı faktı Rəfael Hüseynovun yazısından öyrəndim. «Onun əsri» adlı son dərəcədə duyğulu essesində Rəfael yazır:

«Yarım əsrlik ədəbi yolu içərisində Rəsul Rza tənqidləri də, tərifləri də çox görəcək. Amma özünün görmədiyi, oxumadığı bir qiymət ki, həmin «Bolşevik yazı»ndan dərhal sonra yaranmışdı, mənə çox əziz gəlir. Yaşlı bir insan, köhnə ədəbiyyatın sadiq bir təmsilçisinin qiymətidir o qiymət. Hüseyn Cavidin Naxçıvanda yaşayan, müəllimlik edən, hərdən qələm təcrübələri yeni qəzetdə və respublika mətbuatında dərc edilən böyük qardaşı Şeyx Məhəmməd Rasizadə vermişdi o qiyməti.

Gələcəkdə səndən çox şey gözlənir
Ədəbi məsləkin bir gün izlənir,
Rza, durma, Rza, durma, Rza, yaz!

Qoca şair ilk qələm təcrübələrini oxuduğu, ona doğma olmayan üslubda yazan gəncin yolunun, məsləkinin bir gün izlənəcəyini, ədəbi mühitə yenicə atılmış cavanın bir gün özünün mühit yaradacağını peyğəmbər bəsirətliliyi ilə sezmişdi. Ən sevimlisi isə odur ki, köhnə ədəbiyyatın təmsilçisi və məftunu olan bu insan yenini və cavanı qəlb genişliyi ilə qarşılamağa özündə qətiyyət tapmışdı» («Rəsul Rza. Nigar Rəfibəyli» fotokitabına ön söz).

Bir neçə kəlmə də Güney Azərbaycan şairlərinin Rəsul Rzanın xatirəsinə həsr etdiyi şeirlər haqqında.

Qüzey Azərbaycanın başqa çağdaş şairləri kimi Rəsul Rzanın da şeirləri Cənuba çox çətinliklə yol tapır, nəşrinə müyəssər olanda isə naşirləri təqiblərə məruz qalırmış. Cənubi Azərbaycanın tanınmış ədəbiyyat xadimlərindən Hüseyn Sadiq «İnqilab yolunda» jurnalında yazır:

«Millətimizin təhsinəlayiq inqilabından neçə il əvvəl Rəsul Rzanın müxtəlif xalqların taleyindən danışan gözəl şeirlərindən bir neçəsini «Asari əz şüərayi Azərbaycan» («Azərbaycan şairlərinin əsərlərindən») kitabında çap etdirmişdim. Xain Məhəmməd Rza şahın sansurları Rəsul Rzanın şeirlərinin kitaba daxil olmasına görə üç il kitaba nəşr icazəsi vermədilər. Kitab nəşr olandan sonra da savakçılar dərhal toplayıb satışını qadağan etdilər».

Tanış situasiyadır, deyilmi? Xəlil Rza demiş: «O sahildə, bu sahildə... «Yenə də senzura, yenə də gızli xidmət orqanları, KQB olmasın, SAVAK olsun.

Şah dövründə məhv edilən gözəl yazıçı Səməd Behrəngi-1968-ci ildə gizli şəkildə buraxdığı «Parəparə» məcmuəsinə də Rəsul Rzanın bir sıra şeirlərini daxil edibmiş. Abbas Zamanov Cənub şairlərinin Rəsul Rzaya aid şeirlərini təqdim edərək yazır: «Cənub mətbuatının yazdığına görə, o zaman bu şeirlər oxucular tərəfindən maraqla qarşılanmış, əldən-ələ keçmiş, gizli şəraitdə geniş yayılmışdır. Son zamanlar əlimizə gəlib çatan məlumatlardan aydın olur ki, Rəsul Rza cənubda ən çox oxunan və sevilən bir şair kimi şöhrət tapmışdır. Elə buna görədir ki, Rəsul Rzanın vaxtsız vəfatı xəbəri, şairin cənub oxucularını sarsıtdı. Onlar bu acı xəbəri ümumxalq kədəri kimi qarşılayıb, ona yas tutdular. Təbrizdə və Tehranda ana dilində nəşr olunan «İnqilab yolunda», «Varlıq», «Dədə Qorqud» jurnalları bu ağır itkiyə dair məqalələr, şeiriər nəşr etdi. «Varlıq» jurnalı (1981, №2) şairin vəfatı münasibətilə buraxdığı məqalədə deyilir: «Rəsul Rza Azərbaycan poeziyasında sərbəst şeirin ciddi tərəfdarlarından biri olaraq bu sahədə gözəl

şeirlərin müəllifi kimi tanınmış, Şimali Azərbaycanda bu yeni şeir məktəbinin carçısı, hamisi və aparıcısı olmuşdur. Biz bu ağır itki münasibəti ilə bütün azərbaycanlılara, mərhumun ailə üzvlərinə, möhtərəm şairəmiz Nigar xanım Rəfibəyliyə, oğlu, həqiqi, ləyaqətli varisi Anara və mərhumun qələm yoldaşlarına dərin hüzn və sonsuz kədərlə başsağlığı verib, əmin olduğumuzu bildiririk ki, şairin adı əsərləri ilə birgə əbədi yaşayacaqdır» (Abbas Zamanov. «Yenə sıramızda var Rəsul Rza»).

Abbas müəllimin Qulamhüseyn Səbrinin misrasıyla adlandırdığı bu yazıda «İki ömrün işığı» kitabında dərc olunmuş Cənubi Azərbaycan şairlərinin şeirləri təqdim edilir. Bura İmran Salehinin «Şeirim yaxasına qara gül taxdı...» Hüseyn Tufarqanlının «Ey zalım fələk!», Güloğlanın «Dilək», Qulamhüseyn Səbrinin «Ustadın ölümü» şeirləri daxildir. Bundan başqa mətbuat orqanlarımızda Haşım Tərlanın, Əli Səlaminin də Rəsul Rzaya həsr olunmuş şeirləri dərc edilmişdir. Güney Azərbaycanın böyük alimi, şairi, ziyalısı mərhum Həmid Nitqinin şeiri isə xüsusi önəm daşıyır. Həmid Nitqinin 1981-ci ildə Tehranda yazdığı «Rəsul Rzaya ağı» şeirini bütünlüklə gətirirəm

Çox gec tapdım mən səni
və də
çox tez itirdim.
Təsadüfən şeirinlə
bir gün qarşıma çıxdın.
Sözlərinlə gözümdən
doğru könlümə axdın.
Sözlərindəki sehrə
bütün qəlbimi verdim.
Bu çeşmə sonsuzacan
axacaqdır deyirdim.
Elə bil qara tale
bunu mənə çox gördü. ,

addım basdığım bağça birdən tarümar oldu.
Dərdiyim tər qönçələr,
Güllər əbədi soldu.
Heyf. Heyf!
Çox gec tapdım mən səni
bilirsən haçandandır
ara qapı bağlıydı.
Qapalıydı üfüqlər,
Seçəmmirdim başım üstə
sənin kimi ulduzların işığın.
Bağlı gözlər necə seçsin
gündüzlərin işığın?
Yoxdu
izn,
yoxdu imkan
sizin gözəllik yaradan əlinizi sıxmağa.
Bir an da olsa yol alıb
şeirinizin bağçasını tamaşaya çıxmağa.
Bir boylanıb
Bubir taydan obir taya baxmağa.
İndi gələn bu kədərli
xəbərlə
sevdiyin el yaslıdır,
Gözlərimiz yaşlıdır.
Ardınca çiçəklərlə
məzarının yanında
matəminin sisində, dumanında
sanki səf-səf durmuşlar
diri ozanlarımızla bərabər
Füzulilər, Nəsimilər, Vaqiflər
oğullarının yasına gəlmişlər.
Aldığımız bu kədərli
xəbərlə
elimiz matəmlidir,

könüllərimiz qəmli,
gözlərimiz nəmlidir.

Qismət olsun, bütün bunları, Qüzeyli Güneyli şairlərimizin Rəsul Rzaya və Nigar Rəfibəyliyə həsr etdikləri şeirləri, poemaları ayrıca kitab şəklində nəşr edəcəyik. Bütün bu şairləri minnətdarlıq hissiylə anıram. Dünyasını dəyişənlərə Allahdan qəni-qəni rəhmət, yaşayanlara uzun ömür diləyirəm.

***

Rəsul Rza və Nigar Rəfibəylinin xatirəsinə Azərbaycan televizaysı və radiosu bir sıra təsirli verilişlər həsr etmişdir. Bu sahədə Rəfael Hüseynovun, Rəhman Babaxanlının, Mailə Muradxanlının, Şəfəq Əlixanovanın, Salehə Əfəndiyevanın, rejissor Ramiz Həsənoğlunun zəhmətini xüsusi qeyd etmək istərdim...

Xalq şairi Fikrət Qocanın sədrliyi ilə Rəsul Rza ədəbiyyat fondu fəaliyyət göstərir. Bu fond hər il mayın 19-da atamın doğum günü təsis etdiyi beynəlxalq mükafatları təqdim edir. 1985-ci ildə təsis olunmuş bu mükafata bu günə qədər Azərbaycanın, Tüıkiyənin, İranın, Qazaxıstanın, Gürcüstanın 25 tanınmış şairi, Rəsul Rza yaradıcılığının tərcüməçi və tədqiqatçısı, habelə «Qəm karvanı» oratoriyasının müəllifi bəstəkar Vasif Adıgözəlov, şairin şeirlərinin mahir ifaçısı aktrisa Əminə Yusif qızı layiq görülmüşlər.

Bakıda atamgilin yaşadıqları evin, Kitab passajının tinində qovuşan iki küçə keçmiş Yefim Saratovets və Korqanov küçələri indi Rəsul Rzanın və Nigar Rəfibəylinin adlarmı daşıyır. Bu qərarı vermiş Komissiya üzvlərinə və ilk növbədə Komissiyanın sədri, sevimli şairimiz Bəxtiyar Vahabzadəyə bir daha ailəmiz adından təşəkkür edirəm. Hər iki şairin adına Gəncədə, Göyçayda, Mingəçevirdə və başqa Azərbaycan şəhərlərində də küçələr var. Göyçay Mədəniyyət

evinə və atamın oxuduğu orta məktəbə Rəsul Rzanın adı verilmişdir.

Gün o gün olsun ki, ensiklopediyaçıların təklifi də həyata keçsin, Azərbaycan ensiklopediyasına onun təməlini qoyan ilk Baş redaktorunun adı verilsin.

Göyçayda Rəsul Rzanın ev muzeyi açılmışdır.

***

Rəsul Rzanın qəbrüstü abidəsini unudulmaz heykəltaraşımız Elmira xanım Hüseynova yaratmışdır. (Memarı Firuz Məmmədov). Yaşadıqları evin divarında Rəsul Rzanın və Nigar Rəfibəylinin xatirə lövhəsinin müəllifləri heykəltaraş Qorxmaz Sücəddinov və memar Yusif Qədimovdur.

1992-ci ildə Bakıda M.F.Axundov adına Mərkəzi Respublika kitabxanasının fasadında Rəsul Rzanın heykəli ucaldılmışdır (hcykəltəraş Xanlar Əhmədov).

Hörmətli Prezidentimiz Heydər Əliyevin fərmanıyla Gəncədə, Sərdar bağında Nigar Rəfibəylinin tunc heykəli ucaldılmışdır. (heykəltaraş Münəvvər xanım Rzayeva, memar Şərif Şərifov). 1998-ci il oktyabrın 7 də heykəlin açılışı oldu. Abidənin açılışında Respublikamızm Prezidenti iştirak edirdi. Elə həmin gün Gəncə seçiciləriylə görüşdə nitq söyləyən Prezident H.Əliyev dedi:

«İyirminci illərin repressiyalarında, otuzuncu illərin repressiyalarında çox dəyərli gəncəlilər, ziyalılar məhv edilmişdir. Onlardan biri də Nigar xanımın atası Xudadat bəy Rəfibəyli Azərbaycanın ilk müstəqil hökumətində, Xalq Cümhuriyyətində nazir vəzifəsini tutmuş bir insan, sonra repressiya qurbanı olmuşdur. Ancaq tarix hər şeyi öz yerinə qoyur. Repressiya qurbanı olmuş Xudadat bəy Rəfibəylinin qızı Nigar xanım Rəfibəyli böyük yol keçmiş, Azərbaycan mədəniyyətinin inkişaf etməsi uğrunda çalışmışdır. O, öz həyat yoldaşı, Azərbaycanın böyük şairi Rəsul Rza ilə birlikdə Azərbaycan ədəbiyyatının yüksəlməsində xüsusi rol oynamışdır və

məmnunam ki, onların övladı, Azərbaycanın böyük yazıçısı, Yazıçılar Birliyinin sədri hörmətli Anar da, anasının, atasının işini davam etdirir və Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişafına öz xidmətlərini göstərir».

***

2000-ci il aprelin 29-da Prezident Heydər Əliyev Rəsul Rzanın 90 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayandan sonra bir sıra tədbirlər keçirilmişdir. Yazımın əvvəllərində dediyim kimi, yubiley tədbirləri Türkiyədə İstanbulda və Ankarada keçirilən toplantılarla başlandı.

Azərbaycanda da müxtəlif təşkilatlar, müəssisələr, kitabxanalar və məktəblər öz təşəbbüsləriylə Rəsul Rzanın 90 illiyini qeyd etdilər. Nizami adına Ədəbiyyat İnstitutunda, Xarici Dillər İnstitutunda, Nizami adına Ədəbiyyat Muzeyində, Bakıdakı özəl «Naxçıvan» Universitetində, Şəhriyar klubunda, Rəşid Behbudov adına Mahnı Teatrında şairin xatirəsinə həsr olunmuş tədbirlər keçirildi. Gəncədə, Naxçıvanda, Sumqayıtda da o şəhərlərin ədəbi ictimaiyyətinin və inzibati rəhbərliyinin təşəbbüsüylə Rəsul Rzaya həsr olunmuş toplantılar, onun şeirlərinin ifası üçün müsabiqələr keçirilib.

Təəssüf ki, bu tədbirlərdə iştirak edə bilməmişəm. İştirak etdiyim bir tədbiri xüsusi qeyd etmək istərdim. Hörmətli Prezidentimizin sərəncamından sonra Mingəçevirin İcra başçısı Məhəbbət Qarabağlı bu şəhərdə də bir yubiley təşkilat komissiyası yaratmış, şairin adını daşıyan küçədə onun barelyefini vurdurmuş və bu gözəl şəhərdə Rəsul Rzanın adına layiq gecənin keçirilməsi üçün böyük səy göstərmişdir. Məhəbbət müəllimə dərin minnətdarlığımı bildirmək istərdim. Yubiley günündən il yarım keçməsinə baxmayaraq təntənəli gecə mən bu sətirləri yazdığım 2001-ci il noyabrın 19-una qədər hələ ki keçirilməyib. Başqa yubileylərin də vaxtında keçirilmədiyini nəzərə alaraq mən bu sözləri yazmazdım, ancaq bəzi səbəblərdən yazmağa məcburam. 90, 80, 70, 60, 50

illikləri Respublika sarayında, Opera və Balet Teatrında, Milli Dram Teatrında keçirilən digər şair və yazıçılarımızdan fərqli olaraq Rəsul Rzayla bağlı belə bir zirvə tədbiri son dəfə otuz bir il bundan qabaq, 1970-ci ildə, şairin sağlığında, 60 yaşı tamam olan vaxt keçirildi. Bundan sonra nə 80-ci ildə, ağır xəstə olduğu üçün 70 illiyi, nə 85-ci ildə 75 illiyi, nə 90-cı ildə 80 illiyi qeyd olundu (90-cı ildə Qara yanvar hadisələrindən sonra hər hansı bir yubiley tədbiri keçirilməsinin biz ailə üzvləri də qəti əleyhinə idik). 95-ci ildə 85 illiyini də qeyd etmədik. Bütün bunları bilənlər bilir.

Ədəbiyyatşünas Azad Nəbiyev 2000-ci il aprelin 25-də «Azərbaycan» qəzetində dərc olunan, «Rənglər» silsiləsini maraqlı şəkildə araşdıran və Rəsul Rzanı çağdaş dövrün bəzi həyasız hücumundan müdafiə edən məqaləsində yazır:

«Bəlkə Anar Yazıçılar İttifaqının rəhbəri kimi təvəzökarlıq göstərib Rəsul Rza ilə bağlı ədəbi fikrin mülahizələrinin bu nəşrlərdə (Yazıçılar Birliyinin ədəbi orqanları nəzərdə tutulur - A.) verilməsini məhdudlaşdırır, yaxud şairin 80 illik yubileyi kimi 90 illik yubileyinin də sakitcə keçməsini istəyir. Bu, Anarın təvazökarlığından doğan şəxsi mövqeyi ola bilər. Amma Xalq şairi Rəsul Rza milli yaddaşda daim yaşayan şairdir, xalqın öz şairini dönə-dönə anması, onun yubileylərinin xatırlanması xalqın mənəvi əxlaqi borcudur».

Mənim haqqımda da rəğbətli sözlər olan bu parçanı gətirdiyim üçün oxuculardan dönə-dönə üzr istəyirəm; iş ondadır ki, dediyim kinıi, bütün bunları bilən bilir, amma bilməyənlər də var axı. Bilməyənlər olsaydı dərd yarıydı. Hər şeyi çox gözəl bilə-bilə bu məsələni tam tərs şəkildə qələmə vermək istəyənlər də tapılır. Vicdanı məlum deyil ki, harasında olan bir ədəbiyyat «xanımı» qəzetdə məni günahlandıraraq yazır ki, mən bir gündə Rəsul Rzanın iki yerdə yubileyini keçirmişəm. Heç biri nə mənim, nə Yazıçılar Birliyinin təşəbbüsüylə olmayan, ancaq öz israrlı təkidləriylə iki məktəb təsadüfən eyni gündə Rəsul Rzayla bağlı tədbir keçiribsə, mən nə etməliydim, bu tədbirləri qadağan etməli, «yox, Rəsul

Rzanın deyil, ona və mənə çirkab atmağı özünə peşə seçmiş bu «xanımın» yubileyini keçirin» deməliydim?

Yuxarıda yazdığım sətirlərdən sonra və bu kitabın nəşrə hazırlandığı müddətdə baş verən hadisə haqqında bura bir əlavə etməliyəm. Hörmətli Prezidentimizin göstərişiylə 2001-ci il dekabrın 25-də Respublika sarayında Rəsul Rzanın 90 illik yubileyi təntənəylə qeyd olundu. Prezident Heydər Əliyevin də iştirak etdiyi yubiley gecəsini Baş Nazirin müavini, Xalq yazıçısı Elçin açdı. Sonra Gülrux Əlibəyli, Fikrət Qoca, Vaqif Səmədoğlu, Rafael Hüseynov çıxış etdilər. Sonda mən danışdım.

Elçinin çıxışından:

«Rəsul Rzanın Azərbaycan poeziyasında, mədəniyyətində, mənəviyyatında tutduğu mövqe o qədər uca, o qədər alidir ki, onun 90 illik yubileyi, əslində təkcə bizim poeziyamızın, ədəbiyyatımızın yox, bütün mədəniyyətimizin bayramıdır, xalqımızın bayramıdır... Rəsul Rza böyük bəşəri sənətkar idi. Onun sənəti bəşəri miqyas əldə etmişdi. Amma eyni zamanda Rəsul Rza Azərbaycan xalqının böyük milli şairi idi. Rəsul Rza Azərbaycan ədəbiyyatının tarixinə böyük novator sənətkar kimi daxil olmuşdur. Amma Rəsul Rzanın novatorluğu ilk növbədə milli-bədii estetik ənənələrə, milli-mənəvi dəyərlərə söykənir. Rəsul Rza şəxsiyyəti, yaradıcılığı etibarilə gəncliyə çox bağlı sənətkar idi. Gəncliklə daim təmasda, ünsiyyətdə olan, gəncliklə dostluq edən sənətkar idi. Bu, həm Rəsul Rzanın şəxsiyyətinə, həm də Rəsul Rza yaradıcılığına xas olan bir cəhət idi. Yəni Rəsul Rza bir tərəfdən ədəbi gəncliklə dostluq edirdi, ədəbi gəncliyi müdafiə edirdi, öz ciddi təəssübkeş səsini lazım olan məqamlarda qaldırırdı, digər tərəfdən isə onun öz yaradıcılığında həmişə bir gənclik şövqü, gənclik ehtirası, gənclik həvəsi vardı... Elə bil aradan 20 il yox, bəlkə də 20 gün keçibdir. Ancaq ona görə yox ki, hər şey vaxta baxsa da, vaxt heç nəyə baxmır. Həm də ona görə ki, bu 20 ildə Rəsul Rza həm şəxsiyyəti, həm də yaradıcılığı etibarilə həmişə bizimlə bir

yerdə olmuşdur. Əsl böyük sənətkar o sənətkardır ki, o öz dövrünü ifadə edir, öz dövrünün sənətkarıdır, amma eyni zamanda gələcəyin də sənətkarıdır... Gələcək nəsillər sabah bir-birini əvəz edəcək, amma Rəsul müəlim yenə gələcək nəsillərlə bir yerdə olacaqdır».

Gülrux Əlibəylinin çıxışından:

«Rəsul Rza və Nigar Rəfibəyli nəinki əsl ziyalı ailəsi qurmuş, həm də xüsusi mənəvi, estetik və poetik ocaqda birləşmişdilər. Bu iki istedad müxtəlif istiqamətdə yazıb yaradırdı... Lakin onları birləşdirən vətəndaşlıq hissi və xalqa hədsiz məhəbbət olmuşdur. Nigar xanım həzin, incə, səmimi şeirlər müəllifi olub və son dərəcə təvazökar insan idi.

Demirəm dünyadan köçüb gedəndə,
Vətəndə şöhrətli bir adım qalsın.
İstəyirəm bircə həzin xəyalım,
Bir də uçmaq istəyən
İki qanadım qalsın.

Nigar xanım milli ədəbiyyat tariximizdə möhkəm yer tutmuş, həm də Rəsul Rza kimi şairin həyat və yaradıcdığına əsaslı təsir etmişdir. Vaxt məsafəsindən baxanda, biz fəxrlə deyə bilərik ki, Uolt Uitmen, Nazim Hikmət, Giyom Apolliner kimi dünya poeziyası korifeylərinin sırasında bizim də yeni ruhlu fəlsəfi poeziya müəllifi, düşünən və düşündürən böyük şair Rəsul Rza vardır».

Fikrət Qocanın çıxışından:

«Bir nigarançılığım var ki, bilmirəm: səsimi eşidirsiniz, yoxsa yox. Rəsul Rza mənim üçün elə adam idi ki, lap lal da olsam, dil açıb haqqında danışmalı idim. 30 il bundan əvvəl Rəsul Rzaya 60 illik yubileyində bir şeir həsr etmişdim. Üstündən otuz il keçib, görürəm ki, Rəsul Rzanın heç bir şeirinin saçına dən düşməyibdir. Bu 30 il ərzində Rəsul Rza otuz gün qocalmayıb. Ona görə də o vaxt Rəsul Rzaya həsr

etdiyim şeiri oxumaq istəyirəm. Ancaq həmin şeirin axırına iki misra əlavə etmişəm».

Fikrət bu kitabın əvvəlki səhifələrində gətirdiyim «O bir şeir də yazdı» rədifli şeirini oxudu. Sonunda isə bir misra əlavə etmişdi:

O vaxt sözümüzə baxsaydı
İndi Rəsul Rzamız olmazdı.
Rəsul Rza var, əbədidir, ölməzdi.
***Vaqif Səmədoğlunun çıxışından**:*

«Rəsul Rza şəxsən mənim üçün bir insan, bir şair kimi kim idi? Mən 17 yaşım olanda atamı itirdim. Azərbaycanın başqa böyük şairini, Səməd Vurğunu itirdik. Mən ədəbiyyata gələndə artıq atam yox idi. Onun müdrik, yolgöstərən məsləhətlərindən tale məni məhrum etmişdi. Ancaq mən xoşbəxt adamam ki, Rəsul Rza mənim əlimdən tutdu. Taleyim belə gətirdi.. 1950-ci illərin sonunda, 60-cı illərin əvvəllərində Rəsul Rza, mən daxil olmaqla, Azərbaycanın bir qrup gənc şairinə, yazıçısına sözün əsl mənasında həm arxa olub, həm də bizi arxasınca aparan olub. Mən ona əmi deyərdim. Mən burda da Rəsul əminin adına layiq danışmaq istəyirəm və bir məsələyə toxunmasam, onun ruhu məndən inciyər. Bu da Səməd Vurğun və Rəsul Rza münasibətləri idi. Çox ləyaqətsiz söhbətlərə, şaiyələrə düçar olmuş bir münasibət. Bilirsinizmi, üç cür mübahisə var. Birincisi, həqiqətlə yalanın mübahisəsidir. Burada hər şey aydındır. İkincisi, ikrah hissi doğuran bir mübahisə - yalanla yalanın mübahisəsidir. Üçüncüsü, çox dramatik mübahisə olan həqiqətlə həqiqətin mübahisəsidir. Bax, bizim bu günümüz - Azərbaycanın müstəqilliyi, ədəbiyyatımızın bugünkü günü sübut etdi ki, bəzən dramatik hallara gələn Səməd Vurğun və Rəsul Rza, Rəsul Rza və Səməd Vurğun mübahisəsi iki həqiqətin mübahisəsi idi və bu özünü doğrultdu. Yəni, həyat sübut etdi ki, Səməd Vurğunun ənənəvi formadakı poeziyası nə qədər novator poeziya idisə,

Rəsul Rzanın yeni formada yazdığı əsərləri, şeirləri o qədər Azərbaycan poeziyasının gözəl, ən qabaqıl ənənələrinə söykənir. Bu, sübut olundu».

Rafael Hüseynovun çıxışından:

«Böyük Azərbaycanlı, mütəffəkkir insan Rəsul Rzanın 90 illiyinin zirvə bayramını biz Lenin sarayında deyil, istiqlalın on birinci ilini yaşayan bir millətin Respublika sarayında keçiririksə, bu çox rəmzidir. İstiqlal yalnız arzulamaqla gələn bir nemət deyil, Azərbaycan bu gün istiqlal içərisindədirsə, bu istiqlalın arxasında on illər boyu on minlərlə, yüz minlərlə insanın əməyi, zəhməti, bu istiqlal yolunda çarpışması durur. Azərbaycan istiqlalını gətirən insanların içərisində istiqlal arzusunu, azad olmaq eşqini sönməyə qoymayan Rəsul Rzanın müstəsna xidməti var... Nə Nizamini sadəcə şair hesab etmək olar, nə Xətaini, nə Nəsimini, nə Füzulini, nə də Rəsul Rzanı. Onlar millət qurucuları idilər. Onlar üçün şairlik də millət qurucıduğu işinin bir vasitəsi idi. Onlar çalışırdılar, bütün həyatları boyu amalları, məramları bu idi ki, millətimiz daha təkmil olsun, daha mükəməl olsun, bu millət daha üstün olsun... Rəsul Rzanın Azərbaycan xalqına, ədəbiyyatına, Azərbaycan mədəniyyətinə və mənəviyyatına ən böyük xidmətlərindən biri o oldu ki, yenilikçiliyindən geri dönmədi, səbatlı oldu, qətiyyətlə addımladı, ən müxtəlif zəmanələri aşdı və öz ardıcdlarını yetirdi, böyük bir məktəb yaratdı. Rəsul Rza böyük bir məktəb görmüş insan deyildi, heç tam ali təhsil də almayıbdır. Amma o, bu sözün ən yüksək fəlsəfi mənasında, böyük bir millətə ali təhsil verə biləcək qüdrətə malik yaradıcı idi, bir insan idi».

Mən çıxışımda bir neçə il qabaq Səməd Vurğunun, Süleyman Rüstəmin, iki gündən sonra isə Mikayıl Müşfiqin 90 illiklərinin qeyd olunmasını xatırladaraq deyirəm:

«Bu gün də Rəsul Rzanın 90 illiyinə toplaşmışıq. Bəzən belə söz-söhbətlər olur ki, bu yubileylər nəyə lazımdır. Bu yubileylər yeni, gənc nəsillərlə ədəbiyyatımızın daha əvvəlki nəsillərinin yaratdıqlarını, qoyub getdiyi irsi çatdırmaq üçün, onları bu gün bəzən inkar edənlərə həqiqəti göstərmək üçün,

onların gördükləri işləri nümayiş etdirmək üçün lazımdır. Bugünkü yubileyi də mən məhz bu cür qavrayıram».

Sonra mən Rəsul Rzanin sovet rejiminin ən sərt illərində dilimizin qorunması haqqında çıxışlarından, vətən müharibəsi illərində yazdığı şeirlərdən, Naxçıvana və Qarabağa erməni iddialarına tutarlı cavablarından danışdım (Bu mətnlərin hamısını kitabımın əvvəlki səhifələrində verdiyim üçün burda təkrar etmirəm). Bütün bunlara görə erməni yazıçılarının Moskvaya göndərdikləri danoslarda Rəsul Rzanı millətçi, pantürkist, antisovet şair kimi təqdim edirdilər.

«Çox təəssüf ki, öz aralarımızda da onlara züy tutan, onlara dəstək verənlər var idi. Mən bunu ona görə deyirəm ki, belə bir şəraitdə hörmətli Heydər Əliyev Rəsul Rzaya Sosialist Əməyi Qəhrəmanı adını aldı, verdi. Bu adı Rəsul Rza yaradıcılıq cəsarəti ilə qazanmışdısa, Heydər Əliyev də bunu özünün siyasi cəsarəti ilə qazanmışdı. Bu, hər ikisinin böyük vətəndaşhq qələbəsi idi. Elçin məndən qabaq çıxış edərkən dedi ki, indi bəzən bu adlara ağız büzürlər. Amma təkrar etmək istəyirəm ki, bizim dörd nəfər yazıçı və şairimiz - Süleyman Rəhimov. Süleyman Rüstəm, Rəsul Rza, Mirzə İbrahimov, üç bəstəkarımız - Qara Qarayev, Niyazi, Fikrət Əmirov, böyük müğənnimiz Rəşid Behbudov, memar Mikayıl Hüseynov, rəssam Tahir Salahov o illərdə Sosialist Əməyi Qəhrəmanı adını aldılar. Rusiyadan başqa heç bir sovet respublikasında bu qədər sənət xadimi bu yüksək ada nail olmayıbdır. Bu adların verilməsi Heydər Əliyevin nüfuzu, cəsarəti sayəsində oldu. Bu adların verilməsi, sadəcə, bir nişan deyildi ki, onlar döşlərinə taxsınlar. Bu adların verilməsi Azərbaycanın nüfuzunu qaldırmaq demək idi. Azərbaycan mədəniyyətini ümumitifaq miqyasında təsdiq etmək demək idi. Ona görə də, hörmətli Prezident, bu gün Rəsul Rzanın oğlu kimi də, bir Azərbaycan vətəndaşı, Azərbaycan ziyalısı kimi də Sizə ən səmimi təşəkkürümü və minnətdarlığımı bildirmək istəyirəm.

Rəsul Rzanın həyatda arzuları çox idi. Bu arzulardan ikisini mən demək istəyirəm. Bir arzusu böyük miqyaslı arzu idi

- Azərbaycanı müstəqil görmək. İkincisi isə şəxsi arzusu idi ki, 2001-ci ili görmək, heç olmasa, bir gün də olsa, XXI *əsrdə yaşamaq, sonra dünyadan getmək. Bu gün mən deyirəm ki, Rəsul Rzanın hər iki arzusu doğruldu. Azərbaycan müstəqil oldu. Rəsul Rza* XXI *əsrin birinci ilində, birinci ilinin sonunda bu gün burada bizimlədir. Səsi ilə, sənəti ilə, ruhu ilə, sizin hamınızın ona olan hörməti ilə, sevgisi ilə bizimlədir».*

Yubiley gecəsinin bədii hissəsini rejissor Əsgər Əsgərov çox maraqlı qurmuşdu. Rəsul Rzanın «Hamımız yoldayıq» şeirini əsas götürərək sanki daima hərəkətdə olan bir qatarın rəmzi canlanırdı, səhnədə şairin şeirlərini oxuyanlar, Rəsul Rzanın və Nigar Rəfibəylinin mahnılarını ifa edən müğənnilər də elə bil bu qatarın sərnişinləri idi. «Rənglər» silsiləsindən ayrı-ayrı şeirlər səsləndikcə səhnə müxtəlif rənglərə boyanırdı. Maraqlı kino xronika kadrlarından sonra (onları kinorejissor Xamis Muradov toplayıb sahmana salmışdı) Rəsul Rzanın öz səsi eşidilirdi. Daha sonra o sanki səhnədən və həyatdan gedir. Nigar Rəfibəyli isə sanki onu «Ala gözlüm» mahnısıyla axtarır, soraqlayırdı. Tamaşa-konsertin son akkordu olan bu emosional səhnə salondakılara qüvvətli təsir göstərmişdi. O gecə də, səhərisi gün də məni görüşəndə yaxud telefonla təbrik edənlərin hamısı belə bir orijinal yubileyin ilk dəfə keçirildiyini və çox böyük bədii zövq aldıqlarını deyirdilər. Konsertdən sonra Heydər Əliyev də məni təbrik etdi, ailə üzvləriylə - Zemfirayla, Fidanla, Təranəylə, Raufla görüşdü, sonra səhnə arxasına keçdi.

Prezident konsert iştirakçılarını - ifaçıları salamladı. (Prezidentin çıxışını da, o gecəki başqa çıxışları da AzərTacın qəzetiərdə çap olunmuş məlumatına əsasən gətirirəm).

Heydər Əliyevin çıxışından:

«Hamınızı təbrik edirəm. Bu gün bizim hamımızı bu salona gətirən Rəsul Rzanın xatirəsidir və onun 90 illik yubileyidir. Bizim xalqımız, millətimiz bu yubileyi son bir-iki il içərisində demək olar ki, Azərbaycanın bütün bölgələrində çox

təntənə və böyük məmnuniyyət hissi ilə keçiribdir. Bu gün də biz yubileyin son gözəl mərasiminə gəldik.

Çox gözəl, qeyri-adi tamaşa göstərdiniz. Eyni zamanda, Rəsul Rza yaradıcılığını açа bildiniz. Çünki Rəsul Rza yaradıcılığı çox gözəldir, yüksək səviyyədədir, amma eyni zamanda mürəkkəbdir, çox çətindir. Siz onu açа bildiniz. Çox gözəl bir kompozisiya düzəltmisiniz. Çünki bugünkü tamaşa başqalarından özünün qeyri-adiliyi ilə fərqlənir. Eyni zamanda fərqlənməlidir. Çünki hamısı bir cür ola bilməz. Fərqlənir ona görə ki, bu məhz Rəsul Rzanın yaradıcılığını nümayiş etdirir. Həm siz şeirləri gözəl aktyor ifası ilə, gözəl səslərinizlə oxudunuz, həm də musiqi, kompozisiya məni çox heyran etdi. Mən həqiqətən çox həyəcanlandım. Adama çox təsir edir.

Bu, bir tərəfdən Rəsul Rzanın nə qədər böyük şair olduğunu və onun yaradıcılığının nə qədər dərin olduğunu, Azərbaycan xalqı üçün nə qədər əhəmiyyətli olduğunu göstərir. İkinci tərəfdən də, sizin nə qədər məharətlə, ustalıqla Rəsul Rzanın yaradıcılığını açmağınızı göstərir. Ona görə mən bu gün çox məmnunam. Mən burada sizinlə, necə deyərlər, çox yaxşı gecə keçirdim. . Bir yerdə neçə saat vaxt keçirmişik, bu da az deyil, iki saatdan çoxdur. Mən sizə təşəkkür edirəm. Siz bu gün yaradıcılığınızın yüksək səviyyədə olduğunu bir daha nümayiş etdirdiniz. Hesab edirəm, salondakdara deyil, televiziya bunu birbaşa yayımlayırdı, - bütün Azərbaycan tamaşaçılarına çox gözəl hədiyyə etdiniz. Çox sağ olun.

Biz hamımız bu gün böyük şairimiz Rəsul Rzanı və Nigar Rəfıbəylini - burada Nigar xanımın şeirlərinə yazılmış mahnılar, musiqilər səsləndi, - bir daha xatırlamalıyıq, onların Azərbaycan xalqı qarşısında böyük xidmətlərini bir daha - qeyd etməliyik və onların xatirəsinin bizim üçün nə qədər əziz olduğunu bir daha bildirməliyik. Mən şəxsən belə hesab edirəm və bu gecədən belə hisslərlə ayrılıram. Bir də ki, siz Rəsul Rza yaradıcdığını ustalıqla, məharətlə - həm səsinizlə, həm də musiqinizlə gözəl göstərdiniz. Hamınızı təbrik edirəm. Çox sağ

olun. Yaxşı bir iş görmüsünüz. Mən də bu gun sizinlə birlikdə çox gözəl hisslər keçirdim».

Prezident Emin Sabitoğlunun Nigar Rəfibəylinin sözlərinə bəstələdiyi «Ala gözlüm» mahnısını ifa edən Aygün Hümbətovaya müraciət edərək dedi:

«Sən çox yaxşı oxuyursan. Anar yanımda idi, sən oxuyanda dedim, bu kimdir? Çox yaxşı oxuyursan. Mahnı da, yəni musiqi də çox gözəldir, sözləri də gözəldir, çox da təsirlidir».

Sonra Prezident 1980-ci ildə Rəsul Rzaya Sosialist Əməyi Qəhrəmanı nişanını təqdim etmə mərasimini əks etdirən sənədli kino kadrlar barədə Xamis Muradova müraciətlə dedi:

«Sən o kadrları yaxşı saxlamısan. Yaxşı ki, bunları saxlamısınız. O vaxtlar mənimlə bağlı olan şeyləri dağıdırdılar. Yadınızdadır. İndi yaxşı ki, bunlar qalıbdır, dağıda bilməyiblər. Yaxşı, bu barədə çox danışmaq olar, hamınızı təbrik edirəm, sağ olun, təşəkkür edirəm».

***

Az TV-kanalıyla bütünlükdə translyasiya edilən gecədən sonra «Azərbaycan», «Xalq qəzeti», «Вакинский рабочий», «Respublika», «Ədəbiyyat qəzeti» tədbir haqqında AzərTacın geniş məlumatını dərc etdilər. Qəzetlərin üç-dörd səhifəsini tutan bu materiallarda yubileydəki bütün çıxışların, habelə Prezident H.Əliyevin səhnə arxasındakı söhbətinin tam mətni və xeyli şəkil verilmişdi.

Bu gün Bakıda çıxan bütün qəzetləri izləyə bilmədiyim üçün yalnız əlimə keçənlərdəki materiallardan söz açıram. «525-ci qəzet» və «Zaman» qəzetləri gecə haqqında xoş təəssüratlı yazılar vermişdi. Son illər (daha doğrusu, 2000-ci ilin deputat seçkilərindən sonra, səbəbini əvvəldə yazmışam) mənə qarşı ancaq neqativ materiallar çap edən «Azadlıq» qəzeti də yubileylə əlaqədar olaraq «Əl vurmayın, rənglənib» adlı yazı verdi. Yazı müəllifi mənə və çıxışçıların hamısına cürbəcür iradlar tutsa da, (bunsuz olmaz axı) hər halda belə bir

etiraf da edir: «Bizdə hələ heç bir yubiley gecəsi bu qədər incə zövqlə işlənməmişdi».

Necə deyərlər, buna görə də sağ ol!

Bu sözlərin məhz «Azadlıq» qəzetində yer almasına doğrusu təəccüb etdim. Çünki elə «həmin yubiley günləri ərəfəsində «Azadlığ»ın daimi «anarşünas»larından biri məni indi də rus yazıçısı Viktor Astafyevin ölümüylə əlaqədar bir münasibət göstərməməkdə suçlayırdı. Bu biçarə öz yazdıqlarından başqa bir şey oxusaydı (Astafyevi oxuduğuna da şübhəm var) bilərdi ki, rus yazıçısının vəfatını eşlidən kimi Moskvaya başsağlığı teleqramı vurduq və bu teleqram «Ədəbiyyat qəzeti»ndə dərc olunub. Amma belələrinin faktlar nəyinə gərəkdir, təki kiməsə çaxır atıb aldıqları sifarişi yerinə yetirsinlər. Nə isə...

İki-üç gün sonra «Azadlıq»da, deyəsən, Rəsul Rza yubileyi haqqında yazdıqları xoş sözlərə görə peşman oldular və Yazıçılar Birliyinə və mənə qarşı yazmaqda pərgar olan Rasim Qaracanın «Sətiraltı» adlı yazısını dərc etdilər. Azərbaycan ədəbiyyatında kimin kim olduğunu bilməyən adam bu yazını oxusa elə düşünə bilər ki, Rasim Qaraca Rəsul Rza, Rəsul Rza isə Rasim Qaracadır. Yəni ədəbiyyatda özünü çoxdan təsdiq etmiş təcrübəli bir ağsaqqal müəllim onun yoluyla getmək istəyən gənc şeir həvəskarına yekəxana tərzdə qiymət verir.

Yazıdakı absurd fikirlərdən biri Mayakovskini, Nazim Hikməti və Rəsul Rzanı guya ki, müqayisə etməkdir.

«İstər Mayakovski, istərsə Nazim Hikmət öz ölkələrində düşüncə inqilabı etdilər, beyinləri min illik kirəcdən təmizlədilər. Görünür, Azərbaycanın yarımmüstəmləkə olması, daxili irticanın gücü, beyinlərin peyin olması, bəlkə erməni faktoru Rəsul Rzaya bu sayaq «Beyinlərdə çevriliş» etmə imkanı vermədi, o, özünü müdafiə üçün «Lenin» poemasını yazmalı oldu, böyük cəsarətini sətiraltı mənaların qəlibinə sığışdırmaq yolunu tutdu. Bir ehtimal, Mayakovskinin intiharı, Nazim Hikmətin başına gələnlər onu daha ehtiyatlı olmağa

sövq etdi, ən azından sağ qalıb ictimai xadim kimi öz xalqına «sətiraltı» xidmət etməyin o məqamda «beyinlərdə inqilab» etməkdən daha faydalı olduğunu düşündü».

Bir abzasa bu qədər absurd fıkir yerləşdirmək doğrudan da xüsusi bacarıq istəyir. Mayakovskinin də, Nazim Hikmətin də çox böyük sənətkar olduğunu inkar etmədən (bunu kim inkar edə bilər ki?) sual edirəm: Əgər Mayakovski ya Nazim Hikmət öz ölkələrində düşüncə inqilabı etdilərsə, beyinləri min illik kirəcdən təmizlədilərsə, deməli, bu ölkələrdə daha heç bir problem qalmamalıydı, ən azı öz ölkələrində hər iki şairi hamı qeydsiz-şərtsiz qəbul etmiş olmalıydı, beyinlərdə də peyin-fılan qalmamalıydı. Əslində bunun heç də belə olmadığını görürük və Azərbaycanda bəzilərinin başında beyini peyin əvəz edibsə, Türkiyədə və Rusiyada da belələri az deyil, bunun təqsiri nə Mayakovskidə, nə Nazim Hikmətdə, nə də Rəsul Rzadadır. «Lenin» poemasını növbəti dəfə Rəsul Rzanın başına qaxmaq istəyən gənc şair heç olmasa yazısının bu yerində gərək Mayakovskini örnək gətirməyəydi. Məlumdur ki, Lenin haqqında Mayakovski Rəsul Rzadan azı iyirmi beş il əvvəl poema yazıb. Özünü Nazim Hikmət yaradıcılığının pərəstişkaıı və bilicisi sayan Rasim Qaraca yəqin ki, böyük türk şairinin Leninə yazdığı şeirlərdən də xəbərsiz deyil.

Daha sonra Rasim Qaraca yenə də öz qəribə ehtimallarını bəyan edir:

«Yenə bir ehtimal: Rəsul Rza öz sətiraltısında (şüuraltında) böyük «İnqilabi şair» missiyasını «Görkəmli xadim missiyası ilə rokirovka etmişdi. Dolayısı ilə, inqilab yolunu deyil, reforma yolunu tutmuşdu. Beləliklə, özünü Mayakovski, Nazim Hikmət magistalından ayırmışdı. Nəticə göz qabağındadır».

Hansı nəticənin göz qabağında olmasına toxunmazdan əvvəl gəlin bir məsələni aydınlaşdıraq. Əvvəla, heç bir həqiqi şair heç bir başqa, hətta böyük şairin belə magistralı ilə getmir, poeziyada öz yoluyla addımlayır. İkincisi, bir yandan «Lenin» poemasına görə Rəsul Rzaya söz atan müəllif o biri tərəfdən

Azərbaycan şairinin sona qədər Mayakovski kimi yalnız «inqilabi şair» olmamasından narazıdır. Nazim Hikmətin özünün də Moskvada yazdığı həsrət şerlərində və məhəbbət lirikasında Rasim Qaracanm iddia etdiyi «inqilabi şeir» ruhu yoxdur, deməli, belə çıxır ki, o özü də öz magistralından ayrılıbmış.

Rəsul Rzanın Azərbaycan ədəbiyyatı tarixində yerini onun yaradıcılığı ilə deyil, ictimai fəaliyyətiylə bağlamaq, onu şair kimi deyil, ictimai xadim kimi təqdim etmək şairin ruhuna qarşı hörmətsizlikdən başqa bir şey deyil. Rəsul Rzanın guya ki, düz yolla getmədiyini tənqid edən (şairin sağlığında da beyni girəcləşmişlərin bu sayaq tənqidləıi o qədər olub ki) Rasim Qaraca yekə-yekə «Nəticə göz qabağındadır» yazır. Hansı nəticə?

R.Qaraca bu nəticəni belə izah edir:

«Azərbaycan şeirində hələ də heca, gəraylı, qoşma şeiri hakimdir, Rəsul Rzanın sərbəst şeir eqidası altında ədəbiyyata gətirdiyi adamların səsi get-gedə batıqlaşdı, suyu quruyan bulağa bənzədilər, sərbəst düşüncənin daşıyıcıları ola bilmədilər».

Rəsul Rza haçan, harda demişdi ya qarşısında məqsəd qoymuşdu ki, şeirimizdən hecanın, gəraylının, qoşmanın kökünü kəsəcək və ümumiyyətlə, belə sərsəm fıkir hansı şairin ağlına gələ bilər? O ki, qaldı Rəsul Rzanın Rasim Qaraca dediyi kimi «sərbəsl şeir eqidası» altında ədəbiyyata gətirdiyi adamlara, birinci onu deyək ki, Rəsul Rza heç kəsi ədəbiyyata gətirməyib, öz gücü, öz istedadıyla şeirə gələnlərə dayaq olub, yeri gələndə onları müdafiə edib və heç bir vaxt onların yazılarına qiymət verəndə vəzni əsas götürməyib. Amma indi ki, R.Qaraca «Sərbəst şeir eqidasından» söz açır, gəlin görək kimlər idi bu vəzndə yazanlar və Rəsul Rzanın yenə də Rasim Qaracanın təbirincə desək, ədəbiyyata gətirdiyi adamlar: Əli Kərim, Fikrət Qoca, Fikrət Sadıq, İsa İsmayılzadə, Ələkbər Salahzadə, Vaqif Səmədoğlu, Ramiz Rövşən, Çingiz Əlioğlu, Vahid Əziz və başqaları. Onlar haqqında «səsləri get-gedə batıqlaşan, suyu quruyan bulağa bənzəyən» kimi şairə

yaraşmayan ifadələr işlədəndə Rasim Qaraca ölənlərin ruhu, dirilərin özləri qarşısında, nəhayət, öz ədəbi vicdanı qarşısında xəcalət çəkmirmi? Və demək olarmı ki, məsələn, Ramiz Rövşən yaradıcılığının ilk dövründə daha çox sərbəst vəzndə yazarkən azad düşüncəyə malik idi. İndi gəraylı yazarkən bu düşüncədən məhrum olub, Rasim Qaraca isə məhz sərbəst vəzndə yazdığı üçün azad düşüncəli şairdir?

Rasim Qaracanı ədəbiyyata təsadüfü adam saymıram. «Ədəbiyyat qəzeti»nin 7 dekabr 2001-ci il nömrəsində dərc olunmuş şeirləri onun istedaddan məhrum olmadığına dəlalət edir. Amma özünün XXI əsr şairi olmasını XX əsrin əvvəllərindəki fransız dadaistlərinə oxşatmaqla isbat etmək istəyən Rasim Qaracanın ycnə də «Ədəbiyyat qəzeti»ndə dərc olunmuş (18 may 2001)

Yol xora xalı təpər,
Şal çaya malı çəpər,
Kim hərə külü şəhər,
Vay bərə çini xoruz.

tipli söz həftəbecərindən ibarət olan misralarında nə sətiraltı, nə sətirüstü, nə sətiriçi bir dəyər olmadığını gənc şair özü də bir gün başa düşəcək. Nə qədər tez başa düşsə o qədər yaxşıdır. Və bunu haçansa başa düşsə Azərbaycan şeirində çoxdan açılmış yolla gedə-gedə bu yolu açanların xatirəsinə hörmətsizliyin də heç bir şairə və heç bir insana başucalığı gətirmədiyini də bəlkə başa düşdü.

Rasim Qaracanın «Sətiraltı» adlı yazısında bir doğru fikir var:

«Görkəmli ictimai xadim Rəsul Rzanın adı 100 ildən sonra da Azərbaycan xalqının yaddaşında yaşayacaq, hər hansı övlad və ya dövlət (xadiminin) himayəsinə ehtiyac olmadan».

Rəsul Rzanın görkəmli ictimai xadim olmaqdan əvvəl şair olmasını nəzərdən qaçırmasaq, doğru sözlərdir.

Rəsul Rzanın nə bu gün övlad ya dövlət himayəsinə ehtiyacı var, nə də yüz ildən sonra olacaq. Ancaq yüz ildən sonra şeirə, sənətə daha peşəkar, daha səviyyəli, daha qərəssiz və daha insaflı qiymət verən insanların yetişəcəyinə də inanmaq istərdim.

Bu gün ara-sıra bəzi mətbuat səhifələrində Rəsul Rzaya qarşı haqsız, ədalətsiz və insafsız hücumların obyektiv və subyetiv səbəbləri var. Obyektiv səbəblər bu yazı müəlliflərinin, xüsusən də cavan əhli-qələmlərin, jurnalistlərin o dövr haqqında, Rəsul Rzanın ömrü, yaradıcılığı və ictimai fəaliyyəti haqqında çox səthi, dayaz təsəvvürlərə malik olması, onu məktəb illərindən yalnız «Lenin» poemasının yazarı kimi tanıması, ötən illərin hadisələri, faktları və həqiqətlərini bilməmələri və ya bilmək istəmədikləridir. Paradoks ondan ibarətdir ki, sağlığında Rəsul Rzanı digər müasirlərinə bənzəmədiyinə, öz yoluyla getdiyinə görə tənqid edirdilər, indi isə onu başqalarının arasına qatıb onların suçlarına da ortaq edərək günahlandırırlar. İnanmaq istəyirəm ki, qənaətlərində səmimi olaraq yanılanlar mənim bu yazımdakı ancaq sənədlərə və faktlara isnad edən mülahizələrimdən nəticə çıxara biləcəklər. Əlbəttə, bu gün gənc nəsil şairlərinin, tənqidçilərinin arasında da Rəsul Rza yaradıcılığına ciddi şəkildə yanaşan və qiymətləndirən müəlliflər az deyil. Bu cəhətdən Hacı Azər Əbilovun «Yeni Azərbaycan» qəzetinin bir neçə nömrəsində Rəsul Rzaya həsr etdiyi silsilə məqalələri mənə maraqlı göründü. Müəllifin mülahizələri şairin yaradıcılığına yeni dövrün, yaşadığımız zamanın baxışı kimi diqqət çəkir: «İctimai əhval, sosial gedişat, siyasi quruluş dəyişildikdən sonra belə Rəsul Rza müstəqil Azərbaycanın ən böyük şairi olaraq qalır. Quruluşun yaşamağa gücü çatmadı, şair isə yaşayır və yaşayacaq» sözlərini yazan Hacı Azər bir qədər qəribə görünə biləcək fikir də söyləyir: «Bu gün hətta Leninin özü belə Rəsul Rza poeziyasına sığınıb XXI əsrə ən azı ədəbi bir obraz kimi daxil olmaq ehtiyacı içərisindədir».

Rəsul Rzaya qarşı bəzən bu gün belə davam edən bədxah münasibətin subyektiv tərəflərinə gəldikdə isə, belə şəxsi

qərəzlik mövqeyindən çıxış edən adamları heç bir faktla, heç bir dəlil-sübutla inandırmaq mümkün deyil, çünki bu faktların, həqiqətlərin çoxunu onlar özləri də çox gözəl bilirlər və bilə-bilə ağa qara deyirlər, bilə-bilə rəhmətə getmişlərin xatirəsini qaralayırlar. Səbəb? Bu da başqa bir paradoksdur.

Gənc yaşlarımda, ədəbiyyat dünyasına yeni gəldiyim illərdə Rəsul Rzanı istəməyənlər mənə də düşmən gözüylə baxırdılar. İndi isə məndən nə səbəbdənsə narazı qalanlar «qisaslarını» atamın xatirəsindən almağa çalışırlar. Kimsə umduğu və layiq bilinmədiyi fəxri adı, ya mükafatı almayıbsa, bunun günahını Yazıçılar Birliyinin sədri kimi məndə görür və hayıfını məndən çıxmaqla ürəyi soyumayıb Rəsul Rzanın ünvanına da föhş və hədyan yağdırır. Bu sahədə respublikanın əməkdar böhtançısı, qrafoman Ələviyyə Babayeva xüsusi canfəşanlıq göstərir. Böyük Hüseyn Cavidin ruhunu incidən, Səməd Vurğun haqqında çirkin uydurmalar yazan bir adamın Rəsul Rza haqqında da iftiralar söyləməsini təbii qəbul etmək lazımdır. Ələviyyə Babayevanın kim olduğunu ədəbi aləmdə hamı yaxşı bilir və belə bir adamdan ayrı şey gözləmək də olmaz. Ancaq yazıçı Şamo Arifin də bu «xanımın» yalanlarını təkrar etməsi, Rəsul Rzaya qarşı hücumlarına züy tutması, Ələviyyə Babayeva yalan palanlarını kitab şəklində çap etdirərkən bu kitaba redaktorluq etməsi təəssüf doğurur. Şamo Arifin atası, Xalq yazıçısı, şəkli mənim iş otağımda asılmış Süleyman Rəhimov vaxtilə Rəsul Rza haqqında yazdığı «Hey axtaran şair» adlı məqaləsində özünəməxsus üslubda deyirdi:

«Rəsul dağa-daşa dırmanan, Vətənin gizli sərvətlərini gəzib tapan kəşfiyyatçı kimi axtarıbdır. Belə bir kəşfiyyatçı hey dağa-daşa dırmanar, sıldırım qayalardan, başı tufanlı dağlardan, dibsiz dərələrdən qorxmaz, çəkinməz, axtarar. Bu kəşfiyyatçının əynindəki paltar əzik-üzük olar, ancaq torbasına Vətən daşı, Vətən torpağı toplayar. Belə kəşfiyyatçı ildırımlardan ürküb-çəkinməz, gizlənib tir-tir titrəməz, hey axtarar. O bilir ki, hamar yolda nə varsa, ya bu yolun yan-yörəsində nə tapmaq mümkünsə, hamsı tapılıbdır. Siz deyin, heç belə ildırım

odlarından, yazın gurşadlarından, sel-sulardan keçən kəşfiyyatçı qocalarmı? Kəşfiyyatçı qocalsa da, dağlarda başına qar yağıbdır. Mən Rəsul Rzanı axtaran, hey axtaran, bir çox sərvəti dürüst tapan, bəzən də tapa bilməyən, ancaq tapa bilmədikdə həvəsdən düşməyən, «yoruldum» deməyən bir kəşfiyyatçı kimi, bir şair kimi təsəvvürümə gətirirəm... Rəsul Rzanın «Lenin» dastanı həmin bu axtarışın nəticəsi olaraq yaranan, ətrafını işıqlandıran, Azərbaycan sovet poeziyasının şöhrətini aləmə yayan bir dastan, sönməz əbədi bir məşəldir... Rəsul Rzanın mövzu dairəsi geniş, yaradıcılığı əlvandır. Rəsul Rza şeirində mənim xoşladığım ümdə cəhət onun şeirə gətirdiyi, gətirməyə çalışdığı həyatilik və konkretlikdir. Bəzən baxırsan Rəsul Rza nəinki əlli yaşına dolmuş kimidir, sanki o, 35 yaşlı gəncdir, bir qədər də «nadinc uşaqdır»... Biz də yeni-yeni şeirlər, nəğmələr, poemalar naminə şair Rəsul Rzaya yeni yaradıcılıq fərəhləri, gənclik təbəssümləri arzu edirik».

Şamo Arif Rəsul Rza haqqında Ələviyyə Babayevanın nalayiq sözlərini təkrar edəndə heç olmasa dədəsinin yazısını xatırlayaraq utanıb xəcalət çəkəydi.

Vaxtilə Şamo Arifin özü də Rəsul Rzaya tamamilə başqa münasibət bəsləyirdi. Şairə göndərdiyi təbrik teleqramı beləydi:

«Rəsul müəllim! Sizin ünvanınıza ən böyük ləyaqətli sözlər qoşulub, mən bunların hamısına şərikəm. Ancaq deyərdim ki, Sizin şəxsiyyətiniz barədə az yazılıb, az söylənilib, bu da sizin mərdliyiniz, insanlığınız, mübariz kişiliyinizdir. Belə incilərə məxsus insana mən pərəstiş etməyə bilmirəm. Dərin hörmətlə

Şamo Arif»

Bu sözlər Rəsul Rzanın sağlığında və Şamo Arifın məndən narazı qalmadığı vaxtlarda yazılıb. İndi isə o, Rəsul Rza haqqında «ləyaqətli sözlərə» deyil, ləyaqətsiz sözlərə qoşulur.

Şamo Arif müxtəlif yazılarında yeri gəldi, gəlmədi şərəfdən, qeyrətdən dəm vurur. Halva-halva deməklə ağız şirin

olmadığı kimi «şərəf» və «qeyrət» sözlərini tez-tez işlətməklə də bu keyfiyyətlərə həqiqətən malik olmaq mümkün deyil.

Əlbəttə, hər iki cinsdən olan «ələviyyələrin» Rəsul Rza şəxsiyyətinə, yaradılıcılığına atdığı çirkabların elə böyük bir əhəmiyyəti yoxdur. Təmiz su murdar götürməz deyiblər.

Rəsul Rza sağlığında olduğu kimi, vəfatından 21 il sonra da indi mətubat səhifələrinə çıxarılması üçün imkan yaranmış danosların hədəfidir.

Elə bu kitabda gətirdiyim faktlardan və sitatlardan da aydın olur ki, Rəsul Rza sağlığında ömür boyu «ədəbi mığmığalar» adlandırdığı nadan, cahil, paxil və kinli adamcıqların hücumlarına məruz qalıb. Bu «ədəbi mığmığalar» şairin ölümündən sonra da onu sancmaqdan həzz alırlar. Yazıçılıq iddiasına düşmüş, amma bununçün nə istedadı, nə ağlı çatmayan bir qrafoman da uğursuzluğunun səbəbini öz iqtidarsızlığında deyil - gah Yazıçılar Birliyində, gah da onun rəhbərliyində axtarır. Bu məqsədlə mənim haqqımda ağzına gələn hədyanları toqquşdurmaqla ürəyini soyuda bilməyib axır vaxtlar sırf gəda xislətiylə Rəsul Rza haqqında da hərzə sözlər söyləməyə başlayıb. Qarayaxa qaragüruh qəzetinin səhifələrində bu «ədəbi mığmığa» dızıldayır:

«Bakı göylərində Rəsul Rza təyyarəsi çoxdan qəzaya uğrayıb» Vətən satqını, alman faşist işğalçıları qarşısında nökərçilik edən fransız L.F.Selini özünə büt seçən bu adam əsgidən bu günə Azərbaycan türkcəsində yazıb-yaradan bütün sənətkarlara patoloji nifrət bəsləyir. Guya ki, onun ortaya az çox dəyəri olan bədii əsər qoya bilməməsində kiminsə günahı var. Rəsul Rza haqqındakı sözləri də məhz bu yanağanlığının ifadəsidir. Amma bu zat unudur ki, təyyarə də uçur, mığmığa da. Təyyarə yüksəklərə qalxıb buludlar arxasında mığmığalar üçün görünməz olanda mığmığalara elə gəlir ki, o, qəzaya uğrayıb. Mığmığalar öz tüfeyli ömürlərini - yəni adamları sancıb qanlarını sormağı davam edirlər. Qanı sorulandan biri təngə gəlib mığmığanı bir şapalaqla əzənə qədər.

Belə mığmığalara ən sərrast cavabı Rəsul Rza özü verib:

Cücü mığmığalar
qaranlıq sevir, nəm sevir,
durğun hava sevir.
Ədəbi mığmığalar,
firsət gəzir, girəvə axtarır.
Dava sevir.
Hələ deyək, adi mığmığaya
yaşamaq üçün qan gərəkdir.
Bəs siz?
Ədəbi mığmığalar?
Axı siz özünüzü adam sayırsınız.
Niyə həşəratı yamsılayırsınız?

(1962. Bu şeirin altında 2002 tarixini də qoymaq olar)

***

Rəsul Rzaya bu gün bəzi yazılarda tutulan bir irad da ondan ibarətdir ki, o da, digər məşhur şairlərimiz, yazıçılarımız kimi sovet dövründə yüksək mükafatlar, fəxri adlar alıb. Doğrudan da, Rəsul Rza istedadıyla, inadlı və dönməz ədəbi mübarizəsiylə o quruluşun bir çox yüksək təltiflərini qazanmışdı. Ancaq onu da unutmaq olmaz ki, bu yüksək adlar, mükafatlar o dövrün heç bir sənətkarını tənqidlərdən, təzyiqlərdən, təqiblərlən sığorta etmirdi. Sovet dövlətinin daha da yüksək mükafatlarını almış Dmitiri Şostakoviç və Sergey Prokofyev kimi dahi bəstəçilərin Stalin dövründə kəskin tənqidlərə məruz qalması, əsərlərinin yasaq edılməsi, ifa olunmaması, Xruşşov dövründə İlya Erenburq kimı mükafatlı, dünya şöhrətli yazıçının pis günə qoyulması, Brejnev dövründə Tvardovki kimi Rusiyanın ən böyük şairlərindən birinin «Новый мир» jurnalının redaktorluğundan amansızcasına uzaqlaşıdırılması, pisikdirilməsi, nəticədə çərrədib öldürülməsi dediklərimin ancaq bir neçə örnəyidir. Rəsul Rzanı da aldığı müxtəlif fəxri

adlar və mükafatlar ömrünün çətin dövrlərində çox az dərəcədə sığortalayırdı. Hər halda ən amansız tənqid kompaniyalarından qoruya bilmirdi.

Başqa bir fikir də var. Guya ki, ədəbiyyat, sənət sahəsində yaradıcılığınla, sənətinlə, fəaliyyətinlə qazandığın hansısa mükafatlardan indiki kimi asanlıqla imtina etmək mümkün idi. Xeyir, bu mükafatlardan, adlardan, imtiyazlardan nə böyük Üzeyir Hacıbəyov, nə Səməd Vurğun, nə Bülbül, nə Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Rəşid Behbudov, Əliağa Vahid, Səttar Bəhlulzadə imtina edə bilərdi. (İndinin özündə, hansısa mükafatdan imtina etmək bir növ öz-özünü iki qat mükafatlandırmağa bənzəyir. Bir dəfə mükafat alanda dövlət tərəfindən təltif olunursan, bir dəfə də xeyli müddət sonra bu mükafatdan imtina edərkən müxalifət mətbuatı tərəfindən göylərə qaldırılırsan).

Böyük rus şairi Boris Pasternak haqlı olaraq o dövr sovet ədəbiyyatının vicdan etalonu kimi qəbul olunur. Ancaq 1939-cu ildə başqa sovet yazıçıları ordenlərlə təltif olunanda Pasternak bir şey almamışdı. Buna etirazını bildirərək o vaxtki partiya rəhbərlərindən MK katibi A.S.Şerbakova göndərdiyi məktubda yazırdı:

«Mənə elə gəlir ki, mən indi laureat olanlardan və orden alanlardan az iş görməmişəm ki, məni onlardan aşağı tutsunlar. Bu məsələylə əlaqədar İosif Vissarionoviçə müraciət etməyi xırdaçılıq sayıram.

Sizi sevən

B.Pasternak»
(«Литературная газета» 24.IX1997)»

Əgər vicdan mücəssəməsi böyük Boris Pasternak belə bir xahişi özünə rəva bilibsə, adicə bir komsomol mükafatına tamarzı olanları qınaya bilərikmi və yaxud belələrinin özlərinin indi kiməsə irad tutmağa mənəvi haqqı varmı?

***

Sual oluna bilər: Rəsul Rzanın kommunist ideolojisinin qəliblərində yazılmış əsərləri yoxmudur? Əlbəttə, var.

Sual oluna bilər: Rəsul Rzanın ötəri, zəif, orta səviyyəli şeirləri yoxmudur? Əlbəttə, var.

Şairin özünün tərtib etdiyi keçən beşcildliyinə salınmış 615 şeir və 19 poemadan mənim zənnim və zövqümcə 15-20 şeir və iki-üç poemanı zəif əsər saymaq olar. Şablon, uzun, ritorik şeirlər sadəcə söz yığınıdır, bəzi başqa çağdaş şairlərimizin bu sayaq yüzlərcə şeirindən fərqlənmir. O da əlamətdardır ki, dövrün, mühitin, rejimin rəsmi ideoloji tələblərinə uyğun olaraq, bəlkə də poetik təbini zorlayaraq məcburi şəkildə yazılmış bu şeirlər «Oktyabr», «Sovet İttifaqı Kommunist partiyasına», «Oktyabr nəğməsi», «Doğma, əziz partiya», «Komsomol sözü» və bu qəbildən bir neçə başqa şeir bədii cəhətdən də Rəsul Rzanın ən sönük əsərləridir.

Həmin əsərlərin tənqidinə yer ayırmıram. Ömrü boyu yüz cür hücuma sinə gərmiş şairin indi də öz oğlu tərəfindən tənqid atəşinə tutulması qəribə görünməzdimi? Həm də ki, bu mübarək işi görənlər yəni Rəsul Rzanı haqlı-haqsız tənqid edənlər keçmişdə də kifayət qədər vardı, indinin özündə də toxumu kəsilməyib.

Bu gün də Rəsul Rzanın bəzən tənqid hədəfinə çevrilməsindən üzülmürəm. Əksinə, bu mənimçün Rəsul Rzanın diriliyinin daha bir sübutudur. Ölülərlə çarpışmazlar. Yalnız dirilərin özləriylə və xatirələriylə bu gün belə onların təsir gücündən ehtiyatlanaraq mübarizə apararlar. Ömrü mübarizələrdə keçmiş Rəsul Rza bu gün yenə də canlı bir varlıq kimi savaş meydanındadır.

Rəsul Rza yaradıcılığını tarixin arxivinə verməyə can atanlar tələsməsinlər. Aprelin 1-də vəfat edən Rəsul Rza mayın 19-da anadan olub.

Apreldən sonra may gəlir. Soyuq, küləkli bir gündə, soyuq, sazaqlı bir dövrdə dünyamızı tərk edən Rəsul Rza «güllü

bir may səhərində» Azərbaycanımızın İstiqlal ayında yenidən dünyaya gəlir.

Od nə çəkdi,
küldən soruş!
Baş nə çəkdi,
dildən soruş!
İşə susuz barmaqların
kədərini insan bilir.
Nəğmələrin həsrətini
bir qırılmış teldən soruş!
Ömrün çətin yollarında
daşa ləpir salsa ayaq.
gün nə çəkdi,
ildən soruş!
Zülmətlərin möhnətini
kor söyləsin!
Bəm xalların fəryadını
zildən soruş!
Mən kölgəsiz bağ görmədim,
El dərdi tək dağ görmədim,
Gözlərimi yumub açdım
neçə dostu sağ görmədim.
Mən yolçuyam,
mən yoldayam.
Od nə çəkdi küldən soruş!
Hansı şeirim,
hansı sözüm
yaşayacaq məndən sonra?
Mən bilmirəm, eldən soruş!

(Yanvar, 1964)

***

Rəsul Rzanın bir arzusu vardı. Həmişə bizə deyərdi ki, mən mütləq XXI əsri qarşılayacam, yeni minillikdə heç olmasa, bircə gün yaşayıb sonra öləcəm.

Yanılırmış. O, özü bizi XXI əsrdə qarşılayır. Çünki ən müxtəlif insanların dönə-dönə dediyi kimi, o, gələcəyin, həm də yalnız yaxın gələcəyin deyil, uzaq gələcəyin şairidir. Bu günlə yaşayan insanların, sabah üçün yaşayan insanları anlaması zor işdir.

İnanıram ki, XXI yüzildə də Rəsul Rza yenə ədəbi, ictimai çarpışmaların mərkəzində olacaq, yenə də ilk gəncliyindən başladığı mübarizəsini - yeni şeir, yeni sənət, yeni düşüncə, azad, demokratik milli şüur, millətinin müstəqil həyatı, yer üzündə bütün xalqların əmin-amanlıq və barış içində yaşaması, ürəkdən ürəyə, ölkədən-ölkəyə yolların açılması, hər bir insanın ləyaqəti uğrunda mübarizəsini davam etdirəcəkdir.

Bu yazını dörd il müddətində əfsus ki, ancaq yay aylarında yaza bildim. Oxucu bu sözlərlə yazımın əvvəlində verdiyim bir məlumat arasında təzad görə bilər. Axı demişdim ki, bu yazını Rəsul Rzanın beşcildliyinə Ön söz kimi düşünüb, sonra Arif Əmrahoğlunun təklifiylə daha geniş şəkildə ayrıca kitab kimi işlədim. Bəli, belədir, amma məsələ ondadır ki, mənim dörd ildən bəri yazdığım kitabın - «Əsrim və nəslim» xatirə romanımın xeyli hissəsi elə atama həsr olunub. Odur ki, həmin əsərdən münasib hissələri seçdim və təbii ki, onları bir qədər ayrı səpkidə işləyərək müəyyən əlavələrlə bu yazımı yazdım.

Və həmin bu yazımı - Rəsul Rzanın həyatı və yaradıcılığı haqqında düşüncələrimi atamın öz sətirləriylə yalnız bircə sözünü dəyişərək və şairin özünə xitab edərək bitirmək istəyirəm:

Mübarizə bu gün də var, yarıda
SƏN də onun ən ön sıralarında.

ANAR

1997-2001.
Yay ayları. Zuğulba

Ömrün illəri

1910 - Mayın 19-da Göyçayda Mirzə İbrahim Məmmədağa oğlu Məmmədxanovun (1875-1915) və Məryəm Hüseyn qızı Rzayevanın (1882-1952) üç qız övladından sonra (ikinci qızları körpəykən vəfat edib) yeganə oğulları dünyaya gəlir. Adını Rəsul qoyurlar.

1913 - İyunun 29-da Gəncədə cərrah Xudadat bəy Ələkbər oğlu Rəfibəyovun (1878-1920) və Cəvahir Mirzə qızı Rəfibəyovanın (1880-1955) iki oğlan övladından sonra yeganə qızları Nigar dünyaya gəlir.

1915 - Bakıda Miızə İbrahim Məmmədxanov vəfat edir. Burada da (keçmiş Çəmbərəkənddə) dəfn edilir.

1916-17 - Rəsul ibtidai məktəbə gedir.

1924-1925 - Göyçayda şəhər kitabxanasının müdiri işləyir. (III) (IX)

1925-26 - Göyçayda qəza komsomol komitəsinin inspeksiyası müdiri işləyir. (XI) (VII).

1925 - Nigar Rəfibəyli Bakıya gəlib Pedtexnikuma daxil olur.

1926-1929 - Rəsul Tiflisdə Zaqafqaziya Kommunist Darülfününün koperasiya kurslarında oxuyur.

1927 - Tiflisdə «Qığılcım» almanaxında Rza Göyçaylı imzası ilə «Bu gün» adlı şeiri çıxır. Bu şairin ilk mətbu əsəridir. Tiflisdə «Dan ulduzu» almanaxında R.Nigarın ilk mətbu şeiri «Çadra» dərc olunur.

1930 - Rəsul Rza Bakıya gəlir, A.Faruqun vasitəsilə cavan şair və yazıçılarla tanış olur. «Gənc işçi» qəzetində işləməyə başlayır.

1930-32 - Nigar Rəfibəyli Bakıda Tramvay parkının fabrik-zavod məktəbində müəllimə işləyir. Eyni vaxtda Bakı kinostudiyasının ssenari şöbəsində, sonra isə Azərnəşrdə işləyir.

1931 - Rəsul Rza Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutuna ekstern imtahan verib aspiranturaya qəbul olunur.

«İnqilab və mədəniyyət» jurnalında (№3-4) «Bolşevik yazı» şeiri dərc edilir.

Nigar Rəfibəyli ilə tanış olur.

1932 – "Çapey» adlı ilk kitabı nəşr olunur. AZAP-a üzv qəbul olunur.

1932-1936 - N.Rəfibəyli Moskvada Bubnov adına Pedaqoji İnstitutda təhsil alır. Təhsilini bitirib Bakıya qayıdır.

1934 - N.Rəfibəylinin «Şeirlər» adlı ilk kitabı çapdan çıxır.

Yazıçılar İttifaqına üzv qəbul olunur.

1934-1937 - R.Rza Moskvada kinoakademiyada təhsil alır.

1935 - R.Rzanın «Qanadlar» adlı ikinci kitabı və rusca ilk kitabı «Крылья» çapdan çıxır.

1936 - Yazıçılar İttifaqına üzv qəbul olunur.

1937 - Fevralın 11-də Rəsul Rzayla Nigar Rəfibəylinin toyu olur.

N.Rəfibəylinin «Стиховорение» adlı rusca ilk kitabı nəşr olunur.

1937-1938- R.Rza kinostudiyada ssenari şöbəsinin müdiri işləyir. (VII) (I).

1938 - R.Rza Azərbaycan Dövlət Filarmoniyasının direktoru vəzifəsində işləyir. Moskvada Azərbaycan incəsənətinin birinci dekadasında iştirak edir.

Birinci çağırış Azərbaycan SSR Ali Sovetinə deputat seçilir.

Şərəf nişanı ordeni ilə təltif olunur.

Martın 14-də ilk övladları Anar dünyaya gəlir.

1938-1939 - Azərbaycan Sovet Yazıçılar İttifaqı İdlarə heyətinin sədri vəzifəsində çalışır. (V-IX).

Yeravanda Sasunlu Davud və Kiyevdə Taras Şevçenko yubileylərində iştirak edir.

1938- Sov.İKP-yə üzv qəbul edilir.

«Çinar» kitabı nəşr olunur.

1941- Dekabrda Azərbaycan nümayəndə heyətinin tərkibində Novorossiyskə döyüşən orduya gedir.

1941-1942 - Qafqaz və Krım cəbhələrində hərbi müxbir kimi iştirak edir.

1942-1944 Bakı kinostudiyasının müdiri vəzifəsində işləyir. (IX - IV)

1942-1943-R.Rzanın «Vətən», «Ölməz qəhrəmanlar», «Bəxtiyar», «İntiqam!... İntiqam!...», «Qəzəb və məhəbbət», Leytenant Bayramın gündəliyindən», «Суровые дни» şeir, nəsr və publisistika kitabları çıxır.

1943 - Martın 7-də ikinci övladı Fidan dünyaya gəlir.

Mayda M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında «Vəfa» pyesinin ilk tamaşası olur.

1944-1946 - Kinematoqrafiya işləri idarəsinin rəisi vəzifəsində işləyir. (IV - VI).

1944-1945 - İranda, Cənubi Azərbaycanda, Təbrizdə, Ərdəbildə, Xoyda, Azərşəhrdə, Sərabda, Səlmasda olur.

1945- Əməkdar incəsənət xadimi adını alır.

1945-1949 - (VI-II) Azərbaycan SSR Kinematoqrafiya naziri vəzifəsində işləyir.

1946 - Lenin ordeni ilə təltif olunur.

1948 - Mayın 9-da üçüncü övladı Təranə dünyaya gəlir. «Lenin» poeması Azərbaycan və rus dillərində ilk dəfə nəşr olunur.

1951- «Lenin» poemasına görə SSRİ Dövlət mükafatına layiq görülür.

Kiçik bacısı Turə vəfat edir.

1951- Anası Məryəm xanım vəfat edir.

1949-1959 - Bircildlik seçilmiş əsərləri *(1949),* «Si-Au» *(1951),* «Günəşin sorağında» *(1952),* «Избранные стихи» Moskva, *1952),* «Könül səsləri» *(1954),* «Səkil və Çəkil» *(1955),* ikicildlik seçilmiş əsərləri *(1955-1956),* «Heyvanların yuxusu» *(1956),* "Стихи» (Moskva, *1958),* «Təranənin oyuncaqları» *(1959,* Избранные произведение), *1959* kitabları çıxır. «Lenin» poeması Moskvada *(1952,* ikinci nəşr

1957), habelə tatar *(1954),* gürcü *(1955),* erməni *(1957)* dillərində nəşr edilir.

1955- Çexoslovakiyaya səfər edir.

1956-Nigar xanımla birlikdə gəmiylə Avropa ölkələrinə səyahətə çıxırlar. Bolqarıstanda (Varna), Rumıniyada, Türkiyədə (İstanbul), Yunanıstanda (Pirey, Afına), İtaliyada (Roma, Neapol), Hollandiyada (Rotterdam, Amsterdam, Haaqa) olurlar.

1957-SSRİ Yazıçılarının II Qurultayında nümayəndə kimi iştirak edir.

Moskvada Gənclərin Ümumdünya festivalında iştirak etməyə dəvət olunur.

1958- Moskvada Sütunlu salonda Füzulinin 400 illiyinə həsr olunmuş təntənəli iclasda məruzə edir.

Azərbaycan Yazıçılar İttifaqının Naxçıvanda keçirilən Plenumunda məruzə edir.

Daşkənddə Asiya və Afrika yazıçılarının konfransında çıxış edir.

Nümayəndə heyətinin tərkibində Albaniyaya səfər edir.

1959- Misrə və İraqa səfər edir. İraqda yaşayan Azərilər haqqında «Uzaq ellərin yaxın töhfələri» adlı məqalə yazır.

R.Rza və N.Rəfibəyli SSRİ Yazıçılarının III Qurultayına nümayəndə, R.Rza isə SSRİ Yazıçılar İttifaqının İdarə heyətinə üzv seçilirlər.

Cəfər Cabbarlının 60 illiyi yubiley komitəsinə sədr olur.

Avstriyaya səfər edir.

1960- Rəsul Rzanın 50 illiyi təntənəylə qeyd olunur. Ona Xalq şairi adı verilir.

1961 - Sovet nümayəndə heyətinin tərkibində Hindistada, Birmaya və İndoneziyaya səfər edir. U Nu, Sukarno, Aydit, Nyoto və başqa dövlət və ictimai xadimlərlə tanış olur. Yuqoslaviyada, Strujko poeziya festivalında iştirak və çıxış edir.

1963 - Sovet nümayəndə heyətinin tərkibində ikinci dəfə Hindistana gedir. C.Nehruyla tanış olur, Hindistan parlamentində çıxış edir.

1965- Bolqarıstana səyahət edir. Sovet nümayəndə heyətinin rəhbəri kimi Livanda görkəmli ictimai xadim Şəkib Jaberin abidəsinin açılışında çıxış edir. Livanın məşhur siyasi xadimi Kamil Cambulat tərəfindən qəbul edilir.

1965-1975 - Azərbaycan Sovet Ensiklopediyasının Baş redaktoru vəzifəsində işləyir.

1966-Səməd Vurğunun 60 illiyi Yubiley Komitəsinin sədri olur, Bakı və Moskvada Səməd Vurğun gecələrində çıxış edir.

1967-E.Mejelaytesin dəvətilə Vilnüsdə Litva poeziya günlərində iştirak edir.

1968-Azərbaycan nümayəndə heyətinin tərkibində Suriyaya səfər edir, Hələb şəhərində Nəsiminin qəbrini tapmağın təşəbbüskarı olur.

1968 - N.Rəfibəyliylə, Azərbaycan və gürcü yazıçılarıyla bir yerdə Türkiyəyə səfər edir.

Livana ikinci dəfə səfər edir.

Mikayıl Müşfiqin 60 illiyini keçirən yubiley komissiyasına rəhbərlik edir. Bakıda Müşfiqin abidəsinin açılışında çıxış edir.

1969-N.Rəfibəyliylə birlikdə Türkiyəyə yaradıcılıq ezamiyyətinə gedir.

1960-1970 - «İllər və sətirlər» (1960), «За солнцем» (Moskva, 1961), «Pəncərəmə düşən işıq» (1962), «Свет упавший в окно» (Moskva, 1962), «Весна во мне» (1962), «Dəniz, dalğa və damcı» (tacik dilində, 1962), «Duyğular...Düşüncələr»(1964), «Dözüm» (1965), - «Я земля» (Moskva, 1965), Seçilmiş əsərləri (monqol dilində, 1965), «Mənim fikrimcə» (1967) «Qızıl gül olmayaydı» (1968), Dörd cildlik Seçilmiş əsərləri (1967-1974), «Vaxt var ikən» (1970), «Kövrək budaq», «İşıqlar üşüyəndə», «Calasan günü günə» (1970) kitabları nəşr olunur. «Lenin» poeması

özbəkcə (1960), bolqarca (1964), çexcə (1964), polyakca (1965) nəşr edilir. «Rənglər» silsiləsi fransız (1966), ispan (1969) dillərində çıxır. Şeirləri Parisdə «Humanite» və «Летер франсез» qəzetlərində (1966) Kanadada və ABŞ-da (1965) təkrar-təkrar nəşr olunur, böyük maraq doğurur.

1970-Altmış illiyi təntənəylə qeyd olunur. İkinci Lenin ordeni ilə təltif olunur.

1971-Mixaylovskoyedə Ümumittifaq Puşkin şeir bayramında çıxış cdir.

1972-Gürcüstanda şeir bayramında iştirak edir.

1970-1980 - «Şeirlər» (estonca, 1971 - bu kitabın tərcüməçisi eston şairəsi Liy Seppel həmin kitab üçün Estoniya SSR-in Dövlət mükafatına layiq görülüb). «Избранное» (Moskva, 1971), «Rənglər (latışca, 1972), «Hava haqqında» (1972), «Долгое эхо», (Moskva, 1972), Rənglər çexcə, Praqa, 1973), «Bir gün də insan ömrüdür (qırğızca, 1974), «Həyat duyumları (1975), «Şeirlər (ukraincə, 1976), «Güneylər, quzeylər» (1977), «Üzü küləyə» (1978), Lirika (1978), «Пунктиры времени» (Moskva, 1978) kitabları nəşr olunur. «Lenin» poeması qazaxca (1977), ərəbcə (1978) özbəkcə (ikinci nəşr, 1979) çapdan çıxır.

1980 - 19 mayda anadan olmasının 70 illiyi və Sovet ədəbiyyatının inkişafına böyük xidmətlərinə görə Lenin ordeni və «Oraq vo çəkic» ulduzu təqdim olunmaqla Sosialist Əməyi Qəhrəmanı adına layiq görülür.

4 dekabr - Sov.İKP Siyasi Bürosunun üzvü Heydər Əliyev yoldaş Lenin ordeni və «Oraq və çəkic» ulduzunu Rəsul Rzaya təqdim edir. Rəsul Rza haqqında 2 hissəli sənədli «Eldən soruş» filmi çəkilir. (Ssenari Toğrul Cuvarlı, rejissor Ənvər Əbluc).

1981 - Aprelin 1-də Rəsul Rza vəfat edir.

Aprelin 3-də Fəxri xiyabanda dəfn edilir.

İyunun 19-da Nigar Rəfibəyliyə Xalq şairi adı verilir.

İyulun 10-da Nigar Rəfibəyli vəfat edir.

1980-1983 - Rəsul Rzanın «Человек идет» (1981), «Семь чинар» (1981) kitabları, beş cildlik Seçilmiş əsərləri (1980-1983), rus dilində, Moskvada iki cildliyi (1982) nəşr olunur. N.Rəfibəylinin «Радость встречи « (1981) və «Bir həzin axşamda düşsəm yadına» (1982) kitabları çapdan çıxır.

1983 - Aprelin 1-də Rəsul Rzanın qəbirüstü abidəsi açılır (heykəltəraş Elmira Hüseynova, memar Firuz Məmmədov).

1983-İyunun 29-da Nigar Rəfibəylinin qəbirüstü abidəsi açılır (heykəltaraş Seyid Zakiri).

1984-Martın 31-də Rəsul Rzanın və Nigar Rəfibəylinin yaşadıqları evin divarında xatirə lövhəsinin açılışı olur (heykəltəraş Qoıxmaz Sücəddinov, memar Yusif Qədimov).

1986 - Rüstəm Mustafayev adına muzeydə Rəsul Rzanın şəxsi kolleksiyasından tabloların «Rənglər aləmi» adlı sərgisi açılır.

1992 - Yaşadıqları evin küçələrinə - Korqanov küçəsinə Rəsul Rzanın, Yefim Saratovets küçəsinə Nigar Rəfibəylinin adları verilir.

1992 - Bakıda M.F.Axundov adına Respublika kitabxanasının fasadında Rəsul Rzanın heykəli ucaldılır (Heykəltəraş Xanlar Əhmədov)

1995 - Respublika Pen klubu Rəsul Rza beynəlxalq ədəbi mükafatını təsis edir. Mükafatın ilk lauretları Fikrət Qoca və İldəniz Qurtulan (Türkiyə) olur. Mükafat hər il mayın 19-da verilir.

1997- Fikrət Qocanın sədrliyi ilə Rəsul Rza fondu təşkil edilir və bu ildən Rəsul Rza mükafatlarını həmin fond verir.

1998 - Avqustun 3-də Azərbaycan Respublikasının Prezidenti Nigar Rəfibəylinin xatirəsini əbədiləşdirmək məqsədilə Gəncə şəhərində şairənin abidəsinin qoyulması haqqında sərəncam verir.

1998 - Oklyabrın 7-də Gəncədə Sərdar bağında Nigar Rəfibəylinin tunc abidəsinin açılışı olur (Heykəltəraş Münəvər Rzayeva, memar Şərif Şərifov). Abidənin açılışında Prezident Heydər Əliyev iştirak edir.

1987-2000 - Bu illərdə Rəsul Rzanın Bakıda «Mən torpağam» (1998), «Soruş» (On beş dildə «Eldən soruş» şeirinin miniatür nəşri, 1988), «Çinar ömrü» (1988) şeir kitabları, «Duyğuların izi ilə» məqalələr toplusu (1990), uşaqlar üçün «Balacaların təbiət ensiklopediyası» (1990) kitabları nəşr olunur. İranda «Mən torpağam», İstanbulda «Seçilmiş şeirlər» (İldəniz Qurtulanın tərcüməsidə, 1993). Ankarada «Seçilmiş şeirləri» (İldəniz Qurtulanın tərcüməsində, 1993). İstanbulda «Çinar ömrü» (hazırlayanı Səbahəddin Çağın. Anarın Ön sözüylə) kitabları, Nigar Rəfibəylinin Bakıda «Seçilmiş əsərləri» (1993), «Şanlı nəsillərin yadigarıyam» adlı məqalələr, xatirələr, yol qeydləri (1993), «Lirika» adlı miniatür şeir kitabı çapdan çıxır. 2000-ci ildə Rəsul Rzanın «Dünya ədəbiyyatından tərcümələr» kitabı nəşr olunur. «Rəsul Rza» adlı xüsusi qəzet buraxılışı çıxır.

2000 - Aprelin 29-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Rəsul Rzanın 90 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayır. (Təşkilat Komitəsinin sədri Azəıbaycan Respublikası Baş nazirinin müavini Elçin Əfəndiyev).

2000 - Martın 23-də İstanbul Böyük şəhər bələdiyyəsi Tarik Zofor Tuna salonunda Rəsul Rzanın yubiley gecəsini keçirir. Matın 25-də Ankarada Tarix qurumunun konfrans salonunda Əhməd Yasəvi fondu və Əhməd Yəsəvi Universitetinin təşəbbüsüylə «Azərbaycanın böyük türk şairi Rəsul Rza» adlı tədbir keçirilir. Tədbirlərdə Türkiyənin görkəmli siyasi, ictimai, ədəbiyyat və incəsənət xadimlərindən Namiq Kamal Zeybək, İbrahim Balaban, İldəniz Qurtulan, Şenol Dəmiröz, İrfan Çiftçi, Əli Yavuz Akpinar, İrfan Nəsrəddinoğlu, Hürriyyət Ersoy, Bakıdan gəlmiş qonaqlar iştirak və çıxış edir. Türkiyənin baş naziri Biiləndl Ecevidin, Baş nazirin müavini Dövlət Baxçalının, Mədəniyyət naziri İstəmixan Talayın və başqalarınm təbrik teleqramları oxunur.

2000-2001 - Bakının məktəb, kitabxana və mədəniyyət evlərində, Gəncədə, Naxçıvanda, Sumqayıtda, Mingəçevirdə, Qazaxda Rəsul Rzaya həsr olunmuş yubiley tədbirloıi keçirilir.

2001 - Dekabrın 25-də Respublika sarayında Rəsul Rzanın təntənəli yubiley gecəsi keçirilir. Prezident Heydər Əliyevin do iştirak ctdiyi gecəni Elçin açır. Gülrux Əlibəyli, Fikrət Qoca, Vaqif Səmədoğlu, Rafael Hüseynov, Anar çıxış edirlər. Gecənin bədii hissəsinin rejissoru Əsgər Əsgərovdur.

2001-Rəsul Rzanın və Nigar Rəfibəylinin şeirləri və sözlərinə yazılmış mahnılardan ibarət iki disk çıxır (Disklər Cavanşir Quliyevin musiqi redaktəsiylə Etibar Babayev tərəfindən buraxılır. Ön söz Zemfira Səfərovanındır).

2001-Rəsul Rzanın «Rənglər» və «Rəngli yuxular» silsilələri Azərbaycan, rus, ingilis və fransız dillərində ayrıca kitab kimi, başqa şeirlərinin rus dilinə tərcümələri də «Podsnejnik» adlı ayrıca kitab kimi (tərtib edən və ön söz müəllifi Çingiz Əlioğlu) nəşr olunur. Nigar Rəfibəylinin «Şeirlər» kitabı (tərtib edən Fidan Rzayeva, redaktoru Təranə Rzayeva) nəşr olunur. Rəsul Rzanın Beş cildlik «Seçilmiş əsərləri» çapdan çıxır («Azərnəşr». Tərtib edən və ön söz müəllifi Anar. Redaktoru Arif Əmrahoğlu).

2010 Göyçayda Rəsul Rzanın ev muzeyi açılır.Bakıda Filarmoniyada, Moskvada Mərkəzi Ədəbiyyatçılar evində, Ankarada Türksoy binasında, İstanbul Universitetində Rəsul Rzanın 100 illiyi qeyd olunur.

2013 Bakıda Filarmoniyada, Moskvada Mərkəzi Ədəbiyyatçılar evində, Ankarada Türksoyun binasında N.Rəfibəylinin 100 illiyi qeyd olunur.

RƏSUL RZA VƏ NİGAR RƏFİBƏYLİ HAQQINDA KİTABLAR:

«Rəsul Rza». Biblioqrafiya, 1960.

İmamverdi Əbilov. Rəsul Rza, 1960.

İmamverdi Əbilov. Творческий путь

Məsud Vəliyev, Qulu Xəlilov. Rəsul Rza, (Monoqrafiya) 1960.

Gülrux Əlibəyova. Axtarışlar, kəşflər, (Rəsul Rzanın həyat və yaradıcılığı) 1970.

Г.Алибекова. Всегда в путь (Жизнь и творчество Расула Рза) Москва, 1972.

Baqir Baqirov. Поезия Расула Рзы. 1973.

Rahid Xəlilov. Rəsul Rza poeziyası, 1987.

Arif Abdullazadə. Od nə çəkdi... (Rəsul Rzanın ömür və sənət yolu haqqında elmi-publisist araşdırma) 1970.

Xəlil Rza Ulutürk. Rəsul Rza həsrəti (Məqalələr, şeirlər) Tərtib edən və toplayan Firəngiz Ulutürk, 2000.

İki ömrün işığı (Rəsul Rza və Nigar Rəfibəyli haqqında məqalələr, xatirələr, şeirlər toplusu). Tərtib edənlər Rafael Hüseynov, Nizaməddin Şəmsizadə), 1987.

«Rəsul Rza» foto-kitab. Tərtib edən Bağır Bağırov, 1987.

«Хрусталное сердце». Фото-книга. Редактор-составитель Самед Кулиев, 1990.

Anar. Sizsiz, 1992.

Rəfael Hüseynov. Rəfibəylilər. 1996.

«Yaşıl rəngin işığı» (İlk Azərbaycan ensiklopediyasının taleyi ilə bağlı xatirələr, məqalələr toplusu). Tərtib edən Teyyub Qurban 2000.

Xatirələr işığında (Rəsul Rza haqqında xatirələr, məqalələr, çıxışlar). Tərtib edən Anar. Azərbaycan Milli Ensiklopediyasının nəşri, 2001.

«Rəsul Rza. Nigar Rəfibəyli». Foto-kitab. Tərtib edən Nazim İbrahimov. Rafael Hüseynovun ön sözüylə. «Azərbaycan» nəşriyyatı, 2001.

Samirə Orucova. «Rəsul Rzanın ədəbi-tənqidi görüşləri. 2001. «Elm» nəşriyyatı.

«Şanli nəsillərin yadigarı» N.Rəfibəyli haqqında xatirələr, məqalələr şeirlər toplusu.

Əzizim Anar salam!

Əziz Anar, «Mübarizə bu gün də var» adlı 523 səhifəlik əsərin oxudum. Sənə dedim ki, «Gözəl əsərdi», gəldim evə, gördüm yox sənə heç nə deməmişəm. Çox götür-qoy edəndən sonra məktub yazmağı qərara aldım. Janrı barədə - bu bir növ «Gecə düşüncələri»nin davamıdır. Lakin burada düşüncələr faktlar ətrafındadır Bu faktları bir birinə bağlayan gərgin konflikt Rəsul Rza ömrüdür «Min beş yüz ilin Oğuz şeiri» antologiyasını işləyib çap etdirməyinlə bu yeni yazının arasında ilk baxışda görünməyən qəribə bir bağlılıq var. Əslində, XX əsrdə Azərbaycan şairlərinin keçdiyi yol min beş yüz illik Oğuz şeirinin keçdiyi yoldan gərgin, enişli, yoxuşlu və uzundur. XX əsrdə Azərbaycan şairlərinə tutulan divan min beş yüz ildə Oğuz şairlərinə tutulmayıb. Deyə bilərsən. Nəsimini soyublar. Bəlkə də soyublar. Amma keçən əsrin otuz yeddinci illərində Azərbaycanın üzdə olan şairlərini içindən soymuşdular. Allah günahımdan keçsin əgər sərt söz deyirəmsə. Bəlkə ölən, öldürülən şairlər canlarını qurtarırdılar, sağ qalan şairlər hər gün ölüb dirilirdilər, hər gün soyulurdular. Bəlkə də «Gecə düşüncələri»də iki cildlik «Min beş yüz ilin Oğuz şeiri»də, «Min ilin yüz şairi» antologiyası da bu əsas mövzuya başlamaq qorxusundan yaranıb. Bir növ bu yolla Rəsul Rza mövzusu ətrafında dolanırdın, hardan başlamağı, haçan başlamağı düşünmürdün. Sənin bildiklərin, məlumatın o qədərdir ki, onları yazmaq üçün sənə iki Anar ömrü azdır. Rəsul Rza mövzusunun vahiməsindən başqa mövzulara girişə bilərdin, çox şükür ki, Rəsul Rza dəyanəti, Rəsul Rzanın vahimə üstünə hücum çəkmək xüsusiyyəti səndə də var. Əsəri oxuyub qurtaranda qəlbimdən keçən birinci duyğu sənə gözaydınlığı vermək idi. Çünki qəlbindən ən ağır yükü çıxartmısan, yazmısan, azad olmusan. Bu yüklə yaşamaq şübhəsiz çox çətindi, allah eləməsin bu əsəri ürəyində aparmaq ikiqat cinayətdi. Bu əsəri daha yaxşı, daha kim yaza bilərdi? Sualın

cavabı hazırdır! Heç kim! Hadisələrin şahidlərinin çoxu dünyasını dəyişib. Həm də bu mövzu evin içindən, ailənin içindən yazılmalı idi. Elmilik isə yorulmadan, bezmədən sənədlərlə işləmək qabiliyyəti tələb edir. Anar isə gənc yaşlarından sənədlərlə işləmək vərdişi qazanıb, sonralar bunun nəticəsində «Uzun ömrün akkordları» vo «Qəm pəncərəsi» kimi əsərləri yaranıb. Burada sənədlərdən başqa Nigar xanımla, Rəsul Rza ilə, Ənvər Məmmədxanlı ilə söhbətlərindən, Nigar xanım, Rəsul Rza ocağına gəlib-gedənlərin dediklərindən toplanan fikirlər, çıxarılan nəticələr Anarı əvəzsiz edir.

Anar, yuxarıda sadaladıqlarımı birbaşa üzünə deməmək üçün bir sıra səndən üçüncü şəxs kimi danışdım. Əsərin bir yerində deyirsən ki, atamın, mənim yazdıqlarım anamın yazmadıqlarıdı, dəqiq fikirdi. Amma yəqin Nigar xanım deyərdi ki, Rəsul, Anar, Fidan, Təranə mənim yazdıqlarımdır, yazdıqlarımın ən əzizi, ən dəyərlisidir. Nigar xanım da, Rəsul Rza da, Ənvər Məmmədxanlı da ürəklərində arxayın idilər ki, sən nə vaxtsa belə bir əsəri yazacaqsan. Onlar ağıllı, istedadlı insanlar, insan xiridarı idilər. Sənin imkanlarını görürdülər, inanırdılar. Ona görə də az-az, səni çox yükləmədən, bəzən özün soruşanda, bəzən elə-belə olub keçənlərin əslini, həqiqəti sənə danışırdılar. Sənə inamın ilk işarəsi tərifdə xəsis olan, xüsusən oğluna tərifdə xəsis olan Rəsulun « İstəyirəm ki, mənim haqqımda bir yazı yazasan» - deməsi idi. -Rəsul Rza bir bu sözlə ürəyini boşaltmışdı. Rəsulun sənə bundan böyük tərifi ola bilməzdi. Hansı başqa bir alim bu mövzunu işləsəydi o yalnız aysberqin görünən tərəfini əhatə edə bilərdi. Aysberqin suyun altında qalan tərəfini görmək üçün Rəsula, Nigar xanıma, Ənvər Məmmədxanlıya sənin qədər məhrəm olan başqa bir adam yox idi. Rəsulun Yazıçılar İttifaqından çıxarılmasını Mərkəzi Komitənin qərarını əsas götürüb yazacaqdılar. Amma əslində əsərdən göründüyü kimi, R.Rzanın işdən çıxarılmasında əlifbanın dəyişilməsinə münasibət, Abdulla Faruqla Rəsul Rza dostluğu əsas rol oynayıb. Əsər belə məqamlarla doludur. Hadisələrin görünməyən tərəfləri açıldıqca dövrün

ziddiyətləri, faciəvi mənzərəsi adamın gözü qarşısında canlanır. Çox qaranlıq mətləblərə işıq düşür. Rəsul Rza dözümü, cəsarəti, nəhayət qəhrəmanlığı adamı heyran edir. Sovet dövləti ona Sosialist Əməyi Qəhrəmanı adını verəndə də yəqin, Rəsulu mənən sındıra bilmədiyinə görə verib. Qəhrəmanlıq özü mübahisəli anlayışdır. Mən ağacdan yıxılıram, sən demə ağacın dibində Üsamə ben Laden gizlənibmiş. düşürəm onun başına, Üsamə ölür, dünyaya car çəkirlər ki, mən Üsamə ben Ladeni öldürmüşəm. Oluram qəhrəman! Qəhrəmanlıq əslində xarakterdir, təfəkkür tərzidir. Qorxu hissi yalnız ruhi xəstələrdə olmaya bilər. Düşünən insanlarda qorxu hissi təbiidir. Daha dərin düşünənlər isə bilir ki, ömrün axırı ölümdür, ona görə qorxu hissinin ona hakim kəsilməsinə imkan vermir. Elə xarakterlər də var ki, onlar qəsdən canındakı, qarşısındakı qorxunun üstünə gedir. Bilir ki, sussa, konfliktdən yan keçə bilər. Bilir ki, dinsə başı bəlalar çəkəcək, yenə də ikincini seçir. Mən bu kitabda əksini tapmayan, amma şahidi olduğum kiçik bir epizodu xatırlamaq istəyirəm. Altmışıncı illər idi. Yazıçılar qurultayının yekununda Opera Teatırında şeir gecəsi keçirilməli idi. Mən Moskvada təhsilimi yeni qurtarıb gəlmişdim. O qədər də tanınmamışdıın. Dedilər, mən də səhnədə, Rəyasət heyətində oturmalıyam, çıxış etməli idim. Səhnə arxasına keçəndə KP MK ideologiya üzrə katibi ilə rastlaşdım. Bir birimizi yaxşı tanımasaq da onun məndən xoşu gəlmirdi. Onu heç gizlətmək də istəmirdi. İnsafən bu münasibət ikitərəfli idi. Katib yolumu kəsdi:

- Hara gedirsən?! - dedi.

- Dəvət ediblər. Çıxış etməliyəm - dedim.

- Zala düş! - dedi.

Mən qayıtmaq istəyəndə Rəsul Rza gəldi. Mənim qayıtdığımı görüb:

- Hara gedirsən? - dedi.

- Zala, - dedim.

- Sən çıxış etməlisən, yuxarı qalx! - dedi

-Qoymur, - əlimlə maddım-maddım bizə baxan katibi göstərdim.

- Niyə - deyib ona baxdı. Katib nəsə demək istəyirdi. Rəsul müəllim onun sözünü ağzında qoydu:

- ...Yoldaş! Bu Yazıçılar İttifaqının qurultayıdı. Sən burda qonaqsan, özünü də qonaq kimi apar! - dedi. Rəsul Rza bilmirdi ki, MK-nın ideologiya üzrə katibi nə deməkdi? Bilmirdi ki, bu söhbətin hayıfim Rəsuldan necə çıxa bilər? Yaxşı bilirdi, özü də hələ tanınmamış gənc bir şairə görə respublikanın ikinci adamını acılayırdı. Bilirdi ki, məni müdafiə etdiyinə görə o heç nə qazanmır. Heç bəlkə onun bu nəcib hərəkətini bilən də olmayacaq.

Amma özü bu hərəkətinə görə xəlvət, aşkar çox böyük zərbələr ala bilər. Bu xüsusiyyət onun təbiətindən irəli gəlirdi. Bu onun yoğrulduğu xəmirin hökmü idi.

Mir Cəfər Bağırovla qonaqlıqda dilləşdiyi yeri oxuyanda düşündüm ki, o, MK katibi hələ yaxşı qurtarıb. Taleyin hoqqası, zamanın möcüzəsi Rəsul Rza kimi adamın o dövrdən salamat çıxmasıdır. Məntiqsiz heç bir şey yoxdur. Bizə məntiqsiz görünənin biz sadəcə əvvəlini, sonunu görmürük, bilmirik. Əvvəla Rəsul Rza tək deyildi. Həmişə tarixin sınıb başqa dövrə, başqa müstəviyə, başqa mühitə keçdiyi yerdə tale güclü, istedadlı yeni bir nəsil atır meydana. Keçən əsrin əvvəllərində də belə oldu. İstedadlı böyük bir nəsil gənc yaradıcılar meydana çıxdı. Bu gənc nəsildən irəlidə də Hüseyn Cavid nəsli vardı. Repressiyanın ilk zərbəsi Cavid nəslini tutdu. Bu vaxt ərzində arxadan gələn Səməd Vurğun, Rəsul Rza, Süleyman Rüstəm nəsli özünü sübut etdi, özünü tanıtdı, təsdiq etdi. Yaxşı, yaşlılar «düşmən» idisə, bu gəncləri Sovet dövlətinin özü yetişdirmişdi. Bunları qırmaq üçün həm kənardan bunlar haqqında yazılmalı idi, həm də özləri çılğınlıqları, özünü qoruma instinktinin zəifliyi, özünü müdafiədə məntiqinin zəifliyi ilə uduzmalı idilər. Uduzanları da repressiya dalğası udurdu. Səməd Vurğun, Süleyman Rüstəm yaşda Rəsuldan böyük olmasına baxmayaraq, quruculuq işlərində, şair kimi də, ictimai

fəaliyyəti ilə də Səməd Vurğunla qoşa, hətta ictimai fəaliyyətə görə Süleyman Rüstəmdən bir addım qabaqda gedirdi. Cavan bir ölkədə, bu ölkənin özünün yetişdirdiyi cavan bir şairi, quruculuq işlərinin fəal iştirakçısını aradan götürmək nəzərə çarpardı, gözə görünərdi. Əlbəttə ki, cəhdlər həmişə olurdu. Lakin Rəsul Rzanın ağlının itiliyi, fəhmi, bəzən də cəsarəti o cəhdlərə qalib gəlirdi. Sonra ikinci dünya müharibəsi də Rəsul Rza nəslinin sıralarını seyrəltdi. Rəsul Rza müharibəyə getdi, ordan da salamat qayıtdı. Bu təsadüf idi? Xeyr. Təsadüf adlı şey yoxdur. Rəsul Rza müharibədən qayıdıb cəbhədə rus dilini bilməyən azərbaycanlı balalarına Azərbaycan dilini bilməyən zabitlərin tutduğu divanı Mir Cəfər Bağırovun xahişi ilə ona danışmalı idi. «Yeldaşı» deyib kefli zabitlər adi bir şey üstündə azərbaycanlı balalarını güllələyirdilər. Allahsızlar ölkəsində bu günahsızların xilası missiyasını cənab Allah Rəsul Rzanın boynuna qoymuşdu. Çünki gördüklərini olduğu kimi danışmağa da Rəsul cəsarəti lazım idi. Rəsul Rza ömrü iyirminci əsrin siyasi fırtınalarının, gərgin, mürəkkəb konfliktlərinin içindən qızıl sap kimi keçib gedib. Yanından yox, yaxınından yox, içindən. Əgər Rəsul Rza ömrü yarıda qırılsaydı, Anar, indi sənin əsərindəki, hadisələrin bəziləri təsbeh dənəsi kimi zamanın xaosu içində itib batardı. Əgər Rəsul ömrü əvvəl qırılsaydı Xudadat bəyin sevimli qız balası Nigar xanım, qaranlıq aləmdə, fırtınalı dənizdə, tək qalardı. Yox buna cənab Allah qıymazdı. Nəhayət, Anar, özün bu əsərdə bir yazıçı «dostuna» cavab verdiyin kimi, Rəsul olmasaydı sən də olmazdın. İndi mən desəm ki, Rəsul Rzanı saxlayan, iyirminci əsrin yetmiş ilinin gərgin hadisələrini təsbeh dənəsi kimi Rəsul ömrünə düzən və bu gün, Anar, sənə onları yazdıran da cənab Allahdı, yəqin mənə gülümsünüb ağız büzənlər də tapılar. Yaxşı onda siz deyin necə olur ki, Rəsul Rzanın haqqını dananlar nəhayətdə onun haqqını verməyə məcbur olurlar. Ona şair deyil deyənlər sonra onun qarşısında baş əyib dahi şair deyirlər. Onun qayğısına qarşı nankorluq edənləri öz ilhamı qoyub qaçıb. Əsər yazmaq əvəzinə dedi-qodu ilə məşğul olur. Mən Allaha inanıram, amma mövhumatçı

deyiləm. Qurani Kərimdə Allah deyir ki, «Mən sənə çox yaxınam, ürəyinin şah damarındayam». Bəli, cənab Allah hər kəsdə var, özünü vicdan kimi göstərir, insaf kimi, qeyrət kimi, nəhayət, insanı idarə edən onun ağlı, beynidir. Deyirlər, yaxşı istifadə etsək beynimiz canımızdakı xəstəlikləri müalicə etməyə qadirdi. Əslində istifadə edirik. Bəs bu dərman-davalar beyinin məhsulu deyil? Niyə demirik ki, Rəsul Rzanı zaman adlı dəyirmanın boğazından diri çıxardan öz ağlı, öz bacarığı olub. Həyat bir döyüşdü. Döyüşdən qalib çıxan da olur. Rəsul Rza qalib çıxıb. «Mübarizə bu gün də var!»

Əsərin bir yerində onun yazılma müddəti barədə özün özünlə mübahisə edirsən. Bu yazı yadıma rəssamlıq haqqında bir rəvayəti saldı. Pərəstişkarı rəssamın bir əsərini bir milyon dollara alır. Sonra sözgəlişi soruşur:

- Bu əsəri çəkməyə nə qədar vaxt sərf etmisən?

- İki saat.

- Necə? Sən iki saatlıq zəhmətini mənə bir milyona satmısan?

Səni məhkəməyə verəcəyəm! - deyir.

- Mən bu əsəri bütün ömrüm boyu və əlavə iki saata işləmişəm - deyir.

Anar, mənə elə gəlir ki, son də rəssamın bu cavabını özün üçün təkrar etsən, tam haqlı olarsan. Keçirdiyim bir qəribə hissi də qeyd etmək istəyirəm. Bu şərəfli, gərgin bir ömrün macərasını oxuyub qurtarandan sonra özümdə gümrahlıq, nikbinlik duydum. Bu ağır əsər mənə xeyirxah bir enerji vermişdi.

Anar, əzizim, bu kitaba görə sənə sağ ol deməyə mənəvi ixtiyarım yoxdur. Amma bu ağır və ağrılı yazıdan ürəyini xilas etdiyinə görə «gözün aydın olsun» deyirəm.

Fikrət Qoca

«Elm və təhsil»
nəşriyyatının direktoru:
professor **Nadir MƏMMƏDLİ**

Çapa imzalanmış **14.01.2015.**
Şərti çap vərəqi **37.** Sifariş **№ 20.**
Kağız formatı **60x84 1/16.** Tiraj **500.**

Kitab **«Elm və təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.